AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 8

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2023

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, akademik Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2023, №8

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2023

www. filologiyameseleleri.com

DİLÇİLİK

ÜLVİYYƏ HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/ 0000-0002-9612-6702;
ulviyyehaciyeva13@mail.ru; +994 55 751 1790

QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSISƏLƏRİNİN AVROPA ALİ TƏHSİL MƏKANINA UYĞUNLAŞDIRILMASI PROSESİNDƏ TƏLİMƏ KONSEPTUAL YANAŞMANIN METODOLOJİ ƏHƏMİYYƏTİ

Xülasə

Qloballaşan dünyada Azərbaycan ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesində təlim və tədrisə konseptual yanaşma çağdaş dövrün ən vacib və aktual problemlərindən birinə çevrilmişdir. Konseptuallaşma insanın qəbul etdiyi informasiyanın dərkinə və bütünlüklə konseptual strukturun yanaşmasına səbəb olan idrak proseslərindən ən mühümüdür. Konseptual sistem və ya struktur insan ağlına verilmiş bütün konseptlərin məcmusunun cəmləşdiyi, onların nizamlanmış birləşməsinin mental səviyyəsini inikas etdirmək funksiyası daşıyır. Dünyanın inkişaf etmiş ölkələrinin hər birində ayrı-ayrılıqda konseptual təlim tətbiq edilməkdədir və bu təlim ali və tam orta məktəblərdə tələbə və şagirdlərin müstəqil fikir və düşüncə sindromuna əsaslanır, idrak priyomları ilə həyata keçirilir. Konseptlərin ideal mahiyyəti insanın idrak və şüuruna məxsusdur, insanın beynində mövcud olan konseptlər sırf əqli səciyyəlidir ki, məqalədə Azərbaycan dili və ingilis dilinin müqayisəli tipoloji təlimi prosesində bu məsələlərin reallaşdırılması yollarından danışılır.

Açar sözlər: dil və yaddaş, dil və idrak, dil və təsəvvür, dil və təfəkkür, dil və qavrayış, dil təkimində konseptual cəhət və münasibətlər.

Giriş. Fəlsəfə elmi bizə öyrədir ki, real varlığın dərk edilməsi müşahidədən başlanır, sonra müşahidələrdən əldə edilmiş material üzərində zehni iş gedir – şeylər və hadisələr arasındakı əlaqə və münasibətlər açılır, qanunauyğunluqlar müəyyən edilir, nəticələr çıxarılır və nəhayət, mücərrəd təfəkkür ədəbiyyatının bu nəticələri real həyata, praktikaya tətbiq olunub düzgünlüyü yoxlanılır. Dünya insanının savadsızlıqdan savadlılığa doğru getməsinin və eləcə də tələbə və şagirdin öyrənmənin, alimin və tədqiqatçının yeni biliklər kəşf etməsinin yolu bu meyarlarla tənzimlənir. Şagird və ya tələbə təlim prosesində biliklərindən bilikliyə doğru gedərkən müəllimin rəhbərliyi altında fakt və hadisələr haqqında çoxlu məlumat alır

və ya onları müşahidə edir; bu fakt və hadisələrlə əlaqədar olan çoxlu qayda, qanunlar, təriflər və qanunauyğunluqları öyrənir, müqayisələr, təhlillər aparır, əqli nəticələr çıxarır və deməli, şagird və ya tələbə təlim prosesində idrakın bütün həlqələrindən keçir ki, bütün bunlar konseptual münasibətlər əsasında gerçəkləşdirilir. Təlimə konseptual yanaşma qəti şəkildə müəllimdən tələb edir ki, tədris prosesində o, şagird və tələbələrə tam şəkildə müstəqillik versin, çünki, müstəqillik onlara hadisə və faktlar haqqında aydın və geniş bilikərin əldə edilməsinə şərait yaradır, onlarda təfəkkür bütün cəhətləri ilə açılır, qavrama qabiliyyətləri, yaddaş sindromları yüksək səviyyədə inkişaf etmiş olur. Son onilliklərin nəzəri dilçilik əsərlərində koqnitiv aspektdə təlimə konseptual yanaşmanın metodiki istiqamətləri haqqında müəyyən tezisvari fikirlər səsləndirmişdir. Burada əsasən R.Pavilensin, A.Verjibitskanın, D.Lixaçovun elmi-nəzəri fikirlərinə əsaslanaraq dildə və mətndə konseptuallaşmanın əsas cəhət və münasibətlərindən danışılmış, onun təlimə tətbiqi yolları qismən də olsa müəyyənləşdirilmişdir (1, 13-14). İdrak prosesinə nisbətən təlimin özünəməxsus cəhətlərinin olması nəticəsində təlim 4 ünsürdən – qavrama, anlama, möhkəmlətmə və tətbiqetmə ünsürlərindən təşəkkül tapır. Bu ünsürlərin hər biri ayrı-ayrılıqda təlimə konseptual yanaşmanın nəticəsində meydana çıxır. Bu dörd təlim ünsürü vasitəsilə tələbələrə başa salınmalıdır ki, dildə söz, bilik əldə etməkdə çox qüdrətli və möhtəşəm mənəvi sərvətdir və ümumbəşəri xalqların dillərini sözsüz təsəvvür etmək qeyri-mümkündür və söz dünyanın dərki haqqında zəngin biliklər verir, insanlar arasında ünsiyyəti təmin edir. Ümumbəşəri dildə məlumdur ki, söz yaradıcıığı həmin dillərin "leksika" bəhsində öyrənilir, o sıradan müxtəlif sistemli dillərdən olan Azərbaycan və ingilis dillərində söz yaradıcılığı prosesinin konseptual cəhətləri haqqında müəyyən dəyərli fikirlər söyləmişdir. Söz yaradıcılığı məsələsi istər Azərbaycan, istərsə də ingilis dillərinin tam orta məktəblərində tədris olunmağa başlayır və ali məktəb müəssələrinin pedaqoji universitet və kolleclərin filoloji fakültələrində genişləndirərək öyrədilir. Elmi-nəzəri mənbələrə istinadən müəllim tələbələrə izah etməlidir ki, istər ingilis, istərsə də Azərbaycan dillərində affikslər vasitəsilə yaranmış leksik vahidlər həmin dillərin lüğət fondu və lüğət tərkibinin zənginləşməsində konseptual cəhətdən əhəmiyyətli rol oynayırlar. Bu və ya digər dildə həmin leksik vahidlərin dilin müxtəlif yaruslarının – fonetikasının, leksikasının və qrammatikasınım oynadığı rolu müəyyənləşdirmək, bu və ya digər dillərə xas olan xarakterik xüsusiyyətləri meydana çıxarmaq, fikrimizcə dillərin konseptual cəhətdən tədqiqində mühüm əhəmiyyət kəsb edir və bu eyni zamanda linqvokulturoloji təhlilin də obyektinə çevrilə bilir. Bununla belə, hər iki dildə söz yaradıcılığı prosesində baş verən qrammatik və sintaktik yarusları araşdırmaq, tədqiq etmək, hər iki dil üçün xarakterik olan universal cəhətləri ortaya çıxarmaq və bir-birindən fərqli cəhətləri təyin etmək, müəyyənləşdirmək ingilis və Azərbaycan dillərini qarşılıqlı şəkildə öyrənənlər üçün böyük önəm və əhəmiyyət daşıyır. İngilis və Azərbaycan dillərində "... söz yaradıcılığı məsələsinin əsas gücü olan məhsuldarlığı ilə ölçülür. Məhsuldar sözlər

söz yaradıcıları və yaradıcı vasitələrlə ikili xarakterə malikdir: struktural və semantik cəhətlərə. Forma və məzmunun vəhdəti, bu qarşılıqlı tərəflər arasındakı struktural cəhətlərə, semantik cəhətlərin bir-birinə qarşılıqlı əlaqəsinə müəyyən linqvistik amillər təsir göstərir və həmin təsirin nəticəsi olaraq meydana çıxır. Bir çox linqvistlər cəhd etmişlər ki, forma və məzmun arasındakı münasibətlərdə məzmun anlayışına üstünlük versinlər, lakin forma ilə məzmun arasında olan əlaqə vasitəsini inkar etmək onlara müyəssər olmamışdır" (2, 21; 3, 88). L.S.Barxudarov düzgün olaraq qeyd edir ki, "Məzmunu nəzərə almamaq üçün bəzi linqvistoloqlar dəridən-qabıqdan çıxmış, nələrə əl atmamışlar, onu görməməzliyə vurmaq və ondan yaxa qurtarmaq üçün nələr edilməmişdir. Bütün bunlar əbəsdir, dilçilikdə özünü doğrultmur, çünki məzmun meduzanın başı kimi dilin nüvəsindədir, mərkəzi nöqtəsindədir. Kim onu görməzliyə vurur, deməli onu tilsimləyir" (4, 42).

Metodiki istiqamətdə söz yaradıcılığının struktural və semantik xüsusiyyətləri izah edilərkən müəllim tələbələrin diqqətini dilin kateqoriyalaşma əlamətlərinə, konseptin mental xarakterinə, onun dərketmə xüsusiyyətlərinə, söz yaradıcı leksik, sintaktik vahidlərin kateqoriyalaşma imkanlarına, başa düşülmə və qurulma prosesində biliklərin qurulma üsullarına, mexanizminə, yeni mənaların yaranma prosesinə və s. yönəltməlidir (5, 11). Söz yaradıcılığı haqqındakı təsəvvürlərlə anlayışlar arasındakı əlaqə (semantik - struktur əlaqə) həm induksiya və həm də deduksiya yolu ilə təlim prosesində, yəni ingilis və Azərbaycan dillərinin faktik nümunələri əsasında aparıla bilər. İnduktiv yolla aparılan təlimdə tələbələr söz yaradıcı vasitələrdən ümumiləşdirməyə doğru gedirlər. Deduktiv istiqamətdə isə müəllim əvvəlcə söz yaradıcılığı haqqında müvafiq linqvistik fakt və hadisələri izah edir, ona aid nümunə və misallar gətirir və hər iki üsul təlimin konseptual cəhətlərinə xidmət göstərir və tələbənin təfəkkürünün, təsəvvürünün, yaddaşının güclənməsinə, inkişafına xidmət etmiş olur. Anlama tələbənin təfəkkür, şüur, yaddaş, təsəvvür, beyin sindromları ilə tam və birbaşa bağlı olduğundan söz yaradıcılığına aid biliklər tələbələrin şüurunda dərinləşərək, dəqiqləşərək konseptuallaşır.

Müşahidələr göstərir ki, ingilis və Azərbaycan dillərində söz yaradıcı forma və mənalar özündə elə bir xüsusi cəhəti əks edirir ki, bu sözün ilkin mənası ilə, yeni yaranmış söz arasındakı semantik münasibətlərlə ölçülür. Məsələn, doctor (n) sözünün ingilis dilində yeni söz yaradılma münasibətini nəzərə alsaq, görərik ki, leksik vahidin söz yaradıcı mənası sözün ilkin semantikasından uzaqlaşa bilmir, yəni doctor (həkim (isim) – doctor (n) – həkimlik etmək (feil). İngilis dili üçün belə bir cəhət də xarakterikdir ki, söz yaradıcılığı prosesində söz yaradıcı elementlər, yaxud suffikslər, müstəqil sözlərin bir-birilə qovuşması, birləşməsi nəticəsində təzahür edir, qanunauyğun hal kimi inkişaf edərək formalaşırlar və söz yaradıcı prosesdə iştirak edən linqvistik göstəricilər kifayət qədər şəffaf mənalar daşıyırlar. Müqayisə, qarşılaşdırma, konstruktiv, tipoloji-semantik metodlarla ingilis dilindəki ön və son şəkilçilərin, suffikslərin – less, -like, -ly, -hess, -hood, -full, -mis, -un, -under və s. kimi şəkilçilərin təlim prosesində mənalarını daha yaxından diqqət yetirməli, həmin

məna postullarının söz yaradıcılığı prosesindəki rolu tələbələrə dərindən öyrədilməlidir. Söz yaradıcılığı prosesində sözün ifadə etdiyi semantika, məna problemi konseptuallığın qanı, canıdır, onun döyünən ürəyidir. Dilçilərin, psixolinqvistlərin yekdil şəkildə gəldiyi ümumiləşdirici qənaət bundan ibarətdir ki, insanların ən mühüm ünsiyyət vasitəsi olan dil, eyni zamanda təfəkkürün bilavasitə gerçəkliyidir. Dilin semantik kateqoriyalar sistemində universallıq yaradan linqvistik göstəricilərin əksəriyyəti ümumbəşəri səciyyə daşıyır, məntiqi kateqoriyalar hesab olunur, bu sırada söz yaradıcılığı problemi də özünəməxsus yerlərdən birində durur. "Varlığı ümumiləşdirici şəkildə əks etdirən sözün də kateqoriyalaşması məna məzmunun nüvəsi qnoseoloji planda formal məfhumdan başqa bir şey deyildir" (6, 117). Söz yaradıcı anlayışlarla məfhumun bir-birinə münasibəti məsələsindən bəhs edərkən S.D.Katsneson tamamilə haqlı olaraq belə bir nəticəyə gəlir ki, "söz yaradıcı formaların, eyni zamanda, ümimilkdə sözün mənası özünün konseptual məzmununda formaya uyğun gəlir. Əşyanın seçilib tanınması üçün labüd olan ən ümumi və səciyyəvi fərqləndirici əlamətlərinin minimumunu formal məfhum adlandırmaq daha məntiqli səslənir" (7, 18). Azərbaycan ali təhsil sisteminin pedaqoji universitetlərinin filoloji fakültələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesində təkcə dilçiliyə aid təlimlərdə deyil, bütün elm sahələri üzrə öyrədilən problematik mövzu və məsələlərə konseptual yanaşma zamanın tələblərindən doğur və həmin problemi daha da aktual və zəruri edir. Biz sadəcə olaraq bu məqaləmizdə dilçilik mövzularından biri olan söz yaradıcılığı təliminə dil və düşüncə, yaxud nitq və təfəkkür kimi söz və məfhumun da dialektik vəhdətdə olub bir-birilə mürəkkəb əlaqəyə girib, konseptual münasibətlər yaratması priyomlarından tezisvari bəhs etdik.

Nəticə. Azərbaycan universitetlərinin filoloji fakültələrində təlimin konseptual cəhətlərinə müəllim aktiv yanaşmalı, tələbələrin dilçiliyə aid bilik və bacarıqlarının fəal dərk edilməsinə çalışmalıdır. Bu məqsədlə o, yeni biliyi tələbələrin keçmiş olduğu biliklərlə üzvi şəkildə əlaqələndirməli, tələbələrin təfəkkürünə ardıcıl informasiyalar verməlidir. Yeni bilik və informasiyaların şərhi vaxtı tələbələrin hafizəsinə keçmiş bilikləri canlandırmaq şüurda assosasiyaların yaranmasına səbəb olur, bu isə yeni biliyin daha yaxşı mənimsənilməsi, başa düşülməsinə kömək etdiyi kimi, hafizədə və yaddaşda möhkəm qalmasına da yardım edir. Bu metodiki tərzi yalnız təlimə konseptual yanaşma yolu ilə yerinə yetirmək mümkün olur.

Ədəbiyyat

1. Ali təhsilin magistr pilləsi üçün "Koqnitiv dilçilik" fənninin proqramı. Proqramın tərtibçisi: Ə.Ə.Abdullayev, Bakı, ADU nəşriyyatı, MMC, 2011, 16 s.
2. Məmmədov S. İngilis və Azərbaycan dillərində söz yaradıcılığının nəzəri məsələləri. // "Filologiya məsələləri" jurnalı, Bakı, "Elm və təhsil", 2019, № 6, s.20-25.
3. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Azərb.SSR EA nəşriyyatı, Bakı, 1961, 138 s.

4. Бархударов Л.С. Очерки по морфологии современного английского языка. Москва, «Наука», 1985, 250 стр.
5. Баранов А.Н., Добровольский Д.О. Постулаты когнитивной семантики // Известия АН. Сер.лит. и язык. 1997, Т.6, № 1, стр.11-21.
6. Müasir Azərbaycan dili. I cild, Bakı, "Elm", 1978, 325 s.
7. Каупельсон С.Д. Содержание слова, значение, обозначение. Москва – Ленинград, 1965, 302 стр.

Методологическая значимость концептуального подхода к обучению в процессе адаптации азербайджанских вузов к европейскому пространству высшего образования в глобализированном мире

Резюме

В глобализированном мире, в процессе интеграции азербайджанских высших учебных заведений в европейское пространство высшего образования концептуальный подход к обучению и воспитанию стал одной из важнейших и актуальных проблем современности. Концептуализация является важнейшим из познавательных процессов, ведущих к осмыслению получаемой человеком информации и подходу к понятийной структуре в целом. Понятийная система или структура имеет функцию визуализации на ментальном уровне совокупности всех данных человеческому разуму понятий, их упорядоченного сочетания. В каждой из развитых стран мира концептуальное обучение применяется отдельно, и это обучение основано на самостоятельном мышлении и синдроме мышления студентов и учащихся высшей и средней школы, осуществляется на когнитивных принципах. Идеальная сущность понятий принадлежит человеческому познанию и сознанию, существующие в человеческом мозгу понятия носят чисто ментальный характер, поэтому в статье говорится о путях реализации этих вопросов в процессе сравнительно-типологического обучения азербайджанскому языку и английскому языку. язык.

Ключевые слова: язык и память, язык и познание, язык и воображение, язык и мышление, язык и восприятие, понятийные аспекты и отношения в языковом развитии.

The methodological importance of the conceptual approach to training in the process of adapting Azerbaijani higher education institutions to the European higher education space in the globalized world

Summary

In the globalized world, in the process of integration of Azerbaijani higher education institutions into the European higher education space, the conceptual approach to training and education has become one of the most important and urgent problems of the modern era. Conceptualization is the most important of the cognitive

processes that lead to the understanding of information received by a person and the approach of concepts to the conceptual structure as a whole. Conceptual system or structure has the function of visualizing the mental level of the set of all concepts given to the human mind, their ordered combination. In each of the developed countries of the world, conceptual training is applied separately, and this training is based on the independent thoughts and thinking syndrome of students and pupils in higher and secondary schools, and is carried out with cognitive principles. The ideal essence of the concepts belongs to the human cognition and consciousness, the concepts existing in the human brain are purely mental, so the article talks about the ways of realizing these issues in the process of comparative typological training of the Azerbaijani language and the English language.

Keywords: language and memory, language and cognition, language and imagination, language and thinking, language and perception, conceptual aspects and relations in language development.

Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir.
Qrant № AEF-MCG-2022-1(42)-12/12/5-M-12

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Xarici Dillər Mərkəzinin dosenti,
filologiya üzrə fəlsəfə doktoru Faidə Davud qızı İsayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA SVETLANA NƏSİB QIZI
svetlanamammedova72@gmail.com
Azərbaycan Dövlət Pedoqoji Universitetinin
Xarici Dillər Mərkəzinin dosenti,filologiya üzrə fəlsəfə doktoru

THE MAIN DIFFERENTIAL FEATURES OF PHRASEOLOGICAL UNITS.

Xülasə

Frazeoloji vahidlərin tədqiqində struktur-semantik cəhət əsas götürülürsə, frazeolojiliyin əsas əlaməti söz birləşmələrinin sözlərinin mənasından, onların tərkib hissələrindən, idiomatiklik adlandırılan meyarın həlledici olmasıdır. Bu nəzər nöqtəsi ənənəvidir. Bunun tərəfdarı olan B.A.Larin hesab edir ki, frazeologiyanın tədqiqat obyekti «semantik təzələşmə» ilə səciyyələnən söz birləşmələri olmalıdır. B.A.Larin onları idiomlarda və metaforik birləşmələrdə müəyyən edir. Həqiqətən də, idiomatiklik meyarı frazeoloji vahidlərin təsnifatında həlledici rol oynayır. Lakin dilin frazeoloji və qeyri-frazeoloji təzahürləri arasında daha aydın sərhəd qurmağa çalışan B.A.Larin frazeoloji və sabit birləşmələr arasında fərq görmür və hesab edir ki, bütün sonuncular yalnız frazeoloji vahidlər ola bilər, qeyri-frazeoloji birləşmələr isə yalnız sərbəst, «dəyişkən» ola bilər. Bununla o, sabit söz birləşmələrinin bütün idiomlar və metaforik söz birləşmələri kimi izah etmişdir. Nəticədə, adi söz birləşmələrindən frazeoloji vahidlərə keçməkdə olan söz birləşmələri, yəni hələ də frazeologizm olmayan söz birləşmələri, onun tədqiqat dairəsindən kənarda qalır. İdiomatiklik məfhumu altında yalnız tam mənanın onun hissələrinin mənasından çıxarılması deyil, həmçinin əlavə məna kəsb etmə başa düşülür.

Açar sözlər: Frazeoloji birləşmələr, təzahürlər, dəyişən, yeniləyici, semantik, deyimlər, metaforik.

Summary

If the structural-semantic aspect is the main factor in the study of phraseological units, the main feature of phraseology is the meaning of words of phrases, their components, the criterion called idiomaticity. This point of view is traditional. Who is in favor of it B.A. Larin believes that the research object of phraseology is semantic. There should be word combinations characterized by "refreshing". BA Larin defines them in idioms and metaphorical combinations. Indeed, the criterion of idiomaticity plays a decisive role in the classification of phraseological units. However, B.A. Larin, who tried to establish a clearer boundary between phraseological and non-phraseological manifestations of the language, distinguished between phraseological and fixed combinations does not see and

believes that all the latter are only phraseological units can, and non-phraseological combinations can only be free, "variable".

By this, he explained fixed word combinations as all idioms and metaphorical word combinations. As a result, phraseological from ordinary word combinations phrases that are passing into units, that is, still phraseologism non-existent word combinations are outside the scope of his research. Under the concept of idiomaticity, only its parts of the complete meaning. It is understood not to remove meaning, but also to acquire additional meaning.
Key words**:** Phraselogical combinations, manifestations, variable, refreshing, semantic, idioms, metaphorical.

Резюме

Если структурно-семантический аспект является основным фактором изучения фразеологизмов, то основным признаком фразеологии является значение слов словосочетаний, их компонентов, критерий, называемый идиоматичностью. имеет решающее значение. Эта точка зрения является традиционной. Кто за это Б. А. Ларин считает, что объектом исследования фразеологии являются «семантические должны быть словосочетания, характеризующиеся словом «освежающий». Б.А. Ларин определяет в идиомах и метафорических сочетаниях. Действительно, критерий идиоматичности играет решающую роль в классификации фразеологизмов. Однако Б. А. Ларин, пытавшийся установить более четкую границу между фразеологическими и нефразеологическими проявлениями языка, различал фразеологические и устойчивые сочетания. не видит и считает, что все последние лишь фразеологизмы может, а нефразеологические сочетания могут быть только свободными, «переменными». Этим он объяснял фиксированные словосочетания как все идиомы и метафорические словосочетания. В результате фразеологизмы из обычных словосочетаний словосочетания, переходящие в единицы, то есть еще фразеологизмы несуществующие словосочетания выходят за рамки его исследования. Под понятием идиоматичности понимаются только его части полного значения. Подразумевается не удаление смысла, а приобретение дополнительного смысла.
Ключевые слова: Фразеологические сочетания, проявления, переменные, освежающие, семантические, идиомы, метафорические.

The importance of separating phraseology as an independent discipline is currently one .It is accepted by many linguists, but some issues of phraseology are still this not yet determined. Phraseology of word combinations called idioms object is generally accepted. However, recently the scope of phraseology is increasing, the

main problems of phraseology are not only the whole of words fixed phrases, as well as phrases that are often used in the language and finally it contains all possible combinations of words with independent meaning (O.S. Akhmanova). Even the word "idiom" itself is ambiguous, and recently all fixed combinations (L.A. Bulakhovskiy) and the word used in conversation started to call their combinations idioms (Y.R. Gepner). This is primarily explained by the fact that the main feature of phraseological units as such features appear that are only for phraseological units typical the study of phraseological units directly by the study of words and word combinations is connected. There is a common sign between a phraseological unit and a word. Phraseological unit its main feature is the completeness of its meaning as a word. That is, the meaning of the phraseological unit not the meaning of its individual components. Whether the lexical composition or Phraseological units those are stable according to their lexical structure are ready in the language as words is in the picture. According to this feature, phraseological units are classified by parts of speech.

What brings phraseological units closer to words is their meaning and function as grammatical categories. Hence the lexical phraseological unit with the word it appears that it has a common feature such as meaning and grammatical category. These two features make up the content of the phraseological unit. Hence, phraseology the meaning and grammatical function of a single word are close, but the word is not the same. So that the same meaning, the same concept can be given both through a word and a phraseological unit. But the emotionality and expressiveness of the meaning given by the phraseological unit is prominent, for example: in Azerbaijani:

Sünbülündən su daman – təmizkar; aydan arı sudan duru – təmiz, pak.

In Russian: obvesti vokruq palğüa – obmanutğ; Poloja ruku na serdüe – otkrovenno, çistoserdeçno İz ruk von – ploxo.

In English: a feather in one’s cap (or bonnet) – achievement, success; a break in the clouds – hope

Phraseology in the works of academician V. V. Vinogradov on phraseology the structural feature of the language as the basis for determining the units - stability, word in speech. It is shown that the combinations are expressed as ready-made units and phraseology perfect description of the main features of the units is provided. The concept of phraseology under V.V. Vinogradov lexical-semantic stability of word combinations associated with development. V.V. Vinogradov's works in the field of phraseology a major role in further research and the development of the theoretical foundations of phraseology played. But V. V. Vinogradov's views are stable and free word combinations is not enough for clear separation. In general, a single stability, V. V. Viongradov in his opinion, it cannot be a criterion for determining the volume of phraseology. Ago Additional stability may vary. Stability

is usually also for common word combination is also characteristic ("drinking tea"). Stability is necessary for a phraseological unit, but only the presence of this stability of word combinations characterized by stability it is not enough to be attributed to phraseologisms. In the latest researches related to phraseology, phraseological stability is clarified, additional symptoms are shown. S.I. Ojegov believes that phraseological phrases the main criterion that distinguishes it from non-phraseological word combinations is the completeness of the meaning. O.S. Akhmanova also others to this idea that phraseological units from ordinary word combinations the main feature in its differentiation is the “semantic monolith” characteristic of phraseological units, "completeness of nomination" .

A.I. According to Smirnitsky, the idiomaticity of phraseological units is semantic it consists of completeness, equivalence to words. Different scholars of idiomatics since it is described in a different way by whether to include these or other fixed combinations in the phraseology discussions and debates are still ongoing. In this case the solution to the problem is to approach the phraseological unit from one or another point of view. Linguists, proverbs and proverbs who see stability as the main criterion of phraseology considers all types of fixed combinations as a phraseological unit, including (V.L. Arkhangelsky, N.M. Shansky). Which treats phraseological units as descriptive synonyms linguists do not attribute constituent terms and auxiliary words to phraseology. But one in many researchers, it is usually not observed that the criterion taken as a basis is consistently applied, not always that this or that general statement is a fixed word of all kinds. does not apply to combinations, for some of them the author's phraseologism Exceptions are made depending on whether or not to name. So that, L. Arkhangelsky, considering fixed word combinations as a phraseological unit, them it removes from the list of fixed combinations that act as a connector, apron, habit and considers it a complex word. Also N.M. Shansky, who is a supporter of the stability criterion Removes fixed combinations from the list of phraseological units, only in their composition includes monosyllabic words In the grammatical plan, fixed word combinations and free word combinations, including subordination, with predicative word combinations, with sentences, with independent meaning and It is interesting to compare them with the corresponding forms of auxiliary words. This kind of comparison reason to argue that between fixed word combinations activity in modern language All types of phrases that show are active. Some grammatically fixed word it is possible to note the widespread distribution of compounds. So the fixed noun word most adjective +noun word combinations among combinations, among verb combinations and a noun with or without a verb predominates. However, the use of the indicated word combinations is the widespread distribution of this type of word combinations in general speech is explained by. In the syntactic approach, fixed conjunctions serve both the purpose of expression and distribution, complexity, showing subjective relationships, etc. the most common can describe sentence types.

Syntax that distinguishes fixed phrases from free phrases as features, usually primarily words in fixed phrases is the reduction of syntactic relations between, secondly, stable word combinations syntactic indivisibility, that is, they act only as a part of speech. However, one as a rule, syntactic relations between words in fixed phrases it is no different from the relationship between words in free phrases. The whole point of the work is probably not in the weakening of syntactic relations, but in the change of syntactic functions resulting from the semantic renewal of the word combination. So a fixed word that retains that syntactic function as free combinations preserve the character and appearance of syntactic relations between words. Thus, fixed combinations do not have specific features from a grammatical point of view. To the semantic relations of fixed and free word combinations let's pay attention. The semantics of free conjunctions is that the conjunctions meaning is always based on their component meanings. Fixed word some of the combinations have just such a semantic essence, i.e. their meaning arises from the words that make them up, for example, in relation to phraseological meanings statements. Some fixed word combinations can be considered special combinations, such as their semantics is not based on the meaning of the words they are composed of. These fixed conjunctions have a definite and fixed meaning in the language. Exclude a number of exceptions provided that they consist of words used in the modern language and the usual of those words are used side by side with combinations. That is why they are lexically indivisible word can be called a combination.

As we know, the source role for English proverbs and proverbs One of the means of playing is their borrowing from other languages. Studies shows that most of the borrowed proverbs and proverbs are Latin and French taken from their languages. In addition, in English, Greek, Spanish, Italian and proverbs and proverbs from other languages can also be found. These fathers words in English either as they are or in accordance with the customs of the people used with certain modifications. Proverbs and proverbs of Latin origin many probably through prominent figures (Horace, Cicero, etc.). is spread. Whether proverbs and proverbs are borrowed from other languages you need to be careful. Because the same meaning and expression in different languages None, except for the existence of proverbs and proverbs that have the style may not be related. This is the social and political life of the peoples who speak these languages

with the common aspects of its style, traditions, elements of folk wisdom can be explained. Sometimes it is difficult to determine exactly which language the acquisition is in doesn't happen.How phraseological units if it is called, let it be called, as Russian and Azerbaijani linguists say, "fixed word combinations", or "idioms" as English and American linguists say it forms the richest and most emotional lexical fund of the English language. So figurative, laconic, effective expressions used in the language for the research object of compounds - wise words, phrases, proverbs, proverbs, idiomatic expressions, phraseology includes all types of

fixed conjunctions such as verbs. A stable word in modern English combinations form the extremely rich artistic image fund of the language. Modern The widespread use of fixed combinations in English has led linguists to this field have increased their interests, and in recent times, English-American linguists themselves have also they started researching the field. But English and American linguists are theoretical in this field not from a technical point of view, but from a practical point of view. That's why it's over various phraseological dictionaries in times: Oxford phraseological dictionaries, S. M. Dixon "English Idioms", Shyells "Edioms Dictonary", "American Idioms Dictonary" (by Richard Spears), F. Freman "Concise English Dictonary", etc. idioms dictionaries have been compiled. According to their semantic structure and field of processing The issue of division is not in separate theoretical articles and scientific books, but the same it is also reflected in dictionaries. There are such phraseological units in the English language that they have their own from the point of view of extralinguistic presentation, that is, taking into account historical realities and concepts they cannot be translated without In such cases, descriptive translation is considered more appropriate.

Reference list

1.Abdulkasimova T.N. Intonational - semantic analysis of exclamatory speech units in English and Uzbek languages. Candidate's dissertation. Moscow, 1969.
2. Barkhudarov L.S. The structure of a simple sentence of the modern English language. Moscow, "High School", 1969.
3. Vinogradov V. Basic questions of sentence syntax //Questions of grammatical structure. SSSR. M., 1955.
4. Rahimov I., Hidayatzade T. Practical English grammar. Baku, 1996.
5. Valiyev S. Simple sentences in Turkish languages. Baku, "Elm", 2005.
6. Ilyish B.A. The structure of Modern English. Leningrad, 1971.
7. Smirnitsky N.I. Syntax of the English language. Moscow, 1957.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: professor Nadir Məmmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

ELMİRA NADİR QIZI ƏSGƏROVA
Azərbaycan Dillər Universiteti
BAKI ŞƏHƏRİ, R.BEHBUDOV KÜÇ., 134.

MÜASİR İNGİLİS DİLİNDƏ BAĞLAYICI FEİLLƏR

Xülasə:

Müasir ingilis dilində feilin müxtəlif növləri var. Onlardan biri də bağlayıcı feillər hesab olunur. Bağlayıcı feillər dildə müəyyən qrupu təşkil edir.

Bağlayıcı feillərin statusu və feil sistemindəki yeri ilə bağlı alimlərin fikirləri müxtəlifdir. Bağlayıcı feillər subyekt və predikat arasında məntiqi əlaqəni ifadə edən xüsusi hiccəciklər kateqoriyasına daxil edilir. Bağlayıcı feillərin əsas kökü to be - olmaq feilidir. Bağlayıcı feili akademik L.V.Şerba feili bağlama hesab edirdi. Bu bağlama feil formalarına malik olsa da, lakin feil deyil. Hərəkət ifadə etmək bu bağlayıcıya yad olduğu halda, ingilis dilindəki bütün digər bağlayıcı feillər (to become, to do və s.) feil və bağlayıcı funksiyalarını birləşdirən hibrid söz növüdür. İngilis dilinin qrammatikasının banisi hesab edilən Q.Svift bağlayıcı feilləri semantik xüsusiyyət əsasında nəzərdən keçirir. Onun fikrincə, öz mənasından tamamilə uzaqlaşan "to be" feili sırf bağlayıcı kimi çıxış edir. O, yalnız subyekt və predikat arasında əlaqə yaradan qrammatik funksiyanı yerinə yetirir. Bağlayıcı funksiyası ilə yanaşı, özünəməxsus müstəqil və qrammatik mənaya malik olan to become, to seem, to remain feilləri ilə də əlaqə yarada bilir. Bununla yanaşı, bir qrup yarıbağlayıcı feillərə də rast gəlir ki, onlar bəzən bağlayıcı feil kimi də işlənə bilir.

Açar sözlər: *nitq hissələri, bağlayıcı feil, əsas feil, qrammatika, funksiya, morfologiya, əlaqə*

Müasir ingilis dilində bağlayıcı feillərə keçməmişdən öncə feillər haqqında qısaca məlumat vermək istərdik. Bu haqda ətraflı məlumata həm yerli dilçilərin, həm da xarici dilçilərin əsərlərdə rast gəlmək olar. Belə dilçilərdən O. Musayev, D.Biber, S.Johansson, G.Leech və başqalarının adlarını çəkmək olar. Tədqiqat zamanı məlum olur ki, əsas feillər kimi, bağlayıcı feillər də müəyyən mənada oxşar xüsusiyyətlərə malikdir.

Dilçilik elminin ən böyük və geniş bölməsi qrammatikadır. Qrammatika özü də iki hissədən ibarətdir: 1.Morfologiya 2.Sintaksis. Morfologiya yunanca morfos (forma) və loqos (elm) sözlərindən yaranıb. Morfologiya nitq hissələrindən, sözlərin tərkibindən və dəyişmə qaydalarından bəhs edir. Sintaksis də yunan sözü olub tərtib deməkdir.

Dilimizin lüğət tərkibində olan sözlərin hamısı müəyyən qrammatik mənaya malik olur. Bu baxımdan ayrı-ayrı nitq hissələri kimi qruplaşır. Sözün hansı nitq hissəsinə aid olması onun hansı suala cavab verməsindən, əşya, yoxsa hərəkətlə bağlı olmasından və s. asılıdır. Nitq hissələri bir-birindən leksik-qrammatik mənalarına

görə fərqlənir. Müasir ingilis dilində mövcud olan nitq hissələrindən biri feildir. Feil mürəkkəb xüsusiyyətlərə malik olan nitq hissəsidir. O, malik olduğu qrammatik mənalar və həmin mənalar zəminində mövcud olan qrammatik kateqoriyalar baxımından digər nitq hissələrindən fərqlənir. Müasir ingilis dilində feil şəxs, kəmiyyət, zaman, növ, tərz və forma (şəkil) kateqoriyalarına malikdir. Həmin kateqoriyalar bir halda sintetik üsulla, yəni şəkilçilər vasitəsilə, digər halda isə analitik üsulla, yəni köməkçi sözlər vasitəsilə ifadə olunur [1, s. 90].

Müasir ingilis dilində feillərin bir neçə növü mövcuddur:

- feilin quruluşuna görə növləri;
- feilin keçmiş zaman və gələcək zaman feili sifət formasının düzəldilməsinə görə növləri;
- feilin sintaktik rolu və leksik mənasına görə növləri;
- feilin obyektə olan münasibətinə görə növləri;
- feilin tərz mənasına görə növləri;
- feilin şəxs kateqoriyasına görə növləri.

Feilin sintaktik rolu və leksik mənasına görə növləri də özlüyündə 4 yerə bölünür: əsas, köməkçi, bağlayıcı və modal feillər [1, s. 105].

Elmi - tədqiqat işimizin mövzusu bağlayıcı feillər olduğundan bu bölmənun üzərində xüsusi ilə dayanacayıq.

Müasir ingilis dilində bağlayıcı feillər, link-verb / linking verb / copulative verb / copula (lat. copular – bağlamaq, əlaqələndirmək) - bağ funksiyasını yerinə yetirən, nominal predikat əmələ gətirən feildir.

Bağlayıcı feil müəyyən bir təzahürdə iki obyekti müəyyən əsaslarla müqayisə edir və ya başqa sözlə, əlaqələndirici feil vəziyyətin necə reallaşdığını göstərir: Məsələn,

Dogs <u>are</u> canines. – İtlər məməlilər ailəsinin bir hissəsidir.

She <u>became</u> a good teacher. – O, yaxşı müəllim oldu.

It <u>sounds</u> terrible. – Dəhşətli səslənir [12].

Çox vaxt aşağıdakı feillər bağlayıcı rolunu oynayır: *<u>be</u> (olmaq), become (olmaq), seem (görünmək), look (görünmək), feel (hiss etmək), sound (səslənmək), taste (dadmaq), smell (qoxumaq, iy vermək) və s*.

Nəzərə almaq lazımdır ki, bağlayıcı feil həmişə adları birləşdirir. Azərbaycan dilinə zərf kimi tərcümə olunur. Məsələn:

<u>It</u> sounds <u>funny</u>.

Bağlayıcı feillər cümlədə hərəkətin vəziyyətini bildirir və eyni zamanda əsas feil funksiyasını da ehtiva edir.

She looked angry. – O, qəzəbli görünürdü. (*look - görümnək* bağlayıcı feili hərəkəti adlandırır, *angry - qəzəbli* sözü burada sifətdir).

She looked angrily. – O, qəzəblə baxdı. Bu cümlədə isə (*look - baxmaq* əsas feili hərəkəti bildirir, *angrily - qəzəblə* sözü isə zərfdir) [12].

Bağlayıcı feilləri xarakteizə edən bəzi cəhətlər var. Onlardan ən əsası odur ki, onlar (bağlayıcı feillər) əsas feil kimi də işlənə bilir [6, s. 131]. Nümunələrə baxaq:

To look feili – *baxmaq* mənasında:

The little girl *looked* at her mother carefully. – Balaca qız diqqətlə anasına *baxdı.*

To turn feili- *çevirmək, dönmək* mənasında:

The man *turned* his head and left them. – Kişi başını çevirdi və onları tərk etdi.

To get feili – *almaq* mənasında:

Did you *get* a letter from him yesterday? – Sən dünən ondan məktub aldın?

Bu nümunələrdə işlədilən *to look, to turn, to get* feilləri müstəqil olaraq xəbər funksiyası daşıyır və ona görə də onlar əsas feil hesab edilir.

O.Musayev yazır ki, to be feili də cümlədə əsas feil kimi işlədilə bilər [1, s. 131]. Məsələn:

There *is* a woman in the street. – Küçədə bir qadın var.

Were there many soldiers in the battle? – Döyüşdə çox əsgər var idi?

Bəzi qrammatika kitablarında "bağlayıcı feil" termini yalnız *to be* feili ilə bağlı işlədilir və bağ (əlaqə) funksiyasını yerinə yetirə bilən digər feillər, yarımbağlayıcı və ya psevdobağlayıcı feillər (semi-copulas, psevdo-copulas) kimi fərqləndirilir [10, 3. 11].

Bağlayıcı feillər iki qrupa bölünür: cari bağlayıcı feillər *(current linking verbs)* və nəticə bildirən bağlayıcı (əlaqələndirici) feillər *(resulting linking verbs) [12].*

Current linking verbs	*Resulting linking verbs*
appear *be* *feel* *lie* *look* *remain* *seem* *smell* *sound* *stay* *taste*	*become* *get* *grow* *fall* *prove* *run* *turn*

Feillərin müxtəlif növləri var: hərəkət bildirən feillər, bağıayıcı, əlaqələndirici, köməkçi, təsirli, təsirsiz feillər və s. Bu gün qrammatikada bağlayıcı feillər cümlənin ortasına qoyulmuş böyük bərabər işarələri kimi düşünülə bilər. Məsələn, *Ralph's uncle is a cannibal with a taste for finger food. - Ralfın dayısı barmaqlarını yeyə biləcək qədər adamyeyəndir*

Bu cümləni aşağıdakı kimi də təqdim etmək olar.

Ralph's uncle = a cannibal with a taste for finger food.

Və yaxud daha qısa formada

Ralph's uncle = a cannibal

Cəbri tənlikdə olduğu kimi, bu cümlədə də *is* sözü iki anlayışı və onların oxşarlığını bildirir. Buna görə də *is* burada bağlayıcı feildir. Aşağıda digər nümunələrə diqqət yetirək.

Lulu will be angry when she hears about the missing bronze tooth.

Lulu tunc dişin itirildiyini eşidəndə qəzəblənəcək.

Lulu = angry (burada will be - bağlayıcı feildir).

Stan was the last surfer to leave the water when the tidal wave approached.

Sten gelgit dalğası yaxınlaşdıqda suyu tərk edən sonuncu sörfçü idi.

Stan = last surfer (burada was - bağlayıcı feildir).

Edgar has been depressed ever since the fall of the House of Usher.

Edqar Uşerin evinin dağılmasından bəri depressiyaya düşmüşdü.

Edgar = depressed (burada has been - bağlayıcı feildir) [5, s. 135].

Əvvəlki bölmədə qeyd olunduğu kimi, *to be* feili əlaqələndirici feillərdəndir və buna görə də fərqli adlanır – yəni, mövcud feillər.

Bağlayıcı feilləri təsnif edilərkən üç əsas xüsusiyyət nəzərə alınır. Bu zaman sözün müstəqil mənası, morfoloji əlaməti və sintaktik rolu diqqət mərkəzində tutulur.

Aşağıda qeyd olunmuş feillər dildə ən çox işlənən bağlayıcı feillərdir.

Act: *He acted ill. – O özünü xəstə kimi göstərdi.*

Appear: *She appears satisfied, but really is not. – O, məmnun görünür (özünü aparır), amma əslində deyil.*

Be: *Sorcerer is immune to the laws of physics. – Sehrbaz fizika qanunlarına tabe deyil.*

Become: *It became cold. – Soyuq oldu.*

Bleed: *We all bleed red. – Biz hamımız sağıq*; *She bleeds blue. – O aristokratdır. / nəcib nəsildəndir (qandandır).*

Burn: *She burned bright. – O alışıb yanırdı.*

Come: *The knot has come undone. – Düyün açıldı*

Die: *He died poor. – O yoxsulluq içində öldü.*

End up: "I ended up broke." – *Mən sonda iflas etdim.*

Get: *She got angry. – O qəzəbləndi.*

Glow: *The ingot glowed orange. – Külçə köz kimi qızardı.*

Go: *The man went crazy. – Bu adam dəli olub.*

Grow: *She grew insistent. – O inadkar idi.*

Fade: *It has faded gray. – Rəngi sonğunlaşıb.*

Fall: *She fell ill with the flu. – O qripə tutulub.*

H.Sweet ingilis dilində bağlayıcı feilləri iki əsas qrupa - dəyişə bilən və dəyişə bilməyən, yaxud dəyişməyən qruplarına bölür. O, ikinci qrupa zərf, sözönü, bağlayıcı və nidaları daxil edir [23, s.15].

Müasir ingilis dilində bağlayıcı feillər birmənalı olaraq qəbul edilir. Hətta 1927-ci ildə L. V. Şerba "Rus dilində nitq hissələri haqqında" əsərində ilk dəfə bağlayıcı feilləri ayrıca nitq hissəsi kimi götürür. O, bağlayıcı feillərin əsas xüsusiyyətlərindən biri kimi, onların subyektlə predikat arasında məntiqi əlaqənin yaratmasını göstərir.

Müasir ingilis dilində bağlayıcı feillərə xas olan xüsisiyyətlərdən biri də mətnyaradıcı xüsisiyyətidir [7, s. 24]. Bağlayıcı feillər mübtədanı xəbər ilə və ya xəbərin bir hissəsi ilə bağlayır. İstər adi, istərsə də bağlayıcı feillərdə hərəkət vardır, lakın onların bəzilərində iş və hərəkət, digərində isə təfəkkür, hal-vəziyyət və s. daha qabarıq şəkildə özünü göstərir. Bağlayıcı feillər əsasən üç qrupa bölünür:

1.hal-vəziyyətlə bağlı bağlayıcı feillər – to be, to prove, to remain, to stay, to keep, to stand və s.

2. təfəkkürlə bağlı bağlayıcı feillər - to seem, to appear, to feel, to look, to sound, to smell, to taste və s.

3. vəziyyəti dəyişən bağlayıcı feilər – to become, to get, to go, to turn, to grow, to come, to fall, to run və s.

Hal- vəziyyətlə bağlı bağlayıcı feillər.

Cisimlərin və insanların varlığını və ya vəziyyətini bildirən, həmçinin onların xarakterik xüsusiyyətlərini təsvir etməyə kömək edən feillərdən başlayaq. Belə feillərə daxildir: *to be, to prove, to remain, to stay, to keep, to stand.*

To be feili mühüm əlaqələndirici funksiyanı yerinə yetirir. Məsələn, aşağıdakı cümlələrə diqqət yetirək.

*Thanks for recommending that ointment: my back **is** a lot better now.* — O məlhəmi tövsiyə etdiyiniz üçün təşəkkür edirəm, belim daha yaxşıdır.

*He **was** my best friend until I moved to another town.* — Başqa şəhərə köçənə qədər o mənim ən yaxşı dostum idi.

I'll be 25 when I graduate from my medical school. — Tibb fakültəsini bitirəndə 25 yaşım olacaq.

To prove - *sübut etmək* bağlayıcı feili *"olmaq", "görünmək"* kimi də tərcümə olunur. Bir müddət sonra bir şey haqqında öyrəndiyimiz zaman istifadə olunur. Çox vaxt *to prove* feili *to be* feili ilə birlikdə işlənir. Məsələn:

*The series **proved** (to be) a huge success.* — Serial inanılmaz uğur qazandı.

*His accusations **proved** (to be) groundless.* — Onun ittihamlarının əsassız olduğu üzə çıxıb.

To stay, to remain, to keep, to stand, to continue bağlayıcı feilləri *olmaq, qalmaq* kimi tərcümə oluna bilər, lakin onların arasında bir neçə fərq var.

She continued dull. – O, kədərli qaldı.

To stay və *to remain* həm sifət, həm də isimlə işlənir. İşgüzar ünsiyyətdə isə *to remain* bağlayıcı feilindən istifadə daha çox üstünlük təşkil edir.

*It **remains** unclear to me what the system's potential drawbacks are.* — Sistemin potensial çatışmazlıqlarının nədən ibarət olduğu mənə aydın olmadı.

*Is it possible to **stay** close friends after a betrayal?* — Xəyanətdən sonra yaxın dost olaraq qalmaq mümkündürmü?

Bağlayıcı feillərin növbəti qrupu ətrafımızdakı dünyanı necə qəbul etdiyimizi ifadə etməyə kömək edir. *To seem, to appear, to feel, to look, to sound, to smell, to taste* kimi istifadə xüsusiyyətlərini araşdıraq [27].

To seem, to appear - hər iki feil *zühur etmək, təəssürat yaratmaq* mənasını verir, lakin üslub və qrammatik cəhətdən fərqlənir. Biz subyektiv nöqteyi-nəzəri ifadə edərkən *to seem* bağlayıcı feilindən istifadə edirik. *To appear* bağlayıcı feili isə şəxsi fikri ifadə etmir. *To appear* bağlayıcı feilinə daha çox ədəbiyyatda rast gəlinir.

Vəziyyəti dəyişən bağlayıcı feilər

To become, to get, to go, to turn, to grow, to come, to fall, to run – bağlayıcı feilləri *olmaq* mənasını verir. Kontekstdən və başqa sözlərlə birləşməsindən asılı olaraq, onlar müxtəlif yollarla tərcümə oluna bilər.

To become - *olmaq* bağlayıcı feili isim və sifətlə (o cümlədən müqayisə dərəcəsində) işlənir. Məsələn:

*I **become** tired at work a lot more quickly when it's cloudy and rainy outside.* — Çöldə buludlu və yağışlı olanda işdə daha tez yoruluram.

*It's **become** more difficult to manage my time, but I'm working on it.* — Vaxtı səmərəli şəkildə ayırmaq mənim üçün çətinləşdi, amma bunun üzərində işləyirəm.

To get – bağlayıcı feilindən daha çox danışıq nitqində istifadə olunur, nəinki to become bağlayıcı feilindən. *To get* bağlayıcı feilindən sonra ya sifət, ya da məsdər işlənir. Məsələn:

He got to like his job a lot better after a couple of months. – O, bir neçə aydan sonra işi daha çox bəyənməyə başladı.

Bütün digər vəziyyət dəyişmə feillərindən fərqli olaraq, əgər yaş və ya zamandan danışırıqsa, *to turn* bağlayıcı feilindən sonra say gələ bilər.

My mother turned eighty yesterday and finally decided to retire. — Dünən anamın səksən yaşı tamam oldu və nəhayət təqaüdə çıxmaq qərarına gəldi.

Əgər *to turn* bağlayıcı feili *"olmaq", "dönmək"* mənasında işlənirsə, ondan sonra *into* sözönü işlənir. Peşə, dini və ya siyasi inanclardan danışarkən sözönü və artikl işlədilmir. Məsələn:

I couldn't believe that my husband had turned into a real monster. - "Mən ərimin əsl canavara çevrildiyinə inana bilmirdim.

Bill had been an office worker for about twenty years before he turned composer. - Bill bəstəkar olmamışdan əvvəl iyirmi ilə yaxın bir ofisdə işləmişdir.

To grow - *böyümək* bağlayıcı feili dəyişikliyin yavaş baş verdiyini göstərir. Bu ifadə köhnəldiyindən nitqdə az istifadə olunur. Daha çox bədii ədəbiyyatda bu ifadəyə rast gəlinir.

Bu bağlayıcı feil həm sifətlərlə (o cümlədən, müqayisəli dərəcədə olan sifətlərlə), həm də məsdərlərlə bir şeyə münasibətin dəyişməsi zamanı istifadə olunur.

ƏDƏBİYYAT

1. Musayev, O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət nəşriyyatı, 2007, 608 s.
2. Musayev, O.İ. İngilis və Azərbaycan dili cümlələrində sözlərin sırası. Bakı: Azərtədrisnəşr, 1960, 81 s.
3. Бармина, Л.М. Грамматика английского языка. Москва Высшая школа 1993, 198 с.
4. Вострикова, Л.И. Теоретическая грамматика английского языка. Москва: Высшая школа 1983, 156 с.
5. Каушанская, В.Л., Ковнер Р.Л., Кожевникова О.Н. и др. Грамматика английского языка (на англ. языке). Л.: Просвещение, 1973, 319 с.
6. Кобрина, Н.А., Болдырев Н.Н., Худяков А.А. Теоретическая грамматика современного английского языка. М.: Прогресс, 2007, 368 с.
7. Gardiner, A.H. The Theory of Speech and Language. Oxford: Oxford University Press, 1932, 392 p.
Yuxarıda da qeyd etmişdik ki, ayrı-ayrı sahələrdə bədən dili çox əhəmiyyətli roy oynayır, və belə sahələrdən biri, bəklə də birincisi siyasətdir. Məhz bu səbəbdən siyasətçilərin, xüsusilə də dövlət başçılarının "bədən dilinin" öyrənilməsi movzusunda çoxlu sayda məqalələr, elmi işlər yazılır: M.Rominiekka "Siyasətdə qeyri-verbal işarələr: amerika və avropa siyasətçiləri tərəfindən göndərilən siqnalların (jestlərin) təhlili" [15], T.S.Dolotova "Siyasi bədən hərəkətlərinin dili (jestlər və toxunuşların mənası" [16], V.Tsenyev "Siyasi bədən hərəkətlərinin dili: bakalavrlar üçün dərslik" [17] əsərlərində və başqaları bu mövzunu təhlil ediblər. Bəzi tədqiqatçılar mövzunun əsasına hansısa bir dövlət başçısının və ya müəyyən dövlətin siyasətçilərinin "bədən dilinin" təhlilini (V.Tsenyev, P.Bayramova), bəziləri məhz bir neçə siyasətçinin konkret rəsmi görüşündə nəzərə çarpan qeyri-verbal "siqnalların" təhlilini qoyurlar (T.S.Dolotova).

Nəticədə qeyd etmək istəyirik ki, araşdırmamızda psixoloqlar Rubinşteyn S.L., Nepp M., Holl C., Kossolino M., Labunskaya V.A., Ekman P. və başqaları, etnoqraf-sosioloq K.Levi – Stross, antropoloq R.Birdvistelli və A.Radklif-Braun, filoloq-linqvistlər Bazılev N.V., Qorelov İ.N., Sepir E., Lazutina Q.V., Kreydlin Q.Y., Nuqumanova L.A. və başqalarının sözügedən movzuda elmi əsərləri ilə bağlı məlumatlar verilir. Bu siyahıya baxdıqda da görə bilirik ki, qeyri-verbal ünsiyyət mövzusunun tədqiqi ilə ilkin olaraq psixoloqlar məşğul olub, günümüzdə də bu mövzuya daha çox məhz psixoloqlar müraciət edirlər, və bu mövzunun dilçilik xüsusiyyətlərinin öyrənilməsinə, əlbəttə ki, onlar tərəfindən xüsusi diqqət yetirilməyib, lakin, eyni zamanda bu tədqiqatçılar qeyri-verbal nitqin ünsiyyətdə əhəmiyyətini qeyd ediblər. Onlar bir məsələdə həmfikirdirlər ki, qeyri- verbal ünsiyyətin öyrənilməsi bir çox sahələr üçün zəruridir, o cümlədən, fəlsəfə, psixologiya, linqvistika, kriminologiya, pedaqoqika və başqaları. Əgər beladirsə, və qeyri-verbal nitq (məhz nitq) anlayışını qəbul ediriksə, deməli dilçilər tərəfindən sözügedən mövzunun tədqiqi dilçilik üçün əhəmiyyətlidir. Fikrimizcə, bütün deyilənləri, o cümlədən, azərbaycan dilçiliyində bu mövzunun çox az araşdırıldığını nəzərə alaraq, qeyri-verbal ünsiyyətin dilçiliyin bir hissəsi kimi daha geniş tədqiqinə ehtiyac duyulur.

Ədəbiyyat siyahısı:

1. Л.А. Нугуманова «Невербальная коммуникация в телевизионном общении» // Современные проблемы науки и образования № 6, – 2013, https://science-education.ru/ru/article/view?id=11818;
2. Мауро Коццолино "Невербальная коммуникация. Теории, функции, язык и знак"/Пер.с итал., Изд. «Гуманитарный центр», - Харьков, 2009., 248 стр.;
3. ***В.А. Лабунская "Невербальное поведение: структура и функции" https://www.gumer.info/bibliotek_Buks/Psihol/belin/08.php;***
4. К.Леви-Строс «Структурная антропология», Изд. «Наука», - Москва, 1985 г., 399 стр.;
5. Ç.Darvin "İnsanlarda və heyvanlarda hisslərin (emosiyaların) ifadəsi" http://vivovoco.astronet.ru/vv/papers/bıo/darwın/emotıons/emotıons.htm
6. С.Л.Рубинштейн "Проблемы общей психологии", Изд. «Питер» 2002 г., 720 стр. http://yanko.lib.ru/books/psycho/rubinshteyn=osnovu_obzhey_psc.pdf;
7. Пол Экман "Психология эмоций. Я знаю, что ты чувствуешь", Изд. «Питер», – Москва, 2010 г., 336 стр.;
8. И.Н.Горелов "Невербальные компоненты коммуникации", Изд. URSS, - Москва, 2014, 112 стр.;
9. R. L. Birdwhistell "Kinesics and Context: Essays on Body Motion Communication", University of Pennsylvania Press, - Philadelphia, 2010, 352 p., https://archive.org/details/kinesicscontexte00bird/page/n5/mode/2up.
10. Г.Е. Крейдлин «Невербальная семиотика. Язык тела и естественный язык», изд. «Новое литературное обозрение», - Москва, 2002 г., 580 стр.;
11. Аллан Пиз «Язык телодвижений. Как читать мысли окружающих по их жестам» https://libking.ru/books/sci-/sci-psychology/360798-allan-piz-yazyk-telodvizheniy-kak-chitat-mysli-okruzhayushchih-po-ih-zhestam.html
12. Z.Baltaş və A.Baltaş "Bədənin dili","Remzi kitabevi", - İstanbul, 1992 il, 166 s.;
13. Pərvin Bayramova "Heydər Əliyevin nitqində qeyri-verbal ünsiyyət vasitələrindən istifadə" Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin azərbaycançılıq ideologiyası filoloji fikir kontekstində" mövzusunda respublika elmi konfransının materialları, - Bakı, 2021, səh.37-40;
14. M.Ə.Həmzəyev, S.F.Əmiraslanova "Ünsiyyətin psixologiyası", Dərs vəsaiti, - Bakı, 2007, 180 səh., https://asantelim.files.wordpress.com/2018/05/c3bcnsiyyc999t-psixologiyasc4b1.pdf;
15. M.Rominiekka ("Siyasətdə qeyri-verbal işarələr: amerika və avropa siyasətçiləri tərəfindən göndərilən siqnalların (jestlərin) təhlili" https://repozytorium.amu.edu.pl/bitstream/10593/7481/1/PSiCL_44_2_Rominiecka.pdf

16. T.S.Dolotova ("Siyasi bədən hərəkətlərinin dili (jestlər və toxunuşların mənası" http://edoc.bseu.by:8080/bitstream/edoc/75887/1/Dolotova_T.S._s._326_327.pdf
17. V.Tsenyev ("Siyasi bədən hərəkətlərinin dili: bakalavrlar üçün dərslik" https://psyfactor.org/lib/politgestures.htm
18. Fəxrəddin Veysəlli "Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri", Dil və ədəbiyyat jurnalı 2015 N2;
19. Марк Непп, Джудит Холл "Невербальное общение", Учебник, изд. «прайм - Еврознак», 2004 г.;
20. В.Н.Базылев "Общее языкознание", изд. «ГАРДАРИКИ»,- Москва, 2007 г., 285 стр.;
21. Э. Сепир "Язык. Введение в изучение речи", изд. «Директмедиа Паблишинг», - Москва, 2007, 447 стр.;
22. Е.Н. Скаженик «Деловое общение», изд. «ТРТУ», – Таганрог, 2006 г., 136 стр.;
23. А.Ю.Панасюк «Управленческое общение. Практические советы», изд. Экономика, – Москва, 1990 г., – 230 стр.;
24. Г.В.Лазутин «Профессиональная этика журналиста», изд. Аспект-Пресс, - Москва, 1999 г., 240 стр.;
25. D. Geeraerts, R. Dirven, J.R. Taylor "Cognitive Linguistics Research", pub. "Mouton de Gruyter", - Berlin, New York, 2006, 485 p.;
26. B.Malinovski "Mədəniyyətin elmi nəzəriyyəsi", "Научная теория культуры" - 2-е изд., испр., Издательство: ОГИ, 2005 г., 184 стр.;
27. Радклиф-Браун А.Р. Структура и функция в примитивном обществе, изд. «Восточная литература», 2001 г., - Москва, 304 стр.

Aynur Vidadi qızı Səfərova

Qeyri-verbal ünsiyyətin tədqiqi tarixi

Xülasə

Məqalədə Qeyri-verbal ünsiyyətin tədqiqi tarixinə nəzər salınır, müxtəlif ölkələrdə bu mövzunun öyrənilmə xronologiyası təqdim olunur. Eyni zamanda "qeyri-verbal ünsiyyət" mövzusunu tədqiq edən alimlərin onu hansı aspektdə araşdırdıqları qeyd olunur. "Qeyri-verbal ünsiyyət" psixolinqvistik mövzu olduğu üçün onun araşdırılmasına həm psixoloqlar, həm də linqvistlər çalışıblar. Onlardan bəziləri qeyri-verbal nitqin məlumat ötürmək xüsusiyyətinin mövcudluğunu sübut etməyə çalışır, digərləri isə qeyri-verbal nitqin yalnız verbal nitqin gücləndirilməsi funksiyasını icra etdiyi fikrini irəli sürürlər. Lakin hər iki yanaşmada tədqiqatçılar qeyri-verbal nitqin cəmiyyətdə, həyatda münasibətlərin qurulmasında cox əhəmiyyətli rolu olduğunu qəbul edir. Bir çox xüsusi peşə sahibləri üçün isə qeyri-verbal nitqin öyrənilməsi şərtdir. Misal olaraq siyasətçiləri, hakimləri, kriminalistləri, televiziya aparıcılarını və s. göstərmək olar. Bu baxımdan qeyri-verbal nitqin

müxtəlif sahələr üzrə müxtəlif yanaşmalarda tədqiqi zəruridir. Qeyri- verbal nitq mədəni və mental xarakter daşıdığı üçün, müxtəlif xalqların qeyri-verbal kommunikasiya xüsusiyyətlərinin öyrənilməsinə də maraq böyükdür və bu sahədə xeyli elmi tədqiqatlar aparılıb ki, sözügedən məqalədə onlar haqqında da məlumat verilir.

Açar sözlər: qeyri-verbal ünsiyyət, qeyri-verbal kommunikasiya, bədən dili, kinesika.

Айнур Видади гызы Сафарова

История изучения невербальной коммуникации

Резюме

В статье рассмотрена история изучения невербальной коммуникации, а также представлена хронология изучения этой темы в разных странах. Рассмотрены аспекты изучения разными авторами невербальной коммуникации. Так как тема невербальной коммуникации является психолингвистической его изучением занимались и психологи, и лингвисты. Некоторые из них пытались доказать возможность невербальной коммуникации передавать информацию, другие же считают, что невербальная речь служит лишь для усиления воздействия вербальной речи. Однако все исследователи едины во мнении, что невербальная речь играет значительную роль в обществе, в создании желаемых отношений. Для многих профессий изучение невербальной коммуникации обязательно. К ним можно отнести политиков, судей, криминалистов, телевизионных ведущих и т.д. Из этого следует, что рассмотрение невербальной коммуникации в разных сферах необходимо. Так как невербальная речь носит культурный и ментальных характер, внимание исследователей притягивает изучение невербальной коммуникации у разных народов, и с этого аспекта невербальную речь изучали многие исследователи, о которых тоже упомянуто в данной статье.

Ключевые слова: невербальное общение, невербальная коммуникация, язык тела, кинесика.

Aynur Vidadi Safarova

History of the study of non-verbal communication

Summary

The article discusses the history of the study of non-verbal communication, and also presents the chronology of the study of this topic in different countries. Aspects of the study of non-verbal communication by different authors are considered. Since the topic of non-verbal communication is psycholinguistic, both psychologists and linguists have been studying it. Some of them tried to prove the possibility of non-verbal communication to convey information, while others believe that non-verbal speech serves only to enhance the impact of verbal speech. However,

all researchers are unanimous in their opinion that non-verbal speech plays a significant role in society, in creating desired relationships. For many professions, the study of non-verbal communication is mandatory. These include politicians, judges, criminologists, television presenters, etc. It follows from this that consideration of non-verbal communication in different areas is necessary. Since non-verbal speech is cultural and mental in nature, the attention of researchers is attracted by the study of non-verbal communication among different peoples, and from this aspect, non-verbal speech was studied by many researchers, who are also mentioned in this article.

Key words: **non-verbal speech, non-verbal communication, body language, kinesics.**

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya elmləri doktoru, dosent Qurbanova Lalə Qədir qızı tərəfindən çapa tövsiyə olunmuşdur

FİKRƏT SÜLEYMANOĞLU
Filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
fikret55@mail.ru

CƏNUBİ AZƏRBAYCANDA ANA DİLİ MƏSƏLƏSİ

Xülasə

İranda qeyri-fars xalqların ana dilindən istifadə hüququna rəsmi qadağalar Rza şah dönəmində başlamışdır. Şahın assimilyasiya siyasəti daha çox Azərbaycan türklərinə qarşı sərtliyi ilə fərqlənirdi. Məsələ rəsmi yerlərdə ana dilində danışığın yasaqlanması ilə bitmirdi. İş o yerə çatmışdı ki, insanlara öz evlərində ölülərini ana dilində ağlamağa belə icazə verilmirdilər. Evlərdəki ana dilində olan kitabları toplayıb yandırırdılar. Məktəblərdə, ictimai yerlərdə "cərimə sandıqları" qoyur, ana dilində danışanları ora pul atmağa məcbur etməklə cəzalardan azad edirdilər.

1979-cu ilin dekabrında referendum yolu ilə qəbul olunan konstitusiya ölkənin bütün toplumlarına ana dilindən azad şəkildə istifadə və onu inkişaf etdirmə hüququ verdi. Əslində bu hüquq beynəlxal sənədlərdə də təsbit olunmşdu. Lakin uzun müddətdir ki, rəsmən elan olunmuş bu haqq insanların əlindən ən müxtəlif bəhanələrlə alınmaqdadır.

2023-cü ilin sentyabrından İranda başlayan və hələ də fərqli formalarda davam edən qadın hüquqları ilə bağlı qanlı üsyanların gedişində irəli sürülən tələblər arasında ana dilində təhsil də xüsusi yer tutur. Bu üsyanda rejim terroruna məruz qalanlar arasında çoxlu azərbaycanlı ziyalı da var.

Təbii ki, Cənubda ana dili problemi Azərbaycan Respublikası ictimaiyyətinin və siyasi dairələrinin də önəm verdiyi məsələlərdəndir. Həm də bu məsələyə diqqət getgedə artmaqdadır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu xüsusi olaraq vurğulamışdır.

Məqalədə problemin hazırkı vəziyyəti və həll olunma perspektivləri araşdırılır.

Açar sözlər: *Assimlyasiya əleyhinə mübarizə, ana dilindən istifadə hüququ, ana dilində təhsil, mədəni irsin qorunması.*

Dilin ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də mədəniyyət daşıyıcısı və etnik identikliyin ən vacib amili olması – milli kimliyi müəyyən etməsi mübahisəsizdir. Yəni fərqli dili olmayan toplum haqqında fərqli etnik qrup kimi danışmaq mümkün deyil. Təsadüfi deyildir ki, XIX əsrdə yaranmış məşhur sosial-psixologiya nəzəriyyələrindən birinin – "Xalq psixologiyası"nın yaradıcıları M.Lazarus və H.Şteyntal dili hətta "xalq ruhunun ilkin təzahürü" adlandırmışlar. Onların konsepsiyasına görə, mənşə və yaşam məkanının eyniliyi səbəbindən eyni xalqın

bütün fərdləri öz cismlərində və ruhlarında həmin xalqın xüsusi – başqalarından fərqli təbiətinin izlərini daşıyırlar. Həm də bu izlərin ən parlağı onun dilidir [16].

Bu gün dünyada 7000-ə yaxın dil mövcuddur və proqnozlara görə onların yarısından çoxu bir neçə nəslin həyatı ərzində yox olma təhlükəsi ilə üz-üzədir. Ən acınacalısı da odur ki, hazırda bu dillərin 96%-ində planet əhalisinin yalnız 4%-i danışır. İndi təhsil sistemində və dövlət idarəçiliyi sferasında demək olar ki, yalnız bir neçə yüz dildən istifadə olunur. Çağdaş rəqəmsal texnologiyalarda istifadə olunan dillərin sayı isə heç 100-ə də çatmır [8].

Ona görə də xalqın mədəni irsinin və milli dəyərlərinin saxlanmasının, inkişafının və gələcək nəsillərə ötürülməsinin başlıca vasitəsi olan ana dilindən istifadə, xüsusən də təhsil sahəsində istifadə polietnik cəmiyyətlərin ən aktual problemlərindən biridir. Belə ki, istənilən dilin inkişafı hər şeydən öncə onun tədrisi və gənc nəsillərə aşılanmasından keçir.

Bu məsələ bir çox mötəbər beynəlxalq təşkilatların sənədlərində də öz əksini tapmışdır. Məsələn, BMT Baş Məclisinin 1966-cı ildə qəbul etdiyi "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt" [9], eləcə də "Milli azlıqların təhsil hüquqlarına dair Haaqa tövsiyələri və izahedici qeydlər, 1996" [10] adlı sənədlər bununla bağlı ən aydın ifadə tərzinə və geniş əhatə dairəsinə malik sənədlərdir. Haaqa tövsiyyələri azlıqların yaşadığı cəmiyyətə inteqrasiya olma məsuliyyəti ilə yanaşı, dövlətlərin qarşısında öz vətəndaşları olan milli azlıqların ana dillərində təhsil alma və milli-mədəni dəyərlərini yaşatma hüququnu təmin etmələri üçün onlara müvafiq şəraitin yaradılması şərtini də qoyur. Sənədin 1-ci maddəsi birmənalı olaraq bunu təsbit edir: "Milli azlıq nümayəndələrinin öz fərqliliyini saxlama hüququ yalnız o halda tam reallaşdırıla bilər ki, təhsil prosesində onların öz ana dillərində bilik əldə etmə imkanı olsun".

Lakin İran İslam Respublikasında qeyri fars millətlər, o cümlədən Azərbaycan türkləri öz ana dillərində təhsil almaq üçün uzun illərdən bəri mədəni formada mübarizə aparsalar da, onların bu tələbi rəsmi dairələr tərəfindən mütəmadi olaraq radikal formada qarşılanır və nəticədə indiyə qədər minlərlə milli fəal həbs olunaraq ağır işkəncə, həbs və təzyiqlərə məruz qalmışdır. Azərbaycan türkləri Beynəlxalq Ana Dili Günü ilə bağlı nəinki məktəb və universitetlərdə heç bir tədbir keçirə bilmir, hətta həmin gün öz evlərində toplandıqda belə, polis və təhlükəsizlik qüvvələrinin qəddar hücumlarına məruz qalırlar. Saxlananların arasında ana dili və digər milli-mədəni hüquqlar uğrunda apardıqları mübarizəyə görə dəfələrlə həbsə düşən Abbas Lisani, Əsgər Əkbərzadə, Rəhim Qulami və İbrahim Rəşidi də vardı [11].

Halbuki 1979-cu ildə ümumxalq referendum yolu ilə qəbul olunmuş İran İslam Respublikası Konstitusiyanın "Millətin hüququ" adlı III fəslinin 19-cu maddəsində deyilir: "İran xalqı hansı etnik qrup və qəbilədən olmasından asılı olmayaraq bərabər hüquqa malikdir, rəng, irq, dil və bu kimi amillər kimsəyə üstünlük vermir"; 15-ci maddədə isə təsbit edir: "İran xalqının rəsmi müştərək dili və xətti farsdır. Sənədlər,

məktublaşmalar, rəsmi mətnlər və dərs kitabları bu dil və xətlə olmalıdır. Lakin yerli və etnik dillərin fars dili ilə yanaşı işlənməsi, mətbuat, kütləvi informasiya vasitələrində və milli ədəbiyyatın məktəblərdə tədrisində azaddır [4]. Bununla da ilk dəfə Konstitusiya səviyyəsində İran cəmiyyətinin polietnikliyi rəsmən təsdiq edilmiş, etnik toplumlara aid fərdi və kollektiv haqlar, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə azadlığı, kitab nəşri və milli ədəbiyyatın məktəblərdə ana dilində tədrisinin önü rəsmən açılmışdır.

Beləliklə, milli azlıq məsələsinin siyasi və ya hüquqi deyil, fakt məsələsi olduğunu qəbul etmiş yeni rejim Azərbaycanda milli dilin işlədilməsi üzərindəki yarıməsrlik qadağanı rəsmən ortadan qaldırmışdır. Bu, İslam İnqilabı liderlərinin xalqların öz yerli və daxili işlərini idarə etmək hüququndan istifadə edəcəklərinə dair inqilab öncəsində verdikləri çoxlsaylı təminatlardan yalnız biridir.

Bu nailiyyət azərbaycan türkcəsinin 1945-46-cı illərdə Milli Hökumət dönəmində sahib olduğu mövqedən müqayisəedilməyəcək dərəcədə aşağı olsa da, hər halda qısa müddət ərzində ana dilində "Varlıq", "Dədə Qorqud", "Ülkər", "Çənlibel", "Koroğlu", "Günəş", "Yoldaş" və s. kimi onlarla qəzet və jurnalın nəşr olunması baxımından irəliyə doğru atılmış əhəmiyyətli bir addımdır. Bundan başqa, yaradıcı ziyalıların birlikləri yaranmış, dərs vəsaitləri hazırlanmasına başlanmışdı. Amma, bu fəaliyyətlərin əksəriyyəti siyasi təqiblər, senzura basqıları və maliyyə problemləri üzündən tezliklə dayanmalı olmuşdur. Hazırda Cənubda görkəmli ziyalı Doktor C.Heyətin (1925-2014) yaratdığı "Varlıq" jurnalından başqa, demək olar ki, azərbaycan türkcəsində heç bir mətbuat orqanı mütamadi nəşr edilmir [5].

Azərbaycan toplumunun kompakt yaşadığı şəhərlərdə – Təbriz, Urmiyə, Ərdəbil, Zəncan və Həmədanda fəaliyyət göstərən rəsmi radio-televiziya mərkəzləri isə olduqca hiyləgər siyasət yeridirlər. Onların proqramlarında azərbaycan türkcəsi ərəb və fars sözləri ilə elə eybəcər vəziyyətə salınır ki, bunu azərbaycanlıların anlaması qeyri-mümkün olur. Əslində Azərbaycanlı vergi ödəyicilərinin hesabına fəaliyyət göstərən bütün bu proqramlar dinləyici və tamaşaçı kütləsi cəlb etmək, onlara nəsə faydalı bir şeylər aşılamaqdan daha çox kimlərəsə "dövlətin azərbaycan türkcəsinə qayğısı"nı sübut etmək məqsədi daşıyır. Amma ən qəribəsi də budur ki, İranda Şimali Azərbaycan auditoriyası üçün hazırlanan radio və televiziya proqramları əksinə, Azərbaycan ədəbi dilinə daha yaxın olur. Ona görə də haqlı sual yaranır: Yerli əhali üçün hazırlanan verlişlərin dilinin rəsmi qurumlar tərəfindən bu cür eybəcərləşdirilməsi, Azərbaycan Respublikasında çap olunan nəşrlərin (hətta bədii ədəbiyyatın) İrana aparılmasına qoyulan qadağalar nəyə hesablanır? Doğrudanmı indi – İnternet əsrində 30 milyonluq bir toplumu bununla vahid dil məkanından məhrum etmək mümkündür?

Təbii ki, İslam rejimi prinsip etibarilə etnik və milli parçalanmanı təşviq etməyə meyilli deyil və Pəhləvi dövrünün "vahid İran milləti" anlayışından uzaq olan vahid müsəlman hümməti, daha doğrusu "vahid şiə hümməti" ideyasını təşviq edir.

Amma göründüyü kimi, məsələyə yenə də "vahid" prizmasından baxılır. Sanki fərqlilik reallığı heç mövcud da deyil.

Əlbəttə, İranın bu problemin izahına və təqdimatına yönəlik özünəməxsus yanaşması var: "İran kimi bir ölkədə min illər boyu bir ərazidə yaşayan müxtəlif xalqlar arasında elə bir ümumi cəhətlər əmələ gəlmişdir ki, onlar bu və ya digər xalqa yox, orada yaşayan bütün xalqlara aiddir. Bu ümumi cəhətlər konkret şəkildə müəyyən adət və ənənələr, məişət və ünsiyyət münasibətləri, psixologiya, əxlaqi amillər və sairəni əhatə edir. İran üzrə əmələ gələn bu ümumi cəhətləri "iranlılıq" anlayışı ilə adlandırmaq mümkündür" [6].

Lakin bunu da yaddan çıxarmaq olmaz ki, hazırda "İranda sayı 30 milyona artıq olan azərbaycan türkləri öz ana dillərində yalnız evdə və küçədə danışa bilirlər. Azərbaycanlıların ana dilini işlətmə dairəsi olduqca dardır. Ana dilində təhsil almaq mümkün deyil. Bunun üçün İranda bircə məktəb də yoxdur. Azərbaycanlılar dövlət idarələrində də ana dilindən istifadə edə bilmirlər. 7 yaşında 1-ci sinfə gedən uşaqlar fars dilini öyrənməyə məcbur olurlar. Yaşlı azərbaycanlılar təhsil almadıqları üçün öz dillərində yazıb-oxumağı bacarmırlar. Beləcə, ölkədə baş verənlərdən xəbərsiz qalırlar. Bu yolla yeni nəsillər də farslaşdırılır, öz dilindən, öz mədəniyyətindən uzaqlaşdırılır" [11]. Hətta problem o dərəcəyə çatıb ki, hakim dairələr azərbaycanlıların öz vəsaitləri hesabına uşaqlarına müəllim tutub evlərində ana dilində dərslər təşkil etməsinin qarşısını da alır, bu "əməl"ə görə ev sahiblərini və müəllimləri cəzalandırırlar [13].

İran rəsmiləri hesab edir ki, ölkədəki xalqlara konstitusiyada nəzərdə tutulmuş hüquqlar beynəlxalq standartlara uyğun şəkildə verilsə, bu, ölkənin parçalanmasına gətirib çıxara bilər. Amma onların arsında elələri də var ki, məsələyə münasibəti faşist yanaşması xarakteri daşıyır. Məsələn, 2013-cü ildə ölkə prezidentliyinə namizəd olan İran Parlamentinin keçmiş spikeri Qulaməli Həddad Adil, Təbrizin Sərasəri Universitetində çıxışı zamanı azərbaycanlı tələbələrdən birinin "Konstitusiyasının 15-ci maddəsinin icra edilməsi üçün nə kimi planınız var?" – sualına cavabında bütün siyasi və insani dəyərləri tapdalayaraq bunları demişdi: "Nənələriniz evdə sizinlə türkcə danışır və bu sizə kifayətdir" [7].

Təkcə bu fakt onu göstərir ki, İranın yuxarı dairələrində Azərbaycan türklərinə qarşı aşağılayıcı münasibətdə hələ də köklü dəyişiklik olmayıb. Elə Cənubda milli hərəkatın artıq yeni mərhələyə keçdiyini nümayiş etdirən 2006-cı il "Xordad ayaqlanması"nın səbəbi olan hadisə – "İran" dərgisində dərc olunmuş "Nə edək ki, bu böcəklər bizi də böcəkləşdirməsin?" sərlövhəli məqalədə azərbaycanlıların və onların dillərinin təhqir edilməsi də bunu sübut edir [15] ...

XX əsrin 90-cı illərindən etibarən milli hüquqlar və ana dili uğrunda mübarizənin mühüm bir cəhəti yüz ildən çox tarixi olan Cənubi Azərbaycan diasporunun artıq özünü Azərbaycan adı altında təqdim etməsi, müxtəlif səviyyəli və yönümlü təşkilatlar yaratması, onların fəaliyyətini əlaqələndirməsi və ümummilli təşkilatda birləşməyə meyil göstərməsidir. Diaspor təşkilatlarının fəaliyyətinin ən

mühüm, çox zaman isə mərkəzi ünsürünü milli hüquqlar, Cənubi Azərbaycanda ana dili hüquqlarının reallaşdırılması, genişləndirilməsi, statusunun yüksəldilməsi təşkil edir. Bu təşkilatlar azərbaycan dilinin və mədəniyyətinin varlığı, qorunması, fəaliyyət göstərməsi və digər xalqlara tanıdılması sahəsində geniş işlər aparırlar. Hazırda yüksək səviyyəli mütəxəssisləri, nüfuzlu elm və mədəniyyət xadimlərini, imkanlı şəxsləri özündə birləşdirən diaspor təşkilatları Cənubi Azərbaycan məsələsinin beynəlmiləlləşməsində mühüm rol oynayırlar. Həm Cənubi Azərbaycan, həm də diaspor təşkilatlarının səyi ilə artıq Cənubi Azərbaycan məsələsi BMT, Amnesty İnternasional və digər beynəlxalq, regional təşkilatların daim diqqət yetirməyə başladıqları məsələyə çevrilməkdədir. Bu milli hüquqlar və ana dili uğrunda mübarizədə mühüm uğur hesab oluna bilər [2].

Bu məsələdə Azərrbaycan Respublikasının istər rəsmi, istərsə də müstəqil mətbuat orqanlarının, eləcə də yaradıcı ziyalılarının mütəmadi dəstəyi də ayrıca qeyd olunmalıdır.

Artıq bu problem ölkə mətbuatında da müzakirə olunur. Hətta keçmi. prezident müavinlərindən biri, xanım İlham Əminzadə məsələyə münasibət bildirərkən ümidverici fikirlər söyləmişdi. O, Əlborz vilayətində vəkillərdən birinin konstitusiyanın 15-ci maddəsi barədə sorğusuna cavabında həmin maddənin icra olunacağını demiş və əlavə etmişdi ki, maddə ciddiyyətlə icra ediləcək [1]. İranın mədəniyyət və islami irşad naziri Əli Cənnəti isə fars millətçilərinə xitabən demişdir ki, Konstitusiyanın 15-ci maddəsinin tətbiqi milli azlıqların legitim hüququdur. O, Azərbaycan dilinin "ölkədə milyonların danışdığı canlı bir dil" olduğunu bəyan etmişdir [14] .

Amma rəsmilər arasında başqa cür düşünənlər də az deyil. Məsələn, İran prezidentinin dini və etnik azınlıqlar üzrə müşaviri olmuş Əli Yunisi ana dilində təhsili hələ də əhəmiyyətsiz məsələ kimi təqdim etməyə çalışır. O, "Etimad" qəzetinə açıqlamasında deyir: "Bu tələb (ana dilində təhsil – *F.S*) bir intellektual və məhdud tələbdir. Bu ümumi bir istək deyil". Ölkənin rəsmi dairələrində müəyyən nüfuz sahibi olan doktor Həsən Ənvəri isə xəbər agentliklərinin birinə müsahibəsində məsələnin həllinə kəskin etirazını bildirib: "Yerli dillərdə təhsil konstitusiyada qeyd olunsa da, bu layihənin icrası İran millətinin mənafeyinə uyğun deyil". İran şovinisti ardınca bunları da əlavə edib: "Məncə bu iş, yaxşı iş deyil. Bu iranlıların birliyi, İran milləti və fars dilinə ziyanlıdır. Mən düşünürəm ki, belə bir qərar verilməməlidir. Ona görə ki, fars dili müxtəlif İran qövmlərinin vasitə dilidir və yerli dillərdə təhsil fars dilinə ziyan gətirər" [12].

Nəticə

- Cənubi Azərbaycan ziyalılarının ölkədə ana dilinin hüquqları uğrunda sivil və hüquqi müstəvidə apardığı mübarizə get-getə daha geniş dairələri əhatə etməkdədir;
- Avropa və Amerikadakı Azərbaycan diaspora təşkilatlarının problemə yönəlik fəaliyyəti Cənubi Azərbaycanda xalqın ana dili ilə bağlı hüquqlarının təmin

edilməsi üçün İran hakimiyyət dairələrinə beynəlxalq təşkilatların təsirini günü-gündən artırır;

- İranda ana dilində təhsil məsələsi artıq daxili məsələ olmaqdan çıxmış və beynəlxalq məsələyə çevrilməkdədir;
- Demokratiya və hüquq dəyərlərinin sürətlə yayıldığı indiki dövrdə dünya ölkələri ilə böyük iqtisadi, siyasi, elmi və mədəni əlaqələri olan İranın bu məsələni heç olmasa, öz konstitusiyası çərçivəsində həll etməməsi ölkə üçün çox ciddi daxili və xarici problemlər yarada bilər.

ƏDƏBİYYAT

1. *Cavid Turan*. Ana dilində təhsil məsələsi İran hakimiyyətini parçalayıb. "Yeni Müsavat", 5 fevral 2014 il.
2. *Hacıyeva Yeganə*. "525-ci qəzet", 21 fevral, 2013-cü il.
3. *Hacıyeva Yeganə*. İran İslam ingilabından sonra Guney Azərbaycanda ana dili uğrunda mübarizə. http://www.turkishnews.com/tr/content/2013/05/26/iran-islam-ingilabindan-sonra-guney-az%C9%99rbaycanda-ana-dili-ugrunda-mubariz%C9%99/
4. *İsmayılova S.A*.1978-79-cu illər İran inqilabı və Cənubi Azərbaycan.
5. *Ömərov Vahid.* Cənubi Azərbaycan islam inqilabı şəraitində. "Səs" qəzeti, 4 dekabr 2012-ci il.
6. http://www.achiq.org/yazi/lahrudi.htm
7. http://www.amerikaninsesi.org/content/qualmeli-adil/1662033.html
8. http://www.un.org/ru/events/motherlanguageday/background.shtml
9. http://www.migration.gov.az/images/pdf/22c74086f1453974981f0cb446403cf4.pdf
10. http://www.osce.org/ru/hcnm/32190?download=true
11. http://publika.az/p/7458
12. http://www.gunaz.tv/index.php?id=2&sID=70338&lang=1&action=results&poll_ident=6
13. http://www.bbc.com/azeri/azerbaijan/2012/02/120214_iran_azeris_arrest.shtml
14. http://www.azadliq.info/xeberler/358-xeber/65863-ran-prezidenti-azrbaycanllara-ana-dili-vdini-qyerin-yetirmirq.html
15. http://www.interpress.az/18157-nsib-nsibli-ka-ki-quzey-azrbaycan-o-mqamda-bu-hadislr-hazr-olayd.html#.VW7We8_tmko
16. http://www.countries.ru/library/ideas/pxnk.htm

ФИКРЕТ СУЛЕЙМАНОГЛУ

ВОПРОС О РОДНОМ ЯЗЫКЕ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

В Иране официальные запреты на право неперсидских народов пользоваться родным языком начались во времена правления Реза-шаха. Ассимиляционная политика шаха отличалась прежде всего жесткостью по отношению к Азербайджанским тюркам. Дело не закончилось запретом говорить на родном языке в официальных местах. Дошло до того, что людям не разрешалось даже оплакивать своих умерших на родном языке. Книги на родном языке собирали в домах и сжигали. В школах и общественных местах ставили «штрафники», а тех, кто говорил на родном языке, освобождали от наказания, заставляя бросать туда деньги.

Конституция, принятая на референдуме в декабре 1979 года, предоставила всем общинам страны право свободно использовать и развивать свой родной язык. Фактически это право закреплено и в международных документах. Однако это официально провозглашенное право под разными предлогами не реализуются.

Среди требований, выдвинутых во время кровавых восстаний, связанных с правами женщин, которые начались в Иране в сентябре 2023 года и продолжаются до сих пор в разных формах, особое место занимает образование на родном языке. Среди тех, кто подвергся режимному террору в ходе этого восстания, немало азербайджанской интеллигенции.

Безусловно, проблема родного языка на Юге является одним из вопросов, которому общественно-политические круги Азербайджанской Республики придают большое значение. Также внимание к этому вопросу постепенно возрастает. Не случайно Президент Азербайджанской Республики Ильхам Алиев особо подчеркнул это.

В статье рассматривается современное состояние проблемы и перспективы ее решения.

Ключевые слова: *Борьба против ассимиляции, право на использование родного языка, образования на родном языке, защита культурного наследия.*

FIKRAT SULEYMANOQLU

THE ISSUE OF MOTHER TONGUE IN SOUTH AZERBAIJAN

SUMMARY

In Iran, official bans on the right of non-Persian peoples to use their mother tongue began during the reign of Reza Shah. Shah's policy of assimilation was mostly distinguished by its harshness towards the Turks of Azerbaijan. The matter did not end with the prohibition of speaking in the mother tongue in official places. It got to the point where people were not even allowed to mourn their dead in their

native language. They collected the books in the mother tongue in the houses and burned them. They put "penalty boxes" in schools and public places, and those who spoke their mother tongue were released from punishment by forcing them to throw money there.

The constitution adopted by referendum in December 1979 gave all communities of the country the right to freely use and develop their mother tongue. In fact, this right has been established in international documents. However, for a long time, this officially announced right has been taken away from the hands of people under various pretexts.

Among the demands put forward during the bloody uprisings related to women's rights that started in Iran in September 2023 and are still continuing in different forms, education in the mother tongue has a special place. There are many Azerbaijani intellectuals among those who were subjected to regime terror in this uprising.

Of course, the problem of the mother tongue in the South is one of the issues that the public and political circles of the Republic of Azerbaijan attach importance to. Also, attention to this issue is gradually increasing. It is not by chance that the President of the Republic of Azerbaijan Ilham Aliyev specially emphasized this.

The article examines the current state of the problem and prospects for its solution.

Key words: *The fight against assimiation, the rigt to use the mother tongue, mother tongue editon, protection of cultural heritage.*

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Esmira Fuad filologiya elmləri doktoru tərəfindən çapa tövsiyə olunmuşdur

SONA VƏLİYEVA
Sona__94@mail.ru
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
H.Cavid pr. 115.

QARABAĞ MƏDƏNİYYƏTİ KONSEPTİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Müasir dilçilikdə xüsusi aktuallıq kəsb edən istiqamətlərdən biri də koqnitiv dilçilikdir. Bu dilçiliyin əsas məqsədi koqnisiya sistemində dilin statusunu müəyyənləşdirməkdir.

Koqnisiya insan beynində informasiyaların qəbulu, saxlanması, yenidən istifadəsi və ötürülməsinin bütün prosesləri halında təzahür edir. Bunlar bilavasitə şüurun fonunda baş verir.

Koqnitiv davranış mental təsəvvürlərə əsaslanır. Dili öyrənərkən ona mücərrəd varlıq kimi yanaşılmır, ona insan beynindəki bütün koqnitiv proseslərə çıxış olaraq baxılır. Dil və insan düşüncəsi bir-birilə sıx əlaqədədir. Dil insan əqlinin nailiyyəti olmaqla bütünlüklə mental bilik sistemini əhatə edir. (31, s.210)

Koqnitiv dilçiliyin özünəxas terminləri vardır ki, onlardan biri də konsept anlayışıdır. Konsept təcrübənin insan yaddaşında saxlanılan mənaya malik dərk olunan tipikləşmiş fraqmentlərin mental strukturudur. Məhz mentallıq insan şüurunda konsept fərqi yaradaraq müəyyən cığırlar açır. Bu da, nəticədə, insanın sahib olduğu milli-mənəvi və ya subyektiv təcrübənin nəticəsi hesab olunur. İnsanlar konsepti qavrasa da, onu dərketmə prosesi fərdi-idraki səciyyə daşıyır. Deməli, obyektiv reallıqdakı məfhumları insan öz təcrübəsinə əsasən qruplaşdırır, müəyyən bir zaman çərçivəsində onları əlaqələndirərək ardıcıl şəkildə sistemləşdirib iyerarxik struktur yaradır. Nəticədə, həmin məfhumlar əbədi konsept halında dünyanın dil mənzərəsində müəyyən bir statusa çevrilir. Beləliklə, sözdən, anlayışdan daha geniş məfhum olan konsept özündə müxtəlif məna, mahiyyət daşıyan mədəniyyətə aid təsəvvürlərin ümumi ideal göstəricisidir. (10, s.613)

Konsept koqnitiv dilçiliyin və linqvomədəni kontekstin mühüm tərkib hissəsidir. Konsept insanın dünyanı dərk edən zaman istifadə etdiyi əsas vasitədir. Konseptual təhlil hər bir cəmiyyət üzvünün və ya dil daşıyıcısının şüurundakı təməl faktları, təsəvvürləri, müxtəlif məna əlaqələrini dərk edərək verbal şəkildə əks etdirməyə kömək edən mühüm vahiddir.

Biz məqaləmizdə Qarabağ mədəniyyəti konseptinin xüsusiyyətlərini müəyyənləşdirməyə çalışacağıq.

Məlumdur ki, "Qarabağ" konsepti bizim şüurumuzda müəyyən bir çəkiyə malikdir və bu, koqnitiv strukturda xüsusi önəm daşıyır.

"Qarabağ" konsepti mədəni-psixoloji-siyasi fenomen kimi azərbaycanlıların şüurunda Qarabağ haqqında dünyagörüşü, təsəvvürləri dinamik şəkildə əks etdirir.

Tariximizlə bağlı həqiqətlərin geniş miqyasda tanıdılması, illərlə mövzu obyekti olmuş əzəli-əbədi torpaqlarımıza daxili və xarici siyasi baxış, Qarabağ haqqında təsəvvürlərin dünyaya ən mükəmməl çıxışı, fikrimizcə, "Qarabağ" konseptindən başlayır.

Əvvəlcədən qeyd edək ki, konsept anlayışı sözdə verballaşır. Belə ki, konsept mətnlərin daxilindəki leksemlər vasitəsilə özündə kontekstdən asılı olaraq müəyyən məna daşıyır. Təbii ki, konseptin tərcümanı olan sözlərin uyğunluğunu, ifadə etdiyi ümumi məzmunu nisbi qəbul etməliyik. Çünki söz konseptə işarə edən yeganə vahid deyil. Buraya insan şüurunda formalaşan emosional təsəvvürlərin miqdarının müfəssəlliyi də daxildir. Buna görə də "Qarabağ" konseptini dildə ifadə edən leksemlərdə mədəniyyət faktoruna da diqqət mütləqdir.

Qarabağ mədəniyyətində "xalça", "abidələr", "musiqi", "mətbəx", "ədəbiyyat", və s. anlayışlar konsept ola bilər. Məhz bu kimi sözlər konspetin müəyyən sərhədlərinə, ayrı-ayrı xüsusiyyətlərin əks olunmasına xidmət edərək onun məzmununun müəyyən təsvirini verir.

Konseptlər real həyat və söz arasında vasitəçidir. Hər bir xalqın milli-mənəvi dəyərləri vardır ki, onlar konsept şəklində ümumilik səciyyəsi daşıyaraq məhz müxtəlif dil vahidləri vasitəsilə xalqın yaddaşında şifahi və yazılı şəkildə həkk olunur. Bu konseptlərlə Qarabağ mədəniyyətinin tarixi keçmişi: folkloru, bədii ədəbiyyatı və incəsənətin digər qolları vasitəsilə tanış ola bilərik.

Verballaşan milli konseptlər Qarabağın parlaq aynasıdır. Bu milli konseptlər nəinki Azərbaycanda, o cümlədən digər xalqların dil şüurunda mental ifadəsini tapmaqdadır. Bu səbəbdən Qarabağ mədəniyyətini səciyyələndirən konsept əsas vahid kimi götürülərək kulturologiyanın, mədəniyyətlərarası münasibətlərin inkişaf edib formalaşmasında vacib amil hesab edilir.

"Qarabağ" konsepti yaddaşımızda ümumbəşəri anlayış və dil səviyyəsində eyni bir söz-konseptin müxtəlif mental formalar şəklində kollektiv və fərdi nöqteyi-nəzərdən əsas əlamətləri ilə fərqlənərək özündə saysız-hesabsız təsəvvürləri birləşdirir. Buna görə də "Qarabağ" konseptində Qarabağ mədəniyyətinin insan şüurunda nə kimi özəlliyə sahib olduğu aydınlaşdırılmalıdır. Bu konseptdə insan təfəkkürünün böyük bir zaman çərçivəsində bu günümüzə qədər hansı semantik mahiyyət daşıdığını ilk növbədə "Qarabağ mədəniyyəti" konsepti altında mövcud olan müəyyən anlayışlar hesabına müəyyən edə bilərik. Qarabağ xalçaları, Qarabağ abidələri, Qarabağ musiqisi, Qarabağ mətbəxi, Qarabağ ədəbiyyatı, Qarabağ bölgəsinə xas atalar-sözləri və məsəllər, tamaşa və oyunları və s. misal çəkmək olar.

Qarabağ Azərbaycanın qədim tarixi bölgələrindən biridir. Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı ərazini əhatə edir. *Qarabağ "qara" və "bağ" sözlərinin birləşməsindən yaranmışdır. "Böyük", "qalın", "sıx" mənalarına gəlir. Bir sıra tədqiqatçılar* ***böyük bağ***, ***səfalı bağ*** *mənasında işlədildiyini qeyd edirlər. Qarabağın dağlıq hissəsi "Arsax" adlandırılır.Etimoloji araşdırmalar göstərir ki, "Arsax" sözü də*

Qarabağın qədim türk etnoslarından biri olan saklarla bağlıdır. "Arsax" ər və sak sözlərinin birləşməsi kimi də izah olunur.(2, s.4)

Heç təəccüblü deyil ki, Qarabağ adı bizə yaşadığımız faciələrin əyani sübutudur. Daim başı bəlalar çəkmiş bir diyarın tarixi düşmənlər tərəfindən saxtalaşdırılmış, bədnam qonşular faktlara əsaslanmayan, sübutu olmayan "dəlillərlə", reallığa sığmayan "hüquqi sənəd"lərlə öz iddialarına don geyindirməyə çalışmışlar. İstər əzəli-əbədi torpaqlarımız olsun, istər maddi-mənəvi sərvətlərimiz olsun, istərsə də ta qədimdən bu günümüzə qədər daşıdığımız mədəniyyətimiz olsun, daim istismar olunmuşdur.

"Qarabağ" sözü millət olaraq şüurumuzda mədəniyyətə dair müəyyən konspetləri ehtiva edir. Bu konseptlər içərisində ilk olaraq qədim tarixə malik olan xalçalarımızdan, həmin xalçalarda əks olunan naxışların bu mədəniyyətin daşıyıcıları olaraq beynizimdə şüuraltı daşıdığı məna çalarlarından bəhs etməyi lazım bilirik.

Xalçalar özündə əks etdirdiyi naxışlarla bu günə qədər həyat və məişətimizdə əməli əhəmiyyət daşıyan, müəyyən mifoloji xarakterə sahib olan böyük bədii ideyanı ehtiva etmək gücündədir. Onların bədii xüsusiyyətləri və məzmunu üzərindəki rənglər və ornamentlər vasitəsilə özünü göstərir. Burada insan, heyvanlar, quşlar, müəyyən məişət əşyalarının təsvirləri yer almaqdadır. Bu təsvirlər və onların adı toxucunun həyatı, məişəti, dünyagörüşü ilə sıx əlaqədə olub və nəsildən-nəsilə ötürülərək koqnitiv xarakter daşımaqdadır. Bununla biz xalqın tarixini, folklorunu və mifologiyasını izləyə bilərik.

Hazırda rəmzi mahiyyət daşıyan bir sıra çeşnilər var. Buraya əjdaha, paxlava kompozisiyası, simurq quşu, qurbağa, ağac (sərv, nar, palıd), tısbağa, qartal, tovuzquşu və s. təsvirlər daxildir.

Qarabağ xalçalarından birində "Şahsevən" kompozisiyası vardır. Heç şübhəsiz, bu kompozisiya adını məşhur şahsevən tayfasından götürmüşdür. Şahsevənlər əsasən heyvandarlıqla məşğul olmuşlar. Bu səbəbdən xalçanın üzərində qarmaqvari nəqşlər şəklində "qoç", "buynuz" təsvirləri üstünlük təşkil edir. O cümlədən şərqdə, ümumiyyətlə, Azərbaycanda "qoç" , "buynuz" təsvirləri "güc-qüvvət", "bərəkət" və yaxud "bədnəzərdən qoruyucu" simvol kimi yozulur. (3, s.128) Onu da qeyd etmək lazımdır ki, buynuzlu heyvanlar- qoç, öküz, çəlik, maral, keçi və s. müqəddəs sayılırdılar. Qoç xüsusilə, su və torpaq Allahı kimi sayılırdı. Buynuz hünər, cəsarət, rəmzi hesab olunurdu. Qədim dövrlərdə insanlar hökmdarları Allah kimi saymış və mifik qəhrəmanları buynuzla təsvir etmişlər. Həmin buynuz elementləri insanları bəd nəzərdən, bəd əməllərdən qoruyucu kimi yozulur. (3,s.14)

Azərbaycanın Qarabağ bölgəsi hələ qədim zamanlardan öz atları ilə məşhur olmuşdur. Bu surət öz əksini müxtəlif sənət əsərlərində, o cümlədən xalçalarda tapmışdır. Xalçalarda it təsvirləri də geniş yer alır. Bu motiv də məzmunlu xarakter daşıyır və insanların sadiq dostu kimi sənət əsərlərində təsvir edilmişdir. (3,s.86)

Qarabağ xalçaları üçün xarakterik olan əjdaha elementləri üstünlük təşkil edir. Xalq arasında bu elementə bənzər motivlər "bağa" kimi də yozulur. Azərbaycan xalçalarında təsvir edilən "bağa" elementləri totemlərdən biri hesab edilir. Bağa

Azərbaycanda və ümumiyyətlə, şərqdə "uzunömürlülük", "tilsimdən xilas olma" rəmzi kimi yozulur. (3,s.36)

Əjdaha elementləri isə xalq arasında od, su, güc-qüvvət rəmzi kimi yozulur. (3, s.36)

Qarabağ xalçalarında qırmızı rəng simvolik qoruyucu məna daşıyır. Hətta toy günü gəlin otağı qırmızı xalçalarla bəzədilir və qırmızı geyimli gəlinin başına qırmızı duvaq da atılırdı. Bu baxımdan şux, oynaq rəngli xalçaların toy-düyün xalçaları olması ehtimalı inandırıcıdır. (3, s.10)

Bir çox bu kimi xalçaüzəri təsvirlər bizə onu deməyə əsas verir ki, tarixi çox qədimlərə söykənən bir xalq həyatı, məişəti, dünyagörüşü, inancları ilə bu günümüzə qədər sahib olduğu dəyəri gələcək nəsillərə daşımaqdadır.

"Qarabağ zəngin mədəniyyətə malikdir. Bu zənginlik Qarabağ musiqisində özünü göstərir. Çoxşaxəli janrla əhatələnən mahnılar Qarabağ incəsənətinin qədimliyini sübut edir" (26,p 63).

Qarabağ konsepti dedikdə ağıla ilk gələn ən vacib anlayışlardan biri də musiqi, xüsusilə muğamdır. Həmişə həsrət, torpaq yanğısı ifadə edən "Qarabağ şikəstəsi" əzəli-əbədi torpaqlarımızın vandal düşmənlər tərəfindən işğalından sonra Qarabağın rəmzi kimi millətin üsyan səsinə çevrildi. Düz 30 il idi ki, "Anadır arzulara Qarabağ", "Şuşanın dağları başı dumanlı", "Qarabağın maralı" və s. mahnılar şüurumuzda Qarabağla bağlı bütün qavramları hərəkətə gətirib, böyük konsepti ən xırda detallarına qədər xatırladır, bununla da bizi qədim diyara qayıdışa səsləyirdi.

Qarabağ konseptində zəfər tariximizi səciyyələndirən əsas faktorlardan biri də "Xarıbülbül" simvoludur. Azərbaycan dilində adı "Qafqaz qaş səhləbi" (elmi adı *ophrys caucasica*) olan xarıbülbül nadir, nəsli təhlükədə olan növlərindən biridir. Azərbaycanda xalq arasında xarıbülbülün yalnız Şuşada, Cıdır düzü ilə Qızıl qaya ərazilərində yetişdiyinə, dünyanın başqa heç bir yerində yetişmədiyinə inanılmaqdadır. (27, s 654-655)

Bir zamanlar Qarabağ təbiətinin simvolu sayılan Xarıbülbül 44 günlük Vətən müharibəsindən sonra qələbə simvoluna çevrildi. Külək-gül-bülbül əfsanəsi reallığa çevrildi. Və bu reallıqda gül (darda olan) Qarabağ torpağı, bülbül (canını fəda edən) Azərbaycan igidləri oldu. (32)

44 günlük müharibə öz ilhamını "Dəmir yumruq" zəfər fəlsəfəsindən aldı desək, yanılmarıq. Bu yumruq 30 il ərzində millətin, dövlətin gücünü, birliyini, mübarizliyini sübut etdi. Müharibə dönəmində də Ali Baş Komandanın dəfələrlə öz çıxışında "Dəmir yumruğ"unu göstərməsi bunun əyani göstəricisidir. "Dəmir yumruq" birliyimizi əks etdirməkdədir. Biz nə zaman bu ifadəni dilimizdə işlətsək, həmin an beynimizdə prezidentimizin uğurlu siyasəti, bu siyasətdən doğan cəsarəti, səsindəki əminliyi ifadə edən çıxışı, xalqımızın güc, birlik, həmrəylik göstərgəsi canlanır. (20)

Bu gün Qarabağın milli-mənəvi konsept sferasında Qarabağ atlarını vurğulamamaq doğru olmazdı. Minillikər boyu at türklərin ən sadiq dostu və dar ayaqda ümidi olmuşdur. Buna görə də Qarabağ atlarının leksik-semantik işarəsi sadiqlik, qorxmazlıq, zəfəri böyük şücaətlə qazanan bir silahdaş simvoludur.

Qarabağ atı dedikdə təxəyyülümüzdə zahiri və daxili güc, keyfiyyət canlanır, at belində gəlişi ilə düşməni vahiməyə salan, yeri lərzəyə gətirən bir obraz bütünləşir.

Qızılı-kürən rəngini Günəşdən, qüdrətini Şuşa dağlarından alan, gözəl qaməti, yüksək sürəti və dözümlülüyü ilə seçilən bu atlar tezliklə yaxın bölgələrdə, daha sonra bütün dünyada Qarabağ cins atları adı ilə məşhurlaşır. (18, s.31)

Azərbaycanın geyim mədəniyyətində Qarabağ geyimləri xüsusi yer tutur. Geyim insanın daxili aləmini açan, onun mənsub olduğu milli-mənəvi dəyərləri, ləyaqətini, estetik zövqünü, düşüncə tərzini, yaşını, sosial vəziyyətini və s. əyani şəkildə göstərən əsas vasitədir. Məhz Qarabağ geyimləri bizim həm mənəvi, həm də maddi dəyərimiz hesab olunur. Qarabağ geyimlərində xüsusi bir özəllik, fərqlilik vardır. Özənlə tikilişi, özünəməxsus bəzəyi, naxışı, ümumən görünüşü ilə seçilir.

Qarabağ geyimlərində bir hikmət tutumu var. Bu geyimlər sahib olduğumuz tarixi keçmişin bir növ sübutudur. Əyindəki şax duruşu, rəngarəng çalarlara malik boyası, bir-birindən fərqli və gözəl çeşni nümunələri, forma və biçim tərzi müxtəlifliyi, o cümlədən abır, iffət, həya göstəricisi olan baş örtüləri, namus, qeyrət simvolu olan papaqlar, diqqəti cəlb edən qiymətli zinyət əşyaları və s. ilk təəssüratda bir ağırlıq, kübarlıq, incəlik, məğrurluq təsiri bağışlayır.

Qarabağ milli geyimlərində yerli xalqın dünyagörüşü, estetik zövqü, uzaq keçmişlərdən gələn adət-ənənələri qabarıq şəkildə işarələnib. Eyni zamanda libası geyinən şəxsin yaşını, ailə və ictimai vəziyyətini də bilmək olardı. Geyimlərdə belə milli-mənəvi dəyərlərə diqqət, adət-ənənələri gözləmək Qarabağ insanlarının daxili xüsusiyyətlərə diqqət kəsilməsi ilə yanaşı, xarici bütövlüyü də vəhdətdə götürməsi onları fərqləndirən keyfiyyətlərdəndir.

Azərbaycanın, eləcə də Qarabağın ənənəvi qadın geyim kompleksi içərisində baş geyimləri həmişə xüsusi yer tutmuşur. Qarabağda qadın baş örtüsü abır-həya, ismət, milli ləyaqət göstəricisi, qadın gözəlliyinin ən yüksək məqamıdır. Buraya şal, örpək, duvaq, çadra, çarşab, kəlağayılar və s. daxildir.(11,s.47)

Beləliklə, Qarabağ geyimləri də özünəməxsus daxili məzmunu ilə Qarabağ konsept anlayışının bir hissəsi hesab oluna bilər.

Deməli, biz yazımızda koqnisiya sistemində kontekstdən asılı olaraq dilin statusunu, daşıdığı vəzifəni müəyyən etməyə, sahib olduğumuz mental dəyərlərin dildə təzahürü, mövcud olan həmin sözlərin insan beynindəki bütün koqnitiv proseslərə çıxışını araşdırdıq.

Bu nəticəyə gəldik ki, Qarabağ konsepti dinamik xarakter daşımaqdadır. Bunlar inkişaf prosesində maddi-mənəvi dəyişikliklərin, müəyyən zaman-məkan kontekstində fərqliliyin təzahür formasıdır. Zəngin tarixi keçmişə əsaslanan,

nəsildən-nəslə keçərək sahib olduğumuz bu konseptin müəyyən zaman çərçivəsində dayanıqlı faktlara əsaslandığını sübut etdik. İstər mədəni, istər maddi, istərsə də psixoloji fenomen kimi azərbaycanlıların şüurunda müəyyən çəkiyə malik olduğunu müəyyən etdik.

Qarabağ etimoloji nöqteyi-nəzərdən konseptual sistemin əsas təməllərindən biridir. Çünki mədəni-tarixi keçmişin vacib izlərini özündə daşıyır.

Qarabağ konsepti semantik nöqteyi-nəzərdən dil ilə semiotik xarakater daşıyır. Bu da milli təfəkkürü ifadə edən təcrübə və bilikləri, yaşam prosesində yaranan müəyyən təsəvvürləri şərtləndirir.

Məqalədə Qarabağı sırf mədəniyyət anlamı çərçivəsində araşdırarkən dərk edilən ətraf aləmdəki adət və ənənələrin, milli-mənəvi dəyərlərin, əsas hadisələrin dildə təzahür forması şəklində əks etdirməyə çalışaraq onların bizim şüurumuzda sahib olduğumuz semantik çalarlarını xarakterizə etdim. Qarabağ konsepti dedikdə özündə müəyyən semantik çalar daşıyan leksemlər yada düşür. Buraya incəsənətin bir sıra qolları daxildir: estetik, mənəvi, mədəni və o cümlədən hərbi və sosial-siyasi hadisələr də əsas göstəricidir.

Burada Qarabağ konseptinin linqvomədəni kontekst daxilində mədəniyyət dedikdə insan şüurunda nə kimi özəlliyə sahib olduğu anlaşılır. Sahib olduğumuz milli-mənəvi zənginliklərimiz beynimizdə şüuraltı daşıdığı məna çalarlarını özündə ehtiva edir. Məhz bu zənginliklər ölkəmizin maddi-mənəvi, hətta siyasi gələcəyi üçün vacib olan faktordur.

Azərbaycan tarixinə və mədəniyyətinə dair apardığımız tədqiqatlar əzəli-əbədi torpaqlarımızın milli-mənəvi sərvətləridir. Həmin sərvətlərin dildə daşıdığı semantik məna, hansı ki biz onları verballaşdırırıq, onlar milli təfəkkürümüzün yansımasıdır.

Qədim tarixə malik olan xalçalarımızın üzərində çeşnilərdə rənglər və müxtəlif ornamentlər, onların məişətimizdə bir vaxtlar əməli əhəmiyyət daşıması, insanların yaşam tərzi səbəbilə şüuraltı formalaşan inanclar, müəyyən məzmuna malik olan təsvirlər yer almaqdadır.

Qarabağ mədəniyyətinin əsas qollarından biri də mahnılarımız, musiqilərimiz və bunları ərsəyə gətirən incəsənətimizin görkəmli və əvəzolunmaz sənətkarlarıdır. Onların istedadının və əməyinin məhsulu olan bu dəyərli sənət nümunələri zaman intervalında bizim üçün müəyyən çəkiyə malikdir. Biz onları ifadə edərkən sahib olduğu semantik yük fərqli, zamanın diqtə etdiyi şəkildə dilimizdə öz əksini tapır.

Daim mübarizə meydanına çevrilən Qarabağ əsrlərin sınağından keçərək bizə şücaət tarixini göstərmiş, eyni zamanda indiki koqnitiv şüurumuzun formalaşmasına təkan vermişdir. Qarabağ dedikdə beynimizdə canlanan ilk sözlərdən biri də müharibədir. Şuşa qalası, xarıbülbül, bəşər tarixinə meydan oxumuş atlar və s. bu savaş meydanının bir parçasıdır. Məhz buna görə də onlar dil daşıyıcılarının Qarabağ konsepti daxilində zəruri ideya rəmzidir. Onların özəlliyi, fərqi milli təfəkkürü

modelləşdirir. Bu səbəbdən Qarabağ torpağının səciyyəvi, özünəməxsus cəhətlərini anlamağa yol açır.

Qarabağ anlamının vacib elementlərindən biri də geyimlərdir. Özünəxas daxili məzmunu ilə fərqli semantik mənaya malikdir. Qarabağ konseptində qadın və kişilərin geyimlərindəki özəllik, hikmət tutumu, daim diqqət cəlb etməsi, ona xüsusi önəm verilməsi xalqa dəyər mahiyyətini aşılayır.

Ələlxüsus, Qarabağ dedikdə son dönəmlər ağıla gələn 2020-ci il, 44 günlük Vətən müharibəsi birbaşa konseptin daxili məna komponentlərini ümumi semantik sahə olmaqla bir yerə toplayır. Şuşa qalası-Azərbaycan ərlərinin şücaət meydanı, xarıbülbül-şəhidlərimizin simvolu, buraya o cümlədən Vətən müharibəsinin birlik simvolu olan Dəmir yumruq da daxildir.

Şüurda doğmalıq, qəhrəmanlıq, əzm, dəyər obrazı kimi formalaşan "Qarabağ" söz-konseptinin geniş tərkibli məna laylarında ekstralinqvistik şəraitdən asılı olaraq, zaman-zaman yeni və böyük həcmli anlayışlar yaranır. Və onlar keçmiş, indiki zaman daxilində daşıdığı məna çaları ilə müqayisəli şəkildə koqnitiv şüurumuzda linqvomədəni anlam qazanır.

Xülasə

Xalqımızın yaddaşına həkk olunmuş əsas obraz rolunu oynayan Qarabağ konseptinin ifadə etdiyi bir sıra verbal informasiyalar emosional çalarlığa malik olaraq müəyyən assosiasiyalar ehtiva etməkdədir.

Bunun nəticəsində, həm bizimkilərin, həm də özgələrin şüurunda Azərbaycan haqqında hisslər kompleksi, əlaqəli fikirlər və müxtəlif düşüncələr məcmusu yaranır.

В статье прослеживается переход фразеологизмов, сформировавшихся по отношению к народным сказкам, в терминолого-логическую систему. Получается, что как в азербайджанском, так и в русском языках существует большое количество фразеологизмов, сформировавшихся в связи с текстами народных сказок. Также оказывается, что эти фразеологизмы способны образовывать термины, переходя на следующий уровень метафоризации на более позднем этапе. Отличительной чертой этих терминов является то, что они в какой-то момент приобретают лакунный характер, поскольку явно и неявно перекликаются с сюжетной линией, характером или внешним видом народных сказочных текстов, с которыми они связаны отношениями интертекстуальности. Таким

образом, не только для других носителей языка, но даже для человека, не знакомого с сюжетом той или иной народной сказки, возникает необходимость объяснения “вертикального контекста” этих терминов. Язык азербайджанских и английских народных сказок не только отражает этническую идентичность тех обществ, в которых они воплощают свое нематериальное богатство, языковую картину мира, лингвокультурно-турологическую специфику, но и оказал серьезное влияние на мировоззрение и концепцсферу этих народов и по сей день. Так, некоторые выражения, содержащиеся как в английском, так и в азербайджанском языках, служат для того, чтобы сюжетная линия народных сказок, а также содержащиеся в них прецедентные онимы символизировали определенные особенности, события, “работали” в метафорической манере. То есть, иными словами, и азербайджанские, и английские сказочные тексты формируют метафорическую базу, которая продолжает функционировать и после периода их написания. В мировой картине народов, а точнее в метафорической кодификации де-Сека, формируются именно смысловые связи, соответствующие сказочным сюжетам, образам, прецедентным онимам и фрейм-сценариям, что дает о себе знать как в метафорах, так и в формировании большого количества фразеологических единиц. Наш анализ в данном разделе направлен именно на оценку роли выражений, архетипов, концептов, фрейм-сценариев, прецедентных явлений и онимов, содержащихся в английских и азербайджанских народных сказках, в формировании семантической структуры обоих языков, роли носителей этих языков в формировании языковой картины мира.

S.M.Mirzayeva

About phraseologisms formed with reference to folk tales and included in scientific terminology

Summary

The article traces the transition of phraseologisms formed with reference to folk tales to the termino-logistic system. It turns out that both in Azerbaijani and Russian there is a huge number of phraseologisms formed with reference to the texts of folk tales. It also turns out that these phraseological units are able to form terms at a later stage, making the transition to the next level of metaphoricization. The distinctive features of these terms are that they have the essence of lacuna in some moments, since they manifest and implicit connection with the plot line, the nature of the images or the appearance of folk fairy tales texts, with which they are connected by intertextuality. Thus, it becomes necessary to explain the “vertical context” of those terms, not only for carriers of other languages, but even for a person who is not familiar with the plot of this or that folk tale. The language of Azerbaijani and English folk tales not only reflects the ethnic identity of those societies, the linguistic picture of the world, the linguistic-tourological specifics of which it embodied its intangible wealth, but also has seriously influenced and even continues to influence the worldview and concept of those peoples. Thus, some expressions, both in English

and in Azerbaijani, are known as the plot of folk tales, as well as the precedent onim contained here, serve to symbolize certain features and events, to "portray" them in a metaphorical manner. In other words, both Azerbaijani and English fairy tale Texts form a base of metaphors that continued their functionality long after the time of their writing. In the picture of the world, more precisely in the de-Sak metaphorical coding of peoples, it is the semantic correlations corresponding to fairy-tale plots, images, precedent onim and frame-scenarios that form both metaphors and the formation of a large number of phraseological units. Our analysis in this section is aimed at assessing the role of the carriers of these languages in shaping the semantic structure of both languages, forming the linguistic picture of the world, expressions, archetypes, concepts, frame-scenarios, precedent phenomena and onim contained in English and Azerbaijani folk tales.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: fil.e.d., prof. Həbib Məmməd oğlu Zərbəliyev tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNOVA ƏSMƏR MEHMAN QIZI
Azərbaycan Dövlət Dəniz Akademiyası
"İngilis dili"kafedrasının assistenti
Zərifə Əliyeva 18.
asmar.huseynova@gmail.com

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ VAHİDLƏRİN FUNKSİYA ÜZRƏ TƏSNİFATI VƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

İngilis dilində frazeoloji birləşmələrin struktur-tematik təsnifi və onların Azərbaycan dilində qarşılığı.

Məqalədə ingilis dilində frazeoloji birləşmələrin struktur-tematik təsnifi və onların Azərbaycan dilində qarşılığından bəhs edilir.

Atalar sözləri, zərb-məsəllər və idiomlar həyatın müxtəlif sahələrinə aid ibrətamiz məzmunlu qısa kəlam, xalq düşüncəsinin qısa, dolğun və mənalı bir şəkildə ifadəsidir. Onlar istər bədii ədəbiyyatda, istərsə də adi danışıq dilində fikri əsaslandırmaq üçün istifadə olunan ən münasib vasitədir. Əsrlər boyu xalqın süzgəcindən keçmiş xalqın hikmətli sözlərinin daşıyıcısı olan atalar sözləri və zərb-məsəllər yığcam, obrazlı, dərin mənalı və tutarlı nitq məhsuludur. Onlar xalqların obrazlı təfəkkürünün məhsulu olmaqla, onun milli ruhunu təcəssüm edir. Məna dərinliyi, forma dolğunluğu belə ifadələrin başlıca xüsusiyyətidir.

Kommunikativ frazeoloji vahidlərə atalar sözləri və deyimlər daxildir. Məlum olduğu kimi atalar sözləri və deyimlərdə hər bir millətin düşüncə tərzi, həyatı, milli xüsusiyyətləri, adət ənənələri əks olunur. Qeyd etmək kzımdır ki, frazeoloji birləşmələrin əksər hissəsi ümumxalq dilinin məhsuludur və xalq tərəfindən yaradılmışdır. Odur ki, onların izləri folklora, xalq deyimlərinə, dialekt və ləhcələrə gedib çıxır. İngilis dilində atalar sözləri və zərb-məsəllərin çox az hissəsi mənaca və ya strukturca dəyişdirilərək dil vahidi səviyyəsinə salınmışdır və onlar dilin frazeoloji sisteminin zənginləşməsində əsas mənbə rolunu oynayırlar. Hər dövr, hər nəsil üçün onların təlim-tərbiyəsində olduqca mühüm rol oynayan atalar sözləri və zərb-məsəllər və müdrik kəlamlar həm ingilis, həm də Azərbaycan dilində çox zəngindir. Lakin onu da qeyd etmədən keçmək olmaz ki, bu Azərbaycan dili üçün daha xarakterikdir. Atalar sözlərində xalqın öz mənəvi aləmi, milliliyi, tarixi, elmə, təhsilə, əməyə münasibəti əks olunur və onları kitablarda yığılan ağıl, zəka da adlandırmaq olar^^ın təfəkkür tarixinin inkişaf mərhələlərində ilk fəlsəfi görüşlərin inkişaf pilləsini müəyyənləşdirmək, ictimai şüurun forması kimi bədii və estetik təfəkkür arasında üzvi bağlılığın olduğunu aydınlaşdırmaq üçün atalar sözü və zərb

məsəllərə müraciət etmək Qımdır. Atalar sözü və zərb məsəllərin nitq ilə xüsusi əlaqəsi nəzərə alınmasa, onları bəzən başa düşmək, çətinlik törədir. Onlardakı mühakimələr nə qədər maraqlı görünsə də, o qədər də həyatın bir çox hadisə və şəraitini semantik cəhətdən daha da gücləndirir. Bir sözlə xalqın aynası kimi orada öz əksini tapır.

Açar sözlər: frazeoloji vahidlər, kontekst, komperativ frazeoloji vahidlər, nominativ frazeoloji vahidlər, atalar sözləri və zərb məsəllər.

Frazeoloji vahidləri təsnif etmək üçün ən qədim və ənənəvi prinsiplərdən biri onların həqiqi, əsl məm^rım əsaslanır. Bu prinsipi tematik xüsusiyyət adlandırırlar. Bu prinsip əsasən qərb dilçilik ədəbiyyatlarında geniş istifadə olunur və onlar (Qərb dilçiləri) bu prinsipə görə idiomları öz həqiqi mənalarına görə qruplaşdırırdılar. Məlum olduğu kimi, idrambrın mənbələri insan fəaliyyətinin, həyatının müxtəlif sahələrinə və təbiət hadisələrinə aid ola bilir.

N.N.Amosova frazeoloji vahidlərin təsnifinə kontekstoloji cəhətdən yanaşır. O, frazeoloji vahidləri daimi kontekstli vahidlər kimi müəyyənləşdirir. Daimi kontekst müəyyən leksik elementin özünəməxsus və dəyişməz uzlaşması, onlar arasındakı semantik əlaqə ilə xarakterizə olunan kontekst kimi müəyyən olunur. N.N.Amosova daimi kontekstli vahidləri frazemlərə və idiomlara bölür. O, göstərir ki, frazemlər ikilidir, tərkib hissələrindən birinin frazeoloji cəhətdən bağlı mənası var; digər tərkib hissəsi isə müəyyənedici kontekst rolunda çıxış edir. Məsələn, small hours, small change və s. İdiomlarda isə hər bir elementin mənası ya zəifləyə, ya tamamilə itə bilər, ya da yeni məna bütöv vasitəsilə qurulur.. Məs, in the nick of time (dəqiq vaxtda) (1-8 -10)

N.N.Amosovaya görə, frazeoloji vahidləri müəyyən edilmiş ünsiyyətdəki funksiyalarına görə dörd sinfə bölmək olar. Bu təsnifat əsasında frazeoloji birləşmələri aşağıdakı kimi təsnif etmək olar.

1. Nominativ frazeoloji vahidlər - söz birləşmələri ilə təqdim olunur: cut and run, draw the line və s.

Nominativ frazeoloji vahidlərə həmçinin tərkibində yalnız bir tam mənalı söz olan söz qrupları aiddir: at large (azadlıqda, ipdən açılmış); in hand (tabelikdə); in the soup (çətin vəziyyətdə); in the altogether (çılpaq, tamamilə açıq-aydın); on the rocks (çətin vəziyyətdə); at a time (o dəqiqə); to go on (davam etmək); to look for (axtarmaq) və s.

Birinci qrupa həmçinin komparativ frazeoloji vahidlər və predikativ ifadələr də daxildir (as) large as life - canlı kimi; (as) red as a turkey-cock - xoruz kimi qırmızı; see how the cat jumps - işlər necə olur; (as) good as ever - daha yaxşı; too clever by half - daha çox ağıllanmaq; (as) many as - daha çox; as dead as a duck - cansız (həyat izi olmayan); as dark as when - əvvəlki kimi qaranlıq; as much as possible - mümkün olan qədər; as good as she - onun kimi mehriban; as better than - daha yaxşı və s.

2. İngilis və Azərbaycan dillərində frazeoloji vahidlərin bir qismi qrammatik cəhətdən bitmiş bir fikri ifadə etdirir və cümləyə oxşayır. Tədqiqatçılar belə konstruksiyaları müxtəlif cür adlandırırlar. Məsələn: Hüseyn Bayramov onları frazeoloji cümlələr [2-səh,14-67], predikativ quruluşlu vahidlər, frazeologizmlər və ya kommunikativ frazeoloji birləşmələr adlandırırdı .

Qeyd etmək lazımdır ki, həmin müəlliflərin əksəriyyəti belə vahidlərin sırasında əsasən atalar sözü və məsəlləri nəzərdə tutmuşdular. Odur ki, H.Bayramov və A.Kuninin yanaşmaları daha məqsədəuyğundur. Bunu onunla izah etmək olar ki, nəqli intonasiya ilə deyilən belə konstruksiyaların bəziləri məzmunla əlaqədar olaraq sual sözlərinin artırılması ilə və nida işarələri ilə cümləyə ekvivalent kimi işlədilir.

1. Frazeoloji nəqli cümlələri digər cümlələrdən fərqləndirən cəhət odur ki, belə cümlələrdə ifadə edilən fikir məzmununa görə bu və ya digər şəxsə aid olsa da, həmin şəxsi bildirən söz frazeoloji cümlə daxilində müstəqil cümlə kimi çıxış etmir və ya şəxssiz cümlələr şəklində özünü göstərə bilir .Məsələn, Azərbaycan dilində:xoşu gəlmək, acığı gəlmək; yazığı gəlmək.

Onun hərəkətləri mənim heç də xoşuma gəlmirdi (M.S.Ordubadi).

Mən gülümsədim, həm də ondan acığım gəldi (M.S.Ordubadi).

İngilis dilində:

I am not every Tom, Dick and Harry. - Mən hər yoldan ötən deyiləm.

But she would pick up with everybody, of course. He would have to make himself agreeable to Tom, Dick and Harry (The Silver Spoon p.III Ch. XI p. 237).

Və ya unless I'm a Dutchman - lənətə gəlim ki (işdir olmasa onda...).

It's a complete fiasco thank God! "Then we've won" said Fleur. "Unless I'm a Dutchman", answered Soames. "I'm not sure", muttered Michael (The Silver Spoon p.III Ch. VIII).

2. Frazeoloji sual cümlələri adətən iki cür ifadə olunur; cavab almaq məqsədilə işlədilən və ritorik səciyyə daşıyan sual cümlələri.

Cavab almaq məqsədilə işlədilən frazeoloji sual cümlə növü qeyri-ritorik; ritorik səciyyə daşıyan frazeoloji sual cümləsi isə ritorik frazeoloji sual cümləsi adlandırılır [1, 139].

Qeyri-ritorik frazeoloji sual cümlələri dilimizdə sayca elə də çox deyildir. Bəlkə də elə ona görə də bu məsələ dilçiliyimizdə çox tədqiq olunmamışdır. Azərbaycan dilində ən geniş yayılan qeyri-ritorik frazeoloji sual cümləsi aşağıdakıdır:

Belə cümlələrdə işlədilən suallar əslində cavab tələb etmir. Nəticə çıxarmağı tövsiyə edir.

Ritorik frazeoloji cümlələr qrammatik sual cümlələrinə oxşayır, ancaq belə suallar bir işin başqası tərəfindən yerinə yetirilməsini ritorik şəkildə ifadə etmək üçün III şəxsin təkində işlədilir. Buna misal olaraq, xüsusilə şifahi nitqdə olan: Kimin ağzı nədi?; Kimə nə borcdur?; Kimin nə işinə qalıb; Kimin nə dərdinə; Hansı yuvanın quşusan və s.

Kərbalayi Heydər zor adam idi.

Naçalnikin ağzı nədir, onun sözünə baxmasın (Qaçaq Nəbi dastanı).

Hacı Baxşəli - Kefim nə istər yazdırram, kefim istəməz yazdırmaram. Sənə nə borcdur!

İngilis dilində:

(then) what is the mystery of secret? - nə isə gizli bir şey var?

"You're a relation - by blood as well as marriage, aren't you?" "Yes" "Then what's the skeleton? I'll certainly come. Only - she has so many friends (The White Monkey p.II Ch. III).

The kettle and the pot - Öz gözündə tiri qoyub, başqasında çör-çöp axtarırsan!

Soames was silent, feeling vaguely that he had been near the proverb. "The kettle and the pot" - What was the use, indeed, of going anywhere unless you wanted something? It was one of the cardinal principles of life (Swan Song p.III Ch VII).

3. Nominativ-kommunikativ səciyyə daşıyan frazeoloji nida cümlələri özlərində nida söz qruplarını birləşdirir. My aunt (my hat) - belə-belə işlər, işə bir bax; that's the spirit - əhsən, özüdür ki, var; By heaven! - Sən Allah; Good God - İlahi; The Holy Ghost - Müqəddəs Ruh; Great Scott - Rəhm edin!; My hat - Mərhəmətli Tanrı, mənim Allahım, Rəbbim!; No jolly fear! - Rəhm et Allahım!; My gum! - Mənim Tanrım!, İlahi, mənim Allahım.

"I should be interested to know how you would have handled a situation if you had been on the Board. It is extremely easy to condemn other people! Hear, hear! said Michael, astanished - at his own voice! (Doğrudur, özüdür ki, var) (The White Monkey p.III Ch. XIII).

On his shadowy face was nothing quite so spirited as a sneer but he fazed about him, and seemed to say: My, hat! (Mərhəmətli Tanrı) (The Silver Spoon p.II Ch VIII).

"Not a bit; jolly good short. The vice of our lot is, they say it pretty well. But they have nothing to say. They won't date". Won't they? My gum! (Mənim Allahım!) (The White Monkey p.I Ch.II).

"By heaven! Those people, I'll - ! Well, that ends it!

Marjorie, I shall send our engagement to the papers tomorrow" (Tək Allah) (The Silver Spoon p.II Ch. XI).

Sir James Foskisson moved in his chair, and the pupils of his light - blue eyes became as pin-points. He nodded almost imperceptibly three times, precisely as if he had seen the Holy Ghost! (Müqəddəs Ruh) (The Silver Spoon p.III Ch. I).

Swain came last. On his shadowy face was nothing quite so spirited as a sneer; but the gazed about him, and seemed to say; "My hat!" (Mərhəmətli Tanrı. İlahi) (The Silver Spoon p.II Ch. VII).

Azərbaycan dilində də bu qəbildən olan cümlələr adətən təəccüb, razılıq və ya narazılıq bildirir. Məsələn:

Əşi qoyurlar ki, adam bir şirin yuxu yata!

Eh! Kim kimədir! (“Kirpi” jurnalı).

A.Kunin nominativ məna kəsb etməyən və yalnız frazeoloji vahid daxilində işlədilən sözlərin mənasını müəyyənləşdirmək üçün bunların müvafiq sinonimləri ilə əvəz etmək fikrini irəli sürür. Və belə sözlər sırasında yalnız dilin özünəməxsus və vaxtilə həmin dildə leksik vahid kimi mövcud olan sözləri nəzərdə tutur [3-səh:16].

Dilçilikdə dil haqqında elmin başqa sahələri kimi, frazeologiya da iki hissəyə ayrılır: 1) ümumi frazeologiya; 2) xüsusi frazeologiya.

1. Ümumi frazeologiyada bir sıra inkişaf etmiş dillərin frazeoloji materiallarının tədqiqindən alınan nəticələr ümumiləşdirilir, bunun əsasında frazeologiyanın ümumi problemləri müəyyənləşdirilir.

2. Xüsusi frazeologiyada isə hər bir konkret dilin faktları əsasında həmin dilin frazeoloji sistemi, semantik strukturu və.s. cəhətləri təsvir olunur.

Arnold İ. V. The engilish word. M-L., 1966.Arnold fikirlərini belə izah edir: “Frazeologiya az öyrənildiyindən onun əsas tədqiqat obyektini təşkil edən söz birləşmələri üçün vahid konkret termin yaranmamışdır. Odur ki, bu sabit söz birləşmələri bir sıra dilçilərin əsərlərində müxtəlif adlar altında verilmişdir.

Onlar sabit söz birləşmələrini frazeoloji vahidlər, frazeoloji birləşmələr, tərkib hissələrinə bölünməyən söz birləşmələri, idiomatik ifadələr, idiomlar, frazemlər, frazeologizmlər və.s. kimi çoxlu terminlər vasitəsi ilə adlandırmışlar. Belə müxtəliflik frazeoloji məsələləri dəqiq anlamağa maneçilik törədir və fikri yayındırır. Dildəki belə sabit söz birləşmələrinin “frazeologizm Fikrin ifadəsində nitqin bilavasitə tərkib hissəsini təşkil edən iki və ya daha artıq sözlərin birləşməsindən ibarət olub, komponentləri sintaktik və semantik cəhətdən parçalanmayan, quruluşca sərbəst söz birləşmələrinə və ya cümləyə oxşayan, dildə hazır şəkildə mövcüd olub ənənəyə görə ya bir formada, ya da qrammatik cəhətdən dəyişdirilərək işlədilən konstruksiyalara frazeologizmlər deyilir.

Frazeologizmi təşkil edən sözlər onun tərəfləri, yaxud komponetləri hesab olunur. Onlar frazeologizmlərdə üzvi surətdə elə birləşir ki, onları bir-birindən ayırmaq və hər bir sözü müstəqil mənada düşünmək qeyri-mümkündür. Frazeologizmi təşkil edən sözlərin hamısı ümumilikdə bir məna ifadə edirlər.

Frazeologizmlər dilin xalq fizionomiyası, onun orijinal vasitəsi, varlıq və zəka zənginliyidir. Onların həm məzmun, həm də forma etibarılə zənginliyi və dildə həddindən artıq işlədilməsi alimlərin diqqətini özünə cəlb etmişdir. Ona görə də frazeologiya dilçilik elminin bir şöbəsi olan leksikologiyanın xüsusi bir bölməsinə çevrilmişdir.

Frazeologizmlərdən istifadə insanlara öz fikirlərini dəqiq, qısa və idiomatik ifadə etmək imkanını verir. Onlar məfhumu dolayı olsa da, konkret ifadə edir.

Frazeologizmlərin əsas xüsusiyyətlərindən biri onların obrazlı, emosional, ifadəli olmasıdır. Belə ki, frazeologizmlər dilin ekspressivliyində onun emosionallığında xüsusi rol oynayır. Onlar bu və ya digər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir.

Azərbaycan dilində bu qəbildən olan sözlərin iştirakı ilə mövcud olan frazeoloji vahidlərin cüzi qismi belə səciyyə daşıyır. Həm ingilis, həm də Azərbaycan dilində bu tip sözlər təəccüb, razılıq və ya narazılıq bildirir. Məsələn,

Əşi, qoyurlar ki, adam bir şirin y^u yata! (LŞulı)

Eh! Kim kimədir! Onun işindən şeytan baş açmaz ("Kirpi" jur^h).

Kommunikativ frazeoloji vahidlərə atalar sözləri və deyimlər daxildir. "

Ə.Dəmirçizadə qeyd edir:Məlum olduğu kimi atalar sözləri və deyimlərdə hər bir millətin düşüncə tərzi, həyatı, milli xüsusiyyətləri, adət ənənələri əks olunur. Qeyd etmək lazımdır ki, frazeoloji birləşmələrin əksər hissəsi ümumxalq dilinin məhsuludur və xalq tərəfindən yaradılmışdır. Odur ki, onların izləri folklora, dialekt və ləhcələrə gedib çıxır."(4-səh;59-62).

ƏDƏBİYYAT:

1. Амосова Н. Н. Основы английской фразеологии. Л.,1963 səh 8-10..

2. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978. səh:14–67.

3.Кунин А. «Фразеология современного Английского языка»»М.1987.стр:16

4.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962. səh 59–62.

А.Кусейнова

Функциальная классификация фразеологических единиц на английском и азербайджанском языках и их лексико-семантические свойства

Резюме

В статье рассматривается функциональная классификация фразеологических единиц на английском и азербайджанском языках.Фразеологических единиц,и идиомы являются кратким, всеобъемлющим и значимым выражением мыслей людей в коротких фразах в различных аспектах жизни. Они являются наиболее подходящим инструментом, используемым для обоснования идеи художественной литературы и обычной речи. Пословицы и идиомы - это компактные, образные, глубокие и последовательные фразы, были носителями мудрости людей, которые прошли через века. Они представляют национальный дух людей. Глубина смысла, полнота формы - главная особенность таких выражений. Слова и понятия общения широко распространены в народных разговорах. Как известно, слова и фразы каждой нации отражают образ мышления, быт, национальные особенности, традиции. Следует отметить, что следы большинство фразеологических соединений попадают в фольклору.

Ключевые слова: фразеологические единицы, контекст, компаративные фразео¬логические единицы, номинативные фразеологические единицы, пословицы и поговор.

A.Kuceynova

Funcstonal classification of phraseological units in English and their correspondence in the Azerbaijani language

Summary

The article deals with the structural-thematic classification of phraseological units in English and their correspondence into Azerbaijani.

Phraseological units, and idioms are a brief, comprehensive and meaningful expression of people's thoughts in short phrases in various aspects of life. They are the most appropriate tool used to substantiate the idea of fiction and ordinary speech. Proverbs and idioms are compact, imaginative, deep and consistent phrases. They were the bearers of the wisdom of people who passed through the centuries. They represent the national spirit of the people.

The depth of meaning, the fullness of the form is the main feature of such expressions. Words and concepts of communication are widespread in popular conversations. As you know, the words and phrases of each nation reflect the way of thinking, life, national characteristics and traditions. It should be noted that traces most of the phraseological compounds fall into folklore. In English, very few words and phrases have been translated into meaningful or structural form and are the main source of enrichment of the phraseological system of the language.nationality, history, science, education.

Key words: phraseological units, contex, comparative phraseological units, nominative phraseological units, proverbs and sayings.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: pedağoli elmlər namizədi,prof.Tamilla Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

f.ü.f.d., dosent DÜRDANƏ NAĞIYEVA,
baş müəllim VALİDƏ VƏLİYEVA
ATU, Azərbaycan dili kafedrası
d_nagiyeva@mail.ru

TOTEM ANLAYIŞLI TOPONİMLƏRİN PARALELLİYİ

Açar sözlər: toponimlər, etnogenez, cografi areal, totemizmlər, konstruktiv tipli adlar, onqonlar
Key words: toponyms, ethnogenesis, geographical area, totemisms, constructive type names, ongons
Ключевые слова: топонимы, этногенез, географический ареал, тотемизмы, конструктивные типовые названия, онгоны.

Toponimlər mənsub olduğu xalqın dilini, tarixini, etnogenezini, milli mənsubluğunu, coğrafi sərhədlərini əks etdirən çox dəyərli mənbədir. Toponimlərdə tayfa, qəbilə və xalqların bir yerdən başqa yerə köçməsi, qovuşması, assimilyasiyası, əhalinin iqtisadi həyatı, peşə və sənət məşğuliyyəti öz əksini tapır. Azərbaycan xalqının tarixi keçmişi ilə bağlı materiallar az olduğuna görə xalqımızın tarixini və dilini öyrənmək baxımından toponimlər çox əhəmiyyətlidir. "Əgər biz Azərbaycan xalqının tarixini, onun indiyədək məskun olduğu yerləri dəqiq müəyyənləşdirmək istəyiriksə, onda biz türk mənşəli etnonimləri hərtərəfli araşdırmalı, onların etimologiyasını açmalı və coğrafi arealını dəqiq müəyyənləşdirməliyik" (2, 41). Dilimizdəki digər leksik vahidlərdən fərqli olaraq toponimlər ictimai-siyasi mahiyyətlidir. Yuxarıda da qeyd etdiyimiz kimi, hər hansı yazılı mənbənin, tarixi abidənin verə bilmədiyi məlumatı onomastik vahidlərin vasitəsilə müəyyən edə bilirik. Coğrafi adların mühümlüyü onun kiçik (mikrotoponim) və ya böyüklüyündən (makrotoponim) asılı deyildir. Əsas məsələ bu və ya digər coğrafi adın zaman və məkan daxilində iqtisadi və ictimai-siyasi proseslərdə yerinin və rolunun müəyyən edilməsidir.

Coğrafi obyektlərin məkanını, mövqeyini müəyyənləşdirməkdə, dəqiqləşdirməkdə toponimlər əvəzolunmaz mənbədir. Uzunmüddətli tarixi proseslər nəticəsində əmələ gəlmiş, formalaşmış adların etimologiyası, mənşəyi və mənası probleminə gəldikdə isə, xüsusi olaraq vurğulamaq lazımdır ki, onomastik vahidlərin dildən-dilə, nəsildən-nəslə ötürülməsi ilə əlaqədar olaraq, onların müəyyən bir qismi təhrifə uğramışdır. Bu qəbildən olan adların bir qismi ilkin variantından xeyli uzaqlaşmış, bir qismi isə uzaq keçmişdə mövcud olmuş, hal-hazırda dilin lüğət tərkibindən çıxmış arxaik leksik vahidlərlə ifadə olunduğundan onların mənası və mənşəyi bizim üçün anlaşılmazdır.

Toponimik adlarda tarixi keçmiş yaşadığı kimi, qədim coğrafi areal da mühafizə olunur. Bütün bunlarla yanaşı toponimlərin yaddaşında xalqın etnik

təfəkkür, sənət , peşə, məşğuliyyət arealları da həkk olunmuşdur. Xüsusilə, türk xalqlarının məskunlaşdığı ərazilərdə yayılmış toponimik vahidlərin paralelliyi coğrafi, etnik təfəkkür, həmçinin qədim sənət, peşə və məşğuliyyət areallarının izlərini özündə daha güclü şəkildə mühafizə edir. Buna görə də toponim paralelliyinin araşdırılması Azərbaycan dilçiliyinin qarşısında duran ümdə vəzifələrdəndir. Burada teonimlər, totemizmlər, sənət, peşə, məşğuliyyət anlayışlı toponimlər, həmçinin komponentləri paralel olan konstruktiv tipli adlar da təhlil edilir.

Heyvan, quş, balıq, həşərat və s. canlıların adları əsasında düzələn toponimlər zootoponimlər adlanır. Belə yer adları demək olar ki, Azərbaycanın əksər rayonlarının ərazilərində müşahidə olunur. Azərbaycan (türk) xalqı vaxtilə heyvandarlıqla məşğul olmuş, bununla əlaqədar bir sıra yer adları heyvandarlıq terminləri ilə bağlı yaranmışdır. Azərbaycanın bütün ərazilərində zoonim mənşəli coğrafi adlara rast gəlinir. Bunları müxtəlif qruplara bölmək olar: 1) heyvan adları əsasında düzələn oronimlər; Ayı mağarası, Atbeli dağı, Pələngtullanan dağ, Dəvəbatan dərə, İnəkuçan qaya, İlanlı çökək, Dovşan yuvası və s. 2) ornitonimlər – quş adları əsasında düzələn oronimlər; məsələn: Qaraquş dağı, Qaranquş dağı, Quzğun qayası və s.

Totem anlayışı qədim türk qəbilə və tayfaları üçün ən səciyyəvi xüsusiyyətlərdən biridir. Şübhəsiz, totemlər tanrı inamları səviyyəsində olmasa da, qədim türklərin müqəddəs hesab etdikləri varlıqlar kimi onların həyatında çox mühüm rol oynamışdır.Toponimlərin meydana gəlməsilə əlaqədar M.Seyidovun mülahizələri xüsusilə maraqlı görünür:”...vəhşi, yırtıcı və əhilləşdirilmiş heyvanlara, hər cür quşlara, bitkilərə, barlı və barsız ağaclara, təbiətin bəzi hadisələrinə, göy cisimlərinə, günəşə, aya, oda, əfsanəvi heyvana və quşa sitayiş edən əski dünya xalqlarının, o sıradan türkdilli xalqların ulu babaları bəzən həmin quşlara, heyvanlara, ağaclara, bitkilərə və s. yaranışlarında, soyadlarında qohumluq bağları olduğunu iddia etmişlər (1, 22). Həqiqətən də qəbilə və tayfa birlikləri səviyyəsində həyat tərzi keçirən qədim xalqlar onlara gərəkli olan, həyatlarını təmin edən xeyirxah əşya və hadisələr, həmçinin ziyan gətirən qorxunc qüvvələrə qeyri-adi nəzərlə baxmışlar. Gərəkli hadisələri xeyir verdiyinə görə, ziyan gətirənləri isə qorxduqlarına görə fövqəltəbii bir qüvvə hesab etmişlər. Hətta bəzi xalqlar özləri üçün həyati qüvvə hesab etdikləri müəyyən heyvanları, quşları və s. nəsillərinin davamı kimi qiymətləndirmişlər. Məsələn, qədim türklərində heyvan, quş onqonları məhz belə bir inamın nəticəsində meydana gəlmişdir. Hətta qədim qəbilə, tayfa ənənələrinə sadiq qalaraq indiki eskimoslarda və hindularda da qədim heyvan və quş inamları qorunub saxlanılır. Heyvanlara, quşlara, xeyirli və qorxunc təbiət hadisələrinə inam totemizmin meydana gəlməsində çox mühüm rol oynamış olsa da, türk xalqlarında bunların hansı birinin ilahi səviyyəyə qaldırılması barədə bir fikir söylənilməmişdir. Türk xalqlarında başlıca totemlər heyvanlara, quşlara, bəhrəli ağaclara olan müqəddəslik inamları ilə əlaqədar olaraq meydana gəlmişdir. Bu inamlar, həmçinin,

türk xalqlarının məskunlaşdığı ayrı-ayrı ərazilərdəki toponimik vahidlərdə də öz əksini tapır. Bunları nəzərə alaraq totem anlayışlı toponimik vahidlərin özlərini də heyvan, quş və bitki onqonları üzrə qruplaşdırmaq olar:

a) Heyvan onqonları bildirən toponimlər. Qədim türk tayfa və qəbilələrinin heyvan onqonları içərisində qurd/canavar, inək /sığır, öküz adları xüsusi yer tutmuşdur. "Qurd" sözü canavar mənasında qədim mənbələrdə də qeydə alınmışdır. Qədim mənbələrdə həmçinin qurd sözü ilə yanaşı, canavar mənasında börü sözünə də təsadüf edilir. Güman etmək olar ki, türk dillərində, o cümlədən Azərbaycan dilində həmin mənadakı canavar sözü bu xalqların İran xalqları ilə əlaqə və münasibətindən sonra işlədilməyə başlamışdır. Qeyd etmək lazımdır ki, fars dilinin özündə canavar sözü təkcə bizə məlum olan qurd mənasında yox, həm də ümumiyyətlə heyvan mənasında işlədilir (3,274) . Türk dillərində, o cümlədən Azərbaycan dilində isə bu sözün ancaq qurd anlayışına uyğun gələn mənası mənimsənilmişdir. Qurd sözünün totem mənasında işlədilməsinə dair real faktlara "Kitabi-Dədə Qorqud" dastanlarında xüsusilə geniş yer verilmişdir: *Qurd üzü mübarəkdir,qurlan bir xəbərləşəyin-dedi, görəlim, xanım nə xəbərləşdi. Ordumun xəbərin bilmirsən, degil mana! Qara başım qurban olsun , qurdum, sana! –dedi* (7, 33). Qurdun qədim türklərdə totem olması, həmçinin xalq dilindəki "qurd ağzı bağlamaq", "qurd yağı çəkmək" kimi ifadələrdə də qorunub saxlanmışdır. Aydın məsələdir ki, qurd özünün yıtrıcı təbiətinə görə insanlar üçün xeyirxahlıq rəmzi sayıla bilməzdi. Onun totem olması isə bilavasitə qorxu hissi ilə əlaqədardır. Müasir Azərbaycan toponimiyasında qurd, canavar sözləri ilə yanaşı börü komponenti də vardır. Azərbaycan ərazisində qurd adı ilə bağlı toponimik vahidlər nəzəri cəlb edir:*Börüdərə (Cəbrayıl), Börülü (Göyçay), Qurd Bayram (Kürdəmir), Qurdlar (Bərdə), Canavarlı (Bərdə), Qurdlar (Ağdam) və s.*

b) Quş onqonları bildirən toponimlər. Türk mənşəli toponimlər sistemində quş onqonlarının da mühüm rolu vardır. Qədim türklərdə quş onqonları , həmçinin ayrı-ayrı tayfa və qəbilələrin damğası-fərqləndirici nişanı kimi qəbul olunmuşdur. Quş adlarının qədim türklərdə beş əsas müqəddəs heyvan adlarından biri olduğunu göstərən tədqiqatçılar quş sözünə birləşən –an şəkilçisi ilə yaranan quçan sözünün cəmlik anlayışı bildirdiyini göstərmişlər. Belə nəticəyə gəlinir ki, quşanlar bir müddət Azərbaycan ərazilərində yaşamışlar: *Quşçu (Göyçay), Köhnə Quşçu (Şamaxı), Yuxarı Quşçu (Quba), Quşlar (İlisu), Quşlar (Ağdam), Quşçular (Şuşa) və s.* Növ anlayışı ilə əlaqədar aşağıdakı yer adlarını da göstərmək olar: *Laçınkənd (Laçın), Laçın (Kəlbəcər), Laçınlar (Şuşa), Göyərçin (Şuşa), Qarğabazar (Füzuli), Qarğalı (Masallı), Qarğalıq (Naxçıvan), Qarğalıq (Xaçmaz) və s. .(2, 56).*

c) Bitki onqonları bildirən toponimlər. İnsanın maddi həyatında bitkilərin və ağacların rolu böyükdür. Bitki və ağacların türk xalqlarında müqəddəslik rəmzi bildirən totem kimi qəbul olunması motivlərinə "Kitabi-Dədə Qorqud"dastanlarında da rast gəlmək olur: *Ağac-ağac dersəm sənə ərlənmə, ağac!Məkkə ilə Mədinənin qapısı ağac! Musayi-Kəlimin əsası ağac! Böyük-böyük suların körpüsü ağac! Qara-*

qara dənizlərin gəmisi ağac! (7, 218). Azərbaycan toponimiyasında ağac adları əsasən bir sıra yer adlarının yaranmasında, xüsusilə qoz, əzgil, nar, badam, armud, alça, çinar, söyüd kimi ağacların adları xüsusi yer tutur: *Qozağacı (Şabran), Qozlu (Laçın), Əzgilli (Zaqatala), Narbağı (Lənkəran), Nardaran (Bakı), Narlıq (Sabirabad), Badamlı (Şahbuz), Badamağac (Cəlilabad) Armudlu (Kəlbəcər), Armudlu (Qax), Alçalı (Kəlbəcər), Çinarlı (Qax), Çinartala (Xaçmaz), Söyüdlü (Gədəbəy), Söyüdlü (Kürdəmir) və s. (8, 43).*

Totem anlayışlı toponimik vahidlərin müasir dövrə qədər saxlanması, onların qədim areal xüsusiyyətlərinin müəyyən edilməsinə imkan yaradır. Bu isə hansı totem inamlarının hansı ərazidə daha çox üstünlük qazanmasını öyrənmək baxımından , həmçinin qədim etnik arealları müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyət daşıyır. Şübhəsiz, qədim etnik layların öyrənilməsi türk xalqlarının ilkin tarixi, coğrafiyası və etnoqrafiyası haqqında tutarlı, sanballı, orijinal fikirlər irəli sürülməsi imkanlarını da istisna etmir.

İstifadə edilmiş ədəbiyyat

1.Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 2013, 233 s.
2. Mollazadə S. Azərbaycan toponimiyası. Bakı: Bilik, 1985, 81 s
3. Ərəb və fars sözləri lüğəti . Bakı, Şərq-Qərb, 2005, 416 s.
3. Əhmədov T.Azərbaycan toponimiyasının yaranma və formalaşma yolları / Azərbaycan onomastikası problemləri. I b., Bakı: APİ, 1987, s. 131. 49.
4. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: BDU, 1991, 318 s. 50.
5.Əhmədova E. Azərbaycan etnonimləri. Bakı: Nurlan, 2007, 128 s.
6. Qurbanov A. Tədqiqatların yeni istiqamətləri. Azərbaycan onomastikası problemləri. № 6, Bakı, 1996, 280 səh.
7. Kitabi-Dədə Qorqud dastanları. Bakı, "Öndər" , 2004, 376
8. E.B.Nuriyev. Azərbaycan toponimiyasında bitki və heyvan adları. Bakı, 1986, 172 s.

Dürdanə Nağıyeva
Validə Vəliyeva

Totem anlayışlı toponimlərin paralelliyi

Xülasə

Toponimlər böyük ideoloji tarixi əhəmiyyətə malikdir. Çünki ayrı-ayrı çoğrafi adlar dilin qayda-qanunlarını, konkret xalqın, həmçinin onun törənməsində, formalaşmasında iştirak etmiş müxtəlif tayfa və etnik qrupların həyati keçmişini, eləcə də digər ictimai-siyasi amilləri özündə əks etdirir. Azərbaycan onomastik vahidləri, o cümlədən toponimlər bu gün də tarixi, coğrafi və dilçilik baxımından diqqətlə tədqiq olunmaqdadır. Aydın məsələdir ki, toponimləri tarixi, coğrafi və dilçilik baxımından kompleks şəkildə öyrəndikdə hər hansı bir ərazinin bütövlükdə hansı xalqa məxsus olduğu tarixi, coğrafi və dilçilik baxımından əsaslandırılmış olur ki, bu da hər hansı bir xalqın tarixinin saxtalaşdırılmasına yol vermir. Toponimlərin

mənşəyinə, etimologiyasına, struktur xüsusiyyətlərinə, yayılma areallarına həsr olunmuş bu məqalədə toponimlərin, həmçinin totem anlayışlı toponimlərin ayrı-ayrı növləri də araşdırılmış və maraqlı fikirlər irəli sürülmüşdür. Burada teonimlər, totemizmlər, sənət, peşə, məşğuliyyət anlayışlı toponimlər, həmçinin komponentləri paralel olan konstruktiv tipli adlar da təhlil edilir. Totem anlayışı qədim türk qəbilə və tayfaları üçün ən səciyyəvi xüsusiyyətlərdən biridir. Şübhəsiz, totemlər tanrı inamları səviyyəsində olmasa da, qədim türklərin müqəddəs hesab etdikləri varlıqlar kimi onların həyatında çox mühüm rol oynamışdır.

Дурдана Нагиева
Валида Валиева

Параллелизм топонимов с концепцией тотема

Резюме

Топонимы имеют большое идейно-историческое значение. Потому что отдельные географические названия отражают правила языка, историю жизни конкретного народа, а также различных племен и этнических групп, участвовавших в его происхождении и формировании, а также другие социально-политические факторы. Азербайджанские ономастические единицы, в том числе и топонимы, сегодня тщательно изучаются с исторической, географической и лингвистической точек зрения. Ясно, что при комплексном изучении топонимов с историко-географической и лингвистической точек зрения оправдывается с историко-географической и лингвистической точки зрения, что любая территория принадлежит какому-либо народу в целом, что не позволяют фальсифицировать историю любого народа. В данной статье, посвященной происхождению, этимологии, структурным особенностям, ареалам распространения топонимов, отдельным видам топонимов, а также топонимам с тотемным понятием были исследованы и выдвинуты интересные идеи. Здесь анализируются теонимы, тотемизмы, топонимы с понятием искусства, профессии, рода занятий, а также названия конструктивного типа с параллельными компонентами. Понятие тотеме — одна из наиболее характерных черт древнетюркских родов и племен. Несомненно, хотя тотемы и не стоят на уровне верований в богов, они играли очень важную роль в жизни древних тюрков как священные существа.

Durdana Nagieva
Valida Velieva

Parallelism of toponyms with the concept of totem

Summary

Toponyms have great ideological and historical significance. Because separate geographical names reflect the rules of the language, the history of the life of a particular nation, as well as various tribes and ethnic groups that participated in its

origin and formation, as well as other social and political factors. Azerbaijani onomastic units, including toponyms, are now carefully studied from historical, geographical and linguistic points of view. It is clear that with a comprehensive study of toponyms from the historical-geographical and linguistic point of view, it is justified from the historical-geographical and linguistic point of view that any territory belongs to any nation as a whole, which does not allow to falsify the history of any nation. Interesting ideas were investigated and advanced in this article, devoted to the origin, etymology, structural features, distribution areas of toponyms, separate types of toponyms, as well as toponyms with a totemic concept. Here are analyzed theonyms, totemisms, toponyms with the concept of art, profession, type of occupation, as well as names of constructive type with parallel components. Representation of a totem is one of the most characteristic features of ancient Turkic tribes and tribes. Undoubtedly, although totems are not at the level of belief in gods, they played a very important role in the life of the ancient Turks as sacred beings.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: f.ü.f.d., dosent E.A.Quliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

AXUNDOVA GÜLŞƏN
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ ETNOQRAFİK SƏCİYYƏLİ GEYİM ADLARINDA NOMİNASIYA NÖVLƏRİ

Açar sözlər: dil sistemi, dil daşıyıcıları, adlandırma, milli-mədəni komponent, birinci dərəcəli nominasiya, motivləşmiş, ümumiləşdirmə.

Ключевые слова: языковая система, носители языка, номинация, национально-культурный компонент, первичная номинация, мотивированный, обобщение.

Key words: language system, bearers of language, nomination, national-cultural component, primary nomination, motivated, generalization.

Məlumdur ki, etnoqrafizmlər müəyyən bir xalqa və yaxud etnosa məxsus olan, spesifik milli-mədəni xüsusiyyətləri əks etdirən əşya, məfhum və s. bildirən adlardır. Etnoqrafizmlər adətən digər dillərə tərcümə olunmayan, ekzotik xarakterli dil vahidləridir, onlar yalnız izahlı tərcümə vasitəsilə digər dillərdə anlaşılır (bax: 10).

Etnoqrafizmlər yalnız müəyyən ərazidə, müəyyən xalqın məskunlaşdığı yerdə işlənir, bu xalqın dərk etdiyi dünyanın dil mənzərəsini səciyyələndirir. Bu tədqiqata biz etnoqrafizmlərin ən səciyyəvi növü olan Azərbaycan və ingilis dillərində geyim adlarını cəlb etmişik.

Geyim adları *"öz spesifik milli-mədəni mənaları ilə nəinki hər bir xalqın dil kollektivini səciyyələndirən həyat tərzini, həmçinin onun təfəkkür tarixini də əks etdirir"* (5. s. 88).

Bu tədqiqata biz hər şeydən əvvəl elə geyim adlarını cəlb etmişik ki, onların mənasında milli komponent daha qabarıq duyulsun. Doğrudur, məntiqi kateqoriyaların, insan təfəkkürünün ümumiliyi bütün dillərdə ümumi leksik fondun mövcudluğuna gətirib çıxarmışdır. Lakin bütün ümumi şəraitlərə baxmayaraq, hər bir xalqın yalnız ona məxsus olan mədəni realiyaları, məişət və ətraf mühitin məfhumları vardır ki, onları digər mədəniyyətlərdə tapmaq qeyri-mümkündür. Hər bir di mənasında milli-mədəni komponentlər olan dil vahidlərinə malikdir və bu sözlərə toponimlər, frazeologizmlərdən başqa etnoqrafizmlər və o cümlədən geyim adları da daxildir.

Bu vahidləri bəzi tədqiqatçılar "linqvokulturema" da adlandırır və bu termin bircə sözdə dilin və mədəniyyətin vəhdət təşkil etməsini göstərir. Bu vahidləri öyrənərkən biz müxtəlif dil daşıyıcılarının dünyanı dərk etməsinin və əks olunmasının xüsusiyyətlərini müəyyən etmiş oluruq (3).

Yuxarıda qeyd olunduğu kimi, müasir mərhələdə milli-mədəni semiotikaya malik sözlər həm semasioloji, həm də linqvo-kulturoloji aspektdə öyrənilməlidir. Bu baxımdan milli-mədəni komponentli sözlərə aid olan geyim adları olduqca böyük aktuallıq kəsb edirlər, çünki hər bir dildə təzahür edən motivləşmə, birinci və ikinci dərəcəli nominasiya növlərini fərqləndirməyə zəmin yaradırlar.

Azərbaycan və ingilis dillərindəki müəyyən hissəsini etnoqrafizm təşkil edən geyim adları sinxron planda semantik cəhətdən tədqiq edilərkən onları aşağıdakı qruplara bölmək olur: 1) birinci dərəcəli nominasiya nəticəsində əmələ gələn adlar (motivləşməmiş adlar); 2) ikinci dərəcəli nominasiya nəticəsində əmələ gələn adlar (motivləşmiş adlar).

Yuxarıda qeyd olunduğu kimi, birinci dərəcəli nominasiya əksər dillərdə nisbətən az rast gəlinən dil hadisəsidir. Dilin nominativ fondu əsasən ikinci dərəcəli nominasiya hesabına zənginləşir. İkinci dərəcəli nominasiyada insan təfəkkürünün assosiativ xarakteri həlledici rol oynayır, yəni əşyanın adlandırılmasında artıq bəlli olan adın mənasının ya bənzətmə, ya da oxşarlıq xüsusiyyətləri ön plana çəkilir və yeni yaranan adda mənanın yeniləşməsi baş verir.

Yenidən mənalandırma artıq mövcud olan biliklərə əsaslanır və bu biliklər də öz növbəsində yeni sözün ya komponentlərin mənasında, ya da daxili formasında öz əksini tapır. Məsələn: 1. Azərbaycan və ingilis dillərində birinci dərəcəli nominasiya nəticəsində yaranmış geyim adları. Azərbaycan: *köynək, ətək, jaket, paltar, pijama. İngilis: shirt, skirt, jacket, dress, pyjamas.*

Azərbaycan və ingilis dillərində ikinci dərəcəli nominasiya nəticəsində yaranmış geyim adları: Azərbaycan: *ziyafət paltarı, hündürdaban ayaqqabı*.

İngilis: *evening dress, undershirt, high-heel shoes.* Dilçilikdə birinci dərəcəli nominasiya nəticəsində yaranmış sözlər motivləşməmiş sözlər hesab olunur, onlar bütün dil daşıyıcıları tərəfindən birinci dərəcəli hesab olunur və onların yaranma üsullarını yalnız etimoloji və yaxud tarixi təhlil nəticəsində müəyyən etmək olur.

İkinci dərəcəli nominasiya məfhumu ilə motivləşmə məfhumu ayrılmaz əlaqədədir: *"Motivləşmə sözün elə bir əlamətidir ki, bu sözün səslənməsi və mənası arasında əlaqəsi həmin sözün eyniköklü və yaxud eyni strukturlu sözlərlə münasibəti müəyyən edilmiş olsun" (*2, s. 66).

Motivləşmiş sözlər dilin milli spesifikliyini olduqca dolğun və qabarıq əks etdirir və bilavasitə bu dilin daşıyıcılarının milli təfəkkürü ilə bağlıdır. Bir qayda olaraq, geyimlərin adlandırılmasının əsasını əşyanı səciyyələndirən bir və yaxud bir neçə əlamət təşkil edir. D.N.Şmelyovun fikrincə, "insan yaratdığı əşyaların adları semantik cəhətdən funksionallığa yönəlib. Bu əşyaların zahiri görünüşünə gəldikdə isə burada motivləşmiş əlamətlər kimi material, forma, rəng çıxış edə bilər" (6, s. 234-235).

Dilçilik ədəbiyyatında motivləşmiş əlamət "kifayət qədər səciyyəvi" (4, s. 269) və ya "ən qabarıq" (7, s. 336) adlandırılır.

Qeyd olunmalıdır ki , bu və ya digər dil daşıyıcıları asanlıqla nominasiya prinsipini, yəni motivləşmiş əlaməti dərk edirlər. Məsələn, biz asanlıqla ingilis dilində aşağıdakı geyim adlarının yaranma prinsiplərini təyin edə bilərik, *sooker* – (*to soak* – hopmaq feili) – su keçirməyən uşaq tumanı; *scullcap* (*scull*-kəllə deməkdir) – araqçın. Və yaxud Azərbaycan dilindəki *gödəkcə, biləkcə, şapşap* geyim adlarının da nominasiya prinsipləri olduqca aydındır.

İkinci dərəcəli nominasiya qrupuna Azərbaycan və ingilis dillərinin daha gec mərhələlərində yaranmış geyim adları daxildir ki, onlar müasir dil daşıyıcıları tərəfindən asanlıqla anlaşılır. Beləliklə, motivləşmə xüsusiyyətlərindən asılı olaraq Azərbaycan və ingilis dillərində ikinci dərəcəli nominasiya nəticəsində yaranmış geyim adlarını iki qrupa ayırmaq olar: 1) Birbaşa nominasiya nəticəsində yaranmış geyim adları (motivləşməmiş əlamət bilavasitə sözün kök-morfemi ilə əks olunur); 2) Sözün məcazi mənası əsasında yaranmış geyim adları (vasitəli nominasiya, yəni motivləşmiş məna digər, artıq mövcud olan sözlə assosiativ əlaqə nəticəsində dərk edilir). Beləliklə, motivləşmiş əlamətləri yekunlaşdıraraq ikinci dərəcəli nominasiya prinsipini D.Şmelyovun tərifinə əsasən başa düşürük: "Bu nominasiya prinsipi elə vəziyyətdir, dil daşıyıcıların motivləşmiş əlamətlərin ümumiləşdirməsi nəticəsində yeni sözlər yaranır və onlar da öz növbəsində digər yeni sözlərin, yeni adların yaranmasına zəmin yaradır" (bax. 6, s. 234).

İndi ingilis dilində ikinci dərəcəli nominasiya nəticəsində yaranmış geyim adlarını təhlil edək.

Bu növ nominasiyanın birinci qrupuna, yəni birbaşa nominasiya qrupuna elə geyim adları daxildir ki, onların adları əşyaların əsas əlamətləri, xüsusiyyətləri və funksiyaları əsasında yaranmışdır, məsələn: *sweater (to sweat* feili tərləmək) – sviter. Bu geyim adı etnoqrafizm sayıla bilər.

snuggles (to snuggle feili – bərk sıxılmaq) – kolqotka.

İkinci qrupa assosiativ əlaqə, məcazlaşma nəticəsində yaranmış geyim adları daxildir, məsələn: *broom – stick skirt* – (*broom stick* – süpürgə ağacı – yubka – karandaş – (düz biçimli ətək); *stovepipe* – tüstü çəkən baca) – silindr (papaq növü). Axırıncı iki misalda verilən geyim adları ingilis dilində etnoqrafizm hesab edilməlidir.

Biz geyim adları tematik qrupunu hər şeydən əvvəl motivoloji səviyyədə, yəni leksik vahidlərin hər iki dildə motivasion – kontrastiv və etnoqrafizm nöqteyi-nəzərindən təhlilini aparırıq. Məlumdur ki, dünyanın dil mənzərəsi müxtəlif semantik kontiniumlardan ibarətdir. Lakin hər bir milli dil şüuru bu kontiniumları fərqləndirmək üçün özünün spesifik üsullarını seçir. Bu üsullar onunla müəyyən edilir ki, ingilis və Azərbaycan dillərində geyimlərin adlandırılmasında hansı məfhum sferalarına üstünlük verilir, bu sferanın daxili formalarında hansı məfhumlar ehtiva olunur və bu leksikanın motivasiyası hansı yollarla reallaşır?

Tədqiqatda aparılmış motivasion-kontrastiv təhlil göstərir ki, ingilis və Azərbaycan dillərində geyim adlarını əks etdirən linqvokulturemlər bu dillərdə

müəyyən qanunauyğunluqlara tabe olurlar, oxşar nominativ prinsiplərə əsasən formalaşırlar, konkret semantik sahə ilə əlaqəlidirlər. Bu onunla izah olunur ki, hər iki dildə geyim adları əsasən ümumi (universal) səciyyə daşıyır, lakin bu adların reallaşmasında hər iki dildə spesifik cəhətlər də özünü göstərir ki, bunlar hər iki xalqın milli-etnik xüsusiyyətləri ilə bağlıdır. Hər iki dildə ikinci dərəcəli nominasiyada geyim adlarında funksionallıq, istifadə olunmuş material, sosial, milli və professional mənsubiyyət, geyim tərzi, geyimin forması və s. əsas rolu oynayır.

Azərbaycan dilindəki geyim adlarında əsas motivləşmə əlaməti kimi geyimin funksionallığı ön plana çəkilir. İngilis dilində geyimin materialı, forması və geyim tərzi böyük əhəmiyyət kəsb edir. Geyimlərin forması hər iki dildə olduqca tutumlu sistem təşkil edir.

Qeyd etmək lazımdır ki, ingilis dilində Azərbaycan dilindən fərqli olaraq, geyim adlarında eponimlərin, yəni şəxsiyyət adlarının rolu olduqca böyük və əhəmiyyətlidir. Bu qəbildən olan geyim adlarını etnoqrafizm hesab etmək olar, məsələn:

Makintosh – (bu geyim növünün adı onu icad eləyənin adından götürülmüşdür) – su keçirməyən plaş;

Jack – (Jack şəxs adından əmələ gəlmişdir) – qolsuz, dəridən tikilmiş əsgər gödəkcəsi);

Garibaldi shirt və yaxud *Garibaldi jacket* – Qaribaldi köynəyi və ya Qaribaldi jaketləri (İtalyan inqilabçısı Juzeppe Qaribaldinin adı ilə bağlıdır);

Chanel's little Black dress (fransız modelyeri Koko Şanelin adı ilə bağlıdır) – Şanelin düz biçimli qara paltarı;

Cardigan – düymələri qabaqda yerləşən toxunma uzun jaket (Kardiqan nəslindən olan 7-ci qraf Jeyms Brudenelin adı ilə bağlıdır);

The Bloomer Costume – Blumer kostyumu (bu geyim növünün adı modelyer Amelia Blumerin adı ilə bağlıdır).

The Wellington boots – Velington ayaqqabısı (bu ayaqqabı növünü Hersoq Velinqton birinci dəfə təklif etmiş və dəbə gətirmişdir).

The Stetson hat – Stetson papağı – Con Stetson kampaniyasının banisinin şərəfinə bu geyim növünə bu ad verilmişdir (8, 3 1043; 9).

Gördüyünüz kimi, bütün bu misallar etnoqrafizmdir, bunlarda ikinci dərəcəli nominasiya müşahidə olunur, bunlar motivləşmənin məhsuludur, yenidən mənalandırmanın məhsuludur.

Geyim adları leksik qrupunda ingilis dilində toponimlərin istifadəsi Azərbaycan dilinə nisbətən daha genişdir, məsələn:

Oxford shoes – Oksford ayaqqabısı (Oksford şəhərinin adı ilə bağlıdır).

Bermuda shorts – Bermuda şortları (Bermuda yarımadasının adı ilə bağlıdır).

Panama – panama (papaq növü – Panama ölkəsinin adı ilə bağlıdır);

Hawaiian shirts – Havaya köynəkləri – Havay adalarının adı ilə bağlıdır.

Azərbaycan dilində isə yer adları ilə əlaqədar etnoqrafizm səciyyəli motivləşmiş, ikinci dərəcəli nominasiyaya aid olan baş örtüklərinin adları mövcuddur, məsələn: Gəncə, Basqal, Şəki, Herati kələyağıları, panama (papaq növü) və s.

Sonda qeyd etmək lazımdır ki, geyim adları taksonomik qrupunda həm Azərbaycan, həm də ingilis dillərində motivləşmənin və yaxud ikinci dərəcəli nominasiyanın rolu olduqca böyükdür. Motivləşmiş geyim adlarının bir çoxu etnoqrafik səciyyə daşıyır, bunlarda antropomorfizm geniş rol oynayır.

Ədəbiyyat

1. Məmmədov İ.O. Azərbaycan dilinin etnoqrafik leksikası. Doktorluq dissertasiyası. Bakı, 1992.
2. Блинова О.И. Русская диалектология. Лексика. Учебное пособие. Издательство Томского Университета. Томск, 1984.
3. Егорова К.А. Лингвистические особенности бытовой лексики аутентичных путеводителей по России. Автореферат диссертации на соискание учёной степени кандидата филологических наук. Санкт-Петербург, 2013.
4. Коготкова Т.С. Русская диалектная лексикология (состояние и перспективы). Москва, Наука, 1979.
5. Ощепкова В.В. Язык и культура Великобритании. Канады, Новой Зеландии. Москва, СПб. Глосса? /КАРО, 2004.
6. Шмелёв Д.Н. Проблемы семантического анализа лексики (на материале русского языка. Москва, Наука, 1973.
7. Языкознание. Большая Российская Энциклопедия. Москва, 1998.
8. The Concise Oxford Distionary. Edited by J.B.Sykes. Oxford University Press, 1987.
Nusxuri sözü gürcü dilində ölçü və ya cədvəl anlamını verən nusxa (*gürc.* ნუსხა) sözündən əmələ gəlmişdir. Dini əlyazmalarda Nusxuri yazıları Asomtavruli bəzəkli kapitalları ilə zənginləşdirilmişdir. Bu kombinasiya **Xutsuri** (xutsesi (*gürc.* ხუცური) – klerik sözündən əmələ gəlmiş

(*gürc.* ბერძენი , "klerikal" sözü əsasında) və əsasən aqioqrafik əlyazmalarda istifadə olunmuşdur [7, 21].

Nusxuri yazısı ilk dəfə IX əsrdə Asomtavruli yazısının qrafik variantı kimi meydana çıxmışdır. Bu yazının ən qədim nümunəsi 835-ci ilə aid Ateni Sioni kilsəsindən tapılmış kitabədir. Dövrümüzə çatmış ən qədim Nusxuri əlyazması 864-cü ilə aid edilir. X əsrdən etibarən Nusxuri Asomtavruli üzərində üstünlük əldə etmişdir.

Nusxuri hərfləri hündür ölçüləri və sağa meylli olmaları ilə fərqlənirlər. Hərflər kəskin kənarlara və Asomtavruli hərflərində olduğu kimi sadə formaya malikdirlər. Bu xüsusiyyətlər əlyazmaların daha asan yazılmasına imkan verirdi.

Aşağıdakı şəkildə hər bir Nusxuri hərflərinin yazılma tərzi və xəttlərin istiqaməti göstərilir.

Şəkil 4. Nusxuri yazıları.

Asomtavruli daha çox ikonoqrafiya, divar rəsmləri və eksteryer dizaynında, xüsusilə daş qabartmalarda istifadə olunur. 1950-ci illərdə gürcü linqvisti Akaki Şanidze Asomtavruli hərflərini Mxedruli hərfləri içində cümlə başında, latın hərflərində olduğu kimi istifadəsinə cəhd etsə də, bu cəhd uğurlu alınmamışdır. Mxedruli yazısı ilə yanaşı Asomtavruli və Nusxuri yazısı da Gürcü

Ortodoks Kilsəsi tərəfindən rəsmən istifadə olunur. Gürcüstan patriarxı II İliya hər üç yazının istifadəsi üçün çağırış etmişdir.

IV. Mxedruli yazısı.

Mxedruli (*gürc.* მხედრული) üçüncü və hazırda istifadə olunan gürcü yazısıdır. Gürcü dilində "atlı", "cəngavər", "döyüşçü" və "kavalyer" mənasını verən *mxedari* (*gürc.* მხედარი) sözündən əmələ gəlmiş *mxeduri* sözü "süvari" və ya "hərbi" mənalarını ifadə edir [8, 11-17].

Digər iki gürcü yazısı kimi Mxedruli yazısı da tamamilə unikameraldır. Mxedruli yazısı ilk dəfə X əsrdə meydana çıxmışdır. Bu yazının ən qədim nümunəsi Ateni Sioni kilsəsinən aşkarlanmış 982-ci ilə aid kitabədir. İkinci ən qədim Mxedruli yazı nümunəsi Kral IV Baqratın XI əsrə aid nizamnaməsidir. Gürcüstan krallığında Mxedruli yazısı əsasən nizamnamələr, tarixi sənədlər, əlyazmalar və kitabələrin yazılması üçün istifadə olunurdu. Mxedruli yalnız qeyri-dini yazılar üçün istifadə olunduğundan xalqın, zadəganların dünyəvi yazısı hesab olunurdu.

XIX əsrdə Xutsuri (Nusxuri və Asomtavruli) yazısının istifadəsi ilə Mxedruli hər iki yazı üzərində üstünlük əldə edir. O dövrdən sonra, Gürcü kilsəsi xaricində Mxedruli universal yazı sisteminə çevrilmişdir.

X-XI əsr Mxedruli hərfləri Nusxuri hərflərinin dairəvi künclərlə yazılması əsasında formalaşdırılmışdır. Nusxuri hərfləri kimi Mxedruli hərfləri də dörd xəttli sistemlə yazılır. Lakin, Mxedruli hərfləri daha dairəvi və müstəqil yazılma xüsusiyyətinə malikdir. Bu iki qədim yazı forması olan Asomtavruli və Nusxurinin sərt yazı çərçivələrini pozmuşdur. Mxedruli hərfləri bitişik yazılır və daha azad görünüşə malikdirlər.

Şəkil 5.Mxedruli yazısı.

1879-cu ildə əsası şahzadə İlya Çavçavadze tərəfindən qoyulmuş "Gürcülər arasında savadlılığın yayılması cəmiyyəti" lazımsız olması səbəbi ilə Gürcü əlifbasından beş hərfi ixtisar etmişdir:

ჱ	ჲ	ჯ	ჴ	ჵ
he	*hie*	*vie*	*qari*	*hoe*

Cədvəl 1. Gürcü əlifbasından çıxarılmış hərflər.

- ჱ (**he**), bəzən "***ei***" və ya "*e-merve*" ("səkkizinci *e*"), adlandırılır, ქრისტჱ ~ ქრისტეჲ **krist'ey** – Məsih sözündə olduğu kimi ეჲ **ey** ekvivalentidir.
- ჲ (*hie*), bəzən *iota* da adlandırılır, appeared instead of ი (*ini*) sait səslərdən sonra ი (ini) kimi tələffüz olunur. ქრისტჱ ~ ქრისტეჲ *krist'ey* Məsih hazırda ქრისტეი *krist'ei* kimi yazılır.
- ჯ (*vie*)[1] ვი *vi* kimi tələffüz olunurdu və სხჯსი > სხვისი *skhvisi* - şəklində əvəzlənmişdir.

- ჴ (*qari*, *hari*) (*khani*) ჴ ლმ წ ი ფ ე > ხ ე ლმ წ ი ფ ე - müstəqil şəklində əvəzlənmişdir.
- ჵ (*hoe*) hoi! kimi tələffüz olunan nida kimi istifadə edilmişdir və hazırda ჰ ო ი kimi tələffüz olunur.

ჵ (hoe) istisna olmaqla digər dörd hərf hələ də Svan əlifbasında istifadə olunur; ჲ (hie) isə y-səsi /j/ üçün Meqrel və Laz əlifbalarında istifadə olunur. Digər hərflər də bir müddət Abxaz və Osetin əlifbalarında istifadə olunmuşdur.

Mxedruli əlyazısı

Şəkil .Mxedruli yazısı.

ზ , ო və ხ (zeni, oni, khani) adətən sonda kiçik çıxıntı olmadan yazılır, lakin, ჯ (jani) əlyazısında adətən vertikal xəttlərdən istifadə olunur, bəzən daha hündür başlıq ჯ və ya xaç formalı başlıqla yazılır, lakin, əgər xaç başlıqla yazılırsa nəşr zamanı başlığı daha qısa yazılır.

- Yalnız dörd hərf x-hündürlüyə malikdir: ა , თ , ი , ო .
- On üç hərf, Azərbaycan əlifbasının b və ya d hərfləri kimi yuxarı çıxıntıya malikdir: ბ , ზ , მ , ნ , პ , რ , ს , შ , ჩ , ძ , წ , ხ , ჰ .
- On üç hərf isə Azərbaycan əlifbasının p və ya q hərfləri kimi aşağı çıxıntıya malikdir: გ , დ , ე , ვ , კ , ლ , ჟ , ტ , უ , ფ , ღ , ყ , ც .
- Üç hərfin qədim ingilis əlifbasındakı þ hərfi kimi həm aşağı, həm də yuxarı çıxıntıya malikdir: ქ , ჭ , ჯ . წ hərfi isə əsasən nəşrdə, bəzən isə əlyazısında həm aşağı, həm də yuxarı çıxıntıya malikdir.(8.səh20-44)

Yazı müasir insanların dünya görünüşünün formalaşmasında xüsusi əhəmiyyət kəsb edib və edəcək. Biz yazı vasitəsilə biliklərə yiyələnir, müxtəlif elmlərin sirlərini öyrənə bilirik. Ona görə də yazının həyatımızda nə qədər əhəmiyyətli olduğunu unutmamalıyıq.

РЕЗЮМЕ
Происхождение грузинской письменности.

Письменность – это группа знаков, обеспечивающих нормальное восприятие устной речи. Письменность считается одним из величайших открытий человечества. Письменность возникла из-за потребности в общении в условиях, когда люди не могли общаться вербально. Процесс создания грузинской письменности также связан с указанными выше причинами. В статье дана подробная информация о происхождении грузинской письменности, этапах исторического развития, и в то же время для наглядности идеи использованы рисунки и таблицы.

Для письма на грузинском языке используются письменности асомтаврули, нусхури и мхедрули, причем буквы всех трех письменностей эквивалентны друг другу, имеют одинаковое название и алфавитный порядок, и все три однопалатные (без учета регистра). Хотя используются все три, сценарий Мхедрули считается стандартным шрифтом для грузинского и других родственных картвельских языков.

Письмо имело и будет иметь особое значение в формировании мировоззрения современных людей. Благодаря письму мы приобретаем знания и познаем секреты различных наук. Поэтому мы не должны забывать, насколько важна писательская деятельность в нашей жизни.

Ключевые слова: Асомтаврули, Нушури, Мхедрули, Мрквловани, киноварь, птичьи украшения, «бурук», хуцури, Иконография, экстерьер.

RESUME
The origin of the Georgian script.

Writing is a group of signs that ensure the normal perception of spoken language. Writing is considered one of the greatest discoveries of mankind. Writing was born out of the need for communication in conditions where it was impossible for people to communicate with language. The process of creating Georgian writings is also related to the reasons mentioned above. The article provides detailed information about the origin of Georgian writing, historical development stages, and at the same time, pictures and tables are used to present the ideas clearly.

Asomtavruli, Nuskhuri, and Mkhedruli scripts are used to write Georgian, and the letters of all three scripts are equivalent to each other, have the same name and alphabetical order, and all three are unicameral (case insensitive). Although all three are used, the Mkhedruli script is considered the standard script for Georgian and other related Kartveli languages.

Writing has been and will continue to be of special importance in the formation of the world view of modern people. Through writing, we acquire knowledge and learn the secrets of various sciences. Therefore, we should not forget how important writing is in our life.

Key words: Asomtavruli, Nushuri, Mkhedruli, Mrqvlovani, cinnabar, bird ornaments, "buruk", Khutsuri, Iconography, exterior.

Ədəbiyyat

1.*Shosted, Ryan K.; Chikovani, Vakhtang, "Standard Georgian", Journal of the International Phonetic Association, 36 (2), 2006: 255–*
2.Javakhishvili, I. *Georgian palaeography* Tbilisi, 1949
3.Barnaveli, T. *Inscriptions of Ateni Sioni* Tbilisi, 1977
4.Pataridze, R. *Georgian Asomtavruli* Tbilisi
5. Machavariani, E. *Georgian manuscripts* Tbilisi, 2011
6. Gamkrelidze, T. *Writing system and the old Georgian script* Tbilisi, 1989
7. Kilanawa, B. *Georgian script in the writing systems* Tbilisi, 1990
8. Mchedlidze, T. The restored Georgian alphabet, Fulda, Germany, 2013

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Ülviyyə Əfəndiyeva tərəfindən çapa tövsiyə olunmuşdur

RAHİMOVA GULNARA
Associate professor
Department of foreign languages
Azerbaijan Medical University, Mardanov qardashları 58
r.gulnara1963@gmail.com

IS SIGN LANGUAGE ONLY A MATTER OF MAKING SIGNS WITH THE HANDS?

Abstract

While many people are familiar with sign language, few realize just how rich and complex it truly is. Sign language's not just about hand gestures, but encompasses a full spectrum of body movements, facial expressions, and even the position of the eyes. Sign language's a visual language that offers a unique way of communicating that goes beyond spoken language. In this article, I will explore the fascinating world of sign language, its history, different types (such as ASL), and how it is used in different cultures around the world. A closer look will be taken at some of the misconceptions surrounding sign language and highlight its importance in promoting communication and understanding between individuals who are deaf, or difficult of hearing, and those who are hearing. Also, in this scientific work a sign language interpreter , which became a pop culture phenomenon for her energy and facial expressions, will be discussed.

Keywords: *sign language, ASL, communicating, misconceptions, deaf individuals*

RƏHİMOVA GÜLNARA SAHİB QIZI

İŞARƏ DİLİ YALNIZ ƏL JESTLƏRİ İLƏ BAĞLIDIR?

Xülasə

Bir çox insan işarə dili ilə tanış olsa da, çox az adam onun nə qədər zəngin və mürəkkəb olduğunu başa düşür. İşarə dili təkcə əl jestləri ilə bağlı deyil, həm də bədən hərəkətlərinin, üz ifadələrinin və hətta gözlərin mövqeyinin tam spektrini əhatə edir. İşarə dili danışıq dilindən kənara çıxan unikal ünsiyyət üsulunu təklif edən vizual dildir. Bu yazıda işarə dilinin füsunkar dünyasını, onun tarixini, müxtəlif növlərini (məsələn, ASL kimi) və dünyanın müxtəlif mədəniyyətlərində necə istifadə edildiyini araşdıracam. İşarə dili ilə bağlı bəzi yanlış təsəvvürlərə daha yaxından nəzər salınacaq və onun kar və ya eşitmə qabiliyyəti zəif olan şəxslərlə eşidənlər arasında ünsiyyət və anlaşmanı təşviq etməkdə əhəmiyyəti vurğulanacaq. Həmçinin, bu elmi işdə enerjisi və mimikaları ilə pop mədəniyyət fenomeninə çevrilmiş surdo-tərcüməçidən bəhs ediləcək.

Açar sözlər: *işarə dili, ASL, ünsiyyət, yalnış təsəvvürlər, kar şəxslər*

Introduction

Sign languages (also known as **signed languages**) are languages that use the visual-manual modality to convey meaning, instead of spoken words. Sign languages are expressed through manual articulation in combination with non-manual markers. Sign languages are full-fledged natural languages with their own grammar and lexicon. Also, it should not be confused with body language, a type of nonverbal communication.

Wherever communities of deaf people exist, sign languages have developed as useful means of communication and form the core of local Deaf cultures. Although signing is used primarily by the deaf and hard of hearing, it is also used by hearing individuals, such as those unable to physically speak, those who have trouble with oral language due to a disability or condition (augmentative and alternative communication), and those with deaf family members including children of deaf adults.

History

Groups of deaf people have used sign languages throughout history. One of the earliest written records of a sign language is from the fifth century BC, in Plato's *Cratylus*, where Socrates says: "If we hadn't a voice or a tongue, and wanted to express things to one another, wouldn't we try to make signs by moving our hands, head, and the rest of our body, just as dumb people do at present?" Until the 19th century, most of what is known about historical sign languages is limited to the manual alphabets (fingerspelling systems) that were invented to facilitate the transfer of words from a spoken language to a sign language, rather than documentation of the language itself. Debate around the monastic sign-language developed in the Middle Ages has come to regard it as a gestural system rather than a true sign language.

The earliest records of contact between Europeans and Indigenous peoples of the Gulf Coast region in what is now Texas and northern Mexico note a fully formed sign language already in use by the time of the Europeans' arrival there. These records include the accounts of Cabeza de Vaca in 1527 and Coronado in 1541.

It was long thought in many cultures that the deaf were ineducable, and the few teachers willing to try were available only to the wealthy. In the mid-18th century, however, the first educator of poor deaf children, Charles-Michel, abbé de l'Epée, developed a system for spelling out French words with a manual alphabet and expressing whole concepts with simple signs. From l'Epée's system developed French Sign Language (FSL), still in use in France today and the precursor of American Sign Language (ASL) and many other national sign languages.

Types of Sign Languages

American Sign Language (ASL) is the most widely-used sign language around the world. Signers are spread across the USA and Canada, as well as parts of

Mexico, Africa, and Asia. It developed when French Sign Language (FSL) was brought over to the USA in 1817 by Thomas Gallaudet and Laurent Clerc. There, it mixed with local indigenous languages to create what is now called ASL.

In Great Britain, signers usually use British Sign Language (BSL). BSL is part of the BANZSL tree, which also connects Australian Sign Language (AUSLAN) and New Zealand Sign Language (NZSL). All of these languages share the same roots and some similar signs. Signers using different languages cannot understand one another as they are not mutually intelligible.

The formation of Nicaraguan Sign Language (NSL) is famous among linguists as an example of a complex sign language being formed at lightning speed when children from around the country came together at a deaf school. Teachers tried to teach them Spanish Sign Language (LSE). The students preferred to find their own ways to express themselves. They rapidly developed their own signs with increasingly complex grammar.

Before ASL developed, someone traveling between states – even between villages – would encounter different sign languages and could struggle to be understood. Martin Heavy Head Jr., who was raised using Plains Indian Sign Language (PISL), told the CBC that PISL was a common language used to form treaties between different Plains nations such as Cree, Crow, Sioux, and Gros Ventre (a *lingua franca,* much like English is used for international conferences). This way they could make sure that there were no misunderstandings due to differences in spoken languages. In fact, it is commonplace for everybody in his tribe to use signs whether they are hearing or deaf.

A village sign language is a local indigenous language that typically arises over several generations in a relatively insular community with a high incidence of deafness, and is used both by the deaf and by a significant portion of the hearing community, who have deaf family and friends. The most famous of these is probably the extinct Martha's Vineyard Sign Language of the U.S., but there are also numerous village languages scattered throughout Africa, Asia, and America.

Deaf-community sign languages, on the other hand, arise where deaf people come together to form their own communities. These include school sign, such as Nicaraguan Sign Language, which develop in the student bodies of deaf schools which do not use sign as a language of instruction, as well as community languages such as Bamako Sign Language, which arise where generally uneducated deaf people congregate in urban centers for employment.

In the village of Bengkala, Indonesia, there is a sign language called “Kata Kolok” (“deaf talk” in Indonesian). Half of the hearing (“enget”) inhabitants of the community decided to learn the language to communicate with the deaf (“kolok”), which means social groups can mix with ease. It is an animated, humorous language. Lively actors in the village have fun adding to existing signs.

In Alipur, a village in the state of Delhi in India, all 20,000 of its residents use Alipur Sign Language (APSL). Deaf citizens thrive socially as they can mix with hearing people, unlike in many societies where they would be socially isolated. The language development of deaf children here is completely age-appropriate, which is a wonderful accomplishment.

Common misconceptions about sign language

There are several common misconceptions about sign language that people often have. One of them is that sign language is just a simple translation of spoken language into gestures. In reality, sign language has its own grammar and syntax, and many signs are not directly related to spoken words. Sign language's a complex and nuanced language in its own right.
Some people also assume that all deaf people use sign language, but this is not the case. Not all deaf people use sign language, and some may prefer to communicate using written language or lip reading.

Another common misconception is that sign language is only used by deaf people. In fact, sign language can be used by anyone who wants to communicate with deaf people, including family members, friends, and interpreters.

Lastly, it is important to remember that sign language's not just a visual representation of spoken language. It is a unique and rich language that has its own culture and history. Understanding these common misconceptions can help us to better appreciate and respect the complexity of sign language as a language and communication tool.

Inflections

Almost any sign can be modified. Furrowing your eyebrows, tilting your head, puffing your cheeks or shifting your body are just a few ways that you can use to change the meaning of what you are saying. Any inflection that doesn't require your hands is called a non-manual marker. An accomplished ASL speaker can convey a lot of information with only a few gestures coupled with non-manual markers.

Another way to modify signs, particularly action signs, is to alter the speed with which you make the sign or by directionalizing the sign. If you make the sign for "eat" very slowly, for example, you can communicate that you took your time while eating. To directionalize concepts, you orient signs in a particular direction to communicate a specific meaning. If you wanted to communicate the English phrase "I gave you a gift" to your receiver, you would make the sign "give" towards your receiver, followed by the sign for "gift." There is no need to make the signs for "I" or "you," because they were understood when you directionalized the sign.

"Sign Language: It's Not Just About The Hands"

New York City Mayor Michael Bloomberg's sign language interpreter, Lydia Callis, became a pop culture phenomenon. Her energy and facial expressions drew wide attention and even a spoof on "Saturday Night Live." Some members of the deaf community took offense to some reactions.

Anna Witter-Merithew, an assistant director for the distance opportunities for Interpreter Training Center at the University of Northern Colorado, has 35 years experience in the field of interpretation as both a practitioner and an educator. Here is a part of her interview with the host Conan.

WITTER-MERITHEW: I'm unable to actually show you what I'm speaking of, but hopefully my descriptions will be sufficient. Let's just say - let's just take eyes, for example, the role of eye gaze. It has a wide range of functions such as indicating the location of something in space. So someone who is signing might use their eyes to actually look at the area of space in front of their body where a person, a place or a thing has been set up with signs. And then as that location of the person, place or thing changes or moves, the eye gaze will follow.

Also let's say that I was recording a conversation between a couple of people. I would use eye gaze to show a shift in the speaker so that as I was speaking the remarks made by one person, my eyes would shift perhaps to the left or to the right. And then as I shifted to become the other person, I would shift my eyes in the other direction. And those eye gazes might also indicate where the speaker is standing or talking to someone who is sitting, or when there's a difference in age, such an adult speaking to a child, or the child looking up because they're speaking to an adult. So eye gaze plays an important part. Do you want some additional examples?

CONAN: Well, I was going to ask, would, for example, a sign interpreters' gestures get bigger if they were addressing a large, roomful of people in the same way that an English speaker's voice might get louder to project to a whole room?

WITTER-MERITHEW: Yes. I do think that one of the ways that people who are familiar with sign language can relate to the role of these facial movements and body movements, is to think about vocal inflection and his idea, as you just mentioned, the projection. So if I'm on a platform and the audience - the individuals that are depending on my interpretation are sitting a significant distance away from me, it's not unlike what happens in acting. It may be that I have to project my facial expression or my movements in such a way that they can easily be seen at a distance. So certainly, we're on position in relationship to the person I'm speaking through may impact the degree to which I'm using my face and my body. And that could appear exaggerated to someone who's unfamiliar with how the language works.

Conclusion

Sign languages are the fundamental means of communication for those with hearing or speech impairments. Apart from that, they are also the primary carriers of Deaf culture, with different beliefs, behaviors, literary traditions, history, and values. Understanding deaf culture and the role of sign language is crucial in learning and appreciating the full spectrum of sign language. By learning about deaf culture, you can also gain a greater appreciation for the beauty and complexity of sign language. Sign language’s not just a set of hand gestures; it is a nuanced and expressive language that can convey complex emotions and ideas.

In short, understanding deaf culture and the role of sign language is essential to truly appreciate and communicate effectively in sign language. It is an opportunity to broaden your horizons and connect with a rich and diverse community.

References

1. https://www.npr.org/2012/11/15/165218742/sign-language-its-not-just-about-the-hands
2. https://www.hearinglikeme.com/sign-languages-around-the-world/#:~:text=American%20Sign%20Language%20(ASL)%20is,Thomas%20Gallaudet%20and%20Laurent%20Clerc.
3. https://www.languagesunlimited.com/sign-languages-only-related-to-making-signs-with-the-hands-is-this-true/
4. https://people.howstuffworks.com/sign-language.htm
5. https://en.wikipedia.org/wiki/Sign_language#History
6. https://www.britannica.com/topic/sign-language

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: professor Z.Məmmədova
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA ZENFİRA ƏLƏKBƏR QIZI
Azərbaycan Tibb Unversiteti
”Xarici dillər” kafedrası
S.Vurğun küç.167
zenfiramamadova@mail.ru

İNGİLİS DİLİNDƏ TOPONİMLƏR VƏ ONLARIN İNGİLİS BƏDİİ ƏSƏRLƏRİNDƏ İŞLƏNMƏSİ

Xülasə

Hər bir xalqın tarixi, dili, təfəkkürü,məşğuliyyəti haqqında dəyərli məlumat verən toponimlər onomastik vahidlər sırasında öz zənginliyi ilə seçilir. Bir elm sahəsi kimi toponimika coğrafi obyektləri, onların yaranma yollarını, meydana gəlmə səbəblərini, mənşəyini müəyyənləşdirməyə kömək edir.

Toponim sözünün mənası τόπος — topos — yer və ὄνομα — onoma) — coğrafi adları; **toponimləri**, onların **mənasını**, quruluşunu, mənşəyini və yayılma arealını öyrənir.

Toponimika — (q.yun. τόπος — *topos* — yer və ὄνομα — *onoma*) — coğrafi adları; toponimləri, onların mənasını, quruluşunu, mənşəyini və yayılma arealını öyrənir. Mənası yer deməkdir

Hər bir ərazidəki toponimlərin məcmusu onun toponimiyasını təşkil edir. Azərbaycan toponimiyasının əsas fondunu Azərbaycan (türk) mənşəli adlar təşkil edir. Azərbaycanda qədimdən başlayaraq, hun, bolqar, suvar, peçeneq, xəzər, qıpçaq, oğuz-səlcuq və monqol qaydalarının, habelə İber-Qafqaz, İran, ərəb və s. xalq adları ilə bağlı toponim layları aşkara çıxarılmışdır.

Ginnes Rekordlar kitabına görə ən uzun adlı toponim Yeni Zellandiyada hündürlüyü 305 metr olan Taumatavhakatanqi hanqakoauauo tama teaturip ukaka pi ki maunqahoronukupokaivhenuakitanatahu (92 hərf) təpəsidir.

Toponimlərin növləri

a)Aqoronim— meydan adları (qədim yunanca *ἀγορά* — meydan, sahə).

b)Antrotoponim — şəxs adlarından törəmiş coğrafi adlar (qədim yunanca *ἄνθρωπος* — insan).

c)Astionim — şəhər adları (qədim yunanca *ἄστυ* — şəhər).

d)rinonim — meşə adları (qədim yunanca *δρῦς* — ağac).

e)Dromonim — nəqliyyat yollarının adları (qədim yunanca *δρόμος* — qaçış, hərəkət, yol).

f)Hidronim — çay adları (qədim yunanca *ὕδωρ* — su).

H)Qodonim — küçə adları (qədim yunanca *ὁδός* — yol, küçə, məcra).

i)Oykonim — yaşayış yeri adları (qədim yunanca *οἶκος* — ev, yaşayış yeri).

Heyvan adları ilə bağlı toponimlər Bölgənin zootoponimləri talış **və** türk mənşəlidir. Bu **toponimlər heyvan və** quş **adları ilə bağlı** olduqları üçün hər iki dildə şəffaf **toponimlər** hesab ...

Toponimik materiallar xalqın tarixi, dini, dili ilə bağlı problemlərin həllində tutarlı dəlil, inandırıcı fakt rolunu oynadığı üçün toponimlərin 3 funksiyasını qeyd etmək olar:

1) İdeoloji funksiya daşıyır.

2) Maarifləndirmək xarakteri daşıyır.

3)Toponimlər digər elmlərlə sıx əlaqədardır.

İngilis dili uzun illər german tayfalarının - anqlosaksların, yutların, keltlərin, skandinaviyalıların, normandların təsirinə məruz qalmışdır. Bunun üçün də İngilis toponimləri müasir formada hansısa mənada germanları xatırladır. Bunlar hidronim və oronimlərdə daha çox öz əksini tapmışdır. Kelt mənşəli toponimlər Şotlandiyada, İrlandıyada; Skandinaviya mənşəli adlar isə Yorkshire və Lancashire-də tez-tez təsadüf olunur.

Açar sözlər: toponim, onomastika, mürəkkəb adlar, morfoloji, semantik, Anqlosaks

İngilis coğrafi adların yaranmasına tarixin müxtəlif dövrlərində müxtəlif dillərin təsiri olub:

1. Kelt elementləri. Bu Böyük Britaniya ərazisində *britlərin* və *anqlosaksların* məskunlaşması ilə əlaqədardır.

Məsələn,

--Wal- elementi keltlərin məskunlaşdığı ərazilərdə olan coğrafi adlarda rast gəlinir. *(məsələn: Walden, Walton, Walcott, Walbrook)*

-Pen- kelt komponenti "yamac" mənasını ifadə edir və *Pencoyd, Penketh* kimi coğrafi adlarda öz əksini tapır.

-Tre- kelt mənşəli toponimdir və "kənd" mənasını verir. Bu toponim Karnoulda *(Tredrustan, Tregavethan),* Derbşir və Lankaşirdə *(Trelleck, Trehill)* təsadüf olunur.

-Lan- "kilsə" mənasını verir və *Landulf, Lanreath* kimi coğrafi adlarda rast gəlinir.

2. Latın elementləri. Roma dövründə latın elementləri ilə yaranan coğrafi adlar aşağıdakılardır:

London-Londonium

Manchester-Mamucian

Lincoln-Lindum coloma

3. Skandinaviya elementləri

-By- elementi Skandinaviyalıların güclü təsiri olduğu yerlərdə rast gəlinir.

Məs: *Derby, Moorby, Blackforby*. Burada -by- "kənd" mənasını ifadə edir.

-Thorp- "torpaq" mənasını ifadə edir və *Simonstrop, Rinsthrop* kimi coğrafi adlarda rast gəlinir.

-Toft - elementi "malikanə" deməkdir. *Longtoft, Fishtoft, Moortoft* kimi adlarda rast gəlinir.

-Holm- "ada, adacıq" mənasınıifadə edir. Məsələn: *Bromholm, Oxenholm*

4. Fransız elementləri

-Mont- fransız mənşəli komponent "dağ" mənasını ifadə edir. Məs: *Eamont, Grostmont*

-Ville- (malikanə) əsasən *Coalville, Bronville* coğrafi adlarda rast gəlinir.

Quruluşuna görə İngilis toponimləri aşağıdakı kimi təsnif olunur:

1. Sadə toponimlər. Məs: *Stock, Road, Lee*
2. Mürəkkəb toponimlər. Məs: *London, Manchester, Bristol, Roadshy, Scaldwell*
3. Tərkibi toponimlər. Məs: *Little Saxham, Stock-on-Trent, Stratford-on Avon*

Məna cəhətdən mürəkkəb coğrafi adlar arasında məskunlaşma yerini, onun xarakter və formasını, tipik əlamətlərini ifadə edən toponimlər var:

-gham- "ev, qəsəbə" mənasını ifadə edir. Məs: *Bermingham, Rockingham*

-ton- "ev, qəsəbə" mənasını ifadə edir. Məs: *Haughton, Boston, Bathampton*

Bəzən hər 2 element ***-gham*** və ***-ton-*** eyni coğrafi adda rast gəlinir. Məs: *Northghamton*

-ber- -bury- elementi daha çox ölkənin qərb şəhərlərinin adlarında təsadüf olunur. "Möhkəmlənmə" mənasını ifadə edir. Məs: *Limber, Middlesbury*

-stock- elementi "yeni kənd" mənasını ifadə edir. Məs: *Woodstock*

-chester- "düşərgə" mənasını ifadə edir. Məs: *Manchester, Chester, Colchester*

-clough- "dərə, vadi" mənasını ifadə edir. Məs: *Cowclough*

-was- "nəm, rütubətli" deməkdir. Məs: *Alrewas*

Anqlosaks mənşəli ***-cot-*** elementi "saray" mənasını ifadə edir. Məs: *Woodcot, Willcot.* Qeyd etmək lazımdır ki, müəyyən komponentlər Great və Little öz yerini Magna (böyük) və Parva (kiçik) sözlərinə verir. Məs: *Ashby Magna, Ashby Parva*

Müərkkəb adlarda bir sıra tipik terminlər var ki, bunlar müəyyən mənalar ifadə edir.

Məs: bridge (körpü), town (şəhər), field (sahə, tarla), wood (müşə), market (bazar), house (ev), water (su), dyke (bənd, arx), hill(təpə) və s. Məs: *Cambridge, Stockbridge, Sheffield, Woodstock.*

Yeni toponimlər *Newton, Newport, Newcastle* Şotlandiya, İrlandiya və Uelsdə rast gəlinir. Semantik xüsusiyyətlərinə görə,toponimlər aşağıdakı kimi təsnif olunur:

1) İngilis toponimləri ***relyef*** terminləri ilə işlənir. ***-ness-*** "burun"deməkdir.

2) ***Landşaft*** terminləri. Bura əsasən çökəklik, bataqlıqadları daxildir.

3) Müəyyən ***torpaq*** sahəsini bildirmək üçün terminlər. Məs, medaw - çəmən, sand - torpaq.

4) ***Geobotanik*** termin. Məs: oak- palıd.

5) ***Hidroqrafik*** terminlər. Məs: brook - kiçik bulaq.

Toponimlər yazılı ədəbiyyatda xalqın başqa xalqlarla ictimai, siyasi, tarixi, mədəni, iqtisadi və s. əlaqələri təsvir və tərənnüm edir. Bədii ədəbiyyatda emosional əhval -ruhiyyə yaradan coğrafiadlar İngilis ədəbiyyatında zəngin üslubi keyfiyyətlərə malikdir. Bu da əsərin ideyasının qüvvətlənməsinə və üslubi cəhətdən zəngin olmasına xidmət göstərir. İngilis əsərlərində toponim yer haqqında məlumat vermək üçün istifadə olunur. Məsələn:

- *"Somebody had left an evening paper and he turned it over with his foot, nothing the headline about the five hundred soldiers who refused to embark in* ***Glasgow*** *at King George`s Dock for Singapore" (J.Lindsay "Betrayed Spring")*

- *"They`re the enemy I`ve felt ever since I landed at Liverpool, ambushed in all the shadows,in every cranny of greed" (J.Lindsay "Betrayed Spring")*

Bəzən toponimlər frazeoloji birləşmələrin tərkibində əsərlərdə rast gəlinir. Məsələn:

"*This very morningI said to him: You`re grinning like my grannyy at a hot puff-cake, anyone`d think you enjoyed yourself. And he only* ***grinned*** *the wider.* ***Like a Cheshire cat*** *chewing growl. And now he won`t grin no more ..." (J.Lindsay "Betrayed Spring")*

Burada ***Grin like a Cheshire cat*** - Boş və mənasız yerə gülmək - mənasını verir.

"It`s no goof smiling at me ***like a Cheshire cat.*** *Mr. Lubin ..." (B.Show "Back to Methuselah")*

Məsələn: *"And that`s a fine thing to do ... though it`s not exactly what we understand by* ***coming Yorkshire over us*** *in London." (Ch.Dickens "Nicolas Nickleby")*

Burada - ***come Yorkshire over smb*** - kimisə aldatmaq mənasını ifadə edir.

Bu cür frazeoloji birləşmələr adi halda da rast gəlinir. Məsələn:

Smithfield bargian - razılaşdırılmış evlilik.

Tyburn clossom - cavan, gənc oğru.

Bristol compliment - Hədiyyə verənin özünə lazım olmayan hədiyyə.

Kentish fire - haylı-küylü ifadə, kəskin etirazlar.

Cheshire cat - mənasız, boş yerə gülən adam.

Hull cheese- tünd pivə.

To go to Bungay - rədd olub getmək.

Smithfield match - xüsusi məqsədlərlə razılaşdırılmış nikah.

Toponimlər sifərbirləşmələrində də geniş yayılmışdır. Məsələn:

As poor as the Bishop of Chester - Həddindən artıq varlı.

As true as Ripon steel - etibarlı

As plane as Dunstable road - açıq sözü üzə deyən.

As big as Dorchester buft - həddindən artıq kök.

Toponimlər qafiyədə də işlənə bilər. Məsələn:

As true as Conventry blue - etibarlı.

Harley Street - tibb dünyası, Londonda məşhur həkimlərin yaşadığı yer.

Scarborough warning - qısa müddətə edilmiş xəbərdarlıq.

Come Yorkshire over smbd. - kimisə aldatmaq.

Toponimlər bədii əsərlərdə həmcins üzvlər kimi də işlənə bilir. Məs: "***Kensington, Hammersmith, Cheswick, Kew Bridge, Bretford*** were all passed and yet went on assteadily asif they had only just begun their journey." (Ch.Dickens "The Adventures of Oliver Twist") Qeyd etmək lazımdır ki, toponimlər ingilis şeirlərində də tez-tez rast gəlinir: Upon the ühite Rock England, a Female Shadow, as deadly damps of the Mines of ***Cornwall*** and ***Derbyshire***, lays upon his bosom heavy, Moved by the wind in columns of thick cloud, retunrning, folding round. (William Blake) İngilis ədəbiyyatında toponimlər təyin kimi də işlənə bilər. *"She came from anout of the way country district on the Pennine slopes, and kept lots of old* ***Lancashire*** *ways ofthought and speech, which Dick had never heard before but which somehow went warmly to his blossom." (J.Lindsay "Betrayed Spring")*

İngilis ədəbiyyatında yazıçının öz təxəyyülünə əsaslanan süni toponimlər də işlənir.Məsələn: *Great Scoldings, Sleepy Hollow, Weary Road, Great Gloom, Great Mountain.*

"... There happened an extraordinary accident which hadlike to have put a period to the fate of that monarchy, at least as it`s now instituted,* ***Lindalino****, the second city in the kingdom, was the first his Majesty visited in his progress ..." (J.Swift "Gulliver`s Travels")

Sonda qeyd etmək olar ki, dilçiliyin bir sahəsi olan topinimika tədqiqat obyekti olaraq dilçilər arasında böyük marağa səbəb olub. Belə ki, coğrafi adlarvasitəsi ilə müxtəlif millət və xalqların tarixini və dilini tədqiq etmək mümkündür.

Ədəbiyyat

1. Mauer A. *Problems of place-names study*. Cambridge press, 1929
2. Peany P.H. *The origin of English Place names*. Cambridge Press, 1960
3. Cameron K. *English Place names. London*. Batsford, 1996
4. Ekwall E. *The Place names of Lancashire*. Manchester. University Press, 1922
5. Ekwall E. *The Concise Oxford Dictionary of English Place names* - Oxford: Clarendon Press, 1974

Z.Mammadova

English toponyms and their usage in English Fiction

Summary

The article "English place names and their usage in English literature" deals with the place - names (toponyms) and their usage forms in English literature. The article touched upon the problems such as the classification of place names and their usage in English literature, In literary works toponyms portray cultural, historical, economic relations between different peoples and give emotional coloring to the work. Different languages have greatly influenced the origin of English toponyms at various times in history. As a result of the research, we come the conclusion that there are Celt, Scandinavian, French and Latin elements in English toponymy. The

article presents passages chosen from English literary works representing stylistic possibilities of geographhic names. For many years, the English language was influenced by Germanic tribes - Anglo-Saxons, Jutes, Celts, Scandinavians, Normans. For this reason, English toponyms in their modern form remind Germanic ones in some sense. These are more reflected in hydronyms and oronyms. Toponyms of Celtic origin in Scotland, Ireland; Names of Scandinavian origin are common in Yorkshire and Lancashire.

Key Words: toponym, onomastics, compound names, morphological, semnatic, Anglo-Saxon

З.Маммадова

Английские топонимы и их испольсование в Английской литературе

Резюме

В статье "Английские географические названия и их использование в английской литературе" рассматриваюттся названия мест (топонимы) и формы их использования в английской литературе. В статье затрагиваются такие проблемы, как классификация географических названий в соответсвии с морфологическими и лексическими формами, функции географических названий и их использование в английской литературе. В литературных произведениях топонимы изображают культурные, исторические, экономические отношения между разными народами и придают эмоциональную окраску работе. Различные языки сильно повлияли на происхождение английских топонимов на различных этапах истории. В результате исследования мы пришли к выводу, что в английской топонимии имеются элементы Кельтского, Скандинавкого, Француского и Латинского языков. В статье представлены отрывки, выбранные из английских литературных произведений, представляющих стилистические возможности географических названий. Многие годы английский язык находился под влиянием германских племен — англосаксов, ютов, кельтов, скандинавов, норманнов. По этой причине английские топонимы в их современной форме в некотором смысле напоминают германские. Они больше отражены в гидронимах и оронимах. Топонимы кельтского происхождения в Шотландии, Ирландии; Имена скандинавского происхождения распространены в Йоркшире и Ланкашире.

Ключевые слова: топоним, ономастика, сложные имена, морфологический, семантический, Англосакс

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Nuriyyə Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur

Fil.ü.f.d., b/m. MƏMMƏDOVA ELNARƏ Adil qızı
ememmedova69@mail.ru
İMANOVA İRADƏ İSA qızı
iradeiman@mail.ru
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN DİLİNIN İNKİŞAFI ÜÇÜN GÖRDÜYÜ IŞLƏR

Açar sözlər: *ümummilli lider, ana dili, azərbaycançılıq, dilimizin gözəlliyi, dövlət dili, türkdilli xalqlar*

"XALQI XALQ EDƏN, MİLLƏTİ MİLLƏT EDƏN ONUN ANA DİLİDİR".

Ümummilli lider Heydər Əliyev

Zaman-zaman hər bir xalqın inkişafında və tərəqqisində müstəsna xidmətlər göstərmiş şəxsiyyətlər yetişir. Heç şübhəsiz, Azərbaycan xalqı da, bu baxımdan tarixi şəxsiyyətlər yetişdirib və bu mənada Ulu öndər Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Məhz xalqımız üçün göstərdiyi misilsiz xidmətlər Heydər Əliyevi Ümummilli lider zirvəsinə yüksəldib.

Heydər Əliyev peşəkar natiq, böyük ictimai-siyasi təfəkkür sahibi, öz güclü fəaliyyəti ilə seçilən, davranış və üslub sahibidir. O, Azərbaycan nitq mədəniyyətinin hazır imkanlarından istifadə etməklə kifayətlənməmiş, ana dilimizin, şifahi dilimizin hüdudlarını maksimum dərəcədə genişləndirmişdir.

"Ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir. Dil millətin formalaşmasında vacib olan amillərdən biridir". Təbii ki, bu fikirlər ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirməsinin xidmətidir. Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən Ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdir. Bununla kifayətlənməyən Ulu öndər 1978-ci ildə tarixi bir uğura da imza atdı. Azərbaycan SSR-nin Konstitusiyasında ilk dəfə olaraq rus dili ilə yanaşı Azərbaycan dili rəsmi dil statusu əldə etdi. Bu da Azərbaycan dilinin nüfuzunun artırılmasına təsir etdi. Heydər Əliyev öz çıxışlarında həmişə ana dili ilə fəxr etdiyini vurğulayırdı.

Xalqın keçdiyi tarixi yol, onun mədeəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır. Dil, həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitədeir. Dilini itirən xalq məhvə məhkumdur. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir.

Bunlarla kifayətlənməyən ulu öndər 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq, rus dilim ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə etdi. Azərbaycan yerli dilin rəsmi dil statusuna malik olduğu azsaylı Sovet respublikalarından bili idi.

1995-ci ildə qəbul edilən konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsübit edildi. Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı keçirilən geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artırılmasına təsir etdi, dövlət dilinin müstəqil dövlət üçün nə demək olduğunu əyani şəkildə göstərdi. Həmin müzakirələr sübut etdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də ana dilinin qeyd-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədir.

O, ana dilini bilməyən dövlət məmurlarına dilimizi öyrənməyi tələb edirdi. Ulu öndərin dil strategiyası belə idi: "Öz dilimizi Azərbaycanda hakim dil etməliyik!". O, nitqlərində həm sual verib, həm də cavabını verirdi. "Bilirsiniz" modal sözü ilə məsələnin hamıya məlum olduğuna, lakin hələ də bir qism şəxslərin öz fikirlərində qaldığına işarə edirdi.

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir.

"*Hər bir xalqın milliliyini, onun mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Azərbaycan dili çox zəngin və ahəngdar dildir. Şəxsən mən öz ana dilimi sevir və bu dildə danışmağımla fəxr edirəm".*

O, bir peyğəmbər müdrikliyi ilə anlamışdı ki, bir gün gələcək, ölkəsi və xalqı müstəqilliyə qovuşacaqdır, rus işğalından azad bir dünya qurulacaqdır. Və elə həmin dövrlərdə gələcəyə olan böyük inamıyla sovetlər məkanında mümkünsüz olan bir addımı atdı. 1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Heydər Əliyev, cəmi bir-neçə aydan sonra o vaxtkı Azərbaycan Döviət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söylədi! Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra, BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: "*Xatırımdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan*

dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu, mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir".

Böyük öndər yenə həmin dövrdə ölkədə keçirilən bütün tədbirlərdə doğma dilində danışmaqdan çəkinmirdi. Uzun illər boyu sıxışdırılan dilimizin sabahına işıq saçır, cəsarəti, şəxsi nümunəsi ilə milyonlarla insanın ürəyindən keçənlərin ifadəçisinə çevrilir, haqq sözünü deyir, dilimizin ən ali mərtəbəyə layiq olduğunu bəyan edirdi.

Heydər Əliyevin dövlət quruculuğunda əhəmiyyətli bir yerdə duran dil siyasəti və onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini xalqın mənəvi varlığı kimi sevməyi, dilin zəngin söz xəzinəsindən bacarıqla istifadə etməyi, dilin qayğısına qalmağı, onun saflığını qorumağı, onunla fəxr etməyi, onu dərindən bilməyi, mükəmməl mənimsəməyi, ana dilimizin gözəlliyini duymağı, bu gözəlliyi hər zaman hər yerdə təbliğ etməyi, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi. Göründüyü kimi, Heydər Əliyev, qurub-yaratdığı Azərbaycanda xalqının mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi, bu yolda bir əsgər kimi mübarizə aparırdı. Ulu Öndərin 18 iyun 2001- ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman da həmin mübarizənin davamı idi.

Onun bu mövzudakı çoxsaylı fikirlərindən birini xatırlayaq: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azərbaycançılıq məsələsidir".

Ana dilimizin inkişafı və qorunması əsasən Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli lider H.Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən Azərbaycan dilinin qorunması, tətbiqi və inkişafı ilə bağlı bir çox işlər görmüşdür. O, dilə münasibətdə hər kəsə örnək olmuş və hələ hakimiyyətə gəldiyi ilk illərdə bir çox ziyalının cəsarət etmədiyi halda rəsmi və qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməmiş, ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərmiş, başqalarına nümunə olmuşdur.

Heydər Əliyev ana dilini bilməyən, bu qədim və zəngin dildə rəvan danışa

bilməyən dövlət məmurlarından müəllim tutub dilimizi öyrənməyi tələb edirdi: "*Oturun, müəllim tutun, bu dili öyrənin... məgər dünyadan bu dili bilməyə-bilməyə çıxıb gedəcəksiniz? Axı belə şey olmaz..*". Ulu öndər gənclərə klassikləri - Nizamini, Füzulini, Nəsimini, Vaqifi, Sabiri, Mirzə Cəlili oxumağı tövsiyə edirdi. Deyirdi ki, gənclər ana dilimizi yaradan və yaşadan bu söz dühalarını, sənət korifeylərini oxumasa, oxuya bilməsə "tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək... Milli-mədəni ənənələrimizi bilməyəcək". Bütün bunları bilməyənin isə vətənpərvər olmağı mümkün deyil. Müəllif belə qənaətə gəlir ki, dilimizə böyük sevgi ilə yanaşan Heydər Əliyev onun taleyi ilə bağlı nikbin olmuşdur. "*Öz dilimizi Azərbaycanda hakim dil etməliyik!*" - ulu öndərin dil strategiyası, onun dil nəzəriyyəsində prioritet istiqamət belə idi. Kitabda onun mahiyyəti və mədəni-tarixi əhəmiyyəti dəqiq faktlarla izah olunur.

Ulu öndərin nitqinin izahedici xarakteri bunda idi ki, o, ən qədim problemlər haqqında danışanda belə, dinləyiciyə sual yeri qoymur, təfsilatları məntiqlə kütləyə çatdırırdı. Bunun üçün o, müxtəlif ifadə tərzlərindən istifadə edirdi. Müəllifə görə bunlardan ən çox işlənən böyük natiqin sual qoyub cavab verməsi, digəri "*bilirsiniz*" müraciətidir. "*Bilirsiniz*" modal sözü ilə böyük natiq məsələnin hamıya məlum olduğuna, lakin hələ də bir qisim şəxslərin öz fikirlərində qaldığına işarə edirdi. Heydər Əliyev nitqinin izahedici xüsusiyyətlərindən biri də onun anlayışlara verdiyi özünəməxsus izahları idi. Nitqin sual və cavab, başqa sözlə özü ilə dialoq formasından burada da uğurla istifadə edirdi. "*Diplomat*" deyəndə adamın gözünün qabağına nə gəlir? "*Ən yüksək savadlı, ən yüksək mədəniyyətli, ən gözəl görünüşlü, yaxşı geyimli, yaxşı tərbiyəsi ilə, cəmiyyətdə özünü aparması ilə fərqlənən insanlardır...*". Bu sətirləri adi nitq yox, sözlə çəkilmiş portret hesab etmək olar. Bu isə Heydər Əliyev nitqinin başqa bir cəhətini - haqqında danışdığı məsələyə, problemə görüntü vermək, onu real şəkildə əyaniləşdirmək imkanını əks etdirir.

1978-ci ildə Ulu öndər daha bir tarixi uğura imza atdı. Onun təklifi ilə elə həmin ildə Azərbaycan SSR-in Konstitusiyasına 73-cü maddə daxil edildi və mərkəzin etirazlarına baxmayaraq ilk dəfə olaraq rus dili ilə yanaşı, Azərbaycan dili də rəsmi dil statusu əldə etdi. Həmin dövrdə Azərbaycan dili Konstitusiya qanunu səviyyəsində dövlət dili statusu almış üç keçmiş sovet respublikasından biri və yeganə türk müsəlman respublikası idi. Lakin bu dövrdə Azərbaycan dili dövlət dili elan olunsa da, onun tətbiqində müəyyən məhdudiyyətlər, gizli qadağalar qoyulmuşdu. Belə ki, Azərbaycan dili elm və mədəniyyət dili kimi istifadə olunsa da, rəsmi sənədləşmələrdə, rəsmi dövlət tədbirlərində rus dilindən istifadə edilməsinin məcburiliyi tələbi gizli şəkildə qoyulmuşdu.

Müstəqilliyimiz qazanıldıqdan sonra 1992-ci ilin 27 dekabrında verilən fərmanla Azərbaycan Respublikasının dövlət dili "Türk dili" adlandırıldı.

1993-cü ildə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra Azərbaycanın dövlət dilinin adı məsələsi müzakirə obyektinə çevrildi. Dövlət dilinə həsr edilmiş bütün iclaslarda demokratik şərait yaradıldığından müxtəlif fikirlər

özünü göstərirdi: "*Azərbaycan dili*", "*Türk dili*", "*Azərbaycan türk dili*", "*Azərbaycan türkcəsi*", "*Türk dilləri ailəsinə daxil olan Azərbaycan dili*".

Heydər Əliyev isə öz çıxışlarında məsələyə belə münasibət göstərirdi: *"Gəlin türkdilli xalqlara baxaq. Bəli, biz türkdilli xalqlardan biriyik və türk mənşəli xalqıq. Kökümüz birdir. Özbək dili var, qazax dili var, qırğız dili var, tatar dili var, başqırd dili var, türkmən dili var, kumık dili var. Demək, bu türkdilli xalqların da hər birinin dilinin öz adı var. Türkdilli xalqlarda tatar dili də var, o biri qrup dillər var, onların da hər biri bu qrupa daxildir, amma hər birinin öz adı var… Axı nə təhər Azərbaycan türkcəsi? Millətimiz nədir? Azərbaycan türkü. Nə təhər bu millətin iki adı olsun? Bəs niyə özbək özünə demir ki, Özbəkistan türkü, tatar niyə demir ki, Tatarıstan türküyəm?"*

Yenə həmin iclasda dövlət başçısı qeyd edirdi: "*... taleyimiz belə gətirib ki, məsələn bizə tatar deyiblər. Amma biz tatar deyilik axı. Neçə illər bizə tatar deyiblər. Elə Həsən bəy Zərdabi də özünə tatar deyibdir, o birisilər də özlərinə tatar deyiblər. Bakıda, Azərbaycanda bir belə azərbaycanlı ziyalı olduğu halda –* "*russko-tatarskaya şkola*" *adlı məktəblər açılmışdı. Mən bununla sadəcə demək istəyirəm ki, bizim taleyimiz belə olubdur. Rusiyada da bizə tatar deyiblər. Ondan sonra 1918-ci ildən 1936-cı ilə qədər türk deyilib. 60 ildir biz "Azərbaycan dili", "azərbaycanlı" deyirik. İndi bəs nəedək? Bunlara cavab olmalıdır ki, bir qərar qəbul edək*".

Beləliklə, 1995-ci ildə Milli Məclisdə Komissiya yaradıldı. Komissiya dövlət dilinin türk dili adlandırılmasının mümkün olmaması qənaətinə gəldi və 1995-ci il noyabrın 12-də Azərbaycanda ümumxalq referendumu yolu ilə Konstitusiya qəbul edildi. Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndi və bir-birinin ardınca fərman və sərəncamlar imzalandı.

Heydər Əliyevin dövlət quruculuğunda əhəmiyyətli bir yerdə duran dil siyasəti və onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini, ana dilimizin gözəlliyini duymağı, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi.

Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Bu gün Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir.

İ.Əliyev 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı hazırlanmış və nəşr olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev ana dilimizə həmişə böyük dəyər verib və onu sevib. O, Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdə xalqın ictimai təfəkküründə milli düşüncənin formalaşmasına xüsusi bir diqqət yetirmişdir.

H.Əliyevin nitqinin başqa bir cəhəti də müraciət etdiyi, haqqında danışdığı bir məsələyə və ya şəxsiyyətə adi nitq yox, sözlə çəkilmiş bir portret yaratması idi.

Ə D Ə B İ Y Y A T

1. Z.Əsgərov. H.Əliyevin xarici siyasət stragesiyası. Xalq qəzeti, 2010, 10 aprel;
2. M.Əliyev. H.Əliyev "Elm, təhsil və mədəniyyəti himayədarı idi". Xalq qəzeti 16 may, 2010;
3. İ. Hüseynova. "Müstəqil Azərbaycan dövlətinin qurucusu". Bakı, 2004;
4. N.Zamanov. "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti". "Elm və təhsil", Bakı, 2020;
5. N.Məmmədov. H.Əliyev və Azərbaycan modeli. Bakı, 1990.

X Ü L A S Ə

Ümummilli liderimiz Heydər Əliyev ana dilimizə həmişə böyük dəyər verib və onu sevib. O, Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdə xalqın ictimai təfəkküründə milli düşüncənin formalaşmasına xüsusi bir diqqət yetirmişdir.

Heydər Əliyevin dövlət quruculuğunda əhəmiyyətli bir yerdə duran dil siyasəti və onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini, ana dilimizin gözəlliyini duymağı, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi. O, ana dilini bilməyən dövlət məmurlarına dilimizi öyrənməyi tələb edirdi. Ulu öndərin dil strategiyası belə idi: "Öz dilimizi Azərbaycanda hakim dil etməliyik!". O, nitqlərində həm sual verib, həm də cavabını verirdi. "Bilirsiniz" modal sözü ilə məsələnin hamıya məlum olduğuna, lakin hələ də bir qism şəxslərin öz fikirlərində qaldığına işarə edirdi.H.Əliyevin nitqinin başqa bir cəhəti də müraciət etdiyi, haqqında danışdığı bir məsələyə və ya şəxsiyyətə adi nitq yox, sözlə çəkilmiş bir portret yaratması idi. Heydər Əliyev peşəkar natiq, böyük ictimai-siyasi təfəkkür sahibi, öz güclü fəaliyyəti ilə seçilən, davranış və üslub sahibidir. O, Azərbaycan nitq mədəniyyətinin hazır imkanlarından istifadə etməklə kifayətlənməmiş, ana dilimizin, şifahi dilimizin hüdudlarını maksimum dərəcədə genişləndirmişdir.

S U M M A R Y

Key words: *national leader, first language, Azerbaijaniness, beauty of our language, state language, Turkic-speaking peoples*

Our national leader Heydar Aliyev has always valued and loved our first language. During his leadership of the Republic of Azerbaijan, he paid special attention to the formation of national thought in the public thinking of the people.
Heydar Aliyev's thoughts about the language policy, which is an important part of state building, and ways to develop it, taught us to appreciate the beauty of the Azerbaijani language, our first language, and to be an example to everyone by speaking it correctly.

He demanded that state employees who do not know their first language learn

our language. The language strategy of the great leader was as follows: "We must make our language the dominant language in Azerbaijan!" He asked questions and gave answers in his speeches. The modal word "you know" indicated that the issue was known to everyone, but some people still had their own opinions.

Another aspect of H. Aliyev's speech was that he created a portrait painted with words rather than an ordinary speech to an issue or person he was talking about. Heydar Aliyev is a professional speaker, a great socio-political thinker, distinguished by his strong activity, behavior and style. He was not satisfied with using the ready opportunities of Azerbaijani speech culture, he expanded the boundaries of our first language and oral language to the maximum extent.

Р Е З Ю М Е

Ключевые слова: *общенациональный лидер, родной язык, азербайджанство, красота нашего языка, государственный язык, тюркоязычные народы.*

Наш общенациональный лидер Гейдар Алиев всегда ценил и любил наш родной язык. В период своего руководства Азербайджанской Республикой особое внимание уделял формированию национальной мысли в общественном мышлении народа. Мысли Гейдара Алиева о языковой политике, являющейся важной частью государственного строительства, и путях ее развития научили нас ценить красоту азербайджанского языка, нашего родного языка, и быть примером для всех, правильно говоря на нем. Он потребовал, чтобы государственные служащие, не знающие своего родного языка, выучили наш язык. Языковая стратегия великого лидера заключалась в следующем: «Мы должны сделать наш язык господствующим языком в Азербайджане!» Он задавал вопросы и давал ответы в своих выступлениях. Модальное слово «ты знаешь» указывало на то, что вопрос всем известен, но у некоторых все же есть свое мнение. Еще одним аспектом речи Г.Алиева было то, что он создал портрет, нарисованный словами, а не обычную речь к проблеме или человеку, о котором говорил. Гейдар Алиев – профессиональный оратор, крупный общественно-политический мыслитель, отличающийся активной деятельностью, поведением и стилем. Он не довольствовался использованием готовых возможностей азербайджанской речевой культуры, он максимально расширил границы нашего родного языка и устной речи.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: dos. D.Ə.Nağıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRGİZ MƏDƏTOVA
nargizmadatova8585@gmail.com
Azərbaycan Dillər Universiteti

İSPAN DİLİNDƏ İNKARLIQ KATEQORİYASI

Açar sözlər: inkarlıq,kateqoriya, prefikslər, semantika, neqativ, pozitiv

İnkarlıq kateqoriyası universal dil kateqoriyası kimi dil sistemində mühüm yer tutur.Müasir dilçilik ədəbiyyatında təsdiqlik-inkarlıq kateqoriyasının linqivistik universallıq kimi şərh edilməsi böyük əhəmiyyət kəsb edir. Geniş funksional-semantik kateqoriya kimi inkarlıq məhfum və fikirləri ifadə edən söz, söz birləşməsi və cümlələrin müəyyən pozitiv əlaqələrə uyğun gəlməməsini ifadə edir.Çünki o təsdiqin yoxluğunu ifadə etməyə imkan verir. Rus dilçisi A.M.Peşkovski inkarlığı reallıq və qeyri-reallıq kateqoriyaları prizmasında izah etməyə çalışır. Müasir dilçilikdə təsdiq və inkar cümlələr məhz qarşılıqlı vəhdətdə tədqiq olunur.İnkarlığın affektivliyə münasibəti məsələsinə toxunan bəzi dilçilər inkarlıq kateqoriyasının təsdiqə nisbətən daha emosional xarakterə malik olduğunu qeyd edirlər. Bir çox tədqiqatçılar isə təsdiq və inkarı mahiyyət etibarı ilə pozitiv və neqativ predikasiya təzahürləri kimi şərh edirlər.

Müxtəlif sistemli dillərdə müxtəlif neqasiya vasitələri olsa da, onların situasiya ilə bağlı olaraq müxtəlif formalarda ifadə olunma formaları vardır. Müxtəlif dillərin materialı əsasında aparılan tədqiqatlar göstərir ki, ayrı-ayrı dillərdə inkarlığın özünəməxsus xüsusiyyətləri vardır.

İnkarlıq ya bütöv cümləyə, yaxud da ayrı-ayrı cümlə üzvünə aid ola bilər. Əgər inkarlıq ayrı-ayrı cümlə üzvünə aid olursa, onda inkarlıq əlaməti bildirən söz həmin üzvdən əvvəl işlənir.

İnkarlıq ümumi və xüsusi olmaqla iki qrupa ayrılır.Ümumi inkarlıq cümlənin xəbəri ilə də öz ifadəsini tapır. Xüsusi inkarlıq isə xəbərdən başqa yerdə qalan bütün üzvlərə aid olur. Bəzən elə hallar olur ki, bir cümlədə iki inkarlıq olur.

İnkarlıq kateqoriyası funksional semantik kateqoriya kimi öz ifadə vasitələrini müxtəlif dil vahidlərində tapır. Dilçilik ədəbiyyatından məlumdur ki,müxtəlif sistemli dillərdə inkarlıqdan həm konkret, həm də geniş planda bəhs edilir. Konkret inkarlıq morfoloji əlamətlərə malik olub, amma hər bir hissəsi fellə məhdudlaşır.İnkarlıq geniş planda feldən başqa digər nitq hissələrini də əhatə edir.Dildə təsadüf edilən hər bir inkarlıq geniş miqyaslı inkarlığın tərkib hissəsidir.

İnkarlıq linqvistik ünsiyyətdə mühüm rol oynayan qrammatik kateqoriyadır.

İlk dəfə olaraq inkarlıq məsələsi formal məntiqdə eramızdan əvvəl III əsrdən öyrənilməyə başlanmışdır.Bütün qədim hind filosofları yalnız varlığın deyil,həm də yoxluğun reallığını qəbul edirdilər.İnkarlıq elə bir kateqoriyadır ki,onu həm məntiq, həm də qrammatika öz tədqiqat obyektinə çevirir.

Dilçilikdə inkarlıq kateqoriyasının müəyyənləşdirilməsində E.İ.Şendelsin verdiyi tərif daha geniş yayılmışdır: "Bir dil kateqoriyası kimi inkarlıq müəyyən dil vasitələrinin köməyi ilə anlayışlar arasında neqativ əlaqələri əks etdirir."

Müxtəlif sistemli dillərdə hər bir dilin öz neqasiya vasitələri olsa da,onların inkarın situasiya ilə əlaqədar olaraq müxtəlif formalarda ifadə olunmasına imkan verir.

İspan dilində inkarın ifadə vasitələrinə aid tədqiqat işlərində inkarın aşkar və gizli ifadə vasitələri nəzərdən keçirilir. İnkarın aşkar ifadə vasitələrinə inkar ədatı, inkar əvəzlikləri və inkar zərfləri, inkar bağlayıcıları,inkar prefiksləri və sufiksləri aiddir. Azərbaycan dilində isə bu funksiya daha çox ədatlarla,inkar şəkilçiləri və prefikslərlə reallaşır.

İspan dilində inkarlıq bir cümlə və ya onun bir hissəsini inkar edən xüsusi funksiyaya malik sözlər və ya qrammatik elementlər vasitəsilə bir neçə yolla ifadə oluna bilər. Bu inkarlıq elementlər zərflər,əvəzliklər,fellər və qrammatik hissəciklər ola bilər və onların düzgün istifadəsi ispan dilində dəqiq və effektiv ünsiyyət üçün vacibdir.Bu məqalədə ispan dilində inkarlıq kateqoriyası onun qrammatik funksiyasını araşdırılaraq təhlil ediləcək. İnkarlığın qrammatik funksiyası ispan dilində inkarın əsas funksiyası doğruluğun yoxluğunu və ya təsdiqin yoxluğunu ifadə etməkdir. Bu o deməkdir ki, inkar bir hərəkətin,vəziyyətin həqiqətini və ya varlığını inkar etmək üçün istifadə olunur.

İspan dilində kontekstdən və danışanın niyyətindən asılı olaraq istifadə olunan müxtəlif inkar formaları var. Ən ümumi forma "no" hissəciyi ilə düzələndir.Məsələn: No quiero ir al cine. Mən kinoya getmək istəmirəm.

"No" hissəciyi əsasən fellərin qarşısında işlənir.Amma ispan dilində elə fellər var ki, özlərindən əvvəl yönlük halda olan əvəzlik tələb edir, bu halda "no" hissəciyi bu əvəzlikdən əvvələ keçir.Məsələn: No me gusta esta fruta.Bu meyvə xoşuma gəlmir.

Ispan dilində inkarlıq həm də "nunca"(heç vaxt), "nada"(heç nə), "nadie"(heç kim), "ninguno"(heç biri) kimi inkarlıq bildirən sözlərlə də ifadə olunur.Məsələn: Nunca he estado en Paris.(Mən heç vaxt Parisdə olmamışam.)Bir məqamı da qeyd etmək lazımdır ki, bu inkarlıq bildirən sözlər cümlənin əvvəlində gəldikdə cümlə təsdiqdə işlənir.

Bəzi hallarda inkar nəyinsə yoxluğunu və ya əksikliyini bildirən fellərdən istifadə etməklə ifadə oluna bilər.Məs: "Faltar"(çatışmır) feli.Me falta dinero.(Pulum çatmır). Bu cümlə şəxsin kifayət qədər pulunun olmadığını göstərir.

Onu da qeyd etmək lazımdır ki, inkarlıq bütün cümləyə və ya onun hissələrinə aid ola bilər. Məs: No creo que vayas a venir.(Düşünmürəm ki, gələsən).Bu cümlədə inkarlıq "inanmaq" felinə təsir edərək, həmin şəxsin qarşı tərəfin gəlməyinə əmin olmadığını göstərir.

İspan dilində inkarı daha da vurğulamaq üçün "Ni siquiera" (hətta deyil) hissəciyindən də istifadə edilir.Məs: Ni siquera sé su nombre.(Adını belə bilmirəm.) Həmin şəxsin digər şəxsin adı belə haqqında heç bir məlumatı olmadığı

vurğulanır.Başqa bir konstruksiya bir şeyin heç vaxt baş verməyəcəyini vurğulamaq üçün istifadə olunan “Jamás”(heç vaxt) hissəciyidir.Məs.: "Jamás podré perdonarlo"(mən onu heç vaxt bağışlaya bilməyəcəyəm.) cümləsində bir insanın digərini heç vaxt bağışlamayacayına işarə edir.

Bundan başqa inkar təsdiqedici sözlərdən və ya inkarı bildirən ifadələrdən istifadə etməklə də ifadə oluna bilər. Sadəcə olaraq “no”(yox) demək əvəzinə, inkarı ifadə etmək üçün “es imposible” (mümkün deyil) və ya “No hay forma de que ocurra” (bu baş verə bilməz) kimi ifadələrdən istifadə edilə bilər.

İspan dilində inkarın başqa bir forması ikiqat inkarlıq konstruksiyaların istifadəsidir.İnkarı daha da vurğulamaq üçün “No tengo nada de nada”(Mənim heç nəyim yoxdur.)cümləsində ikiqat inkarlıq var. Bununla belə, qeyd etmək lazımdır ki, ikiqat inkarlıqdan istifadə ispan dilində qrammatik cəhətdən düzgün olmaya bilər, ona görə də ehtiyatla istifadə edilməlidir.

Sual cümlələrində də inkarlıqdan istifadə oluna bilər.Məs: "¿No viniste?"(Gəlmədinmi?) cümləsində digər şəxsin gəlmədiyini soruşmaq üçün istifadə oluna bilər. Bu halda sualdakı inkar danışanın təəccübünə və ya inamsızlığına işarə edir.

Inkarlıq həmçinin müqayisələrdə, bir şeyin o qədər də böyük, yaxşı, sürətli və s. olmadığını ifadə etmək üçün istifadə edilə bilər. Məs: “O, düşündüyüm qədər hündür deyil” ifadəsi həmim şəxsin onun daha hündür olmasını gözlədiyini göstərir. Bu halda inkar məyusluq və ya təəccüb ifadə etmək üçün istifadə olunur.

İspan dilində inkarın başqa bir forması fikrin inkarını və əks fikrin təsdiqini ifadə etmək üçün istifadə olunan “sino”(amma) sözünün istifadəsidir.Məs: “No quiero ir al cine,sino al teatro”(Mən kinoya yox,teatra getmək istəyirəm.)ifadəsi insanın kinoya getmək istəmədiyini, ancaq teatra getməyə üstünlük verdiyini göstərir.

Eyni zamanda inkar qadağanı və ya icazəni ifadə etmək üçün istifadə edilə bilər.Məs: “ No puede entrar sin autorización” (Siz icazəsiz daxil ola bilməzsiniz.) ifadəsi şəxsin daxil olmaq icazəsinin olmadığını göstərir. Bu halda inkar məhdudiyyəti ifadə etmək üçün istifadə olunur.

İnkarlıq ispan dilində idiomatik ifadələrdə də istifadə edilə bilər. “No tener pelos en la lengua”(Hərfi tərcümədə dilində tük olmamaq) ifadəsi başqalarını incitməkdən qorxmadan sərbəst danışan və öz fikrini söyləyən birini təsvir etmək üçün istifadə olunur.

İspan dilində həmçinin inkarlıq bir şeyin yoxluğunu və ya tamamilə olmamasını ifadə etmək üçün istifadə olunur.Məs: “No hay pan en casa”(Evdə çörək yoxdur) cümləsində evdə çörəyin olmadığını göstərir. Həmçinin inkarlıqdan keçmişdə də bir şeyin çatışmazlığını ifadə etmək üçün də istifadə edə bilərik.Məsələn, “ No tuve la oportunidad de viajar al extranjero”(Mənim xaricə səyahət etmək imkanım olmadı.) ifadəsi həmin şəxsin keçmişdə heç vaxt xaricə səfər etmək imkanının olmadığını göstərir.Bu zaman inkar təcrübə və ya fürsətin olmamasını ifadə etmək üçün istifadə olunur. İspan dilində inkarın başqa bir forması prefikslərin istifadəsidir. Məsələn,

"in-" prefiksi hərəkətin və ya vəziyyətin inkarını ifadə etmək üçün istifadə olunur. Məsələn, "İncapaz" (bacarıqsız) insanın bir şey etməyə qadir olmadığını göstərir.Başqa bir prefiks əvvəlki hərəkətin və ya vəziyyətin inkarını ifadə etmək üçün istifadə olunan "des"- dir. Məsələn, "Desconocido"(tanış olmayan,yad) şəxsin naməlum olduğunu göstərir.İspan dilində inkar keyfiyyət və ya xüsusiyyətin olmamasını ifadə etmək üçün də istifadə olunur. Məsələn, "No es amable"(O, gülərüz deyil.) ifadəsi insanın mehribanlıq xüsusiyyətinin olmadığını göstərir.Bu zaman inkar keyfiyyət və ya xüsusiyyətin çatışmazlığını ifadə etmək üçün istifadə olunur. Bir sözlə, ispan dilində inkar kontekstdən və danışanın niyyətindən asılı olaraq müxtəlif yollarla istifadə olunan mühüm qrammatik kateqoriyadır. İspan dilində effektiv ünsiyyət qurmaq və inkarın çatdıra biləcəyi müxtəlif konnotasiyaları başa düşmək üçün inkarın müxtəlif formalarını bilmək vacibdir.

XÜLASƏ

İSPAN DILINDƏ INKARLIQ KATEQORIYASI

Açar sözlər: inkarlıq,kateqoriya, prefikslər, semantika, neqativ, pozitiv

Məlumdur ki, dildə olan bir sıra kateqoriyalar universal xarakter daşıyır. Həmin kateqoriyalara əksər dillərdə mövcud olan təsdiqlik və inkarlıq, təsirlik və təsirsizlik, müəyyənlik və qeyri-müəyyənlik, modallıq və bir sıra kateqoriyalar aiddir. Bu baxımdan müasir dilçilik ədəbiyyatında təsdiqlik və inkarlıq kateqoriyasının linqivistik universallıq kimi şərh olunması mühüm yer tutur. Müxtəlif ifadə vasitələrinə malik olan inkarlıq kateqoriyasının ispan və Azərbaycan dillərində tədqiqi ümumdilçilik baxımından əhəmiyyət kəsb edir.İnkar bütün dillərdə, o cümlədən ispan dilində mövcud olan qrammatik kateqoriyadır. Ispan dilində inkar bir ifadə və ya hərəkəti inkar etmək funksiyasına malik olan sözlərin və ya qrammatik elementlərin istifadəsi ilə ifadə edilir. Bu məqalə ispan dilində inkar kateqoriyasını linqivistik baxımdan təhlil etmək,onun funksiyasını, formasını və müxtəlif qrammatik kontekslərdə istifadəsini araşdırmaq məqsədi daşıyır.Bundan başqa,inkar və semantika arasındakı əlaqə, həmçinin ispan dilində cümlə quruluşuna və ünsiyyətə təsiri araşdırılacaqdır.İnkarlıq linqvistik ünsiyyətdə mühüm rol oynayan qrammatik kateqoriyadır və onu öyrənilməsinin dilçilik elmi üçün böyük əhəmiyyəti vardır.

Madatova Nargiz

NEGATION CATEGORY IN SPANISH

Summary

Key words: negation, category, prefixes, semantics, negative, positive

It is known that a number of categories in the language are universal. Those categories include affirmation and negation, affective and ineffective, definiteness and indefiniteness, modality and a number of categories that exist in most languages. From this point of view, the interpretation of the category of affirmation and

negation as linguistic universality occupies an important place in the modern linguistics literature. The study of the category of negation, which has different means of expression, in Spanish and Azerbaijani languages is important from the point of view of universality. Negation is a grammatical category that exists in all languages, including Spanish. In Spanish, negation is expressed through the use of words or grammatical elements that have the function of negating an expression or action. This article aims to analyze the category of negation in Spanish from a linguistic point of view, to investigate its function, form and use in different grammatical contexts. In addition, the relationship between negation and semantics, as well as its impact on sentence structure and communication in Spanish, will be investigated. Negation is a grammar that plays an important role in linguistic communication. is a category and its study is of great importance for the science of linguistics.

Мадатова Наргиз

КАТЕГОРИЯ ОТРИЦАНИЯ В ИСПАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Ключевые слова: отрицание, категория, префиксы, семантика, отрицание, положительное

Известно, что ряд категорий в языке универсальны. Эти категории включают утверждение и отрицание, аффективное и недействительное, определенность и неопределенность, модальность и ряд категорий, существующих в большинстве языков. С этой точки зрения трактовка категории утверждения и отрицания как языковой всеобщности занимает важное место в современной лингвистической литературе. Изучение категории отрицания, имеющей разные средства выражения, в испанском и азербайджанском языках важно с точки зрения универсальности. Отрицание - грамматическая категория, существующая во всех языках, в том числе и в испанском. В испанском языке отрицание выражается с помощью слов или грамматических элементов, которые имеют функцию отрицания выражения или действия. В данной статье ставится задача проанализировать категорию отрицания в испанском языке с лингвистической точки зрения, исследовать ее функцию, форму и употребление в различных грамматических контекстах, а также взаимосвязь между отрицанием и семантикой, а также его влияние на структуру предложения и общение на испанском языке, будет исследовано.Отрицание-это грамматика, которая играет важную роль в языковом общении.это категория и ее изучение имеет большое значение для науки языкознания.

ƏDƏBIYYAT

1. Aslanov A.İ. “Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyaları” Bakı,1985
2. Seyidov Y. “Azərbaycan dilinin qrammatikası.Morfologiya” Bakı, 2000
3. Axundov A.A. “Ümumi dilçilik.Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları”. Maarif, Bakı, 1985
4. Kazımov Q.Ş. “Müasir Azərbaycan dili .Morfologiya” Bakı 2014
5. Виноградов В.В. «Русский язык» 1972
6. B. Sanz “La negación en español” 1996
7. M. Hüseynzadə “Müasir Azərbaycan dili” 2007,Bakı

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: f.f.d , dos. Aynur Quliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

MUSTAFAYEVA G.Ş.
(Azərbaycan Dillər Universiteti)
BAKI ŞƏHƏRİ, R.BEHBUDOV KÜÇ., 134.

LATIN DİLİNİN DİGƏR DİLLƏRƏ TƏSİRİ VƏ ONDAN TÖRƏYƏN ROMAN DİLLƏRİNİN ARAŞDIRILMASI

Açar sözlər: roman dilləri, Roma İmperiyası, ünsiyyət dili, vulqar latın dili, latın mənşəli dillər

Ключевые слова: Romance languages, Roman Empire, communication language, Vulgar Latin, languages of Latin origin

Key words: Романские языки, Римская империя, язык общения, вульгарная латынь, языки латинского происхождения

Qədim dövrdən Orta Əsrlərə qədər Avropa ərazisində bir çox regional və dialekt dillər mövcud olmuşdur. Bu dillər xalqlar arasında baş verən qarşıdurma, müstəmləkələşmə və miqrasiya axınının nəticəsində inkişaf edərək dəyişikliklərə məruz qalmışdır. Bununla da, Avropada bir neçə minillikdə imperiya və sivilizasiyaların mədəniyyətlərini özü ilə daşıyan müxtəlif xalqlar arasında dillər təkamül edərək müasir dövrümüzə qədər gəlib çatmışdır.

Yer üzünün təxminən 430 milion sakini latın mənşəli dillərdə danışır, bunlardan 18 % - i hindavropa dillərində danışır ki, bu da bəşəriyyətin 7,9 % - ni təşkil edir. Beləliklə latın mənşəli dillərdə (və ya roman dillərində) demək olar ki, german dil qrupuna aid olan dillərdə olduğu qədər insanlar ünsiyyətə girir və bunda Latın Amerikasının rolu boyükdür. Latın dilindən törəyən dillər istər bakalavr, istərsə də magistratura pilləsində ikinci dil olaraq ən çox öyrənilən dillərdir.

Avropa dillərinin böyük əksəriyyəti hindavropa dilləridir və bu da əsasəsən, Avropa və Hindistanda istifadə edilir (yunan dilindən sanskrit dilinə qədər). Hindavropa dilləri öz mənşəyini bir neçə min il öncə Volqa çayı sahillərindən götürmüşdür. Avropa dilləri eyni köklərə dayansa da, adətən bir birlərindən fərqlənirlər: slavyan, roman, german dil qruplarını misal çəkə bilərik. Latın dillərində öz kökünü etrusk dilindən götürən latın əlifbasından istifadə edilir. Etrusk dili isə, öz növbəsində, yunan və finikiya əlifbasından qaynaqlanır. Latın dili Latio (mərkəzi İtaliya) ərazisində işlədilsə də, sonralar Roma İmperiyasının rəsmi dili kimi bütün Avropaya yayılmağa başladı. Buna görə də, latın dili klassik və vulqar latın olaraq iki formada qruplaşdı.

E.ə.753 – cü ildə əsası qoyulan və uzun sürən müharibələr nəticəsində bir çox əraziləri zəbt edən Roma İmperiyasında müxtəlif qəbilələrin yaşamasına baxmayaraq, əsas ünsiyyət dili latın dili hesab edilirdi. Qədim Roma İmperiyası öz əhatə dairəsini genişləndirərək Şimali Afrika – Misir, Kiçik Asiya və digər əraziləri özünə birləşdirmişdir və bununla da, latın dili Apennin yarımadasının sərhədlərini

aşaraq bütün Avropaya yayılmışdır. Beləliklə, latın dili Atlantik okeanın sahillərindən Aralıq dənizi sahillərinə qədər qədər olan əhəmiyyətli Avropa ərazilərini əhatə edən nəinki Roma İmperiyasının, həmçinin bütün Avropanın dövlət dili hesab edilirdi. Buna görə də, latinizasiya prosesi bütün Roma əyalətlərində müşahidə olunmağa başlamışdır.

XII – XIII əsrlərdə elmi düşüncə və bədii yaradıcılığın vüsət tapdığı ədəbiyyat sahəsində latın dili öndə dayanırdı. Bundan başqa, orta əsrlərdə həyat tərzinə çevrilən katolik kilsəsinin dili məhz latın dili idi.

Dirçəliş dövründə latın dili elm və hüquq sahəsində öz liderliyini əldən vermədi, belə ki, tarixi mənbələrə istinad etsək, latın dilində kifayət qədər hüquqi sənədlərə rast gələ bilərik. Renessans dövrü sonrakı nəsillərə böyük ədəbi irs, tarixi memarlıq abidələri, tibbi və elmi kəşflər bəxş etmişdir ki, burada da latın dilinin təsiri danılmaz fakt hesab edilir.

Roma İmperiyasının süqutundan sonra vulqar latın dili dəyişilərək imperiyanın koloniyalarında yeni roman dillərinin formalaşmasına zəmin yaratdı. Roma İmperiyasının Qədim dövrdə Aralıq dənizi sahillərində malik olduğu nüfuzunun nəticəsi olaraq latın dili öz təsirini itirmədi və bir sıra müasir dilləri meydana gətirdi və bununla da, onun digər dialektləri aradan çıxmış oldu.

Dahi insanların, məşhur natiqlərin işlətdiyi latın dili, əsasən, hüquq və siyasət sahəsində işlədilirdi. Bu gün bizə məlum olan latın dili əsrlər boyu ünsiyyət vasitəsi olaraq müasir roman dillərinin əmələ gəlməsinə zəmin yaratmışdır. Roma imperiyasınnı hökm sürdüyü və Avropanın şimalından şərqinə doğru coğrafiyanı əhatə edən bölgələrdə bu dil yayılmağa başlamışdır. Buna görə də, latınca “romanus” (romalı) sözündən törəyən roman sözü həmin dildə danışan insanların ünsiyyət vasitəsinə çevrilərək yeni roman dilərinin əmələ gəlməsinə səbəb oldu. E.Ə. 200 və 400 – cü illər ərzində vulqar latın dilinin müxtəlif növləri mövcud idi. Lakin əsrlər boyu təkamül edən bu dil yeni roman dillərinin (Romanam Linguam) yaranmasına gətirib çıxardı.

Mənşəyini latın dilindən götürən dillərə italiyan, kasteyano (ispan), katalan, portuqal, fransız kimi dillər aiddir. Bu roman dillərinin bir sıra ortaq xüsusiyyətlərinin olmasına baxmayaraq, fərqli cəhətləri də mövcuddur. Belə ki, artikl anlayışı fransız, ispan dillərində olsa da, latın dilində artikl anlayışı yoxdur. Amma latın dilində ismin 5 növ halanmasının olmasına baxmayaraq, digər dillərdə hallanma anlayışı yoxdur, belə ki, hal katekoriyası yalnız sözönüləri sayəsində əmələ gəlir.

İspan dilinin ərəb dilinin böyük təsirinə məruz qalmasına baxmayaraq, əsas kökü latın dilinə dayanır. Yeddi əsr ərzində Piriney yarımadasını işğal edən ərəb xalqının nümayəndələri həm öz mədəniyyətlərini, həm də dillərini o bölgədə yaymağa çalışdı. Bu səbəbdən də, ispan dili həm ərəb, həm də, latın dilinin təsiri ilə formalaşıb bu günümüzə gəlib çıxmışdır. Tarixçilərin fikrincə, ispan və portuqal dilləri latın dilinin daha çox təsirinə məruz qalmışdır. Hal – hazırda dünyada ispan dili ana dili olan 450 milyon əhali vardır. Lakin, İspaniyada mövcud olan bəzi

dialektlərdə danışan xalqlar latın dilinə qarşı müqavimət göstərərək, öz dilləri qoruyub saxlamağa müvəffəq olmuşlar.

Qalliyanın Yuli Sezar tərəfindən işğalından (E.Ə. 100) sonra fransız dili də latın dilinin böyük təsirinə məruz qalmışdır və buna görə də, fransız dilinin lüğətində qal və alman sözləri ilə yanaşı kifayət qədər latın mənşəli sözlər yer almışdır. Fransız dili dünya əhalisinin 76 milyon nəfərinin ana dilidir.

Piriney yarımadasının İspaniya ilə qonşu olan ölkəsi Portuqaliya həmçinin roman dil qrupuna aid olan portuqal dilinin vətəni hesab edilir. Bildiyimiz kimi, Latın Amerikasında işğallar həyata keçirən Portuqaliya həm mədəni, həm tarixi cəhətdən Braziliyada dərin izlər buraxmışdır. Buna görə də, Braziliyanın rəsmi dili məhz portuqal dili olmuşdur. Ötən əsrlərdə bir sıra Afrika ölkələrini işğal edən Portuqaliya bu dilin bəzi ölkələrdə yayılmasına səbəb olmuşdur.

Latın dilindən törəyən dillər arasında italyan dili xüsusi əhəmiyyət daşıyır. Tarix boyu böyük dil müxtəlifliyi yaşayan İtaliya roman dilləri olan fransız və ispan dili ilə daha çox bənzər və oxşar xüsusiyyətlərə malikdir.

Latın dili qərbi Avropa ilə yanaşı, həmçinin Şərqi Avropada bir sıra dillərə nüfuz etmişdir. Şərqi roman dillərinə Ruminiya və Moldovada rast gəlmək olar. Bəzi dilçilərin araşdırmalarına əsasən, alban dilində də latın dilinin izlərinə rast gəlmək olur.

Qədimdə latın dili Balkan yarımadası ərazilərində Roma İmperiyasının hökm sürdüyü dövrlərdə, xüsusilə, IV əsrdə indiki Rumıniya, Moldova, Serbiya, Bosniya və Xorvatiya kimi ölkələrin sərhədlərini aşmağa müvəffəq olmuşdur. Rumın dilinin fonetika, leksika və qrammatikasında latın dilinə çox bənzərliklər vardır. Belə ki, rumın dilinin söz ehtiyatının 71,66 faizi mənşəyini bilavasitə və ya dolayısı ilə latın dilindən götürmüşdür. Bu dil, İtaliyanın şimalında mövcud olan bir sıra dialektlərlə çox bənzərliklərə malikdir. Kiril əlifbasına malik moldova dili rumın dilinə çox bənzəyir.

Latın dilinə daha çox bənzəyən dilin hansı olduğu haqda bir çox araşdırmalar aparılmışdır.

Latın dili kilsənin və həmçinin Vatikanın rəsmi dili hesab edilməsinə baxmayaraq, italyan dili daha çox latın dilinə yaxın hesab edilir.

Bundan başqa, ingilis dilində də, yetərincə latın mənşəli söz və ifadələr vardır.

Latın dilini öyrənmək və tədqiq etmək, latın ədəbiyyatının tarixini araşdırmaq (Siserondan tutmuş, Homer, Ovidio və Tito Livioya qədər) Avropada işlədilən dilləri anlamaqda və qavramaqda böyük təsirə malikdir.

Müasir dövrdə ingilis dilinin beynəlxalq arenada, elm – təhsil və texnologiya sahəsində oynadığı rolu qədim dövrdən XIX əsrə qədər min illiklər boyu latın dili ifadə etmişdir.

Tarixi mənbələrə istinadən qeyd etmək olar ki, XVII - XVIII əsrlərdə hətta Rusiyada belə diplomatik yazışmalar və danışıqlar bu dildə aparılmışdır. Həmçinin

M.V. Lomonosov öz əsərlərində və xaricə göndərdiyi məktublarında latın dilindən istifadə etmişdir.

Roman dilləri və filologiya fakültələrində təhsil alan tələbələr latın dilini öyrənməklə, yiyələndikləri dilin daha da dərinliklərinə baş vuraraq, dilin funksiyasının qanunauyğunluqlarına bələd olub bir çox rastlaşdıqları suala cavab tapa bilirlər. Buna görə də, roman dilini öyrənən hər bir kəsin öncədən latın dilinə müraciət etməsi mütləqdir.

Onu da xatırlatmaq lazımdır ki, latın dili heç də ölü dil deyil, çünki latın xalqı indiki dövrdə mövcud olmasa belə, bu dil elm və mədəniyyətin bütün sahələrinə nüfuz etmişdir.

Ədəbiyyat:

1. Федерова Е.В. «Латинская эпиграфика» М. 1969
2. Дынников А.Н., Лопатина М.Г. «Народная латынь» М.1975
3. Тронский И.М. Историческая грамматика латинского языка. Изд. Второе, М.:издво «Индрик», 2001
4. Introduction to human geography, Steven Graves, California State University, Northridge, 2020
5. es.m.wikipedia.org
6. www.mgimo.ru

Mustafayeva G.

Latın dilinin digər dillərə təsiri və ondan törəyən roman dillərinin araşdırılması

(Xülasə)

Qədim Roma İmperiyası öz əhatə dairəsini genişləndirərək Şimali Afrika – Misir, Kiçik Asiya və digər əraziləri özünə birləşdirmişdir və bununla da, latın dili Apennin yarımadasının sərhədlərini aşaraq bütün Avropaya yayılmışdır. Beləliklə, latın dili Atlantik okeanın sahillərindən Aralıq dənizi sahillərinə qədər qədər olan əhəmiyyətli Avropa ərazilərini əhatə edən nəinki Roma İmperiyasının, həmçinin bütün Avropanın dövlət dili hesab edilirdi. Buna görə də, latinizasiya prosesi bütün Roma əyalətlərində müşahidə olunmağa başlamışdır. Roma İmperiyasının süqutundan sonra vulqar latın dili dəyişilərək imperiyanın koloniyalarında yeni roman dillərinin formalaşmasına zəmin yaratdı. Roma İmperiyasının Qədim dövrdə Aralıq dənizi sahillərində malik olduğu nüfuzunun nəticəsi olaraq latın dili öz təsirini itirmədi və bir sıra müasir dilləri meydana gətirdi və bununla da, onun digər dialektləri aradan çıxmış oldu. Dahi insanların, məşhur natiqlərin işlətdiyi latın dili, əsasən, hüquq və siyasət sahəsində işlədilirdi. Bu gün bizə məlum olan latın dili əsrlər boyu ünsiyyət vasitəsi olaraq müasir roman dillərinin əmələ gəlməsinə zəmin yaratmışdır. Roma imperiyasınnı hökm sürdüyü və Avropanın şimalından şərqinə

doğru coğrafiyanı əhatə edən bölgələrdə bu dil yayılmağa başlamışdır. Buna görə də, latınca "romanus" (romalı) sözündən törəyən roman sözü həmin dildə danışan insanların ünsiyyət vasitəsinə çevrilərək yeni roman dilərinin əmələ gəlməsinə səbəb oldu. E.Ə. 200 və 400 – cü illər ərzində vulqar latın dilinin müxtəlif növləri mövcud idi. Lakin əsrlər boyu təkamül edən bu dil yeni roman dillərinin (Romanam Linguam) yaranmasına gətirib çıxardı.

Mustafayeva G.

The influence of Latin on other languages and the study of its derivatives – Romance languages

(Summary)

The ancient Roman Empire expanded its scope and annexed North Africa - Egypt, Asia Minor and other territories, and thus the Latin language spread beyond the borders of the Apennine peninsula to the whole of Europe. Thus, Latin was considered the official language not only of the Roman Empire, but also of all Europe, covering significant European territories from the shores of the Atlantic Ocean to the shores of the Mediterranean Sea. Therefore, the process of Latinization began to be observed in all Roman provinces. After the fall of the Roman Empire, the Vulgar Latin language was changed and created the basis for the formation of new Romance languages in the empire's colonies. As a result of the influence of the Roman Empire on the Mediterranean coast in ancient times, Latin did not lose its influence and gave rise to a number of modern languages, while its other dialects disappeared. The Latin language used by geniuses and famous speakers was mainly used in the field of law and politics. The Latin language that is known to us today created the basis for the formation of modern Romance languages as a means of communication for centuries. This language began to spread in the regions where the Roman Empire ruled and covered the geography from the north to the east of Europe. Therefore, the word Roman, derived from the Latin word "romanus" (Roman), became a means of communication for people speaking that language and led to the formation of new Roman languages. E.E. Between 200 and 400 AD, there were different varieties of Vulgar Latin. However, this language, which evolved over the centuries, led to the creation of new Romance languages (Romanam Linguam).

Мустафаева Г.

Влияние латыни на другие языки и изучение ее производные

(Резюме)

Древняя Римская империя расширила свои масштабы и присоединила к себе Северную Африку - Египет, Малую Азию и другие территории, и таким образом латинский язык распространился за пределы Апеннинского полуострова на всю Европу. Таким образом, латынь считалась официальным языком не только Римской империи, но и всей Европы, охватывая значительные европейские территории от берегов Атлантического океана до берегов Средиземного моря. Поэтому процесс латинизации стал наблюдаться

во всех римских провинциях. После падения Римской империи вульгарный латинский язык был изменен и создал основу для формирования новых романских языков в колониях империи. В результате влияния Римской империи на побережье Средиземного моря в древности латынь не утратила своего влияния и дала начало ряду современных языков, а другие ее диалекты исчезли. Латинский язык, которым пользовались гении и знаменитые ораторы, в основном использовался в области права и политики. Известный нам сегодня латинский язык создал основу для формирования современных романских языков как средства общения на протяжении веков. Этот язык начал распространяться в регионах, где правила Римская империя, и охватил географию от севера до востока Европы. Поэтому слово «римский», происходящее от латинского слова «romanus» (римский), стало средством общения людей, говорящих на этом языке, и привело к образованию новых романских языков. Э.Э. Между 200 и 400 годами нашей эры существовали различные разновидности вульгарной латыни. Однако этот язык, который развивался на протяжении веков, привел к созданию новых романских языков (Romanam Linguam).

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: f.f.d , dos. Aynur Quliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏHİMƏ QƏDİR QIZI MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
rahi76@mail.ru

İSPAN DİL NORMASI VƏ LİNQVİSTİK VARİATİVLİK ANLAYIŞI HAQQINDA ARAŞDIRMALAR

Açar sözlər: *dil norması, linqvistik dəyişikliklər, variativlik və ispan dil norması, təsir*
Ключевые слова: *языковая норма, языковые изменения, вариативность и испаноязычная норма, влияние*
Keywords: *language norm, linguistic changes, variability and Spanish language norm, influence*

Kommunikativ prosesdə insanlar arasında əsas vasitə olan dilin köməkliyi ilə ətrafımızdakı dünyanı qavrayırıq. Mədəniyyətin qarşılıqlı təsiri, yaradılması və mənimsənilməsi danışanın istifadə etdiyi dil səviyyəsindən asılı deyil, çünki dil bizə sözlər vasitəsilə dünyanı və insanları anlamaq və düşünmək imkanı verir. Sözlərlə biz reallığı adlandırmağı və onu qavrayaraq digər məfhumlar ilə müqayisə etməyi öyrənirik. Eyni zamanda biz bu dilin bizə bəxş etdiyi dünya mədəniyyətini və ya baxışını əldə edirik. Buna görə də, dil təkcə insanlar arasında ünsiyyət vasitəsi deyil, həm də bir alət kimi cəmiyyətdə düşüncə tərzimizi formalaşdırır. İnsanların bir-biri ilə sosial əlaqələr qurmaq və saxlamaq ehtiyacı duyur. Bu sosial təmaslar vasitəsilə insan öz şəxsiyyətini, varlığını, düşüncəsini, hərəkətini inkişaf etdirir. Başqa sözlə desək, dil (həm şifahi, həm də yazılı) insan olaraq formalaşmağımızın əsasını təşkil edir.

İspan dili dünyada ən çox danışılan üçüncü dildir və bütün dünyaya geniş yayılmışdır. Bu qədər geniş bir ərazidə işlək olan dil haqqında danışarkən, hər ölkədə istifadə edilən ispan dilinin növləri arasında fərqlərin olması təbiidir. Başqa sözlə desək, eyni söz və ya söz birləşməsi çox vaxt İspaniyada, Argentinada, Mexikoda, Kolumbiyada və ya Puerto Rikoda fərqli şəkildə ifadə edilir. Bir çox başqa dillər kimi ispan dilinin də bir neçə dil normaları var (yəni dildə düzgün hesab edilən linqvistik xüsusiyyətlər toplusu və standart dilin tövsiyə və arzu olunan istifadəsi). Yarımadada işlənən dil normaları və kastelyano dilinə zidd olan müxtəlif Latın Amerikası normaları haqqında danışarkən qeyd etməliyik ki, bir çox digər dillər kimi, ispan dilinin coğrafi, sosial, və kontekstual variasiyaları var. Heç kim inkar edə bilməz ki, müəyyən dərəcədə dilin və məlumatın daha yaxşı başa düşülməsi və yayılması üçün bir növ standartlaşdırmaya ehtiyac var, lakin eyni zamanda, bu standart dilin tətbiqi regional normaların özünəməxsus xüsusiyyətləri ilə qəbul edilməsinə və yaşamasına təsir edəcəyi sualı ilə qarşılaşa bilərik.

Dil norması anlayışı qədim zamanlardan, daha doğrusu, yazılı dilin yaranmasından bəri mövcud olmuşdur ki, bu da dilin daha vahid şəkildə başa düşülməsi və ötürülməsi üçün standartlaşdırılmasına səbəb olmuşdur. Dil normasının standartlaşdırılması həm dillərin tədrisini, həm də onların kütləvi informasi vasitələri yayılmasını asanlaşdırdı ki, bu da dilin yaşaması üçün vacib amilə çevrildi.

Ispan dilçilərinin və tədqiqatçılarının bəzi linqvistik variantların norma kimi qəbul edilməsi və digərlərinin isə təksib olunması diqqətlərini cəlb etmişdir. Qeyd etməliyik ki, sosial-mədəni baxımdan şəhər mərkəzlərində hər hansı bir söz, söz birləşməsi, deyim və ya ifadə tez-tez eşidildiyindən daha çox sosial təbəqələrə qədər yayılmasına səbəb olur və bu da qeyd edilən söz və ifadələrin standart dil normasına daxil edilməsini asanlaşdıra bilər.

İspan dilin standart yəni norma variativliyi digər ərazi variativliyinə nisbətən daha düzgün hesab edilən ünsiyyət vasitələrini təşkil edir. O, şərti xarakter daşıyır və həmin natiqlər cəmiyyətində müəyyən nüfuza malik olduğunu nəzərə alsaq, onların kütləvi informasi vasitələrində daha geniş yayımlanır. Beləliklə, istənilən natiq və ya danışan şəxs "düzgün" hesab olunan tərzdə fikrini ifadə etmək üçün bu standart variativliyə mümkün qədər yaxınlaşmağa çalışır.

Standart normadan fərqli olaraq linqvistik variasiyanı nəzərdən keçirərkən, bu iki anlayış arasında ümumi qəbul edilmiş sərhədlərini müəyyən etmək çətin məsələdir. Hər bir dil davamlı dəyişikliklərə uğrayır. Dillər dəyişməyə davam edir, söz ehtiyatlarında yeni alternativ variantlar yaratmağa və eyni şeyi ifadə etmək üçün yeni yollar tapmağa davam edirlər. Başqa sözlə desək, məsələn, fonetik variantlar ilə bağlı araşdırma aparmaq üçün şifahi qeydlərinin əldə edilməsi üçün kifayətdir. Bununla belə, leksik variasiyanın tədqiqində, insanların nitqlərinin toplanması, müəyyən və ya xüsusi sorğular aparılmadığı halda, natiqin araşdırmamızın obyekti olan leksik variantlar arasından seçməli olduğu variantıarın mövcudluğuna zəmanət vermir və bu da tədqiqatı çətinləşdirir. Hər halda, hər hansı bir dildə söz və ifadənin leksik variantlarının sosiolinqvistik tədqiqinin faydaları, fikrimizcə, variasiyaya yanaşmada nəzəri perspektivlərin çoxluğuna görə araşdırmalar daha maraqlı və aktual olaraq aparılacaqdır.

Danılmazdır ki, dildə müxtəliflik var və bu variasiya dillərin təkamülünün və zamanın tələbatına uyğun olaraq dəyişməsinin nəticəsində baş vermişdir. Eyni bir sözün və ya fikrin müxtəlif şəkildə ifadə edilməsi linqvistik variasiya olduğunu göstərir. İlkin formadan yenisinə keçid zamanı həm yeni, həm də ilkin ifadə şəkli birgə mövcud olduğunu müşahidə edə bilərik. Hər ifi ifadə şəkli dildə linqvistik variasiyaya yaranmasına səbəb olur.

Dillərin təkamülü, dillərdə olan dialektlərin qarşılıqlı əlaqələri və bir-birinə təsiri tarix boyu dillərin variativliyinə yol açmışdır. Variativlik anlayışından ilk dəfə bəhs etmiş F.de Sössürə görə, variativlik işarənin xassələrindən biri kimi onun dəyişkənliyə meyilliliyini səciyyələndirir. Bu fikrin yaranması ilə dilçiliyin sonrakı inkişafında bir çöx ispandilli dilçilər tərəfindən dəyişikliklər dilin bütün səviyyələri

üzrə araşdırılmasına səbəb oldu. İnvariant və variant anlayışları hər dil səviyyəsi üçün ayrıca variativlik və variant anlayışları ilə əvəz edildi.[7, s. 147]

Ispan dilçiləri dilin variativliyindən danışarkən ilk dilin norması və variativlik anlayışını irəli sürürlər. Dil norması ispan dil sisteminin əsas dilin daxili quruluşunun və qaydalarının bir-birinə qarşılıqlı təsiri kimi izah edilir. "Norma" termini dilşünaslıqda hamının qəbul etdiyi dilin qrammatik, leksik, fonetik və üslubi qaydalara riayət edilməsi deməkdir. Bəzən dil norması dildə fərqli anlayış yaratmadan və eyni zamanda hər iki mənada işlənə bilər və bu zaman iki sözün fərqləndirilməsinə ehtiyac duyulur. Xarici amillərin təsirindən dildə bəzi dəyişikliklərin baş verməsi adi hal almışdır. Odur ki, ispan dilçilərinin fikrincə ispan dilinin normasından bəhs edərkən dialekt, danışıq dili və s. dil sistemlərini nəzərə almaq lazımdır, çünki dil onların məcmusudur.

İspan dilində variativliyin yaranması səbəblərini və amillərini öyrənmək üçün onun milli-mədəni özəlliyinə nəzər salmaq lazımdır. Dünyada geniş yayılmış ispan dili ifadə vasitəsi kimi milli dəyərləri özündə əks etdirir. Bu, onunla bağlıdır ki, ispan dili yalnız kommunikativ funksiya daşımır, həm də ispan və latınamerikası ölkələrinin etnik, milli xüsusiyyətlərini, düşüncə tərzini, ispan dünyasını dərk etmək və onu cəmiyyətə ötürmək kimi xüsusiyyətlərə malikdir.

İspan xalqının milli-mədəni xüsusiyyətlərinin və anlayışının formalaşması, onların dünyada adət və ənənələrinin dərk olunmasına və ispan dilinin milli variantlarının başa düşülməsini asanlaşdırır. Bu xüsusiyyətlər ispan dilinin İspaniya və bütün Latın Amerikası ölkələrin variantlarına da xasdır. Eyni mənşədən olmasına baxmayaraq, ispan dilinin hər bir variantının ispandilli ölkələrinin eyni mədəniyyət daxilində müstəqil inkişaf yollarından keçmişdir. Hər bir ispandilli xalqın özünəməxsus xüsusiyyətlərini əks etdirən variantlar ispan dilinin milli variantları kimi qəbul edilmişdir.

İspan dilçilərinin nəzəri araşdırmalarını təhlili göstərir ki, dilin variativliyi müxtəlif səbəblərdən və bir sıra daxili və xarici amillərdən asılıdır. İpan dilinin variativliyinin səbəblərini öyrənərkən intralinqvistik və ekstralinqvistik amilləri də nəzərə almaq mütləqdir. Ümumilikdə belə nəticəyə gələ bilərik ki, ispan dil sistemi, onun daxili və xarici amilləri dildə dəyişikliklərin baş verməsinə yol açır. Belə ki, daxili amillərə dilin qrammatik, leksik, qrammatik və üslubi qaydaları daxilində baş verən dəyişikliklər, sivilizasiyanın inkişafı, dil daşıyıcılarının arasında formalaşan və inkişaf edən əlaqələri buna misal çəkə bilərik. Bir çox hallarda xarici amillər həlledici və əsas rol oynayaraq dil vasitələrinin variarivliyinə səbəb olur.

Ispan dilçilərinin fikrincə variasiya anlayışı həmişə ikiqat eynilik və diferensiallaşma prosesinə əsaslanır. Bu fakt əvvəldən iki növ variantı əhəmiyyətli vahidlərdə fərqləndirməyə imkan verir: məzmun variantları (ifadə eyniliyi və məzmun fərqi olan vahidlər) və ifadə variantları (məzmun eyniliyi və ifadə fərqi olan vahidlər). Leksik səviyyədə variativlik anlayışı fərqlidir. Araşdırmalarmızdan məlum olduğu kimi onlar leksik variantlarla invariantlar arasındakı fərqdir. Ən çox

işlək olan, müəyyən mənada daha neytral, sosial amillərlə aydın şəkildə fərq yaratmayan vahid leksik invariant hesab edilə bilər, baxmayaraq ki, ispan dilçilərinin fikrincə bu yanaşma sosiolinqvistik təhlil tələb edir. Hər bir vahidin invariant xüsusiyyətini müəyyənləşdirmək əsasdır. Dilçilik elminin tədqiqatında linqvistik variativliyə sosial-mədəni xarakterli amillərin təsirini ətraflı müşahidə edilməsi, sosiolinqvistikanın kifayət qədər zəngin və müxtəlif məlumatlara malik olması məlum çətinliklərə səbəb olur.

Dilin müxtəlifliyi, norma və səviyyələri anlayışını araşdırarkən qeyd etmək lazımdır ki, variasiya dilin bütün səviyyələrində baş verir: morfoloji, sintaktik və leksik səviyyədə baş verən bu dəyişikliklər linqvistik və ekstralinqvistik səbəblərdən qaynaqlanır. Həqiqətən variasiyanın olub-olmadığını, yəni bir sıra variantların eyni mənanı ifadə etdiyini əminliklə müəyyən etmək: – qrammatik və leksik səviyyədə ən böyük problemlərdən biridir, çünki çoxlu dil və ekstralinqvistik faktorlar (kommunikativ situasiya, danışanın niyyəti, üslubu, kontekst, cins, yaş və s.) nəzərə alınmalıdır. Dilin fonoloji səviyyəsində alternativ variantların dəyişməsi məna dəyişikliyinə səbəb olduğunu müəyyən etmək daha asandır. İspan dilçilər arasında bir qrup variantın mənalarının ekvivalentliyinin qəbul edilməsi ilə bağlı böyük müzakirələr aparılır. Silva – Korvalan bu konseptual maneələri həll etmək niyyətində olduğu təkliflə çıxış edir: "Fonetik səviyyədən kənar variasiyanın tədqiqi sosiolinqvistika öz təhlilini diskurs, semantika və praqmatika səviyyəsinə çatdırmağa sövq edir, çünki onun məqsədi variasiyanı daxili və yaxud xarici amillərlə mümkün variantların məna fərqlərini izah etməkdir. [7, s.126]

Sosiolinqvistika təhlilin geniş sosiolinqvistik kontekstdə diskursu əsas bazası kimi götürür, çünki onu, dilin hansı sinonim imkanlar təklif etməsi və danışan şəxsin müəyyən bir diskursda onlardan birini hansı səbəbdən seçməsi, kontekstdə hansı amillərin "eyni şeyi" başqa sözlə ifadə etməsini izah etməsi maraqlandırır.

Variasiya necə özünü ispan dilində necə göstərir sualı ilə tez-tez rast gəlirik. Variasiya ispan dilinin mənasını, spesifik xüsusiyyətlərini dəyişdirmədən ona töhfə verməklə özünü göstərir və onu müxtəlif variantlardan (coğrafi, sosial və ya üslubi) fərqlənəndirən bir çox amillərdən irəli gələn müəyyən cəhətlərə malikdir. Hamımız bu növlərin mövcudluğundan xəbərdarıq: bir insanı eşidəndə onun haradan (yaxud olmadığını), hansı sosial qruplara aid olduqlarını və hansı kommunikativ kontekstdə olduqlarını bilmək üçün bəzən onu görməyə ehtiyac yoxdur.

Linqvistik variasiya hər cür təsirlər onu müəyyən edən və onun çoxsaylı dəyişikliklərinin zənginliyini və dəyərini izah edən, kifayət qədər eyni linqvistik qanunauyğunluqlar toplusu kimi başa düşülən dilə daimi olaraq təsir göstərir. Dilin variativliyi, müxtəlif növ amillərə uyğun olaraq, danışanların bir dilin istifadəsini xarakterizə edən müəyyən edilmiş spesifik xüsusiyyətlərin hər birisidir. Dilin müxtəlifliyinə təsir edən amillər linqvistik və ya ekstralinqvistik (tarixi, coğrafi, sosial və ya situasiya) ola bilər. Qeyd edilən linqvistik və ya ekstralinqvistik amillər birgə və ya ayrıca fəaliyyət göstərir. Demək olar ki, ispan dilçilərinin marağına səbəb

olan variasiya ilə bağlı əsas fikir ayrılığı məhz "linqvistik variasiya" və ya "linqvistik dəyişikliklər" anlayışının tərifinin verilməsi və hər baxımdan nəzərdən keçirilmiş bu anlayışın konsepsiyası əsasında təhlil oluna bilməsi üçün linqvistik tətbiqlərin aparılması idi.

1960-cı illərdə sosiolinqvistika termininin yaranmasına qədər bütün təhlil vahidləri – fonemlər, morfemlər, ifadələr, cümlələr əvvəlcə keyfiyyətcə invariant kimi şərh olunurdu və sonra variasiyanın olduğu, lakin onun sərbəst və səbəbsiz baş verdiyi kimi qəbul edildi. Bununla belə, variasiyanı sosiolinqvistika onu struktur vahid kimi müəyyən etdi, belə ki, sosial-dialekt və ya hətta fərdi dialekt kontekstlərdə fərqli şəkildə yerinə yetirildiyindən müəyyən variantlar çox vaxt standart varianta az və ya çox yaxın olmasından sosial əhəmiyyət kəsb edir. [3, s.128]

Əslində, Labov hesab edirdi ki, "sosial və üslubi variasiya "eyni məhfumu" müxtəlif yollarla söyləmək variant adlandırmaq olar; yəni variantlar istinad etdiyi və ya həqiqi mənasına görə eynidir, lakin sosial və ya üslubi əhəmiyyətinə görə bir-birinə ziddir. [3, s.166]

Bu fikrinə əsaslanaraq ispan [s] kar samitinin tələffüzünün variantını misal gətirə bilərik. İspan dilində xırıltılı [s], nəfəsli səslər (aspiratlar) [h] və eliziya yəni səs düşümü [Ø] /-s/ dəyişəninin partlayan samitinin variantlarıdır. Burada [s] samitinin fərdi xarekter daşımadığını, daha dəqiq desək, variantları təkcə müxtəlif şəxslərin tələffüzündən asılı deyil, həmçinin ispan dilli ölkələrdə dialekt kimi də anlaşıldığını da görə bilərik. Məsələn, Kubada está [ehtá] və Meksikada [está] kar [s] samitinin aydın tələffüzünün variantını daha aydın eşitmək mümkündür.

1980-ci illərdə tanınmış linqvist Cedergren tərəfindən bir daha təsdiq edilmişdir: "Linqvistik dəyişiklik konsepsiyası eyni əsas elementin və ya prinsipin həyata keçirilməsinin və ya patent ifadələrinin ekvivalentliyi toplusunu izah edir". [1, s.150]

Eyni tərif, linqvistik səviyyədə yəni yalnız fonoloji səviyyə üçün deyil, həmçinin dilin qalan səviyyələri və ya dilin qaydaları üçün də ola bilər. Burada Argentinada ***tú*** şəxs əvəzinə ***vos*** işlədilməsini misal çəkə bilərik.

Digər tərəfdən, xarici dilin tədqiq edən dilçilər tərəfindən irəli sürülən tədqiqatlar çərçivəsində "eyni şeyi müxtəlif yollarla söyləmək" anlayışı "referensial ekvivalentlik" anlayışı ilə əvəz edilmişdir. Variasiyada hadisənin linqvistik cəhətdən müxtəlif perspektivlərdən təmsil oluna biləcəyini və iki və ya daha çox terminin istinad baxımından ekvivalent olduğunu nəzərdə tutur.

Martinesin fikrincə bu perspektiv üçün variasiya anlayışı müxtəlif linqvistik vahidlərin kommunikativ ekvivalentliyini və qismən və ya tamamilə üst-üstə düşməsi nəzərdə tutuıurr. Beləliklə, linqvistik variasiya o zaman baş verir ki, natiq və ya danışan şəxs ekvivalent mesaj yaratmaq üçün müxtəlif linqvistik formalar arasında dəyişiklik edə bilsin. Bu perspektivə görə variasiya dilin müxtəlif səviyyələrini əhatə

edir: fonoloji, morfoloji, sintaktik və leksik və bütün dil səviyyələrində eyni şəkildə müəyyən edilir. [2, s.179]

Labovun əksinə olaraq, formaların alternativ istifadəsinin "hadisənin dil baxımından müxtəlif perspektivlərdən təmsil oluna biləcəyini və iki və ya daha çox terminin istinad baxımından ekvivalent olduğunu" nəzərdə tutan "referensial ekvivalentlik" anlayışına əsaslandığı iddia edilir. Başqa sözlə desək, danışanlar arasında variantların işlədilməsi təsadüfən baş vermir, bu, sərbəst variasiyadan deyil, eyni anlayış haqqında müxtəlif tələffüz etmək, ifadə etmək və ya fikirlər söyləməkdən asılıdır. [8, s.36]

Linqvistik dəyişiklik və variativlik anlayışı, Ximeno Menendesin qeyd etdiyi kimi, gündəlik kommunikativ fəaliyyətə təsir etməyən daimi variasiya və yenidən tənzimləmədən ibarətdir: Variativlik və dəyişiklik, onun fikrinə görə də, eyni dil faktının iki əsas sinxron və diaxronik dilçilik ilə sıx əlaqəlidir. Ispan dilşünasının fikrincə bütün sinxron variasiya "davam edən" dəyişikliyi nəzərdə tutmur. Bununla belə, bütün linqvistik dəyişikliklər nitq aktında sinxron dəyişkənliyi və cinsi fərqliliyi nəzərdə tutur. [2, s.21].

Lomas Karlosun fikrincə, linqvistik variativlik müəyyən nitq aktında, yəni onun linqvistik və ya şifahi nitqində istifadə olunan müxtəlif variantlarında (dialektlər, üslublar, dillər) özünü göstərir. Praqmatik variativlik variativliyin bütün istifadə olunan növlərində özünü göstərir: onlardan kim, nə vaxt, hansı məqsədlər üçün istifadə edir və s., yəni həmin cəmiyyətdə yaranan sosial-linqvistik təcrübələrdə rast gəlmək mümkündür. [4, s.159]

Buradan belə nəticəyə gələ bilərik ki, dilin variativliyində və ya linqvistik dəyişiklikdə xarici səbəbləri dildə danışanların tarixi ilə bağlı sosial-linqvistik amillərin, məsələn, başqa dillərdə olan insanlarla təmasları, demoqrafik faktorlar və onların mədəni təsirləri adlandıra bilərik. İspan dilinin linqvistik dəyişiklikləri bu dildə danışanların yaşadıqları yer və zamana, sosial qrupa görə müəyyən edilir və onlar müxtəlif linqvistik variantların yaranmasına səbəb olur.

Dilin linqvistik faktorları: ifadə forması kimi şifahi mesajlar, istifadə olunan dil, məna və s. daxildir. Dilin variativliyinə təsir edən ekstralinqvistik amillərə məkan və zaman şəraitləridir (ünsiyyətin baş verdiyi yer və vaxt) aiddir.

İspan dilinin variativliyinə təsir edən linqvistik amillər dil sisteminin icazə verdiyi hallarda dəyişikliklərə uğraya bilərlər. İspan dil sistemi, onun daxili və xarici amilləri dildə dəyişikliklərin baş verməsinə yol açır.

Ədəbiyyat Siyahisi

1. Cedergren, H. "Sociolingüística". Humberto López Morales (Ed.) Introducción a la lingüística actual. Madrid: Playor. 1983. 147-165.
2. Gimeno, F. Menéndez, Dialectología y sociolingüística españolas, 2.ª ed., Alicante: Universidad de Alicante, 1993, 371pág.

3. Labov, W. On the grammaticality of everyday speech. Paper given before the Linguistic Society of America, New York City, 1966.
4. Lomas, Carlos (1999), "Lengua, cultura y sociedad", // Vol.II. Teoría y práctica de la educación lingüística, Barcelona, Paidós (Papeles de pedagogía, 39), 159-257 pág.
5. Lucía Zanfardini. Variación lingüística: el abordaje teórico-metodológico de la Escuela Lingüística de Columbia frente al de la Sociolingüística laboviana, //Sección Ciencias Sociales , Vol. 21 Nº 3, 2018
6. Martínez, Angelita y Adriana Speranza. Variaciones lingüísticas: usos alternantes. Buenos Aires: Biblos, 2009, 179-203 pág.
7. Silva-Corvalán, Carmen. 1989. Sociolingüística. Teoría y Análisis. Madrid. 1996.
8. Sössür de F. Ümumi dilçilik kursu. Bakı, BDU, 2003, 407 s.
9. Speranza, Adriana. La evidencialidad en el español americano. La expresión lingüística de la perspectiva del hablante, Madrid, 2014, 209-229 pág.

R. Q. MƏMMƏDOVA

İSPAN DIL NORMASI VƏ LINQVISTIK VARIATIVLIK ANLAYIŞI HAQQINDA ARAŞDIRMALAR

Xülasə

İspan dilinin variativlik anlayışını araşdırarkən görürük ki, əsas vəzifələrdən biri ispan dili normasını və dil dəyişikliklərinin müxtəlif anlayışını öyrənmək əsasdır. Dil norması ispan dil sisteminin daxili quruluşu və qaydalarının qarşılıqlı təsiridir. İspan dilinin norması dedikdə dilin qrammatik, leksik, fonetik və üslubi qaydalarına riayət edilməsi başa düşülür. Bəzən ispan dil norması başqa bir anlayış yaratmadan dildə fərqli bir anlayışı ifadə edə bilər, hər iki mənada eyni vaxtda istifadə edə bilər və bu vəziyyətdə iki təzahürü ayırmaq lazımdır. Buna görə, ispan dilinin normasından bəhs edərkən, dil sistemlərini, dialekti, danışıq nitqini və s. nəzərə almaq lazımdır. Ümumiyyətlə, belə bir nəticəyə gəlmək olar ki, ispan dili sistemi, onun daxili və xarici amilləri dəyişikliklərə səbəb olur və dildə fonetik, leksik və qrammatik variativlik yaradır.

Beləliklə, daxili amillərə dilin qrammatik, leksik, qrammatik və üslubi qaydalarındakı dəyişikliklər, sivilizasiyanın inkişafı, ana dilində danışanlar arasında inkişaf edən münasibətlər daxildir. Bir çox hallarda xarici amillər dil normasının variativliyində həlledici və əsas rol oynayır.

Bununla belə, fonetik variasiyaya həsr olunmuş çoxlu sayda sosiolinqvistik tədqiqatlar, linqvistik təhlilin digər səviyyələrində variasiya ilə bağlı təhlilin azlığı ilə aydın şəkildə ziddiyyət təşkil edir. Dilçilikdə, səslərin müxtəlif tələffüzünün və

düzgün və ya aydın səslənməsinin mümkünlüyü müxtəlif çətinliklərdən, həmçinin artikulyasiya problemlərindən irəli gəlir. Bütün dil vahidləri məna baxımından fərqlənir ki, bu da onların daxilində ifadə və məzmun səviyyəsini fərqləndirməyə imkan verir.

Leksik səviyyədə variativlik anlayışı fərqlidir. Araşdırmalarmızdan məlum olduğu kimi onlar leksik variantlarla invariantlar arasındakı fərqdir. Dilçilik elminin tədqiqatında linqvistik variativliyə sosial-mədəni xarakterli amillərin təsirini ətraflı müşahidə edilməsi, sosiolinqvistikanın kifayət qədər zəngin və müxtəlif məlumatlara malik olması məlum çətinliklərə səbəb olur. Leksik variativlik haqqında apardığımız araşdırmaların sonunda belə bir nəticəyə gələrik ki, hər hansı bir leksik variasiyanın tədqiqatı üçün ümumi olan çətinliklərdən başqa, məlumat ötürən şəxsin leksik vahidlərinin seçimi və istifadəsi fonetika sahəsində olduğundan daha çətindir.

Biz linqvistik nöqteyi-nəzərdən fonetik və leksik variasiya ilə bağlı tədqiqatların davam etdirilməsinin zəruriliyini təsdiq edərək sonda qeyd edə bilərik ki, fonetik və leksik variativlik müxtəlif nitqin linqvistik davranışını, dillərdən istifadənin təsvirini təkmilləşdirir və dialektologiyaya töhfə verir.

Р. Г. МАМЕДОВА

ИССЛЕДОВАНИЯ ИСПАНСКОЙ ЯЗЫКОВОЙ НОРМЫ И КОНЦЕПЦИИ ЯЗЫКОВОЙ ВАРИАТИВНОСТИ

Резюме

При изучении вариативности испанского языка мы видим, что одной из основных задачи является изучение норма и понятия вариативности испанского языка. Языковая норма представляет собой взаимодействие внутренней структуры и правил испанской языковой системы. Нормой испанского языка является соблюдение грамматических, лексических, фонетических и стилистических правил языка. Иногда языковая норма может быть выражать иного понятия в языке не создавая другого понимания , может использовать одновременно в обоих смыслах, и в этом случае необходимо различать два проявления. Поэтому, говоря о норме испанского языка, необходимо учитывать языковые системы, диалекта, разговорной речи и т. потому что язык являет с ними единство.

В целом можно сделать вывод, что система испанского языка, ее внутренние и внешние факторы приводят к изменениям и создает вариативность в языке. Таким образом, к внутренним факторам относятся изменения грамматических, лексических, грамматических и стилистических правил языка, развитие цивилизации, отношения, которые складываются и развиваются между носителями языка. Во многих случаях внешние факторы играют решающую и ключевую роль в вариативности языковых средств.

Однако большое количество социолингвистических исследований, посвященных фонетическим вариациям, явно противоречит отсутствию анализа вариаций на других уровнях лингвистического анализа. В лингвистике возможность разнообразного произношения и правильного или четкого звучания звуков обусловлена различными трудностями, а также проблемами артикуляции. Все единицы языка различаются по значению, что позволяет различать в них уровень выражения и содержания.

На лексическом уровне понятие вариативности отличается. Как известно из наших исследований, они представляют собой разницу между лексическими вариантами и инвариантами.

Детальное наблюдение влияния факторов социокультурного характера на языковую вариативность в исследованиях лингвистической науки, наличие социолингвистики, достаточно богатой и разнообразной информацией, вызывает известные трудности. В конце проведенных нами исследований лексической вариативности мы приходим к выводу, что помимо трудностей, общих для изучения любой лексической вариации, выбор и использование лексических единиц лица, передающего информацию, намного сложнее, чем в области фонетики. Подтверждая необходимость продолжения исследований фонетической и лексической вариации с лингвистической точки зрения, мы можем в заключение отметить, что фонетическая и лексическая вариативность совершенствует языковое поведение разнообразной речи, описание использования языков, вносит вклад в диалектологию.

R. G. MAMMADOVA

STUDIES ON THE SPANISH LANGUAGE NORM AND THE CONCEPT OF LINGUISTIC VARIABILITY

Summary

When studying the variability of the Spanish language, we see that one of the main tasks is to study the norm and the concept of variability of the Spanish language. The language norm is an interaction of the internal structure and rules of the Spanish language system. The norm of the Spanish language is the observance of grammatical, lexical, phonetic and stylistic rules of the language. Sometimes a linguistic norm can express a different concept in a language without creating a different understanding, it can be used simultaneously in both senses, and in this case it is necessary to distinguish between two manifestations. Therefore, speaking about the norm of the Spanish language, it is necessary to take into account the language systems, dialect, colloquial speech, etc. because the language unity with them.

In general, it can be concluded that the Spanish language system, its internal and external factors lead to changes and creates variability in the language. Thus, internal factors include changes in grammatical, lexical, grammatical and stylistic

rules of the language, the development of civilization, the relations that develop between native speakers. In many cases, external factors play a decisive and key role in the variability of language means.

However, the large amount of sociolinguistic research on phonetic variation clearly contradicts the lack of analysis of variation at other levels of linguistic analysis. In linguistics, the possibility of a varied pronunciation and the correct or clear sounding of sounds are due to various difficulties, as well as problems of articulation. All language units differ in meaning, which makes it possible to distinguish the level of expression and content in them. At the lexical level, the concept of variability is different. As we know from our research, they represent the difference between lexical variants and invariants.

A detailed observation of the influence of factors of a sociocultural nature on linguistic variability in the studies of linguistic science, the presence of sociolinguistics, sufficiently rich and diverse information, causes certain difficulties.

At the end of our studies of lexical variation, we come to the conclusion that, in addition to the difficulties common to the study of any lexical variation, the choice and use of lexical units of person transmitting information is much more difficult than in the field of pho

Reaffirming the need to continue research on phonetic and lexical variation from a linguistic point of view, we can conclude that phonetic and lexical variation improves the linguistic behavior of diverse speech, the description of the use of languages, and contributes to dialectology.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya elmləri namizədi,dosent A.V.Guliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ALLAHVERDIYEVA JALƏ CƏBRAYIL QIZI
Odlar Yurdu Universiteti, Dillər departamenti
mailto:narmin.azizbeyli@gmail.com A.jale888@mail.ru ,

BÖYÜK BRİTANİYA: DİL VƏ ƏDƏBİYYAT

Xülasə

Məqalədə millətin mentalitetinin ifadə vasitəsi kimi ingilis dili və ədəbiyyatı məsələlərindən, Böyük Britaniyanın dili və ədəbiyyatının yaranma və inkişaf tarixindən bəhs edilir. Həmçinin ölkənin müxtəlif ərazilərində, məsələn, İngiltərə, Şotlandiya və İrlandiyada tarixi əhəmiyyətli mərhələlər barəsində də bəhs edilir. Məqalənin Giriş hissəsində İngilis dilinin yaranma tarixi və prosesi əks olunur. Eramızdan əvvəl I əsrdən başlayaraq müasir Böyük Britaniya ərazilərinin mürəkkəb tarixi inkişafı prosesi, iqtisadi və siyasi strukturların dəyişməsi, xalqların və tayfaların müstəqillik uğrunda mübarizəsi millətin xarakterini formalaşdırdı, nəticədə isə güclü Britaniya imperiyası yarandı. İndi isə qonşu ölkələrə əhəmiyyətli təsir göstərən anqlo-sakson mədəniyyəti ABŞ, Kanada, Avstraliya və bir çox başqa ölkələrin qloballaşan mədəniyyətinin əsasına çevrildi. Dünya ölkələrində ingilis dilinin beynəlxalq ünsiyyət vasitəsi və universal vasitəçi dili statusu müəyyən edilmişdir. Məqalədə İngilis dilinin inkişafının mərhələləri də qeyd olunub: Qədim ingilis dili, Orta ingilis dili, Erkən müasir ingilis dili və Yeni ingilis dili. Məqalənin Ədəbiyyat hissəsində İngiltərənin və Şotlandiyanın məşhur şair və yazıçılarının işlərinə də diqqət yetirilir. Xüsusən də Uilyam Şekspir, Robert Lyuis Stivenson, Redyard Kiplinq, Emili Bronte kimi görkəmli şair və yazıçıların Böyük Britaniya, Şotlandiya və dünya mədəniyyətinin inkişafına verdiyi töhfələr vurğulanır. İngilis uşaq ədəbiyyatı Avropanın ən əhəmiyyətli uşaq ədəbiyyatlarından biridir. Bu səbəbdən də məqalənin sonunda ingilis uşaq ədəbiyyatının məşhur yazıçıları və onların əsərləri qeyd edilir. Çarlz Lütvic Dodcson, Coan Roulinq, Robert Lyuis Stivenson və Con Tolkin`in əsərləri və onların yaranmasından bəhs edilir. Məqalə Şotland ədəbiyyatı və ona öz töhfəsini verən yazıçılar barədə qısa məlumatla yekunlaşır.

Açar sözlər: *İngilis dili, ingilis dilinin yaranması, Böyük Britaniya ədəbiyyatı, görkəmli ingilis yazıçıları, dünya mədəniyyətinə töhfələr.*

Аллахвердиева Жаля Джабраил гызы

ВЕЛИКОБРИТАНИЯ: ЯЗЫК И ЛИТЕРАТУРА

Резюме

В статье рассматриваются вопросы английского языка и литературы как средства выражения национального менталитета, история создания и развития языка и литературы Великобритании. Также рассказывается о важных исторических вехах в разных уголках страны, например, в Англии, Шотландии и Ирландии. Вступительная часть статьи отражает историю и процесс создания английского языка. Начиная с I века до н.э. сложный исторический процесс развития территорий современной Великобритании, изменения экономического и политического устройства, борьба народов и племен за независимость сформировали характер нации, и как следствие, была создана могущественная Британская Империя. Теперь же англо-саксонская культура, оказывающая значительное влияние на соседние страны, стала основой глобализированной культуры США, Канады, Австралии и многих других стран. В странах мира определен статус английского языка как средства международного общения и универсального языка-посредника. В статье также упоминаются этапы развития английского языка: древнеанглийский, среднеанглийский, ранний современный английский и новоанглийский. В части статьи под названием Литература уделено внимание произведениям известных поэтов и писателей Англии и Шотландии. В особенности подчеркивается вклад выдающихся поэтов и писателей, таких как Уильям Шекспир, Роберт Льюис Стивенсон, Редьярд Киплинг, Эмили Бронте в развитие Великобритании, Шотландии и мировой культуры. Английская детская литература - одна из самых важных детских литератур в Европе. По этой причине в конце статьи упоминаются известные писатели английской детской литературы и их произведения. Обсуждаются произведения Чарльза Людвига Доджсона, Джоан Роулинг, Роберта Льюиса Стивенсона и Джона Толкина и их творчество. Статья завершается кратким введением в шотландскую литературу и сведениями о писателях, внесших в нее свой вклад.

Ключевые слова: *английский язык, возникновение английского языка, британская литература, выдающиеся английские писатели, вклад в мировую культуру.*

Allahverdiyeva Jale Jabrail

GREAT BRITAIN: LANGUAGE AND LITERATURE

Abstract

The article covers the issues of the English language and literature as a means of expressing the national mentality, the history of the creation and development of the language and literature of Great Britain. It also tells about important historical milestones in different parts of the country, for example, in England, Scotland and Ireland. The introductory part of the article reflects the history and the emergence process of the English language. Starting from the 1st century BC, the complex historical process of development of the territories of modern Great Britain, changes in the economic and political structure, the struggle of peoples and tribes for independence shaped the character of the nation, and as a result, the powerful British Empire was established. Now the Anglo-Saxon culture, which has a significant impact on neighboring countries, has become the basis of the globalized culture of the USA, Canada, Australia and many other countries. In the countries all over the world, the status of the English language as a means of international communication and a universal intermediary language has been determined. The article also tells us about the stages of development of the English language: Old English, Middle English, Early Modern English and New English. In the part of the article named Literature, attention is paid to the works of famous poets and writers of England and Scotland. In particular, the contribution of outstanding poets and writers such as William Shakespeare, Robert Lewis Stevenson, Rudyard Kipling, Emily Bronte to the development of Great Britain, Scotland and world culture is emphasized. English children's literature is one of the most important children's literatures in Europe. For this reason, famous writers of English children's literature and their works are mentioned at the end of the article. The works of Charles Ludwig Dodgson, J.K. Rowling, Robert Louis Stevenson and John Tolkien and their work are discussed. The article concludes with a brief introduction to Scottish literature and short information about the writers who contributed to it.

Key words: *English language, emergence of the English language, British literature, outstanding English writers, contribution to the world culture*

Giriş

Eramızdan əvvəl I əsrdən başlayaraq müasir Böyük Britaniya ərazilərinin mürəkkəb tarixi inkişafı prosesi, iqtisadi və siyasi strukturların dəyişməsi, xalqların və tayfaların müstəqillik uğrunda mübarizəsi millətin xarakterini formalaşdırdı, nəticədə isə güclü Britaniya imperiyası yarandı. Kiçik bir ada dövlətinin sakinləri bütün dünyanın taleyinə böyük təsir göstərərək bir çox xalqları tabe edə bildilər.

Böyük Britaniyanın regionları dil, mədəniyyət və adət-ənənələrin unikallığını qoruyub saxlayaraq öz dolğun həyatını yaşayırlar. Şotlandlar, uelslilər və irlandlar ingilislərlə birlikdə milliyyətləri, mədəni və ədəbi ənənələri ilə fəxr edirlər.

Mövcud iqtisadi və siyasi dünya nizamının formalaşmasında anqlosaksların təsiri göz qabağındadır. Böyük Britaniyanın dünya mədəniyyətinə, elminə, fəlsəfəsinə töhfəsi də kifayət qədər böyükdür.

Bu, 12-ci əsrdə ən qədim Oksford və Kembric universitetlərinin yaranmasından bəri Böyük Britaniyada dərin və əhatəli təhsil ənənələri ilə bağlıdır. Böyük Britaniyanın həyatının mühüm xüsusiyyəti təhsili təkmilləşdirmək istəyidir.

İngilis dilinin yaranma tarixi.

İngilis dilinin tarixi 5-ci əsrdə Britaniya sakinlərinin danışdığı german tayfalarından birinin ləhcəsinin minillik yarım ərzində dünyada 2 milyarddan çox insanın danışdığı dilə çevrilməsi prosesidir [1].

İngilis dili eramızın 5-7-ci əsrlərində Alman işğalçıları və indiki Şimal-Qərbi Almaniya, Qərbi Danimarka və Hollandiyaya sakinləri tərəfindən Britaniyaya gətirilən ingilis-friz dialektlərindən yaranan Qərbi Alman dilidir.

İngilis dilinin xüsusi inkişaf yolu əsasən kelt dialektlərinin Latın, Alman və Skandinaviya dilləri və dialektləri ilə qarşılıqlı əlaqəsi ilə bağlıdır. E.ə I-ci əsrdən keltlər daim romalılar tərəfindən işğal edildi; IV–VII-ci əsrlərdə İngiltərə Anql, Sakson və Yut german tayfaları, VIII-XI əsrlərdə - Norveç və Danimarkadan olan vikinqlər tərəfindən fəth edilirdi [2].

Anglo-Sakson dövrünün **Qədim ingilis dili** Norman fəthləri dövründən 15-ci əsrin sonuna qədər danışılan **Orta İngilis dilinə** çevrildi. İngilis dilinin formalaşmasına VIII-IX əsrlərdə İngiltərəni fəth edən və müstəmləkə edən skandinaviyalıların danışdıqları Şimali Alman dilləri ilə təmaslar əhəmiyyətli təsir göstərdi; bu əlaqə çoxsaylı leksik alınmalara və qrammatik sadələşdirmələrə səbəb oldu. İngiltərədə ingilis-norman dilinə çevrilən köhnə norman dilində danışan normanların fəthləri bu dilə əhəmiyyətli şəkildə təsir etdi. Bir çox Norman və Fransız alınma sözlər kilsə və məhkəmə sistemi ilə əlaqəli dil leksikasına daxil oldu. Orta İngilis dili dövründə qurulan orfoqrafiya sistemi bu gün də istifadə olunur.

Qədim ingilis dili Böyük Britaniyanın müxtəlif yerlərində yaradılmış Anglo-Sakson krallıqlarının mənşəyini əks etdirən müxtəlif dialekt qruplarını əhatə edirdi. Nəticədə dilin Qərbi-Sakson ləhcəsi üstünlük təşkil etdi. Qədim İngilis dili Orta İngilis dilinə böyük təsir göstərdi. Şotland dili İngilis dilinin bir növüdür. Bu dil ənənəvi olaraq Şotlandiya və Şimali İrlandiyanın bəzi bölgələrində istifadə olunur. Bəzən Şotland dili ayrı bir dil kimi qəbul edilir.

Erkən müasir ingilis dili, və ya Şekspirin dili, təxminən 1500-cü ildən başlayaraq istifadə olunur. Bu dil Latın və Qədim Yunan dilindən bir çox Renessans dövrü alınmalarını, eləcə də digər Avropa dillərindən, o cümlədən fransız, alman və holland dillərindən götürülmüş alınmaları əks etdirir.

Yeni ingilis dili

İlk nüfuzlu və əhatəli İngilis dili lüğəti olan *Dictionary of the English Language* 1755-ci ildə Samuel Johnson tərəfindən nəşr edilmişdir [3]. Lüğətdə ingilis dilinin standart orfoqrafiyasındakı sözlər və onların istifadəsi göstərilir.

Erkən Müasir İngilis dili və Son Müasir İngilis dili lüğətlərdə əhəmiyyətli dərəcədə fərqlənirlər. Son Müasir İngilis dilində bir çox sözlər var ki, onlar yeni sözlərə ehtiyac yaradan sənaye inqilabı və texnologiyadan, eləcə də dilin beynəlxalq inkişafından yaranıb. Britaniya İmperiyasının inkişafının zirvəsində, o, yer səthinin dörddə birini tutduğu zaman bir çox ölkələrdən yad sözlər ingilis dilinə daxil oldu. İngilis İngilis dili və Amerikan İngilis dili indi təxminən 400 milyon insanın danışdığı dilin iki əsas növünə çevrilmişdir. İngilis dilinin Britan normativ tələffüzü ənənəvi standartdır. Dünyada ingilis dilində danışanların ümumi sayı bir milyardı keçə bilər.[14]

Dillərin birgəyaşayışı və qarışığı ingilis dilinin tarixi yolunu böyük ölçüdə müəyyən etdi, onun quruluşunun orijinallığı onu digər Avropa dillərindən nəzərəçarpacaq dərəcədə fərqləndirir və onun dünyada yayılmasına kömək edir. Qonşu ölkələrə əhəmiyyətli təsir göstərən anqlo-sakson mədəniyyəti ABŞ, Kanada, Avstraliya və bir çox başqa ölkələrin qloballaşan mədəniyyətinin əsasına çevrildi. Dünya ölkələrində ingilis dilinin beynəlxalq ünsiyyət vasitəsi və universal vasitəçi dili statusu müəyyən edilmişdir.

Ədəbiyyat

Bütün dövrlərdə poeziya insanlarda yalnız ən həqiqi daxili hissləri və duyğuları oyadırdı, qeyri-adi və əlçatmaz mövzular üzərində düşünməyə sövq edirdi. Çoxlu sayda dünya şöhrətli ingilis şairləri dünya mədəniyyətinə əvəzsiz töhfələr veriblər. Onların yaradıcılığı, öz növbəsində, tarixdə silinməz bir iz qoyub və bu gün də onların şeirləri böyük mədəni dəyərə malikdir.

Ədəbiyyat xalqın müəyyən əxlaqi ideal və mənəvi dəyər sistemlərini, onun fəlsəfi ideyalarını əks etdirir, konkret tarixi məqamda onlar yenidən nəzərdən keçirilir, bədii dünyagörüşünün milli tipi formalaşır. Kökləri qədim mifoloji ənənələrə aparan Britaniya ədəbiyyatı bir birini əvəzləyən dövrlərin və idealların qarşılıqlı təsirində və qarşıdurmasında inkişaf edərək, nəticədə müəyyən dil və bədii birliyə çevrildi. Qonşu Avropa xalqlarından, Keltlərdən, Almanlardan, Skandinaviyalardan çox şey mənimsənilsə də, Britaniya ədəbiyyatı öz orijinal ideyaları və prosesləri ilə seçilir.

Beovulf

İngilis poeziyası 12-13-cü əsrlərin sonlarında yaranıb, o, Cefri Çoser, Robert Berns, Con Kits və əlbəttə ki, Uilyam Şekspir kimi ədəbi sənət yaradıcılarının adları ilə ayrılmaz şəkildə bağlıdır. İngiltərədə bu ədəbi janrın ilk əsəri onun baş qəhrəmanı - ölkəsini əjdahanın dağıdıcı gücündən müdafiə edən igid gəncin şərəfinə adlandırılan "Beovulf" poeması hesab olunur. Beovulf ölkəsini xilas etmək üçün həlak olan cəsur, qətiyyətli döyüşçü, tipik mifoloji qəhrəman obrazıdır. Beovulf

poemasına Skandinaviya xalq nağılları daxildir. Janr xüsusiyyətləri də kifayət qədər səciyyəvidir: “Eposun qəhrəmanları bir parçadan oyulmuşdur, hər biri onun mahiyyətini müəyyən edən hansısa keyfiyyəti təcəssüm etdirir. Beovulf sədaqət və dostluqda dəyişməz cəsarətli və qətiyyətli döyüşçü idealıdır" [4]. Kelt əfsanələri sonrakı əsrlərin şairlərinin ilham aldıqları və əsərlərinin süjetlərini yaratdıqları mənbə olmuşdur [5]. Poema 13-cü əsrin əvvəllərində yazılmışdır və qədim anqlo-sakson ədəbiyyatının mükəmməl şəkildə qorunub saxlanmış nümunəsidir. Mətnin 10%-dən çoxu (yeri gəlmişkən, ölçüsü 3182 sətirdir) köhnə ingilis dilində yazılıb.

Robin Qud

Anqlosakslar və normanlar arasındakı qarşıdurma xalq sənətinin inkişafına təkan verdi. Parlaq nümunələrdən biri Robin Qud haqqında balladalardır (XIII-XIV əsrlər). Qəhrəmanın şəxsiyyəti qeyri-müəyyən və ziddiyyətlidir. O, ya kəndli, ya da Şirürəkli Riçardla səlib yürüşlərinə çıxan müflis zadəgan qraf Hantinqton kimi təsvir edilir. Belə bir fikirlə razılaşmamaq olar, amma Kral Arturla birlikdə Robin Qudun da folklor personajından az qala tarixi şəxsiyyətə və ingilis mədəniyyətinin arxetiplərindən birinə çevrilməsi fakt olaraq qalır.

Kenterberri hekayələri

Orta ingilis dili müasir ingilis dilinə oxşayır, lakin onu indi başa düşmək çox çətindir. O dövrdən bir çox yazılı abidə qalmışdır. Ceffri Çoser ədəbi ingilis dilinin yaradıcılarından biri hesab olunur. Onun mənzum "Kenterberri hekayələri" ("The Canterbury Tales") kolleksiyası o dövr üçün qeyri-adi şəkildə realistik idi. İyirmi iki şeir və iki prozaik novelladan ibarət olan bu əsər, təəssüf ki, tamamlanmamış olaraq qalır. Müəllifin məharəti onda özünü göstərir ki, bu novellalarda müxtəlif təbəqələrdən olan müxtəlif rəvayətçilər var və oxucu onların hər birinin fərdi danışıq tərzini hiss edə bilir. Mütəxəssislər Çoserin “Kenterberri hekayələri”nin o dövr Britaniyada yaşayan insanların həyatının əsl mənzərəsini yarada bildiyini deyir.

Uilyam Şekspirin yaradıcılığı

Orta əsr müəllifləri əsərlərinin yazılma tərzinə görə bütün dünyada tanınır. Beləliklə, məşhur Şekspirin üslubunu, əsərlərinin xarici dillərə çoxsaylı tərcümələrinə baxmayaraq, digər müəlliflərin üslubu ilə səhv salmaq olmaz. XVI əsrdə yaşamış Uilyam Şekspirin tragediya və komediyalarında qaldırdığı bir çox məsələlər bu gün də aktuallığını qoruyub saxlayır. Şekspirin poemaları əsasında bir çox ölkələrdə çoxlu tamaşalar səhnələşdirilib və çoxlu filmlər çəkilib ki, bu da müəllifin bütün dünyada tanınmasından bəhs edir.

1590-cı illərdən başlayaraq Şekspir müstəqil pyeslər yazır, onları müxtəlif teatrlara verir, həmçinin truppanın sifarişi ilə başqalarının pyeslərini yenidən işləyirdi. 1595-1596-cı illərdə o, "Romeo və Cülyetta" tragediyasını, "Yay gecəsi yuxusu" və "Venesiya taciri" romantik komediyalarını yazdı.

Məşhur “Hamlet”in (1600-1601) meydana çıxması ilə dramaturqun böyük tragediyalar dövrü başlayır. 1601-1606-cı illərdə "Otello" (1604), "Kral Lir" (1605), "Makbet" (1606) əsərləri yaradılmışdır. Şekspirin faciəvi dünyagörüşü bu dövrün

birbaşa tragediya janrına aid olmayan əsərlərində də əks olundu: "acı komediyalar" deyilən "Troil və Kressida" (1601-1602), "Sonu yaxşı bitən hər şey yaxşıdır" (1603-1603), "Ölçü üçün ölçü" (1604).

1606-1613-cü illərdə Şekspir "Antoniy və Kleopatra", "Koriolan", "Afinalı Timon" antik süjetlər əsasında tragediyalar, o cümlədən "Qış nağılı" və "Fırtına" kimi romantik tragikomediyalar və "VIII Henri" mərhum xronika yaradıb.

16-19-cu əsrlərdə yaşamış bir çox ingilis şairləri öz əsərlərini romantizm üslubunda yazmışlar. Məsələn, 1821-ci ildə vəfat edən *Con Kits* ölkə poeziyasına xeyli sayda romantik yeniliklər gətirdi. Onun əsərləri həyatın bütün sevinclərinin, ətraf aləmin gözəlliyinin nəfis ədəbi təsviri ilə doludur. Kitsin ən məşhur əsərləri "Yunan vazasına Oda" və "Endemion"dur.

Haqqında tez-tez danışılmayan qadın adları da xüsusi diqqətə layiqdir. *Ceyn Osten* ingilis ədəbiyyatında realizmin sələfi hesab olunur. Onun nəsri ədəb romanı deyilən əsərin parlaq nümunəsidir. O, gözlənilməz süjet cəhətləri ilə oxucunu heyran etməyə bilər, lakin incə ingilis yumoru ilə tamamlanan personajların hər birinin xarakterini ətraflı təsvir etməklə valeh edəcəkdir. Bronte bacılarını - Şarlotta, Emili və Enn-ı xatırlamamaq da mümkün deyil.

Ədəbi sənətin yaradıcıları arasında ingilis şairləri - qadınlar da xüsusi yer tutur: *Elizabet Brauninq, Cin İnjelu, Sara Kolric, Emili Bronte*. Sonuncu, yeri gəlmişkən, xarici poetik sənətin pərəstişkarlarına "Tufanlı Yoxuşlar"ın və poetik formada yazılmış bir çox əsərin müəllifi kimi yaxşı tanışdır.

Viktoriya dövrü (1837-1900) İngiltərədəki ümumi Avropa realistik cərəyanlarına uyğun gəlirdi. O, elm və texnikanın inkişafı ilə müqayisədə sənəti ikinci plana keçirən yeni kəşflər və digər baxışlar dövrü idi. Bu dövrdə ədəbiyyat "qəhrəmandan insana" çevrilir [6]. Ancaq bu dövr əvvəlkilərdən bir çox şeyi özündə cəmləşdirdi. *Alfred Tennisonun* yaradıcılığı romantik ənənələr və orta əsr süjetləri əsasında qurulmuşdur. Şelli və romantizmin böyük pərəstişkarı Robert Brauning idi, o, lirik qəhrəmanın öz hərəkətlərinin motivlərini izah etdiyi "dramatik monoloqlar"ı yaradırdı. Eyni şeyi personajları "açıq-aşkar romantik" [7] olan *Çarlz Dikkens* haqqında da demək olar, "canlı insanların obrazları müəyyən əxlaqi prinsiplərin mücərrəd daşıyıcılarının solğun portretləri ilə əvəz olunur" [8]. Personajların təsvirində konvensiyalara baxmayaraq, Dikkens müasir İngiltərənin sosial həyatının real mənzərəsini təcəssüm etdirməyi bacardı.

19-20-ci əsrlərin sonlarında İngiltərənin müstəmləkəçilik siyasəti Corc Oruell tərəfindən "Britaniya imperializminin peyğəmbəri" kimi müəyyən edilən Redyard Kiplinqin yaradıcılığında öz əksini tapmışdır.

Uşaq ədəbiyyatı

İngilis dili ədəbiyyatına həsr olunmuş bu məqaləmiz Böyük Britaniyada uşaq ədəbiyyatının xüsusi rolunu qeyd etmədən tam sayıla bilməz.

İngilis uşaq ədəbiyyatı Avropanın ən əhəmiyyətli uşaq ədəbiyyatlarından biridir.

İngilis uşaq ədəbiyyatı bir çoxları üçün ədəbiyyata *Lyuis Kerrol* təxəllüsü ilə daxil olmuş riyaziyyat professoru Çarlz Lütvic Dodcsonun "Alisanın möcüzələr ölkəsində macəraları" ("Alice's Adventures in Wonderland") ilə əlaqələndirilir.

Bundan əlavə İngilis uşaq ədəbiyyatına böyük töhfəsi olan *Redyard Kiplingi* da unutmaq olmaz. Kipling ədəbiyyat üzrə Nobel mükafatı alan ilk ingilis yazıçısı oldu. Bu müəllif bizə müxtəlif heyvanlarla birlikdə vəhşi meşələr arasında böyüyən Mauqli adlı oğlandan bəhs edən "Cəngəlliklər kitabı" hekayəsi ilə tanınır. Çox güman ki, bu hekayə onun öz uşaqlığından ilhamlanıb. Kipling özü həyatının ilk 5 ilini Hindistanda keçirib və orada doğulub.

Coan Roulinq. Dövrümüzün ən məşhur "nağılçısı" bizə tanıdığımız Harri Potteri bəxş etdi. Coan bu hekayəni uşaqları üçün yazdı. Və o zaman onların ailəsi çox kasıb yaşayırdı.

Kitabların özü isə bizə sehr və mistik dünyasına qərq olmaq imkanı verir. Harri adlı oğlan özünün sehrbaz olduğunu öyrənir və Hogwarts məktəbinə gedir. Orada onu əyləncəli macəralar gözləyir.

Növbəti ad da bir çoxlarımıza yad deyil. *Robert Lyuis Stivenson* - bu yazıçı "Dəfinələr Adası" hekayəsində məşhur pirat Kapitan Flint obrazını yaratdı. Bu qəhrəmanın macəraları haqqında oxumaq üçün yüzlərlə uşaq gecələr yatmayıb. Müəllifin özü soyuq Şotlandiyada anadan olub. Mühəndis və hüquqşünas kimi təhsil alıb. Eyni zamanda, Robertin cəmi 16 yaşı olanda atasından borc götürdüyü pulla ilk kitabını dərc etdi. Lakin o, "Dəfinələr Adası" hekayəsini çox-çox sonra yazdı, və ən maraqlısı isə odur ki, bu fikir ona oğlu ilə oynayarkən gəldi. Onlar birlikdə xəzinə xəritəsini çəkib süjetlər hazırladılar.

Con Tolkin. Sanki başqa bir dünyadan olan müasir yaradıcı. Əsasən "Hobbit" və "Üzüklərin Hökmdarı" adlı fantastik və heyrətləndirici hekayələri ilə məşhurdur.

Kitabların müəllifi Con özü müəllim işləyirdi. Uşaq ikən oxumağı erkən öyrəndiyi üçün bunu tez-tez edirdi. O, "Dəfinələr adası" hekayəsinə nifrət etdiyini, lakin "Alisa möcüzələr ölkəsində"ni dəlicəsinə sevdiyini etiraf edib. Müəllifin özü isə sonradan "fentezi atası" deyə adlandırıldı.

Şotland ədəbiyyatı

Şotlandiyanın ədəbiyyatı bir qədər oxşar yolla inkişaf etdi - dastanlar, bardların xalq poeziyası, dini əsərlər, latın dilinin yayılması, onun qal dili ilə birgə mövcud olması. Köhnə ingilis dilində bəzi yazılar günümüzə qədər gəlib çatmışdır. Erkən orta əsrlərdə monarxlara ünvanlanan tərifin poetik forması kök saldı. Əsasən, Şotlandiya ədəbiyyatı bir neçə ad üzərində qurulmuşdur. Onlardan biri, şübhəsiz ki, şotland xalq obrazlarını və motivlərini poeziyasında canlandıran, onlara müəyyən kolorit verən Robert Bernsdir. Həmçinin, yuxarıda artıq qeyd etdiyimiz Robert Lyuis Stivenson, Valter Skott və digərləri də Şotland ədəbiyyatına töhfələri ilə məşhurdular.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Брэгг, 2017, səh. 9.
2. Project Britain. British Life and Culture. – URL: http://projectbritain.com/.
3. https://en.wikipedia.org/wiki/ A_Dictionary_of_ the_English_ Language#cite_ note-2
4. Гуревич А.Я. Средневековый героический эпос германских народов. – URL: http://svrlit. niv.ru/svr-lit/articles/gurevich-epos.
5. История английской литературы. – URL: http://svr-lit.niv.ru/svr-lit/mihalskayaanikinangliya/ srednie-veka.htm.
6. Карельский А.В. От героя к человеку // Вопросы литературы. – 1983. – №9. – səh. 81–122
7. Ивашёва В.В. Творчество Диккенса. – М.: ИМУ, 1954. – 472 s.
8. Аникин Г.В., Михальская Н.П. История английской литературы. – М.: Высш. школа, 1975. – 528 s.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: ***F.ü.f.d. Sevinc Səlim qızı Məmmədzadə***
tərəfindən çapa tövsiyə olunmuşdur

PƏRVİNƏ KƏRİMOVA
pveliyeva@beu.edu.az
Bakı Mühəndislik Universiteti

Xırdalan şəh., Həsən Əliyev küç., 120 AZ0101, Abşeron, Bakı

ŞƏKİLÇİLƏR VASİTƏSİLƏ TÖRƏYƏN SİFƏTLƏR

Xülasə

Hazırki dövrdə mövcud olan ən zəngin dillərdən biri də ingilis dilidir. Müasir ingilis dilinin lüğətində sifətlər sözlərin sayına görə isimlərdən sonra ikinci yer tutur. Sifətlər əsasən şəkilçilər və prefikslər (ön şəkilçiləri) vasitəsilə əmələ gəlir. Şəkilçilər özlərinə məxsus yollarla inkişaf edir və yaranırlar. Bu şəkilçilərin bir qrupu bir növ omonimlik təşkil edir və xarici dillərdən keçmədir.

Alınma omonim şəkilçilərdən danışarkən belə bir cəhəti qeyd etmək lazımdır ki, eyni şəkilçilər nəinki eyni mənanın müxtəlif çalarlarını ifadə edirlər, eyni zamanda müxtəlif mənaları da ifadə edə bilirlər. Buradan da şəkilçilərin çoxmənalılığı yaranır. Bu vasitə ilə ingilis dilində sifətlərin omonim şəkilçiləri yaranmışdır.

Məqalədə ən məhsuldar hesab edilən *-ed, -y, -less, -ly, -like* kimi sifət düzəldən şəkilçilər dərindən araşdırılır və onlara uyğun nümunələr təqdim olunur.

« -ed » şəkilçisi ingilis dilində mövcud olan şəkilçilərin hamısından məhsuldar sayılır. Bu şəkilçi ancaq ismin əsası (kökü) ilə birləşir. « -y » sifət düzəldən şəkilçi qədim ingilis dilində olan « -ig » şəkilçisindən yaranaraq isimlərin, fellərin və sifətlərin kökündən sifət yaradır. Müasir ingilis dilində « -en » şəkilçisi ilə törəyən sifətlər o qədər də çoxluq təşkil etmir . « -less » şəkilçisi ilə əmələ gələn sifətlərin əksəriyyəti isimlərdən əmələ gəlmişdir. Mənşə etibarilə « -ly » şəkilçisi ümumi alman dillərinə daxildir. Müasir ingilis dilində « -like » elementi həm sifət, həm də zərflərlə işlənə bilir.

Açar sözlər: sifət, sözdüzəltmə, şəkilçilər, omonim şəkilçilər, törəmə sifətlər.

Sifət və şəkilçilər barədə ümumi məlumat

Müasir ingilis dilinin lüğətində sifətlər sözlərin sayına görə isimlərdən sonra ikinci yer tutur . Müllerin ikicildlik lüğətinə əsasən sifətlərin sayı təxminən 900000-dir . Bunlardan 1200 ədədi kök sözlər ; qalanları isə törəmə sözlərdir .

Törəmə sifətlərin şəkilçilərinin sayı 65 , prefikslərin sayı isə 71 - dir. Göründüyü kimi, ingilis dilli sifətlərin prefikslərinin sayı şəkilçilərin sayından çoxdur.

Belə bir cəhəti qeyd etmək lazımdır ki, sifət düzəldən şəkilçilər həm məhsuldar həm də qeyri məhsuldar kimi fərqlənə bilirlər [1, 70] .

Şəkilçilər özlərinə məxsus yollarla inkişaf edir və yaranırlar . Bu şəkilçilərin bir qrupu bir növ omonimlik təşkil edir və xarici dillərdən keçmədir . Məsələn : mənşəcə ingilis dilli şəkilçi olan , « -ish » və fransız dilindən keçən fel şəkilçisi « -ish » şəkilçisi buna misal ola bilər .

Alınma omonim şəkilçilərdən danışarkən belə bir cəhəti qeyd etmək lazımdır ki, eyni şəkilçilər nəinki eyni mənanın müxtəlif çalarlarını ifadə edirlər, eyni zamanda müxtəlif mənaları da ifadə edə bilirlər. Buradan da şəkilçilərin çoxmənalılığı yaranır . Bu vasitə ilə ingilis dilində sifətlərin omonim şəkilçiləri yaranmışdır . Məsələn : « - ish » (dwarfish - cırtdan , inkişaf etməmiş) . « -ish » şəkilçisi həm də sifətlərdən sifət yaradır . Məsələn : yellow - sarımtıl , lightish - işıqlı , blackish - qaramtıl .

Belə bir cəhəti qeyd etmək lazımdır ki , bəzi hallarda məhsuldar şəkilçilərlə morfoloji əlamətlər arasında dəqiq fərq qoyulmur [2 , 58] .

« - able » , « - ible » şəkilçiləri ingilis dilinə latın dilindən keçmişdir . İngilis dilində bu şəkilçi sifət düzəldən şəkilçi kimi işlənməyə başlamışdır . Bu şəkilçinin köməyi ilə həm roman mənşəli və həm də alman mənşəli sözlər yaranmışdır . İngilis dilində bu şəkilçi həm də fellərdən isim düzəltmək üçün işlənmişdir . Bu şəkilçi fel kökünün əsas mənasını özündə saxlayır və buna təyinlik keyfiyyəti gətirir . Məsələn : drinkable - içməli , içmək üçün yararlı . Bu şəkilçinin belə bir xüsusiyyətini də göstərmək lazımdır ki , o sözün kökündən asanlıqla ayrılır və sözün kökü müstəqil söz kimi istifadə edilir . Bu xüsusiyyət ingilis dili əsasında yaranan sifətlərdə özünü daha aydın göstərir . Məsələn : *utterable , absorable , eatable* . İndi yaranan sözlərə gəlincə , deməliyik ki , « -able » şəkilçisi o dərəcədə məhsuldardır ki , müasir ingilis dilində onun köməyi ilə , demək olar ki , istənilən təsirli fellərdən yeni sifət yaratmaq mümkündür .

Aşağıda şəkilçilər vasitəsilə törəyən bir sıra törəmə sifətlərin təhlili üzərində ətraflı danışılacaq .

« - ed » , « - y » , « - en » şəkilçiləri vasitəsilə törəyən sifətlər

« -ed » şəkilçisi ilə törəyən sifətlər :

Genetik cəhətdən « -ed » şəkilçisi forma düzəldən şəkilçi olmuşdur. Bu şəkilçi keçmiş zamanın formasını və eləcə də keçmiş feli sifətin zəif fellərini əmələ gətirmək üçün istifadə edilirdi . İngilis dilinin inkişafı nəticəsində bu feli sifət sifətləşə bilmiş və təyin funksiyasında işlənməyə başlamışdır . Buna oxşar belə feli sifətlərlə « -ed » şəkilçisi olan sözlər yaranmağa başlamışdır . Bu sözlər ismin kökündən yaranır , lakin təyin funksiyasında - sifət funksiyasında işlənir .

Müasir ingilis dilində forma düzəldən fel şəkilçisi « - ed » və sifət düzəldən « -ed » omonim kimi işıqlandırılır .

« -ed » şəkilçisi ingilis dilində mövcud olan şəkilçilərin hamısından məhsuldar sayılır . Bu şəkilçi ancaq ismin əsası (kökü) ilə birləşir [1 , 61] .

« -ed » şəkilçisinin belə bir xüsusiyyəti ondan ibarətdir ki , o törəmə mürəkkəb sözlərin kökünün yaranmasında iştirak edə bilər . Məsələn : *doq - faced , cream coloured, crack - brained, black hearted, smooth - tongued.*

Bəzi tədqiqatçılar , məsələn , E.M.Xaskina belə hesab edir ki , « -ed » şəkilçisi fellərdən də sifətlər əmələ gətirir [5 , 6] . İngilis dilində fel köklərindən « -ed » şəkilçisi ilə düzələn sifətlər var . Lakin bunların hamısı təyinləşmiş II feli sifətlərdir . Bunları müqayisə edək : *"frightened"* sifətləşmiş feli sifət « to frighten » felindən əmələ gəlmişdir . "*heated"* sifətləşmiş feli sifət « to heat » felindən, *"informed"* « to inform » felindən, "*bearded"* « bear » ismindən.

Müasir ingilis dilində « - ed » şəkilçisi sözdüzəldən kökün mənasını, onda olan mənanı ifadə edir . Məsələn : *feathered*- tüklü*, fanged* - dişli*, beaked* - dimdikli.

Mürəkkəb törəmə sözlərdə də « -ed » şəkilçisi düzəltmə sözlərdə olan funksiyanı yerinə yetirir .

Mürəkkəb sözdüzəltmədə eyni vaxtda həm sözdüzümü , həm də şəkilçi işlənir . Elə bu səbəbdən də « - ed » şəkilçisi üçün sözdüzələn əsas - kök - ikinci element yox , hər ikisi birlikdə olur . Məsələn : *big - headed* - yekəbaş, *long - legged* - uzunayaqlı, *clean - fingered* -təmizdırnaqlı, *clean - handed* - təmizəlli.

Dil faktlarından aydın olur ki , « -ed » şəkilçisi dəqiq isimlərdən sifət yaradır . Məsələn :

1. İnsan bədəninin hissəsini, quş və bitkilərin hissələrini və xarici görünüşlərini bildirir: *horned* -buynuzlu, *hoofed* -dırnaqlı, *leafed* - yarpaqlı, *winged* - qanadlı.

2 . « - ed » şəkilçisi mücərrəd isimlərin kökündən sifətlər yaratmır . Lakin bununla belə qeyd etmək lazımdır ki , müasir ingilis dilində mücərrəd isimlərin kökündən əmələ gələn bəzi sifətlərə rast gəlmək mümkündür . Belə halda « -ed » şəkilçisi insanın xarici və daxili keyfiyyətini bildirən mücərrəd isimlərin kökünə daxil edilir . Məsələn : *minded* - hazır (bir işi etməyə hazır), *talanted* -talantlı, *diseased* - xəstə, *ideaed* - ideyalı, *passioned* - ehtiraslı.

Qeyd etməliyik ki , müasir ingilis dilində şəkilçilərin yeni sözlərin yaranmasında böyük rolu vardır [6 , 51 ; 7 , 40] .

« -y » şəkilçisi ilə törəyən sifətlər :

« - y » sifət düzəldən şəkilçi qədim ingilis dilində olan « - ig » şəkilçisindən yaranmışdır .

İngilis dilçiliyində belə bir fikir mövcuddur ki , « -y » şəkilçisi isimlərin , fellərin və sifətlərin kökündən sifət yaradır .

a) « -y » şəkilçisi ismin kökünə əlavə edildikdə həmin sifətin kökündə olan əlamət və keyfiyyəti bildirir . Məsələn : *bony* - sümüklü, *chalky* -təbaşirli, *fluey* - tüklü, *corny* - döyənəkli, *furry* - xəzli, *silky* - ipəkli, *grassy* - otlu.

b) « -y » şəkilçisi felin kökünə əlavə edildikdə felin ifadə etdiyi halı, vəziyyəti bildirir . Məsələn : sticky - yapışqan stick (v) - yapışdırmaq; sleepy - yuxulu sleep - yatmaq; clingy - sırmaşan , yapışan cling (v) - sırmaşmaq , yapışmaq; preachy - dua edən preach (v) - dua etmək; blowy - küləkli , əsən blow (v) - əsmək;

c) sifətin kökünə əlavə edilən « -y » şəkilçisi .
« -y » şəkilçisini sifətin kökünə əlavə etdikdə əvvəlkilərdən fərqli olaraq başqa bir mənanı ifadə edir . « -y » şəkilçisini sifətin kökünə əlavə etdikdə həmin sifətin əlamət və keyfiyyətini azaldır . Məsələn : *blacky* - qaramtıl, *bluey* - göyümtül, *greeny* - yaşılımtıl, *paly* - solumtraq, *plumpy* - köktəhər.

Beləliklə , yuxarıda deyilənlərdən aydın olur ki , « -y » şəkilçisi həm üç mənaya bölünür və həm də sözdüzəldən köklərə əlavə edilərək , onlarla birləşərək başqa cür olur . Buradan aydın olur ki , « -y » şəkilçisi müasir ingilis dilində eyni mənbədən əmələ gələn omonim şəkilçilərə çevrilir .
« -y » şəkilçisi həm dəqiq və həm də abstrakt isimlərlə birləşə bilər .
a) dəqiq isimlərlə : *bony* - sümüklü, *brunchy* - budaqlı, *grany* - dənli, *hilly*-təpəli, *wavy* - dalğalı.
b) mücərrəd isimlərlə : *greedy* - acgöz, *healthy* - sağlam, *mighty* - güclü, *risky* - təhlükəli , cürətli.

Sifətlərin kökündən yaranan « -y » sifətləri şəkilçisi ilə düzələn sözdüzəldən kök arasında qarşılıqlı əlaqə olur . Burada iki xüsusiyyəti müşahidə etmək olar :
a) « -y » şəkilçisi rəng bildirən sifətlərin mənasını zəiflədir . Məsələn : *greeny* - yaşılımtıraq, *yellowy* - sarımtıraq.

Burada onu göstərmək lazımdır ki , bu mənada « -y » şəkilçisinin mənası « -ish » şəkilçisi ilə eyniyyət təşkil edir və « -y » şəkilçisinə nisbətən daha tez - tez işlənir : *yellowy - yellowish, black - blackish, greeny -greenish.*
b) Y - « bir az , bir qədər » mənasında da işlənir . Məsələn : *bleaky* - tutqun (adj . bleak - tutqun) *moisty* - nəm , nəmtəhər (adj . moist - nəm , yaş) *cooly* - sərintəhər (adj . cool), *vasty* - nəhəng (adj . vast), *dusky* - alaqaranlıq (adj . dusk).

Yuxarıda deyilənlərdən aydın olur ki , ingilis dilində üç « -y » şəkilçisi var və bunları omonim hesab etmək lazımdır :
1) İsimlərdən sifət əmələ gətirən « -y » şəkilçisi .
2) Fellərdən sifət əmələ gətirən « -y » şəkilçisi . Bu şəkilçi əvvəlki şəkilçisi ilə müqayisədə az işlənir . Bu ondan irəli gəlir ki , feldən əmələ gələn « -y » şəkilçisi azdır .
3) Sifətlərdən sifət əmələ gətirən « -y » şəkilçisi . Bu şəkilçi əvvəlki iki şəkilçiyə nisbətən az məhsuldardır .

« -en » şəkilçisi ilə törəyən sifətlər :

Müasir ingilis dilində « -en » şəkilçisi ilə törəyən sifətlər o qədər də çoxluq təşkil etmir .

Qədim dövrlərdən başlayaraq bu şəkilçi ismin kökündən törəmə sözlər yaratmışdır . Bu sözlərin mənaları « edilmiş » kimi ifadə olunmuşdur . Başqa sözlə desək , « -en » şəkilçisi ismin kökündə olan mənanı sifət funksiyasında ifadə edir . « -en » şəkilçisi dəqiq isimlərlə işlənir və isimlərdə olan mənanı sifətləşdirir . Məsələn :

leathern - dəri (adj.dəridən hazırlanmış), *silken* - ipək , ipək kimi (adj . ipək kimi yumşaq), *wheaten* - buğda (adj), *wooden* - taxta , odun (adj), *woolen* - yun (adj.yundan hazırlanmış).

Lüğətlərdən aydın olur ki , « -en » (-n) şəkilçisi canlı şəkilçilər qrupuna daxildir. Ancaq bunu da demək vacibdir ki , bu şəkilçi az məhsuldardır . İngilis dilinin məşhur tədqiqatçılarından O.Yespersen göstərir ki , ingilis dilinin cənub - qərb dialektlərində « en » (- n) şəkilçisi əşya bildirən bütün isimlərə birləşir [2 , 70] : *glassen* (şüşə , şüşədən düzəldilmiş) , *threaden* (ipdən düzəldilmiş) , *milken* (süddən düzəldilmiş) .

Belə bir cəhəti də qeyd etmək lazımdır ki , « en » (-n) şəkilçisini omonim - en (-n) şəkilçisi ilə qarışdırmaq olmaz . Bu şəkilçi həm fellərin yaranmasında iştirak edir və həm də cəm isimlərin kökünə birləşir (children , oxen) .

« -less » , « -ly » , « - like » şəkilçiləri ilə törəyən sifətlər

« -less » şəkilçisi ilə törəyən sifətlər :

İngilis dilində « - less » şəkilçisi *leas* (müasir ingilis dilində *loose* (v) - sərbəst sözündən əmələ gəlmişdir .

Əvvələr « - less » yalnız isimlərin kökünə əlavə edilirdi . Buna görə də müasir ingilis dilində « - less » şəkilçisi ilə əmələ gələn sifətlərin əksəriyyəti isimlərdən əmələ gəlmişdir . İsimlə birləşən « - less » şəkilçisi ismin kökündə olan mənanı sifətləşdirilmiş , təyinləşmiş mənanı ifadə edir .

« -less » şəkilçisi inkişaf edərək sonralar fellərin kökünə də əlavə edildi . Burada onu əlavə edərək qeyd etmək lazım gəlir ki, « - less » şəkilçi sinin felin kökünə əlavə edilməsi onunla bağlı olmuşdur ki, bir çox fellər formal əlamətlərinə görə isimlərdən fərqlənmirdilər. Başqa sözlə desək, fellər konversiya yolu ilə isimlərdən , isimlər isə fellərdən yaranırdı [8 , 36] .

Ümumiyyətlə, « - less » şəkilçisi mənfi mənanı ifadə edir : *countless*- saysız, *numberless* -nömrəsiz, *bloodless* - qansız, *beardless* - saqqalsız, *brainless* - beyinsiz, *hairless* - saçsız, armless - qolsuz, brotherless - qardaşsız, *careless* - qayğısız, helpless - köməksiz, *mindless* - ağılsız, *endless* - sonsuz, *breathless* - nəfəssiz, *sleepless* - yuxusuz, *pitiless* - amansız, *powerless* - gücsüz, köməksiz.

Yuxarıda verilmiş misallarda « - less » məhsuldar şəkilçi kimi çıxış edir . Bu şəkilçinin mücərrəd mənaya malik olması və isimdə kökdə əlamət, keyfiyyətin olması ilə bağlıdır .

« -less » şəkilçisi təsirli fellərə birləşə bilər . Məsələn : *cureless* - sağalmayan, *countless* - sayılmayan, *fadeless* - solğun, *utterless* - ifadə edilməyən , tələffüz edilməyən, *opposeless* - keçilməz, qarşısı alınmaz, *resistless*- labüd, *tameless*- əhliləşdirilməmiş.

Qeyd etmək lazımdır ki , ingilis dilində iki « - less » şəkilçisi var : (less , less) və hər iki şəkilçinin biri sözdüzəltmə sinonimə malikdir . « -less » şəkilçisinə un + kök + ful , « - less » şəkilçisinə isə sözdüzələn sinonim un /in + kök + able (-ible) . Məsələn : *eventless* = *uneventful*- məlumatsız , az məlumatlı , xəbərsiz; *faitless* =

unfaitful - inanmayan; *graceless = ungraceful* - abırsız; *merciless = unmerciful* - amansız; *changeless = unchangeable* - dəyişməz, sabit; *countless = uncountable* - sayılmayan; *doubltess = undoubtable* - şübhəsiz; *limitless = unlimitable* - hədsiz , sərhədsiz; *numberless = unnumberable* - sayılmayan.

« -ly » şəkilçisi ilə törəyən sifətlər

Mənşə etibarilə « - ly » şəkilçisi ümumi alman dillərinə daxildir . Bütün alman dillərində bu şəkilçi eyni sərbəst , müstəqil sözdən yaranır (lih - bədən , forma) .

İlk dövrlərdə « - ly » şəkilçisi əsil ingilis sözlərindən sifətlər əmələ gətirirdi . Lakin özünün sonrakı inkişafı ilə bu şəkilçi həm də alınma sözlərə birləşməyə başladı [9 , 99] .

Müasir ingilis dilində də sifətlərin əksəriyyəti « - ly » şəkilçisinin köməyi ilə ingilis mənşəli sözlərdən yaranmışdır .

« -ly » şəkilçisi ismin kökünə uyğun mənanı ifadə edir və müəyyən semantikaya malik olan isimlərin kökünə əlavə edilir .

1) Şəxs bildirən isimlərin kökünə : Məsələn : *fatherly* - atalıq qayğısı, *brotherly* - qardaşlıq, *sisterly* - bacılıq, *motherly* - analıq, *manly*- igid, kişi kimi, *musicianly* - bəstəkar kimi, *masterly* - ustalıq, *neighbourly* - qonşuluq, *womanly* - qadın kimi.

2) Müəyyən vaxt bildirən isimlərin kökünə: *weekly* - həftəlik, *yearly*- illik , hər illik, *monthly* - aylıq, *daily* - gündəlik, *hourly* - saatlıq, *quarterly*- üçaylıq, *fortnightly* -ikihəftəlik, *nightly* - gecə, *momently* -dərhal, *instantly* - dərhal

3) Predmet və mücərrəd anlayış bildirən isimlərin kökünə birləşir . Məsələn : *earthly* - yer, *heavenly* - göy, *lively* -canlı , şən ; güclü, *sightly* -görünüşlü, *worldly*- dünyəvi.

Qeyd etmək lazımdır ki , zərf bildirən « - ly » şəkilçisi müəyyən mənada sifət şəkilçisindən fərqlənir . Sifətin kökündən zərf əmələ gətirən « - ly » şəkilçisi « bu yolla, bu tərzdə » mənasını bildirir . Məsələn : *separately* - ayrı, *truly*- düzgün , həqiqi, *fiercely* - amansız, *readily* - həvəslə.

« -ly » şəkilçisi ilə ismin kökündən əmələ gələn sifətlər arasında zərf şəkilçisi « - ly » şəkilçisi də var . Bu şəkilçilər bir - birindən mənşəyinə görə yox , mənasına görə də fərqlənir .

Bundan əlavə « - ly » isimlərin kökünə əlavə edilir və nəticədə sifətlər əmələ gətirir . « -ly » şəkilçisi isə sifətlərin kökünə birləşir və zərf amələ gətirir . Elə bu səbəbə görə də kökü sifət olan və « - ly » şəkilçisi ilə əmələ gələn sifətləri sifətləşmiş zərflər hesab etmək lazımdır . Belə sifət lər müasir ingilis dilində az deyildir . « -ly » şəkilçisi ilə zərflərin sifətləşməsi müxtəlif səbəblərlə bağlıdır [10 , 70] .

Birincisi eyni sifətin müxtəlif sintaktik funksiyalarda işlənməsi eyni sifətin formasını fərqləndirməyə gətirib çıxarmışdır. Bunun nəticəsində predikativ üzv funksiyasında şəkilçisiz sifət işlənirdi , təyin funksiyasında « - ly » şəkilçisi olan sifətləşmiş zərf işlənirdi . Məsələn : There were many excellent landlords , humane and <u>kindly</u> men who saw the wisdom of being human and <u>kind</u> .
They were true , <u>kindly</u> people and now they were more <u>kind</u> to her than ever [2 , 70] .

Göründüyü kimi , zərfin « -ly » şəkilçisinə sifətləşmiş əsas mənanın çalarlığını əmələ gətirmək üçün formaca müxtəlif sifətləri işlətmək zərurətindən irəli gəlmişdir . Belə hallarda verilmiş sifətin daha ümumi , daha geniş mənasını ifadə etmək üçün sifətlər şəkilçisiz işlənirdi , sifətləşmiş zərflər isə daha dar , spesifik mənada tətbiq edilirdi . Məsələn : *poor* - kasıb , bədbəxt, *poorly* - sağlam olmayan; *clean* - təmiz (yükdən təmiz), *cleanly* - təmiz (xarici); *dead* - ölü, *deadly* - öldürücü; *good* - yaxşı, *goodly* - yaxşı.

Zərfin « - ly » şəkilçisi ilə sifətləşməsi və sifətlərin « - ly , » şəkilçisi ilə adverbiallaşması ingilis dilində çox sözün yaranmasına təsir etmişdir və bunlar bərabər şəkildə həm sifət və həm də zərf kimi işlənə bilər . Məsələn : *kindly* (adj) - mərhəmətli *kindly* (adv) -mərhəmətlə; *beastly* (adj) -heyvani , kobud *beastly* (adv) -heyvancasına , vəhşicəsinə; *bodily* (adj) -fiziki *bodily* (adv) -şəxsən; *daily* (adj) -gündəlik *daily* (adv) -gündəlik; *deathly* (adj) -ölümcül *deathly* (adv) -ölümcül.

Yuxarıda verilmiş misallardan göründüyü kimi « - ly , » və « - ly » > şəkilçiləri müstəqil sözdüzəldən şəkilçilərdir və dildə müxtəlif funksiyaları yerinə yetirirlər . Buna görə də bunları omonim kimi qəbul etmək lazımdır .

Qeyd etmək lazımdır ki , müasir ingilis dilində « - ly » şəkilçisi bir o qədər də məhsuldar olmayan , lakin canlı və çox işlənəndir . Bu şəkilçinin çox məhsuldar olmasını onunla izah etmək olar ki , müasir ingilis dilində bu şəkilçi ilə rəqabət aparan « - ly » şəkilçisi vardır və bu şəkilçi « - ly » şəkilçisi ilə eyni mənaya malikdir .

« - like » şəkilçisi ilə törəyən sifətlər :

Sözdüzəldən element olan « -like » son vaxtlara qədər mürəkkəb söz lərin ikinci komponenti mənasında işlənirdi . Oksford lüğətində verilən məlumata görə « - like » sözü olan ilk mürəkkəb söz XV əsrə təsadüf edir [8 , 60 ; 3,40] .

Dilin inkişafı ilə əlaqədar « -like » elementi birinci olaraq şəkilçilərə xas olan əlamətlər qəbul etməyə başladı . İkincisi « - like » sözü xeyli miqdarda söz yaratmağa başladı , bu sözlər nəinki təkcə ingilis mənşəli sözlərdən , həm də alınma sözlərdən ibarət oldu . Üçüncüsü « - like » elementi mücərrəd məna kəsb etməyə başladı . Məsələn : *deathlike* - ölüm ki , ölümcül, *gentlemanlike* - centlemen kimi , tərbiyəli , savadlı, *ladylike* -xanım kimi, *manlike* - kişi kimi , igid.

Dördüncüsü , « - like » elementi özünün inkişafı prosesində « like » sözü ilə əlaqəsini xeyli itirmişdir . Məsələn : aşağıdakı sifətlərdə « like » demək olar ki , özünün ilk müstəqil mənasını (« oxşar » , « eyni » , « bərabər ») itirmişdir . Məsələn : *childlike* - səmimi , sadə , günahsız, *dovelike*- incə , zərif, *threadlike* - saplı, *workmanlike* -süni.

Qeyd etmək lazımdır ki , müasir ingilis dilində « - like » elementi həm sifət və həm də zərflərlə işlənə bilir . Lakin burada belə bir cəhəti qeyd et mək lazımdır ki , « - like » sözü mənşəyinə görə zərfləşmiş (adverbiallaşmış) sifətlər hesab edilir [11, 73] . Aşağıdakı misallarda bunu görmək olar :

childlike (adv) - qeyri - ciddi , uşaqcasına

childlike (adj) -sadə , səmimi , uşaq kimi
ladylike (adv) -qadın kimi
ladylike (adj) -qadınabənzər
maidenlike (adv) -qız kimi
maidenlike (adj) qızabənzər

Bütün yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki , « - like » heç də həm sifət və həm də zərf əmələ gətirən element deyil. « - like » yalnız sifət düzəldən elementdir .

Faktik olaraq « -like » elementi ilə düzələn bütün sifətlər ismin kökündən əmələ gəlir . Məsələn : *gardenlike* - garden ; *snakelike* - snake . Lakin bəzi dilçilər belə hesab edirlər ki , « - like » sifətlərdən sifət əmələ gətirə bilər . Məsələn , O.Yespersen bu məsələ ilə əlaqədar iki söz gətirir : "*humanlike*, *suchlike"* [2, 140] . Birinci (« humanlike ») doğrudan da isimdən əmələ gələn sifət kimi qəbul edilir və dildə isim kimi (insan , insan vücudu) işlənir . Lakin bu fikri « suchlike » sözünə aid etmək mümkün deyil . Bu , hər şeydən əvvəl , onunla bağlıdır ki , « suchlike » sözü əvəzlikdən yaranmışdır və əksər hallarda isim kimi işlənir . Məsələn : all such belə adamlar ; yuxarıda deyilən əşya ; (note your remarks and in reply to such) . Burada belə bir cəhəti də göstərmək lazımdır ki , « suchlike » sözünü mürəkkəb söz kimi də qəbul etmək olar . Bunu onunla izah etmək olar ki , burada semantik sıra yoxdur [12 ; 20] .

Dil faktlarından aydın olur ki , « - like » , « - ly » şəkilçisi ilə çox oxşarlığa malikdir . Birincisi onların mənası bir - birinə demək olar ki , uyğun gəlir və elə bunun nəticəsidir ki , « -ly » , « - like » elementləri ilə düzələn sifətlərin mənaları eyni olur . Məsələn : *deathlike* - *deathly* - ölüm kimi , ölümə bənzər; *manly* - *manlike* - igid , kişi kimi; *maidenly* - *maidenlike* - qız kimi; *godly* - *godlike* - allahlı; *womanly* - *womanlike* - qadın kimi.

İkincisi , istər « - like » və istərsə də « - ly » semantik cəhətdən eyni mənşəli isimlərdən sifətlər düzəldirlər . Məsələn : *womanly* - *womanlike* - qadın kimi; *deathly deathlike* - ölüm kimi , ölümə bənzər; *manly* - *manlike* - igid , kişi kimi; *maidenly* - *maidenlike* - qız kimi; *godly* - *godlike* - allahlı; *birdlike* - quş kimi ; quşabənzər , cəld; *sportsmanlike* - idmançı kimi , düzgün , səmimi; *snakelike* - ilanabənzər; *businesslike* - işgüzar , dəqiq; *lifelike* - canlı , çox oxşar.

Qeyd etmək lazımdır ki , müasir ingilis dilində « - like » daha tez - tez isimlərdən sifətlərin düzəlməsində iştirak edir və məhsuldar şəkilçi funk siyasını yerinə yetirir [4, 70] . Başqa sözlə desək « - like » məhsuldarlığını artırmaqdadır . Bunu yeni yaranmış aşağıdakı sözlərdə görmək olar : *birdlike* - quşabənzər, *bearlike* - ayıyabənzər.

Bu sözlər müasir bədii və siyasi ədəbiyyatda işlənir .

Ədəbiyyat:

1. Mason S.J. Word - Building . Macmillan , N.Y. 1958 .
2. Jespersen Otto . A Modern English Grammar on Historical Principles . Copenhagen , 1942. Part 4 .
3. Antal L. Context . Meaning and understanding . The Hague , 1964 . 4. Bankevich L. Englich Word - Building . L. , 1961 .
4. Palmer H. Grammar of English Words . London , 1961 .
5. Шкарупина В.И. О спесифике префиксации в английском языке . М. , 1963 .
6. Зятковская Ф.Г. Суффиксальная система современного английско го языка . М. , 1971 .
7. Кубрякова Е.С. Основы морфологического анализа . М. , 1974 .
8. Дорский С.Л. Словообразование отвлеченных имен существитель ных в древнем английском языке . Минск , 1960 .
9. Мешков О.Д. Словообразование английского языка . М. , 1976 .
10. Иванова И.П. О морфологической характеристике слова В современном английском языке . М. , 1977 .
11. Амосова Н.Н. Етимологические основы словарного современного английского языка . М. , 1958 .
12. Никитин М.В. Лексическое значение слова . М. , 1983 .

P. Karimova

ADJECTIVES DERIVED THROUGH SUFFIXES

Summary

One of the richest languages currently available is English. In the dictionary of modern English, adjectives take second place after nouns in terms of the number of words. Adjectives are formed mainly through suffixes and prefixes. Suffixes develop and arise in their own way. A group of these suffixes forms a kind of homonymy and is transitional through foreign languages.

Speaking about homonymous suffixes, it should be noted that the same suffixes not only denote different shades of the same meaning, but can also denote different meanings. Hence the ambiguity of suffixes. With the help of this tool, homonymous suffixes of adjectives have appeared in the English language.

The article discusses suffixes forming adjectives, such as -ed,- y,- less,- ly,- like, which are considered the most productive, and provides examples corresponding to them.

The suffix "-ed" is considered the most productive of all suffixes in the English language. This suffix is connected only to the base (root) a noun. the adjective suffix " -y" comes from the Old English suffix "- ig", which forms an adjective from the root of nouns, verbs and adjectives. In modern English, adjectives formed by the suffix "- en" are not so much. Most adjectives formed by the suffix " -less " are formed from nouns. By origin, the suffix " -ly " is included in the common

Germanic languages. In modern English, the "-like" element can be used with both adjectives and adverbs.

Key words: adjective, word formation, suffixes, homonymous suffixes, derivative adjectives.

П. Каримова

ПРИЛАГАТЕЛЬНЫЕ, ОБРАЗОВАННЫЕ С ПОМОЩЬЮ СУФФИКСОВ

Резюме

Одним из самых богатых языков, доступных в настоящее время, является английский. В словаре современного английского языка прилагательные занимают второе место после существительных по количеству слов. Прилагательные образуются в основном через суффиксы и префиксы. Суффиксы развиваются и возникают по-своему. Группа этих суффиксов образует своего рода омонимию и является переходной через иностранные языки.

Говоря об омонимичных суффиксах, следует отметить такой аспект, что одни и те же суффиксы не только обозначают разные оттенки одного и того же значения, но и могут обозначать разные значения. Отсюда и многозначность суффиксов. С помощью этого средства в английском языке возникли омонимичные суффиксы прилагательных.

В статье рассматриваются суффиксы, образующие прилагательные, такие как *-ed,- y,- less,- ly,- like,* которые считаются наиболее продуктивными, и приводятся соответствующие им примеры.

Суффикс «-ed» считается самым продуктивным из всех суффиксов в английском языке. Этот суффикс соединяется только с основой (корнем) существительного. **с**уффикс прилагательного « -y » происходит от древнеанглийского суффикса "- ig", который образует прилагательное от корня существительных, глаголов и прилагательных. В современном английском языке прилагательные, образованные суффиксом "- en", не так уж и много. Большинство прилагательных, образованных суффиксом » - less ", образованы от существительных. По происхождению суффикс « -ly » входит в общегерманские языки. В современном английском языке элемент "- like " может использоваться как с прилагательными, так и с наречиями.

Ключевые слова: прилагательное, словообразование, суффиксы, омонимичные суффиксы, производные прилагательные.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya üzrə elmlər doktoru, dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur

İRADƏ CƏFƏROVA İRAC QIZII
Bakı Dövlət Universiteti
Təbiət elmləri üzrə "İngilis dili"kafedrası
Zahid Xəlilov küç.23
iradacafarova@gmail.com
IRADƏ İSGENDERZADƏ ABDUL QIZI
Azərbaycan Dövlət Pedağoji Universiteti
"Xarici dillər"kafedrasının baş müəllimi
Həsən Əliyev 92.
iradaisgender@mail.ru

ÜMUMDİLÇİLİK SİSTEMİNDƏ BİLİNQVİZMİN VƏ MONOLİNQVİZMİN KOORDİNATİV VƏ SUBKORDİNATİV XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

Xülasə

Son zamanlar cəmiyyətimizdə yaranan bilinqivizm (ikidillilik) daha da genişlənməkdədir. Dünyada bir neçə dövlət rəsmi olaraq ikidilliyi qəbul etmişdir. Məsələn, Kanada, İsveç, İspaniya, Hindistan və s. dövlətlər ikidilli dövlətlərdir. Bir çox ölkələr isə qeyri-rəsmi olaraq iki və ya çox dildən istifadə edirlər. Ancaq bu o demək deyil ki, bu dövlətlərin vətəndaşları qəbul olunmuş hər iki dildə eyni səviyyədə danışır.

Məsələn, Təbrizdə həm fars, həm də Azərbaycan dilində danışırlar, Franca-da fransızlar həm fransız, həm də ingilis dilində danışırlar. Avropadan Azər-baycana olan insan axını, Azərbaycan dilinin də xaricilər tərəfindən öyrənil-məsi geniş yayılmışdır. Konfranslarda, televiziya verlişlərində çıxışlar zamanı bu açıq-aşkar görsənir. Məsələn, Azərbaycana təyin olunan diplomatların Azərbaycan dilində danışıqları xüsusi diqqət cəlb edir. Onlar Azərbaycan dilində öz aksentlərində danışır. Amma öz fikirlərini tam da olmasa ifadə edə bilirlər.

AÇAR SÖZLƏR:ikidillilik,dilçilik,uyğunlaşma,cəmiyyət,rəsmi dövlət dili

Hər bir insan öz dövlətindən kənara çıxarkən getdiyi məkana adaptasiya olunaraq həmin dövlətin dilində danışmağa can atır. Bu da bilinqvizmin yaranmasına səbəb olur.**Bilinqvizm** dedikdə öyrənilən hər iki dilin strukturunun fonetik, qrammatik quruluşunu, leksik tərkibini eyni bilməsi və danışanın öz fikrini bütün sahələrdə eyni səviyyədə ifadə etməsi nəzərdə tutulur.Bilinqvizm məsələsinə müxtəlif ədəbiyyatlarda mübahisə doğuracaq fikirlər söylənilir.**Fəxrəddin Veysəlli: "Dilçilik problemləri və blinqvizm haqqında mülahizələr". Bakı-2003.**Prof. Fəxrəddin Veysəlli qeyd edir ki, bilinqvizm

ideal olaraq o deməkdir ki, insan tam mənada hər iki dildə bir dildəki kimi dil bilgvizmi (səriştəsini) nümayiş etdirə bilir.(1.s.44-48)

Prof. Əbülfəz Rəcəbli:"İkidilliyin nəzəri problemləri" Bakı.2012.kitabında qeyd edir: "Bİinqvizmi öyrəniməzdən əvvəl "ana dili", "xarici dil" , və ya "birinci dil", "ikinci dil" anlayışlarına aydınlıq gətirməyin gərək olduğunu deyir. Fərdlərin əksəriyyəti üçün birinci mənimsənilmiş dil-ana dili həm də ən çox işlədilən dildir, əksinə, "ikinci dil", törəmədir və işlədilmə planında da köməkçi dildir. Prof. Fəxrəddin Veysəlli ideal bilinqvizmin çox nadir halda olduğunu qeyd edir.Doğrudan da axtarışa çıxsaq cəmiyyətdə ideal bilinqvizmə malik az insanlara rast gəlmək olar ki, ikinci dili ana dili kimi mənimsənilsin və bütün situasiyalarda hər iki dili eyni səviyyədə işlədə bilsin."(2.s.132)

Məlumdur ki, ulu öndərimiz, H.Əliyev Azərbaycan və rus dillərində bütün sahələr üzrə öz fikirlərini tam və səlist izah edə bilirdi. Onun nitqində istər Azərbaycan istərsə də rus dillərində fonetik, qrammatik, leksik səhv tapmaq çox çətin idi. Sanki, onun nitqi yazılıb dəfələrlə yoxlanılmışdır.Subordinativ bilinqvizm isə dünyada və cəmiyyətimizdə daha geniş yayılmış dilformasıdır.Prof. Fəxrəddin Veysəlli koordinativ bilinqvizmdən danışmaq çətin olduğunu söyləyir. O, subordinativ bilinqvizmin daha məqsədəuyğun olduğunu qeyd edir.

Doğrudan da bilinqvizm məsələsinə tam ciddi yanaşmaq lazımdır.Doğrudur bir neçə dildə danışmaq olar, ancaq bir neçə dili bilmək, bir çox sahələrdə hər iki dildə fikir ifadə etmək çətindir. Öyrənilən hər iki dildə müstəqil danışmaq olar, ancaq müxtəlif sahələrdə fikir ifadə etdikdə bu zaman dillərdən biri kölgədə qalır.Prof. Əbülfəz Rəcəbli belə hadisələrin immiqrantlarda daha çox rast gəlindiyini qeyd edir.

O, qeyd edir ki, immiqrantlarda elə hallar olur ki, fərdin ana dili özünün ilkin ünsiyyət vasitəsi kimi işlənməsində əhəmiyyətini itirir, yalnız ev dairəsində və dostlarla ünsiyyətdə işlətməklə kifayətlənir, məhdudlaşır, digər dairələrdə yad nitq kollektivinin hökmranlığı ilə əvəz edilir.90-cı illərdən əvvəl Azərbaycanda rus dilinə olan maraq,axın doğma ana dili, Azərbaycan dilinə yadlaşma yaratmışdı.

O dövrlərdə Azərbaycanda qeyri- rəsmi olsa da rus dili ikinci dil kimi qeyd olunurdu. Hətta cəmiyyətimizdə bu hadisə Azərbaycan dilinin kölgədə qalmasına gətirib çıxarırdı və doğma dili dərindən öyrənməyə maneə yaradırdı. Bu kimi-ikinci dil öyrənmənin fəsadları sonralar üzə çıxmağa başladı.

İnsanlar övladlarını rus dilli bağçaya, məktəbə, ali məktəblərdə oxumağa məcbur edirdilər və bu da doğma dilə olan münasibəti tam dəyişirdi. Həmin insanlarda milli mədəniyyətə, mentalitetə də yadlaşma müşahidə edilirdi. (Belə insanlar Azərbaycanda çoxdur və bunu özləri qeyd edir). Onlar üçün ana dili ikinci sayılırdı.**Suzanna Romaine ğoğma dilin rolu":"İkidillilikdə ğoğma dilin rolu"M.2014**.Suzanna Romaine qeyd edir ki, iknci dil doğma dilə uyğun seçilməlidir və dil öyrənmə fərdin psixi durumuna görə həyata keçirilməlidir

ki, ikinci dilin öyrənilməsi daha keyfiyyətli olsun və fərd ondan səmərəli istifadə etsin.Alman alimi H.Kloss qeyd edir ki, milli birdillilik, ikidillilik və çoxdillilik, fərdi birdillilik, ikidillilik və çoxdillilik bir-birindən fərqləndirilsin. Bilinqvizm hadisəsi ilə dilçilik deyil, psixoloqlar sosiolinqvistiklər, coğrafiyaçılar məşğul olur və bu da dil hadisəsini geniş araşdırılır.(3.s.14)

Məsələn, dilçilik iki dildə söz qrupunu vaxtında necə dəyişdiyini öyrədir. Coğrafiyaçılar ölkədə ikidilliliyin sıxlığını yoxlayır. Sosioloqlar iki və daha çox dilin hansı şəraitdə daha tez yarandığını hesablayır, psixoloqlar isə hansı yaş həddində ikinci dilin necə öyrənilməsi məsələsini araşdırır. Onları real danışıq məqamında həyata keçirə bilir (performans) . Pərvinə Əzizova namizədlik disertasiyasında, bilinqvizm hadisəsinə sosiolinqvistik aspektən yanaşmışdır.

Bilinqvizmi sosilinqvistik aspektdən araşdırmaq çıxış bilinqvizmin təhlilini təkcə sosial fenomen kimi məhdudlaşdırmaq lazımdır. Sosiolinqvistik təhlil üçün fərdi bilinqvizm sosial blinqvizmin yalnız sosial reallaşdırılması kimi maraq kəsb edir. Eyni bir nitq kollektivinə xidmət edərək, hər iki dil vahidi kommunikativ sistem təşkil edir və bir-biri ilə funksional tamamlama münasibətindədir.Doğma dildən başqa ikinci dili öyrənmək istəyən insanların dili mənimsənilməsi, sosial-psixoloji durumundan, milli mədəniyyətindən, regionundan, təhsiindən, düşdüyü sosial qrupundan, dil kommunikasiyasından və ölkədən asılıdır.

Qeyd etmək lazımdır ki, bilinqvizm əsasən qrup daxilində formalaşır və ikinci dil öyrəmədə sosial qrup birinci qeyd edilir. Bu fərdi və sosial bilinqvizm adlanır. Fərdi olaraq bilinqvizm işlənməsi müxtəlif məqsədlərə uyğun olaraq dəyişdirilir. Dil xidmətinə təsir edən az saylı dil daşıyıcıları, ikinci dili öyrədərkən öz dilinin varlığını kifayət qədər qoruyub saxlayır və yeni dil yalnız öyrədilir. Bütün bu sadalananlar dil öyrənməyə ayrı-ayrılıqda təsir göstərir.

İkinci dilin öyrənilməsi yaş psixologiyasına uyğun öyrədilməsi daha doğru olar. Blinqvizm yetkinlik və 12 yaşından sonra tam formalaşa bilər. Əgər uşaq dil açdığı məkanda iki dildə eyni zamanda danışmağa başlayırsa, bu uşaq **bilinqvizmi** adlanır. Əgər uşaq 3 yaşından sonra ikinci dilin öyrənilməyə başlayarsa, bu sonradan öyrənilən və ya **ardıcıl blinqvizm** adlanır. Bu yaşda uşaqlar dil öyrənmir, sadəcə eşitdiyi dildəki sözləri təkrar edir və danışır.

C.Qompers: "Bilinqvizmin linqvistik aspektləri" M.1909. O.mövzuya reallıqla yanaşaraq, qeyd edir ki, kollektivin iki dilin qrammatika sistemində eyni vaxtda istifadə etdiklərini müəyyənləşdirilmişdir. Linqvistik aspektdən yanaşdıqda fərd öyrəndiyi hər iki dilin fonetikasını, qrammatik qaydalarını, leksikasını və s. məsələləri paralel bilməlidir.(4.p.2004)

Yuxarıda qeyd etdiyimiz kimi, bu istedada malik olan insanlara az rast gəlmək olar. İki dildə öyrənən insan hər iki dildə danışa bilər, ancaq təcrübə-

də müxtəlif sahələrdə bir dildə danışır, ikinci dildə tam fikir yürüdə bilmir. Başqa birisi iki dildə danışır, dillərdən birində əlaqə yaradır, danışır, digər bir dildə isə yazır və oxuyur. Burada dil bacarığı və dilin işlədilməsi əsas götürülür. Dil

bacarığı dedikdə danışıq və yazılı dilin hər ikisinin eyni dərəcədə bilməsi nəzərdə tutulur, bu məhsuldar bacarıq adlanır və bu **fəal bilinqvizmdir**. Anlanma və oxuma zəkalı bacarıq adlanır və **passiv bilinqvizmdir**. Hər iki dilin işlənməsi müxtəlif məkanlarda dəyişərək (evdə, məktəbdə, küçədə,telefonda, TV və s.) işlənir. Yəni eyni adam bütün ünsiyyət məqamlarında hər iki dildən eyni şəkildə istifadə edə bilməz.Fonologiya bilinqvizmi iki cəhətdən araşdırılıb:

1.Koordinativ bilinqvizm;

2.**Subordinativ bilinqvizm**

Koordinativ bilinqvizmdən o zaman söhbət gedir ki, hər hansı bir fərd iki dili yeni dərəcədə dərindən bilir, hər iki dildə öz dil bölgülərini (kompetensiya) səfərbər edib, onları real danışıq məqamında həyata keçirə bilir(performans).

Subordinativ biinqvizm dedikdə, bu zaman dillərdən biri o birisinə tabe olur. İnsan bir dildə öz fikirlərini maneəsiz dilə gətirir, sevincini, kədərini və digər hisslərini ifadə etməkdə çətinlik çəkmir. İkinci dildə isə ana dilində verə biləcəyi informasiyanın heç yarısını verə bilmir.

Tələffüz xətaları, aksent səhvləri, söz seçimi, cümlə quruluşu, vurğu və informasiya adamı tez ələ verir. İkinci dilin öyrənilməsi insan üçün vacib olduğu kimi, onun necə, hansı şəraitdə, məkanda öyrənilməsi, istər qohum, istərsə qohum olmayan ikinci dil məsələsi dilçilik, psixoloinqvistik, sosiolinqvistik aspektdən geniş araşdırılması çox vacibdir və bilinqvizm məsələsinə ciddi yanaşmaq lazımdır. Bir daha qeyd etmək istərdim ki, insan iki (bilinqvizm) və çox didə danışa bilər, ancaq müxtəlif sahələrdə və məkanda öyrənilən dillərdə eyni və ya paralel şəkildə fikri ifadə etmək çətindir.

Praktik tərcümədə blingvizm ilk növbədə qarşıya məqsəd qoyan tərcüməçilər mətn seçmə ilə bağlı bir sıra məqamlarda blinqvizmin işlədilməsinə diqqət yönəltməsinin zərurətini vurğulamaqla, bunların sırasında tərcümə zamanı yazıya alma metodu, tərcümə metodu,mətnin seqmentasiya metodu,statistik oppozisiya metodu, transformasiya metodu və s. məsələləri dərindən təhlil etmələdirlər.

Lüğətlərdə əksinə tərcümə, ümumi tərcümə nəzəriyyəsi, onun başlıca mahiyyəti, mətnin janr spesifikasından asılı olmayaraq blinqvizmin ümumi qanunauyğunluqları, onun həyata keçirilmə şəraiti və xüsusiyyətləri, təsviri anlayış aparatı, biliqvizm nəzəriyyəsinin xüsusi konseptual bazasının yaradılması,bilinqvizm nəzəriyyəsinin digər dil və qeyri-dil fənləri ilə əlaqələrinin mövcudluğu, bilinqvizm modelinin yaradılması, və onun ümumi nəzəriyyəsinin universallarını tədqiq etməsi, hərbi xarakterli tərcümə mətnlərinin xüsusiyyətləri, paradiqma, cümlə paradiqması, paradiq-

matika, paradiqmatik cərgə, paradiqmatik yuva və s. məsələlər müfəssəl əksini tapmışdır.

Fəxrəddin Veysəlli: "Dilçilik problemləri və blinqvizm haqqında mülahizələr". toplusunda əlavə olaraq belə yazılır:"Bilinqvizm insanın nitq-dil fəaliyyətinin mürəkkəb növlərindən biridir. Burada, adətən həmin prosesinin özü, ya şəxsin fəaliyyətinin şifahi-yazılı mətni, deyimin özünün nəticəsi nəzərdə tutulur. Mətnin tərcümə öncəsi anlaşıqlıq ikidillik şəraitində baş verir ki, bu prosesdə ən azı iki dil iştirak edir, daha doğrusu, dillərarası stiuasiyada inkişaf edir.

1.Bilinqvizm dil fəaliyyəti növlərindən biri kimi bir dildə deyilmişlərin digər dilin vasitələri ilə yetkin və adekvat şəkildə verilməsidir. Adekvat və yetkin, tam ifadədə mətnin məzmun və kefiyyətlərini, onun bütün struktur xüsusiyyətlərini, üslubunu, leksika və qrammatikasını, tərcümə dilində bütün cəhətləri ilə düzgün, dəqiq və tam şəkildə verilməsi nəzərdə tutulur.

2.Şəxsin ifadəsi mətnin (yaxud şifahi nitqin) bir dildən digər dilə keçirilməsi deməkdir.3. Bilinq şəxs hər hansı mətnin, yaxud şifahi nitqin digər dilin-ikinci bir dilin köməyi ilə verilmə prosesidir.

Bayramov Q.:"Tərcümə sənəti". Bakı-2008. Q.Bayramov öz əsərində qeyd edir:"Bilinq şəxs dil mətninin yenidən kodlaşdırılmasıdır ki, bu zaman onun dil obrazı və üslubi forması yaranır. Bunun nəticəsində praktikdanışıq dili affirimativ olur və mətnlərarası (metamətn) əlaqə xarakteri kəsb edir. Nəzərə alsaq ki, dillər, üslublar və mədəniyyətlər arasında fərqlər movcuddur, orjinal zaman hərfi səviyyədə realizə oluna bilməz,yalnız ekvivalentlik (modelləşmə) prinsipi əsasında gərçəkləşmişdir. Bu mənada bilinq fəaliyyəti yaradıcılıq variantı, yaxud eksperimental yaradıcılıq kimi özünü göstərir.(5.s.231)

Ədəbiyyat:

1.Fəxrəddin Veysəlli: "Dilçilik problemləri və blinqvizm haqqında mülahizələr". Bakı-2003.s.44-48.

2. Prof. Əbülfəz Rəcəbli:"İkidilliyini nəzəri problemləri"Bakı.2012.s.132.

3. Suzanna Romaine ğoğma dilin rolu":"İkidillilikdə ğoğma dilin rolu"M.2014.s.14.

4.**C**.Qompers: "Bilinqvizmin linqvistik aspektləri" M.1909 Sociolinguistics, Oxford University Press. 2004.p.

5.Bayramov Q.:"Tərcümə sənəti". Bakı-2008.səh:231.

Irada Djafarova,I.Isgenderzade,

BILINGUALISM AND MONOLINGUISMIC IN THE GENERAL LANGUAGE SYSTEM ANALYSIS OF COORDINATIVE AND SUBCOORDINATIVE CHARACTERISTICS

Summary

Some main remarks on bilinguism. The presented article deals with the problems and Phonological Subdivision of bilinguism. The article (points aut) remarks passive and active? Also psychological and sociolinguistic approaches to the investigation of bilinguism.Bilinguism is particularly marked as a main and leading process among the social groups in the article.

Bilingualism ideally means that a person can demonstrate linguistic knowledge (competency) in both languages as well as in one language. That before considering the bilingualism of an individual, it is necessary to clarify the concepts of "mother tongue", "foreign language", or "first language", "second language".

Bilingualism, as one of the types of language activity, is the mature and adequate rendering of what is said in one language by the means of another language. Adequate and mature, complete expression means that the content and qualities of the text, all its structural features, style, lexis and grammar, are correctly, accurately and completely given in all aspects of the translated language.

Expression of a person means the transfer of text (or oral speech) from one language to another. 3. Bilingualism is the process of rendering any text or oral speech with the help of another language - a second language.

To study bilingualism from a sociolinguistic aspect, it is necessary to limit the analysis of bilingualism only as a social phenomenon. For sociolinguistic analysis, individual bilingualism is of interest only as a social realization of social bilingualism. Serving the same speech collective, both language units form a communicative system and are in a functional complementary relationship with each other. , depends on language communication and country.

KEY WORDS: bilingualism, linguistics, adaptation, society, official state language

И.Джафарова,И.Исгендерзаде

ДВУЯЗЫЧНОСТЬ И МОНОЯЗЫЧНОСТЬ В ОБЩЕЙ ЯЗЫКОВОЙ СИСТЕМЕ АНАЛИЗ КООРДИНАЦИОННЫХ И СУБКООРДИНАЦИОННЫХ ХАРАКТЕРИСТИК

Резюме

Заметки о блингвизме**.** В статье говарится о мнениях ученых о билингвизме, о фонологических подразделениях билингвизме, а также о психологических социальных лингвистических аспектах.Здесь также

ослобо отмечается о важности билингвизма и его быстрое формировании в социальных группах.

Билингвизм в идеале означает, что человек может продемонстрировать лингвистические знания (компетентность) как на обоих языках, так и на одном языке. проф. Прежде чем рассматривать двуязычие личности, необходимо уточнить понятия «родной язык», «иностранный язык» или «первый язык», «второй язык»

Билингвизм, как один из видов языковой деятельности, представляет собой зрелую и адекватную передачу сказанного на одном языке средствами другого языка. Адекватное и зрелое, законченное выражение означает, что содержание и качества текста, все его структурные особенности, стиль, лексика и грамматика даны правильно, точно и полно во всех аспектах переводимого языка.

Выражение лица означает перевод текста (или устной речи) с одного языка на другой. 3. Билингвизм – это процесс передачи любого текста или устной речи с помощью другого языка – второго языка.

Для изучения двуязычия с социолингвистической стороны необходимо ограничиться анализом двуязычия только как социального явления. Для социолингвистического анализа индивидуальный билингвизм представляет интерес только как социальная реализация социального двуязычия. Обслуживая один и тот же речевой коллектив, обе языковые единицы образуют коммуникативную систему и находятся друг с другом в функциональных взаимодополняющих отношениях. , зависит от языка общения и страны.

КЛЮЧЕВЫЕСЛОВА:блингвизм,лингвистика,адаптасия,общества, гасударственный язык.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya elmləri doktoru,dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur

LARISA VLADIMIROVNA KOLESNIKOVA
ADPU-nun
Xarici Dillər Mərkəzinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
larisa37288@gmail.com
S.Rəhimov 167

НАРРАТИВ ТЕКСТА

Резюме

Появление нарратологии как теории повествования стало следствием обсуждений языковедами проблем организации текста. Текст может осмысляться в качестве автора, читателя. Лингвистика нарратива активно развивается: изучается коммуникативная природа нарративного текста, исследуется его познавательные характеристики. Нарративные тексты исследуются по нескольким направлениям. В настоящее время нарратологические исследования расширяются, так как нет ограничений только художественной литературой, и учитываются повествовательные произведения любого жанра и любой функциональности.

Нарратив имеет три элемента, входящие в его структуры: рассказывание само по себе, текст, движение сюжета от начала и до конца. В основе нарратива лежит событийность, то есть свойство повествовательного текста, которое заключается в повествовании по времени и в пространстве.

Нарратологи говорят о том, что для повествования обязательно среднее между автором и тем миром, о котором он повествует. Другими словами, нарративность связывается с присутствием рассказчика. Нарративность осмысливается через события и через коммуникацию.

В зависимости от принадлежности повествователя миру текста, выделяются несколько видов нарратива. Нарратор создаёт вымышленный мир, выдавая его за реальность.

Язык нарратива, как и разговорный язык, имеет свои элементы. Язык нарратива – это редуцированный язык, а коммуникативная ситуация при этом неполноценна. Под нарративом понимается речевое действие и особое коммуникативная единица.

Ключевые слова: нарратив, нарратор, текст, дискурс, повествование.

Термин нарратология или теория повествования появился на Западе в 60-е годы 20 века. Современная нарратология сформировалась под влиянием представителей русских теоретиков 20 века, таких как М. Бахтин, Ю. Лотман, Б. Томашевский. Однако, как дисциплина нарратология только формируется. Сам термин нарративный противопоставляется термином описательной, так как указывает на определённую структуру излагаемого материала. К

нарративным текстам относят роман, повесть, рассказ, а также кинофильм, картины и т.д., то есть всё, что содержит изменение ситуации. Что такое изменение ситуации? Это набор свойств, определяющий тот или иной персонаж, внешнее положение в тот или иной момент времени. Если мы говорим о духовном мире персонажа, то затрагиваем его внутреннее состояние. Условием нарративности является то, что осуществляется изменением хотя бы одного состояния. В содержании нарратива анализируется информация о событиях. Всегда существует возможность рассказать об одном и том же событии по- разному, в зависимости от цели рассказчика. Нарратор, повествуя, создаёт произведение и структурирует его по – своему. Аспектом нарративности является изменение одного из состояний. Читая нарративный текст, читатель устанавливает причинные связи между эпизодами. Но эти связи не нарушают логику текста автора. (3,100)

Для нарратива присуще присутствие рассказчика, так как он высказывает свою позицию по отношению к ситуации, к различным условиям описания прошлых событий и развитие новых отношений. Рассказывая о событиях прошлого, надо помнить, что события, играющие когда- то важную роль, искажаются, забываются со временем. Нарратор, описывая жизнь, повествуя о жизни героя или героев, создает новое произведение строя его по заданному предписанию. Если в художественном произведении нам повествует писатель о событиях, то в нарративе появляется образ повествователя, который обобщает представленное читателю.

Автор- писатель, создавая произведение, пользуется вымыслом мира, в котором пребывают его герои. В нарративе повествующий принадлежит реальному, а не вымышленному миру. Повествуя о чём-либо, рассказчик может занимать определенные позиции к событиям, героям, описываемым им, а также может и не занимать. Одним из отличий является протяжённость во времени.

Текст всегда строится на каком – том определении мира, с которым он соотносится. Представляя мир используется так называемые дейктические слова. При дейксисе обязательно ситуации общения, то есть говорящие вступают в речевую связь. К дейктическим словам относятся слова типа я, здесь, там и другие. К таким словам не относят некоторые категории наклонения глагола, утвердительно- вопросительные формы, так как эти единицы предполагает, а не определяют.

Во многих художественных текстах автор присутствует иногда в скрытой форме, но без отношения автора к произведению невозможно. И здесь позиция автора проявляется с помощью дейктических слов – там, тут, вот. В живой разговорной речи дейктические слова предполагают узуальную ситуацию- когда говорящий и слушающий общаются друг с другом. (6,45) При

речевой ситуации появляются разнообразные элементы: вводные слова (кажется, к счастью, думаю, оценка говорящего).

Говорящему и слушающему отведены свои роли. Говорящий может выступать как субъект речи, как субъект восприятия, как субъект дейктического общения. Также говорящий использует различные обороты, как: а именно, однако, например, а главное, тем более, кстати говоря, между прочим и т. д. Все эти обороты требуют при себе глагол говорить, сказать.

Говоря о субъекте восприятия, то им может быть и рассказчик, и персонаж одновременно. Для восприятия характерны такие обороты, как несомненно, к счастью, думается, и т.д.

К оборотам можно отнести слова неожидаемые, оценочные. Сложность нарративного повествования заключается во множестве его слушателей, которые могут применить текст в различной интерпретации. Нарраторы относятся к информации критически, со своей позиции, со своей точкой зрения. При нарративе происходит запоминание важных событий, представленных в тексте. Но непохожие компоненты создают такую ситуацию, которая вызывает интерес к информации, то есть нарратив проявляет степень обтекаемости. Нарратив является результатом высказывания. Если дискурс есть настоящее и будущее, то нарратив представляет прошлое. Фрагменты, последующие и предшествующие, выдвигаются в тексте на передний план предполагая значимость в коммуникативной ситуации читателя и автора. (10,99)

Изучение нарратива в последние годы в лингвистике получило быстрое развитие, что явилось следствием проникновения дискурса в науку, а это связано и с нарративом. На протяжении нескольких десятилетий проявляется интерес к тексту, который вызван сложными явлениями, происходящими в тексте, и это привело к появлению такой лингвистической дисциплины как лингвистика нарратива.

Нарратив имеет два способа изображения – эксплицитное и имплицитное. Эксплицитное изображение основано на презентации самого нарратора. Нарратор может рассказать историю своей жизни, описать какие-либо события, изложить свои мысли, как это делает Пьер Безухов в романе Л. Н. Толстого “Война и мир”. В имплицитном изображении употребляется много местоимений и форм глагола.

Имплицитное изображение носит обязательный характер, оно осуществляется с помощью повествовательного текста. Нарратор примеряет все приёмы построения повествования: отбор персонажей, ситуаций, детализацию изобразительных элементов, композицию текста, комментарии. Иначе говоря, нарратор является составителем элементов повествовательного текста, а также указывает на эти свойства. В тексте нарратор может иметь яркие черты индивидуальной личности, но может и не иметь эти черты.

Простая модель коммуникативной ситуации нарратива состоит в том, что автор может быть и субъектом речи, и он остаётся распределяющим всей системы элементов языка. Автора или нарратора можно назвать также рассказчиком. Например, в повести А. С. Пушкина “Капитанская дочка” повествователь является рассказчиком, и он обнаруживает себя в различных оборотах речи. И это является свойством имплицитности, то есть рассказчик не имеет полноценного существования ни в вымысле, ни в реалии, которому принадлежит нарратор. (8,86)

Говоря о повествовании, отметим, что различают 3 типа: 1. традиционный нарратив, 2. нарратив третьего лица, 3. свободный дискурс. Термин “традиционный нарратив” близок к термину, по словам Г. А. Гуковского ”старозаветное повествование”. Нарратив третьего лица не принадлежит миру текста, а в косвенном дискурсе отсутствует.

Активное изучение и применение нарративных текстов привело к формированию большого количества теорий нарратива. В теории нарратива выделяются три подхода к изучению нарратива: структурный, лингвокультурологический и коммуникативный. В традиционной нарратологии методы лингвистики стоят выше анализа лингвистического анализа. Для структурного подхода характерно возможность более строгого научного изучения нарратива средствами синтаксиса.

Нарративные методы рассматриваются с точки зрения лингвокульторологии. Исходя из этого нарратив является знаком, который хранит, воспроизводит культурные установки языка и народа. В этом подходе были предприняты попытки классификации сюжетных ситуаций на основе поиска.

Нарратология уделяет внимание на текст как составной части коммуникации и представляет текст как сложный объект. Многие теоретики нарратологии подчеркивают зависимость нарративных текстов от коммуникативных факторов, которые задействовано как участники процесса. При коммуникации основным признаком нарративности выступает событие, которое реализуется в процессе общения нарратора с адресатом.

При составлении нарративных текстов, имеющих навыки коммуникации, необходимо должно быть знание смыслов ключевых повествований культуры. В этом случае нарратив выступает как тип дискурса, быстро реагирующий на изменения. Можно сравнить дискурс и нарративный текст. Например, типом дискурса может быть педагогический, а к нарративному тексту относятся такие элементы как, преподавательские и детские нарративы.

Производя анализ дискурсивных текстов, можно считать нарративным признаком многих текстов. Использование нарративов является индикатором языковых элементов, составляющих его структуру. (7,66)

Основная часть коммуникативных отношений строится с помощью стереотипных норм и правил, пользование которыми чаще всего является неосознанно и регулирующим речевую деятельность. Нарратив является интенцией, которая является мотивационной основой построения речевых действий, образующих тип коммуникации. Коммуникативное взаимодействие представлено здесь как организованное сотрудничество при осуществлении совместной деятельности. Речевое общение строится в форме побуждения в активизации взаимодействия.

Нарратив, являющийся одним из известных способов организации межличностной коммуникации, представляет собой модель поведения, направленную на речевое воздействие с помощью накопленного опыта.

Литература

1. Баранов А.Н. Лингвистическая экспертиза текста, Москва, 2010.
2. Мамуркина О.В. Теория нарратива в современном литературоведении, Москва 2011.
3. Савлиева Л.К. Нарративный анализ, Москва 2012.
4. Алищанова И.В. Нарратив как культурная модель, Москва 2006.
5. Падучева Е.В. Семантика нарратива, Москва 2010.
6. Качанов Д.Г. Нарративный анализ как метод исследования, Москва 2020.
7. Егоршина Н.В. Нарративный дискурс. Тверь 2002.
8. Гураль С.К. Дискурс-анализ и обучение межкультурной коммуникации. Москва 2019
9. Шмид В. Нарратология. Москва 2003
10. Попова Е. А. Коммуникативные аспекты. Липецк 2002.
11. Леонтьев. А.А. Язык, речь, речевая деятельность. Москва 2007.
12. ЛотманЮ.М. Происхождение сюжета в типологическом освещении. Москва 1992.

Mətn nəqli
Xülasə

Nağıl nəzəriyyəsi kimi narratologiyanın meydana gəlməsi dilçilərin mətn təşkilatının problemlərini müzakirələrinin nəticəsi idi. Mətni müəllif, oxucu kimi dərk etmək olar. Nəqlin leksikası fəal inkişaf edir: nəqli mətnin kommunikativ xarakteri öyrənilir, onun qavrama xüsusiyyətləri araşdırılır. Nəqli mətnlər bir neçə istiqamətdə öyrənilir. Hazırda narratoloji tədqiqatlargenişlənir, belə ki, yalnız uydurmaya heç bir məhdudiyyət qoyulmır, hər hansı janrın və hər hansı birinin nəqli əsərləri nəzərə alınır. Funksionallıq.

Bir rəvayətin üç ünsürü vardır ki, onlar onun strukturlarına daxildirlər: rəvayətin özü, mətni və fitnənin başlanğıcdan axıra qədər hərəkəti. Rəvayətin mərkəzində hadisə, yəni rəvayət mətninin mülkiyyəti durur. Bu, zaman və məkan baxımından nəqletmə ilə bağlıdır.

Narratoloqlar deyirlər ki, rəvayət üçün müəlliflə onun nəql etdiyi dünya arasında orta bir zəmin olmalıdır. Başqa sözlə, rəvayət və identiklikrəvayətçinin iştirakı ilə əlaqələndirilir. Rəvayət və kimlik hadisələr və ünsiyyət vasitəsi ilə dərk edilir.

Nağılçının mətn aləminə məxsusluğundan asılı olaraq, bir neçə növ nağıl ayırd edilir. Nağılçı uydurma dünya yaradır, onu reallıq kimi ötürür. Nağılçının nağılları bir-birindən fərqli olur.

Danışıq dili kimi nağıl dilinin də öz elementləri vardır. Nəqli dil kiçildilmiş dildir, kommunikativ vəziyyət isə aşağı olur. Bir rəvayət nitq hərəkəti və xüsusi kommunikativ vahid kimi başa düşülür.

Açar sözlər: nəqli, nəqliyatçı, mətn, nitq, nəql.

Narrative of the text
Summary

The emergence of narratology as a theory of narration was the result of discussions by linguists of the problems of text organization. The text can be interpreted as an author, reader. Narrative linguistics is actively developing: the communicative nature of the narrative text is being studied, its cognitive characteristics are being investigated. Narrative texts are studied in several directions. Currently, narratological research is expanding, since there are no restrictions only on fiction, and narrative works of any genre and any functionality are taken into account.

The narrative has three elements included in its structure: the narrative itself, the text, the movement of the plot from the beginning to the end. The narrative is based on eventfulness, that is, the property of a narrative text, which consists in a narrative in time and space.

Narratologists say that for a narrative it is necessary to have a middle ground between the author and the world about which he narrates. In other words, narrativity is associated with the presence of the narrator. Narrativity is comprehended through events and through communication.

Depending on the narrator's belonging to the world of the text, several types of narrative are distinguished. The narrator creates a fictional world, passing it off as reality.

The narrative language, like the spoken language, has its own elements. The narrative language is a reduced language, and the communicative situation is

incomplete. A narrative is understood as a speech action and a special communicative unit.

Keywords: narrative, narrator, text, discourse, narrative.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Dilarə Cavadova tərəfindən çapa tövsiyə olunmuşdur

CƏMİLƏ RƏHİM QIZI AĞAMALIYEVA
ADU
Dissertant

İLLOKUTİV-PERLOKUTİV CÜMLƏLƏRDƏ ELLİPSİSLƏRİN PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

Xülasə:

Ellipsisin praqmatik xüsusiyyəti illokutiv təsirin müəyyən perlokutiv effektlə nəticələnməsindən ibarətdir. Ellipsis "ifadəsini tapmayan, amma tapması mümkün olan linqvistik dəyər" kimi qiymətləndirilir. Artıq danılmaz faktdır ki, elliptik söyləmlər emosionallıqla əlaqəlidir. Biz bunun elliptik strukturların modallığı məsələsinin işıqlandırılması zamanı bir daha şahidi olduq. Nitqin formalaşması prosesində həmsöhbətlər qeyri-elliptik və elliptik formalar arasında qeyri-iradi seçim edir. Hər dəfə də seçilən söyləm forması kontekstual şərtlərlə təsdiqlənir, belə ki, ümumi kontekstə uyğun gəldiyi zaman elliptik formalara müraciət edilir. Bu zaman elliptik söyləmin rolu "funksional cəhətdən əsaslandırılmış olur və o, mətnin semantik strukturunda spesifik vahid kimi çıxış edir".

Eliptik sual formalarının dialoq nitqində müşahidə olunan praqmatik xüsusiyyətlərini qruplaşdırmaq mümkündür: əlavə məlumat ifadə edən və emosiya ifadə edən elliptik sual cümlələri. Lakin, onu da qeyd etmək lazımdır ki, bu qruplaşma şərti xarakter daşıyır. Bu iki qrup arasında kəskin fərq olmasının iddia edilməsi də doğru hesab edilə bilməz. Qeyd etmək lazımdır ki, məqalədə işlədilən nümunələrdəki informativ və ya emosional illokusiya dominantlıq təşkil edə bilər.

Açar sözlər: *illokutiv, perlokutiv, cümlə, ellipsis, praqmatik, dialoq, emosional, informativ*

K.M.Abdullayevin fikrincə, "*elliptiklik ideyası əslində sintaktik vahidin dəyərə malik olmaması üzərində qurulur və məhz belə bir yoxluq ellipsisli komponentləri, ya da başqa sözlə desək, sıfır üzvlü komponentləri başqa komponentlərlə daha sıx bağlayır*" [1, s.147]. K.M.Abdullayev hesab edir ki, "*ellipsisləşmə dolayısı ilə cümlə quruluşunda danışanın, informasiya verənin əvvəlcədən nəzərdə tutduğu modelin təqdim edilməsinə xidmət edir. Beləliklə, ellipsisli cümlə quruluşunu yalnız formal baxımdan deformasiyaya uğramış kimi qəbul etmək olar. Əslində, deformasiyaya uğramış bu quruluş informasiya qəbul edənin dil şüurunda gizlənmiş tam təsəvvürüdür*" [1, s.147].

Z.İ.Budaqova qeyd edir ki, "*cümlədə ellipsis hadisəsi (xəbərin ellipsisi nəzərdə tutulur) eyni bir sözün təkrarı ilə deyil, müəyyən bir məqsədlə bağlı olur. Odur ki, buraxılan üzv yerinə qoyulsa, nəzərdə tutulan məqsədin ifadə tərzi zəifləyər*" [2, s. 95].

Elliptik cümlələrin semantik strukturunun formalaşması onların tipikləşmiş ünsiyyət situasiyasına daxil olması nəticəsində baş verir. Bu cür cümlələr özlərinin spesifik struktur sxemlərilə konstitutiv linqvistik vahidlər kimi çıxış edir. Danışıqda elliptik cümlələr dildən kənar gerçəklik situasiyası ilə bağlılıq nümayiş etdirir, onların semantikası kommunikativ, situativ, üstəlik mürəkkəb xarakter daşıyır.

Şifahi nitqin ayrılmaz komponenti olan elliptik cümlələr dialoji nitqdə geniş istifadə edilir və onların burada əsas məqsədi qarşı tərəfə emosional təsir göstərmək, anlama prosesinin ekspressivliyini təmin etməkdir. Məsələn, ingilis dilində "Why?" (niyə?, nə üçün?) sual əvəzliyinin iştirakı ilə formalaşan elliptik cümlələrdə bir neçə tip emosional təsir müşahidə edilə bilər. Məsələn,

"Wife didn't like to see me going off with that trunk – she said it was nearly certain to be stolen."

"Why?"

"Why? Why, are trunks always being stolen?"[3, s.408].

Personajların dialoji nitqdə elliptik söyləm kimi çıxış edən sual əvəzlikləri kommunikativ partnyora təsir vasitəsi kimi istifadə edilir. Bunların bütöv strukturlarla əvəzlənməsi dialoqun intonativ mənzərəsini tamam dəyişə bilər və eyni emosionallıq və ekspressivlik zəifləmiş olar. Belə ki, sual əvəzliklərindən təşkil olunan təktərkibli və sıfır predikativ nüvəyə malik elliptik söyləmlər şifahi nitq sintaksisində olduqca məhsuldardır və geniş işləkliyə malikdir.

Nəzərdən keçirdiyimiz parçada "Why" sual əvəzliyi ikinci məqamda məlumat almaq məqsədi ilə deyil, danışanın heyrət və təəccübünü ifadə etmək üçün işlədilib. Bu söyləmin praqmatik mahiyyəti ondan ibarətdir ki, danışan, əvvəla, həmsöhbətinə emosional təsir göstərir, ikincisi isə, öz emosiyasını ifadə edir. Əksər hallarda isə ancaq sual əvəzliyindən ibarət olan elliptik cümlələr heç də cavab almaq məqsədi ilə işlədilmir. Bu cümlələr danışanın emosional durumunun və eşidilənlərə münasibətinin ifadəçisi kimi çıxış edir. Məsələn, Azərbaycan dilində: Nə?, Necə? və s. tipli cümlələr, ingilis dilində olduğu kimi təəccüb, heyrət ifadə edə bilir.

Bu zaman bu tip elliptik cümlələr "*emotiv markerlər*" kimi çıxış edir [4, s.283] və burada məlumatın əsas emosional, konnotativ elementi yer almış olur. F.Qurbanzadənin fikrincə, "*xüsusi konvensional məna ifadə edən bu növ ellipsislər kontekstdən yaranmış sintaktik quruluşa malikdir*" [5, s.84].

Elliptik sual formasında olan replika sual verənin söhbətin gedişatının inkişaf etdirilməsində maraqlı olduğunun göstəricisidir. Bununla o, qarşı tərəfdə bu ünsiyyətə qoşulma istəyini oyatmağa can atır.

Ünsiyyət prosesi nöqteyi-nəzərindən dialoq nitqinin emosional planı kommunikasiya zamanı praqmatik vəzifələrin yerinə yetirilməsinə xidmət edir. Bizə görə, ünsiyyət iştirakçıları tərəfindən elliptik söyləmlərdən istifadə edilməsi danışanların emosiyasının ifadə edilməsində əsas vasitədir. Eyni zamanda elliptik söyləmlər dinləyənin söhbətə qoşulmasında stimul rolunu da oynayır. Nitq vahidlərinin adekvat seçimi dialoq replikasının dərk edilməsi zamanı dinləyəndə

hadisələrin iştirakçısı olmaq həvəsi yaradır və bunun nəticəsi kimi dialoji nitqin təsiri ilə onda müəyyən hərəkətlər etmək istəyi yaranır. İstənilən halda dialoji nitqdə istifadə edilən elliptik söyləmlər dialoq replikalarının təsir gücünü artırır, dinləyənin emosional reaksiyasını adekvatlaşdırır.

"I've always wondered - what's it like to be a preacher? Interesting?"
"Sometimes."
"Busy?"
"Absolutely. Keeps me hopping."
"Has its stresses, I suppose."
"Definitely. Definitely. What's your calling, Vince?"
"Prosthetics," said Vince.
"Aha. And what's it like to be in prosthetics?"
"Gross" [6, s.210].

Bu nümunədə hər iki həmsöhbət obrazlı və ekspressiv şəkildə ünsiyyəti davam etdirir və bu zaman "*sometimes interesting", "absolutely busy", "keeps me hopping", "definitely has its stresses", "gross"* kimi qısa və lakonik cavablardan istifadə edirlər.

Elliptik konstruksiyalı sual cümlələrinin formalaşmasında kontekst və situasiyanın da rolu danılmazdır. Onlar güman edilən komponentlərin semantikasını, ötürülən informasiyanın elementlərinin və ən nəhayət, cümlənin ümumi məzmununun müəyyənləşdirilməsində müstəsna amil kimi çıxış edir. Bu tip sual cümlələri vasitəsilə informasiyanın ötürülməsi zamanı jest, mimika və digər ekstralinqvistik amillər əsas köməkedici vasitə kimi çıxış edir. Bəzən isə onlar daha vacib, gərəkli məzmun kəsb edir:

"Bəlkə, yerimizi dəyişək? ***Bəlkə, başqa mənzilə?****"* [7, s.114]; *"Striqunov.* ***Sənədlər?*** *Liza: Portfeldədir"* [8, s.87]; *"Tom?" "He is okay."* [9, s.1022] (Tərcüməsi: "*Tom?" "O yaxşıdır*") və s.

Dialoji nitqdə sual cümlələrindən geniş istifadə edilməsi onların geniş praqmatik diapazona malik olmasından irəli gəlir.

Ümumi səciyyəli sual cümlələrinin semantik-praqmatik strukturunda həm dominantlıq təşkil edən və nitq davranışına təhrik edən illokutiv təsir, həm də bu davranışın həyata keçirilməsi ilə bağlı olan sual səciyyəli illokutiv təsir bir arada mövcud olur. Məsələn, ingilis dilində "*Any guesses? – Hər hansı bir ehtimal varmı?"* elliptik sualı danışan üçün vacib olan məlumata auditoriyanın diqqətini yönəltməkdə köməkçi vasitə kimi çıxış edir. Bu cür cümlələrin praqmatik dolğunluğu bir neçə vəzifəni bir arada yerinə yetirməklə dinləyicilərin diqqətinin tam olaraq danışana yönəldilməsində əvəzsiz vasitəyə çevrilir.

Danışıq nitqinin dialoq forması yeni informasiya verən (informator) və informasiyanı qəbul edənin (adresatın) qarşılıqlı münasibəti, ünsiyyəti zəminində formalaşır. Dialoq – şifahi nitqin danışan və dinləyənin bir-birinə bu və ya digər hadisə haqqında məlumat verməsi, nəyi isə təsdiq və ya inkar etməsi məqsədi ilə

reallaşan formasıdır. Bu proses zamanı həmsöhbətlərin müxtəlif psixoloji keyfiyyətləri (soyuqqanlılıq, yüksək reaktivlik və s.) aşkarlanır. Məsələn:

"–Onlar hər şeyi bilirlər.

*– Nə olsun, sonra?**(nə var, nə olub, nə baş verib və s.)**"* [10, s. 173].

Və ya

"What then?" and if there was any shade of disappointment in her tone, probably Ruth herself did not know it."[9, s.179]. (Tərcüməsi: *"Bəs sonra?" və onun danışıq tonunda bir məyusluğun olub olmadığını ehtimal ki, Rut heç özü də bilmirdi).*

Burada soyuqqanlılıq, etinasızlıq, baş verənlərin dinləyəndə heç bir dinamik reaksiya oyatmaması təsvir olunub. Lakin dialoqun bir fraqmentindən nümunə gətirdiyimiz "*– Hə, deməli, bəs belə?* ***(oldu)***" tipli bu parçada yüksək emosiya hakimdir. Məhz bu səbəbdən bəzi tədqiqatçılar (Ş.Balli, J.Maruzo və b.) qeyd edirlər ki, dialoq öz-özlüyündə qarşılıqlı anlaşma ilə müşayiət olunan mənəvi mübarizədir. Ş.Balli bu fikri bütövlükdə nitqə aid edərək yazır: "*Əgər dili diqqətlə nəzərdən keçirsək, həmsöhbətlərin hər birinin ünsiyyətdə olduğu şəxsə öz şəxsi fikrini yürütmək məqsədi ilə nitqin onun əlində əsas silah olduğunu görərik*" [11, s.104]. J.Maruzo əlavə edir ki, "*həmsöhbətlərin hər biri digərinə təsir göstərmək, onu da özü kimi düşünməyə vadar etmək və qabaqcadan onun etirazına son qoymaq istəyir*" [12, s.99].

İnformator və adresatın intellektual səviyyəsindən, onların istək və məqsədindən asılı olaraq, dialoq müxtəlif tonlarla müşayiət oluna bilər. Tədricən yüksələn tonla müşayiət olunan dialoq zamanı həmsöhbətlərin hər birinin fikri yarımçıq ifadə etməsi və ya getdikcə daha az leksik vahidlərdən, sözlərdən istifadə etmələri müşahidə oluna bilər. Məsələn: *Nə var? Nə xəbər? Xeyir ola?* və s.

Bu hal isə, daha çox sual-cavab xarakterli dialoqda elliptik konstruksiyalara daha çox müraciət olunması ilə nəticələnir. Məsələn, Azərbaycan dilində:

"–Bilirsənmi, bütün bunların sonu nə ola bilər?

–Bəs mənim məktəbdəki işim? Bəs mənim məktəbim? Bəs mən?" [8, s.38];

İngilis dilində:

"I want to leave with you."

"No, it is impossible. What about my family?" [6, s.175]. (Tərcüməsi: *"Mən sənlə çıxıb getmək istəyirəm." "Bu mümkün deyil. Bəs mənim ailəm?").*

Dialoqda cümlənin müxtəlif komponentlərinin ixtisarı mümkündür. Belə ki, nitq fikrin ifadəsi üçün bir o qədər də vacib olmayan üzvlərin ixtisarına daha çox meyillidir. Dialoqda danışanın məqsədindən asılı olaraq, funksional-struktur nöqteyi-nəzərindən müxtəlif tip sual cümlələri işlədilir. Onların bir qismi sırf yeni informasiya əldə etmək, bir qismi fikri tamamlamaq, artıq mövcud olan informasiyanı daha da dolğunlaşdırmaq, dəqiqləşdirmək məqsədi güdürsə, digər bir qismi isə sadəcə olaraq, üslubi məqamda təkrar sual xarakteri daşıyır. "*Təkrar – bu, şifahi nitq qaydaları əsasında yaranmış ikinci replikadır, söylənilən fikrə müqabil ekspressiv çalara malik reaksiyanı, öz strukturuna əsasən əvvəlinci replikanın*

tərkibindəki elementlərdən birini əks etdirir və formal cəhətdən birinci replikadan asılı durumda olur" [13, s.9].

A) Yeni informasiya əldə etməyə xidmət edən sual cümlələri dialoqun əsas özəyini, təməlini təşkil edir. Bu halda, adətən, bütöv cümlə növlərindən istifadə olunur:

"Siz də bu otaqda qalırsınız?" [14, s.62]; *"Ay balam, pis yuxu kimi niyə məndən əl çəkmirsən?"* [15, s.81] və s.

B) Fikrin tamamlanmasına, artıq mövcud olan informasiyanın bütövlüyünə, dolğunluğuna xidmət edən elliptik quruluşlu sual cümlələri nitq prosesi zamanı daha ətraflı məlumat əldə etmək məqsədi ilə işlədilir və əlavə sual funksiyasını yerinə yetirir:

"–Biz bununla razılaşa bilmərik. –Bəs axşamkı qərar? Bayramı pozmaq planı? (S.Rəhman); *–Deməli, kilosunu bir şahıya, tonunu bir qızıla?"* [16, s.18]

Qeyd etməliyik ki, əlavə sual əsas sualın leksik-qrammatik əsasında formalaşır. Əlavə sual məzmunlu elliptik cümlələrdə subyekt, obyekt, zaman, məkan, məqsəd əsas sualda artıq mövcud olan informasiyadan doğan yeni informasiyada güman edilir:

"–Bəs sənə demədi ki, ona səndən heç nə lazım deyil?

–Bəs bu qızıl düyün?" [18, s.69]

Elliptik sual cümlələrinin bir çox tipləri bütöv konstruksiyalara nisbətən daha yüksək işləklik dərəcəsinə malikdir. Azərbaycan dilində bu kimi konstruksiyalar "nə xəbər?", "mənə (sənə, ona) nə?" kimi ifadələrlə işlənir:

"Aman Fərhad, igid balam, nə xəbər?" [20, s.105]

Belə formaların bir qismi daşlaşaraq, vahid formaya düşmüşdür. Dildə ibarə kimi formalaşan bu qəbil cümlələr daha çox şifahi nitq üçün xarakterikdir.

Lakin ingilis dilində bu qəbil ifadələrə rast gəlmirik. İngilis dilində qeyd edilən situasiyalarda daha çox təktərkibli sual cümlələrindən (sual əvəzliyindən ibarət olan cümlələrdən) istifadə edilir.

C) Təkrar sual xarakteri daşıyan elliptik konstruksiyalı sual cümlələri, əsasən, danışanın emosional vəziyyətini, psixoloji durumunu əks etdirir:

"Necə? Yenə əngəl? Yenə qəza?" [21, s.78]

İngilis dilində: "*O good sir, peradventure you mean the ragged regal vagrant that tarried here the night. If such as you take an interest in such as he, know, then, that I have sent him of an errand. He will be back soon."*

"How soon? How soon? Come, waste not the time – cannot I overtake him? How soon will he be back?"

"Thou needn't stir; he will return quickly."

"So be it, then. I will try to wait. But stop! –you sent him of an errand? – you! Verily this is a lie – he would not go. He would pull thy old beard, an' thou didn't offer him such an insolence. Thou hast lied, friend; thou hast surely lied! He would not go for thee, nor for any man."

"For any man – no; haply not. But I am not a man." [9, s.904]

Belə cümlələr müxtəlif üslubi məqsədlər üçün istifadə olunur. M.B.Məmmədova görə, "*silsiləli təkrar şəklində işlənən sual cümlələri fikrin emosional və təsirli çatdırılmasında əlverişli üslubi-sintaktik vasitələrdən biridir*" [22, s.138]. Sual tipli elliptik cümlələrdə buraxılmış feili və ya ismi xəbəri danışanın emosional halı, mimikası, müxtəlif jestləri əvəz edir. Bu amillər həm də emosionallığı şərtləndirir. Emosionallıq da öz növbəsində insana təsiri şərtləndirir, insanın ona ötürülən informasiyaya reaksiyasını təmin edir.

ƏDƏBİYYAT

1. Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M.Abdullayev. – Bakı: Maarif, – 1998. – 281 s.
2. Budaqova, Z.İ. Yarımçıq cümlə // – Bakı:Azərb.SSR.EA-nın Xəbərləri, İctimai elmlər seriyası. –1961, № 2, – s. 91-98.
3. Twain, M. The complete works of Mark Twain / M.Twain. – London: Delphi Classics, – 2013. –10338 p.
4. Воробьева, Е.Н. Экспрессивность эллиптического вопросительного предложения (на материале английского языка): [Электронный ресурс] // – Тамбов: Грамота, Филологические науки. Вопросы теории и практики, – 2019. Том 12. Выпуск 11. – с. 281-284. URL: https://doi.org/10.30853/filnauki.2019.11.59
5. Qurbanzadə, F. Dildə ellipsis və yaddaş problemi // Azərbaycan Dillər Universitetinin yaranmasının 80 illiyinə həsr olunmuş "Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda Respublika elmi-praktik konfransının tezisləri. – Bakı: – 11 may – 12may, – 2017, – s.436-439.
6. Dreiser, T. Sister Carrie / T.Dreiser. – London: – 1990. – 289 p.
7. Hüseynov, İ. Povestlər / İ.Hüseynov. – Bakı: Gənclik, – 1967. – 398 s.
8. Məmmədxanlı, Ə. Seçilmiş əsərləri / Ə.Məmmədxanlı. – Bakı: Yazıçı, – 1985. – 291 s.
9. Twain, M. The complete works of Mark Twain / M.Twain. – London: Delphi Classics, – 2013. –10338 p.
10. Hüseynov, İ. Povestlər / İ.Hüseynov. – Bakı: Gənclik, – 1967. – 398 s.
11. Балли, Ш. Общая лингвистика и вопросы французского языка / [Пер. с 3-го фр. изд. Е.В. и Т.В. Вентцель Ред., вступ. ст. и примеч. Р.А. Будагова] / Ш.Балли. –2-е изд., стер. – Москва: Эдиториал УРСС, – 2001. – 416 с.
12. Марузо, Ж. Словарь лингвистических терминов / Ж.Марузо. – Москва: изд. Иностранная литература, – 1990. – 436 с.
13. Məmmədov, M.B. Publisist sözün qüdrəti / M.B.Məmmədov. – Bakı: Yazıçı, – 1997. – 144 s.
14. Babanlı, V. Vicdan susanda / V.Babanlı. – Bakı: Yazıçı, –1982. – 517 s.

15. Rəhman, S. Komediyalar / S.Rəhman. – Bakı: Azərnəşr, – 1967. – 525 s.
16. Xəlil, Z. Doğdu günəş qırmızı / Z.Xəlil. – Bakı: Gənclik, – 1983. – 111 s.
17. Ağamalıyeva, C.R. Dilçilikdə Ellipsis hadisəsinin şərhi // – Bakı: AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər jurnalı, – 2021. №1-2, – s.54-61.
18. Məmmədxanlı, Ə. Seçilmiş əsərləri / Ə.Məmmədxanlı. – Bakı: Yazıçı, – 1985. – 291 s.
19. Xəlil, Z. Cırtdanla Azmanın sərgüzəştləri / Z.Xəlil. – Bakı: Gənclik, – 1988. – 282 s.
20. Əfəndiyev, E.İ. Baş / E.İ.Əfəndiyev. – Naxçıvan: Əcəmi, – 2017. – 351 s.
21. Səid, Q. Əli və Nino / Q.Səid. – Bakı: Qanun, – 2012. – 287 s.
22. Məmmədov, M.B. Publisist sözün qüdrəti / M.B.Məmmədov. – Bakı: Yazıçı, – 1997. – 144 s.

Agamaliyeva J.

PRAGMATIC FEATURES OF ELLIPSIS IN ILLOCUTIVE-PERL OCUTIVE SENTENCES

Summary

The pragmatic feature of ellipsis is that the illocutionary effect results in a certain perlocutionary effect. Ellipsis is considered to be “a linguistic value that cannot be expressed, but can be found”. It is noteworthy to mention that it is already an undeniable fact that elliptical utterances are associated with emotionality. It is witnessed during the illumination of the question of the modality of elliptical structures. In the process of speech formation, interlocutors make an involuntary choice between non-elliptical and elliptical forms. Each time, the chosen form of utterance is confirmed by contextual conditions, so that elliptical forms are resorted to when it fits the general context. In this case, the role of the elliptical utterance is “functionally justified and it acts as a specific unit in the semantic structure of the text”.

It is possible to group the pragmatic features of elliptical question forms that is observed in dialogical speech: elliptical question sentences expressing additional information and expressing emotion. However, it is crucial to highlight that this grouping is meant to be conditional. There is a sharp difference between these two groups cannot be considered to be true either. It should be noted that informative or emotional illocution in the examples used in the article can be dominant.

Key words: *illocutionary, perlocutionary, sentence, ellipsis, pragmatic, dialogue, emotional, informative*

Д.Р.Агамалиева

Прагматические особенности эллипсиса в иллокутивно – перлокутивных предложениях

Резюме

Прагматическая особенность эллипсиса состоит в том, что иллокутивный эффект приводит к определенному перлокутивному эффекту. Эллипсис считается «языковым значением , которое не может быть выражено ,но может быть найдено ».Следует отметить , что уже бесспорным фактом является то ,что эллиптические высказывания связаны с эмоциональностью.Это видно при освещении вопроса о модальности эллиптических структур . В процессе формирования речи собеседники делают непроизвольный выбор между неэллиптическими и эллиптическими формами. Каждый раз выбранная форма высказывания подтверждается контекстуальными условиями, так что к эллиптическим формам прибегают тогда ,когда они соответствуют общему контексту . В этом случае роль эллиптического высказывания «функционально оправдана и выступает как специфическая единица в смысловой структуре текста ».

Можно сгруппировать те прагматические признаки эллиптических вопросительных форм, которые наблюдаются в диалогической речи : эллиптические вопросительные предложения, выражающие дополнительную информацию и выражающие эмоции. Однако важно подчеркнуть , что эта группировка должна быть условной. Резкое различие между этими двумя группами также нельзя признать верным. Следует отметить, что информативная или эмоциональная иллокуция в приведенных в статье примерах может быть доминирующей.

Ключевые слова : *иллокутивный, перлокутивный , предложение ,эллипсис, прагматичный , диалог, эмоциональный , информативный*

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya elmləri doktoru, dosent Fəridə Məhəmmədəli qızı Allahverdiyeva tərəfindən çapa tövsiyə olunmuşdur

NÜŞABƏ HAQVERDI QIZI HƏSƏNOVA
Azərbaycan Dillər Universiteti

SÖZÖNÜLƏRİN LEKSİK-SEMANTİK MƏNASI

Xülasə:

Sözönüləri isim, əvəzlik və ya isim söz birləşməsindən əvvəl istiqaməti, vaxtı, yeri və məkan münasibətlərini göstərmək və ya obyekti tanıtmaq üçün istifadə olunan söz və ya sözlər qrupudur. Onlara aid bəzi nümunələr in, at, on, of və to kimi sözlərdir.

İngilis dilində olan sözönülərin bir çoxu idiomatikdir. İstifadə üçün bəzi qaydalar olsa da, bir çox sözönülərinin istifadəsi sabit ifadələrlə ifadə olunur. Bu hallarda fərdi sözönülərinin əvəzinə ifadəni əzbərləmək daha yaxşıdır.

Bəzi feil və sifətlərdən sonra müəyyən sözönüləri gəlir. Bəzən feil və sifətlərin ardınca müxtəlif sözönüləri gələrək ifadəyə müxtəlif mənalar verə bilir.

Collins Lüğətində sözönüləri by, for, into və ya with kimi sözlər kimi müəyyən edilir. Sözönülərinin obyekti kimi adətən isim qrupu olur.

Merriam Webster Lüğəti sözönüləri üçün bir qədər fərqli tərif verir. Onların qənaətinə görə, sözönüləri "köməkçi nitq hissəsi olub, yeni bir ifadə yaratmaq üçün isimlə birləşir və adətən bir dəyişiklik və ya predikasiya ifadə edir".

Açar sözlər: *sözönü, leksik, semantik, məna, ana dili, termin, köməkçi, əsas*

Məna dil nəzəriyyəsində ən mübahisəli terminlərdən biridir. İlk baxışdan bu terminin başa düşülməsi heç bir çətinlik yaratmır, ondan tədrisdə, şifahi və yazılı tərcümədə sərbəst şəkildə istifadə olunur. Bu-nunla belə, mənanın elmi tərifi bəzi digər əsas dilçilik terminlərinin, məsələn, söz, cümlə və s.-nin tərifləri ilə yanaşı, sonsuz mübahisə obyektinə çevrilmişdir. Mənanın ümumi qəbul edilmiş tərifi olmadığından, müasir dilçilikdə nəzərdən keçirildiyi kimi, problemin kiçik tədqiqi ilə məhdudlaşmalıyıq [5, s. 50].

Sözün mənasına gəldikdə isə, dilçiliyin bir elm kimi mövcud olduğu bütün dövrlərdə dilçilər tərəfindən onun müəyyənləşdirilməsi cəhdləri olmuşdur. Sözün mənasının elmi dərk edilməsi üzərində iş sözlərin semantikasının ətraflı təsviri məqsədi ilə aparılır. Dilçilik nəzəriyyəsində sözün mənasının müxtəlif tərifləri mövcuddur ki, bu da mənanı anlamaq üçün müxtəlif yanaşmaların mövcudluğu ilə bağlıdır. Sözlərin mənası ilə bağlı müxtəlif nəzəriyyələr olsa da, onların əksəriyyəti sözönülərin mənasını təsvir etmək üçün uyğun deyildir [7, s.15].

Sözün sadə səslər toplusundan fərqi sözün məna kəsb etməsidir. Sözün mənası obyektiv olaraq mövcud reallığı əks etdirir. Lakin məna təkcə sözün reallıq obyektlərilə (yəni əşyalar, hadisələr, əlamətlər, hərəkətlər) əlaqəsi ilə deyil, həm də sözün konkret dil sistemindəki yeri ilə müəyyən edilir. T.İ.Arbekovaya görə, "sözün mənası, müəyyən bir dil kollektivi üçün ümumi olan, verilmiş bir səs formasına təyin

edilmiş, müəyyən bir dilin sistemi ilə şərtlənən psixi məzmun kimi müəyyən edilə bilər" [6].

Sözlər (söhbət leksikologiyanın obyekti olan sözlərdən, yəni mə-nalı sözlərdən gedir) nəinki obyektlərin adını çəkir, həm də adı çəkilən obyekt-lərə ictimai şüurlu emosional münasibət bildirir və onların mənasında onların əsas xüsusiyyətlərini müəyyənləşdirir, verilmiş obyektlər sinfinin, yəni əsas əlamətlərin ümumiliyi ilə birləşən obyektlər qrupunun başqa sinfin obyektləri ilə əlaqəsini ehtiva edir. Ona görə də, sözün mənası həcm və məzmuna malikdir. Məna dairəsi verilmiş sözün ad qismində aid olduğu eyni sinif obyektlərinin məcmusudur. Mənanın məzmunu müəyyən bir mövzu və onun xüsusiyyətləri (əsas xüsusiyyətlər toplusu, emosional-qiymətləndirici münasibət, başqa bir sinfin obyektləri ilə əlaqənin göstəricisi) haqqında biliklərdir.

Semantika nəzəriyyəsi üzrə bütün mühüm işlər əksər hallarda mə-nanın istinad konsepsiyalarına əsaslanırdı. Bu yanaşmanın fərqli xüsu-siyyəti ondan ibarətdir ki, o, məna ilə sıx bağlı olan üç müxtəlif komponenti fərqləndirir: dil işarəsinin səs forması, bu səs formasının altında yatan anlayış və referentin özü, yəni dil işarəsinin bağlı olduğu reallığın həmin aspekti. Mənanın ən məşhur istinad modeli "üçbucaq" adlanan modeldir. Referensial yanaşma bu və ya digər formada mənanın referentlə əlaqələndirilməsini nəzərdə tutur [8, s. 94].

Mövzuya aid sözlərdən fərqli olaraq, obyektlərin xassələrini və münasibətlərini göstərən dil vahidləri, xüsusən də sözönülər sözlərin mə-nasına istinad yanaşması çərçivəsində müəyyən edilə bilməz. Sözönülər subyekt yönümlü sözlərə aid deyil, çünki onların ifadələri müxtəlif növ əlaqələrdir. "Across", "over" və "through" sözönülərinin denotatları məkan münasibətləri bildirir. Hər hansı bir əlaqə və xüsusən də məkan müna-sibətləri referensiyaya tabe ola bilməz və nəticədə sözönülərin əlaqə ifadə edən sözlər kimi mənalarını onların denotatlarına işarə etməklə müəyyən etmək olmaz [9, s. 88].

Qeyd etmək lazımdır ki, referensial yanaşmanın tərəfdarları ara-sında dil işarəsinin mənasının məfhum üzərində qurulduğuna inananlar və buna görə də "üçbucaq"da mənanı məfhumla əvəz edirlər. Digərləri mənanı referentlə eyniləşdirir.

Dil daşıyıcıları obyektin bu konsepsiya çərçivəsində prototip adlandırılan xüsusiyyətlərini bilməlidir [12, s.194]. Bu xüsusiyyətlər birlikdə obyektin prototiplərini təşkil edir. Məsələn, helikopterin digər nəqliyyat vasitələri ilə fərqini görmək üçün bilmək lazımdır ki, helikopterdə pərvanə, quyruq hissəsi, istənilən üfüqi səthə rahat eniş etməyə kömək edən şassi-təkərlər və s. vardır. Bu helikopterin prototipidir. Obyektin prototipə ən tam uyğunluğu obyektin kateqoriyanın mərkəzinə aid olduğunu göstərir. Əgər obyekt prototipə yalnız qismən uyğun gəlirsə, o zaman kateqoriyanın periferiyasına aiddir. Buradan belə nəticəyə gəlmək olar ki, prototiplər nəzə-riyyəsi çərçivəsində yalnız obyekt yönümlü sözlərin semantikasını təsvir etmək olar. Sözönülər lüğətin bu təbəqəsinə aid deyildir və prototip xüsu-siyyətlərə malik

deyildir. Sözönülər real dünyada mövcud olan və insan şüurunda sınan münasibətləri bildirir.

Funksional yanaşmanın tərəfdarları hesab edirlər ki, dil vahidinin mənası onun anlayış və ya referentlə əlaqəsi ilə deyil, yalnız onun digər dil vahidlərinə münasibəti ilə öyrənilə bilər. Bunu çox sadə şəkildə belə göstərmək olar: biz bilirik ki, məsələn, "move" və "movement" sözlərinin mənası nitqdə fərqli funksiya göstərdiyi üçün fərqlidir. Bu sözlərin işlədil-diyi kontekstləri müqayisə etdikdə onların başqa sözlərə münasibətdə fərqli mövqelər tutduqlarını şübhəsiz görmək olar. ***(To) move***-dan sonra isim (***move the chair***) gələ bilər, ondan əvvəl isə sifət (***slow movement***) və sözönü (***movement of smth***.) də ola bilər. ***Movement*** sözü müxtəlif mövqelər tut-duğundan belə nəticəyə gəlmək olar ki, onlar müxtəlif söz siniflərinə aid ol-maqla yanaşı, həm də müxtəlif mənalara malikdir [10, s. 30].

Beləliklə, demək mümkündür ki, dildə sözlər arasında əlaqə yaratmaq funksiyası sözönülərin üzərinə düşür. Müasir ingilis dilində sözönləri qapalı leksik kateqoriyaya aid olan sözlər kimi dəyərləndirilir. İngilis dilində bu nitq hissəsi bəzən *prepositions*, bəzən də *adpositions* ad-landırılırlar [11, s. 92]. Onlar sözönlü birləşmələrin aparıcı (baş) elementi kimi funksiya göstərir və əsasən də ismi birləşmələrin tərkibində işlənir. Semantik baxımdan sözönləri əsasən zaman və məkan anlayışları ifadə edir, morfoloji baxımdan isə onlar əsasən infleksiya qəbul etməyən sadə formada olur.

Artıq qeyd edildiyi kimi, müasir ingilis dilində ən çox işlənən sözönləri qrupuna mücərrəd əlaqə bildirən sözönləri daxildir. Bu qrup sözönlərini ifadə etmək üçün dilimizdə müəyyən vasitələr mövcuddur. Bu vasitələri iki hissəyə ayırmaq olar:

I. Sintetik vasitələr (şəkilçilər).

II. Analitik vasitələr (leksik vasitələr).

Müasir ingilis dilində mücərrədlik ifadə edən sözönlərinin analitik ifadə vasitələri müxtəlif nitq hissələrinə aid sözlərdən ibarətdir. Bu sözlər aşağıda qeyd edilən nitq hissələrinə aiddir:

1. Bağlayıcılar.

Müasir ingilis dilində mücərrədlik ifadə edən sözönlərinin bağ-layıcılarla ifadə vasitəsi sırasına bəzi tabelilik bağlayıcıları daxildir.

a) "Güzəşt" mənası ifadə edən "baxmayaraq" tabelilik bağlayıcısı. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *in spite of, despite, for all.* Məsələn,

For all his complaining, I think he actually enjoyed the day – Onun bütün şikayətlərinə baxmayaraq, düşünürəm ki, o, bu günkü gündən həzz aldı.

b) "Şərt" mənası ifadə edən "əgər" tabelilik bağlayıcısı. Bu mənanı ifadə edən yeganə ingilis sözönüsü aşağıdakıdır: *but for.* Məsələn,

But for his injury, the defendant would join the match - Yara olmasa idi, hücumçu oyuna qoşulardı.

2. Qoşmalar.

a) "Səbəb-məqsəd" mənası ifadə edən "görə" qoşması. Bu mənanı ifadə edən ingilis sözönüsü aşağıdakıdır: *because of*

b) "Səbəb-məqsəd" mənası ifadə edən "üçün" qoşması. Bu mənanı ifadə edən ingilis sözönüsü aşağıdakıdır: *for*

c) "Bənzətmə" mənası ifadə edən "kimi" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *like, in manner*

d) "Birgəlik" mənası ifadə edən "ilə" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *with, by*

e) "İstinad" mənası ifadə edən "əsasən" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *with regard to, with (in) reference to, as for.* Məsələn,

It requires learners to provide a word to fill a blank in reference to a given picture. – Bu, tələbələrdən, verilmiş şəkilə əsasən (istinadən) boşluqları bir sözlə doldurmağı tələb edir.

f) "İstisna, fəqrlənmə" mənası ifadə edən "savayı" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *except for, with the exception of, apart from, aside from.*

g) "İstisna, fəqrlənmə" mənası ifadə edən "başqa" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *except for, with the exception of, apart from, aside from.*

h) "Aidlik" mənası ifadə edən "haqqında" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *on, about*

i) "Aidlik" mənası ifadə edən "barəsində" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *on, about*

j) "Aidlik" mənası ifadə edən "dair" qoşması. Bu mənanı ifadə edən ingilis sözönləri aşağıdakılardır: *on, about*

3. Sözlər.

a) "Səbəb" mənası ifadə edən "Səbəbindən, səbəbdən" sözləri vasitəsilə. Bu mənanı ifadə edən əsas ingilis sözönləri aşağıdakılardır: *because of, on account of, from, for*

b) "Ziddiyyət" mənası ifadə edən "Əleyhinə" sözü vasitəsilə. Bu mənanı ifadə edən yeganə ingilis sözönüsü aşağıdakıdır: *against*

Göründüyü kimi, müasir ingilis dilində mövcud olan mücərrədlik anlayışı ifadə edən sözönlərinin Azərabycan dilində qarşılığı kimi həm sin-tetik (əsasən simin hal şəkilçiləri), həm də analitik (əsasən qoşmalar) vasitə-lərdən istifadə edilir. Sintetik vasitələr arasında üstünlüyü Azərbaycan dilində ismin hal şəkilçiləri təşkil etdiyi halda, analitik vasitələr arasında qoşmalar birinci yerdə gəlir. Son olaraq onu qeyd etmək lazımdır ki, mü-cərrədlik ifadə edən ingilis sözönlərinin dilimizdə hər iki qarşılığı praktik və praqmatik olaraq daim istifadədə olan vasitələrdir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə. Müasir Azərbaycan dili. Bakı, Şərq-Qərb nəşriyyatı. 2007, 422 s.
2. Azərbaycan dilinin qrammatikası, I hissə (morfologiya), Azərbaycan SSR EA Nəşriyyatı, Bakı, 1960, 334 s.
3. Hacıyev E.İ. Müasir İngilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətləri. Bakı, Mütərcim nəşriyyatı. 2006, 268 s.
4.Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 2007, 587 s.
5. Бархударов Л.С., Штеллинг Д.А. Грамматика английского языка. Москва, Высшая школа, 1965, 432 с.
6. https://nashol.net/2017022693300/angliiskii-bez-oshibok-arbekova-t-i-1985.html
7. Cobbett W. A Grammar of the English language. Oxford University Press. 1984. p. 179.
8. Jacobs R.A., Rosenbaum P.S. English Transformational Grammar. Waltham, Massachusetts, Toronto. Printed in the USA. 1968. p. 294.
9. Kobrina N.A., Korneyeva E.A., Ossovskaya M.E, etal. An English Grammar-Morphology, Moscow, Просвещение, 1985, 288 p.
10. Nesfield J.C. Outline of English Grammar. London, MAXMILLAN & CO., 1918, p. 239.
11. Quirk R., Greenbaum S., Leech G. A University Grammar of English. Moscow. Высшая школа, 1982. p. 392.
12. Sweet H.A. New English Grammar, Logical and Historical, part I, Oxford, 1892 (photocopies). 225 p.
13.www.english club.com (English prepositions listed. Josef Essberger).

Hasanova N.

LEXICAL-SEMANTIC MEANING OF PREPOSITIONS

Summary

The article deals with the prepositions in English. It also investigates the lexical-semantic meanings of them. The article considers the repositions as one of the functional parts of speech.

Prepositions are words or groups of words used before a noun, a pronoun, or a noun phrase to indicate direction, time, place, and spatial relationships, or to introduce an object. Some examples of them are words like *in, at, on, of* and *to.*

Many prepositions in English are known to be idiomatic. Although there are some rules for usage, the use of many prepositions is expressed in fixed expressions. In these cases, it is better to memorize the phrase instead of the individual prepositions.Some verbs and adjectives are followed by certain prepositions. Sometimes verbs and adjectives are followed by different prepositions and can give different meanings of them.Collins Dictionary defines prepositions as words such as by, for, into, or with. Prepositions usually have a group of nouns as their object.

The Merriam Webster Dictionary gives a slightly different definition for prepositions. According to them, prepositions are “auxiliary parts of speech that combine with a noun to form a new expression and usually express a modification or predication”.

Key words: *preposition, lexical, semantic, meaning, native language, term, auxiliary, main*

Гасанова Н.

ЛЕКСИКО-СЕМАНТИЧЕСКОЕ ЗНАЧЕНИЕ ПРЕДЛОГА

Резюме

В статье рассматриваются предлоги в английском языке. Также исследуются их лексико-семантические значения. В статье рассматриваются репозиции как одна из функциональных частей речи.Предлоги — это слова или группы слов, используемые перед существительным, местоимением или именным словосочетанием для обозначения направления, времени, места и пространственных отношений или для обозначения объекта. Некоторыми примерами из них являются такие слова, как in, at, on, of и to.Известно, что многие предлоги в английском языке являются идиоматическими. Хотя существуют некоторые правила употребления, использование многих предлогов выражается в фиксированных выражениях. В этих случаях лучше запомнить фразу, а не отдельные предлоги.Некоторые глаголы и прилагательные сопровождаются определенными предлогами. Иногда глаголы и прилагательные сопровождаются разными предлогами и могут придавать им разные значения.Словарь Коллинза определяет предлоги как такие слова, как by, for, into или with. Предлоги обычно имеют группу существительных в качестве объекта.Словарь Merriam Webster дает несколько иное определение предлогов. По их мнению, предлоги — это «вспомогательные части речи, которые в сочетании с существительным образуют новое выражение и обычно выражают видоизменение или предикацию».

Ключевые слова: *предлог, лексический, семантический, смысловой, родной язык, термин, вспомогательный, основной*

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Edison İmran oğlu Hacıyev tərəfindən çapa tövsiyə olunmuşdur

URUFOVA ZƏRİDƏ SƏXAVƏT
Lənkəran Dövlət Universiteti
zerideurufova@gmail.com
Ünvan:Lənkəran şəhəri, Əli Məmmədov küçəsi, 40

SÖZ, CÜMLƏ VƏ NİTQ

Açar sözlər: söz, cümlə, mətn, nitq, leksik məna, sözün mənası;
Keywords: word, sentence, text, speech, lexical meaning, word meaning;
Ключевые слова: слово, предложение, текст, речь, лексическое значение, значение слова;

Söz qüdrətli vasitədir. Bu səbəbdən də şagirdlərə sözlə işləmək bacarığını aşılamaq öyrədənlərin qarşısında dayanan əsas vəzifələrdən biridir. Bildiyimiz kimi şagirdlərin sözlə işləmək bacarığı sinifdən-sinfə keçdikcə təkmilləşir. Aşağı siniflərdə daha çox sözün ifadə etdiyi leksik mənanın qavranılması ilə bağlı işlərə daha çox yer ayrılırdısa, yuxarı siniflərə qalxdıqca sözün mətn və ya nitq daxilində qazandığı məna çalarları, qrammatik-üslubi xüsusiyyətləri ilə əlaqədar nisbətən çətin işlər diqqətə alınır. Mətndə mənası şagirdə tanış olmayan söz şagird üçün sirli bir aləmə açardır. *"Sözlər xalqın qədim adət-ənənəsini, inanclarını özündə daşlaşmış şəkildə yaşatmağa qadir sehrli bir gücə malikdir. Onların keçdiyi inkişaf yolunu izləməklə bəzən tarixin dərinliklərində unudulmuş gerçəkliklərə yeni nəfəs vermək mümkündür"* [1, s.40].

Həqiqətən də nitqimizdəki sözlər tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin bugünümüzə qədər gəlib çatmasında xüsusi önəm daşıyır.

Bildiyimiz kimi sözlər cümlə yaradır. Deməli qrammatika sözlərin cümlə daxilində dəyişmə, söz birləşmələri və cümlə şəklində birləşmə qaydalarından bəhs edən dilçiliyin sahəsidir. *"Bunlardan biri – sözlərin cümlədə dəyişməsi, müxtəlif şəkillərə düşməsi qaydaları morfologiyanın, sözlərin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində əlaqələnməsi qaydaları sintaksisin tədqiqat obyektinə daxildir"* [4, s.22].

Söz və onun leksik-semantik xüsusiyyətləri üzərində aparılan işlər Azərbaycan dili təliminin mühüm tərkib hissəsidir. Bu proses ümumi təhsilin digər mərhələləri ilə müqayisədə orta təhsil səviyyəsində, yəni 5-9-cu siniflərdə daha müntəzəm şəkildə həyata keçirilir. Bununla belə, mövcud məktəb təcrübəsinin təhlilindən göründüyü kimi, şagirdlərin sözlə işləmək bacarıqları gözlənilən təlim nəticələrinə cavab vermir. Məlumdur ki, şagird nitqinin əsasını ümumişlək sözlər təşkil edir. Odur ki, təlim zamanı məhz bu tipli sözlərin məna çalarları üzərində dayanmaqla qarşıya qoyulan vəzifələri reallaşdırmaq mümkündür. Sahə terminləri, nitqdə nadir hallarda işlənən bəzi sözlərlə tanışlıq şagirdlər üçün maraqlı görünsə də,

dil dərslərində aparıcı mövqe tutmur. İlk baxışda adi görünən sözlər, onların həqiqi və məcazi məna xüsusiyyətləri üzərində daha ətraflı dayanmaqla şagird nitqinin zənginləşməsinə geniş imkanlar açılır ki, müvafiq siniflərdə onun hansı məzmunda verilməsi bir metodik problem kimi öz həllini gözləyir.

Təlim prosesində 43 dəfə reallaşdırılması nəzərdə tutulan [2, s.35; s.68; s.99; s.126; s.157; s.178] bu alt standartdan gözlənilən təlim nəticələrindən ilk 3-ü əksər şagirdlər üçün yetərli görünsə də, sonuncusu yalnız xüsusi tədqiqatçılıq qabiliyyəti olan bir qisim şagirdə şamil edilə bilər. Digər tərəfdən, V sinif şagirdlərindən bu səviyyədə təlim nəticəsi gözləmək həyati bacarıqlar aşılamağı önə çəkən fənn proqramı (kurikulumu) üçün xarakterik cəhət sayıla bilməz.

"2.1.2. Sözün həqiqi və məcazi mənada işləndiyini müəyyənləşdirir" alt standartı üzrə şagirdin aşağıdakı təlim nəticələrinə yiyələnməsi nəzərdə tutulur:

● *"Kontekstdən çıxış edərək mətndəki sözün həqiqi və məcazi mənada işləndiyini müəyyənləşdirir;*

● *Frazeoloji birləşmə tərkibində sözün məcazi mənada işləndiyini müəyyənləşdirir;*

● *Mətndə rast gəldiyi frazeoloji ifadədəki məcazi mənanı müəyyən edir;*

● *Söz birləşmələrinin həqiqi və məcazi (frazeoloji) mənasını fərqləndirir;*

● *Yaxınmənalı frazeoloji birləşmələri müəyyən edir"* [2, s.12-13].

Son dövrlər Azərbaycan dili dərslərinin daha səmərəli təşkili məqsədilə hazırlanmış müəllim üçün metodik vəsaitdə şagirdlərin sözlə işləmək qabiliyyətlərinin inkişafına xüsusi yer verilir. Məsələn, fənn proqramındakı (kurikulumundakı) müvafiq alt standartlardan hansı təlim nəticələrinin gözlənilməsi ətraflı təsvir olunur. Belə ki, "2.1.1. Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını müəyyənləşdirir" alt standartı üzrə şagirdin aşağıdakı təlim bacarıqlarına yiyələnməsi planlaşdırılır:

● *"Kontekstdən çıxış edərək mənasını müəyyənləşdirdiyi sözün izahını lüğətdə verilmiş izahla müqayisə edir;*

● *Öyrəndiyi yeni sözləri cümlədə işlətməklə mənasının anladığını nümayiş etdirir;*

● *Yaxınmənalı sözlərin məna çalarları arasındakı fərqi izah edir;*

● *Ensiklopedik lüğətlərdən istifadə etməklə müəyyən sahəyə dair söz və terminlərin mənalarını araşdırır"* [2, s.12].

Deməli, sözün öyrənilməsi həm də cümlənin öyrənilməsinə vəsilə olur. Çünki, hər bir cümlə həyat həqiqətinin müəyyən bir cəhətini, əşya və hadisələr haqqında məlumatların müəyyən bir hissəsini ifadə edir. Cümlələrin struktur və semantik xüssusiyyətlərini nəzərə alaraq, Azərbaycan dilinin cümlələrini bir neçə cür təsnif etmək olar. Bizim ənənəvi qrammatikalarda cümlələri ən çox quruluşuna görə təsnif edirlər. Bundan başqa, cümlələri (söyləmləri) funksional əlamətlərinə görə də təsnif etmək olar. Bir çox başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də cümlələr ya adi intonasiya ilə deyilir və heç bir ekspressiv keyfiyyətə malik olmur,

ya da müxtəlif emosional çalarlıqlar ifadə edir və fərqli intonasiya ilə müşayiət edilir. Azərbaycan dilinin cümlələri quruluşca zəngindir. Bu dildə sadə cümlələrin, içərisində feili tərkiblər olan sadə cümlələrin, həmcins üzvlü sadə cümlələrin, mürəkkəb cümlələrin – tabesiz və tabeli mürəkkəb cümlələrin olması sübit edir ki, dilimiz sintaktik quruluş etibarilə dünyanın ən zəngin dillərindən biridir. [6, c. 3 s.7].

Beləliklə, ünsiyyət yaratmaq üçün insanlar müxtəlif məqsədli fikirlər ifadə etməli olurlar, bu və ya digər həyat faktı haqqında məlumat verir, onun haqqında soruşur, yaxud da onu əhatə edən aləmdən aldığı təsirə cavab olaraq öz hiss-həyəcanlarını bildirirlər. Bütün bunlar ünsiyyət zamanı cümlələr vasitəsilə ifadə edilir. Cümlə müəyyən qrammatik quruluşa və intonasiyaya malik olmalı, nisbətən bitmiş bir fikir ifadə etməlidir. Elmi dildə ifadə etsək cümlə dilin özüdür. Ayrılıqda bir məna və fikir ifadə edən cümlələr həm də, mətn daxilində birləşdikdə də bir digər bütün mənanı ifadə edir. Cümləni yaradan isə sözlərdir. Deməli, söz, cümlə və nitq bir biri ilə qırılmaz şəkildə bağlıdır.

Söz və cümlə arasındakı uyğunluğu müəyyən etməyin ən real yolu isə çalışmalardır. Məsələn, VI sinif dərsliyindən götürülmüş aşağıdakı mətn [7, s.98] üzərində iş aparaq:

"Sərkərdə şəhəri doxsan gün mühasirədə saxladı. Əhalinin vəziyyəti gərgin idi. Hamı ümidini Tanrıya bağlamışdı. Kahinlər gecə-gündüz dualar edirdilər.

Bir gün atəşpərəstlərin ağsaçlı kahini dəniz sahilindəki qalanın önünə gəlir.

1 *2*

Ətrafa çökmüş ***daş*** *sükutu yalnız yerin dibindən qalxan odun* ***vahiməli*** *səsi pozurdu. Kahin əlini od qalasının başına sarı uzadaraq ucadan deyir:*

–Düşmən cəzasına çatacaqdır! Siz, ey Hörmüzün övladları, xilas oldunuz!

3

Odların ***saf*** *qüvvəsi və mücadiləsi düşməni məhv edəcək!*

4

Bu zaman hamı gözünü qalaya, onun başından ***yüksələn*** *alova zilləyir.* ■ *Birdən möcüzə baş verir: qaladan yüksələn alov qız şəkli alır. Qız şəfəq kimi işıq saçırmış. Qızı hərdən tüstü bürüyür, o, gözdən itir, sonra yenə peyda olurmuş. Onun odlu gözləri intiqam alovu saçırmış...*

1. Üstündə rəqəm yazılmış hansı söz həqiqi mənada işlənməmişdir?
   1. 3 B) 2 C) 1 D) 4
2. Mətndə işlənilmiş hansı sözün mənası dəqiq izah edilməmişdir?
   A) Kahin – qeybdən xəbər verən ruhani
   B) Mücadilə – razılaşma
   C) Möcüzə – heyrət doğuran qeyri-adi bir hadisə
   D) Atəşpərəst – oda sitayiş edən adam
3. Məcazi mənada işlənilmiş sözü göstərin:
   A) gərgin B) ağsaçlı D) odlu C) intiqam
4. Hansı frazeoloji birləşmədir?

1. dua etmək
2. məhv etmək
3. peyda olmaq
4. gözdən itmək

5. Qarşısında ■ işarəsi qoyulmuş cümlədə neçə omonim söz işlənilmişdir?
   A) 3 B) 2 C) 1 D) işlənməmişdir”

Xülasə

SÖZ, CÜMLƏ VƏ NİTQ

Urufova Zəridə Səxavət

Məqalədə söz və cümlənin mahiyyətindən danışılır. Söz və onun xüsusiyyətləri, həmçinin cümlə üzərində aparılan işlər Azərbaycan dili təliminin mühüm tərkib hissəsidir. Cümlə bitmiş fikir ifadə edir. Cümləni sözlər yaradır. Bir sözdən ibarət cümlələr də olur. Cümlə vasitəsilə bir iş və hadisə haqqında məlumat verilir, bir şey soruşulur, bir işə təhrik edilir. Heç bir söz və ya söz birləşməsi cümlə şəklinə düşmədən bitmiş fikir ifadə edə bilməz. Şagirdlərə söz və cümlə ilə işləmək bacarığı aşılamaq lazımdır. Xüsusilə orta məktəbdə Azərbaycan dili dərslərində bu məqama diqqət etmək lazımdır. Lakin təkcə Azərbaycan dili dərslərində deyil, ümumilikdə şagirdlər üçün mənasını bilmədikləri sözləri öyrənmək maraqlı olur. Cümlələr quruluşca sadə və mürəkkəb olur. Hər bir cümlə müəyyən məqsədlə deyilir. Hər bir cümlənin baş üzvlərdən ibarət qrammatik əsası olur. Sözün öyrənilməsi həm də cümlənin öyrənilməsinə səbəb olur. Söz, cümlə və nitq bir biri ilə qırılmaz şəkildə bağlıdır.

Summary

WORD, SENTENCE AND SPEECH

Urufova Zarida Sakhavet

The article talks about the essence of words and sentences. Work on the word and its features, as well as the sentence, is an important component of Azerbaijani language training. A sentence expresses a complete thought. Sentences form words. There are also one-word sentences. A sentence either informs or asks about an event. It is necessary to teach students the ability to work with words and sentences. It is necessary to pay attention to this point, especially in Azerbaijani language classes in high school. However, not only in Azerbaijani language classes, but in general, it is interesting for students to learn words that they do not know the meaning of. Sentences are simple and complex in structure. Each sentence is spoken with a specific purpose. A sentence has a grammatical basis consisting of main members. Learning the word also leads to learning the sentence. Word, sentence and speech are inextricably linked.

Резюме

СЛОВО, ПРЕДЛОЖЕНИЕ И РЕЧЬ

Уруфова Зарида Сахават гызы

В статье говорится о сущности слов и предложений. Работа над словом и его признаками, а также над предложением является важной составляющей обучения азербайджанскому языку. Предложение выражает законченную мысль. Предложения образуют слова. Есть и предложения из одного слова. Предложение либо сообщает, либо спрашивает о событии. Необходимо научить учащихся умению работать со словами и предложениями. На этот момент необходимо обратить внимание, особенно на уроках азербайджанского языка в средней школе. Однако не только на уроках азербайджанского языка, но и в целом учащимся интересно учить слова, значения которых они не знают. Предложения бывают простыми и сложными по структуре. Каждое предложение произносится с определенной целью. Предложение имеет грамматическую основу, состоящую из главных членов. Изучение слова также приводит к изучению предложения. Слово, предложение и речь неразрывно связаны.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Hacıyev, A. Azərbaycan dili təlimində sözə həssas münasibətin aşılanması məsələləri // – Bakı: Kurikulum, – 2012. № 2, – s.35-40.
2. İsmayılov, R. Azərbaycan dili (5-ci sinif): Müəllim üçün metodik vəsait / R.İsmayılov, A.Rüstəmova, D.Cəfərova. – Bakı: Altun Kitab, – 2012. – 200 s.
3. İsmayılov, R. Azərbaycan dili (6-cı sinif): Müəllim üçün metodik vəsait / R.İsmayılov, A.Rüstəmova, D.Cəfərova. – Bakı: Altun Kitab, – 2013. – 176 s.
4. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya / Q.Ş.Kazımov. – Bakı: Elm və təhsil, – 2010. – 400 s.
5. Müasir Azərbaycan dili: [3 cilddə] / məs.red.Z.İ.Budaqova, red. A.Q.Ələkbərova, c.1. – Bakı: Elm, – 1978. –322 s;
6. Müasir Azərbaycan dili: [4 cilddə] / məs.red.Ə.Abdullayev, red. Y.Seyidov, c.1. – Bakı: Şərq-qərb, – 2007. –422 s;
7. İsmayılov, R. Azərbaycan dili: 7-ci sinif üçün dərslik / R.İsmayılov, X.Qasımova, F.Eyvazov. – Bakı: Altun Kitab, – 2006. – 128 s.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Dos. İlahə Seyfullayev
tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU DADAŞOVA
AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq
İnstitutu Türk filologiyası şöbəsi, kiçik elmi işçi
d.arzu@bk.ru

TÜRK TARİXİ ROMANININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİ

Xülasə

Tarixi romanlar roman janrının ən çox oxunan və mübahisəli janrlarından biridir. Adından da göründüyü kimi, tarixi roman həm ədəbiyyatdan, həm də tarixdən bəhs edir. Tarixi romanlar XIX əsrin əvvəllərində romantik ədəbi cərəyanın təsiri ilə İngiltərədən bütün dünyaya yayılmış, əsrin sonunda isə türk ədəbiyyatında yazılmağa başlamışdır. Əsrin əvvəllərində Osmanlı dövlətinin süqut təhlükəsi ilə qarşı-qarşıya olması dövrün ziyalılarını hərəkətə keçirir. Onlar xalqın parlaq keçmişini, qələbə dolu günlərini xatırlayaraq insanları ruhlandırmaq istəyirdilər. Türk tarixi romanının macərası N.Kamalın Tənzimat dövründə qələmə aldığı "Cəzmi" romanı ilə başlayıb, XX əsrdə müxtəlif istiqamətlərdə inkişaf etmişdir.

Tədqiqatda türk ədəbiyyatında tarixi romanın yaranmasına səbəb olan amillər və romanın tarixi kökləri, daha sonra janrın XIX əsrin sonlarından XX əsrin sonlarına qədərki inkişaf mərhələləri araşdırılmış və işə qısa nəticə ilə yekun vurulmuşdur.

Açar sözlər: türk ədəbiyyat, tarixi roman, Osmanlı, dövr.

Giriş

XVII əsrdən başlayaraq Osmanlı imperatorluğu daxili və xarici sarsıntılarla qarşılaşmış, bu da dövlətin zəifləməsinə gətirib çıxarmışdır. Osmanlı kimi üç əsr hökm sürmüş qüdrətli bir dövlət XIX əsrdən dağılma və parçalanma mərhələsinə qədəm qoymuşdur. Osmanlı dövlətini dərindən sarsan hadisələr arasında Fransız inqilabı, sənaye inqilabı mühüm yer tutur. XVII əsrə qədər elm və texnikanın inkişafına görə ön sıralarda olan Osmanlı əsrin sonlarına doğru artıq geriləməyə başlayır. Bu geriləmənin qarşısının alınması üçün ölkədə müəyyən dəyişikliklərin edilməsi labüd idi. XIX əsərdə verilən Tənzimat fərmanı, İslahat fərmanı və I Məşrutiyyətin elanı ilk konstitutsiyanın (Kanun-i Esasi) qəbul edilməsi ilə böyük islahatlar həyata keçirilməyə başlandı.Bu fərmana əsasən ölkədə siyasi, ictimai sosial sahədə bir sıra yeni qərarlar qəbul edildi.

Osmanlı dövlətini qorumaq məqsədi ilə keçirilən islahatlar heç bir nəticə verməmişdir. Tənzimat fərmanı qərbin üstünlüyünü qəbul edən fərman olmuşdur. Ziyalılar qərbin elm və texnikada inkişafını qəbul etsələr də, Osmanlının milli dəyərlərindən vaz keçmək istəmirdilər.

Ölkədə siyasi, iqtisadi, sosial, ədəbi mühitində baş verən yeniliklər ədəbiyyata da təsir etmişdir. Bu dövr ədəbiyyatda tarixə yönəlmə açıq-aşkar özünü biruzə verir. Fransız inqilabından sonra bütün dünyaya yayılan millət və milliyətçilik

anlayışı Osmanlıdan da yan keçmədi. Orta əsrlərdəki milliyətçilik anlayışından tam fərqlənən yeni milliyətçilik anlayışı keşmişə yönəlmə və onun araşdırılmasını vacib etmişdir. XIX əsrin ortalarından etibarən milli kimliyini tapmağa cəhd edən Osmanlı öz tarixini yeni bir yanaşma ilə yazmağa çalışır. Ölkədə cərəyan edən daxili və xarici qarışıqlıq vaxtı yazıçılar keçmişin qələbə dolu günlərini yada salırlar. Belə bir şəraitdə tarixi romanlar köməyə çatır.

Məlumdur ki, tarix boyu millətlər dara düşdüklərində tarixin dərinliklərinə sığınmış, ondan ilham almışlar. XIX əsrin ikinci yarısından etibarən Osmanlının ictimai, siyasi, sosial vəziyyəti heç də ürək açan deyildi. Aparılan bütün islahatlara baxmayaraq ölkənin əvvəlki qüdrətini bərpa etmək mümkün olmurdu. Buna görə də ziyalılar həm öz keçmişlərini öyrənmək, həm də keçmişdə var olmuş qəhrəmanların qəhrəmanlıqlarını xalqa təqdim etməklə onlarda ruh yüksəkliyi yaratmağa çalışmışlar. Bu baxımdan dövrün məşhur ziyalılarından olan N.Kamalın şeirlərində, dram əsərlərində, məqalələrində sonra isə "Cezmi" romanında göstərdiyi insan modeli əhəmiyyətli başlanğıc hesab olunur.

Türk ədəbiyyatında XIX əsrə qədər tarixi romanların yerini şifahi xalq ədəbiyyatı nümunələri tuturdu. Dini xarakterli əfsanələr, milli dəyərləri əks etdirən dastanlar, xalq hekayələri, əfsanələr kimi şifahi xalq ədəbiyyatı nümunələri o dövr insanlarının tarix şüurunu formalaşdıran ilk nümunələr olmuşdur. Türk tarixində qövm dövründə dastanlar, ümmət dövründə isə qazavatnamələr yazılmışdır.

F. Köprülünün fikrincə dastan, qazavatnamə, cenknamə kimi ədəbiyyat nümunələri millət dövründə yaranmış tarixi romanların klassik nümunələridir. (3,s. 61) Bu qəhrəmanlıq hekayələri və dastanlar bir növ tarixi romana qaynaqlıq etmişdir. Bu əsərlərin yerini günümüzdə tarixi romanlar tutmuşdur. Tarixlə ədəbiyyatın vəhdətindən yaranan tarixi romanlar milli kimliyin formalaşmasında mühüm rol oynamışdır. Tarixi romanlar hər hansı bir dövrün tarixi hadisələrini millətin adət-ənənələrini,əxlaqını əks etdirən əsərlərdir.

Türk tarixi romanın təşəkkül tarixi

XIX əsrə qədər tarixi romanı dini əfsanələr, milli dəyərlərin daşıyıcısı olan dastanlar, xalq hekayələri və s kimi nümunələr əvəz etmişdir. Dövr, zaman dəyişdikcə yavaş-yavaş şifahi ədəbiyyat nümunələri yerini yazılı ədəbiyyat nümunələrinə verməyə başlamışdır. Türk ədəbiyyatında romandan fərqli olaraq tarixi romanın doğuşu Avropa ilə eyni əsrə təsadüf edir. Qərb ədəbiyyatında tarixi roman XIX əsrin əvvəllərində (V.Skotun 1814-cü ildə yazdığı "Ueverli" romanı) türk ədəbiyyatında isə əsrin sonunda yazılmışdır. Tarixi romanın yaranmasının bu dövrə təsadüf etməsi siyasi-ictimai proseslərin nəticəsi idi. Tarixi romanın yaranmasına təsir edən amillər arasında Fransız inqilabı və Romantizm ədəbi cərəyanı yer alır. Bildiyimiz kimi Osmanlının artıq dağılma mərhələsində olması dövrün ziyalılarını tarixə yönəlməyə, tarixin parlaq səhifələrindəki qələbə dolu günləri xatırlatmağa vadar edirdi. Bu işdə də tarixi romanlar köməyimizə yetir.

Türk ədəbiyyatında XIX əsrin ikinci yarısından sonra yazıçıların çoxu tarixi əsərlər yazmağa başlanmışlar. N. Kamaldan başlayaraq, Ziya Paşa, Ə.M.Əfəndi kimi dövrün məşhur ziyalıları tarixlə yaxından maraqlanmışlar.

Roman janrında olduğu kimi ilk tarixi romanlar da, qərb ədəbiyyatından edilən tərcümələrə əsaslanır. A.Dümanın "Qraf Monte Kristo", "Üç muşketyor", "Şahzadənin boyunbağı", X.Montepin "Fakirler Tabibi" əsərləri 1900-cı ilə qədər türk dilinə tərcümə edilən tarixi romanlardır. Türk ədəbiyyatında tarixi romanların ilk olaraq tərcümələr vasitəsilə tanışlığının səbəbini XIX əsrə qədər qərb üslubunda romanın yazılmaması, sosial-siyasi quruluşun fərqli olması, elmi və texnoloji inkişafın dəyişkənliyi ilə izah etmək olar.

Tənzimat dövrü türk ədəbiyyatında yeni yaranmağa başlayan roman janrının ən maraqlı nümunələri Ə.M.Əfəndi və N.Kamala məxsusdur. Onlar türk ədəbiyatında eyni zamanda tarixi roman janrının da yaradıcıları hesab olunurlar. Hər iki yazıçının fikrincə roman əyləndirərək öyrətmək, xoş vaxt keçirərkən sosial, mədəni və əxlaqi dərslər vermək üçün yazılmalıdır. Yaşadıqları dövrdə realizm cərəyanının hakim olmasına baxmayaraq Ə.Midhət və N.Kamal artıq Avropada əvvəlki təsirini itirmiş romantizm cərəyanını izləmişlər. Ə.Mithat türk ədəbiyyatında "populer roman" ədəbi janrın, N.Kamal isə ədəbi romanın yaradıcılarından olmuşlar. Roman texnikası, dil və üslub xüsusiyyətlərinə gəldikdə isə bu iki yazıçı iki fərqli yol izləmişlər. A.Midhət geniş xalq kütləsini - oxuyub yazmağı yeni öyrənən, ədəbi mədəni cəhətdən zəif olan, sadə xalq kütləsini özünə oxucu olaraq seçmişdir. Buna görə də tez başa düşülən, oxucunu yormayan, sadə dil və üslubla əyləndirici, sıxıcı olmayan romanlar yazmışdır. Ə.Mithatdan fərqli olaraq N.Kamal cəmiyyətin elmi-mədəni səviyyəsi yüksək olan savadlı, bilikli kütləsini hədəf alaraq, ədəbi-estetik cəhətdən, dil və üslub xüsusiyyətlərinə görə daha bədii əsərlər qələmə almışdır.

Türk ədəbiyyatında ilk tarixi roman nümunəsi Ə.Midhətin 1871-ci ildə yazdığı "Yeniçeriler" əsəri göstərilsə də, əsər tarixi roman texnikasına cavab vermədiyinə görə, Türk ədəbiyyatında tarixi roman janrının texnikasına uyğun olaraq yazılmış ilk tarixi roman N.Kamalın 1880-ci ildə yazdığı "Cezmi" əsəri hesab olunur.

İlk tarixi roman (deneme) cəhdlərindən olan "Yeniçeriler" "Letaif-i Rivayet"in 1872-ci ildə çap olunmuş hissələrindən biridir. Böyük hekayə kiçik roman olaraq qiymətləndirilən əsərdə tarix cərəyan edən hadisələrin fonunda əks olunduğu üçün əsər daha çox macəra xarakterli roman olaraq qiymətləndirilir. H.Argünşahın da qeyd etdiyi kimi "türk oxucusu bu əsərlə tarixi hadisələrin də əks olunduğu ilk müasir hekayə ilə tanış olur" (1, s. 227)

Ə.Midhət əsərdə bəhs edəcəyi hekayəyə tarixdən uyğun zaman dilimini seçərək tarixi hadisələrin fonunda təsvir etmişdir. Burada tarixi dövrdən çox bir ailənin başına gələn faciədən bəhs olunur. Romanda ilk görüşdə eşq, qeyri-adi təsadüflər, atılmış uşaqların valideynləri ilə qarşılaşması kimi vacib məsələlər önə sürülmüşdür. Göründüyü kimi əsər tarixi roman normalarına cavab vermir. Sadəcə yazıçı hadisələr fonuna tarixi hadisəni montaj edərək macəra romanı yazmışdır.

Türk ədəbiyyatının ilk tarixi romanı olan "Cezmi" XVI əsr Osmanlı-Krım-İran tarixindən bəhs edir. İslam birliyi ideyasının təbliğ olunduğu əsər yazıçının tarixlə maraqlandığı bir dövrdə romantik tərzdə qələmə alınmışdır. Namık Kamalın Midillidə yazdığı "Cezmi" romanı iki cildlik planlaşdırılsa da əsər yarım qalmışdır. Əsərin yarım qalması ilə bağlı ədəbiyyatçıların müxtəlif fikirləri vardır. Bu fikirlərdən birinə görə N.Kamalın A.Hamidə yazdığı məktubunda "Cezmi"ni könüllü yazmadığı üçün tamamlayacağını söyləməsidir. M.Kaplan isə düşünür ki, bundan sonrakı dövr Osmanlı üçün uğursuz olduğundan yazıçı əsəri burda sonlandırır. Çünki N.Kamal tarixin çətin dövrlərini yazmağı sevmirdi, o tarixin qəhrəmalıq dövrlərinin heyranı idi. (2, s. 276)

Hülya Argunşahın düşüncəsinə görə isə əsərin nəşrindən sonra yazıçının yenidən əsərə qayıtmasına səbəb onun ömrünün yetməməsi olmuşdur. (1, s. 241) "Cezmi"ni tamamladıqdan sonra eyni illərdə "Celaleddin Harezmşah" piyesi üzərində yenidən işləyərək "Mükaddime-i Celal"in yazılışına başlayır. Bu müddətdə həm də sətəlcəm olan yazıçı Rodosa göndərildiyində Osmanlı tarixini yazmağa başlayır. Bir yandan xəstəliklə mübarizəsi, bir yandan da "Osmanlı Tarixi"ni yazması ona yenidən "Cezmi" əsərinə qayıtmağa imkan verməmişdir. Əsər parçalanmaqda olan bir imperiyanın şanlı keçmişindən təsirlənərək o dövrün qəhrəmanlıqlarının canlandırılması ilə oxucunu həyəcanlandırmaq məqsədi ilə yazılmışdır. Təsadüfü deyil ki, yazıçı əsərin əvvəlində Sultan Süleyman dövrünü təsvir etməklə imperiyanın ehtişamını göstərməyə çalışmışdır.

N.Kamal illərlə Osmanlı ilə müharibə edən İrana qarşı Osmanlı-Krım qardaşlığına toxunaraq onların birlik-bərabərliyini göstərmək istəyir. Yazıçı eyni zamanda eşq, intriqa, tarixi və xəyali reallıqla süjeti daha da dərinləşdirir.

Hürriyət şairi olan N.Kamal əsərlərində milli şüurun fərqinə varan vətənsevər, cəsur, ideal insan tipini önə çıxarmaq istəmişdir. Bütün müsbət keyfiyyətlərlə təsvir etdiyi qəhrəmanlara qarşı mənfi obrazlar yaradaraq , yaxşıların çox yaxşı, pislərin isə çox pis olduğu bir dünya yaratmış olur. Oxucusunu da məsbt obrazlara yönləndirir. Əsərdə Şəhriyar və Həmzənin simasında şəhvət düşkünü, azğınlıq, sədaqətsizlik təsvir olunarkən, Adil Giray və Cezminin simasında vətənpərvərlik, dürüstlük, igidlik, qorxmazlıq təsvir olunur. Türk-İslam idealının əks olunduğu romanda yazıçı tarixin şanlı səhifələrinə səyahət edərək, qələbə dolu günlərlə oxucusunu müharibənin məğlub olma psixologiyasından qurtarmağa çalışmışdır.

XX əsrdə tarixi romanın inkişaf mərhələləri

Türk ədəbiyyatının ilk tarixi romanı "Cezmi"dən sonra Tənzimat dövründə yazılan tarixi romanlar arasında İbnülemin Mahmud Kemâl İnalın "Sabih" (1899), Şahbenderzâde Ahmet Hilmi Beyin "Öksüz Turgut" (1910), Fazlı Necipin "Dehşetler İçinde" I, II, III (1910) ve Mehmet Hamdinin "Define" (1911) adlı əsərləri də yer alır. "Sabih" romanı istər hadisələrin quruluşu, qəhrəmanların xarakterləri, istərsə də üslub baxımından N.Kamalın "Cezmi" romanının təsiri ilə

yazılmış, yeri və zamanı dəyişdirilmiş "Cezmi" təqlididir. Demək olar ki, N.Kamalın "Cezmi" romanından sonra Türk ədəbiyyatında Cümhuriyyətə qədərki dövrdə ciddi mənada tarixi roman nümunəsi yaranmamışdır. Bu dövrdə tarixi romandan çox tarixi mövzulu pyeslər qələmə alınmışdır.

Tənzimat dövründə yazıçıların və oxucuların tarixə olan marağının Sərvət-i Fünun dövründə azaldığını müşahidə etmək mümkündür. Tənzimat və Sərvət-i Fünün dövrü romanları mövzu baxımından bir-birindən fərqlənmişlər. Siyasi fəaliyyətləri ilə seçilən Tənzimat yazıçıları ədəbiyyatda ictimai problemlərini canlandırmağa, ölkənin dərdinə çarə tapmağa çalışmışlar. Edebiyyat-ı Cedideciler isə bədbinliklə həyata küsmüş, siyasətdən üz döndərmiş, cəmiyyətdən, onun problemlərindən uzaq düşmüş insanlar olmuşlar. Öz ətrafını bəyənməyib qərb həyatı və qərb ədəbiyyatına heyran olan bu yazıçılar təsəllini qərb ədəbiyyatında axtarmışlar. Sərvət-i Fünun dövründə tarixi romana olan marağın azalma səbəbi sosial, siyasi mühit və Əbdülhəmid rejiminin təsiri ilə yazıçıların fərdi mövzulara yönəlməsi idi. Dr. Bilge Ercilasunun da qeyd etdiyi kimi bu dövr Sərvət-i Fünun yazıçıları qərbin təsiri ilə yeni üslub, ədəbi növ və estetik qayə axtarışında olmuşlar. (4, s. 13) Bu səbəbdən də demək olar ki, Sərvət-i Fünun dövründə tarixi roman yazılmamışdır.

Bunun əksinə olaraq milli dil və ədəbiyyat yaratmağa çalışan Milli ədəbiyyat dövrü yazıçıları tarixə böyük maraq göstərmiş, tarixi romanlar yazmağa başlamışlar. Bu dövrdə tarixi romandan çox tarixi hekayələrin önə çıxdığının şahidi oluruq. Burada Z.Gökalpın türk tarixi ilə bağlı fəaliyyətlərinin rolu böyükdür. Bu dövrdə A.H.Müftüoğlu ilə Ö.Seyfəttinin tarixi mövzulu hekayələri o dövrdə böyük maraqla qarşılanmışdır.

Qərb dövlətlərinin müdaxiləsi ilə Osmanlı imperiyasını parçalamağa yönəlmiş fəaliyyətlər milli azlıqların milliyətçilik hərəkatları, Balkan və Liviya (Trablus) müharibələri yenidən türk yazıçılarının diqqətini cəlb etmişdir. Elə bu səbəbdən dolayı yazıçılar şüurlu şəkildə xüsusilə də, Osmanlı İmperiyasından əvvəlki türk tarixinə müraciət etməklə türk tarixinin qızıl dövrlərindən bəhs edərək türk şüurunu formalaşdırmağa, türkçülük düşüncəsini canlandırmağa, türk mədəniyyətinin tarixi köklərini göstərməyə çalışmışlar. Milli ədəbiyyat dövründə yazılmış tarixi romanlarda islamdan əvvəlki türk tarixi öz əksini tapmışdır. Bu romanlara N.Atsızın "Bozkurtların Ölümü", "Bozkurtlar diriliyor", "Deli Kurt", İskender Fahrettin Sertellinin "Sümer Kızı", "Asyada bir güneş doğuyor", "Tanrının Oğlu", Müfide Ferit Tekin "Aydemir" A.Kozanoğlunun "Atlı Han", "Gültekin", "Kolsuz Kahraman" və s. misal göstərmək olar.

Cümhuriyyətin qurulmasından sonra isə tarixi roman janrında sanki bir canlanma müşahidə olunmuş, tarixi romana olan maraq əvvəlki dövrlərlə müqayisədə xeyli artmışdır. Tarixi roman janrı sürətlə inkişaf etmiş və bu sahədə çox sayda əsərlər qələmə alınmışdır.

Cümhuriyyətin yaranması ilə başlayan tarixi romanın üçüncü dövrü olaraq qiymətləndirilən 1923-50-ci illər ən çox roman yazılan dövr olaraq qiymətləndirilir. Təkcə A.Kozanoğlu 1923-cü ildən sonra 21 tarixi roman qələmə almışdır. Milli şüurun oyanması milli ədəbiyyata da öz təsirini göstərmişdir. Bu dövr həm də ərəb əlifbasının türk əlifbasıyla əvəzlənməsi ilə yaddaşlarda iz buraxmışdır. Dolayısıyla yeni əlifbanın tətbiqi də nəşr olunan kitab sayının artımına müsbət təsir göstərmiş olur.

1930-40-cı illərdə tarixi romanların sayında iki dəfə artış müşahidə olunmuşdur. Cümhuriyyətin ilk illərində Osmanlı tarixinə olan marağın azalması 30-cu illərdən yenidən artmışdır. 1940-50-ci illərdə isə 32 tarixi romanın nəşr edildiyi təsbit edilmişdir. Ümumilikdə götürsək 1927-ci ildən 1950-ci ilə qədərki dövrdə bu romanların sayı 60-a yaxınlaşmışdır. Cümhuriyyət dövründə nəşr olunan romanlar arasında A.Z.Kozanoğlunun "Kızıl Tuğ, Atlı Han, Türk Korsanları, Seydi Ali Reis ve Gültekin"i, N.Nazifin "Kara Davut"u, T.Tanın "Cehennemden Selam", "Timurlenk" V.Nurettinin "Baltacı ile Katerinası", F.Necipin "Dehşetler İçinde" və s. kitablar yer alır. Bu romanlar "tarixi roman tarix deyil" prinsipindən çıxış edərək yazılan yazıçı təxəyyülünə əsaslanan, tarixi macəra tərzində yazılmış populyar tarixi romanlardır. 1930-70-ci illərdə yazılmış, maraqlı hekayə və bəsit quruluşlu bu romanlar bütün yaş qrupu oxucularının diqqətini cəlb etməyi bacarmışdır. Qəzetlərdə hissə-hissə nəşr olunan bu əsərlər populyar tarixi romanın genişlənməsinə xidmət etmişdir. Türk tarixinin ən vacib dövrlərinin əks olunduğu, türk tarixinin ucaldıldığı bu romanlarda tənqidi yanaşma mövcud deyil. Sadə dillə yazılmış, cəlbedici, maraqlı hekayələri olan populyar tarixi romanlar bədii-estetik cəhətdən zəif əsərlər olaraq qiymətləndirilirlər. Cəlbedici hekayəyə malik bu əsərlər yazıldıqları dövrdə oxucular tərəfindən böyük maraqla oxunsalar da qısa zaman sonra unudulmuş, önəmini itirmişdir.

Türk ədəbiyyatında 1960-cı illərə qədər daha çox bədii-estetik cəhətdən zəif olan, macəra xarakterli populyar üslubda romanlar yazılmışdır. 1960-cı illərdən sonra tarixi roman janrında müəyyən yeniliklər baş vermişdir. Populyar üslubda yazılmış tarixi romanlarla yanaşı modernist üslubda romanlar yazılmağa başlayır. Bu dövrdə "Devlet Ana" kimi yeni tərzdə yazılmış romanlar tarixi romanın seyrini yavaş-yavaş dəyişdirmiş olur. Bədii estetik dillə qələmə alınmış, modern üslubda yazılmış bu tip romanlarda məzmun dərinliyi yazıçıların əsas hədəflərindən biri idi. Yazıçılar real tarixi materiallar əsasında yazdıqları proseslərə öz ideologiyalarından çıxış edərək tarixə özünəməxsus münasibət bildirmişlər.

K.Tahir "Devlet Ana" romanı ilə ədəbiyyat tarixində tarixi romana yeni bir tərz, gətirmiş olur. Yazıçı Milli ədəbiyyat və Cümhuriyyət dövründə yazılmış romanlarda olduğu kimi yalnız tarixi qaynaqlara əsaslanaraq yazılan əsərlər yerinə, müəllifin tarixi mövzuda prespektiv və şərhlərini əks etdirən əsərlər yazmağa başlayır. K.Tahirin "Devlet Ana" romanı tarixi romanın seyrini dəyişərək janra yeni forma qazandırmış olur. Burada tarix fantaziya (uydurma) olaraq deyil, real tarixi

faktlar və qaynaqlarla birləşdirilərək oxuyucuya təqdim olunur. K.Tahir tarixi roman janrında yeni bir dövrün başlanmasına səbəb olan yazıçıdır.

1960-80-ci illərdə yazılmış romanlarda II Dünya müharibəsi, Koreya müharibəsi, 27 may, 12 mart, 12 sentyabr çevrilişləri kimi mövzular üstünlük təşkil edir. Əsərlərin bədii estetikası üçün də narahatlıq keçirən dövr yazıçıları əsərlərini modernist ifadə tərzi və texnikasına uyğun olaraq qələmə almışlar. Bu tip romanlara aşağıdakıları misal göstərə bilərik: "Bir Düğün Gecesi", "Küçük Ağa", "Firavun İmanı", "Osmancık" , "Hilâl Görününce", "Ak Topraklar", "Cumhuriyet Türküsü", "Kurtlar Sofrası", "Üçler-Yediler-Kırklar", "Bu Atlı Geçide Gider", "Esir Şehrin İnsanları", "Esir Şehrin Mahpusu", "Yorgun Savaşçı", "Kurt Kanunu" və s.

1980-ci illərə qədər tarixi roman yazıçıları öz vərdişlərinə istək və düşüncələrinə əsasən mövzu seçib, müəyyənləşdirdikləri tarixi dövrə yönələrək, o dövrün insanlarını, hadisələrini əks etdirmişlər. Bu yazıçılar populyar ifadə tərzi ilə yanaşı, həm də modernist üslubda əsərlər yazmışlar. 1980-ci illərə qədər türk tarixi romanları ifadə tərzinə görə yenilənsələr də tarixə yanaşma və realist ifadə formasından uzaqlaşmamışlar.

1980-ci ildən sonra dünya ədəbiyyatında olduğu kimi türk ədəbiyyatında da tarixi roman yeni mərhələyə qədəm qoyur. H.V.Geppert V.Skotun əsasını qoyduğu klassik tarixi roman ənənələrinə alternativ olaraq "Diger tarihsel roman" aspektindən çıxış edərək yeni bir roman tərzi ortaya qoyur. Ənənəvi tarixi romandan fərqli olaraq yeni yaranmış roman yazıçıya öz fikir və fantaziyalarını daha çox istifadə etmək imkanı verirdi. 1980-ci illərə qədər türk ədəbiyyatında yazıçıların populyar və modern üslubda tarix romanlar yazdığının şahidi oluruq. 1980-ci illərdən sonra artıq dünya ədəbiyyatında olduğu kimi, türk ədəbiyyatında da tarixi romanların sıralarına postmodern romanlar əlavə olunmağa başlandı.

1980-ci ildən sonra postmodern üslubda yazan yazıçılara Adalet Ağaoğlu (Romantik Bir Viyana Yazı 1993), Mustafa Altunay (Gabel), İhsan Oktay Anar (Puslu Kıtalar Atlası 1995, Kitabül Hiyel 1996, Efrâsiyâb'ın Hikâyeleri 1998), Nedim Gürsel (Boğazkesen 1995, Resimli Dünya 2000), Selim İleri (Cemil Şevket Bey Aynalı Dolaba İki El Revolver 1997), Ayla Kutlu (Kadın Destanı 1994, Emir Bey ve Kızları 1998), Zülfü Livaneli (Engereğin Gözündeki Kamaşma 1996), Elif Şafak (Pinhan 1997, Mahrem 2000, Araf 2004) və s misal göstərmək olar

Postmodernistlərə görə tarixi mətnlər elmi reallığı əks etdirməkdən daha çox keçmişin şərhi, keçmişin təhlili olaraq qəbul edilməlidir. Bu romanlar yazılma texnikasına görə 1980-ci illərdən əvvəl yazılmış tarixi romanlardan fərqlənir. Mövzu olaraq tarixdən bəhs etsələr də, süjet və hadisələrin inkişafı daha qarışıqdır. Bu tip romanlarda yazıçının təxəyyülü və şərhinə daha çox yer verilir. Postmodern romanlarda tənqidi yanaşma əsas götürülür.

Mövzuların getdikcə müxtəlif və qarmaqarışıq hal alması, hadisədən hadisəyə keçməsi romanların qəlizləşməsinə səbəb olur. Postmodernistlərə görə oxucuya tarixi şüur aşılamaq deyil, oxucunu fərqli yönlərdən düşündürmək əsasdır.

Nəticə

Türk ədəbiyyatının ən çox mübahisə doğuran janrlarından olan tarixi romanların kökü dastanlara qədər uzanır. XIX əsrə qədər tarixi romanlar yerinə şifahi ədəbiyyat nümunələri olan dastanlar, xalq hekayələri, qazavatnamələr, saltuknamələr və s. yazılmışdır. Tarixi romanların xalqların həyatına təsiri də böyük olmuşdur. Milli şüur və təfəkkürün formalaşması və inkişafında tarixi romanların rolu danılmazdır. Janrın ilk nümunələri XIX əsrin sonunda yazılmış, Cümhuriyyətin qurulmasından sonra janra maraq daha da artmış, yazılan əsərlərin sayı ildən-ilə çoxalmışdır. Türk ədəbiyyatında populyar, modernist və postmodern tərzdə tarixi romanlar qələmə alınmışdır. Yazılan tarixi romanlar mövzu baxımından da qruplaşdırıldığında görünür ki, Türkiyə tarixinin bütün siyasi dövrləri romanlarda öz əksini tapmışdır.

Cümhuriyyətdən sonrakı illəri 10 illik dövr olaraq xarakteristika etsək 1930-1940-cı illərdə əvvəlki dövrlərə nisbətən tarixi roman sayında artım müşahidə olunur. Yazılan əsərlər qədim türk tarixi və Osmanlı tarixindən bəhs edir. 1940-1950-ci illərdə isə əvvəlkinin əksinə roman sayında azalma müşahidə olunur. Roman sayının azalmasını II Dünya Müharibəsi və Türkiyənin bu müharibədəki yeri ilə əlaqələndirə bilərik. 1950-1960-cı illər də əvvəlki dövrdən geri qalmır. Hər ildə təxminən iki, üç roman qələmə alınmışdır. Bu dövrə qədər yazılan romanlar ədəbi dəyəri zəif olan, əyləncə xatirinə yazılmış populyar üslublu əsərlərdən ibarətdir. 1960-cı ildən ölkənin siyasi həyatında baş verən dəyişikliklərdən və çoxpartiyalı rejimə keçiddən dolayı tarixi roman sayında yenidən artım müşahidə olunur. Hətta H.Argünşahın qeyd etdiyinə görə 1964-cü il Cümhuriyyət tarixində ən çox roman nəşr olunan il olmuşdur. (1, s. 397) Həm də, 1960-cı illərdən sonra türk ədəbiyyatında populyar tarixi romanlarla yanaşı, modernist tarixi romanlar da qələmə alınmışdır. 1970-ci illərdə əvvəlki dövrlə müqayisədə roman sayında azalma müşahidə olunur. XX əsrin 60-80-ci illərində daha çox modernist üslubda,1980-ci ildən sonra isə postmodern üslubda yazılmış tarixi romanlar üstünlük təşkil edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Argunşah Hülya, Tarih ve Roman, İstanbul ,2016, Kesit yayınları
2. Dağ Necla, Tarihî Roman olarak Ahmet Mithat Efendi'nin Süleyman Musli ile Namık Kemal'in Cezmi Eserlerinin Karşılaştırılması, III. Milletlerarası Tarihî Roman ve Romanda Tarih Bilgi Şöleni, Konya, 27-29 Kasım 2015
3. Erol Kemal, Tarih ve edebiyat ilişkisi ve tarihi romanların tarih öğretimine katkısı, 2012, Dil ve Edebiyat Eğitimi dergisi, ayı 2, cilt 1,
4. Ünal A. Henry James ve Roman sanatı. Ankara: D.T.C.F.Yay. 1977.

Дадашова Арзу

ТЕОРЕТИЧЕСКИЙ ВЗГЛЯД НА РАЗВИТИЕ ТУРЕЦКОГО ИСТОРИЧЕСКОГО РОМАНА

Резюме

Исторические романы являются одним из самых читаемых и противоречивых жанров романного жанра. Как следует из названия, исторический роман связан как с литературой, так и с историей. История предупреждает людей о взлетах и падениях социальной, экономической, политической и культурной жизни прошлых наций, народов и обществ. История — неисчерпаемый источник литературного материала. Исторические романы в начале 19 века под влиянием романтического литературного движения распространился из Англии в остальной мир, а в конце века начал проявляться в турецкой литературе. В начале века, когда Османскому государству грозил крах, интеллектуалы того времени решили предотвратить это. Они хотели вдохновить людей, вспомнив их светлое прошлое и дни, полные побед. Путь турецкого исторического романа начался с романа «Джезми», написанного Н.Камалом в период Танзимата, и прошел свой путь развития в XX веке.

В исследовании рассматриваются факторы, которые привели к появлению исторического романа в турецкой литературе, и исторические корни романа, затем исследуется история развития жанра с конца девятнадцатого до конца двадцатого века и завершается кратким обзором.

Ключевые слова: турецкая литература, исторический роман, Османская империя, период.

Dadaşova Arzu

THEORETICAL VIEW OF THE DEVELOPMENT OF THE TURKISH HISTORICAL NOVEL

Summary

Historical novels are one of the most widely read and controversial genres of the novel genre. As its name suggests, a historical novel is related to both literature and history. History warns people about the rise and fall of the social, economic, political and cultural life of past nations, peoples and societies. History is an inexhaustible source of material for literature. In the early 19th century, under the influence of the Romantic literary movement, the historical novel spread from England to the rest of the world, and at the end of the century, it began to manifest itself in Turkish literature. At the beginning of the century, at a time when the Ottoman state was in danger of collapsing, the intellectuals of the time set out to prevent this. They wanted to inspire the people by remembering their bright past and days full of victories. The course of the Turkish historical novel began with the novel

"Cezmi" written by N.Kamal during the Tanzimat period, and passed its own path of development in the 20th century.

The study examines the factors that led to the emergence of the historical novel in Turkish literature and the historical roots of the novel, then examines the history of the development of the genre from the late 19th to the late 20th century, and concludes with a brief summary.

Keywords: Turkish literature, historical novel, Ottoman, period.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya üzrə elmlər doktoru , dosent Barat Osmanova tərəfindən çapa tövsiyə olunmuşdur

SEVİNC HÜMBƏTƏİYEVA MÜBARİZ QIZI
Filologiya üzrə fəlsəfə doktoru.
KÖNÜL İBRAHİMOVA TARİYEL QIZI,b/m.
Azərbaycan Dövlət İqtisad Universiteti
Hümanitar fənnlərin tədrisinin təşkili departamenti
Azərbaycan dili" kafedrası
zeynalzaderaul@gmail.com //
ibragimova74@gmail.com
H.Əliyev 92.

AZƏRBAYCAN DİLİ TERMİNOLOGİ SİSTEMİNİN GENİŞLƏNDİRİLMƏSİ VƏ ZƏNGİNLƏŞDİRİLMƏSİ YOLLARI HAQQINDA

Xülasə

XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixində mürəkkəb ictimai-siyasi və mədəni hadisələrlə zəngin olan bir dövrdür. Ana dilində elmin inkişafı, elmi-kütləvi ədəbiyyatların, dərsliklərin çap edilib yayılması, xüsusilə, elmi üslubun formalaşması bu dövrlə bağlıdır. Yeni ictimai-siyasi görüşlər, elm və mədəniyyətin sürətli inkişafı, orta və ali məktəblərin, elmi-tədqiqat müəssisələrinin təşkili, mətbuatın sayının artması, dərsliklərin, elmi əsərlərin Azərbaycan dilində yazılması dilin ictimai funksiyasının genişlənməsinə təkan verirdi. Lakin dövrün tələblərinə uyğun olraq Azərbaycan dilində müəyyənləşmiş sistemli elmi dil yox idi. Ona görə də elmi əsərlərdə, dərsliklərdə və terminoloji lüğətlərdə terminləri ifadə etmək üçün ərəb və fars dillərinə məxsus o qədər söz və tərkiblər işlədilirdi ki, onları başa düşmək üçün xüsusi izahlar tələb olunurdu.

Həmin illərin tələbləri nəzərə alınaraq N.Nərimanovun və S.Ağamalıoğlunun təşəbbüsü ilə respublikada Azərbaycan dilində elmi dili formalaşdırmaq, tədris üçün dərsliklərin yaradılması və terminoloji işə rəhbərlik etmək, ədəbi dili inkişaf etdirmək üçün xüsusi orqan – Azərbaycan Xalq Komissarları Şurası yanında İstilah Komissiyası təşkil olundu. Komissiyanın sədri Tağı Şahbazi təyin edildi. Lakin komissiyanın tələbləri ilə Tağı Şahbazinin prinsipləri uyğun gəlmədiyinə görə o istefa verdi. Qafur Rəşad, Tağı Şahbazi dilə daxil olan sözlərin demək olar ki, hamısı üçün, hətta beynəlmiləl terminlər üçün də qarşılıq yaratmağa çalışırdırlar.

1923-cü ildə Terminologiya Komissiyası Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanına köçürüldü və Səmədağa Ağamalıoğlunun sədrliyi ilə fəaliyyətini davam etdirməyə başladı. İstilah Komissiyasında həmin dövrdə lazımi ehtiyacları ödəmək məqsədi ilə müxtəlif sahələrə – riyaziyyat, coğrafiya, kimya, iqtisadiyyata aid bir sıra terminlər lüğəti hazırlanıb nəşr edildi. Bu illərdə Azərbaycan dilini ərəb-fars mənşəli sözlərdən təmizləmək üçün prinsiplər hazırlanırdı. Onlar yeni terminlərin yaradılmasının əsas yolunu bütün terminlərin əvvəlinin, yaxud axırının

Azərbaycan dilinin qrammatik qanunlarına uyğun bir formaya salınmasında görürdülər.

Açar sözlər:Aərbaycan dili,termin,inkişaf,genişlənmə,zənginləşmə

Xaqan Babayev. Azərbaycan dilinin dövlət dili kimi təşəkkül tarixindən (XVI Məhəmməd Rza Heyət). Bakı. 1973."Maarif"nəşr.Müəllif öz fikirlərini belə izah edir**:**

"Odur ki, terminologiyada işlənən ərəb-fars sözlərinin yerinə «azərbaycanca sözlər»in qoyulması prinsipini əsas götürürdülər. Nəticədə lüğətlərdə Azərbaycan dilində çoxdan işlənən elmi-texniki terminlər süni – mənası dərk edilməyən sözlərlə əvəz olunmuşdu. Bunun nəticəsi olaraq, keçən əsrin 20-ci illərində Azərbaycan dilində ictimai-siyasi, elmi-texniki və s. terminlər yaradılarkən **purizm** prinsiplərini əsas götürmüşdülər.. Onlar ədəbi dilin lüğət tərkibini, xüsusən də terminologiyanı ərəb və fars sözlərindən təmizləməyi, ədəbi dili xalq danışıq dilinə yaxınlaşdırmağı və onun əsasında inkişaf etdirməyi qarşılarına məqsəd qoymuşdular. Eyni zamanda, termin yaradıcılığı prosesində ayrı-ayrı məfhumların funksiyası nəzərə alınaraq adlandırılması üsulundan da geniş istifadə edirdilər".[1.s.156]

Bununla belə, onlar (puristlər) dilimizdə olan hər cür alınma terminlərə qarşı çıxır, ehtiyac duyulan terminlərin hamısını Azərbaycan dilinin daxili imkanları əsasında yaratmağa çalışırdılar. Əgər xalq dilində nəzərdə tutulan anlayışların ifadəsi üçün terminlər yoxdursa, onlar xalq dilinə məxsus söz kökləri əsasında süni yolla yaratmaq prinsiplərini əsas götürdüklərinə görə belə terminlər **(qirilğan, baxovibax, nəsnək, naçılıq**) lüğətlərdə olsa da, dildə, terminologiyada özünə yer tapa bilmədi. Purizm meyillərinin əmələ gəlməsi ilə əlaqədar mətbuatda termin yaradıcılığı məsələləri geniş müzakirə olunmağa başlanda. 1923-cü ildə «Kommunist» qəzetində həftədə bir dəfə «Dilimizin istilahı» adı ilə xüsusi vərəqə nəşr edilmişdir.Terminologiya Komissiyasının fəaliyyəti 1026-cı ildə keçirilmiş I Ümum-ittifaq Tükoloji qurultayından sonra daha da güclənmişdir. Qurultayda tarixi və bir sıra mühüm məsələlərlə yanaşı, türk dillərində terminologiya yaradılması məsələsi geniş müzakirə olunmuşdur. Qurultayda terminologiya ilə bağlı beş məruzə dinlənil-mişdir. Bu məruzələrdən H.B.Zeynallının «Türk dillərinin elmi terminologiyasının sistemi haqqında» məruzəsi diqqəti cəlb edir. Məruzənin əsasını türk dillərində, o cümlədən də Azərbaycan dilində elmi-texniki terminlər alınması prinsipləri təşkil edirdi.

"Şairlərimiz bizi və dilimizi necə yaradırlar"-XX əsrlər). "Elm və həyat" nəşriyyatı. Bakı. 2002 **.**Jurnalın səhifələrində yazılırdı:"Dövlət Elmi-Tədqiqat İnstitutunun yanına köçürülmüş, burada terminologiyanın inkişafı və orfoqrafiya lüğətinin hazırlanması üçün elmi prinsiplərin müəyyənləşdirilməsi üzrə iş aparılmağa başlanılmışdır. Bu məqsədlə də komitə respublikanın ali məktəblərində çalışan mütəxəssisləri də bu işə cəlb etdi. Terminologiya Komitəsi üç bölmədən və bir bürodan ibarət idi. Terminologiya ilə sıx əlaqədar olan, Azərbaycan məktəbləri və

mətbuatı üçün həlledici əhəmiyyət ksəb edən orfoqrafiya məsələləri də o zaman Terminologiya Komitəsinə həvalə edilmişdi. Komitədə daimi işçilərdən əlavə, xüsusi məsləhətçilər və termin toplayan işçi qrupları da yaradılmışdır. Terminlər əvvəlcə müvafiq bölmələrdə müzakirə olunur, sonra isə dəTerminologiya Komitəsinin təsdiqinə verilirdi. Həmin dövrdə Terminologiya Komitəsi hazırladığı on minə qədər sözdən ibarət terminləri müxtəlif elm sahələri üzrə bülletenlərdə nəşr etdirmişdi. Terminologiya Komitəsinin qarşısına vəzifələr qoyulmuşdur.[2.s.210-213]

Terminlər yaratmaqla bərabər, elmi-ədəbi dili də təkmilləşdirmək və bununla əlaqədar isə bir çox problemləri həll etmək lazım idi:

1) Azərbaycan ədəbi dilinin əsasını təşkil edən dialektləri müəyyənləşdirmək;

2) Azərbaycan dilində terminlər yaradılarkən üç mərhələyə əsaslanaraq:

a) bilavasitə Azərbaycan dilinin daxili imkanlarına əsaslanmaq;

b) Avropa dillərinə; c) ərəb və fars dillərinə.

Lüğətlərin tərtibində elmi prinsiplər əsas götürülmüşdür. Belə ki, lüğətlərdə terminlərin bir neçə variantda işlənməsi, onların başqa dillərdən tərcüməsiz Azərbaycan dilinin orfoqrafiyasına uyğunlaşdırılması meyli üstünlük təşkil edirdi. Terminologiya Komitəsində «Fəlsəfə terminləri» lüğəti nəşr olunduqdan sonra Azərbaycan KP-nın XIII qurultayında kəskin tənqid olundu və və 1944-cü ildə Azərbaycan Xalq Komissiarlar Sovetinin yanına köçürülərək fəaliyyətini davam etdirməyə başladı.

Təəssüf ki, nəşr olunmuş lüğətlər günün tələbini ödəmirdi. Bu dövrdə terminologiyada aşağıdakı nöqsanlar diqqəti cəlb edir:

1) Azərbaycan dilində alınma terminlərin işlədilməsində müəyyən elmi prinsiplər gözlənilməmişdir;

2) heç bir ehtiyac olmadığı halda ərəb və fars terminləri dilə qaytarılmışdır;

3) terminlər yaradılarkən onun birmənalı olmasına fikir verilməmişdir;

4) bir çox hallarda konkret termin əvəzinə onun izahı verilmişdir;

5) bəzən eyni məfumu ifadə etmək üçün müxtəlif terminlər işlədilmişdir.

“Azərbaycan dilinin orforafiya lüğəti”.AMEA Dilçilik institutu”Lüğətdə yazılırdı:.Bunların aradan qaldırılması üçün 1948-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarı ilə Azərbaycan dilində terminlər yaradılmasını qaydaya salmaq, ba hərc-mərcliyi aradan qaldırmaq, elmi-tədqiqat müəssisələrində və ali məktəblərdə aparılan sahədəki terminoloji işlərə rəhbərlik etmək məqsədi ilə Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti yanında **Terminologiya Komitəsi** yaradıldı. Həmin ildə Terminologiya Komitəsinin vəzifələrinin müəyyənləşdirilməsi üçün Azərbaycan Mərkəzi Komitəsi ilə birlikdə EA-da konfransı keçirildi. Terminologiyanın nizama salınmasında Bakıda çağrılmış dil konfranslarını da müəyyən rolu olmuşdur.[3.s.1123]

Müstəqillik illərində ölkəmizdə aparılan uğurlu islahatlar, quruculuq işləri, yüksək iqtisadi artım, milli elmin inkişaf konsepsiyamızın davamlı həyata keçirilməsi Azərbaycan elminin inkişaf səviyyəsinin yüksəldilməsini şərtləndirmişdir. Elm

sahələrinin inteqrasiyası, elmi biliklərin müxtəlif istiqamətlərdə inkişafı, xarici dövlətlərlə ictimai-siyasi əlaqələrin güclənməsi, elm sahələrində terminoloji bazanın da inkişafına təsir göstərmişdir. Azərbaycan dilində işlənən, o cümlədən yeni yaranan terminlərin toplanması, aprobasiyası və tətbiqinin sürətləndirilməsi dilimizdəki elmi-texniki anlayışların vahid sistem əsasında təkmilləşdirilməsini həyata keçirmək dövrün tələbi olmuşdur.

2000-ci ildə AMEA Rəyasət Heyəti yanında Terminologiya Komitəsi **Terminologiya Komissiyası** adlandırılmışdır. Bu illərdə terminologiyanın inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, elm və texnikanın, iqtisadiyyatın, mədəniyyətin bir sahələrinin Azərbaycan dilində terminologiyasının formalaşması, eləcə də, texnikanın yeni yaranan informatika, elektron təhsil, aviasiya, avtomatlaşdırma və s. sahələrdə terminlərin yaranması istiqamətində mühüm işlər görülmüşdür. Azərbaycan dövlət müstəqilliyinə, sosial-iqtisadi və milli-mənəvi inkişafına, bu prosesdə maddi-mənəvi dəyərlərin qorunmasına xidmət edən elmin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Lüğətləri tərtib edən zaman nəzərə alınmışdır ki, ingilis dili dünya miqyasında geniş yayılmış beynəlxalq ünsiyyət vasitəsidir. Eyni zamanda, respublikada indiyə qədər elm və texnikanın müxtəlif sahələrinin inkişafında rus dilinin rolunun (azərbaycan-ingilis-rus) nəzərə alınması vacibdir. Bu baxımdan terminoloji lüğətlər tərtib edən zaman türk dilinin də cəlb olunması mühüm əhəmiyyət kəsb edir. Demək, Azərbaycanca, ingiliscə, rusca, türkcə terminoloji lüğətlərin tərtibi günün tələbidir. Bu nəzərə alınaraq Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yanında Terminologiya Komissiyasının qərarı ilə son illərdə terminologiyanı inkişaf etdirmək və təkmilləşdirmək məqsədilə doxsana qədər terminoloji düğət nəşr edilmişdir. Bu dövrdə prof.M.Qasımovun rəhbərliyi ilə AMEA-nın Dilçilik İnstitutunda fəaliyyət göstərən "Terminologiya Komitəsinin işi xüsusi olaraq diqqət mərkəzində idi**.** M.Qasımovun nəşr etdirdiyi "Azərbaycan dili Terminologiyasının əsasları**"**kitabı ictimaiyyətin diqqət mərkəzində idi.Terminologiya Komissiyasının fəaliyyətinin mühüm bir sahəsini terminlərin kütləvi informasiya vasitələrində, nəşriyyatlarda, idarə və müəssisələrdə, məktəblərdə düzgün tətitqinə nəzarəti təşkil etməkdir. Komissiyada məktubla müraciət olunan bir sıra mübahisəli sayılan, müxtəlif variantlarda işlədilən terminlərin optimal variantı seçilib müzakirə yolu ilə dəqiqləşdirilir.[4.s.44-52]

Azərbaycan dilinin dövlət dili statusu alması müstəqi və yeni təhsil sisteminin yaradılması, bazar iqtisadiyyatına keçid, qloballaşma prosesində Terminologiya Komissiyasının vəzifələri daha da artmışdır. Təəssüflər olsun ki, elm və texnikanın bütün sahələri üzrə hələ də belə terminoloji lüğətlərin hazırlanmasına böyük ehtiyac var. Lakin son vaxtlər lüğətlərin bir qismi Terminologiya Komissiyasının ayrı-ayrı bölmələrində müzakirə olunmadan, elmi prinsiplər nəzərə alınmadan nəşr olunur və təbii ki, onlar lüğətlərin tərtibinə verilən tələblərə cavab vermir. Odur ki, lüğətlərin tərtibi üçün nəzəri prinsiplər müəyyənləşdirilməlidir. Dilin qorunmasında və

zənginləşməsində mövcud olan problemlərdə başlıcası dilin terminologiyasının inkişafını düzgün istiqamətləndirməkdir. Bu nəzərə alınaraq 2012-ci il mayın 29-da Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikaısı Prezidentinin sərəncamına əsasən Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlənən tənzimlənməsi və koordinasiya edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası yaradılmışdır. Bununla yanaşı, Terminologiya Komissiyası təkcə respublikada deyil, respublikadan kənarda Azərbaycan dilinin qorunması istiqamətində də mühüm işlər aparır. Komissiyaya Türkdilli Dövlətlərin əməkdaşlıq Şurasının katibliyindən daxil olmuş məlumata əsasən əməkdaşlarımız türk dillərinin vahid terminologiyasının yaradılması sahəsində Ekspertlər Komitəinin İstanbul şəhərində 16 noyabr 2012-ci il tarixirndə keçirilən ilk iclasında iştirak etmişdir. Bu toplantıda türk dillərinin **Ortak Terminoloji Kurulun** üzvləri seçilmiş, türk dillərinin ortaq əlifbası qəbul edilmiş və terminologiyanın yaradılması prinsipləri müəyyənləşdirilmişdir.

5 sentyabr 2013-cü ildə Türki kenesi Terminologiya Komitəsinin təşkilatçılığı ilə Qazaxstanda yaradılan Türk Akademiyasında Türk dillərinin Terminologiya məsələləri – termin yaradıcılığı prosesi ilə bağlı seminar keçirilmişdir. Seminarda türkdilli respublikalarda terminologiyanın müasir vəziyyəti, gələcək inkişafı müzakirə olunmuşdur. Türk cillərinin ortaq terminologiyasının yaradılması əsasən problem kimi geniş şəkildə müzakirə olunmuşdur. Tükr dilləri üçün ortaq terminoloji lüğətlərin hazırlanmpası məqsədəuyğun hesab edilmişdir.

”Azərbaycan dilinin izahlı lüğəti “Azərbaycan dilinin frazeologiya lügəti”.Lüğətdə qeyd edilirdi:”Elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı, terminoloji sistemlərin fasiləsiz olaraq dəyişməsi dilin ıigna təsir göstərir. Son zamanlar ölkəmizin iqtisadi-siyasi həyatında, ictimai fikrində baş verən proseslər, yeniliklər dilin lüğət tərkibində köklü dəyimələrə səbəb olumuşdur. Belə ki, əvvəllər ölkəmizdə terminoloji mühit dövlət və ictimaiyyət tərəfindən nəzərdə saxlamaq mümkün idi. Çünki həmin vaxtlarda xarici dillərdən tərcümə olunan materialların həcmi böyük deyildi, tərcümə proses inə ciddi nəzarət olunurdu və informasiya vasitələrində verilən materiallar digər tələblərlə yanaşı, ölkə daxilində çap materialları, xüsusilə, dərslik və dərs vəsaitləri, müxtəlif səviyyəli ekspertiza mərhələlərindən keçirdi. Digər tərəfdən, TV-lər, radiolar və digər kütləvi informasiya vasitələri müəyyən tələblərə cavab verməli idi67.[5.s.55-67]

Ədəbiyyat:

1.Xaqan Babayev. Azərbaycan dilinin dövlət dili kimi təşəkkül tarixindən (XVI Məhəmməd Rza Heyət). Bakı. 1973.“Maarif”nəşr.s.156.
2."Şairlərimiz bizi və dilimizi necə yaradırlar”-XX əsrlər). "Elm və həyat" nəşriyyatı. Bakı. 2002.-səh:210-213.
3.AMEA Nəsimi adına Dilçilik İnstitutu ;”Azərb. dilinin orfoqrafiya lüğəti”səh:1423

4.M.Qasımov “Azərbaycan dili Terminologiyasının əsasları.Bakı.”Elm”nəşr.s.44-52
5.”Azərbaycan dilinin izahlı lüğəti “Azərbaycan dilinin frazeologiya lügəti”.səh:55-67

С.Гумбаталиева,К.Ибрагимова

ТЕРМИНОЛОГИЧЕСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА О СПОСОБАХ РАСШИРЕНИЯ И ОБОГАЩЕНИЯ

Резюме

Любое количество слов с учетом словарной базы азербайджанского языка и возможностей нашего исторического лексикона. Нужна отдельная государственная программа по очистке нашего языка. И государственные учреждения, и наши лингвисты не должны оставаться равнодушными к этой проблеме. Язык надо беречь и беречь. Правила языка должны быть определены таким образом, чтобы информация могла беспрепятственно передаваться будущим поколениям, а те, кто придет после нас, могли ее без труда понять.

Это связано с непосредственными связями азербайджанского языка с другими мировыми языками. Если раньше в азербайджанский язык слова передавались в основном из и через русский язык, то теперь заимствования передаются в наш язык без языка-посредника. Нельзя гарантировать, что заимствованные слова, которые используются на страницах прессы, будут жить в языке и обретут функциональность, но слова, которые используются в языке по необходимости, закрепляются в словарном запасе языка.

В отношении этого вопроса следует быть осторожным и избегать ненужных покупок. невозможно изменить все заимствования в лексике языка, заменить их своими словами. Если новые слова будут создаваться искусственно вслепую, это тоже будет неправдой, потому что этот метод не сможет себя оправдать на необходимом уровне. Успешных результатов можно добиться только в том случае, если этот процесс осуществляется естественными способами. Одной из важнейших проблем, стоящих перед наукой о языкознании, является история сохранения родного языка и передачи его будущим поколениям.

Ключевые слова:азербайджанский язык,термин,развитие,расширение, обогащение.

S.Gumbatalieva,K.Ibraguimova

OF THE TERMINOLOGY SYSTEM OF THE AZERBAIJAN LANGUAGE ABOUT WAYS OF EXPANDING AND ENRICHING

Summary

Any quantity of words, taking into account the dictionary base of the Azerbaijani language and the possibilities of our historical lexicon. We need a separate state program to clean our language. Both state institutions and our linguists

should not remain indifferent to this problem. The language should be preserved and preserved. The rules of the language must be defined in such a way that information could be passed on to future generations without hindrance, and those who come after us could easily understand it.

This is due to direct connections of the Azerbaijani language with other world languages. If before the words were transferred to the Azerbaijani language mainly from and through the Russian language, now the borrowings are transferred to our language without a language intermediary. It is not possible to guarantee that the borrowed words used on the pages of the press will live in the language and find functionality, but the words that are used in the language by necessity are fixed in the vocabulary of the language.

In this regard, you should be careful and avoid unnecessary purchases. It is impossible to change all borrowings in the vocabulary of the language, replace them with your own words. If new words will be artificially created blindly, this will also be false, because this method will not be able to justify itself at the required level. Successful results can be achieved only if this process is carried out in natural ways. One of the most important problems facing the science of linguistics is the history of preserving the native language and passing it on to future generations.

Key words: Azerbaijani language, term, development, expansion, enrichment

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya elmləri doktoru,dosent Yusif Süleymanov
tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ ƏSƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
ADU
Rəşid Behbudov 134
e-mail: Lalyasad@gmail.com

ALİ MƏKTƏBLƏRİN YUXARI KURSLARINDA İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ YOLLARI

Xülasə

Dillərin təliminə kommunikativ yanaşmadan danışarkən birinci növbədə onun tələbəyönümlü olmasını, eləcə də tələbələrdə tədris edilən xarici dili öyrənməyə həvəs və maraq yaratmağın vacibliyini qeyd etmək lazımdır. Bu gün tədris edilən xarici dildən kommunikativ məqsədlərlə istifadə etmək qabiliyyətinə malik olan gənclərin hazırlanması həm orta, həm də ali məktəb qarşısında duran əsas vəzifələrdən biridir. Belə ki, dövrün tələblərinə uyğun olaraq, dil fakültəsini bitirmiş mütəxəssis ixtisas dilində kommunikativ cəhətdən səriştəli olmalı, kommunikativ kompetensiyanın əsas komponentləri olan qrammatik (linqvistik), diskursiv, sosiomədəni və strateji kompetensiyalara yiyələnməlidir. Müəllim həm dil daşıyıcıları, həm də dildən ünsiyyət vasitəsi kimi istifadə edən, lakin dil daşıyıcısı olmayanlarla ünsiyyətə girərək onların maraqları çərçivəsində olan mövzular ətrafında söhbət etmək səriştəsinə malik olmalıdır. Müəllimin dil vasitələri və diskursiv biliklərdən istifadə etmə strategiyaları maksimum dərəcədə linqvistik baxımdan savadlı olan dil daşıyıcılarının strategiyalarına uyğun olmalıdır.

Bu gün islahatların keçirilməsində əsas məqsəd effektiv, çevik və daim dəyişən təhsil sisteminin inkişaf etdirilməsidir. Öyrənənlərin tələbatlarını ödəmək üçün dil müəllimləri zamanın nəbzini tutmalı, metodlar, biliklər, istifadə edilən tədris materialları və ona uyğun təlim texnologiyaları müntəzəm olaraq yeniləndirilməlidir. Tələbəyönümlü yanaşmanın əsas məğzi tələbələrin müəyyən problemlərin həlli, əldə olunmuş bilikləri təcrübəyə tətbiq etmək maraqlarını stimullaşdırmaq, tədrisin hər bir mərhələsində müvafiq balansı saxlamaq şərtilə bir sıra problemlərin həllinə nail olmaqdır. Dilöyrənənlərin təlim prosesinə fəal iştirakçı qismində cəlb edilməsini təmin edə bilən şərtlərdən ən önəmlisi ingilis dilinin tədrisi prosesinin onların tələbat və ehtiyaclarına, yaş səviyyəsinə, eləcə də onların maraq dairəsinə uyğun olan tərzdə qurulmasıdır. Başqa sözlə desək, dil mütəxəssisi, ilk növbədə xarici dil müəllimi kommunikativ cəhətdən səriştəli olmalıdır. Məhz bu səbəbdən orta və ali məktəblərdə dilöyrənənlərə şifahi nitq vərdişlərinin aşılanmasına xüsusi diqqət yetirilməsi olduqca vacibdir. Əgər dilöyrənənlər ingilis dilindən fikir, ideya və informasiya mübadiləsi məqsədilə istifadə edə bilmirlərsə, linqvistik biliklərin əldə edilməsi tamamilə mənasız və nəticəsiz olur.

Açar sözlər: innovasiya, dil, metod, texnologiya, nitq

Bildiyimiz kimi, xarici dili öyrədən müəllim tələbənin dinləmə bacarıqlarını inkişaf etdirmək üçün audio və video materiallardan daha çox istifadə etməlidir. Audio materiallar nə qədər çox səsləndirilərsə tələbələr bir o qədər bu dilə yaxın olar. Videomaterialların istifadəsi tələbələrə təkcə dinləmə deyil, həmçinin görmə şansı yaradır. Tələbələr bir-birindən yeni informasiyanı qavrama və yadda saxlama üsullarına görə çox fərqlənir. Bəzi tələbələr ancaq dinləyərək, bəziləri isə vizual şəkildə görərək, informasiyanı yadda saxlayır. Bu da informasiyanin daha yaxşı mənimsənilməsinə səbəb olur. Tədqiqatçılar dinləmənin iki növü olduğunu qeyd etmişdir. Tələbələrin sadəcə dinlədikləri parçadan zövq almaq və kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün istifadə etdiyi dinləmə növü ekstensiv dinləmədir. Əgər tələbə dinlədiyi mətnin və ya dialoqun hər hansı hissəsini anlamırsa, bu onun demotivasiyasına gətirib çıxarır. Hər bir dil səviyyəsinə uyğun olan qısa mətnlər isə onların tələbələr tərəfindən rahat mənimsənilməsinə kömək edir. Ekstensiv dinləmədən fərqli olaraq, intensiv dinləmə əsasən dərs prosesində baş verir. İntensiv dinləmə üçün istifadə olunan audio materiallar müəllim tərəfindən seçilir. Müəllim hər hansı materialı seçərkən bir çox amilləri nəzərə almalıdır. Ən başlıca amil tələbələrin dil səviyyəsidir. Hər bir audio material tələbələrin dil səviyyəsinə uyğun olmalıdır. Əks təqdirdə dərs prosesində istifadə olunan materiallar heç bir nəticə vermir. Xarici dil müəllimləri, xüsusilə də dili, o cümlədən ingilis dilini ixtisas kimi tədris edən müəllimlər bir tərəfdən sosiolinqvistika, psixolinqvistikanın və başqa sahələrdə əldə edilmiş nailiyyətləri nəzərə almalı, digər tərəfdən isə dilin ənənəvi komponentləri olan fonoloji, sintaktik və semantik aspektlərlə bağlı biliklərdən öz real təlim fəaliyyətlərində istifadə etməli və nəzəri ideyaları praktikaya tətbiq etməlidirlər. Təlim-tərbiyə işi elə qurulmalıdır ki, hər bir tələbə özünü bu təlim-tərbiyənin mərkəzində hiss edə bilsin, o, öz interaktiv fəaliyyəti ilə həmişə diqqəti cəlb etsin, ön planda görünsün. İntensiv dinləmə zamanı istifadə edilən audio materilların müsbət və mənfi cəhətləri də vardır. Audio materiallardan istifadə tələbələrə müxtəlif danışıq formalarını eşitməyə şərait yaradır, fərqlı danışıq tərzləri ilə yaxından tanış olan tələbə dil daşıyıcıları ilə ünsiyyətdə olarkən heç bir problem yaşamır. Lakin audio materillardan istifadə heç də həmişə problemsiz keçmir. Bəzən sinifdə akustik problemlər yarana bilər. Belə olan halda tələbələr audio mətni tam eşitmədiklərinə görə anlaya bilmirlər[1, s.136]. Bəzən tələbələr hər hansı söz və yaxud da ifadəni anlamadıqları üçün dinlədikləri mətnin məzmununu da dərk edə bilmirlər. Söz və ifadələrin tam şəkildə başa düşülməməsinə başlıca səbəb bəzi səslərin fərqli tələffüz edilməsidir. Danışıq zamanı səslərin bəzilərinin assimilasiya prosesində təhrif edilməsi problemlərə yol açır. Bu səbəbdən tələbələr tələffüz edilən söz və ifadənin nə olduğunu anlamaqda çətinlik çəkirlər. Tədqiqatçılar problemin həllinə dair iki yol göstərirlər. İlk növbədə, tələbələrə diaqramlar və izahat vasitəsilə səslərin danışıq prosesində necə ifadə olunduğunu göstərmək olar. Daha bir həll yolu dinləmə prosesində tələbələrin diqqətini bu səslərə yönəltməkdir. Onlar təhrif edilən səsləri tam eşitsinlər deyə biz konkret bir parçanı

təkrar-təkrar onlara dinlətdirə bilərik. Bu tələbələrin bu səslərə alışmasını təmin edəcəkdir. Onlar dinləmə ilə bərabər tələbələri görüntü ilə də təmin edir. Bəzi hallarda videomaterialların istifadəsi də problemlərlə müşayət olunur.

Dilöyrənmə prosesində audio və videomaterialların istifadəsində qarşıya çıxan problemləri aşağıdaki kimi qruplaşdıra bilərik:

1.Texniki problemlər - Audio və videomateriallardan istifadə prosesində texniki avadanlıqlarla işlədiyimizi nəzərə alsaq, texniki problemlərin qaçılmaz olduğunu anlaya bilərik. Videomaterialların proyektorlar vasitəsilə işiqlandırılması zamanı lampalarda yaranan problemlər görüntünü keyfiyyətsiz edir. Power Point slaydlarından istifadə zamanı şriftin ölçülərinin və ya rənginin standartlara uyğun olmaması çətinliklər törədə bilər.

2. Diqqətli olmamaq - Bəzi hallarda texniki avadanlıqlar belə tələbələrin diqqətinin yayınmasına səbəb ola bilər. Misal üçün, proyektorlardan gələn xüsusi effektlər və ya işıqlar dilöyrənənlərin diqqətini çəkə və videodakı məlumatın tam şəkildə mənimsənilməməsinə səbəb ola bilər. Başqa bir problem isə slaydlardaki məlumatın mürəkkəb və çox olması ilə bağlıdır. Təqdim edilən videomaterialdakı parçanın mürəkkəb, dilöyrənənlərin dil səviyyələrinə uyğun olmaması onların demotivasiyasına və diqqətlərinin yayınmasına səbəb ola bilər.

3. Xərc - Proyektor, kompüter və başqa texniki vasitələrdən istifadə maddi cəhətdən müxtəlif problemlər törədə bilər.

4. Vaxt - Audivizual materialların hazırlanması kifayət qədər vaxt apara bilər. Materialın hazırlanması dedikdə biz keçirilən mövzuya uyğun videoların və ya film parçalarının tapılması, buna uyğun olaraq dərs planının yazılmasını nəzərdə tuturuq.

5. Məkan - Texniki avadanlıqların istifadəsi zamanı ortaya çıxan başlıca problemlərdən biri də otaqlarla bağlı olur. Bəzən otaqların çox böyük olması nümayiş etdirilən videonun hamı tərəfindən izlənilməsinə və yaxud da istifadə edilən audio materialın hər kəs tərəfindən eşidilməsinə mane törədə bilər. Başqa bir problem isə sinif otaqlarının işiqlandırılması ilə bağlıdır. Çox işıqlı otaqlarda proyektorun istifadəsı mümkünsüz ola bilər. Günəş işığının çox olması səbəbindən proyektor vasitəsi ilə təqdim edilən video və ya slaydların keyfiyyəti aşağı düşə bilər. Bu problemi yaşamamaq və yüksək keyfiyyətli səs və görüntü təqdim etmək üçün müəllim dərs keçəcəyi otağı əvvəlcədən nəzərdən keçirməli və lazımı gəldikdə otağı dəyişməlidir. Ünsiyyət prosesində çox tez-tez istifadə edilən jestlər, mimika və digər qeyri-verbal ünsiyyət vasitələri dilöyrənən tələbələrə əlavə məlumat ötürmüş olur. Dilöyrənənlər izlədikləri video parçasının mənasını səhv interpretasiya edə bilərlər. Bu isə dərs prosesinin faydalı və səmərəli olmasına maneə yaradır. Belə çətinliklərin yaşanmaması üçün müəllim əvvəlcədən bəzi hərəkət, jest və mimikaların mənasının dilöyrənənlərə anlatmalıdır. Ünsiyyət prosesində nəzərdə tutulan məqsəd iştirakçıların birgə fəaliyyətinə və qarşılıqlı münasibətinə əsaslanır. Belə qarşılıqlı təsir müzakirələrə zəmin yaradır. Bu prosesdə verilən motivasiya və

sərbəstlik birbaşa ünsiyyət zamanı özünəinamın artmasına, xarici dildən daha çox istifadəyə və nəticədə təqdim olunan materialı şüurlu öyrənməyə səbəb olur. Beləliklə, verbal ünsiyyət vasitəsilə insan xarici dildə danışır, digər millətin nümayəndəsini başa düşür və dərk edildiyini anlayanda sevinir. Tədricən dil maneəsi dağılır və insan yenə də xarici dildə danışmaq sevincini yaşamaq istəyir. Tələbəyönümlülük prinsipi dillərin tədrisi sisteminin dilöyrənənlərin maraq, ehtiyac və tələbatları üzərində qurulması, onların yaş, zəka səviyyələri və fərdi xüsusiyyətlərini nəzərə almaqla təşkil edilməsini tələb edir. Bu zaman söhbət təhsilalanların öyrədilməsi, fənni tədris edən müəllim tərəfindən biliklərin ötürülməsi deyil, təlim prosesində fəal iştirakçı qismində çıxış edənlər tərəfindən müvafiq biliklərin mənimsənilməsindən söhbət gedir. Qloballaşma dövründə ingilis dilində bacarıqların formalaşdırılmasından danışarkən, daha çox onları ingilis dilində mətnlər üzərində işin təşkili prosesinə cəlb etməklə, vərdişlərin inteqrativ şəkildə, yəni şifahi nitq, dinləyib-anlama, oxu və yazı vərdişlərinin inkişaf etdirilməsini nəzərdə tutur. Bu isə xarici dillərin tədrisi metodikasında qəbul edilmiş və xarici dillərin, o cümlədən ingilis dilinin təlimi prosesinin səmərəliləşdirilməsini təmin edən "learning by doing", yəni hər hansı hərəkəti icra etməklə öyrənmək prinsipinin məqsədyönlü, sistemli, mərhələli şəkildə təşkil edilməsini nəzərdə tutur. Məlumdur ki, xarici dilin öyrənilməsində müəllimin rolu böyük və danılmazdır. Müəllimin vacib rollarından biri də onun informasiya mənbəyi olmasıdır. Müəllim tələbələrin dinləmə və anlama bacarıqlarını inkişaf etdirmək, onları videomateriallarla təmin etmək üçün müxtəlif mənbələrdən, internet resurslarından istifadə edərək xarici dildə olan videolar, qisa metrajlı filmlər izləməyi məsləhət görə bilər. C.Harmer auditoriyada videomaterialların istifadə metodikasından da danışmışdır. O, videomateriallardan səmərəli şəkildə istifadə etmək üçün bir neçə üsul göstərmişdir:

- Fast Forward (sürətlə irəli çəkmək) – Bu üsuldan istifdə edərək müəllim filmdən bir parçanı və yaxud bir videoroliki sürətlə irəli çəkir. Videorolik bitdikdən sonra müəllim tələbələrdən bu videonun nə haqqında olduğunu və personajların nə dediyi haqqında məlumat alır. Bizim fikrimizcə, belə üsuldan istifadə tələbələrə videonu izləyərkən diqqətini onun əsas və vacib hissələrinə istiqamətləndirmək və videodan danışılan mövzunun məğzini anlamağa imkan yaradır.
- Silent viewing (for language) – səssiz izləmə- Bu üsüldan istifadə edərək müəllim tələbələrə səssiz şəkildə, lakin normal sürətdə filmi izləməyə şərait yaradır. Film parçası bitdikdən sonra o tələbələrdən personajların nə haqqında danışdıqlarına dair ehtimallar irəli sürməyi istəyir. Hər bir tələbənin cavabını aldıqdan sonra müəllim film parçasını yenidən, lakin səsli şəkildə təqdim edir və beləliklə, tələbələr ehtimallarının doğru olub olmadığını yoxlayırlar. Belə üsuldan istifadə edərək, müəllim tələbələrə ünsiyyət zamanı təkcə deyilən sözlərə deyil, həmçinin jestlər və mimikaya da fikir verməyi öyrədir.

Freeze frame: (stop-kadr) – burada isə müəllim videonu hər hansı hissəsində dayandırır və tələbələrdən növbəti səhnədə nə baş verəcəyini, personajın növbəti səhnədə nə deyəcəyini soruşur. Bu üsul da digər üsullar kimi kommunikativ bacarıqların formalaşmasında böyük rol oynayır. Tələbələr artıq situasiyadan və yaxud ünsiyyətdə olduqları şəxsin mimika və jestlərindən onun nə deyə biləcəyini əvvəlcədən təxmin edə bilər və bu biliyə əsaslanaraq ünsiyyəti davam edə bilərlər [2, s.45]. Müəllim hər hansı audio materialı dinlətməzdən əvvəl mütləq materialı dinləmələrinin səbəbini, dinlədikləri parçadan hansı informasiyanı əldə etməli olduqlarını tələbəyə əvvəlcədən bildirməlidir. Belə olan halda tələbə dinlədiyi parçanın hansı hissəsinə daha çox önəm verməli olduğunu bilir və artıq bu hissəyə fikrini cəmləyərək, informasiya əldə etməyə çalışır. Tələbə qarşısında qoyulmuş məqsədlər onun motivasiyasını qaldırmağa qadirdir. Məqsədlər müxtəlif şəkildə qoyula bilər. Onlardan biri əvvəlcədən hazırlanmış suallardır. Müəllim hər hansı parçanı tələbəyə dinlətməzdən əvvəl, onu suallarla tanış edir və dinləyəcəyi parçadan konkret sualların cavabını tapmağı tələbəyə tapşırır. Belə olan halda tələbə məlumat üçün bütün parçanı dinləyir, suallara cavab tapa biləcəyi hissəyə isə daha çox önəm vererək daha diqqətlə dinləməyə və anlamağa çalışır. Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur [3,s.34]. Biliklərə əsaslanan iqtisadiyyatın təşəkkül tapdığı dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı və onlardan məqsədyönlü şəkildə istifadə olunması elmi potensialın vacib göstəricilərindəndir. Son dövrlərdə İKT-nin artan sürətlə elm və təhsil sahəsinə, xüsusilə də xarici dillərin tədrisi prosesinə tətbiq olunması mühüm dəyişikliklərin bariz nümunəsidir. Linqvistik baxımdan xarici dili ixtisas kimi tədris edən müəllimin qarşısında duran vəzifələr bu dili professional məqsədlərlə öyrənən tələbələrdə motivasiya yaratmaq və iki dilin müqayisəli təhlilini düzgün şəkildə həyata keçirməkdir. Psixoloji cəhətdən isə başlıca vəzifə dilöyrənənlərə danışmağa və müxtəlif sistemlərə aid olan dildə danışan şəxslərin nitqini başa düşməyi mümkün edən müvafiq mexanizmlərinin aşılanmasıdır. Sosioloji baxımdan ən önəmli vəzifə iki dilə mükəmməl şəkildə yiyələnmiş şəxslərin verbal davranışları və ünsiyyətin baş verdiyi sosial situasiya arasında olan qarşılıqlı asılılığın müəyyən edilməsindən ibarətdir. Hər hansı xarici dilə, o cümlədən ingilis dilinə professional məqsədlərlə yiyələnmənin səviyyəsindən asılı olaraq reseptiv, reproduktiv və produktiv bilinqvizmi səciyyənləndirirlər. İkidilliliyin növlərini müəyyən edərkən nitq mexanizmləri arasında olan əlaqələri nəzərə almaq olduqca vacibdir. Xarici dilin ixtisas dili kimi tədrisi prosesində iş kommunikativ yönümlü şəkildə təşkil edildiyi halda tələbələrin sayı da mütləq nəzərə alınmalıdır. Belə ki, İKT əsaslı müzakirələr, rollu oyunlar, debatlar və digər fəaliyyət növləri qrupdakı tələbələrin sayına uyğun olaraq elə təşkil edilməlidir ki, dərslərdə iştirak edən bütün tələbələr maksimum dərəcədə bunlardan faydalana bilsin. Bunları mənimsəməklə,

onlar Amerika və Britaniya ədəbiyyatının klassik nümunələri ilə tanış olurlar. Bu zaman ixtisas dili tələbələrində ətraf aləmə estetik baxış, tənqidi və yaradıcı təfəkkür formalaşır. [3, s.21].

ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, p. 136-143
2. Harmer J. English Language Teaching, 2005, pp. 45-46
3. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

Asadova L.

The ways of using audio and video materials in ELT at senior courses of high schools

Summary

Instructors can help students overcome this reticence by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction, whatever the participants' language skill levels. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of usage of audio and video materials. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety, it is more motivating, and it is also more likely to result in effective language learning. So, it is very important to use audio and video materials in FLT.

Key words: innovation, language, method, technology, speech

Л.Асадова

Пути использования аудио и видео материалов при преподавании английского языка на старших курсах высшего вуза

Резюме

Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке.

Сегодня существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

Ключевые слова: инновация, язык, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ZEYNƏB ARABOVA
ADU
Rəşid Behbudov 134
e-mail: zey.arab67@gmail.com

ALİ MƏKTƏBLƏRDƏ XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ MÜASİR YANAŞMALARIN TƏTBİQİ ÜSULLARI

XÜLASƏ

Müasir dövrümüzdə təhsili bilavasitə inkişafyönümlü bir proses kimi stimullaşdırmaq əsas vəzifəyə çevrilir. Şəxsiyyətin cəmiyyətə faydalı şəkildə formalaşdırılması ən önəmli məqsəd kimi qarşıya qoyulur.

Dildə dəyişikliklərin ən bariz nümunələrindən biri dəyişən zamanın tələbinə uyğun olaraq leksik vahidlərin dilə daxil olmasıdır. Dünyada yeni elmi, sosial-iqtisadi inkişaf baş verdiyindən yeniliklər və dəyişikliklər də qaçılmaz olur. Hazırda dünyada xüsusi rola malik olan və əsas ünsiyyət vasitəsinə çevrilən ingilis dilinin yüksək səviyyədə mənimsənilməsi təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən hesab olunur. İngilis dili vasitəsilə qabaqcıl texnologiyalardan istifadə etməklə dil fakültələri tələbələri özlərinin peşə sahələri ilə bağlı olan dünya təcrübəsindən bəhrələnmək və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyətinə yiyələnməli, rəvan nitqə malik olmalıdırlar. Bu zaman zəngin və yerində işlədilmiş leksik biliklərin mənisənilməsi vacib şərtə çevrilir.

Əminliklə qeyd edə bilərik ki, müasir tələbə informasiya- kommunikasiya texnologiyalarının yeniliklərindən nəinki xəbərdar olmalıdır, eyni zamanda öz gündəlik həyatında və təhsilində onlardan geniş istifadə etməlidir. Dünya təcrübəsində ali təhsil müəssisələrinin qüdrəti onun malik olduğu müasir kitabxanalar, müxtəlif laboratoriyalar, yenilənmiş informasiya bazası və ən əsası, İKT- nin ən son yeniliklərinin tətbiqi ilə ölçülür. Son zamanlar ingilis dilinin tədrisi (ELT) metodologiyası çox sürətlə inkişaf edir, təhsilin müasir texnologiyalara olan tələbatı artır, təhsil modelləri, təhsil prosesi iştirakçılarının rolları tədricən dəyişir. Bu gün innovativ metodlarla mobil təhsil imkanı yaradan yeni vasitələr meydana çıxır. İnformasiya texnologiyasının (İT) nisbətən qısa, lakin sürətlə inkişaf edən tarixi və kompüterin köməyi ilə dilöyrənmə (CALL-Computer Assisted Language Learning) indi özünün fəal dövrünü yaşayır.

Başqa sözlə, bütün bunları düzgün təşkil edərək, neqativ reaksiyalardan fərqli olaraq, pozitiv öyrənmə situasiyaları yaratmalıyıq. Bu mənada dil əsas ünsiyyət vasitəsidir. Dil isə insanın cəmiyyətdəki fəaliyyətinin məhsulu olub onunla birgə inkişaf edir. İnsan sosial varlıq olaraq digərləri ilə cəmiyyətdə kommunikasiya yaradır. Bu zaman dil insan tərəfindən qavranılır, mənimsənilir. Məhz ünsiyyət bir proses kimi bizim əldə etdiyimiz biliklərin, təcrübənin ötürülməsini realizə edir. Belə

ünsiyyət şifahi və ya yazılı formada nitq vasitəsilə təzahür edib insanın lüğət fondunu, yəni leksikonunu inkişaf etdirir, zənginləşdirir.

Açar sözlər: səriştə, motivasiya, dil, nitq, interferensiya

İKT-nin auditoriyaya inteqrasiyası və xüsusən ingilis dilinin tədrisində istifadəsi tələbələrin təhsilində və gələcək peşə həyatlarında uğur qazanmalarına yardımçı olur, bacarıq və vərdişlərin inkişafına zəmin yaradır. Bununla da tələbələr aşağıdakı nəticələrə nail olurlar:

1.Kompüter vasitəsilə sinxron və qeyri-sinxron ünsiyyət qurmaq. Hipermətn (audio və video materiallar), tətbiqi proqramlar: elektron poçt, e-poçt ünvanları, videokonfrans, qlobal şəbəkə ilə tanış olmaq. 2.Şəbəkə etiketi (internetdə davranış qaydalarını öyrənmək). 3.İngilis dilinin tədrisində internetdən istifadə etməyin əsas səbəbləri ilə tanış olmaq. 4.İnternetlə təmin olunmuş auditoriyadan istifadə bacarıqlarına yiyələnmək və tətbiq etmək.5.Gələcək müəllimlərin peşəkar inkişafını təmin edən resuslardan: peşəkar jurnallardan, nəşrlərdən və virtual kitabxanalardan istifadə etmək. Peşəkar birlik və assosiasiyalarla tanış olmaq və onlardan faydalanmaq. 6. İnteraktiv (şəbəkədaxili) seminarlar və konfranslarda iştirak etmək. İngilis dilinin tədris edilməsinə dair internet səhifələri (saytları) ilə tanış olmaq. 7. Müəllimlər arasında əməkdaşlığı genişləndirmək. Kooperativ və əməkdaşlıq şəraitində işləmək. 8. Distant təhsil, CELTA, DELTA, TKT və s. kurslar ilə tanış olmaq və onlardan yararlanmaq. 8. Tələbə əməkdaşlığını gücləndirmək, müəllim və tələbə arasında qarşılıqlı fəaliyyəti həyata keçirmək. 9. Auditoriyadaxili fəaliyyət və layihələr təşkil etmək. 10. Müəllif hüququ və plagiat barədə müzakirələr aparmaq.11. İnternetə əsaslanan kurs hazırlamaq.

İnternetdən istifadə tədrisdə və təlimdə tələbənin uğurunu artırır, onun kamilliyini qiymətləndirir, pedaqoji və texnoloji innovasiyaları zəruriləşdirir. Yazı, oxu, eşitmə və nitq bacarıqlarının inkişaf etdirilməsində internetin rolu əvəzolunmazdır. Eyni zamanda, qeyd etdiyimiz kimi, İKT-nin auditoriyaya inteqrasiyası vacib şərtdir. Universitetlərdə innovativ layihələrin həyata keçirilməsi təhsilin keyfiyyətini yüksəldə, universitetlərin beynəlxalq təhsil məkanına inteqrasiyası prosesini sürətləndirə və ölkənin elm-təhsil imicini yüksəldə bilər.

Bu mənada yeni, texnoloji, innovasiya cəmiyyətində, qlobal rəqabət şəraitində fəaliyyətə, inkişafa hazırlanmalıyıq.

Dilə praktik yiyələnmək üçün dilöyrərənlərə nitq nümunələrini dərindən mənimsətmək, öz bilik və bacarıqlarını maraqlarına uyğun nümayiş etdirmək vacibdir. Bu baxımdan xarici dillərin öyrənilməsi dilöyrənənlər qarşısında ciddi tələblər qoyur. Bu tələblər zəngin söz ehtiyatına, qrammatik qaydalara, düzgün oxu və dil qavrama bacarıqlarına sahib olmaqdır. O zaman tələbə sərbəst danışmaq imkanı əldə edə bilər ki, irəli sürülən tələblər tələbələri cüt və ya qrup halında interaktiv təlimlə danışıq prosesinin düzgün təşkilinə, müstəqil işləməyə təhrik edər. Müstəqil işləmə bacarığı onların motivasiyasına da yüksək təsir göstərir[1,s.136]. Motivasiya mexanizminin avtomatlaşması dilöyrənənlərin fəaliyyətini artırır, onların

yaradıcı və tənqidi təfəkkürünü inkişaf etdirir və müstəqil işləmək bacarıqlarına yiyələndirir. Bu zaman müəllimin rolu danılmazdır. Müəllimin əsas fəaliyyəti yönəldici xarakter daşımalı və bəzi vəziyyətlərdə isə o köməkçi rolunda çıxış etməlidir. Motivasiyaedici mühit müəllim və təhsilalanların münasibətləri, onların əməkdaşlığı üçün müəllim və tələbə qrupu arasında səmərəli ünsiyyət yaradır. Lakin özünün bütün üstünlükləri ilə yanaşı bu heç də həmişə asan başa gəlmir. Bu müəllimdən böyük zəhmət, səbr tələb edir. Çünki əvvəlcə müəllimin həyata keçirmək istədiyi dilöyrənənlərə bir qədər maraqsız görünə bilər, ancaq zaman keçdikcə onlar bunun dərinliklərini anlayır, bacarıqlara əsl mənada sahib olurlar. Buna görə də müəllim motivasiyanın formalaşdırılması yollarını özü üçün aydınlaşdırmalı, ondan istifadə edəcəyini müəyyən edərək fəaliyyətə başlamalıdır. Müasir dövrdə yüksək inkişaf etmiş texnologiyalar da motivasiyanın formalaşdırılmasında müəllimə böyük kömək edir. İnformasiya kommunikasiya texnologiyalarının həyatımıza nüfuzu təhsildə motivasiyanın yaradılmasında da mühüm rol oynayır və innovativ tədrisi daha səmərəli, maraqlı etməyə vasitəçi olur. Bütün qeyd edilən vasitələrdən istifadə müəllimdən yüksək İKT, idarəedici və kommunikativ qabiliyyətlər tələb edir və bununla yanaşı motivasiyalı dilöyrənənlərin maksimum fəallığına nail olmağa imkan verir. Sadalanan bu yeniliklər əksər hallarda motivasiya mənbəyinə çevrilir. Digər tərəfdən innovativ tədris metodlarına alışmış motivasiyalı tələbələrlə işləmək müəllim üçün daha asan olur, çünki bu zaman hər bir müəllimə xas olan xüsusiyyətlər, onun dəsti-xətti öz əksini tapır. Müxtəlif innovasiyaların meydana gəlmə səbəbi ilk növbədə tədris edilən ayrı-ayrı fənlərin məqsədlərinin dəyişikliklərə uğraması nəticəsində yaranmışdır.

Beləliklə, motivasiyanın yaradılması zamanı interaktiv təlim metodundan istifadə tələbələri nəinki yeni biliklərlə zənginləşdirir, həmçinin onlarda düşünmə qabiliyyətini və müstəqil bilik əldə etmək, mənimsəmək bacarıqlarını formalaşdırır. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər dilöyrənənlər üçün xarici dilin praktik cəhətdən öyrədilməsinə şərait yaradır, onların kommunikativ bacarıqlarını formalaşdırır və idrak fəaliyyətini fəallaşdırır.

Bu gün nitq vərdişlərinin inkişaf etdirilməsi deyil, daha çox kommunikativ səriştəyə yiyələnmək zərurəti meydana çıxır. Bu mənada təlimdə motivasiyaedici çalışmaların da rolu olduqca böyükdür. Bütün bunlar tələbələrin ünsiyyət qurmağı öyrənməsi üçün təqdim edilməlidir: başqalarını dinləmək, başqaları ilə danışmaq, verilən kontekstdə mənanın müzakirəsi. Bu təlim üsulu keyfiyyətli bilik və bacarığa yiyələnməyə xidmət etməklə yanaşı, təhsilalanlarda təfəkkürün inkişafına şərait yaratmalıdır. İnteraktiv təlimdə bu cür təfəkkür- idraki proseslərin inkişafına müxtəlif qrupdaxili işlər, qruplarda müxtəlif fəaliyyət layihələrinin hazırlanması, problemlərin fərdi və qrup şəklində həlli vasitəsilə nail olunur. Bu üsul tələbələri müstəqil düşünməyə, qərarlar qəbul etməyə və tədqiqata istiqamətləndirir. Dərsin səmərəli təşkili yalnız o zaman mümkün olur ki, bütün təhsilalanlar fəaldırlar və onlar həqiqətən nəsə öyrənə bilirlər. Dərsdə passiv dilöyrənənlər olduqda interaktiv

təlimin zəngin vasitələrindən olan intensiv sual- cavaba, rollu oyunlara, cütlüklərlə və ya qrup şəklində işlərə müraciət etməklə onları fəal iştiraka ruhlandırmaq lazımdır.

Yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif yanaşmalardan biri də müxtəlif kompüter proqramlarından istifadədir. Müxtəlif kompüter proqramlarından istifadə fəal təlim üsulunu zənginləşdirən elementlərdən biridir. Elektron vasitələrdən istifadə etmək üçün ilk növbədə müəllimin kompüter bilikləri olmalı və o, onlardan istifadəni bacarmalıdır.

Proqramlar içərisində Power Pointə önəm verilir. Məhz bu proqram vasitəsi ilə müəllim mövzuya uyğun müəyyən slaydlar hazırlayaraq ,vizual görüntü yarada və əyani vəsait kimi ondan istifadə edə bilər. Tələbələr eşitdiklərini vizual gördükləri zaman mövzu daha aydın və maraqlı olur[2,s.58]. İnteraktiv təlim ənənəvi təlim metodlarından tamamilə fərqli yollarla həyata keçirilir. İnteraktiv təlimdə müəllimin rolu köməkçi və bələdçi, şagird və tələbənin rolu isə fəal tədqiqatçı və iştirakçı kimi dəyişir. İnteraktiv metodların istifadəsi zamanı müəllim tələbələrin səmərəli ünsiyyəti və qarşılıqlı əlaqəsi üçün bütün lazımi şəraiti yaradır. Əsas rol dilöyrənənlərə verilir. Təlim prosesinin psixoloji mühitini müsbətə doğru dəyişmək üçün tələbələrin problemin həllinə yönəldilmiş istənilən cəhdi və ya fikri yüksək qiymətləndirilərək, ciddi və hörmətlə qarşılanır. İnteraktiv təlimdən istifadə zamanı dilöyrənənlərə hörmətlə yanaşmaq, onlara etibar etmək, onların cavablarını qiymətləndirmək həm özünə inam, həm də müəllimə hörmət və etibar hissini daha da artırır [3, s.45].

Ədəbiyyat

1.Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, pp. 136-143
2.Bailey K.M. and D. Nunan (Eds.) Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996, 451p.
3.Harmer J. English Language Teaching, 2005, pp. 45-46

Arabova Z.

The ways of usage of modern approaches in Foreign Language Teaching at high schools

Summary

Inter-language actually helps second language learners test hypotheses about how language works and develop their own set of rules for using language.

However, there is a difference between written and spoken language. Written language is lexically richer than spoken language and it can, therefore, provide more learning opportunities than a spoken context. Consequently, a student who is an eager reader encounters more words than a student who reads less. In addition, regular reading is likely to lead to more efficient access of word meanings. A student

who reads also outside school has many opportunities to acquire and improve vocabulary knowledge through inference from context. World knowledge comes from experience and from previously read texts. Skilful comprehenders use discourse knowledge to connect text elements in a consistent fashion and to connect the content to the messages of the writer. Discourse knowledge includes for instance, the structure of different genres, the main messages the author intends to convey, and the topic structure. Linguistic knowledge includes oral language capacities – production and comprehension – and the ability to reflect one's knowledge of language. Skilful reading requires knowledge of all linguistic levels – phonology, morphology, syntax, and higher level discourse structures. In addition, comprehension often involves integrating non-print information. Their goals are gaining knowledge, enjoying literature, locating specific information, and learning from text. Motivation consists of multiple aspects. The students with strong sense of competence are likely to engage. In addition, when children are inherently motivated to read, value reading highly, and are mastery-goal oriented, they are more likely to engage in reading. These strategies can reflect conscious awareness or become automatic with practice. The use of a meta-cognitive strategy is activated by the reader's assessment of his or her own cognitive state. So, the use of modern approaches are very useful and important.

Key words: competence, motivation, language, speech, interference

Арабова З.

Пути употребления современных подходов при преподавании иностранного языка на высших вузах

Резюме

Для того, чтобы сделать процесс обучения речевой коммуникации на языке специальности более эффективным, преподаватель должен содействовать созданию обстановки, когда и обучающий, и обучаемые чувствуют себя достаточно комфортно, в том или ином академическом контексте, понимают цель речевого общения, и осведомлены о способах достижения этой цели с помощью использования ранее усвоенных лексических единиц, грамматических структур, интонационных моделей и речевых образцов. Знание потребностей студентов и целей, в которых они изучают тот или иной иностранный язык, позволяет специалистам в области преподавания иностранных языков, а также практикующим учителям языков разрабатывать наиболее эффективные методы их достижения.

Современная методика преподавания иностранных языков, основанная на коммуникативной модели обучения языку, предполагает обучение иноязычноречевой компетенции в определенном коммуникативном контексте путем сочетания основных компонентов языковой системы и при условии

обеспечения коммуникативного контекста с помощью ситуаций и тем, и реализации и усвоения лингвистических единиц в функциональных целях.

Сегодня подавляющее большинство изучающих иностранные языки, вообще, и английский язык, в частности, преследуют цель овладения умением речевого общения на изучаемом языке. Именно поэтому внимание как ученых методистов, исследующих теоретические вопросы обучения иностранным языкам в системе высшего и среднего образования, так и практикующих учителей иностранного языка должно быть в первую очередь сфокусировано на проблеме обучения языку как средству речевой коммуникации. Совершенно естественно, что при выборе наиболее целесообразного метода или методов обучения коммуникации на иностранном языке предпочтение должно быть отдано коммуникативному подходу к обучению языкам.

Ключевые слова: компетенция, мотивация, язык, речь, интерференция

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

LƏTAFƏT ƏLİYEVA
BDU
Zahid Xəlilov
latafat_aliyeva@mail.ru

EMOSİONAL İNTONASİYANIN KOMMUNİKATİV FUNKSİYASI

XÜLASƏ

Məqalədə intonasiyanın emosionallıq cəhətdən kommunikativ funksiyasından bəhs edilir. İntonasiya dilçilikdə fonetik, leksik, sintaktik hadisə kimi dəfələrlə tədqiq olunub. İntonasiya nitqə müxtəlif səs tərtibatı verməklə, həm sözlərin düzgün tələffüzünə, həm də sözlərin əsas mənasına əlavə rəng qatmaqla anlaşılmasına kömək edir. Semantik-sintaktik baxımdan isə cümləni formalaşdırır, ünsiyyətin yaranmasına xidmət edir. Kommunikatorun emosional vəziyyəti, resipientə münasibəti onun intonasiyasında müşayiət olunur. Danışan rəngarəng intonasiya çalarlarından istifadə etməklə nitqin məzmununa uyğun hisslərini ifadə edə bilir. Mövzunun aktuallığı kommunikasiyanın genişləndiyi müasir dövrdə insanlar arasında səmimiyyət, empatiya yaratmaq, hiss və duyğuları düzgün ifadə etmək baxımından intonasiyanın emosional xüsusiyyətlərini nəzərə carpdırmaqdır. Məhz intonasiyanın emosional mənalar kəsb etməsi onun kommunikativliyini təmin edir. Mövzunun məqsədi ünsiyyətdə ifadəli, təsirli, inandırıcı nitqə nail olmaq üçün intonasiyanın əhəmiyyətini izah etməkdir. Məqalədə informasiyaya uyğun intonasiyanın emosionallıq yaradan komponentləri (vurğu, melodiya, temp, tembr, fasilə) haqqında məlumat verilmişdir. Bunlar rəngarəng və müxtəlif hisslərin, insanın əhval-ruhiyyəsinin, hətta fikrin ifadə olunmasına yardım edir. İntonasiya nitqin məzmununa, danışanın məqsəd və niyyətinə görə dəyişdiyindən, rəngarəng emosional məna çaları kəsb etdiyindən onu müxtəlif rakursdan tədqiq etmək olar. Biz məqalədə emosional intonasiya haqqında ozünəməxsus bir tərzdə fikir söyləməyə çalışmışıq.

Açar sözlər: emosional intonasiya, kommunikativ funksiya, ekspressiv, intonasiya çalarları, vurğu, temp, tebr, melodiya, fasilə.

Nitq təkcə fikir deyil, insanın daxili duyğularını, emosiyalarını da ifadə edir. Kommunikasiya insanların psixoloji vəziyyətindən asılı olaraq emosional-ekspressiv nitq şəraitində onların səmimiyyətinə uyğun şəkildə baş verir. Səmimiyyət ünsiyyətin vacib məsələlərindən biri kimi insanların bir-birinə ən güclü təsir vasitəsidir. Cünki səmimi insanlar düşündükləri kimi danışır, onların nitqi həqiqəti əks etdirdiyi üçün inandırıcı olur və dinləyicidə maraq oyadaraq söhbətə qoşulmaq duyğusu yarada bilir. Empatik dinləmə ilə danışanın emosional vəziyyəti qiymətləndirilir, bu isə qarşılıqlı anlaşmanı təmin edir. Nitq məntiqi söz, ifadə, cümlələrdən ibarət olmaqla yanaşı, həm də ifadəli, təsirli, emosional olmalıdır. “Kommunikativ uğur öz

emosiyalarını ifadə etmək bacarığıdır”(11,s.56). Belə nitq dinləyicinin dıqqətini cəlb edir.

Kommunikasiya zamanı insanlar fikirlərini, emosiyalarını həm verbal, həm də qeyri-verbal vasitələrin köməyi ilə bir-birinə ötürürlər. Qeyri-verbal vasitələr fikrin düzgün anlaşılmasını təmin edir, nitqin mahiyyətini üzə çıxarır. “Dildə ünsiyyətin təbiiliyini təmin edən emotiv vasitələr vardır. Paralinqvistik vasitələr nitqi müşayiət etməklə kommunikasiyanın emosional tərəfini tamamlayır, müsahibin həmin andakı vəziyyəti (sakit, həyəcanlı, inamlı, yorğun və s.) barədə əlavə məlumat verir. Paralinqvistik vasitələr dil vahidləri ilə paralel istifadə oluna bilər”(1,s.96). Ümumiyyətlə, qeyri-verbal vasitələrin özəlliyi onların situativ xarakter daşımasıdır. Belə ki, onlar ünsiyyət prosesində situasiya və kontekstə uyğun olaraq düşünülmədən, ani olaraq təbii yolla nitqi eyni vaxtda idarə edərək insanın emosional vəziyyətini müəyyən edir.

Kommunikasiya zamanı fikri düzgün, dəqiq və aydın çatdırmaq, cümlələrin ekspressivliyini təmin etmək, nitqin məzmununa uyğun hissləri ifadə etmək üçün intonasiyanın böyük rolu vardır.

İntonasiya emosiyaları ifadə edən akustik vasitədir. Onun mahiyyəti nəfəsin, səsin, artikulyasiyanın əlaqələndirilməsindən ibarətdir. Söylənilən fikirlərin, hissi halların münasib səs tərtibatı, avazla verilməsi uçün intonasiya elementlərindən (vurqu, fasilə, melodiya, ton, temp, tembr) düzgün istifadə etməyi bacarmaq lazımdır. Maraqlı və canlı danışıq səslərin deyiliş tərzi, işlənmə forması, unsiyyət şəraitinə görə səsin gücünün tənzimlənməsi, nitq sürətinin gözlənilməsi, intonasiyaya, ifadəliliyə əməl olunması ilə tənzimlənir. Beləliklə, şifahi nitqdə səsin akustik əlaməti cümlənin leksik-sintaktik əsası ilə bütövlük təşkil edərək informasiyanın tam, dolğun çatdırılmasını təmin edir. “Nitq ancaq emosional boya kəsb etdikdə təsirli olur, dinləyicini daha cox maraqlandırır. Məlumdur ki, danışan eyni zamanda müsahibinin qəlbinə, hisslərinə təsir etmək, onda müxtəlif emosiyalar oyatmaq, eşidənləri nəyəsə sövq etmək, nədənsə çəkindirmək və s. məqsədlər qarşısına qoyur. Belə hallarda nitq rəngarəng ifadə çalarları kəsb edir, emosional boyalarla müşayiət olunur. İntonasiya baxımından zəngin olan nitq maraqla dinlənilir”(2, s.61-62).

Kommunikatorun emosional vəziyyəti, resipientə münasibəti onun intonasiyasında müşayiət olunur. “İntonasiya danışan və dinləyən arasında qarşılıqlı anlaşma üçün bir körpü rolunu oynayır”(10,s.193). İntonasiya danışanın xarakterini açır, məqsədini müəyyənləşdirir, səmimiyyətini üzə çıxarır, deyilənin həqiqi mahiyyətini əks etdirir. Deməli, hisslərimiz həm sözlər, həm də intonasiya vasitəsilə ifadə olunur. Insan düşüncələrinin hisslərlə doğru çatdırılmasında emosional leksikanın rolu böyükdür. Sözlər emosiyanı semantik yolla izah edərək, insanların bir-birini anlamasını və qarşılıqlı təsir göstərməsini təmin edir. Dilimizin lüğət tərkibi insanın hiss və duyğularını, emosional vəziyyətini bilavasitə ifadə edən leksik vahidlərlə zəngindir: sevinmək, həzz almaq, şadlanmaq, xoşhallanmaq,

qəzəblənmək, təəccüblənmək, qorxmaq, həyəcanlanmaq, diksinmək və s. Məsələn: Bunların hamısı nədənsə, nəcib, təmiz, saf bir qəlbin nişanəsi kimi mənə cox xoş gəldi(8,s.22); Həkimin sözündən sonra Bəhramı təzədən diriltmiş kimi sevinirəm(8,s.54); Mən xoşbəxtəm, bütün müntəzirlərin axırını xeyir, xoşbəxt istərəm(8,s.226); O mənə qəzəbləndi və ölümə hökm verdi(8,s.69); Mən təəccüb elədim, deyəsən Mirzənin xörəyi başqa yerdə hazırlanır(8,s.51); Açıq de görüm. Mən sənə nə yazmışam, məni nə haqq ilə təhqir edirsən(8,s.25); Yalvardım ki, camaat yığılmamış məni zala apar(8,s.30); Bu hiss məni daha da əsəbləşdirdi(8,s.54).və s.

Göründüyü kimi, emosional leksika insanların hisslərini, əhval-ruhiyyəsini müstəqim ifadə etməklə, adlandırmaqla yanaşı, onların emosional vəziyyətini, münasibətini də təsvir edir. Emosional intonasiya isə ritmik-melodik sistem olub fikrə obrazlı qiymət verir, nitqə müxtəlif səs tərtibatı verməklə sözlərin əsas mənasına əlavə rəng, çalarlıq qatır, danışanın emosional vəziyyətini daha düzgün, ifadəli əks etdirir. İntonasiya danışığın məzmununu dolğunlaşdırır, inandırıcılıq, təbiilik yaradır, insanlar arasında ünsiyyəti təmin edir. “Digər qeyri- şifahi vasitələrdən intonasiya duyğunu daha cox çatdırır, yalnız texniki parametrlərlə deyil, həm də semantik əsasla – psixoloji fasilələr, vurğu ilə birlikdə nitqi canlı, dolğun, təsirli edir”(7,s.50).

İntonasiya çalarları vasitəsilə danışanın nitqində müxtəlif emosional vəziyyətlər ifadə olunur. ”İntonasiya nitqin semantik mənasını genişləndirməklə yanaşı, fikrin ən incə çalarlarını da çatdırır”(12,s.153). İntonasiyalı nitqin ifadə tərzi nəzərdə tutulmuş məqsədin, ideyanın dinləyiciyə asan çatmasına şərait yaradır. Məsələn: Sevinmək: -Sizləri görəndə, sizin kimi irəli gedən cavanları görəndə elə bilirəm öz oğlumu , öz kiçik oğlumu, öz kiçik qardaşımı görürəm(8,s.45). Bu cümlədə hisslərə təsir edən məhəbbət dolu ifadələrin intonasiyası yüksək pafosu ilə seçilir, şən, sərbəst səslə deyilməsi nəzərə çarpır.

Fərəhlənmək: Bəşəriyyət hamısı analar qəlbi ilə yaşasaydı, dünya başdan-başa bir cənnət olardı(8,s.77). Burada ürəkdən gələn duyğu, səmimilik nitqin intonasiyasında özünü biruzə verir.

Qayğı: -Sənin yolunda at da minərəm, beşaçılan götürüb , qatar da qurşaram. Ay ürəyimin bəndi oğul!(8,s.83). Bu intonasiya çalarında insanın daxili aləminin saflığı, qayğıkeşliyi hiss olunur.

Qəzəb: Kimi aldadırsan? Onu bil ki, qabağındakı bəbə deyil ha! Sən oxuyanı, mən toxumuşam(8,s.25).

Əsəbləşmək: Mən ciddi danışmaq istəyirəm. And olsun vicdana. Sənə bir toy tutduraram, külün göyə sovrular, buyur, düş qabağıma, gedək məhkəməyə , görək sən nə haqq ilə bunu mənə yazırsan!(8,s.24). Qəzəb, əsəb bildirən intonasiyada kəskin fikirlər, sərt ifadələr, qarşıdurma ifadə olunur.

Məyusluq: Hanı mənim yoldaşlarım? Dostlarım? Hanı könül vermək istədiyim? İndi mənim könlüm-kənara atılmış köhnə bir kitab onun nəyinə

lazımdır...(8,s.253). Burada insanın kədəri, inamsızlığı mənfi emosiyaya köklənmiş intonasiya ilə verilmişdir. Belə nitq dinləyicidə də nikbinlik hissi yaradır.

Həyəcan: Ay, rəhmətlik oğlu, nə oturmusan, badamlığı kəsdilər! (8,s.101). Burada danışan coşqun intonasiya ilə dinləyənin psixikasına mənfi təsir göstərərək onu da həyəcan keçirməyə sövq edir. Əgər o, xəbəri özünüzü ələ alın, heyifsilənməyin kimi ifadələrlə, təsəlliverici sakit tonla desəydi, adresata yardım göstərə bilərdi və inam hissi yaratmış olardı.

Qorxu: Bu gün yoldaşımın başına gələn iş, Allah eləməmiş, dilim qurusun, sabah Nəcəfin başına gəlsə, mən neylərəm, əlimdən nə gələrdi?(8,s.294).Qorxu hissi ilə deyilmiş intonasiyada inamsızlıq, çaşqınlıq ifadə olunur.

Göründüyü kimi, danışan intonasiya çalarları vasitəsilə məqsədinə müvafiq şəkildə söz və ifadəyə müxtəlif məna rəngarəngliyi verir, emosional vəziyyətini nümayiş etdirməklə onun məzmumunu genişləndirir, adresata münasibətini ifadə edir. ”Əgər natiq bütün varlığı ilə nitqin məzmununa daxil olaraq danışdığından başqa hər şeyi unudursa , onun səsi yaxşı və düzgün səslənərək dinləyicilərə ötürmək istədiyi hissləri əks etdirəcəkdir.”(9,s.242).

İntonasiya çalarları dilimizin sintaksisi, sintaktik quruluşların tələffüzü ilə daha cox bağlıdır. Nitqimizdəki sözlər, ifadələr, cümlələr intonasiya çalarlarına görə müxtəlif deyiliş tərzinə malikdir, yəni cümlənin nə məqsədlə deyilməsi cümlədəki sözlərin necə səslənməsinə təsir edir. “Cümlə üzvlərində diksiya, tonun yüksəkliyi, səsin gücü, nitqin tempi, səsin tembri kimi intonasiya çalarları fəaliyyət göstərir və cümlə üzvlərinin düzgün qruplaşdırılmasını, sintaktik əlaqələrin formalaşmasını təmin edir. Danışanın məqsədi, arzuları ilə əlaqədar olduğundan modallıq bildirir, hətta cümlənin məqsədə görə növü müəyyənləşir”(6,s.279). Məqsəd və intonasiyaya görə cümlənin növləri (nəqli, sual, əmr, nida) fərqli intonasiya ilə söylənilərək dinləyiciyə də müxtəlif təsir bağışlayır. Məsələn: Muxtar ilə danışdım. O da bərk etiraz edir. İşini Bakı komitəsinə bildirəcəyik. Verdiyev ilə ağızlaşdım. Daha qəti danışacağam(8,s.207.);

-De görüm, sən nə üçün partiya təşkilatının qoyduğu məsələyə protiv gedirsən? Sabotaj eləyirsən? Atım səni komsomoldan bayıra?(8,s.163); Mümkün qədər tez qayıt. Gedib kənddə qalma. Atan barədə kağız-kuğaz düzəlt, gəl, təşkilat bizim tərəfimizdədir. Ruhdan düşmə, irəyinə salma...(8,s.207);

-Yaşasın bəyimizin qayınanası!

-Təbiətin gizli qüvvələri mübarək eləsin!

-Təbiət hamıya qayınana yetirsin!(8,s.34).

Bu cümlələrdə səs tonunun qalxması və enməsi, səsin müxtəlif çalarlar üzrə dəyişməsi müşayiət olunur. Göründüyü kimi, intonasiya semantik-sintaktik mənaya malik olub, fikrin, nitqin məzmununu dəqiq və aydın şəkildə çatdırmaq üçün cümlələrin ekspressivliyini təmin edir. Cümlə intonasiya vasitəsilə formalaşır və müəyyən fikir ifadə edir. Cümləni təşkil edən söz, ifadə və cümlə üzvlərinin özünəməxsus intonasiyası onların qrammatik cəhətdən, forma və məzmunca bir-

birinə bağlanmasını təmin edir. İntonasiya baxımından düzgün qurulmuş nitq insanların marağına səbəb olur. ”Ünsiyyət prosesində danışan ən mühüm , daha zəruri sözləri ayırıb nəzərə çatdırdıqda intonasiyanın göstərilən funksiyası xeyli aktuallaşır. Kommunikativ funksiyanın mahiyyəti onunla izah olunur ki, o, cümləni müstəqil kommunikativ vahid, daha doğrusu, ən kiçik ünsiyyət vahidi kimi formalaşdırır. İntonasiya ünsiyyət iştirakçıları arasında imperativ vahidlər, vokativ sözlərdən istifadə etməklə əlaqə yaradılmasına, bu əlaqənin davam etdirilməsinə, söyləmin sona yetdiyini göstərməyə xidmət göstərir. Odur ki, intonasiyanı idarə etmək , ondan bəhrələnmək danışanın ali məqsədi olmalıdır(4,s.122).

Kommunikasiyanın effektli olması üçün danışanın hisslərinin ötürülməsi və anlaşılması vacibdir. Nitqin emosionallığını təmin edən vasitələr intonasiya komponentləridir. Onların hər biri ayrılıqda konkret funksiya daşısa da, bütövlükdə avazlanma yaradır, nitqin ifadəliliyini, emosionallığını, estetik zənginliyini təmin edir. Deməli, kommunikasiyanın uğurlu olması üçün danışan səs mədəniyyətinə yiyələnməlidir, yəni ünsiyyət şəraitinə uyğun olaraq səsin keyfiyyət xüsusiyyətlərini məharətlə tənzimləməlidir. Çünki bunlar rəngarəng və müxtəlif hisslərin, insan əhval-ruhiyyəsinin, hətta fikrin ifadə olunmasına yardım edir.

Vurğu. Vurğu şifahi nitqin düzgünlüyünə, sözün leksik mənasının dəqiqləşdirilməsinə, qrammatik formasına görə fərqləndirilməsinə, emosiyanın müəyyənləşməsinə xidmət edir. Fikrin təsirli, cazibəli, emosional formada verilməsində məntiqi və həyəcanlı vurğunun rolu böyükdür. ”Cümlədə xüsusi məna çalarlığını ifadə etmək məqsədi ilə cümlə daxilindəki müəyyən sözü başqalarından tələffüzcə fərqləndirmək üçün sözə əlavə olunan tona məntiqi vurğu deyilir”(5,s.133). Məntiqi vurqu altında olan söz cümlədə müəyyən məna yükü daşıyaraq danışanın məqsədini müəyyənləşdirir. Bütün cümlə üzvləri məntiqi vurğulu ola bilər. Şifahi nitqdə danışan hər bir sözü xəbərin yanına gətirmədən də digərlərinə nisbətən qüvvətli tələffüz etməklə mənasını qabarıqlaşdıra bilər. Dilimizin təbiətinə uyğun olaraq məntiqi vurğulu söz yazılı nitqdə xəbərin əvvəlində işlədilərək sözün, ifadənin mənasını xüsusi nəzərə çarpdırır. Məsələn: Ağarza dostunun məsləhəti ilə təkrar kəndə qayıtdı (8,s.105) cümləsində əsas məqsəd Ağarzanın kəndə qayıtmasını dinləyiciyə çatdırmaqdır. Buradakı digər sözləri də məntiqi vurğu altında söyləmək olar: Dostunun məsləhəti ilə təkrar kəndə Ağarza qayıtdı cümləsində əsas fikir, başqasının yox, Ağarzanın kəndə qayıtmasını; Ağarza təkrar kəndə dostunun məsləhəti ilə qayıtdı cümləsində Ağarzanın məhz dostunun məsləhəti ilə kəndə qayıtmasını; Ağarza dostunun məsləhəti ilə kəndə təkrar qayıtdı cümləsində isə Ağarzanın kəndə təkrar, yenidən qayıtmasını diqqətə cəlb etməkdir. Göründüyü kimi, bu cümlələrdə məqsədə görə sözlərin ifadə forması dəyişir. Məntiqi vurğu altına salınan söz aktuallaşır, fərqli emosional məna çalarlıqları yaranır. Digər bir cümləyə nəzər salaq: Qəlbimi, arzumu, hissimi, gələcəyimi, bəlkə də bütün varlığımı dağlarda qoyub gedirdim(8,s.35). Burada həmcins üzvlərin hər biri vurğu altında sadalayıcı intonasiya ilə tələffüz olunur. Danışan dinləyənin fikrini həmin

sözlərə yönəltməyə çalışır, axırıncı (bəlkə də bütün varlığımı) həmcins üzvü daha qüvvətli vurğuluyaraq məqsədinə çatır və nitqin emosionallığını artırır. Cümlədə eyni sözün təkrarı da məntiqi vurğunun ifadə etdiyi emosionallığı nəzərə çarpdırır. Məsələn: -Bilirsən nə var, Leyla can, biz gərək işləyək! İşləyək! Lap möhkəmcə işləyək!(8,s.62). Burada danışanın məqsədi işləməyin vacib olduğunu vurğulamaqdır və bilərəkdən sözü xüsusi tonla təkrar edir. Basqa bir misal: Yemiş, nə yemiş! Öz özünə tağda çathaçat cırılan yemiş!(8,s.40). Burada isə məqsəd yemişi tərifləməkdir. Bəzən, birinci cümlədəki sözün ikinci cümlədə mənasının açılması məqsədilə təkrar işlənməsi onun məntiqi vurğu altında tələffüzünü yaradır. Məsələn: Aman ovçu, vurma məni, Mən bu dağın maralıyam!(8,s.186). Beləliklə, məntiqi vurğu düşən söz məna, məzmun, məqsədə görə seçilərək kommunikativ yuk daşıyır. Xitablar da məntiqi vurğulu olur. Hissi halları ifadə edən cümlələrdə dinləyicinin diqqətini söylənilən məsələyə cəlb etmək məqsədilə işlənir, ekspressivliyi artırır, məna çalarları yaradır. Məsələn: -Rübabə, inan ki, mənim indiki söhbətim tamam səmimi bir yoldaş söhbətidir(8,s.278); Yoldaş həkim, tələsmək lazımdır(8,s.18); -Haran ağrıyır, ay ana, nəyindir, dərdin nədir, ana can?(8,s.53); -Ay qız, sən nə yaman kəmhövsələ imişsən(8,s.262).

Nitqin emosionallığını artıran vasitələrdən biri də həyəcanlı vurğudur. Həyəcanlı vurğu danışıq zamanı emosional vəziyyətləri ifadə edir. Məntiqi vurğu ilə bir söz həyəcanla deyilirsə, həyəcanlı vurğu ilə ən azı bir cümlə, bir abzas yüksək intonasiya ilə deyilir. Məsələn: Yaxşı, baxarıq, ay artist qızı! Səni ayağıma gətirməsəm, qabağımda ağladıb, diz çökdürməsəm Gəlgiyev deyiləm, Getdiyevəm. Sən məni arıçı oğluna satırsan? Sən məni iki pulluq eləmək istəyirsən, yaxşı, görərsən, başına, dizinə döyəndə görərsən!..(8,s.199). Məntiqi vurğu sözü məna, həyəcanlı vurğu isə sözü hiss-həyəcan cəhətdən müəyyənləşdirir. Məsələn: Qissa xanım: -Vaaay! Günüm vaaay...Elim vaaay!..Vaxseeey öldüm vay!(8,s.59); O güldü, dodaqlarını büzüb başı ilə "yox" işarəsi etdi, dili ilə də dedi:-Yoox!Yoox a... a!(8,s.21). Həyəcanlı vurğu danışanın daxili hissinin, həyəcanının səslərlə ifadəsidir, bu zaman sozlərdəki sait və ya samit səslər uzadılaraq daha gərgin, qeyri-adi şəkildə tələffüz edilir.

Həyəcanlı vurğu sözü emosionallıq cəhətdən gücləndirir, daha cox nida cümlələrində və nidaların tələffüzündə özünü göstərir. Nidalar insanın müxtəlif hisslərinin, hadisələrə emosional münasibətinin ifadəsini bildirdiyi üçün həyəcanlı vurğu ilə deyilir. Məsələn: Ah, mən də uşaq olsaydım!(8,s.23); Ox..Ay Allah... Bu ki uşaqdır!(8,s.25); - Tfu sənin murdar sifətinə! Tfu alçaq üzünə sənin, tfu!(8,s.161); O, özünü yataqda qan-tər içində gördü: "Of, ay aman!"(8,s.251); -Məxluqa bax, ay Vahid! Adama bax! Düzü–dünyanı götürüb...Vay atannan hey!(8,s.252); Ay hay! Sən də qəribə danışırsan(8,s.49) və s. Nida cümlələri fikrə emosional münasibət bildirərək yüksək tonla tələffüz olunur. Məsələn: -Qaz boynu kimi boynunu uzatma! Kişi ağzında qızıl kimi söz danışır!(8,s.39); Əyləşin bir stəkan cay için!(8,s.173); Getsin o günlər gəlməsin, ay İsmayıl!(8,s.183); Mən başa düsə bilmirəm ki, Muxtar

nə danışır! Bu nə havadı çalınır!(8,s.202);- Yaşasın bəyimizin qayınanası!(8,s.34) və s. Nida cümlələrinin cox vaxt müxtəlif nidalarla işlədilməsi hissi-emosional keyfiyyəti artırır.

Beləliklə, məntiqi və həyəcanlı vurğu ünsiyyətdə həmsöhbətlər arasında münasibətlərin parlaq emosionallığını əks etdirir.

Temp.Temp sözlərin iti və asta tələffüzüdür, yəni səslənmə müddətidir. Burada fasilənin uzunluğu və intervalları, hecaların uzadılıb yığılması nəzərə alınmaqla mətnin söyləndiyi vaxt nəzərdə tutulur. Nitqin sürəti danışanın emosional vəziyyətini müəyyənləşdirir. Temp itidirsə danışanın həyəcanlı, zəifdirsə sakit olmasına dəlalət edir. Əgər nitqdə nəsə vurğulanarsa, mühüm və mürəkkəb fikir söylənilərsə tempi azaltmaq, lakin hər hansı fikir pafosla deyilərsə, onda da tempi artırmaq lazımdır. Deməli, nitqin sürəti müxtəlifdir, aşağı, yuxarı və orta ola bilər. Bu danışanın fərdi xüsusiyyətlərindən, nitqinin məzmununun xarakterindən, tələffüz üslubundan, emosional əhval-ruhiyyəsindən asılıdır. Sürətli nitq səs-küy kimi qarşılanır, intonasiya ilə bağlı qüsurlara gətirib çıxarır ki, bu da qarşılıqlı anlaşmanın əldə olunmasını sual altında qoyur. İti templə danışarkən , səslərin öz məxrəcində deyilməməsi, bəzən də səslərin, hecaların tələffüzdən düşməsi, sözlərin yarımçıq tələffüz halları baş verir. Belə nitqi eşitmək və qavramaq çətin olur, kommunikasiyanı uğursuz edir. Danışıq sürəti cox aşağı olan nitqdə isə dinamika zəif olduğundan sözlər, nitq taktları, cümlələr arasındakı fasilələrin müddət ölçüləri normadan artıq olur, nəticədə dinləyici yorulur və eşitdiyini mənimsəyə bilmir. Deməli, sürətin normaya uyğunsuz avazlanması mənanın da təhrif olunmasına gətirib çıxarır. Hər iki hal kommunikasiyanın uğursuzluğuna səbəb olur. Ona görə də orta templə verilən məlumat dinləyici tərəfindən dərk olunur və ideal sayılır.

Tembr. "Nitqin tembri ilk növbədə emosional- ekspressiv çalarlıqları (qəm, kədər, sevinc, razılıq, etiraz və s.) əks etdirən səs tonlarının kompleksidir"(4,s.121). Səsin xüsusi keyfiyyəti olub insanın psixiki vəziyyətindən, əhval-ruhiyyəsindən asılı olaraq dəyişir. Danışanın fiziki göstəriciləri-qışqırığı, həyəcanı, xəstəliyi (boğazda sərtlik, xırıltı), təngnəfəsliyi və s. səs tembrində əks olunur. Tembr səsin akustik xarakterini göstərir. Hər bir şəxsin öxünəməxsus səs tembri vardır. Hətta eyni uca və ya aşağı tonlu səslər tembrinə görə bir-birindən fərqlənir. Deməli, insanları səsinin boyasına görə tanımaq olar.

Tembr danışanın nitqinə, tələffüzünə gözəllik verən səsin ən incə ifadəli vasitələrindən biridir. Obrazlı ifadələr ekspressiv intonasiya, tembrlə deyilir. Ümumiyyətlə, intonasiya elementləri danışıq səslərinə tətbiq olunaraq, onların ünsiyyətə xidmətini təmin edir. Belə ki, nitqin rəvan və ahəngdarlığı nitq səslərinin tələffüz dəqiqliyindən asılıdır.

Fasilə. Fasilə nitqin mənalı səslənməsini təmin edən, psixoloji hal ilə bağlı olan mürəkkəb bir prosesdir. Fasilə danışıq zamanı müəyyən məqamlarda müxtəlif səbəb və niyyətdən asılı olaraq edilən tənəffüsdür. O, şifahi nitqi təbii, ifadəli, aydın edir. Fasilə müxtəlif məqsədlərə xidmət edir: 1.Fizioloji tələbatın nəticəsi kimi

danışan və dinləyənin düzgün nəfəsalmasını, nitq orqanlarının sakitliyini və dincəlməsini təmin edir, təngnəfəsliyə yol vermir. Belə fasilə ani olaraq, istəmədən baş verir. 2.İnformasiyanı düzgün çatdırmaq və danışanın diqqətini cəlb etmək üçün; 3.Hər hansı lazımı ifadəni vurğulamaq lazım gələndə; 4.Dinləyicinin sözün mənasını anlaması və eşitdiklərini mənimsəməsi üçün; 5.Dinləyicinin diqqətini növbəti deyiləcək fikrə yönəldir. 6.Danışan növbəti fikri düşünmək üçün vaxt qazanır; 7.Vacib fikirdən sonra dinləyicinin düşünməsi üçün imkan yaradır; 8.Aramla danışıq özünəinamı təsdiqləyir; 9.Həyəcanı yox etmək üçün fasilə edilir və yaxud həyəcanlı olduqda tez-tez fasilə edilir; 10.Fasilə tempə nəzarət edir; 11.Danışan texniki səbəb üzündən nitqini kəsə bilər(öskürəndə, asqıranda,boğazı qıcıqlananda və s.) 12.Lazımi sözü tapa bilmədikdə, eləcə də mühüm sözləri nəzərə çarpdırmaq istədikdə fasilə edilir. Beləliklə, nitqdə fasiləlilik halları çoxdur, qarşılıqlı anlaşmanın əsas şərti normal fasiləyə əməl etməkdir.

Fasilə nitqin ritmik səslənməsidir. ”Ritm sürətlənmənin və ləngimənin, gərginləşmənin və zəifləmənin, uzunluğun və qısalığın, oxşarlığın və müxtəlifliyin nitqdə bir bərabərdə əvəzlənməsidir”(3,s.52).

Fasilənin müxtəlif funksiyaları vardır: məntiqi, psixoloji, sintaktik.

Məntiqi fasilə cümləni mənalı hissələrə bölməklə onun məntiqi cəhətdən anlaşılmasını, düzgünlüyünü, dəqiqliyini və həm də bütövlüyünü təmin edir. Başqa sözlə desək, məntiqi fasilə nitq aktını formalaşdırır, onun mənasını üzə çıxarır. Məntiqi fasilə cümlədəki sintaqmaları intonasiya vasitəsilə ayırmaqla məntiqi aydınlığa səbəb olur. Məsələn: Gözəl, həyatın çətinlikləri də vardır/Gozəl həyatın çətinlikləri də vardır; Yaxşı mühəndis ol/Yaxşı, mühəndis ol və s.

Psixoloji fasilə şifahi nitqdə danışanın emosiyalarını (qəzəb, kədər, həyəcan, məhəbbət, xoşbəxtlik və s.), həmsöhbətə münasibətini ifadə edir. Bu fasilənin məqsədi diqqəti hər hansı bir vacib sözə yönəltməkdir. Psixoloji fasilədən ifadəli oxuda istifadə olunur. Belə fasiləyə ritorik fasilə də demək olar. Məsələn:

Xeyli vaxtdır ayrılmışıq yar ilən,
Görüşdük, amma danışmadıq, ayrıldıq,
Qaldı canda gizli-gizli dərdimiz,
Bircə kəlmə danışmadıq, ayrıldıq (Molla Pənah Vaqif) və s. Yazılı nitqdə psixoloji fasilə nöqtələrlə verilir. Məsələn: Mübarək olsun! Neçə belə toylar...(8,s.30); İnan ki, üstümə yüz topdan güllə yağsa da mən burada çargahın səsini eşidəcəyəm...(8,s.76); Atası ona kecən il Qusarda bir bağ tutmuşdu, iki minə. Başdan-ayağa almalıq, armudluq...(8,s.129). Bu cümlələrdə nöqtələrdən sonra yaranan sükut, fasilə danışanın bəhs etdiyi məsələyə münasibətindən doğur, nitqdən daha təsirli olur.

Emosional, psixoloji fasilə situativ xarakterli də ola bilər. Situativ fasilə spontandır, müxtəlif məqamlarda yarana bilər. Bu pauza sözü hissələrə, hecalara bölməklə yaranır. Bu fasilənin məqsədi məlumatı daha aydın vermək, dinləyicinin daha yaxşı anlamasına nail olmaq, vacib sözü aramla tələffüz edərək nəzərə

carpdırmaqdır. Məsələn: Bir də dərsə ge-cik-mə; Yolu keçərkən diqqətli olmaq lazım-dır və s.

Sintaktik fasilə. Bu fasilə ifadələr, sintaqmalar, cümlələr arasındakı fasilədir. Cümlədəki sintaqmalar məntiqi cəhətdən bağlıdır, onlar düzgün bölündükdə, yəni onlar arasında fasilələr mövzunun mənasına görə gözlənildikdə fikir aydın olur, tələffüzdə ahəngdarlıq yaranır, cümlələrin ekspressivliyi təmin olunur və bu da dinləyiciyə xoş təsir bağışlayır. Fasilə cümləni məzmunla bağlı hissələrə bölməklə onları vahid məna bitkinliyində birləşdirir. Məsələn:-Xoşbəxt olasınız, sizdən xahişim budur ki, gözünüz bu uşağın üstündə olsun(8,s.96); Salamatlıqdır, hamı səni gözləyir,gəldiyindən hec kəsin xəbəri yoxdur(8,s.99); -Qardaş oğlu, onları evə qoy, uşaq bağçasına sür, Nazimə ananı götürək(8,s.100) və s.

Beləliklə, fasilənin növləri eyni funksiyanı yerinə yetirir, nitqi intonasiyalı hissələrə bölməklə fikrin məzmunca bitkinliyini təmin edir.

Sözü və sintaqmanı cümlədə birləşdirən vasitə cümlənin melodiyasıdır. Melodika–səsin tonunun cümlə boyu hərəkətinə deyilir. Buna məntiqi melodiklik də demək olar, çünki fikrin inkişafı ilə əlaqədar baş verir, məzmunla bağlıdır. Cümlənin əvvəlində səsin tonu yuksəlir, sonunda alçalır. Nitqin melodikliyi hissi halların ifadəsinə xidmət edərək psixoloji funksiya da daşıyır. Emosional melodika həmişə məna ilə bağlı olur, monoton melodiya isə cümlənin ekspressivliyini pozur, əsas fikrin anlaşılmasına mane olur, dinləyicini yorur.

Yuxarıda dediklərimizi yekunlaşdıraraq belə nəticəyə gəlirik ki, kommunikasiya zamanı düzgün danışmaq və yazmaq kifayət deyil, nitqin ifadəliliyi, emosionallığı, fikrin ifa tərzi də dinləyici və oxucunu cəlb etməlidir. Cümlənin kommunikativ funksiyası intonasiya və söz sırası ilə formalaşır. İntonasiya cümlənin komponentləri arasında qarşılıqlı məntiqi-qrammatik əlaqə yaradaraq nitqin məzmununun dərk olunmasını, məna bütövlüyünü təmin edir, cümlənin təşkil olunmasında ən vacib semantik-sintaktik vahid kimi kommunikasiyanı aktuallaşdırır. İntonasiya danışanın emosional durumunu, nitqinin məqsəd və niyyətini ifadə edir. Məhz emosiyaların sayəsində nitq daha canlı, təsirli, inandırıcı olur.

Ədəbiyyat siyahısı:

1.Abbasəliyeva R.Z. Dildə ekspressivlik və emosionallığın verbal və qeyri-verbal ifadə vasitələri. Bakı, CBS poliqrafiya, 2018, 160 s.
2.Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti, Bakı, ADPU-nun mətbəəsi, 2014, 278s.
3.Axundov A. Dil və üslub məsələləri. Bakı, Gənclik,1970, 104s.
4.Cəfərov V. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti. Bakı, BDU nəşriyyatı, 2021, 172s.
5.Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. Bakı, “Şərq-Qərb”, 2007, 256s.

6.Hüseynova H. Mir Cəlalın bədii əsərlərinin linqvopoetik xüsusiyyətləri.I cild. Bakı, ADPU-nun nəşriyyatı, 2018, 430s.
7.Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik.Bakı, "Elm və təhsil",2021, 512s.
8.Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384s.
9.Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Dərs vəsaiti. Bakı, "Nurlar",2014, 400s.

Rus dilində ədəbiyyat:
10.Арнолдь М.Б. Чувства и эмоции. Москва, Наука, 1974, 214с.
11. Вилюнас В.К. Основные проблемы психологии эмоций. Москва, «Питер», 1989, 496с.
12.Виноградов В.В. О теории художественной речи. Москва, Высшая школа, 1971, 240с.
13. Шингаров Г.Х. Эмоции и чувства как форма отражения действительности. Москва, Наука, 1971, 224с.

Лятафет Алиева

Коммуникативная функция эмоциональной интонации

Резюме

Ключевые слова: эмоциональная интонация, коммуникативная функция, экспрессивный, интонационные оттенки,ударение, темп, тембр, мелодия, пауза

В статье речь идет о коммуникативной функции эмоциональной интонации. Известно, что интонация неоднократно исследовалась в языкознании как фонетическое, лексическое, синтаксическое явление. Характеризуясь как ритмико-мелодическое звучание речи, интонация способствует правильному произношению и пониманию слов, придавая добавочные эмоциональные оттенки их основному значению. Вструктурно-семантическом же отношении интонация формирует предложение и выполняет коммуникативную функцию. Эмоциональное состояние коммуникатора, отношение к реципиенту наблюдается в его интонации. Используя различные интонационные оттенки, говорящий может выражать свои чувства соответственно содержанию речи. Актуальность исследования обусловлена тем, что современный период характеризуется расширением коммуникации, и эмоциональные особенности интонации служат важным средством выражения искренности, эмпатии,чувств и ощущений. Интонация передает богатый спектр эмоций, и именно эта особенность обусловливает ее коммуникативность. Цель исследования-разъяснение значимости интонации для достижения выразительной, действенной, убедительной речи. В статье рассматриваются компоненты интонации, создающие эмоциональность (ударение, темп, тембр, мелодия, пауза). Они служат средствами выражения различных чувств,

настроения,даже мыслей. Интонация меняется в зависимости от содержания речи, целей и намерений говорящего, отличается богатством и разнообразием эмоциональных смысловых оттенков, и поэтому она может исследоваться в самых различных аспектах. В настоящей статье мы постарались в своеобразной форме высказать свое мнение об эмоциональной интонации

Latafat Aliyeva

The communicative function of emotional intonation

Summary

Keywords: emotional intonation, communicative function, expressive, intonation shades, stress, tempo, timbre, melody, pause

The article deals with the communicative function of emotional intonation. It is known that intonation has been repeatedly studied in linguistics as a phonetic, lexical, syntactic phenomenon. Characterized as a rhythmic-melodic sounding of speech, intonation contributes to the correct pronunciation and understanding of words giving additional emotional undertones to their main meaning. In structurally-semantic respect, intonation forms a sentence and performs a communicative function. Emotional state of the communicator, the attitude towards the recipient is observed in his intonation. Using different intonation shades the speaker can express his feelings according to the content of the speech. The relevanceof the research is due to the fact that the modern period is characterized by expansion of communication, and emotional features of intonation serve as an important means of expressing sincerity, empathy, feelings and sensations. Intonation conveys a rich range of emotions, and it is this feature determines its communicativeness. The purpose of the study is to explain the importance of intonation to achieve expressive, effective, persuasive speech. The article discusses the components of intonation that create emotionality (stress, tempo, timbre, melody, pause). They serve as a means of expressing various feelings, mood, even thoughts. Intonation changes depending on the content of speech, goals and intentions of the speaker; it is remarkable for its richness and variety of emotional connotations, and therefore it can be studied in the different aspects.

In this article, we have tried to express our opinion about emotional intonation in a peculiar form.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: professor İsmayıl Kazımov
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLÇIN SOFIYEVA
Odlar Yurdu Universitetinin "Filologiya və humanitar" fənlər kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru
gulcinsofiyeva@hotmail.com

AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN SADƏLƏŞMƏSİ

Xülasə

Məqalədə Azərbaycan dilinin dialekt və şivələrində işlənən mürəkkəb sözlərdən və onların sadələşmə prosesindən bəhs olunur. Həm müasir Azərbaycan ədəbi dilində, həm də dialekt və şivələrdə leksik yolla söz yaradıcılığı üsullarından biri də mürəkkəb sözlərin sadələşməsidir. Zəngin bir leksikaya malik olan dialekt və şivələrimizdən toplanmış nümunələrə əsasən demək olar ki, mürəkkəb sözlərin yaranmasının və sadələşmə prosesinin çox qədim tarixi var. İki söz birlikdə işlənərək zaman keçdikcə həm formaca, həm də mənaca dəyişir, yeni sözə çevrilir. Sözlərdən birinin və ya hər ikisinin mənasının köhnəlməsi, səs düşümü, səs artımı, səslərin əvəzlənməsi, səslərin yerdəyişməsi və s. mürəkkəb sözün yeni sadə söz kimi formalaşmasına səbəb olur və lüğət tərkibini zənginləşdirir.

Mürəkkəb sözlərin tərkib hissələri milli mənsubiyyətinə görə müxtəlif ola bilər. Azərbaycan dilinin dialekt və şivələrinin əhatə etdiyi ərazilərdə müxtəlif xalqlar uzun əsrlər boyu qonşuluq şəraitində yaşamışlar, buna görə də dillərin bir-birinə təsiri olmuşdur. Tarixən dilimizə çoxlu sayda fars, ərəb sözləri keçmişdir. Bu gün də müasir Azərbaycan dilində bu sözlər işlənir. Lakin dialekt və şivələrdə bu gün ədəbi dildə işlənməyən, dəyişikliyə uğrayan ərəb və fars dillərindən keçən mürəkkəb sözlərə rast gəlinir. Nəzərdən keçirdiyimiz dialekt sözlərin bir qisminin hər iki tərəfi milli və ya alınma, bir qisminin isə bir tərəfi alınma, digər tərəfi isə milli mənşəli sözlərdir. Bu mürəkkəb sözlərin təkibindəki sözlərin bəziləri xalq dilində təhrif olunmuş, ilkin formasından uzaqlaşmış, bəziləri isə arxaikləşmişdir. Tərəflər ayrılıqda müstəqil mənasını itirdiyinə görə sadə sözə çevrilmişdir. Məqalədə mürəkkəb sözlərin hansı sadə sözə çevrildiyi müəyyənləşdirilir. Tərkib hissələrinin mənşəyi, ilkin forması, mənası haqqında məlumat verilir.

Açar sözlər: dialekt və şivə, mürəkkəb söz, sadələşmə, söz yaradıcılığı, leksik yolla söz yaradıcılığı, sintaktik yolla söz yaradıcılığı.

Söz yaradıcılığı dilin lüğət tərkibini zənginləşdirən xüsusi bir prosesdir. Dilin daxili inkişaf qanunları ilə həm öz dilimizin daxili imkanları hesabına, həm də başqa dillərdən alınan sözlər hesabına yeni sözlər yaranır.

Azərbaycan dilində söz yaradıcılığı dilin öz daxili inkişaf qanunlarına əsasən üç yolla baş verir:

1. Leksik yolla söz yaradıcılığı;

2. Morfoloji yolla söz yaradıcılığı;
3. Sintaktik yolla söz yaradıcılğı.

Leksik yolla söz yaradıcılığı prosesi morfoloji və sintaktik yolla söz yaradıcılığı prosesindən daha mürəkkəbdir. Çünki bu yolla əmələ gəlmiş sözlər zaman keçdikcə formaca dəyişir, arxaikləşir, onların necə əmələ gəldiyini müəyyənləşdirmək çətinləşir. Leksik vahidlər dilə hazır şəkildə də daxil ola bilir, söz daxixilində müəyyən dəyişikliklərin baş verməsi ilə də yarana bilir. Yaranan yeni söz törədiyi mənşəyindən bəzi hallarda məzmun, bəzi hallarda isə həm məzmun, həm də forma cəhətdən uzaqlaşaraq yeni məzmunlu və formalı müstəqil bir söz kimi formalaşır.

Leksik yolla söz yaradıcılığı prosesinin bir neçə üsulu var. Bunlardan biri də sözlərin quruluşunun dəyişməsi, mürəkkəb sözlərin sadələşməsidir. Mürəkkəb sözlərin sadələşməsinin çox qədim tarixi var. Bu proses tarixən iki tərkib hissədən ibarət olan leksik vahidlərin sadələşmə qanununun tələbi ilə sadə sözə çevrilməsidir.

Türk dillərində ilkin sadə sözlər birhecalı olmuşdur. Azərbaycan dilində olan sadə sözlərin çoxunun birhecalı olması da(bir, üç, baş, dağ, bağ, al, gəl, get və s.) bunu sübut edir. Lakin dilimizdə təkhecalı sözlərlə yanaşı iki, üç hecalı sözlər də mövcuddur. Bu sözlərin bir qismi düzəltmə və mürəkkəb sözlərin sadələşməsi nəticəsində yaranmışdır. Bu proses nəinki müasir dildə, hətta dialekt və şivələrdə də baş verir.

Azərbaycan dilinin dialekt və şivələri çox zəngin bir leksikaya malikdir. Toplanmış nümunələr göstərir ki, mürəkkəb quruluşda olan sözlərdə sadələşmə meyli güclüdür. İki söz birlikdə işlənərək, zaman keçdikcə sadə sözə çevrilir. Bu sözlər həm formaca, həm də mənaca dəyişir. Dialekt və şivələrlə yanaşı, müasir dilimizdə də öz ilkin mənbəyindən uzaqlaşmış və sadə sözlərə çevrilmiş çoxlu sayda mürəkkəb söz vardır. Mürəkkəb sözlərin sadələşməsi leksik yolla söz yaradıcılığının bir üsuludur. Yəni tarixən iki sözdən ibarət olan leksik vahidlərin sadə sözə çevrilməsi lüğət tərkibini zənginləşdirən vasitələrdən hesab olunur. Mürəkkəb sözlərin sadələşməsinin bir neçə səbəbi ola bilər:

1) Tərkibdəki sözlərdən birinin mənasının köhnəlməsi;
2) Tərkibdəki sözlərin hər birinin mənasının köhnəlməsi və bir məna ifadə etməsi;
3) Söz tərkibində bir və ya bir neçə səsin düşməsi;
4) Səslərin əvəzlənməsi;
5) Səslərin yerdəyişməsi;
6) Səs artımı və s.

Sintaktik yolla yaranan sözlər milli mənsubiyyətinə görə müxtəlif ola bilər, yəni belə sözlərin tərəfləri həm milli, həm də alınma sözlərdən ibarət ola bilər. Müasir ədəbi dildə olduğu kimi, dialekt və şivələrdə də mürəkkəb sözlər yaranır və sadə sözə doğru inkişaf edir. Bu halda sözlər formaca dəyişir, mənaca yenilənir, başqa sözə çevrilir. Mürəkkəb sözlərdə sadələşmə meylinin müxtəlif səbəbləri ola bilər: çoxhecalılıqdan azhecalılığa meyl, tələffüzün çətinliyi və s. Bu səbəbdən də

sözün tərkibində səs dəyişmələri baş verir: bir və ya bir neçə səs düşə və ya artırıla bilir, bir səs başqa bir səslə əvəzlənə və yerini dəyişə bilir, söz ilkin formasından fərqlənir, onların sərhəddini müəyyənləşdirmək olmur.

Dialekt və şivələrdə mürəkkəb sözdən sadə sözə keçən bir neçə sözü nəzərdən keçirək.

Cumaxatan(Bakı)-yorğan-döşək üçün divar şkafı mənasında işlənir. Məs: Dur yorğan- döşəyi yığ cumaxatana.(5, s.82) Bu sözün bir qədər fərqli formalarına **(camaxatın/camaxudan(Quba)/cüməxatun**)da rast gəlmək olur. Bir çox dialektlərdə "paltar şkafı" mənasında da işlənir. "Camə" (fars dilində paltar mənasında) (8, s.78) və udmaq sözlərinin biləşməsindən yaranmış və təhrif olunmuş forması kimi qəbul oluna bilər. Lakin Müasir Azərbaycan dilində işlənən və kökü fars dilində "camə" sözü olan çamadan sözünü etimoloji cəhətdən araşdırdıqda, bu sözün "camə"(paltar) və "dan"(qab) sözlərinin birləşməsindən əmələ gəldiyi aydın olur. (7) **.** Camədan fars dilindən iki mənada-- çamadan və yorğan-döşək, xalça-palaz qoymaq üçün dördkünc kisə kimi tərcümə ounur. (8**,** s.78) Bunları nəzərə alararaq, "cumaxatan" sözünün "camədan" sözünün xalq dilində təhrif olunmuş forması kimi qəbul etmək olar.

Küllöş(Bakı)-çox əkilmək nəticəsində tamam gücdən düşmüş əkin yeri. Də:z qırağındakı yerrər küllöşdü, urda bıyillərim çetin mə:silimiz olsun. Bu söz ərəb mənşəli "küll" sözü(bütün, hamı, hamısı)(9, s.359) və "örüş" sözlərinin birləşməsi kimi izah olunur.(8, s.81) Lakin bunu küllük və örüş sözlərinin birləşməsi kimi qəbul etmək daha məqsədəuyğundur. Küllük-xarabalıq, xaraba yer(məcazi)(2 ,s.777) və örüş-mal-qara otarılan yer, geniş otlaq.(3, s.555)

Dəstərə- əl mişarı, kiçik mişar, əl dəyirmanı mənasındadır, fars sözüdür.(5, s.128) "Dəst"(f)-əl(9, s.119)+"ərrə"(f)-iki dəstəli iri mişar(8, s.171) sözlərindən yaranıb, tərkibində səs düşümü baş verib və sadə sözə çevrilib. Kərki olub öz tərəfinə yonma, ərrə ol, iki tərəfə yon. (Atalar sözü)(2, s.129) Dialekt və şivələrdə bu sözün fərqli variantlarına da rast gəlinir. Dasdar(Astara, Cəlilabad, Dərbənd, Quba, Lənkəran, Ordubad)-Dasdar sınmışdı(Quba), Dasdarnan buğdanı yarma eləllər(Ordubad). Dəstər(Culfa, Naxçıvan). (5**,** s.118, 128)

Əlhərə/əlhərrə(Lənkəran)-iki adamın işlətdiyi mişar, əl mişarı, əl dəyirmanı mənasındadır. İki sözdən ibarətdir: əl və hərə. Burada "əl" sözü Azərbaycan dilinə aiddir, "hərə" isə "ərrə" sözünün təhrif olunmuş formasıdır. Yuxarıda göstərdiyimiz kimi "ərrə" mişar mənasını bildirən fars mənşəli sözdür. "Dəstərə" sözü ilə eyni mənadadır, "əlhərə" sözü milli və alınma sözün birləşməsindən əmələ gəlmiş, tərkibində həm səs düşümü(r), həm də səs artımı (h) baş vermiş, ilkin formasından uzaqlaşaraq sadə sözə çevrilmişdir.

Mürgənə(Ağdaş, Lənkəran, Mingəçevir)-güvə, ağacqurdu. Paltonumu mürgənə vurub(Lənkəran). Paltarı yığmışam sandığa mürgənə kəsib. (5, s.365) Bu söz fars dilində "mur"(qarışqa) (9, s.89) və "kəne"(bit, gənə)(7) sözlərinin birləşməsindən yaranmışdır**.** Sözün tərkibində səs əvəzlənmələri baş vermiş, əvvəlki

sözlərin forması dəyişdiyi üçün ifadə etdiyi anlayışlar unudulmuş, söz sadə sözə çevrilmiş və yeni məna qazanmışdır.

Bəqərəh(Bakı, Lənkəran)- quyudan su çəkmək üçün öküzün, atın getdiyi yol mənasındadır. Qazılan su quyularından su çəkmək çətin olduğundan yerli əhali qoşqu vasitələrindən istifadə edirdi. Atın və ya öküzün quyunun ətrafında bir neçə dəfə fırlanması nəticəsində quyudan su çəkmək mümkün olurdu. İki alınma sözün birləşməsindən yaranmışdır: "bəqər"- iribuynuzlu heyvan və qaramal-- ərəb sözləridir,(9, s.44) "rah"-yol, fars mənşəlidir.(10, s.225) Bəqərəh hərfi tərcümədə "qaramal yolu" manasını ifadə edir. Bu sözün tərkibində həm səs düşümü, həm də səs əvəzlənməsi baş vermiş, söz öz ilkin formasından uzaqlaşmış və sadə söz kimi sabitləşmişdir.

Hal-hazırda qaramalın su quyusundan su çıxarmaq funksiyasını elektrik mühərriki icra edir. Bu səbəbdən "bəqərəh" sözü arxaik dialektizmə çevrilmişdir.

Xinəvən/xinəvənd/xinəbənd/xınabənt/xınabət(Qax, Şəki)-üçkünc baş yaylığı. Dədə ma: xinəbənd alıp. Xınabəndi aş başınnən. Başa xınabənt bağli:illər ki, tühlər üzə tökülməsin.(5, s.222, 226) Bu söz iki kökdən yaranmışdır: xına və bənd. "Xına" ərəb mənşəli sözdür, mənbə dildə "hinna" formasındadır, mənası -başa və saqqala yaxılan təbii boyadır,(8, s.251) "bənd" fars sözüdür, bağ, ip mənasındadır. (8, s.46) Sözün tərkibində səs düşümü və səs əvəzlənməsi baş vermiş, yeni formalı və məzmunlu söz yaranmışdır. Mürəkkəb söz sadə sözə çevrilmişdir.

Alağız/alağuz(Şəmkir,Qazax,Tovuz)—ikiüzlü və xəbərçi mənalarında işlənir. Alağız adamnan zəhləm gedir. Sən nə alağuzsan. Alağuz həmişə ev yıxar. (5,s.19)

Bu söz iki tərkib hissədən ibarətdir: al və ağız. "Al" sözü tarixən dilimizdə "yalan" mənasında işlənmiş, müasir ədəbi dil üçün arxaikləşmişdir. Bu gün ədəbi dildə işlənən yalan, yanlış, yaltaq, aldatmaq, dialektlərdə yaltanmaq, yaltaşa, yallatmaq sözlərinin tərkibində işlənməkdədir. İkinci tərkib hissə isə müasir ədəbi dildə işlənən "ağız" sözüdür, yəni al+ağız(yalan ağız, ağzı yalan mənasında). Bu mürəkkəb sözün tərkibindəki sözlərdən biri arxaikləşmiş, digərində isə bəzi hallarda səs əvəzlənməsi baş vermiş, heca sərhəddi də pozulmuşdur. Buna görə də sözü ilkin mənasında dərk etmək çətinləşir və söz sadə söz kimi formalaşır.

Alağuzdux(xəbərçilik) alağuzdammax/alağızdammax(qəlyanaltı etmək) sözlərini eyniköklü söz hesab etmək olar. Bir əz alağuzdanın, pusa:t bir yaxşı pulov pişirəjəm. Niyə alağuzdux eleysən. (5, s.19)

Laqqutu(Lənkəran)—müxtəlif ölçülü iki dördbucaq ağac qutudan ibarət qədim zərb aləti. Azərbaycanın cənub bölgəsində(Lerik, Astara, Masallı, Lənkəran, Cəlilabad rayonlarında) istifadə edilir. Stolun üzərinə qoyularaq iki ağacla çalınır. Ölçüsü 250x125x50mm-dir. Ərik, fıstıq, qoz, tut ağaclarından hazırlanır. Bu sözün etimologiyası alətin çıxardığı səs tembri ilə bağlıdır. Alətin müxtəlif növləri(nağara, qoşa nağara, qaval və s.) bir çox ölkələrdə geniş yayılıb.(12) Söz iki türk mənşəli sözdən əmələ gəlib: lax/lığ(boş, mənasız, düzgün olmayan) (3, s.237) və qutu. (içinə əşya qoymaq üçün taxtadan, metaldan, plasmasdan və s.-dən düzəldilən qab) (3,

s.226)(Boş qutu). Sözün tərkibində səs əvəzlənməsi baş vermişdir. Söz öz ilkin formasından uzaqlaşmış, mürəkkəb sözdən sadə sözə doğru inkişaf etmişdir.

Laqqırtı vurmaq(boş, mənasız, qeyri-ciddi, uzun-uzadı söhbət etmək) (3, s.239) ifadəsini məcazi mənada bu musiqi alətinin adı ilə əlaqələndirmək olar.(11)

Xatınşı(Qax)—arvad, qadın. Doqqazda xatınşılar durup. (5, s.217) Qadın/xatın sözü və kişi(adam) sözlərinin birləşməsindən yaranıb. "Xatun" sözü monqol dilində "ilk(böyük) arvad" mənasında işlədilir. Qadın və xatun qohum sözlərdir, qədim mənası "kəbinli arvad" deməkdir. (7) Tərkiblərdəki sözlərin hər ikisi müasir dil üçün arxaikləşmiş, qədim formasını dialekt və şivələrdə saxlamışdır. "Kişi" sözü müasir dildə semantik cəhətdən dəyişərək cins anlayışı ifadə edir, tarixən isə bu söz adam mənası ifadə etmişdir. Bu sözün sadələşmə səbəbi sözün tərkibindəki sözlərin arxaikləşməsi, həm də səs düşümünün baş verməsidir.

Hamaş(Salyan)—dost-aşna, şərik mənasındadır. Hamaşlar toyda bir yerdə otırmışdılar. Yenə unnan hamaşsan, allah xeyrə yazsın. (5, s.194) İki sözün birləşməsindən yaranmışdır: həm və aş. "Həm" fars mənşəlidir, mürəkkəb sözlərin əvvəlinə gətirilərək şəriklik, birgəlik mənası bildirən sifət və isimlər düzəldir. (2, s.359) İkinci söz isə tarixən xörək, yemək mənası ifadə edən "aş" sözüdür, həqiqi mənada "yemək ortağı" birləşməsi dialekt və şivələrdə şəriklik mənasında işlənir. Bu iki söz yanaşı işlənərkən ikinci sözdəki qalın saitin təsiri ilə birinci sözdəki incə sait qalın saitlə əvəzlənmişdir. Deməli, bu sözün tərkibində həm arxaikləşmə, həm də səs əvəzlənməsi baş vermiş, ilkin formasından uzaqlaşaraq sadə sözə çevrilmişdir.

Küştərə/küşdərə(Borçalı,Tovuz, Zaqatala)—1. rəndə, 2. ağacın içini yonub çıxarmaq üçün işlədilən alət—Küşdəreyi qapıda, isdolda işdəderix. Küştərəni ussalarda görmək olar. (5, s.269) Bu sözün "künc" və "taraz" sözlərinin birləşməsi olduğu ehtimal olunur. "Künc"--fars mənşəlidir, bucaq, guşə mənasındadır.(2, s.359), "taraz/təraz" sözü də fars mənşəlidir: 1. düz, bərabər, 2. dülgərlikdə, torpaq və bənnalıq işlərində səthin düzlüyünü yoxlamaq üçün alət mənasındadır. (4, s.,269) "Künc" sözündəki yanaşı gələn samitlərdən "n" düşmüş və "c" samiti "ş" samiti ilə əvəzlənmişdir. "Taraz" sözündə isə səs düşümü baş vermiş, "künc" və "taraz" sözləri küştərə kimi formalaşmışdır, yəni, mürəkkəb söz tərkibini itirərək sadə sözə çevrilmişdir.

Kövə/kövər/köbər(Ağcabədi, Bərdə, Qax, Yevlax)- dik yer mənasındadır. Köbər yerə su çıxmaz. (5, s.260) İki sözdən yaranmışdır: "köp"+"yer". Burada həm səs düşümü, həm səs əvəzlənmələri baş vermiş, yeni söz formalaşmışdır. Sözün ilkin formasının "köpyer" olmasını əsas götürərək, "p" səsinin "v" səsi ilə əvəzlənməsi, "y" samitinin düşməsi və "e" səsinin "ə" səsinə keçməsi və söz sonundakı "r" səsinin düşməsi nəticəsində sadə quruluşlu "kövə" sözünün yaranmasını qəbul etmək olar. Bəzi dialektlərdə(Qazax) geyimlərdə qatlanıb üst-üstə tikilən yer, döşəmə ilə taxta divar arasına vurulan ensiz taxta, metal qabların hissələrinin bir-birinə birləşən yeri və s. mənalarında işlənir.(Sənəyin kövəsi qırılıf).

Müasir dildə bu sözün "köbə" formasının bir neçə formada işlənməsi müşahidə olunur:
1. paltarın yaxasına, qoluna, ətəyinə başqa parçadan tikilən ensiz haşiyə; 2. Hər hansı bir əşyanın ətrafına çəkilən haşiyə; 3. Yarpaqların saplağının budaqdan ayrılan yerində, budağa bitişik olan incə pərdə. Hətta bu söz yeni sözlərin yaranmasında da iştirak etmişdir: köbəçi, köbəli, köbəlik(köbəlik parça). Bu sözə yazıçıların əsərlərində də rast gəlirik: Birisi soruşdu:-- Çəhrayı paltara yaşıl köbə qoysan necə olar?(Ə. Vəliyev) Mən dəyirman yanındakı köbər üstündə oturub başımı aşağı salmışdım.(Ə. Məmmədxanlı) (2, s.742,743)

Həşəvar/həşavar(Göyçay, Kürdəmir, Şəki, Zərdab)—zir-zibil, çör-çöp, qarğı, qamış qabığının zibili.—Ay qız , Sabiqə o həşəvarı yığ xaralın arasına, apar tök çəpərdən çölə. Tö:lədən çıxan həşəvarı çölə atırıx. Həşəvarın hamsını tulla. (5, s. 204) Söz iki tərkib hissədən ibarətdir: "həş"+"avar/havar". "Həş" sözü(Qax, Zaqatala) ərəb mənşəlidir, zibil, tör-töküntü mənasındadır(5 s.204), bəzi dialektlərdə qamış zibili mənasında işlənir. "Avar" sözü isə keçmişdə kənd evlərinin damına döşənən qamışaoxşar ot(1, s.166), qamışın bir növü, küləş, çırpı, quru ot(Bakı, Gədəbəy, Salyan,Zəngilan)(5, s.28) mənasındadır. Hər iki söz ayrılıqda ümumi dil üçün köhnəlmişdir.

Numxarış/nöxarış/no:xarış/no:xəriş(Bakı, Zaqatala)—yavanlıq mənasındadır. İki fars mənşəli, müxtəlif mənalı sözdən yaranan mürəkkəb sözdür: "nan"-çörək(10, s.172) və "xuriş"-ərzaq, yemək. (9, s.286) "Nan" sözü xalq dilində təhrif olunaraq "num/no", "xuriş" sözü isə "xariş/xəriş" formasına düşmüşdür. Fars dilində hər bir söz ayrılıqda müstəqil məna ifadə edir, lakin bu sözlər birləşərək yeni semantik məzmunlu leksik vahidə çevrilmişdir. Sözün tərkibində həm səs əvəzlənmələri, həm də səs düşümü hadisəsi baş vermiş, tərkibdəki sözlər ilkin formasından uzaqlaşmış və söz sadə söz kimi formalaşmışdır.

Azərbaycan dilinin dialekt və şivələrində elə mürəkkəb sözlər mövcuddur ki, onlar yaxın və ya eyni mənalı sözlərin birləşməsindən yaranmışdır. Belə sözlərin daxilində semantik inteqrasiya baş verir və sözün daxilindəki yaxın və ya eyni mənalı sözlərdən biri müasir dildə işlənsə də digəri arxaikləşmiş olur, ayrılıqda işlənə bilmir. Müasir dildə İşlənən, anlaşılan sözün hesabına arxaik söz də başa düşülür.

Bəzən belə sözlərin bir tərəfi, bəzən də hər iki tərəfi alınma sözlərdən(ərəb, fars) ibarət olur. Azərbaycan dilinin lüğət tərkibinin bir hissəsini dilin daxili qanunlarına uyğunlaşmış ərəb və fars sözləri təşkil edir. Buna görə də müxtəli mənşəli, yaxın mənalı sözlər birləşərək, ayrılıqda ifadə etdikləri mənaları ilə yanaşı əlavə məna çalarları bildirirlər.

Alyalan—yalanın qabarıq şəkli mənasını ifadə edir. (Hamısı alyalandı.) Bu sözün birinci tərəfi müasir dil üçün arxaikləşmiş "al" sözüdür. Yuxarıda da qeyd etdiyimiz kimi "al" sözü tarixən yalan mənasında işlənmişdir. Bu sözün tarixi forması yol/yal olmuş, sonralar "al" formasına düşmüşdür. Yalan sözü ilə birləşərək

“alyalan”(yalan-yalan, çox yalan, lap yalan) sözü yaranmışdır. Müasir ədəbi dildə işlənən “ağ yalan“ ifadəsinin bu sözün xalq dilində təhrif olunmuş forması kimi qəbul etmək olar. İki eyni mənalı sözün təkrarı yalan mənasını şiddətləndirmişdir.

Silazarı(Cəbrayıl, Zərdab)—uzun müddət davam edən xəstəlik mənasındadır. Sözün birinci hissəsi—“sil” ərəb mənşəlidir(sill),vərəm mənasındadır (10, s.291), ikinci tərəfi-“azar” isə fars sözüdür, xəstəlik mənasındadır.(9, s.25) Hər iki söz müasir dil üçün arxaikləşmişdir, lakin bu sözlərə həm ayrılıqda, həm də birlikdə dialektlərdə rast gəlinir: Sil xəstəliyini sağaltmaq olar. [5,s.436] Ehtimal oluna bilər ki, bu söz əvvəllər vərəm xəstəliyi mənasını bildirmiş, sonralar isə semantik cəhətdən bir qədər dəyişərək, ümumiyyətlə xəstəlik mənasını ifadə etmişdir.

Azərbaycan dili dünyanın ən qədim və zəngin dillərindən hesab olunur. Bütün dünya dilləri kimi Azərbaycan dili də başqa dillərin təsirindən uzaq qalmamışdır. S. Cəfərov yazır: “Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqı da tarix boyu müxtəlif xalqlarla yaxın və uzaq bir şəkildə əlaqə və münasibətdə olduğundan həmin xalqların dilindən Azərbaycan dilinə minlərcə söz keçmişdir. Bu proses dilin leksikasını zənginləşdirən əsas bir amil olararaq indinin özündə belə, fəal bir surətdə davam etməkdədir.”(6,s.10)

Azərbaycan dilinin dialekt və şivələrinin əhatə etdiyi ərazilərdə müxtəlif xalqlar yaşamış və yaşamaqdadır. Bu xalqlar uzun əsrlər boyu qonşuluq şəraitində yaşadıqları üçün dillərin bir-birinə təsiri olmuşdur. Azərbaycan -fars dillərinin qarışılıqlı əlaqəsi zamanı dilimizə tarixən çoxlu sayda fars sözləri keçmişdir. Qədim abidələrdə, klassik ədəbiyyatda işlənən belə sözlərin çoxu bu gün müasir Azərbaycan dilində də işlənməkdədir. Lakin dialekt və şivələrdə bu gün ədəbi dildə işlənməyən, dəyişikliyə uğrayan ərəb və fars dillərindən keçən sadə və mürəkkəb sözlərə rast gəlmək olur və bu sözlər müxtəlif nitq hissələrini əhatə edir.

Azərbaycan dilinin leksik tərkibinin əsas bir hissəsini mürəkkəb sözlər təşkil edir və bunların böyük bir qismi başqa dillərdən keçən sözlərdir. Dilə müxtəlif dillərdən keçən mürəkkəb sözlərin tərkib hissələri müasir dildə və onun dialekt və şivələrində ayrılıqda müstəqil mənalı söz kimi işlənirsə, onları mürəkkəb söz kimi qəbul etmək olar. Sözün tərkib hissələrinin hər ikisi və ya biri alınma ola bilər. Lakin alınan sözlərin tərkibində dəyişiklik --tərkibdəki sözlərdən birinin mənasının köhnəlməsi, tərkibdəki sözlərin hər birinin mənasının köhnəlməsi və bir məna ifadə etməsi, söz tərkibində bir və ya bir neçə səsin düşməsi, səslərin əvəzlənməsi, səslərin yerdəyişməsi, səs artımı və s.-- baş vermişsə, öz ilkin formalarından uzaqlaşmışsa, belə sözləri mürəkkəb söz hesab etmək olmaz. Yuxarıda sadaladığımız mürəkkəb sözlər içərisində həm milli sözlər, həm də alınma sözlər var, hətta tərkib hissələri alınma və milli sözlərdən ibarət olan sözlər də mövcuddur. Bu sözlərdə mürəkkəb sözlərin sadə sözə çevrilməsi prosesi izah olunur.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. I cild, Bakı, 2006
2. Azərbaycan dilinin izahlı lüğəti. II cild, Bakı, 2006
3. Azərbaycan dilinin izahlı lüğəti. III cild, Bakı, 2006
4. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı, 2006
5. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 2007
6. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960
7. Əhmədov B. Etimologiya lüğəti. https://obastan.com/çamadan/920973/?l=az, https://www.azleks.az/online-dictionary/xatun?s=6, https://obastan.com/gənə/921849/?l=az
8. Vəliyeva G. Şərqi Abşeron şivələrinin leksikası. Bakı 2001.
9. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. I c. Bakı 2005.
10. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. II c. Bakı 2005.
11. Məhərrəmli Q. İsmayılov R. Məsəllər, deyimlər. https://www.azleks.az/az/online-dictionary
12. https://az.wikipedia.org/wiki/Laqqutu

Гюльчин Софиева

Упрощение сложных слов в диалектах азербайджанского языка

Резюме

В статье рассказывается о сложных словах, используемых в диалектах азербайджанского языка, и процессе их упрощения. Одним из способов лексического построения слов как в современном азербайджанском литературном языке, так и в диалектах и говорах является упрощение сложных слов. Основываясь на примерах, собранных из наших диалектов и диалектов, обладающих богатым словарным запасом, можно сказать, что процесс образования и упрощения сложных слов имеет очень древнюю историю. Два слова употребляются вместе, и со временем они меняются как по форме, так и по значению, становясь новым словом. Устаревание значения одного или обоих слов, потеря звука, увеличение звука, замена звуков, смещение звуков и т. д. вызывает образование сложного слова как нового простого слова и обогащает словарный запас.

Составные части сложных слов могут быть разными в зависимости от национальности. На территориях, охваченных диалектами азербайджанского языка, разные народы жили в соседних условиях на протяжении многих веков, поэтому языки оказывали влияние друг на друга. Исторически в наш язык перешло много персидских и арабских слов. Даже сегодня эти слова

используются в современном азербайджанском языке. Однако в диалектах и идиомах встречаются сложные слова, не употребляющиеся сегодня в литературном языке, но претерпевшие изменения и перешедшие из арабского и персидского языков. Некоторые из рассматриваемых нами диалектных слов имеют национальное или иностранное происхождение с обеих сторон, а некоторые из них с одной стороны иностранного происхождения, а с другой стороны национального происхождения. Некоторые слова, следующие за этими сложными словами, в просторечии исказились, отошли от своей первоначальной формы, а некоторые стали архаичными. Стороны стали простым словом, потому что они теряют свое самостоятельное значение в отдельности. В статье определяется, какие простые слова переходят в сложные слова. Предоставляется информация о происхождении, первоначальной форме и значении компонентов.

Ключевые слова: диалект , сложное слово, упрощение, словообразование, лексическое словообразование, синтаксическое словообразование.

Gulchin Sofiyeva

Simplification of compound words in dialects of the Azerbaijani language

Summary

The article talks about the complex words used in dialects of the Azerbaijani language and the process of their simplification. One of the methods of lexical creation of words both in the modern Azerbaijani literary language and in dialects is the simplification of complex words. Based on the examples collected from our dialects , which have a rich lexicon, it can be said that the formation and simplification process of complex words has a very ancient history. Two words that are used together change both in form and meaning over time, becoming a new word. Obsolescence of the meaning of one or both words, loss and increase of sound, replacement and displacement of sounds, etc. causes the formation of the compound word as a new simple word and enriches the vocabulary.

The constituent parts of compround words can be different depending on origin. İn the territories covered by the dialects of the Azerbaijani language, different peoples lived in neighboring conditions for many centuries, therefore languages had an influence on each other. Historically, many Persian and Arabic words have passed into our language. Even today, these words are used in the modern Azerbaijani language. However, in dialects there are compound words from the Arabic and Persian languages that undergone changes which are not used in the todays literary language. Some of the dialect words that we are considering are national or foreign origin on both sides, and some of them are of foreign origin on

one side and on the other side of national origin. Some of the words following these complex words have been distorted in the vernacular, have moved away from their original form, and some have become archaic. Parts of the words have become a simple word as they lose their independent meaning in separation. In the article, which simple words are conversion of compound words is determined. Information over origin of components, its initial forms and meaning is provided.

Key words: dialect, compound word, simplification, word formation, lexical word formation, syntactic word formation.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Sevinc Baris qızı Qəmbərova tərəfindən çapa tövsiyə olunmuşdur

SƏFİXANOVA AFƏT,
HƏSƏNOVA REYHAN,
QULAMOVA ELVİNA
Azərbaycan Tibb Universiteti, Səməd Vurğun küç. Bakı, Azərbaycan
asefixanova@gmail.com

MÜASİR DİLÇİLİKDƏ İSİMLƏŞMİŞ SİFƏTLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İŞLƏNMƏ YERİ

Key words: classification, morphological, semantics, aspect, syntactical
Açar sözlər: sintaktik, təsnifat, morfologiya,aspect
Ключевые слова: классификация, морфологическая, семантика, аспект, синтаксический

Dilçilikdə sifətlər haqqında geniş məlumat verilir. Bəzi sifətlər cümlədə ismi əvəz edə bilir, yəni onun yerində işlənir. Belə isimlər isimləşmiş (substantivləşmiş) sifətlər adlanır. İsimləşmiş sifətlər ismin suallarına cavab olur və isimlərə məxsus cəm, hal, mənsubiyyət şəkilcilərini qəbul edir. Məsələn the old-qocalar, the deaf-karlar və s. Sifətlər özləri cümlədə ən çox təyin olur. Nitq hissələri məsələlər və hər bir nitq hissəsinin bu sistemdə yeni mübahisəli problemlərdəndir. İki min ildən çoxdur ki, qrammatika kitablarında nitq hissələri problemi öndə gedən məsələlərdən biridir. Klassik ənənəyə uyğun olaraq, dilçilik terminləri və anlayışları məntiqə əsaslanır, burada ad və feil qarşıdurması məntiqi subyekt və hökmün predikatı qarşıdurması əsasında formalaşır. Bağlayıcılar mürəkkəb hökmlərin, əsasən silogizmlərin yaranması üçün lazım idi. Bəzən bu və ya digər sifət ismin bu və ya bir neçə xüsusiyyətini kəsb edir. Məsələn, isim kimi sifət də cəm şəkilçisi qəbul edərək həm də hallanma xüsusiyyətinə malik olurlar. Müasir ingilis dilində isimləşmiş sifətlər iki qrupa bölünür: 1) tamam isimləşmiş sifət (wholly substantivized adjectives), 2) natamam isimləşmiş sifətlər (partially substantivized adjectives). Bu sifətlər artiklla işlənərək hal şəkilçisi qəbul edirlər.

Nitq hissələri də sözlərin bölgülərindən biri olaraq əhatəsinə və əhəmiyyətinə görə sözlərin başqa bölgülərindən fərqlidir. Bir dil vahidi kimi sözün özü tədqiqat obyekti olur və onun daxili. Xarici strukturu, əmələgəlmə və inkişaf yolları, istiqamətləri öyrənilir. Nitq hissələri nəzəriyyəsində də sözün bütün aspektləri nəzərdən keçirilir. Sözlərin dil sistemindəki yeri tədqiq olunur. Buradan belə çıxır ki, əsas nitq hissələrinin fərqləndirilməsi üçün üç semantik/söz siniflərinin mənası/morfoloji/qrammatik forma və söz kateqoriyaları/ və sintaktik/sözün cümlədə funskiyası və onun digər sözlərlə birləşməsi meyarı mövcuddur. Sifət nitq hissəsi kimi, Hind-Avropa dillərində həmişə fərqlənir. Ümumillikdə qeyd etmək lazımdır ki, Hind-Avropa dilləri materialları əsasında hazırlanan nitq hissələri təsnifatı müxtəlif

strukturlu dillər üçün yaratmır. Məsələn, “ a native” sifəti ismə xas olan bütün morfoloji xüsusiyyətlərini qəbul edir- qeyri-müəyyənlik, müəyyənlik artiklı ilə işlənmiş, cəm və hal şəkilçisini qəbul etmişdir. Beləliklə, “native” sözü tam isimləşmişdir: a native, the native, natives, a native’s [1-səh 3,4]. Sifət və zərf kimi olan sözlər ad qrupu altında birləşirlər. Bəzi Afrika dillərində sifət və zərf feildən heç fərqlənmir. Türk dillərində isə sifət isimlə, zərf isə feillərlə birləşir. Çin dilində isə sifət və feil bir sinifdə predikativlə birləşir. Bu qrup isim və sayı özüncə birləşdirən ad qrupuna qarşı qoyulur. Azərbaycan dilçiliyində sifət əşyanın əlaməti və keyfiyyətini bildirən bir nitq hissəsi kimi təqdim olunur. Maliyyyət etibarilə bütün qrammatika kitablarında sifətə tərif verilir. Bir qisim sifətə aid olan dərəcə göstəricilərini nəzərə almasaq, Azərbaycan dilində sifətin nitq hissəsi kimi xüsusi qrammatik əlaməti yoxdur. Morfoloji təhlil zamanı belə sifətlər isim kimi yox isimləşmiş sifət kimi təhlil olunur. Sifətin təhlil zamanı qaydası zamanı onun xüsusiyyətləri göstərilir. Əlamət, keyfiyyət, rəng və s. bildirməsi və sualı, quruluşca növü, dərəcəsi bağlı olduğu söz və cümlədə rolu göstərilməlidir. Əşyalara aid olan əlamət və keyfiyyət “ tastes of apples”, “the biggest dream” və s. kimi qeyd olunur [1-səh 7,8]. İngilis və Azərbaycan dilləri müxtəlif qruplara malik olsalar da nitq hissələrinin əsas xüsusiyyətləri qismən üst-üstə düşür. Əsasən, ingilis dilinin analitik olması, affikslərin zəif sistemi ilə əlaqədar olaraq, əsas nitq hissələrinin qarşıdurması əsasən morfoloji xüsusiyyətlərində deyil, sintaktik göstəricilərində daha önə çıxır. Demək olar ki, ingilis dilində spesifik formal göstəricilərinin olmaması nitq hissələrinin omonimliyinə və konveksiyasının inkişafına təsir göstərir. Demək olar ki, lüğətlərdən ayrı, cümlədən və ya söz birləşməsindən kənarda götürülmüş söz nitq hissələrinə aidliyini səciyyələndirmək olmaz. Məsələn, “planet and animal” (isim)- to plant trees (feil), the back of the land (sifət). Beləliklə, sifət nitq hissəsi kimi bütün Hind-Avropa dillərində dörd əsas nitq hissələrindən biridir. Sifətin morfoloji, sintaktik və semantik cəhətləri fərqlidir.

Azərbaycan dilində sifət nitq hissəsi kimi üç meyara görə fərqləndirilir: semantik (cəhətin işarələnməsi), morfoloji (hal, say əsli sifətlərin müqayisə dərəcəsinə, xüsusi sifət düzəldən şəkilçiləri və sintaktik (təyin və isim xəbərin hissəsi kimi). İngilis dilində sifət isimlə uzlaşma formalarına malik deyil, nisbi sifətlərin bir qismi isə xüsusi sözdüzəldici suffikslə (wooden, sunny) göstərir. Beləliklə, ingilis dilində sifət öz semantik və sintaktik xüsusiyyətlərinə görə fərqlənir [2-12,13]. Morfoloji xüsusiyyətlərinə görə bir və min digər ismə münasibətdə təyin rolunda iştirakçını təmin edir (stone,wall, glass, door, education, ministry, verb forms). Bu modeldə birinci komponent semantik və sintaktik xüsusiyyətlərinə görə nisbi sifəti xatırladır, amma bu birləşmələrdə birinci tərəfi sifət kimi nəzərdən keçirmək qeyri-mümkündür. Morfoloji göstəricilərinin azlığından nitq hissələri arasında sərhəd itir və bu planda ingilis dili təcrid olunmuş dillərə yaxınlaşır. Bəzən iki isim birləşmədə mürəkkəb sözü birləşmədən ayırmaq çətinlik törədir. Məsələn, “schoolboy”, “schoolteacher”, “gas-light”. Nəzərə çatdırmaq lazımdır ki, bu zaman

söz və söz birləşmələri arasında sərhəd yoxa çıxır və ingilis dili inkorporlaran dillərə yaxınlaşır. Əsli sifətlərin müqayisə dərəcəsində ingilis dilində həm sintetik, həm də analitik formalarından istifadə olunursa, Azərbaycan dilində əsasən analitik formalarından istifadə olunur. İngilis danışıq dilində analitik formadan ismi xəbərin hissəsi kimi istifadə olunur. Məsələn, "this story is more funny/ simple than…" və s. Sintaktik forma isə sözdə təyinedici rolunda özünü biruzə verir. Məsələn, " a funnier/simpler story" , " a politier/ a happier person" və s. [2, səh 17,18]. Azərbaycan danışıq dilində də ingilis dilində olan ənənə seçilir, daha çox analitik forma nəzərə çarpır. Məs. "O daha qəşəngdir". Beləliklə iki dildə analitikliyin daha ön plana keçdiyini müşahidə edə bilərik.

Bəzi sifətlər cümlədə isimləşə bilir, hal, mənsubiyyət, kəmiyyət şəkilçilərini qəbul edir, cümlədə mübtəda və tamamlıq vəzifəsində işlənir. "Gənclər bu işə cəlb olunurlar- The young are involved in this work." Bu cümlədə həm sifətin, həm ismin xüsusiyyətləri var. İngilis və Azərbaycan dillərindən fərqli olaraq rus dilində sifətin sözün sintaktik funksiyasını fərqləndirən sifətin qısa və tam forması vardır. Onlara atributiv və predikativ formaları aid etmək olar. Nə azərbaycan, nə də ingilis dillərində sifətin forma və funksiyasının belə məhdudlaşdırılması vasitəsi mövcud deyil. "He was angry. He is bad-tempered/wicked." "Mənə soyuqdur. Bura istidir" tipli cümlələri göstərmək üçün xüsusi nitq hissəsi anlayışını-vəziyyət kateqoriyası terminini dilşiliyə gətirmişdir və bu sözlər statives adı altında ingilis dili nitq hissələri sisteminə daxil olur. Buraya vəziyyət bildirən, predikativlə işlənən "a" prefiksi ilə səciyyələnən sifətlər aiddir. Məs: afraid, awake, asleep, apart, aloof, ablaze. Hər iki dildə bu xüsusiyyətlərinin nitq hissəsi kimi önə çəkilməsi müzakirəyə açıq olaraq qalır. Hər şeydən əvvəl, hər iki dildə belə sözlərlə ifadə olunan müəyyən vəziyyət bildirən semantik tipi təyin etmək çətinlik törədir. Azərbaycan və ingilis dilində bu cür sözlər üst-üstə düşür. Məsələn: Mən soyuqdur, bura soyuqdur. I am cold. It is cold here. - He is afraid (asleep) tipli ingilis konstruksiyaları (O qorxur (yatır)) kimi feil vasitəsilə tərcümə olunur. Bundan əlavə ingilis dilində " a" prefiksiz sifətlər də vardır ki, onlar subyektin müvəqqəti vəziyyətini bildirən sifətlərdir və ismi xəbərin bir hissəsi kimi istifadə olunur. Məs; ill, ready, eager və s. Onlar azərbaycan dilində olan sözlərlə üst-üstə düşmür və ingilis dilində dəqiq semantik sinif kimi mövcud deyil. Bununla belə, qeyd etməliyik ki, vəziyyət kateqoriyalı sözlər ingilis dilindəd də xüsusi nitq hissəsi kimi formal və semantik əsaslanmalara söykənmir. Qeyd etmək lazımdır ki, azərbaycan dilindən fərqli olaraq ingilis dilində morfoloji göstərcilərdən kasıb bir dildir və nitq hissələri –isim və sifət arasında sərhəd tam şəkildə özünü biruzə vermir, bu planda ingilis dili təcrid olunmuş dillərlə yaxınlaşır. Sifət nitq hissəsi kimi universal kateqoriya deyil,lakin digər morfoloji-sintaktik siniflərlə müqayisədə daha az spesifikləşmiş söz sinifini təşkil edir. Bir çox dillərdə əvvəl morfoloji və ya sintaktik səciyyəyə malik xüsusi nitq hissəsi kimi nəzərə çarpır. Qeyd etmək lazımdır ki, bəzi dilçilər sifəti morfoloji kateqoriya kimi qeyd etmir. Onu qeyd etmək üçün semantik və sintaktik əlamətlər əlavə edilmişdir.

Dilçilər qeyd edirlər ki, sifət bir nitq hissəsi kimi çox qədim bir tarixə malikdir, sübut olaraq türk yazılı abidələri göstərir [3.səh 21,22].

Bu təsnifatı apardıqdan sonra o, sifəti digət nitq hissələrindən fərqləndirən bir cəhət kimi mənanı qeyd edir. Sifətin semantik əsasının anlayışın əlaməti olma fikri qeyd olunur. Sifətlər əşyanın əlamətini, keyfiyyətini bildirdiyindən bilavasitə isimlə bağlı olur, isimlə yanaşma əlaqəsində olur , ismə yanaşır. Sifəti təsəvvür etmək olmaz. Əşya yoxdursa, onun heç bir əlaməti yoxdur. Sifət özü özlüyündə eynicinsli deyil, təyin olunan vasitəsilə denotatla əlaqəlidir. Semantik cəhətdən eynicinsli deyil, onun təsnifatı rəngarəngdir, o həm də sifətin mənasına görə müxtəlifdir. Denotatların xüsusiyyətlərinə və zərflərin müxtəlif növlərinə görə uyğunlaşmalar da müxtəlif olur. Biz bilirik ki, sifətlər əsli və nisbi sifətlərə bölünür. Əsli sifətlər klassik predikatlar sayılır, belə ki, predikativdən başqa digər semləri daxil etmir. Əsli sifətin mənası homogendir. O denotatın tərkibindən asılı olaraq hərəkətliliyi ilə səciyyələnərək semlərə az bölünür. Əsli sifətlər sistemin daxilində semantik münasibətlər daha çox siqnifikatlara əsaslanır. Onun üçün isə denotatların oxşarlığına deyil, siqnifikatların yaxınlığına əsaslanan antinomoya və sinomiyanın xüsusi xarakteri səciyyədir. Sifətin semantik strukturunun əsasında keyfiyyət əlaməti intensivlik formasına görə dəyişə bilər. Bununla da, sifətin iki semantik xüsusiyyəti ortaya çıxır: müqayisə dərəcələr xüsusiyyəti və onların intensifikatorlarla uyğunlaşma xüsusiyyəti [4 səh 11,13]. Sifət ya predmetin keyfiyyətini, ya da bir predmetin digərinə münasibətdə nisbilik əlamətini bildirir. İngilis dilində isim predmeti adlandırır və predmetin əlamətini təyin edir və sifət funksiyasınpı yerinə yetirir. Tədqiqatçılar dərəcə intensivlik kateqoriyasından əlavə, atributivliyin və qeyri-atributivliyin sintaktik kateqoriyasının, əlamətin predikativ və qeyri-predikativliyinin səciyyəsini də ayırırlar.

Məqalədə nisbi sifətlərdən “-ly” şəkilçisi əlavə etməklə zərf düzəltmək mümkün olmadığı haqqında məlumat verilmişdir. Millət adı bildirən natamam isimləşmiş sifətlər cəm şəkilçisi qəbul etmir, lakin onlar milləti bir toplu halında bildirə bilir. Bu halda həmin sifətlərin qarşısında müəyyənlik artiklı işlədilir: A Japanese-the Japanese. English, spanish, french, dutch sifətləri də isimləşərək, yəni müəyyən artikl qəbul edərək bütovlükdə milləti bildirir: The English, The French və s. İngilis və Azərbaycan dilinin qrammatikasında isimləşmiş sifətlər özünə məxsus xüsusiyyətlərinə malik olaraq mühim yerlərdən birini tutur.

Ədəbiyyat

1. Müasir Azərbaycan dili II cild, 1980
2. Galskova N.D “Modern methods of teaching foreign languages”, 2004
3. Geoff Barton “ English Grammar” , 2009
4. Kazımov O. “ Müasir Azərbaycan dili” 2007

Nominative adjectives in modern English and place of usage in the Azerbaijani language

Summary

In short, a substantive is a defined as a word or group of words that acts as a noun or noun phrase in a sentence. Often a substantive is a noun or a pronoun, but it could be any part of speech that acts as a noun. The grammatical terms “substantive” and “nominal” can be used interchangeably. The term “substantive” was used much more frequently than it is today. In the Middle Ages, people often referred two types of nouns: substantive and adjectival. There are three criteria for distinguishing main parts of speech: 1) semantic- the meaning of the word classes, 2) morphological-grammatical forms and categories of words, 3) syntax- in other words, a combination of the words and its function in a sentence. As a part of speech the adjective is always different in Indo-European languages. As a main part of speech the adjective was investigated in many languages. But in this article the author tried to investigate it in English and Azerbaijan languages. Comparing an adjective in these languages the author tried to show differences of morphological and syntactical functions. The analysis of the characteristics and features in the English language, the linguist is observed the classification is based on different principles: substantives can be used as nouns is generally defined as being a person, place, thing or idea. A substantive noun describes a noun’s eternal substance or essence.

Müasir dilçilikdə isimləşmiş sifətlər və onların Azərbaycan dilində işlənmə yeri

Xülasə

Substantiv cümlədə isim və ya ifadə kimi çıxış edən söz və ya sözlər qrupu kimi müəyyən edilir. Çox vaxt substantiv isim və ya əvəzlikdir, lakin bu, isim kimi çıxış edən nitqin hər hansı bir hissəsi ola bilər. Qrammatik terminlər "substantiv" və "nominal" bir-birini əvəz edə bilər. "substantiv" termini bugünkündən daha çox istifadə edilmişdir. Orta əsrlərdə insanlar tez-tez iki növ isim istifadə edirdilər: substantiv və sifət. Nitqin əsas hissələrini ayırmaq üçün üç meyar var: 1) semantik - söz siniflərinin mənası, 2) morfoloji - sözlərin qrammatik formaları və kateqoriyaları, 3) sintaktik - başqa sözlə, sözlərin birləşməsi və cümlədəki funksiyası. Hind-Avropa dillərində nitq hissəsi olaraq sifət həmişə fərqlidir. Əsas nitq hissəsi kimi sifət bir çox dillərdə araşdırılmışdır. Amma bu məqalədə müəllif bunu ingilis və azərbaycan dillərində araşdırmağa çalışıb. Müəllif bu dillərdə bir sifəti müqayisə edərək morfoloji və sintaktik funksiyaların fərqlərini göstərməyə çalışmışdır. İngilis dilində xarakteristikası və xüsusiyyətlərin təhlili, dilçinin təsnifatının müxtəlif prinsiplərə əsaslandığını müşahidə edir: substantivlərin isim kimi istifadə oluna bilməsi ümumiyyətlə şəxs, yer, əşya və ya fikir kimi müəyyən edilir. Substantiv isim bir ismin əbədi mahiyyətini və ya əsasını təsvir edir.

Именительные прилагательные в современном английском языке и место употребления в азербайджанском языке

Резюме

Субстантив - это слово или группа слов, которые выступают в качестве существительного или словосочетания в предложении. Часто субстантивом является существительное или местоимение, но это может быть любая часть речи, которая действует как существительное. Грамматические термины “субстантивный” и “именной” могут использоваться взаимозаменяемо. Термин “субстантивный” использовался гораздо чаще, чем сегодня. В Средние века люди часто употребляли два типа существительных: субстантивные и прилагательные. Существует три критерия для различения основных частей речи: 1) семантический - значение классов слов, 2) морфологический - грамматические формы и категории слов, 3) синтаксический - другими словами, сочетание слов и его функция в предложении. Как часть речи прилагательное в индоевропейских языках всегда отличается. Как основная часть речи прилагательное исследовалось во многих языках. Но в этой статье автор попытался исследовать это на английском и азербайджанском языках. Сравнивая прилагательное в этих языках, автор попытался показать различия морфологических и синтаксических функций. Анализируя характеристики и особенности в английском языке, лингвист отмечает, что классификация основана на разных принципах: существительные могут использоваться как существительные, обычно определяемые как человек, место, вещь или идея. Субстантивное существительное описывает вечную субстанцию или сущность существительного.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Prof. Məmmədova Z.Ş
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLÇIN SOFIYEVA
Odlar Yurdu Universitetinin "Filologiya və humanitar" fənlər kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru
gulcinsofiyeva@hotmail.com

AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN SADƏLƏŞMƏSİ

XÜLASƏ

Məqalədə Azərbaycan dilinin dialekt və şivələrində işlənən mürəkkəb sözlərdən və onların sadələşmə prosesindən bəhs olunur. Həm müasir Azərbaycan ədəbi dilində, həm də dialekt və şivələrdə leksik yolla söz yaradıcılığı üsullarından biri də mürəkkəb sözlərin sadələşməsidir. Zəngin bir leksikaya malik olan dialekt və şivələrimizdən toplanmış nümunələrə əsasən demək olar ki, mürəkkəb sözlərin yaranmasının və sadələşmə prosesinin çox qədim tarixi var. İki söz birlikdə işlənərək zaman keçdikcə həm formaca, həm də mənaca dəyişir, yeni sözə çevrilir. Sözlərdən birinin və ya hər ikisinin mənasının köhnəlməsi, səs düşümü, səs artımı, səslərin əvəzlənməsi, səslərin yerdəyişməsi və s. mürəkkəb sözün yeni sadə söz kimi formalaşmasına səbəb olur və lüğət tərkibini zənginləşdirir.

Mürəkkəb sözlərin tərkib hissələri milli mənsubiyyətinə görə müxtəlif ola bilər. Azərbaycan dilinin dialekt və şivələrinin əhatə etdiyi ərazilərdə müxtəlif xalqlar uzun əsrlər boyu qonşuluq şəraitində yaşamışlar, buna görə də dillərin bir-birinə təsiri olmuşdur. Tarixən dilimizə çoxlu sayda fars, ərəb sözləri keçmişdir. Bu gün də müasir Azərbaycan dilində bu sözlər işlənir. Lakin dialekt və şivələrdə bu gün ədəbi dildə işlənməyən, dəyişikliyə uğrayan ərəb və fars dillərindən keçən mürəkkəb sözlərə rast gəlinir. Nəzərdən keçirdiyimiz dialekt sözlərin bir qisminin hər iki tərəfi milli və ya alınma, bir qisminin isə bir tərəfi alınma, digər tərəfi isə milli mənşəli sözlərdir. Bu mürəkkəb sözlərin təkibindəki sözlərin bəziləri xalq dilində təhrif olunmuş, ilkin formasından uzaqlaşmış, bəziləri isə arxaikləşmişdir. Tərəflər ayrılıqda müstəqil mənasını itirdiyinə görə sadə sözə çevrilmişdir. Məqalədə mürəkkəb sözlərin hansı sadə sözə çevrildiyi müəyyənləşdirilir. Tərkib hissələrinin mənşəyi, ilkin forması, mənası haqqında məlumat verilir.

Açar sözlər: dialekt və şivə, mürəkkəb söz, sadələşmə, söz yaradıcılığı, leksik yolla söz yaradıcılığı, sintaktik yolla söz yaradıcılığı.

Söz yaradıcılığı dilin lüğət tərkibini zənginləşdirən xüsusi bir prosesdir. Dilin daxili inkişaf qanunları ilə həm öz dilimizin daxili imkanları hesabına, həm də başqa dillərdən alınan sözlər hesabına yeni sözlər yaranır.

Azərbaycan dilində söz yaradıcılığı dilin öz daxili inkişaf qanunlarına əsasən üç yolla baş verir:

4. Leksik yolla söz yaradıcılığı;
5. Morfoloji yolla söz yaradıcılığı;
6. Sintaktik yolla söz yaradıcılğı.

Leksik yolla söz yaradıcılığı prosesi morfoloji və sintaktik yolla söz yaradıcılığı prosesindən daha mürəkkəbdir. Çünki bu yolla əmələ gəlmiş sözlər zaman keçdikcə formaca dəyişir, arxaikləşir, onların necə əmələ gəldiyini müəyyənləşdirmək çətinləşir. Leksik vahidlər dilə hazır şəkildə də daxil ola bilir, söz daxixilində müəyyən dəyişikliklərin baş verməsi ilə də yarana bilir. Yaranan yeni söz törədiyi mənşəyindən bəzi hallarda məzmun, bəzi hallarda isə həm məzmun, həm də forma cəhətdən uzaqlaşaraq yeni məzmunlu və formalı müstəqil bir söz kimi formalaşır.

Leksik yolla söz yaradıcılığı prosesinin bir neçə üsulu var. Bunlardan biri də sözlərin quruluşunun dəyişməsi, mürəkkəb sözlərin sadələşməsidir. Mürəkkəb sözlərin sadələşməsinin çox qədim tarixi var. Bu proses tarixən iki tərkib hissədən ibarət olan leksik vahidlərin sadələşmə qanununun tələbi ilə sadə sözə çevrilməsidir.

Türk dillərində ilkin sadə sözlər birhecalı olmuşdur. Azərbaycan dilində olan sadə sözlərin çoxunun birhecalı olması da(bir, üç, baş, dağ, bağ, al, gəl, get və s.) bunu sübut edir. Lakin dilimizdə təkhecalı sözlərlə yanaşı iki, üç hecalı sözlər də mövcuddur. Bu sözlərin bir qismi düzəltmə və mürəkkəb sözlərin sadələşməsi nəticəsində yaranmışdır. Bu proses nəinki müasir dildə, hətta dialekt və şivələrdə də baş verir.

Azərbaycan dilinin dialekt və şivələri çox zəngin bir leksikaya malikdir. Toplanmış nümunələr göstərir ki, mürəkkəb quruluşda olan sözlərdə sadələşmə meyli güclüdür. İki söz birlikdə işlənərək, zaman keçdikcə sadə sözə çevrilir. Bu sözlər həm formaca, həm də mənaca dəyişir. Dialekt və şivələrlə yanaşı, müasir dilimizdə də öz ilkin mənbəyindən uzaqlaşmış və sadə sözlərə çevrilmiş çoxlu sayda mürəkkəb söz vardır. Mürəkkəb sözlərin sadələşməsi leksik yolla söz yaradıcılığının bir üsuludur. Yəni tarixən iki sözdən ibarət olan leksik vahidlərin sadə sözə çevrilməsi lüğət tərkibini zənginləşdirən vasitələrdən hesab olunur. Mürəkkəb sözlərin sadələşməsinin bir neçə səbəbi ola bilər:

1) Tərkibdəki sözlərdən birinin mənasının köhnəlməsi;
2) Tərkibdəki sözlərin hər birinin mənasının köhnəlməsi və bir məna ifadə etməsi;
3) Söz tərkibində bir və ya bir neçə səsin düşməsi;
4) Səslərin əvəzlənməsi;
5) Səslərin yerdəyişməsi;
6) Səs artımı və s.

Sintaktik yolla yaranan sözlər milli mənsubiyyətinə görə müxtəlif ola bilər, yəni belə sözlərin tərəfləri həm milli, həm də alınma sözlərdən ibarət ola bilər. Müasir ədəbi dildə olduğu kimi, dialekt və şivələrdə də mürəkkəb sözlər yaranır və

sadə sözə doğru inkişaf edir. Bu halda sözlər formaca dəyişir, mənaca yenilənir, başqa sözə çevrilir. Mürəkkəb sözlərdə sadələşmə meylinin müxtəlif səbəbləri ola bilər: çoxhecalılıqdan azhecalılığa meyl, tələffüzün çətinliyi və s. Bu səbəbdən də sözün tərkibində səs dəyişmələri baş verir: bir və ya bir neçə səs düşə və ya artırıla bilir, bir səs başqa bir səslə əvəzlənə və yerini dəyişə bilir, söz ilkin formasından fərqlənir, onların sərhəddini müəyyənləşdirmək olmur.

Dialekt və şivələrdə mürəkkəb sözdən sadə sözə keçən bir neçə sözü nəzərdən keçirək.

Cumaxatan(Bakı)-yorğan-döşək üçün divar şkafı mənasında işlənir. Məs: Dur yorğan- döşəyi yığ cumaxatana.(5, s.82) Bu sözün bir qədər fərqli formalarına **(camaxatın/camaxudan(Quba)/cüməxatun**)da rast gəlmək olur. Bir çox dialektlərdə "paltar şkafı" mənasında da işlənir. "Camə" (fars dilində paltar mənasında) (8, s.78) və udmaq sözlərinin biləşməsindən yaranmış və təhrif olunmuş forması kimi qəbul oluna bilər. Lakin Müasir Azərbaycan dilində işlənən və kökü fars dilində "camə" sözü olan çamadan sözünü etimoloji cəhətdən araşdırdıqda, bu sözün "camə"(paltar) və "dan"(qab) sözlərinin birləşməsindən əmələ gəldiyi aydın olur. (7) **.** Camədan fars dilindən iki mənada-- çamadan və yorğan-döşək, xalça-palaz qoymaq üçün dördkünc kisə kimi tərcümə ounur. (8**,** s.78) Bunları nəzərə alararaq, "cumaxatan" sözünün "camədan" sözünün xalq dilində təhrif olunmuş forması kimi qəbul etmək olar.

Küllöş(Bakı)-çox əkilmək nəticəsində tamam gücdən düşmüş əkin yeri. Də:z qırağındakı yerrər küllöşdü, urda bıyillərim çetin mə:silimiz olsun. Bu söz ərəb mənşəli "küll" sözü(bütün, hamı, hamısı)(9, s.359) və "örüş" sözlərinin birləşməsi kimi izah olunur.(8, s.81) Lakin bunu küllük və örüş sözlərinin birləşməsi kimi qəbul etmək daha məqsədəuyğundur. Küllük-xarabalıq, xaraba yer(məcazi)(2 ,s.777) və örüş-mal-qara otarılan yer, geniş otlaq.(3, s.555)

Dəstərə- əl mişarı, kiçik mişar, əl dəyirmanı mənasındadır, fars sözüdür.(5, s.128) "Dəst"(f)-əl(9, s.119)+"ərrə"(f)-iki dəstəli iri mişar(8, s.171) sözlərindən yaranıb, tərkibində səs düşümü baş verib və sadə sözə çevrilib. Kərki olub öz tərəfinə yonma, ərrə ol, iki tərəfə yon. (Atalar sözü)(2, s.129) Dialekt və şivələrdə bu sözün fərqli variantlarına da rast gəlinir. Dasdar(Astara, Cəlilabad, Dərbənd, Quba, Lənkəran, Ordubad)-Dasdar sınmışdı(Quba), Dasdarnan buğdanı yarma eləllər(Ordubad). Dəstər(Culfa, Naxçıvan). (5**,** s.118, 128)

Əlhərə/əlhərrə(Lənkəran)-iki adamın işlətdiyi mişar, əl mişarı, əl dəyirmanı mənasındadır. İki sözdən ibarətdir: əl və hərə. Burada "əl" sözü Azərbaycan dilinə aiddir, "hərə" isə "ərrə" sözünün təhrif olunmuş formasıdır. Yuxarıda göstərdiyimiz kimi "ərrə" mişar mənasını bildirən fars mənşəli sözdür. "Dəstərə" sözü ilə eyni mənadadır, "əlhərə" sözü milli və alınma sözün birləşməsindən əmələ gəlmiş, tərkibində həm səs düşümü(r), həm də səs artımı (h) baş vermiş, ilkin formasından uzaqlaşaraq sadə sözə çevrilmişdir.

Mürgənə(Ağdaş, Lənkəran, Mingəçevir)-güvə, ağacqurdu. Paltonumu mürgənə vurub(Lənkəran). Paltarı yığmışam sandığa mürgənə kəsib. (5, s.365) Bu söz fars dilində "mur"(qarışqa) (9, s.89) və "kəne"(bit, gənə)(7) sözlərinin birləşməsindən yaranmışdır**.** Sözün tərkibində səs əvəzlənmələri baş vermiş, əvvəlki sözlərin forması dəyişdiyi üçün ifadə etdiyi anlayışlar unudulmuş, söz sadə sözə çevrilmiş və yeni məna qazanmışdır.

Bəqərəh(Bakı, Lənkəran)- quyudan su çəkmək üçün öküzün, atın getdiyi yol mənasındadır. Qazılan su quyularından su çəkmək çətin olduğundan yerli əhali qoşqu vasitələrindən istifadə edirdi. Atın və ya öküzün quyunun ətrafında bir neçə dəfə fırlanması nəticəsində quyudan su çəkmək mümkün olurdu. İki alınma sözün birləşməsindən yaranmışdır: "bəqər"- iribuynuzlu heyvan və qaramal-- ərəb sözləridir,(9, s.44) "rah"-yol, fars mənşəlidir.(10, s.225) Bəqərəh hərfi tərcümədə "qaramal yolu" manasını ifadə edir. Bu sözün tərkibində həm səs düşümü, həm də səs əvəzlənməsi baş vermiş, söz öz ilkin formasından uzaqlaşmış və sadə söz kimi sabitləşmişdir.

Hal-hazırda qaramalın su quyusundan su çıxarmaq funksiyasını elektrik mühərriki icra edir. Bu səbəbdən "bəqərəh" sözü arxaik dialektizmə çevrilmişdir.

Xinəvən/xinəvənd/xinəbənd/xınabənt/xınabət(Qax, Şəki)-üçkünc baş yaylığı. Dədə ma: xinəbənd alıp. Xınabəndi aş başınnən. Başa xınabənt bağli:illər ki, tühlər üzə tökülməsin.(5, s.222, 226) Bu söz iki kökdən yaranmışdır: xına və bənd. "Xına" ərəb mənşəli sözdür, mənbə dildə "hinna" formasındadır, mənası -başa və saqqala yaxılan təbii boyadır,(8, s.251) "bənd" fars sözüdür, bağ, ip mənasındadır. (8, s.46) Sözün tərkibində səs düşümü və səs əvəzlənməsi baş vermiş, yeni formalı və məzmunlu söz yaranmışdır. Mürəkkəb söz sadə sözə çevrilmişdir.

Alağız/alağuz(Şəmkir,Qazax,Tovuz)—ikiüzlü və xəbərçi mənalarında işlənir. Alağız adamnan zəhləm gedir. Sən nə alağuzsan. Alağuz həmişə ev yıxar. (5,s.19)

Bu söz iki tərkib hissədən ibarətdir: al və ağız. "Al" sözü tarixən dilimizdə "yalan" mənasında işlənmiş, müasir ədəbi dil üçün arxaikləşmişdir. Bu gün ədəbi dildə işlənən yalan, yanlış, yaltaq, aldatmaq, dialektlərdə yaltanmaq, yaltaşa, yallatmaq sözlərinin tərkibində işlənməkdədir. İkinci tərkib hissə isə müasir ədəbi dildə işlənən "ağız" sözüdür, yəni al+ağız(yalan ağız, ağzı yalan mənasında). Bu mürəkkəb sözün tərkibindəki sözlərdən biri arxaikləşmiş, digərində isə bəzi hallarda səs əvəzlənməsi baş vermiş, heca sərhəddi də pozulmuşdur. Buna görə də sözü ilkin mənasında dərk etmək çətinləşir və söz sadə söz kimi formalaşır.

Alağuzdux(xəbərçilik) alağuzdammax/alağızdammax(qəlyanaltı etmək) sözlərini eyniköklü söz hesab etmək olar. Bir əz alağuzdanın, pusa:t bir yaxşı pulov pişirəjəm. Niyə alağuzdux eleysən. (5, s.19)

Laqqutu(Lənkəran)—müxtəlif ölçülü iki dördbucaq ağac qutudan ibarət qədim zərb aləti. Azərbaycanın cənub bölgəsində(Lerik, Astara, Masallı, Lənkəran, Cəlilabad rayonlarında) istifadə edilir. Stolun üzərinə qoyularaq iki ağacla çalınır. Ölçüsü 250x125x50mm-dir. Ərik, fıstıq, qoz, tut ağaclarından hazırlanır. Bu sözün

etimologiyası alətin çıxardığı səs tembri ilə bağlıdır. Alətin müxtəlif növləri(nağara, qoşa nağara, qaval və s.) bir çox ölkələrdə geniş yayılıb.(12) Söz iki türk mənşəli sözdən əmələ gəlib: lax/lığ(boş, mənasız, düzgün olmayan) (3, s.237) və qutu. (içinə əşya qoymaq üçün taxtadan, metaldan, plasmasdan və s.-dən düzəldilən qab) (3, s.226)(Boş qutu). Sözün tərkibində səs əvəzlənməsi baş vermişdir. Söz öz ilkin formasından uzaqlaşmış, mürəkkəb sözdən sadə sözə doğru inkişaf etmişdir.

Laqqırtı vurmaq(boş, mənasız, qeyri-ciddi, uzun-uzadı söhbət etmək) (3, s.239) ifadəsini məcazi mənada bu musiqi alətinin adı ilə əlaqələndirmək olar.(11)

Xatınşı(Qax)—arvad, qadın. Doqqazda xatınşılar durup. (5, s.217) Qadın/xatın sözü və kişi(adam) sözlərinin birləşməsindən yaranıb. "Xatun" sözü monqol dilində "ilk(böyük) arvad" mənasında işlədilir. Qadın və xatun qohum sözlərdir, qədim mənası "kəbinli arvad" deməkdir. (7) Tərkiblərdəki sözlərin hər ikisi müasir dil üçün arxaikləşmiş, qədim formasını dialekt və şivələrdə saxlamışdır. "Kişi" sözü müasir dildə semantik cəhətdən dəyişərək cins anlayışı ifadə edir, tarixən isə bu söz adam mənası ifadə etmişdir. Bu sözün sadələşmə səbəbi sözün tərkibindəki sözlərin arxaikləşməsi, həm də səs düşümünün baş verməsidir.

Hamaş(Salyan)—dost-aşna, şərik mənasındadır. Hamaşlar toyda bir yerdə otırmışdılar. Yenə unnan hamaşsan, allah xeyrə yazsın. (5, s.194) İki sözün birləşməsindən yaranmışdır: həm və aş. "Həm" fars mənşəlidir, mürəkkəb sözlərin əvvəlinə gətirilərək şəriklik, birgəlik mənası bildirən sifət və isimlər düzəldir. (2, s.359) İkinci söz isə tarixən xörək, yemək mənası ifadə edən "aş" sözüdür, həqiqi mənada "yemək ortağı" birləşməsi dialekt və şivələrdə şəriklik mənasında işlənir. Bu iki söz yanaşı işlənərkən ikinci sözdəki qalın saitin təsiri ilə birinci sözdəki incə sait qalın saitlə əvəzlənmişdir. Deməli, bu sözün tərkibində həm arxaikləşmə, həm də səs əvəzlənməsi baş vermiş, ilkin formasından uzaqlaşaraq sadə sözə çevrilmişdir.

Küştərə/küşdərə(Borçalı,Tovuz, Zaqatala)—1. rəndə, 2. ağacın içini yonub çıxarmaq üçün işlədilən alət—Küşdəreyi qapıda, isdolda işdəderix. Küştərəni ussalarda görmək olar. (5, s.269) Bu sözün "künc" və "taraz" sözlərinin birləşməsi olduğu ehtimal olunur. "Künc"--fars mənşəlidir, bucaq, guşə mənasındadır.(2, s.359), "taraz/təraz" sözü də fars mənşəlidir: 1. düz, bərabər, 2. dülgərlikdə, torpaq və bənnalıq işlərində səthin düzlüyünü yoxlamaq üçün alət mənasındadır. (4, s.,269) "Künc" sözündəki yanaşı gələn samitlərdən "n" düşmüş və "c" samiti "ş" samiti ilə əvəzlənmişdir. "Taraz" sözündə isə səs düşümü baş vermiş, "künc" və "taraz" sözləri küştərə kimi formalaşmışdır, yəni, mürəkkəb söz tərkibini itirərək sadə sözə çevrilmişdir.

Kövə/kövər/köbər(Ağcabədi, Bərdə, Qax, Yevlax)- dik yer mənasındadır. Köbər yerə su çıxmaz. (5, s.260) İki sözdən yaranmışdır: "köp"+"yer". Burada həm səs düşümü, həm səs əvəzlənmələri baş vermiş, yeni söz formalaşmışdır. Sözün ilkin formasının "köpyer" olmasını əsas götürərək, "p" səsinin "v" səsi ilə əvəzlənməsi, "y" samitinin düşməsi və "e" səsinin "ə" səsinə keçməsi və söz sonundakı "r" səsinin düşməsi nəticəsində sadə quruluşlu "kövə" sözünün yaranmasını qəbul etmək olar.

Bəzi dialektlərdə(Qazax) geyimlərdə qatlanıb üst-üstə tikilən yer, döşəmə ilə taxta divar arasına vurulan ensiz taxta, metal qabların hissələrinin bir-birinə birləşən yeri və s. mənalarında işlənir.(Sənəyin kövəsi qırılıf).

Müasir dildə bu sözün "köbə" formasının bir neçə formada işlənməsi müşahidə olunur:

1. paltarın yaxasına, qoluna, ətəyinə başqa parçadan tikilən ensiz haşiyə; 2. Hər hansı bir əşyanın ətrafına çəkilən haşiyə; 3. Yarpaqların saplağının budaqdan ayrılan yerində, budağa bitişik olan incə pərdə. Hətta bu söz yeni sözlərin yaranmasında da iştirak etmişdir: köbəçi, köbəli, köbəlik(köbəlik parça). Bu sözə yazıçıların əsərlərində də rast gəlirik: Birisi soruşdu:-- Çəhrayı paltara yaşıl köbə qoysan necə olar?(Ə. Vəliyev) Mən dəyirman yanındakı köbər üstündə oturub başımı aşağı salmışdım.(Ə. Məmmədxanlı) (2, s.742,743)

Həşəvar/həşavar(Göyçay, Kürdəmir, Şəki, Zərdab)—zir-zibil, çör-çöp, qarğı, qamış qabığının zibili.—Ay qız , Sabiqə o həşəvarı yığ xaralın arasına, apar tök çəpərdən çölə. Tö:lədən çıxan həşəvarı çölə atırıx. Həşəvarın hamsını tulla. (5, s. 204) Söz iki tərkib hissədən ibarətdir: "həş"+"avar/havar". "Həş" sözü(Qax, Zaqatala) ərəb mənşəlidir, zibil, tör-töküntü mənasındadır(5 s.204), bəzi dialektlərdə qamış zibili mənasında işlənir. "Avar" sözü isə keçmişdə kənd evlərinin damına döşənən qamışaoxşar ot(1, s.166), qamışın bir növü, küləş, çırpı, quru ot(Bakı, Gədəbəy, Salyan,Zəngilan)(5, s.28) mənasındadır. Hər iki söz ayrılıqda ümumi dil üçün köhnəlmişdir.

Numxarış/nöxarış/no:xarış/no:xəriş(Bakı, Zaqatala)—yavanlıq mənasındadır. İki fars mənşəli, müxtəlif mənalı sözdən yaranan mürəkkəb sözdür: "nan"-çörək(10, s.172) və "xuriş"-ərzaq, yemək. (9, s.286) "Nan" sözü xalq dilində təhrif olunaraq "num/no", "xuriş" sözü isə "xariş/xəriş" formasına düşmüşdür. Fars dilində hər bir söz ayrılıqda müstəqil məna ifadə edir, lakin bu sözlər birləşərək yeni semantik məzmunlu leksik vahidə çevrilmişdir. Sözün tərkibində həm səs əvəzlənmələri, həm də səs düşümü hadisəsi baş vermiş, tərkibdəki sözlər ilkin formasından uzaqlaşmış və söz sadə söz kimi formalaşmışdır.

Azərbaycan dilinin dialekt və şivələrində elə mürəkkəb sözlər mövcuddur ki, onlar yaxın və ya eyni mənalı sözlərin birləşməsindən yaranmışdır. Belə sözlərin daxilində semantik inteqrasiya baş verir və sözün daxilindəki yaxın və ya eyni mənalı sözlərdən biri müasir dildə işlənsə də digəri arxaikləşmiş olur, ayrılıqda işlənə bilmir. Müasir dildə İşlənən, anlaşılan sözün hesabına arxaik söz də başa düşülür.

Bəzən belə sözlərin bir tərəfi, bəzən də hər iki tərəfi alınma sözlərdən(ərəb, fars) ibarət olur. Azərbaycan dilinin lüğət tərkibinin bir hissəsini dilin daxili qanunlarına uyğunlaşmış ərəb və fars sözləri təşkil edir. Buna görə də müxtəli mənşəli, yaxın mənalı sözlər birləşərək, ayrılıqda ifadə etdikləri mənaları ilə yanaşı əlavə məna çalarları bildirirlər.

Alyalan—yalanın qabarıq şəkli mənasını ifadə edir. (Hamısı alyalandı.) Bu sözün birinci tərəfi müasir dil üçün arxaikləşmiş "al" sözüdür. Yuxarıda da qeyd etdiyimiz kimi "al" sözü tarixən yalan mənasında işlənmişdir. Bu sözün tarixi forması yol/yal olmuş, sonralar "al" formasına düşmüşdür. Yalan sözü ilə birləşərək "alyalan"(yalan-yalan, çox yalan, lap yalan) sözü yaranmışdır. Müasir ədəbi dildə işlənən "ağ yalan" ifadəsinin bu sözün xalq dilində təhrif olunmuş forması kimi qəbul etmək olar. İki eyni mənalı sözün təkrarı yalan mənasını şiddətləndirmişdir.

Silazarı(Cəbrayıl, Zərdab)—uzun müddət davam edən xəstəlik mənasındadır. Sözün birinci hissəsi—"sil" ərəb mənşəlidir(sill),vərəm mənasındadır (10, s.291), ikinci tərəfi-"azar" isə fars sözüdür, xəstəlik mənasındadır.(9, s.25) Hər iki söz müasir dil üçün arxaikləşmişdir, lakin bu sözlərə həm ayrılıqda, həm də birlikdə dialektlərdə rast gəlinir: Sil xəstəliyini sağaltmaq olar. [5,s.436] Ehtimal oluna bilər ki, bu söz əvvəllər vərəm xəstəliyi mənasını bildirmiş, sonralar isə semantik cəhətdən bir qədər dəyişərək, ümumiyyətlə xəstəlik mənasını ifadə etmişdir.

Azərbaycan dili dünyanın ən qədim və zəngin dillərindən hesab olunur. Bütün dünya dilləri kimi Azərbaycan dili də başqa dillərin təsirindən uzaq qalmamışdır. S. Cəfərov yazır: "Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqı da tarix boyu müxtəlif xalqlarla yaxın və uzaq bir şəkildə əlaqə və münasibətdə olduğundan həmin xalqların dilindən Azərbaycan dilinə minlərcə söz keçmişdir. Bu proses dilin leksikasını zənginləşdirən əsas bir amil olararaq indinin özündə belə, fəal bir surətdə davam etməkdədir."(6,s.10)

Azərbaycan dilinin dialekt və şivələrinin əhatə etdiyi ərazilərdə müxtəlif xalqlar yaşamış və yaşamaqdadır. Bu xalqlar uzun əsrlər boyu qonşuluq şəraitində yaşadıqları üçün dillərin bir-birinə təsiri olmuşdur. Azərbaycan -fars dillərinin qarışılıqlı əlaqəsi zamanı dilimizə tarixən çoxlu sayda fars sözləri keçmişdir. Qədim abidələrdə, klassik ədəbiyyatda işlənən belə sözlərin çoxu bu gün müasir Azərbaycan dilində də işlənməkdədir. Lakin dialekt və şivələrdə bu gün ədəbi dildə işlənməyən, dəyişikliyə uğrayan ərəb və fars dillərindən keçən sadə və mürəkkəb sözlərə rast gəlmək olur və bu sözlər müxtəlif nitq hissələrini əhatə edir.

Azərbaycan dilinin leksik tərkibinin əsas bir hissəsini mürəkkəb sözlər təşkil edir və bunların böyük bir qismi başqa dillərdən keçən sözlərdir. Dilə müxtəlif dillərdən keçən mürəkkəb sözlərin tərkib hissələri müasir dildə və onun dialekt və şivələrində ayrılıqda müstəqil mənalı söz kimi işlənirsə, onları mürəkkəb söz kimi qəbul etmək olar. Sözün tərkib hissələrinin hər ikisi və ya biri alınma ola bilər. Lakin alınan sözlərin tərkibində dəyişiklik --tərkibdəki sözlərdən birinin mənasının köhnəlməsi, tərkibdəki sözlərin hər birinin mənasının köhnəlməsi və bir məna ifadə etməsi, söz tərkibində bir və ya bir neçə səsin düşməsi, səslərin əvəzlənməsi, səslərin yerdəyişməsi, səs artımı və s.-- baş vermişsə, öz ilkin formalarından uzaqlaşmışsa, belə sözləri mürəkkəb söz hesab etmək olmaz. Yuxarıda sadaladığımız mürəkkəb sözlər içərisində həm milli sözlər, həm də alınma sözlər var, hətta tərkib hissələri

alınma və milli sözlərdən ibarət olan sözlər də mövcuddur. Bu sözlərdə mürəkkəb sözlərin sadə sözə çevrilməsi prosesi izah olunur.

İstifadə olunmuş ədəbiyyat

13. Azərbaycan dilinin izahlı lüğəti. I cild, Bakı, 2006
14. Azərbaycan dilinin izahlı lüğəti. II cild, Bakı, 2006
15. Azərbaycan dilinin izahlı lüğəti. III cild, Bakı, 2006
16. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı, 2006
17. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 2007
18. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960
19. Əhmədov B. Etimologiya lüğəti. https://obastan.com/çamadan/920973/?l=az, https://www.azleks.az/online-dictionary/xatun?s=6, https://obastan.com/gənə/921849/?l=az
20. Vəliyeva G. Şərqi Abşeron şivələrinin leksikası. Bakı 2001.
21. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. I c. Bakı 2005.
22. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. II c. Bakı 2005.
23. Məhərrəmli Q. İsmayılov R. Məsəllər, deyimlər. https://www. azleks.az/az/online-dictionary
24. https://az.wikipedia.org/wiki/Laqqutu

Гюльчин Софиева

УПРОЩЕНИЕ СЛОЖНЫХ СЛОВ В ДИАЛЕКТАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье рассказывается о сложных словах, используемых в диалектах азербайджанского языка, и процессе их упрощения. Одним из способов лексического построения слов как в современном азербайджанском литературном языке, так и в диалектах и говорах является упрощение сложных слов. Основываясь на примерах, собранных из наших диалектов и диалектов, обладающих богатым словарным запасом, можно сказать, что процесс образования и упрощения сложных слов имеет очень древнюю историю. Два слова употребляются вместе, и со временем они меняются как по форме, так и по значению, становясь новым словом. Устаревание значения одного или обоих слов, потеря звука, увеличение звука, замена звуков, смещение звуков и т. д. вызывает образование сложного слова как нового простого слова и обогащает словарный запас.

Составные части сложных слов могут быть разными в зависимости от национальности. На территориях, охваченных диалектами азербайджанского языка, разные народы жили в соседних условиях на протяжении многих веков, поэтому языки оказывали влияние друг на друга. Исторически в наш язык перешло много персидских и арабских слов. Даже сегодня эти слова используются в современном азербайджанском языке. Однако в диалектах и идиомах встречаются сложные слова, не употребляющиеся сегодня в литературном языке, но претерпевшие изменения и перешедшие из арабского и персидского языков. Некоторые из рассматриваемых нами диалектных слов имеют национальное или иностранное происхождение с обеих сторон, а некоторые из них с одной стороны иностранного происхождения, а с другой стороны национального происхождения. Некоторые слова, следующие за этими сложными словами, в просторечии исказились, отошли от своей первоначальной формы, а некоторые стали архаичными. Стороны стали простым словом, потому что они теряют свое самостоятельное значение в отдельности. В статье определяется, какие простые слова переходят в сложные слова. Предоставляется информация о происхождении, первоначальной форме и значении компонентов.

Ключевые слова: диалект , сложное слово, упрощение, словообразование, лексическое словообразование, синтаксическое словообразование.

Gulchin Sofiyeva

Simplification of compound words in dialects of the Azerbaijani language

Summary

The article talks about the complex words used in dialects of the Azerbaijani language and the process of their simplification. One of the methods of lexical creation of words both in the modern Azerbaijani literary language and in dialects is the simplification of complex words. Based on the examples collected from our dialects , which have a rich lexicon, it can be said that the formation and simplification process of complex words has a very ancient history. Two words that are used together change both in form and meaning over time, becoming a new word. Obsolescence of the meaning of one or both words, loss and increase of sound, replacement and displacement of sounds, etc. causes the formation of the compound word as a new simple word and enriches the vocabulary.

The constituent parts of compround words can be different depending on origin. İn the territories covered by the dialects of the Azerbaijani language, different peoples lived in neighboring conditions for many centuries, therefore languages had an influence on each other. Historically, many Persian and Arabic words have passed into our language. Even today, these words are used in the

modern Azerbaijani language. However, in dialects there are compound words from the Arabic and Persian languages that undergone changes which are not used in the todays literary language. Some of the dialect words that we are considering are national or foreign origin on both sides, and some of them are of foreign origin on one side and on the other side of national origin. Some of the words following these complex words have been distorted in the vernacular, have moved away from their original form, and some have become archaic. Parts of the words have become a simple word as they lose their independent meaning in separation. In the article, which simple words are conversion of compound words is determined. Information over origin of components, its initial forms and meaning is provided.

Key words: dialect, compound word, simplification, word formation, lexical word formation, syntactic word formation.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Vəfa Cavanşir qızı Abbasova tərəfindən çapa tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR MƏMMƏD QIZI MƏMMƏDOVA
Azadlıq prospekti 16/21
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
aynur252@mail.ru

GRAMMAR AS THE BACKBONE OF LANGUAGE.
SUMMARY

This article identifies and discusses a number of key issues relating to the teaching of grammar. It focuses on the concept of grammar, its significance in spoken communication, basic approaches in teaching grammar and how to teach it.

Grammar is the base of English language. Sometimes it is defined as "the system of a language". It is also described as "the rule" of a language. In general, grammar is the structural foundation of our ability to express ourselves clearly.

Most learners hate grammar and think it is the most boring part in learning a new language. But we should admit that it is the backbone of a language, it is essential in language teaching field, grammar provides us with rules and structure. Grammar plays a vital role in effective communication. It helps second language learners develop their ability to communicate appropriately.

Some tips related to teaching grammar are given as well.

Key words: teaching grammar, important, approach, communication, essential, to express.

QRAMMATİKA DİLİN ƏSASI KİMİ.
NƏTİCƏ:

Bu məqalədə qrammatikanın tədrisi ilə bağlı bir sıra məsələlərə toxunulur. Qrammatıkanın şıfahi ünsiyyətdə vacibliyi, onun öyrədilməsində əsas yanaşmalar və necə öyrədilməsinə də diqqət yetirilir.

Qrammatika ingilis dilinin əsasını təşkil edir. Bəzən onu "bir dil sistemi" kimi də təyin edirlər. O, həm də dilin "qaydası" kimi təsvir olunur. Ümumilikdə, qrammatika özümüzü ifadə etmək üçün vacibdir.

Tələbələrin əksəriyyəti qrammatikanı xoşlamır və onların fikrincə, yeni dilin öyrənilməsində o heç də vacib deyil. Amma etiraf etməliyik ki, qrammatika dilin tədsində vacibdir. Qrammatika, ikinci dil öyrənənlərə düzgün ünsiyyət qurmaq bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Məqalədə ingilis dili dərslərində qrammatikanın tədrisi ilə bağlı bəzi qaydalar da verilir.

Açar sözlər: qrammatikanın öyrədilməsi, mühüm, yanaşma, ünsiyyət, əsas, ifadə etmək.

ГРАММАТИКА КАК ОСНОВА ЯЗЫКА.

РЕЗЮМЕ

В данной статье определяется и обсуждается ряд ключевых вопросов, касающихся преподавания грамматики. Основное внимание уделяется концепции грамматики, ее значению в устной коммуникации, основным подходам к обучению грамматике и способам ее преподавания.

Грамматика – это основа английского языка. Иногда его определяют как «систему языка». Его также называют «правилом» языка. В целом грамматика является структурной основой нашей способности ясно выражать свои мысли.

Большинство учащихся ненавидят грамматику и думают, что это самая скучная часть изучения нового языка. Но мы должны признать, что это основа языка, это важно в области преподавания языка, грамматика дает нам правила и структуру. Это помогает изучающим второй язык развивать их способность общаться надлежащим образом.

В статье также даются некоторые советы по обучению грамматике.

Ключевые слова: обучение грамматике, важное, подход, общение, существенное, выражать.

What is grammar? Grammar is the backbone of language, providing a set of rules and principles that govern the structure, formation and usage of words and sentences. It is a vital aspect of communication, enabling us to convey meaning effectively and accurately.

Understanding grammar: Grammar encompasses the rules that govern how words are formed, combined and used in a language. It comprises various components, including syntax, morphology, phonetics, and semantics. Syntax refers to the arrangement of words to create meaningful sentences, while morphology deals with word formation and the study of prefixes, suffixes and roots. Phonetics focuses on the sounds and pronunciation of words, while semantics explores the meaning and interpretation of language.

Arguments about the value of teaching grammar beyond have remained largely unchanged over the last 100 years.These have largely focused on two primary concerns. First, the value of dedicating valuable curriculum space to the study of something that research has shown to have little measurable impact on student competences and skills. For some teachers, this meant that grammar ended up being omitted entirely from classrooms. Second, the emphasis from some quarters on standards, correctness and a thinly disguised notion of linguistic policing has inevitably led to very narrow notions of what language study could look like in the classroom.

The following extract is given in a blog by Harry Mount published on The Telegraph website: “Without grammar you are back in the Stone Age, reduced to making the simplest of statements; or, by trying to make more complicated ones and

not being able to do it, you write nonsense. Grammar doesn't exclude; not knowing grammar does. Without good grammar, you don't have full access to one of the great joys of happening to be born in this country – being able to read and write English". Mount's comments present a right-wing view of grammar teaching. They explicitly emphasise the notion of a correct way of speaking, and implicitly downplay non-standard forms and varieties of English. They are typical of a prescriptive approach to language, emphasising rules and the importance of adhering to them.

Is grammar important? I f you have a good grammar, it is easier to communicate with other people correctly, for example when making sentences, paragraphs also for foreign language speakers, listening to adequate and coherent English is extremely useful to encourage newcomers to become fluent. This, in turn, helps native English speakers understand other languages.

On other hand, it was mentioned that for someone who is learning English as a beginner it a good idea teaching verb to be in a class for beginners? This depends on the way lessons are introduce since traditional ways has always been like this "The topic for today is…" It was recommended to use interactive ways to start a class such as using examples in as though describing an interesting or funny situation that demands to use the structure that will be study and that depended on the level of the student.

Why is grammar important for communication?

Grammar is essential for effective communication as it provides a systematic structure and set of rules that govern how words and sentences are used to convey meaning. Without proper grammar, communication can become confusing, unclear, and even misleading. Here are some reasons why grammar is important for communication:

1. Clarity: Proper grammar helps to ensure that our ideas are expressed clearly and accurately. It helps to avoid ambiguity and confusion, making it easier for others to understand our message.
2. Crediblility: Good grammar can enhance our credibility and professionalism. It demonstrates that we have taken the time to communicate clearly and effectively, which can lead to increased trust and respect.
3. Concision: Using proper grammar can also help us to be more concise in our communication. We can convey our ideas more efficiently, using fewer words, which can be especially useful in situations where time or attention spans are limited.
4. Precision: Proper grammar also allows us to express our ideas with precision. It enables us to convey the exact meaning we intend without the risk of being misunderstood.

Two basic methods in teaching grammar: Teachers and linguists refer to two basic methods while teaching grammar to their students. They are:

Rule-driven learning or deductive approach: here, the teacher himself or herself gives the students the set of rules to be learnt and used.

Discovery learning or inductive approach: in this case, the teacher does not directly give the rules to the students but provides them with means of finding out, discovering and learning the rules by themselves. Thornbury (2008) acknowledges that there are advantages and disadvantages with both approaches. Some of the disadvantages of the deductive approach are that some students might not understand the concepts involved. This, in turn, results in a lack of student interaction, and students might assume that learning a language is simply a case of knowing the rules. On the other hand, the advantages might exceed the disadvantages. As a deductive approach goes straight to the point, it can be time-saving and more effective than the inductive approach. Nevertheless, many of the pros and cons hinge on the quality of the actual rule explanation (Thornbury, 2008).

In comparison, some disadvantages of the inductive approach are that it might mislead students into believing that rules are the objective of language learning, rather than a means, it is time-consuming, as it might take time working out a rule, and it might be experienced as frustrating (Thornbury, 2008). Some advantages of the inductive approach, however, might be that it challenges the learners and makes learning more exciting when having to figure out the rules for themselves. This ensures a greater degree of cognitive depth and students being more

actively involved in the learning process than they would be in a deductive approach. Understanding the disadvantages and advantages of both approaches, may help the teacher to vary and organize the EFL/ESL lesson, in order to keep classes interesting and motivating for the students. To achieve his targets, the teacher is then required to be talented enough to use particular techniques for presenting grammar to his learners. Examples of these are the instructional techniques, which gained considerable attention in grammar teaching.

How to teach grammar:

When you teach a grammar lesson, there are some key things you need to remember to make sure that the students understand what you're teaching and feel engaged in the topic too.

Here are nine rules to remember when you teach your grammar lessons:

1. *Allow plenty of time for students to write down and memorise the grammatical structure being used.*
2. *Avoid mixing the target structure with other structures too much.*
3. *Personalise the TL by using real examples that relate to the students' lives and experiences.*
4. *Keep checking the students have fully understood the structure.*
5. *Teach meaning and pronunciation before form.*
6. *Elicit first, don't dictate the grammar rules to students.*
7. *Use examples rather than long explanations.*

8. *Use practice activities to consolidate and fix the language in your students' minds.*
9. *Avoid overly complicated vocabulary as this could distract from the TL.*
10. *Teach grammar in context.*

Making grammar fun:

Unless your students are passionate about linguistics and language, most of them probably won't choose grammar as their favourite subject of their English lessons.

Nowadays we see that some teaching methods have taken that to heart and don't focus on grammar that much. Some schools focus entirely on language acquisition only and avoid teaching grammar altogether.

However, in other schools teaching grammar will be an essential part of the curriculum. In these schools, grammar can often be a big part of students' exams, and if that's the case then it's going to be crucial that you teach them about the different points they could be tested on so that they can do well. Teaching grammar doesn't have to be dull, you just need to remember that students will have their own learning styles – some taking a more analytical approach where they work things out themselves, while others like to be led by the teacher. In order to teach the whole class effectively you need to mix and match your teaching styles so everyone has a chance to learn in their own way. To get students engaged, perhaps even using technology to bring them a new style of teaching. However you want to go about it – there's lots of opportunity for you to teach grammar to your students in both an effective and fun way. So let's show you how it's done!

Using resources:

Resources don't have to be boring worksheets full of rules and examples, they can be living things that students will come across in their day-to-day lives.

There are four main categories of that you can use in the classroom to make grammar lessons more fun: *songs, games, stories and real-life situations.*

References:

1. Marcello Giovanelli: "Teaching grammar, structure and meaning". Exploring theory and practice for post-16 English language teachers. Routledge Taylor&Francis Group London and New York. 2015.
2. Lisa G.Bentsen: "To teach, or not to teach grammar?- Teachers' approaches to grammar teaching in lower secondary school". 2017.
3. Thornbury,S. "How to teach grammar. (12th printing). Harlow: Pearson Education Limited. 2008.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filolgiya üzrə fəlsəfə dokjtoru, dosent Sevil Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

RƏCƏBOVA NƏRMİNƏ NƏRMAN QIZI
Bakı Dövlət Universiteti
e-mail: narmina_87@yahoo.com

KOMMUNİKATİV YANAŞMA VƏ ONUN YARANMA TARİXİ

Xülasə

Məqalə dil tədrisi tarixində mövcud olmuş əsas metod və yanaşmalardan, o cümlədən kommunikativ yanaşmadan bəhs edir. Cəmiyyətdə baş verən iqtisadi, siyasi, sosial və digər səbəblərdən insanların bir deyil, bir neçə dil bilmələri tələb edilir. Dünyada ən çox istifadə olunan dil ingilis dili olduğundan onun tədrisi üçün çoxsaylı metodikalar mövcuddur. Bunlara Qrammatika-tərcümə metodu, Birbaşa metod, Şifahi yanaşma və ya Situasiya Dil Tədrisi, Audio-linqual metod, Ümumi Fiziki Reaksiya, Sacestipedia, İcma Dil Öyrənməsi, Təbii yanaşma, Leksik Sillabus yanaşma, Kommunikativ Dil Tədrisi, Tapşırıq əsasında Tədris Metodunu aid etmək olar. Məqalədə qeyd olunan bu metodların hər biri haqqında ətraflı məlumat verilmiş, onların fərqli və oxşar cəhətləri, hər birinin yaranmasını və tənəzzülünü şərtləndirən səbəblər göstərilmişdir. Müxtəlif tədqiqatçıların araşdırmalarında Qrammatika-tərcümə metodunda tədris edilən materialın ana dilinə tərcümə edilərək mənimsənilməsi, Audio-linqual metodda şifahi nitqi əsas götürərək materialın təkrar edilərək mənimsənilməsi, Şifahi yanaşmada danışma bacarığının inkişaf etdirilməsi üçün söz ehtiyatının əhəmiyyəti vurğulanır. Kommunikativ dil tədrisi kommunikasiyanın əhəmiyyətini göstərir və bildirir ki, tələbə ingilis dilini kommunikasiya etmək və öz fikrini qarşı tərəfə çatdırmaq üçün öyrənməlidir. Burada forma yox məna əsasdır, başqa sözlə dil öyrənərkən dəqiqlik deyil, səlislik vacibdir.

Açar sözlər: tədris metodları, birbaşa metod, şifahi yanaşma və ya situasiya dil tədrisi, audio-linqual metod, ümumi fiziki reaksiya, sacestipedia, icma dil öyrənməsi, təbii yanaşma, leksik sillabus yanaşma, kommunikativ dil tədrisi, tapşırıq əsasında tədris metodu

Giriş. Xarici dil tədrisinin tarixi qədimdir. Məlum olduğu kimi, insanların minimum 70% -i iki dil bilir. Buna görə də xarici dilin tədrisi həmişə prioritet hesab olunur. Müasir dövrdə İngilis dili dünyada ən çox istifadə olunan dildir. **XV əsrə qədər dünyada əsas dil Latın dili idi. Lakin, sonralar siyasi və iqtisadi güc, eyni zamanda intibah dövrünün təsiri ilə İtalyan, Fransız və İngilis dillərinin aktuallığı artmış, bununla da latın dili kommunikasiyadan kənarlaşmışdır.** İstilalar zamanı latın dilli xalqların mədəniyyətini, eyni zamanda ədəbiyyatını araşdırmaq üçün bu dili öyrənmək lazım idi. Beləliklə, XIII əsrdə xarici dil tədrisinin əsası qoyuldu. Son illərdə insanlar müxtəlif səbəblərdən, o cümlədən iş, istirahət məqsədilə xarici ölkələrə **səyahət edən zaman** məlumat mübadiləsi və yeni biliklər əldə etmək üçün xarici dil öyrənirlər. Bunun üçün çoxsaylı metodlar mövcuddur. Bu

metodlar arasında Qrammatika-tərcümə metodu, Birbaşa və ya Təbii metod, Audio-linqual metod, Ümumi fiziki reaksiya metodu geniş yayılmışdır. Lakin, son illərdə kommunikativ dil tədrisi metodu daha çox diqqət cəlb etmişdir. V. Litlvuddun [14] fikrincə bu yanaşma müəllim və tədqiqatçılara daha çox imkanlar verməklə yanaşı, nəzəri və praktiki sahədə çoxsaylı müzakirələrə səbəb olmuşdur. Dil tədrisi metodikası öyrənənin ehtiyaclarından asılı olaraq dəyişir.

Qrammatika-tərcümə metodu. XIX əsrdə Alman məktəbinin nümayəndələri C. Seidenstüker, K. Plötz, H.S. Ollendorf və C. Meidinqer tərəfindən əsası qoyulmuş bu metod yüz illərlə ən çox istifadə edilən metod olaraq öz aktuallığını saxlamışdır. **Metodun** əsas məqsədi oxu və yazı bacarıqlarını inkişaf etdirmək idi. Qrammatika - tərcümə metodundan istifadə zamanı müəllim qrammatik qaydaları deduktiv yolla izah edir: müəllim qrammatik qaydaları izah edir, uzun və hərtərəfli izahat verir və nümunələr göstərir (adətən ayrı-ayrı cümlələrin siyahısın tələbələrə təqdim edirdi), sonra tələbələr tədris edilən dildə cümlənin qrammatikasını öyrənir, onlar bu cümlələri ana dillərinə və əksinə tərcümə edir, məsələn:

Müəllim "like/dislike + Gerund" qaydasını tələbələrə ana dilində izah edir, sonra isə lövhəyə yazır: At çapmağı sevirsən? Sonra tələbəyə ana dilində deyir: Bu cümləni İngilis dilinə tərcümə et və sonra lövhəyə yazır: Do you like riding a horse?

İzah edildikdən sonra çalışmalar yerinə yetirilir və yoxlanılır.

S 1: Do you like playing the piano?

S 2: Do you like drive a car?

Teacher: No, it should be : Do you like driving a car?

Tipik qrammatika-tərcümə metodunda müəllim əksər vaxt ana dilindən istifadə edir. Danışıq bacarığından istifadə bu metodla mümkün deyil, çünki yalnız cümlələri tamamlayarkən bir neçə sözdən istifadə edilir. Sözlər isə ayrılıqda əzbərdən öyrənilir. Bu metoddan istifadə zamanı sinifdə aparıcı qüvvə müəllim, tələbələr arasında ünsiyyət zəif olur. Metodun əsas məqsədi dəqiqlik, başqa sözlə qrammatik cəhətdən doğru cümlələr qurmaqdır. Bu metoddan istifadəni labüd edən digər bir səbəb isə həmin dil daşıyıcılarının artıq olmamasıdır. Məsələn, Latın, Sanskrit dilində olan hər hansı bir məlumatı əldə etmək üçün onu yalnız oxuyub tərcümə etməklə əldə etmək mümkün idi.

Tələbələrin cümlələri yazılı tərcümə etməsi, qaydaları mənimsəməsinə baxmayaraq, həmin dildə ünsiyyət saxlaya bilməməsi səbəbindən XIX əsrin ortalarından başlayaraq alimlər bu metoda qarşı çıxmışlar. Bununla belə, tələbələrin tərcümə zamanı hər iki dil arasındakı oxşar və fərqli xüsusiyyətləri müəyyən etməsi də onların müəyyən bilik əldə etməsi deməkdir.

Birbaşa metod. Qrammatika-tərcümə metodunun tənəzzülü yeni metodların yaranmasına səbəb olmuşdur. Bunlardan biri də Birbaşa metoddur. Birbaşa metod və ya Təbii yanaşma Qrammatika-tərcümə metodunun əksinə yaranmışdır. Birbaşa və ya Təbii metodun tərəfdarı alman alimi F.Frank [6] bildirir ki, xarici dili sinifdə qrammatik qaydaların izahı ilə deyil, hər bir qaydanı və ya sözü əyani görərək və ya

yerinə yetirərək öyrənmək lazımdır. Qrammatika-tərcümə metodunda əsasən ana dilindən istifadə edildiyi halda, Birbaşa metodda ~~isə~~ ana dili qadağan edilir, tələbələr yalnız xarici dildə danışır. Beləliklə, tələbələr xarici dili öz ana dilini öyrəndiyi kimi öyrənir və suallara birbaşa cavab verir. Bu metodda müəllim səhvləri düzəldir, düz cavabları isə müvafiq olaraq tərifləyir. Buna əsasən tələbə qrammatik qaydaları öyrənir. Birbaşa metodda tələffüzə xüsusi diqqət yetirilir, konkret sözlər əyani şəkillərlə nümayiş etdirilərək, abstrak sözlər isə əvvəl öyrənilmiş sözlər əsasında tədris edilir. Bu metodda yeni material yalnız şifahi təqdim edilir.

Birbaşa metod Avropada yaransa da Sauveur və Maksmilian Berlitz tərəfindən Amerika Birləşmiş Ştatlarında da geniş istifadə edilmişdir. Birbaşa metod bəzən Berlitz metodu da adlandırılırdı. Bu metod Birbaşa və Audio-linqual metodu birləşdirir, yəni ilk öncə dinləmə və danışma, sonra isə oxuma və yazma bacarıqlarının tədrisini vurğulayır. M. Berlitz bu metodun aşağıdakı prinsiplərini müəyyən etmişdir:

- heç vaxt tərcümə etmə, göstər;
- heç vaxt izah etmə, hərəkət et;
- heç vaxt nitq söyləmə, sual ver;
- heç vaxt səhvləri təqlid etmə, düzəlt;
- heç vaxt tək sözlərdən istifadə etmə, cümlədən istifadə et;
-hec vaxt çox danışma, tələbələri danışdır;
- heç vaxt sürətli getmə, tələbələrin sürətini izlə;
- heç vaxt yavaş danışma, normal danış;
- heç vaxt tez-tez danışma təbii danış;
-heç vaxt səbirsiz olma, rahat ol.

Birbaşa metodun danışıq bacarığının inkişafında müstəsna əhəmiyyətinə baxmayaraq, yalnız xarici dildən istifadə tələbələr üçün çox çətin olduğu kimi, bu metoddan istifadə edərək ingilis dilini tədris edən müəllimlərin də sayı az idi. Qeyd olunanlarla yanaşı, müxtəlif tədqiqatçılar, o cümlədən tətbiqi dilçiliyin tərəfdarı H.Svit tərəfindən birbaşa metodun çatışmazlıqlarının göstərilməsi nəticəsində bu metod öz aktuallığını tez bir zamanda itirmişdir.

Şifahi yanaşma və ya situasiya dil tədrisi. Dil tədrisinə digər bir yanaşma Britaniya tətbiqi dilçiləri H.Palmer və A.S.Hornbi tərəfindən irəli sürülmüş Şifahi yanaşma və ya Situasiya dil tədrisidir. Bu məktəbin üzvü M. Vest [13] oxu bacarığının əsas hissəsinin lüğət olduğunu göstərir. Buna görə də ingilis dilində ən çox işlənən sözlərin siyahısı tərtib edilmiş və uzun müddət M. Vestin "İngilis Dili Sözlərinin Ümumi Xidmət Siyahısı (A General Service List of English Words)" kitabı əsas mənbə kimi istifadə edilmişdir. Palmer və Hornbi bildirirdi ki, sözlər seçmə (leksik və qrammatik məzmuna görə), dərəcə (məzmunun təşkili və mərhələsinə görə) və təqdimat (təqdimat və təcrübə üçün istifadə olunan texnikalara görə) prinsiplərinə əsasən seçilməlidir. Şifahi yanaşma vasitəsilə dil tədrisinin müəyyən prinsipləri vardı: a) ilk öncə şifahi dil tədris edilir, material əvvəlcə şifahi,

sonra isə yazılı təqdim edilir, b) qrammatik qaydalar asandan çətinə doğru mərhələli tədris edilir, c) əsas leksik və qrammatik baza yaradıldıqdan sonra oxu və yazı materialı təqdim edilir, d) sinifdə əsasən xarici dildən **istifadə** edilir.

Audio-linqual metod. Şifahi nitqi əsas götürən digər bir metod Audio-linqual metoddur. Bu metodun nümayəndələri bildirirdi ki, nitq dildir, ilk öncə şifahi nitq öyrənilir, sonra isə oxu və yazı. Bu metoda əsasən tələbələr vərdiş formalaşdıran çalışmaları yerinə yetirməklə danışıq bacarıqlarını inkişaf etdirir, cümlələri bir neçə dəfə təkrar edərək onları əzbərləyirlər. Audio-linqual metod davranış nəzəriyyəsi ilə əlaqəlidir. Oyadıcı amil - cavab yanaşmasından istifadə edilərək dil və qrammatik qayda mənimsənilir, yəni oyadıcı vasitə - müəllimin köməyi - tələbəni cavab **verməyə** təhrik edir və bu cavab müəllim tərəfindən təriflənilərək mükafatlandırılır. Audiolinquistlər tərəfindən fonoloji, morfoloji və sintaktik komponentlərdən ibarət linqvistik sillabus tərtib edilmiş və onlar bu sillabusu dil tədrisinin başlanğıcı hesab edirlər. Təkrarın öyrənmənin əsası **olduğu** bildirilən bu metodda yeni material əvvəl eşidilir, sonra həmin materialın üzərində işlənilir, sonda isə yazılı formada yerinə yetirilir. Məsələn, müəllim İngilis dilində (dərs prosesində müəllim ingilis dilində danışır) cümləni deyir, tələbələr də təkrar edir, sonra isə əvəzetmə çalışmasından istifadə edərək hər hansı söz və ifadəni dəyişir. “I like chocolate” cümləsində tamamlığı dəyişirik.

I like ice-cream.
I like strawberry.
I like peach.

Audiolinquist Bruks [2, 156-161] ümumilikdə aşağıdakı növ tapşırıqları müəyyən etmişdir:

- təkrar – məs., The highest skyscraper is in Dubai.
- fleksiya - şəkilçidən istifadə edərək söz düzəltmək, məs., I have a sister – I have sisters,
- əvəzetmə - məs., Helen is a teacher. She is a clever girl.
- Yenidən ifadə etmə - məs., Ask Nadia when the film will begin.- Nadia, when will the film begin?
- Tamamla - I advise you … .
- Yerdəyişmə - Nunan is happy. - So am I.
- Genişləndirmə - I have a book – I have an interesting book.
- Qısaltma – Kate is standing on the right side of the road – Kate is standing there.
- Çevirmə - He is ready – He is nor ready.
- Inteqrasiya – I know that girl. She is taking care of my granny. – I know that girl who is taking care of my granny.
- Cavab – müxtəlif situasiyalar (nəzakətli olmaq, hirsli olmaq, razılaşmaq və s.) uyğun cavab vermək. – I totally agree with you.

- Bərpa etmə - save/Philipp's/to/doctors/ life/tried – Doctors tried to save Philipp's life.

XX əsrin ortalarında geniş yayılmasına baxmayaraq, nəzəriyyəsində mövcud olan çatışmazlıqlar, maraqsız və darıxdırıcı olması və tələbələrin əldə etdikləri biliklərin real kommunikasiyada istifadə edə bilməməsi səbəbindən bu metodun tənəzzülü sürətləndi. Bu metodun mənfi cəhətlərini ilk dəfə N. Xomski göstərmişdir. 1970-ci illərdən müəllimlər artıq bu metoddan istifadə etməməyə başladılar. Lakin, müəllim və tələbələr təkrarın müvəffəqiyyətin açarı olduğuna inandığından audio-linqual metodun əsas komponenti olan dil tapşırıqlarından bu gün də geniş istifadə edilir.

Ümumi fiziki reaksiya metodu. Əvvəllər mövcud olmuş metodlar yalnız dil ilə əlaqəli olduğu halda XX əsrdə ABŞ məktəbinin nümayəndəsi Ceyms Aşer [1] dil tədrisini həm də hərəkətlə əlaqələndirən ümumi fiziki reaksiya metodunu təklif etmişdi. O, yeni dil öyrənməkdə əsas maneənin təzyiq və narahatçılıq olduğunu qeyd edir. Belə ki, tələbə ana dilini öyrənərkən səhv etməkdən qorxmur, lakin xarici dil öyrənərkən çox narahat olur və nəticə etibarilə səhvlər edir. Bu baxımdan müəllim tələbə üçün həyəcansız şərait yaratmalıdır. Eşidib anlamaya əsaslanan bu metodda tələbə müəllimin dediyini həyata keçirir, yəni dil materialının tədrisi əmrlərlə yerinə yetirilir. Məsələn, dur, otur, qapını ört, və ya müxtəlif obrazları canlandırmaq. Tədris prosesində yalnız bu metoddan istifadə mümkün olmadığından, Ümumi fiziki reaksiya metodu digər metodlarla birgə istifadə edilir.

Ümumi fiziki reaksiya metodu təzyiq və narahatçılığı maneə hesab edirdisə, Sacestopedia metodunun tərəfdarları qeyd edir ki, dil yalnız heç bir mental maneə olmasa öyrənilə bilər. Müxtəlif yollarla tələbələrə göstərirdilər ki, dil öyrənmək asandır, beləliklə də mental maneələr aradan qaldırılır.

Tədris prosesi zamanı müəllimlərin az danışdığı, ana dilindən tamamilə istifadə etmədiyi yanaşma Sakit Yol adlanır. Bu yanaşma zamanı müəllim tələbələrə mümkün qədər öz istədiklərini ifadə etməyə imkan yaradır.

İcma dil öyrənilməsi metodu. Məsləhətçi (müəllim) - müştəri (tələbə) münasibətlərinə əsaslanan bu metodu Çarlz A. Kurran [3] tərəfindən irəli sürülməklə müəllim və tələbə arasında əlaqə yaratmağı hədəfləyir. Bu metoddan istifadə zamanı tədris prosesinə heç bir maneə yaranmır. Belə ki, ehtiyac olduqda tədris prosesində ana dildən istifadə edilir, sonra müəllim ingilis dilinə tərcümə edir və tələbələr tərcümə edilmiş cümləni təkrarlayır. Kurranın tələbəsi La Forc [8] öyrənənlər və öyrədən arasında əlaqənin olduğunu bildirərək qeyd edir ki, öyrənənlər arasında əlaqə müstəqil və sərbəst, bilən və öyrənən arasındakı əlaqə isə çərçivədə olur və bilənin tələb etdiyi məlumata əsaslanaraq həyata keçirilir.

S. Kraşen [11] tərəfindən təklif edilən Təbii yanaşma metodu ana **dili** ilə xarici dil arasındakı oxşarlıqlardan istifadə etməklə xarici dilin tədris edilməsinə əsaslanır. Bu zaman heç bir səhv düzəldilmir. Bu yanaşmada məzmun vurğulansa da, çalışmalar tələbələrin əsas ehtiyacını təmin etməli, tələbələr müxtəlif sahələrə aid

sözləri öyrənsələr də, bütün sahələrdə işlənən ümumi sözləri də öyrənməlidirlər. Məsələn, xüsusi sözlər "ekologiya" və ya "gəlir" mövzuları ilə əlaqəli olduğu halda, ümumi mövzu özlərini təqdim etmək ola bilər.

Sözlərin əhəmiyyətini və müxtəlif situasiyalarda onlardan fərqli istifadəni vurğulayan yanaşma Leksik Sillabus yanaşmasıdır. D. Villis [16] "The Lexical Syllabus" kitabında bu yanaşma haqqında geniş məlumat vermişdir. Leksik Sillabus yanaşmasının tərəfdarları dil tədrisinin mərkəzində söz və söz birləşmələri, xüsusilə də "do" və "make" kimi geniş söz birləşməsi yaratma qabiliyyətinə malik sözlər durduğunu qeyd edirlər.

Kommunikativ dil tədrisi. Son illər daha çox istifadə edilən və ingilis dili tədrisinin əsas məqsədi olan kommunikasiyanı hədəfləyən metod Kommunikativ dil tədrisidir. Bu yanaşma Audio-linqual metoda cavab olaraq yaranmışdır. Kommunikativ dil tədrisinin yaranması XX əsrin 60-cı illərində Britaniya dil tədrisində baş vermiş dəyişikliklərlə əlaqəlidir. Belə ki, ingilis dilli ölkələrdə xarici immiqrantlara ingilis dilinin xarici dil kimi tədrisi prioritet məsələ idi. Buna görə də bu immiqrantlara ingilis dili Kommunikativ Tədris metodundan istifadə edilərək öyrədilirdi. Əldə edilən nəticələrin yüksəkliyi bu metoddan tədris prosesində istifadəni də labüd etdi.

Kommunikativ dil tədrisi tələbələrə sinifdən kənarda dildən istifadə imkanları yaradır. Kommunikativ yanaşma yaranana qədər situasiya dil tədrisi metodundan istifadə edilir. Bununla belə, N. Xomski, D. Haymz, H. Viddouson kimi dilçi tədqiqatçıların əsərlərində situasiya dil tədrisi metodunun xarici dil tədrisinin məqsədinə uyğun olmadığı bildirilir. Kommunikativ yanaşmanın məqsədi - kommunikativ səriştənin dil tədrisinin əsas qayəsi olduğunu göstərmək və kommunikasiya üçün dörd dil bacarığının inkişaf etdirilməsidir. Kommunikasiya prosesi zamanı müəllif və ya natiq fikrini dinləyicilərə doğru çatdırdığına, dinləyici isə bu fikri anlayıb və ona lazımi cavab verməyə əmin olmalıdır. Bu məqsədə çatmaq üçün dil daşıyıcısının təqdim etdiyi həqiqi - real materialdan istifadə edilməlidir. Kommunikativ dil tədrisi metodunda yalnız bir metod və texnikadan istifadə edilmədiyindən bu, metod deyil yanaşma adlandırılır [10]. Kommunikasiya davranışın mühüm tərkib hissəsidir.

Kommunikativ yanaşmanın tərəfdarlarından biri də Hovatdır. O, kommunikativ dil tədrisini "güclü" və "zəif" olmaqla iki qrupa bölür [7, 279]. Kommunikativ yanaşmanın "zəif" forması ingilis dilindən istifadə üçün dili öyrənmək, "güclü" forması ingilis dilindən istifadə edərək dili öyrənmək prosesidir. Son illərdə istifadə olunan yanaşma - zəif formadır və bu zaman müəllim tələbələrin kommunikativ məqsədlə ingilis dilindən daha çox istifadəsini təşviq edirlər. Kommunikativ tədrisin "güclü" formasında "zəif" formanın əksinə olaraq göstərilir ki, dil dil kommunikasiyası prosesində öyrənilir və bu, dil sisteminin özünün inkişafına təkan verir.

Kommunikativ yanaşmanın əsas prinsipləri aşağıdakılardır [5]:

- məna əsasdır;
- dil öyrənmənin məqsədi kommunikasiya üçün öyrənmədir;
- səmərəli ünsiyyət vacibdir;
- tələffüz başa düşülən olmalıdır;
- tələbənin yaşından, maraq dairəsindən asılı olaraq istənilən vasitədən istifadə edilə bilər;
- kommunikasiya etməyə cəhd başlanğıcdan həvəsləndirilə bilər;
- ana dilinə ehtiyac varsa istifadə edilə bilər;
- əgər tələbənin ehtiyacı varsa tərcümə edilə bilər;
- oxu və yazı bacarığı ilk gündən inkişaf etdirilə bilər;
- kommunikativ sərişta arzulanan məqsəddir;
- məna, məzmun və funksiyadan asılı olaraq ardıcıllıq müəyyən edilir;
- müəllim tələbələri öyrənmək üçün motivasiya etməlidir;
- dil səhvlər üzərində yaranır;
- dildə axıcılıq əsas məqsəddir, məzmunda isə dəqiqlik olmalıdır;
- tələbələr digər insanlarla cüt və ya qrup şəklində əlaqədə olmalıdır;
- müəllim tələbənin dəqiq hansı dildən istifadə edəcəyini bilmir;
- daxili motivasiya kommunikasiyadan yaranır.

Yuxarıda sadalanan prinsiplərdən göründüyü kimi, Kommunikativ yanaşmada Qrammatika-tərcümə metodundan fərqli olaraq yalnız ana dilindən istifadə edilmir, eyni zamanda birbaşa metoddan fərqli olaraq qrammatik qaydalar ayrılıqda tədris edilmir. Audiolinqual metodda qrammatika izah edilmədiyi, ana dilindən istifadə qadağan edildiyi, müəllimin sinfi tam idarə etdiyi halda Kommunikativ yanaşmanın prinsipləri bunların tam əksini göstərir.

Kommunikativ dil tədrisi tərəfdarları bildirir ki, insanların dildən istifadə etmək imkanları varsa o zaman dil öyrənilir. Bu baxımdan dil tədrisi prosesi tələbələrin kommunikasiya üçün istəyi və məqsədi olduqda reallaşır. Bu zaman tələbələr çoxsaylı danışıq və yazı tapşırıqları yerinə yetirir. Kommunikativ yanaşma formanı deyil, mənanı vurğulayır. Burada tələbələrin düzgün yazması və danışması əsas deyil, əksinə müvəffəqiyyətlə kommunikasiya etməsi əhəmiyyətə malikdir. Səhvlərin düzəldilməsi adətən tələbələr kommunikativ yazıb və danışmasından sonra yerinə yetirilir. Məsələn, müəllim aşağıdakı cədvəli tələbələrə təqdim edir, onlar da sinifdə gəzərək qrup yoldaşlarına sual verməklə cədvəli doldururlar. Bu oyunun məqsədi fərqli adlarla mümkün qədər çox tələbə müəyyən etməkdir.

.... xoşlayanı tap	Ad
Oxumaq	
Idmanla məşğul olmaq	
At çapmaq	
Şəkil çəkmək	
Musiqi dinləmək	

Tələbələr sorğunu bitirdikdən sonra əldə etdikləri nəticələri oxuyur, müəllim isə səhvləri düzəltmir. Bütün cavablar oxunduqdan sonra müəllim eşitdiyi səhv cümlələri lövhədə yazır və tələbələr səhvi düzəldir, sonra müəllim "like və dislike" fellərindən sonra hansı forma işləndiyini soruşur"

Kommunikativ dil tədrisinin qarşısında duran əsas məqsədlərdən biri də dildən səlis istifadə etməkdir. Səlislik tələbənin kommunikasiya prosesi zamanı aydın, mənalı və axıcı nitqə sahib olmasıdır. Tələbələrin səlis nitqini inkişaf etdirmək üçün müəllim kommunikativ strategiyalardan istifadəni, mənalar vasitəsilə ünsiyyəti labüd edən, boşluqların, yanlış anlaşılmaların olmadığı çalışmalar tərtib etməlidir. Bəzən səlislik dəqiqlik ilə səhv salınır, lakin bunlar eyni termin deyil və istifadə edilən tapşırıqlar da fərqlidir. Belə ki, səlislikdən fərqli olaraq, dəqiqliyin inkişafına hədəflənən çalışmalarda mənalı kommunikasiyaya ehtiyac olmur, düzgün cümlə qurulmasına diqqət yetirilir və tədris üçün dil bacarıqları əvvəlcədən müəyyən edilir [9]. Beləliklə, kommunikasiya prosesi üçün yalnız dil bacarıqlarına deyil, həm də kommunikativ bacarıqlara sahib olmaq lazımdır.

Kommunikativ yanaşma sual-cavab, məsləhət, təklif, razılaşma, təsvir, müqayisə kimi müxtəlif kommunikativ funksiyaları yerinə yetirir. Bu yanaşma zamanı iki əsas vasitə çalışmaların yerinə yetirilməsi və problemlərin həllidir.

Bu metod bu gün öz aktuallığını saxlasa da digər dil bacarıqlarının inkişaf etdirilməməsi və yalnız tədris edilən dildən istifadə kimi çatışmazlıqlar yeni metodların yaranmasına təkan verir.

Tapşırıq əsasında tədris metodu. Bu metod kommunikativ yanaşma əsasında yaranmışdır. Görkəmli tədqiqatçı alim Villis [15] Tapşırıq əsasında tədris metodunun Kommunikativ yanaşmanın məntiqi davamı olduğunu göstərir. Bu metod dil öyrənilməsində həqiqi kommunikasiya üçün vacib olub, tələbələr üçün mənalı olan dil öyrənmə prosesini sürətləndirir. Qeyd olunan bu məsələ məhz kommunikativ yanaşmanın əsas prinsipləridir. Tapşırıq əsasında tədris metodunda diqqət daha çox prosesə yönəldilir, əsas elementləri isə kommunikasiyanı və mənanı hədəfləyən həqiqi kommunikasiyadır. Tələbələr əvvəlcədən mənimsədiyi materialdan istifadə edərək yeni strukturu, formanı öyrənirlər. Kommunikativ yanaşmadan fərqli olaraq tapşırıq əsasında öyrənmə metodunda bir mövzu bir neçə həftəyə öyrənilir və səhvlər nadir hallarda düzəldilir. İstifadə edilən tapşırıqlar iki qrupa bölünür: a) real həyatda tələbələrin ehtiyacını ödəyən tapşırıqlar, b) sinif üçün xüsusi pedaqoji əhəmiyyətə malik tapşırıqlar [4]. Villis tərəfindən isə aşağıdakı növ tapşırıqlar müəyyən edilmişdir:

- Siyahıya alma;
- Ardıcıllıqla düzmə;
- Müqayisə;
- Problemi həll etmə;
- Şəxsi məlumatları paylaşma;
- Yaradıcı tapşırıqlar.

Pika, Kanaci və Falodun tapşırıqları yapboz (mətnin müxtəlif hissələrin birləşdirib vahid mətn düzəltmək), məlumat boşluqlarını doldurmaq (tələbələr bir-birinə sual verərək buraxılmış məlumatları doldurur), problemi həll etmək (tələbələrə problem təqdim edilir və onların həlli yollarını müəyyən edilir), qərar qəbul etmək (tələbələr ortaq məxrəcə gələrək bir neçə qərardan birini seçirlər) və fikir mübadiləsi aparmaq (tələbələr diskusiya aparır, öz fikirlərini bildirirlər, lakin hər hansı bir nəticəyə gəlmirlər) kimi növlərə ayırır.

Bəzi kommunikativ dil tədrisi tərəfdarları qrammatikanın rolunu tamamən inkar etməklə, onun tədrisini təhlükəli adlandırırdılar. Bəziləri isə tələbələrə ingilis dilindən kommunikativ məqsədlə istifadə etməsi üçün imkan yaradılmalı və qrammatik qaydaları tələbələr özləri kəşf etməli (induktiv metod) olduğunu qeyd edirlər. Kommunikativ dil tədrisinin daha müasir forması olan tapşırıq əsasında tədrisin nümayəndələri isə formaya diqqət yönəltməklə qrammatikanın tədris edilməsini, kommunikativ dildən istifadə edərkən qrammatikanın onun tərkib hissəsi kimi tədris edilməsini bildirirlər. Eyni zamanda kommunikativ akt zamanı qrammatika qaydalarının da tədrisi kommunikasiyanı həm də dəqiq **və** səhvsiz edir.

Nəticə. Məqalədə müxtəlif alim və metodistlərin tədqiqat işlərindən istifadə olunaraq dil tədrisi tarixində mövcud olmuş metod və yanaşmalar araşdırılmış, bu metod və yanaşmaların oxşar və fərqli cəhətləri müəyyən edilmişdir:

	Qrammatika-tərcümə metodu	Audio-linqual metod	Kommunikativ Dil Tədrisi
Qrammatik qaydalar	əsas xüsusiyyəti	izah edilmir	ehtiyac olduqda izah edilir
Mənalı kommunikasiya	vacib deyil	məhduddur	əsas xüsusiyyəti
Tərcümədən istifadə	əsas xüsusiyyəti	qadağan edilir	ehtiyac olduqda istifadə edilir
Müəllim-tələbə rolu	müəllim	müəllim	müəllim tələbələr arasında əlaqəni təmin edir
Səhvlərə münasibət	dəqiqlik vurğulanır	dəqiqlik vurğulanır	səhvlər öyrənmə prosesinin tərkib hissəsidir
Dil bacarıqlarının balansı	oxu və yazı bacarıqları vurğulanır	dinləmə və danışma bacarıqları	tələbənin ehtiyacı olduğu dil bacarığı tədris edilir

Tədqiqat işinin sonunda belə bir nəticəyə gəlinmişdir ki, tədris prosesi zamanı müəllim tələbələrə fərdi yanaşmalı və hər bir fərdə fərqli öyrənmə mexanizmi tətbiq

etməlidir. Buna görə də müəllim tədris prosesində yalnız bir metoddan deyil, eyni zamanda müxtəlif metod və onların elementlərindən istifadə etməlidir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Asher J. Learning Another Language through Actions: The Complete Teacher's Guide Book. Los Gatos, Calif.: Sky Oaks Production, 1977, p.177
2. Brooks N. Language and Language Learning: Theory and Practice. 2nd ed. New York: Harcourt Brace, 1964, p.300
3. Curran C.A. Counseling-Learning in Second Languages. Apple River, Ill.: Apple River Press, 1976, p.133
4. Feez S. Text-based Syllabus Design. Sydney: National Center for English Teaching and Research, 1998, p.144
5. Finocchiaro, M., and C. Brumfit, The Functional-Notional Approach: From Theory to Practice. New York: Oxford University Press, 1983, p.235
6. Franke F. Die Praktische Spracherlernung auf Grund der Psychologie und der Physioligie der Sprache Dargestellt, Leipzig: O.R.Reisland, 1884, p.295
7. Howatt, A. P. R. A History of English Language Teaching, Oxford:Oxford University Press, 1984, p.394
8. Jafarov, S. (2022). Formation of learner's research competence based on using multimedia technologies. KAFKARS EĞİTİM YAYINLARI, 98–102. https://doi.org/10.5281/zenodo.6332195
9. Jafarov, S. (2023). Synergetic and innovative approaches to education. Revista De Investigaciones Universidad Del Quindío, 35(1), 415–430. https://doi.org/10.33975/riuq.vol35n1.1191
10. La Forge, P. G. Counseling and Culture in Foreign Language Acquisition. Oxford, Pergamon, 1983, p.142
11. Richard, J. C., Communicative Language Teaching Today. Cambridge: Cambridge University Press, 2006, p.52
12. Richards, J. C. & Rodgers, T. S., "Communicative language teaching". In" Approaches and methods in language teaching (2nd ed.). New York: Cambridge University Press, 2001, p.303
13. Samimy K. and J. Rardin, Adult language learners' affective reactions to community language learning: A descriptive study. Foreign Language Annals 27 (3):379-90
14. Sweet H. The Practical Studies of Languages, Reprinted London: Oxford University Press, 1899, p.292
15. West M. A General Service List of English Words. London: Longman, 1953, p.588
16. W. Littlewood, Communicative Language Teaching, Language Teaching Library, Cambridge University Press, 2014, p. 109

17. Willis J. A flexible framework for task-based learning. In J. Willis and D. Willis (eds.) 235-256 Challenge and Change in Language Teaching , Oxford: Heinemann, 1996, pp. 52-62
18. Willis J. D. The Lexical Syllabus. London: Collins COBUILD, 1990, p.142

Rajabova Narmina Narman

Communicative approach and its history

Summary

The article is about methods and approaches, especially Communicative approach that existed during the history of language teaching. Economical, political, tourism and some other reasons happening in the society require knowing not only one, but more than one language. As the English language is the most used language in the world there are a lot of methods for teaching it. Grammar-translation method, Direct method, Oral approach or Situational Language Teaching, Audio-lingual method, Total Physical Response, Suggestopedia, Society Language Teaching, Natural approach, Lexical Syllabus approach, Communicative Language Teaching, Task-based Language Teaching method are included here. Comprehensive information about each of these methods is given here, their similiar and different features, reasons for their creation and decline are shown. In the researches of different scholars it is emphasized that, in Grammar-translation method new material is taught by translating, in Audio-lingual method the main one is oral speech and material is learnt by repeating, Oral approach focuses on the importance of developing oral speech by enlarging vocabulary. Communicative Language Teaching shows the importance of communication and says that students learn English for communication and for conveying his/her opinion to interlocutor. Here not form, but context is essential, ie., while learning not accuracy, but fluency is important.

Key words: learning methods, Grammar-translation method, Direct method, Oral approach or Situational Language Teaching, Audio-lingual method, Total Physical Response, Suggestopedia, Society Language Teaching, Natural approach, Lexical Syllabus approach, Communicative Language Teaching, Task-based Language Teaching method

Раджабова Нармина Нарман

Коммуникативный подход и его история

Резюме

В статье речь идет о методах и подходах, особенно о коммуникативном подходе, существовавшем на протяжении всей истории преподавания иностранных языков. Экономические, политические, туристические и некоторые другие причины, происходящие в обществе, требуют знания не одного, а нескольких языков. Поскольку английский язык является наиболее

используемым языком в мире, существует множество методов его преподавания. Грамматико-переводной метод, Прямой метод, Устный подход или Ситуативное обучение языку, Аудио-лингвальный метод, Общий физический ответ, Суггестопедия, Обучение Языку Общества, Естественный подход, подход Лексической Программы, Коммуникативное Обучение Языку, метод Обучения языку на основе задач включены сюда. Здесь дана исчерпывающая информация о каждом из этих методов, показаны их сходные и различные черты, причины их создания и упадка. В исследованиях разных ученых подчеркивается, что в Грамматико-переводном методе новый материал преподается путем перевода, в Аудио-лингвальном методе основной является устная речь, а материал усваивается путем повторения, в Устном подходе акцент делается на важности развития устной речи путем расширения словарного запаса. Коммуникативное обучение языку показывает важность общения и говорит о том, что студенты изучают английский язык для общения и для передачи своего мнения собеседнику. Здесь важна не форма, а контекст, т. е. при обучении важна не точность, а беглость.

Ключевые слова: методы обучения, Грамматико-переводной метод, Прямой метод, Устный подход или Ситуативное обучение языку, Аудио-лингвальный метод, Общий физический ответ, Суггестопедия, Обучение Языку Общества, Естественный подход, подход Лексической Программы, Коммуникативное Обучение Языку, метод Обучения языку на основе задач.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru Şirəliyeva Gunay tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜN QOCAYEVA
ADPU
Filologiya fakültəsi, Xarici Dillər Mərkəzi
aygün.qocayeva31@mail.ru
ORCID ID:0000-0002-6776-473X

XARİCİ DIL KIMI FRANSIZ DILINDƏ TƏDRIS METODLARI

Xülasə

Didaktikada tədris metodları sinifdə təlim üçün istifadə olunan ümumi prinsiplərə, pedaqogika və idarəetmə strategiyalarına aiddir. Tədris metodu müəllimlərin öz şagirdlərinə bilik və bacarıqları səmərəli şəkildə ötürmək üçün istifadə etdiyi prinsiplər, qaydalar və prosedurlar məcmusudur. Bu, öyrənənlərə müəyyən bir fənni və ya daha ümumi təlimi daha yaxşı başa düşməyə və mənimsəməyə kömək etmək məqsədi daşıyır.

Didaktikada tədris metodları tədris olunan mövzuya, öyrənənlərin öyrənmə səviyyəsinə, yaşına, mədəni mənşəyinə və öyrənmə tərzinə görə dəyişə bilər. Bəzi üsullar tələbələrin qarşılıqlı əlaqəsinə və fəal iştirakına, digərləri isə dinləmə və müşahidəyə üstünlük verir.

Müəllimlər öyrənməni asanlaşdırmaq üçün vizual təqdimatlar, qrup müzakirələri, praktiki fəaliyyətlər, rol oyunları, tədqiqat layihələri, formativ və summativ qiymətləndirmələr kimi müxtəlif üsullardan istifadə edə bilərlər. Tədris metodlarına həm də öyrənənlərin bilik və bacarıqları necə əldə etdiklərini anlamağa çalışan təlim nəzəriyyələri təsir edir. Müəllimlər bu nəzəriyyələrdən öz tədris metodlarını tələbələrin ehtiyac və üstünlüklərinə uyğunlaşdırmaq üçün istifadə edə bilərlər.

Nəticə etibarilə, didaktikada tədris metodları fundamental öyrənməni (oxumağı, yazmağı, saymağı)asanlaşdırır. Deməli, şagirdin nəyi öyrənməsi təkcə onlara nə öyrədildiyindən deyil, həm də onun necə öyrədilməsindən, onların səviyyəsindən, inkişafından, maraqlarından və keçmişindən asılıdır... Bu o deməkdir ki, didaktikada tədris metodları çox diqqətlə seçilməlidir.

Açar sözlər: ***Didaktika, tədris metodları, idarəetmə strategiyaları, metodologiya ,kommunikativ metod***

Aygun Gocayeva

Méthodes d'enseignement en FLE

Sommaire

Les méthodes d'enseignement en didactique font référence aux principes généraux, à la pédagogie et aux stratégies de gestion utilisées pour l'enseignement en classe. La méthode d'enseignement est un ensemble de principes, règles et procédures utilisés par les enseignants pour transmettre efficacement des

connaissances et des compétences à leurs élèves. Elle vise à aider les apprenants à mieux comprendre et assimiler une matière particulière ou une formation plus générale.

Les méthodes d'enseignement en didactique peuvent varier en fonction de la matière enseignée, du niveau d'études des apprenants, de leur âge, de leur contexte culturel et de leur mode d'apprentissage. Certaines méthodes mettent l'accent sur l'interaction et la participation active des élèves, tandis que d'autres privilégient l'écoute et l'observation.

Les enseignants peuvent utiliser une variété d'outils et de techniques pour faciliter l'apprentissage, tels que des présentations visuelles, des discussions en groupe, des activités pratiques, des jeux de rôle, des projets de recherche et des évaluations formatives et sommatives. Les méthodes d'enseignement sont également influencées par les théories de l'apprentissage, qui cherchent à comprendre comment les apprenants acquièrent des connaissances et des compétences. Les enseignants peuvent utiliser ces théories pour adapter leur méthode d'enseignement en fonction des besoins et des préférences des apprenants.

Pour conclure, les méthodes d'enseignement en didactique favorisent les apprentissages fondamentaux (lire, écrire, compter). Ce qu'apprend un élève dépend non seulement de ce qu'on lui enseigne mais aussi de la manière dont on le lui enseigne, de son niveau, de développement, et de ses intérêts et de son vécu…Cela signifie qu'il faut donc choisir avec beaucoup de soin les méthodes d'enseignement en didactique.

Mots-clés: ***Didactique, méthodes pédagogiques, stratégies de gestion, méthodologie, approche communicative***

Айгюн Годжаева

Методика преподавания французского языка как иностранного

Резюме.

Методы обучения в дидактике относятся к общим принципам, педагогике и стратегиям управления, используемым для обучения в классе. Метод обучения представляет собой набор принципов, правил и процедур, используемых учителями для эффективной передачи знаний и навыков своим ученикам. Он направлен на то, чтобы помочь учащимся лучше понять и усвоить определенный предмет или более общую подготовку.

Методы преподавания в дидактике могут варьироваться в зависимости от преподаваемого предмета, уровня подготовки учащихся, их возраста, их культурного происхождения и способа обучения. Некоторые методы подчеркивают взаимодействие учащихся и активное участие, в то время как другие делают акцент на слушании и наблюдении.

Учителя могут использовать различные инструменты и методы для облегчения обучения, такие как визуальные презентации, групповые обсуждения, практические занятия, ролевые игры, исследовательские проекты, а также формативное и итоговое оценивание. На методы обучения также влияют теории обучения, которые стремятся понять, как учащиеся приобретают знания и навыки. Учителя могут использовать эти теории для адаптации своего метода обучения в соответствии с потребностями и предпочтениями учащихся.

В заключение, методы обучения в дидактике способствуют фундаментальному обучению (чтение, письмо, счет). То, чему учится учащийся, зависит не только от того, чему его учат, но и от того, как его этому учат, от его уровня, его развития, а также его интересов и образования ... с большой осторожностью выбирайте методы обучения в дидактике.

Ключевые слова: ***дидактика, методы обучения, стратегии управления, методология, коммуникатив метод***

İntroduction

Les méthodes d'enseignement font une partie intégrante de la didactique du FLE. Au cours de l'histoire ces méthodes se sont toujours développée et perfectionnée ce qui joue un rôle très important dans l'enseignement des langues étrangères aujourd'hui.

La problématique de la méthode est un peu compliquée parce que chacun des auteurs et didacticiens comprend cette notion de la manière différente, ainsi que la classification se distingue. Une des raisons pour cette contradiction est le sens du mot la méthode. Cette notion possède au minimum trois sens différents.

Méthode :

En ce qui concerne la terminologie didactique du FLE., Ch.Puren (Puren, 1996) détermine trois sens de la méthode :

- Premièrement, la méthode c'est le matériel d'enseignement c'est-à–dire un manuel ou un livre scolaire. Pour ce sens, Puren utilise le terme de cours. Il existe beaucoup de cours qui sont utilisés pour l'enseignement des langues étrangères, qui se divisent d'après le niveau des apprenants, d'après le type de l'école ou d'après l'orientation de domaine (économie, hôtellerie, etc.)
- Deuxièmement, la méthode c'est l'ensemble de procédés et techniques qui aident à un enseignant à attendre l'objectif visé. En ce sens, en pédagogie générale on parle des méthodes actives. C'est chaque activité réalisée par enseignant pour captiver attention et maintenir l'intérêt auprès ses élèves. Pour ce sens, Puren utilise le terme de méthode. P.ex. Hendrich définit ce sens de même manière.
- Troisièmement la méthode c'est « L'ensemble cohérent de procédés, techniques et méthodes qui s'est révélé capable, sur une certaine période historique et

chez des concepteurs différents, de générer des cours relativement originaux par rapport aux cours antérieurs et équivalents entre eux quant aux pratiques d'enseignement/apprentissage induites. » (Puren, 1996, p.17) Pour ce sens, Puren utilise le terme de méthodologie.

Ce qui est important pour mon article, c'est le troisième sens, qui est d'après Puren et d'après plusieurs auteurs nommé comme la méthodologie. Il est important de connaitre les méthodes utilisées dans le passé pour pouvoir comprendre des méthodes (approches) d'aujourd'hui.

PRÉSENTER LES MÉTHODOLOGIES D'ENSEIGNEMENT

Dans cet article on voudrait décrire en général les méthodologies d'enseignement et leur évolution historique.

La méthodologie traditionnelle

En ce qui concerne l'appellation de cette méthodologie on peut trouver aussi d'autres noms comme la méthodologie classique ou la méthodologie grammaire-traduction.

On peut considérer cette méthodologie comme la première méthodologie officielle. Ses racines commencent déjà au moyen-âge où elle était utilisée dans les écoles latines. On peut alors constater que la première langue étrangère qui était enseignée, c'était le latin plus tard aussi le grecque. Le commencement de l'enseignement du français est classé jusqu'à la seconde moitié du 17ème siècle.

Le composant auquel l'importance était attachée, c'était surtout la grammaire et la traduction. La langue était considérée comme un ensemble de règles et d'exceptions. Les élèves apprenaient des mots et toutes les phrases par cœur et ils traduisaient des textes mots à mots ce qui plaçait la production orale au seconde plan. C'était l'enseignant qui choisissait des textes surtout des textes littéraires à traduction et qui dominait la classe. Les élèves n'avaient pas trop de liberté en ce qui concerne la production orale ou la possibilité de s'exprimer. Malgré cela cette méthodologie a subsisté jusqu'au 20ème siècle.

Méthodologie directe.

Comme la méthodologie traditionnelle, cette méthodologie signifiait aussi un grand apport dans l'évolution d'enseignement des langues étrangères. Cette méthodologie a pris sa naissance grâce à la révolution industrielle qui commence à l'époque et qui apporte aussi de nouveaux besoins. Aussi la méthodologie précédente qui touchait surtout la grammaire à la traduction était déjà insuffisante. Le besoin qui s'est formé en développant le commerce et l'industrie c'était le besoin de savoir communiquer à l'étranger. Le but principal de cette méthodologie était alors de perfectionner la production orale et écrite et de mettre l'enseignement des langues vivantes au premier plan (en comparaison avec les langues mortes comme le latin).

En 1901, cette méthodologie était officiellement imposée par le ministère dans l'enseignement secondaire français mais elle s'évoluait assez rapidement vers la méthodologie mixte, c'est-à-dire mi- directe, mi- traditionnelle. Cette méthodologie

consistait à l'enseignement de la langue étrangère sans recours à la langue maternelle à savoir dès la première leçon. L'accent était mis à la pratique, autrement dit savoir utiliser la langue en situations réelles. Tout cela à l'aide de communication non-verbale, c'est-à-dire des gestes, mimique et les dessins ou images authentiques.

Le résumé des caractéristiques principales est suivant :

- Vocabulaire- les élèves apprennent le vocabulaire courant, des mots fondamentaux à l'aide des images, mimique ou l'entourage. Le vocabulaire plus compliqué et plus abstrait est expliqué plus tard à l'aide des mots déjà connus

Grammaire- elle est présentée sous forme inductive et implicite, les élèves apprennent le vocabulaire à l'aide des exemples, ils déduisent les règles grammaticales des phrases et des textes entières

- Ce qui a la plus grande importance, c'est l'acquisition de l'oral mais aussi la prononciation. L'écrit est considéré seulement comme un auxiliaire de l'oral (dictée, questions sur des textes etc.)
- On prend en compte les besoins et les capacités des élèves, on commence par ce qui est de base (vocabulaire, grammaire, prononciation) et après à l'aide des connaissances déjà connues on apprend ce qui est plus compliqué, plus abstrait etc. Autrement dit, on part du connu vers l'inconnu, du plus simple au plus compliqué, du plus concret au plus abstrait.

Cette méthodologie est aujourd'hui partiellement active, il y a plusieurs éléments qui ont subsisté jusqu'à nos jours (l'activité des élèves, apprendre dans les situations réelles, dialogues, aller du connu vers l'inconnu etc.,)

Méthodologie active

Cette méthodologie était utilisée dans l'enseignement scolaire français des langues vivantes étrangères depuis 1920 jusqu'aux 1960. Il s'agit de combinaison entre la méthodologie traditionnelle et la méthodologie directe. Cette méthodologie répondait aux problèmes liés à l'adaptation de la méthodologie directe dans l'enseignement français. Les caractéristiques principales étaient suivantes :

- Vocabulaire – il était toujours enseigné à l'aide des images et dessins mais on a permis la traduction des mots
- Grammaire- dans l'apprentissage de la grammaire on a préféré l'explication des phénomènes à l'apprentissage mécanique et par cœur
- Cette méthodologie a pris en compte pas seulement des besoins des étudiants mais aussi leur motivation

Méthodologie audio-orale

La phase après la deuxième guerre mondiale, c'est la période de recherche qui vient. La raison est claire. La guerre a causé l'expansion énorme de la technique, de moyens de transport et de communication. Les rapports d'affaires entre des états différents sont devenus plus intenses et avec ces rapports ont augmenté aussi des besoins de communication. Il fallait moderniser et reconstruire le système éducatif

parce qu'en conséquence du changement politique et social, les écoles étaient accessibles au public plus large. Avec ce changement on cherche de nouveaux supports, méthodes et méthodologie. On cherche à trouver des procédés menant au développement de l'indépendance et l'activité de l'élève. La méthodologie audio-oral a pris sa naissance aux États-Unis. À cette époque-là, les États-Unis avaient les tendances à moderniser l'enseignement pour ne pas rester isolés linguistiquement des autres nations.

Les idées principales de cette méthodologie sont suivantes :

- La langue est surtout audio-orale, l'élève apprend tout d'abord l'écoute et le dialogue après la lecture et l'écrit
- L'enseignement est basé sur l'imitation de locuteur natif, cela veut dire par répétition, pratique et par apprendre par cœur.

Cette méthodologie était alors basée sur l'écoute des dialogues de langue courante pour les mémoriser. La grammaire n'était pas trop importante, les élèves l'apprenaient sur la base des dialogues. C'est aussi pourquoi cette méthodologie était critiquée, mais on peut dire qu'elle a été la première qui a utilisé des moyens techniques audiovisuels dans l'enseignement des langues étrangères.

Méthodologie structuro-globale audiovisuelle (SGAV)

La méthodologie SGAV était inventée par l'institut de phonétique à l'université Zagreb (Croatie), par l'école normale de Saint-Cloud et par l'université de Mons en Belgique et c'étaient des méthodologues du Crédif qui ont élaboré le matériel d'apprentissage selon les principes sgaviens. Le premier manuel a été publié en 1960 et il était nommé Voix et image en France. Ceux, qui sont participés au développement de cette méthodologie, c'étaient surtout Ferdinand de Saussure et Charles Bally.

La notion structuro-globale est fondée sur la théorie que pas seulement la communication verbale, mais aussi la communication non verbale joue un rôle assez important (rythme, intonation, gestes, etc.).

Les idées principales de cette méthodologie sont suivantes :

- Basée sur un dialogue de la vie quotidienne à l'aide des images et des sons.
- On utilise un magnétophone pour enregistrer des dialogues et des films fixes.
- La grammaire est prise comme implicite et inductive.
- L'écrit est considéré comme un dérivé de l'orale.

L'approche communicative

Cette approche, comme chaque méthodologie nouvellement formée, s'oppose complètement à la méthodologie précédente. Comme l'indique le titre, cette approche a pour son objectif principal la communication, cela veut dire, apprendre à communiquer en langue étrangère.

Plusieurs analyses sont faites et à la base de diverses analyses on peut résumer quatre éléments qui sont spécifiques pour cette approche :

- Composante linguistique – cela veut dire acquérir des règles grammaticales, vocabulaire, phonétique, il s'agit d'une composante assez importante, mais pas suffisante pour savoir communiquer en langue étrangère
- Composante sociolinguistique - connaître des règles socioculturelles d'emploi de la langue et utiliser ses formes linguistiques dans une situation de la communication
- Composante discursive-il s'agit de différents types de discours et leur cohérence et cohésion
- Compétence stratégique- c'est la capacité d'utiliser les stratégies verbales et non verbales dans les situations de communication.

Le plus important pour cette approche, c'est de laisser les élèves réfléchir et trouver une solution ou tirer des règles grammaticales tout seuls, ce qui change aussi le rôle de l'enseignant.

Pendant l'enseignement, le professeur joue un rôle d'un surveillant et conseilleur, il dirige des élèves vers l'objectif visé et il les aide à développer la production orale. L'élève est obligé à travailler seul ou dans un groupe et il est mis dans des situations de la communication authentiques, par exemple pendant une simulation ou des jeux de rôle.

Approche actionnelle.

Au début des années 90, une nouvelle approche se forme, à savoir l'approche actionnelle. Un nouvel objectif est né. Il ne s'agit pas seulement de savoir communiquer, mais plutôt savoir agir en langue étrangère. Selon cette approche, l'élève est préparé en classe pour la possibilité d'étudier à l'étranger autrement dit, s'intégrer dans les pays d'Europe. D'après cette approche, les étudiants peuvent partir dans les pays étrangers pour y étudier ou aussi pour y travailler. Cette expérience est très enrichissante et utile, surtout pour leur emploi futur. Selon CECR, cette approche actionnelle est fondée sur la notion de tâche et sur la capacité d'élève de remplir ces tâches. Pour pouvoir bien concevoir la tâche pour les élèves, il faut prendre en compte six paramètres :

- Les objectifs
- Le support
- Les activités
- Les rôles respectifs de l'enseignant et des élèves
- Le dispositif
- Le résultat de la tâche

Chaque tâche possède dans une certaine mesure une authenticité et une utilité. Il s'agit de la situation dans le restaurant p.ex. Cela veut dire, savoir commander un plat, ou dans un hôtel, savoir réserver une chambre, etc.

Bibliographie

1. Puren, C., 1988. Histoire des méthodologies de l'enseignement des langues. Paris: Nathan-CLE international. pages pages 26 à 32
2. Puren, C., 1996. Histoire des méthodologies de l'enseignement des langues. Paris: Nathan-CLE international.p 17
3. Cuq, J.-P., 2003. Dictionnaire de didactique du français Langue étrangère et seconde. Paris: CLE international. pages 65-69
4. Cuq, J.-P. & Gruca, I., 2003. Cours de didactique du français langue étrangère et seconde. Grenoble: Presses Universitaires de Grenoble. pages 9 à 23
5. Cyr, P., 1998. Les stratégies d'apprentissage. Paris: CLE Interntational. pages 23

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: professor Çəmən Babaxanova
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLIYEVA NİGAR NIZAMƏDDIN QIZI
(BAAU)
nigar.nizameddin.84@mail.ru

SÖZÜN QAVRANILMASININ BƏZİ ASPEKTLƏRİ (İNGİLİS DİLİNDƏ MİNİMAL CÜTLƏRİN MATERİALLARI ƏSASINDA)

Açar sözlər: *dərketmə, mühüm əlamətlər, nitq, əsas vurğu, vurğulu və vurğusuz hecalar, fonoloji informasiya, eyniləşdirmə*

Key words: *perseption, essential linguistic characteristics, speech, main (primary) stress, stressed and unstressed syllables, phonological information, identification*

Ключевые слова: *восприятие, существенные признаки, речь, главное ударение, ударные и безударные слоги, фонологическая информация, идентификация*

Son illər linqvistik araşdırmalarda səsli danışığın qavranılmasına xüsusi diqqət yetirilir. Bu səbəbdən də canlı danışığın adekvat qavranılması müasir perseptiv tədqiqatların əsas problemlərindən biri kimi qiymətləndirilir. Bunun məntiqi nəticəsi kimi, linqvistik tədqiqatlarda danışığın resipiyent tərəfindən obyektiv qavranılması, dərketmə prosesində universal və xüsusi əlamətlərin tapılması, akustik siqnalların işlənib hazırlanması mexanizmi, dilin əsas dərketmə vahidinin müəyyən edilməsi, qavrayışın səviyyəvariliyi və s. məsələlər diqqət mərkəzinə düşmüş olur.

Dilçilik elmində danışığın qavranılması problemini araşdırılmasına ilk dəfə diqqət yeriən alimlər arasında akad. L.V.Şerbanın xidmətlərini qeyd etmək olar. Onun qeydinə görə, "... hətta mükəmməl qulaq da mövcud olanı deyil, öz təfəkkürünün assosiasiyaları ilə bağlı eşitməyə vərdiş etdiyini eşidir" [1, s.138].

Perseptiv məcralı tədqiqatlarda danışığın qavranılması proseslərində nominativ vahid olan sözün eyniləşdirilməsinin iki növü fərqləndirilir: a) müəyyən bir dilin qaydalarına uyğun gələn səs ardıcıllığının qurulmasını nəzərdə tutan fonoloji eyniləşdirmə, b) müəyyən bir lüğət vahidi ilə eyniləşdirmə olduqda tam eyniləşdirmədir ki, bunun nəticəsində sözə fonoloji, qrammatik, semantik və digər məlumatlar aid edilir [2, s. 44].

Problemi nəzərdən keçirən L.R.Zinder və V.B.Kaseviç sözü üç əsas qarşılıqlı əlaqəli səbəb üzündən danışığın qavranılmasında əsas əməliyyat vahidi kimi qəbul edirlər. Onların fikirncə, "birincisi, fonemlər üzrə qavramada vahid zaman daxilində daha böyük həcmdə informasiyanı yenidən kodlaşdırmaq lazımdır. İkincisi, "normal danışığın" akustik seqmentləri əksər hallarda natamam tələffüz tipinə malik olur. Üçüncüsü, insan dərketmə prosesində əlamətləri və vahidləri böyütməyə meyil edir, çünki bu müvafiq mexanizmlərin hərəkətini sürətləndirir" [3, s. 35].

Dərketmə nəzəriyyələrində sözün tanınmasında və qavranılmasında əsas rol fonemə və onun fərqləndirici (differensial) əlamətlərinə aid edilir. Buna görə də

fonem təsvirinin hər dəfə fərqli funksiyaları yerinə yetirməsinə baxmayaraq, səslərin, hecaların, sözlərin, söyləmlərin qavranılmasının öyrənilməsində zəruri həlqə olduğu göstərilir. Təcrid edilmiş səsləri tanınmasında, onların fonem üzrə eyniləşdirilməsi dinləyicinin hər hansı nitq seqmentini təşkil edən müxtəlif səslərin çoxluğunu təşkil və təsnif etməyin yeganə yoldur.

Dilçilikdə ilkin dərketmə vahidinin hecaya uyğun olması fikri də geniş yayılmışdır. Amma əksər dilçilər danışığın qavranılması prosesində sözə xüsusi əhəmiyyət verirlər [4; 5]. Onlar sözü insanın danışıq fəaliyyətində fəaliyyət göstərən və, bir tərəfdən, fonemlər ardıcıllığından ibarət, digər tərəfdən, xarakterik aksent-ritmik struktur, hecaların sayı, vurğunun yeri və s. səciyyələnən "bütöv obraz" kimi qəbul edirlər. L.R.Zinderin fikrincə, "dərketmə ayrı-ayrı fonemlərdən deyil, sözün ümumi cildindən başlayır" [5 s. 105]. Başqa sözlə desək, A.V.Ventsov və V.B.Kaseviçin də yazdıqları kimi, "sözün fonetik bütövlüyü ona xas olan xüsusiyyətlərin (aksent konturu, sinharmonik modeli, sözün əvvəli, sonu, ortasının əlamətləri, sözdəki hecaların sayı) mövcudluğunda, eləcə də sözün əlamətləri üzrə onun bütöv cildini tamamlamaq qabiliyyətində təzahür edir" [2, s. 50].

Sözlərin tanınmasına təsir edən amillər gəldikdə onu demək olar ki, sözün tanınmasında nitq siqnallarının müxtəlif xüsusiyyətlərindən istifadə oluna bilər: onların fonetik xüsusiyyətləri, semantik və semantik-qrammatik xüsusiyyətləri, həmçinin "ehtimal xüsusiyyətləri", yəni qəbul edilən söyəmdə verilmiş sözün işlənməsinin potensial imkanı. Müxtəlif dərketmə şəraitində nitq siqnalının fərqli xüsusiyyətləri sözün tanınmasında üstünlük təşkil edə bilər. Məsələn, nisbətən yaxşı tanınma şəraitində, siqnal səviyyəsi səs-küy səviyyəsindən çox yüksək olduqda, ilk növbədə, fonetik xüsusiyyətlərdən istifadə edilir, "orta" şəraitdə aktiv istinad semantik xüsusiyyətlərə edilir, səs-küy səviyyəsi xüsusi ilə yüksək olduğu ən pis şərtlərdə isə, "tezlik" həlledici olur" [6].

Sözün tanınması və qavranılmasında relevantlıq həm də onun uzunluğu və tezliyinə məxsusdur. Ümumilikdə söz formasına xas əlamətlər - sözün konsonant tərkibi, aksent-ritmik strukturu, başlanğıc səslər, vurğunun yeri, vurğulu sait və s. perseptiv baxımdan xüsusi əhəmiyyət kəsb edir. Sözün strukturunda vurğulu sait onun qavranılmasının təmin edən əsas əlamətlərindən biridir. Amma onu da nəzərə almaq lazımdır ki, söz tərkibində samitlərin sayının artması onun tanınmasını xeyli çətinləşdirir. Bunu əsas səbəbi isə "saitlərin akustik təbiətlərinə görə samitlərdən daha yaxşı tanınmasıdır" [7, s. 203].

Sözün tanınması və qavranılmasında onun tərkibindəki vokal və konsonant komponentlərin (fonemlərin) funksional yükü tam fərqlidir. "Samitlərin qavranılmasında səhvlərə saitlərin qavranılmasındakı səhvlərə münasibətdə daha çox rast gəlinir və vurğulu saitlər isə demək olar ki, danışıq zəncirində dəyişmələrə məruz qalmır" [8, s. 230].

Sillabik dillərdə heca tərkibində melodiklik və intensivliyin qanunauyğun şəkildə dəyişməsi xarakterik əlamətdir. İngilis dilində vurğu kontrastiv funksiyanı

yerinə yetirir, yəni sözün strukturunda onun fərqli hecalara düşməsi sözün mənasını və ya qrammatik formasını dəyişə bilir. Sözün qrammatik formasının dəyişməsi ingilis dili üçün səciyyəvidir. İkihecalı sözlərdə vurğunun ilk və ya ikinci hecaya düşməsi sözün morfoloji məzmununu dəyişir. Məsələn: ['contest] (isim) – [con'test] (feil), ['insult] (isim) – [in'sult] (feil) və s.

Söz vurğusunun fonoloji mahiyyəti onun, fonem kimi, sözün səs cildinin əsas elementi kimi çıxış etməsindədir. Başqa sözlə, vurğu sözlərin yalnız maddi qabığını yox, həm də onların məna tərəfini də fərqləndirir. Məsələn, ingilis dilində: "discharge" [dis'ʧɑʤ] (feil – "discharge"['disʧɑʤ] (isim).

Müasir ingilis dilində sözlərin morfoloji klaslarının tanınmasında söz vurğusu mühüm fərqləndirici əhəmiyyətə malikdir. İngilis dilində vurğunun yerinə görə qrammatik məna baxımından fərqlənən 300 qədər "isim-feil" minimal söz cütlüklər vardır. Bununla bağlı T.İ.Şevçenko yazır: "ingilis dilinin materiallarının təhlilinə istinadən demək olar ki, sözün strukturunda birinci hecada vurğunun olması isimlər, vurğunun sonuncu hecada reallaşması isə feillər üçün xarakterikdir" [9, s. 123].

Fonem tərkibi eyni olan sözlər yalnız vurğu sayəsində öz aralarında qrammatik cəhətdən fərqlənir. Vurğunun distinktiv funksiyası identik fonem inventarlı sözləri sistemdə fərqləndirsə də, sintaqmatikada neytrallaşır, yəni bu sözlər eyni kontekstdə işlənə bilmir. Bu isə həmin sözlərin öz aralarında əlavə distribusiya münasibətində olmasını təsdiq edir. L.R.Zinderə görə, vurğunun "birincisi, sözfərqləndirici funksiyası yalnız hərəki vurğulu dillərdə ola bilər. İkincisi, dildə vurğunun yerinə görə fərqlənən minimal cütlərin sayı azdır, üçüncüsü, vurğunun konstitutiv funksiyası kvaziomonimin olmasından asılı olmayaraq istənilən sözə məxsus hadisədir" [10, s. 260].

Xatırlatmaq istərdik ki, dublet tələffüzün mümkünlüyü vurğunun konstitutiv funksiyasını şübhə salmır, eyni qaydada sözün fonem tərkibinə münasibətdə dublet tələffüz fonemin konstitutiv funksiyası ilə inkar olunmur. Vurğu prosodik hadisə kimi, təkcə bir hecanı deyil, bütövlükdə sözü əhatə edir. İki və daha artıq hecalı sözlər ritmik baxımdan fərqli variantlarda tələffüz olunur.

Məqalədə ingilis dilindən seçilmiş minimal cütlərdə ossilloqrafik təhlil nəticəsində vurğunun akustik parametrlərinin – zaman, intensivlik və əsas tonun tezliyinin qiymətləri alınmışdır. Məqalənin həcmini nəzərə alaraq yalnız üç minimal cütün ossilloqramları və spektroqramlarını, həmçinin onların akustik parametrlərinin göstəricilərinin şərhini verməklə kifayətlənmişik. Ossilloqrafik təhlil olunmuş minimal cütlüklərin aksent göstəriciləri onların "informasiya baxımından dəyərlilik" kateqoriyasına aid edilməsini əks etdirir, çünki söz strukturunda vurğunun yerdəyişməsi həmin sözlərin qrammatik mənasında, o cümlədən tanınmasında müstəsna əhəmiyyətə malik fonoloji markerdir.

Məsələn, ossilloqrafik təhlil olunmuş [im'port] (idxal etmək) sözündə zaman (T) 73 – 87 m/san, əsas tonun tezliyi (F) 135 – 157 hs, intensivlik (İ) 79-85 db-dir. ['import] (idxal) sözündə isə zaman (T) 92 – 87 m/san, əsas tonun tezliyi (F) 149 –

C.Oruell "Milliyyətçilik haqqında qeydlər" adlı nüfuzlu essesində vətənpərvərliyi əlaqəli millətçilik anlayışından fərqləndirirdi: "Vətənpərvərlik" dedikdə, insanın dünyanın ən yaxşısı olduğuna inandığı, lakin başqa insanlara zor tətbiq etmək istəmədiyi müəyyən bir yerə və müəyyən bir həyat tərzinə bağlılığı nəzərdə tuturam. Vətənpərvərlik həm hərbi, həm də mədəni cəhətdən müdafiə xarakteri daşıyır. Milliyyətçilik isə hakimiyyət arzusundan ayrılmazdır. Hər bir millətçinin daimi məqsədi özü üçün deyil, öz fərdiliyini yaratmaq üçün seçdiyi millət və ya digər vahid üçün daha çox güc və daha çox nüfuz əldə etməkdir" [4, s. 50].

İntibah dövrü italyan diplomatı, yazıçısı, filosofu və tarixçisi Nikkolo Makiavelli üçün ümumi azadlıq sevgisi vətəndaşlara öz şəxsi və xüsusi maraqlarını ümumi rifahın bir hissəsi kimi görməyə imkan verirdi və onlara korrupsiya və tiranlığa qarşı durmağa kömək edirdi. Vətənə olan bu sevgi adətən hərbi gücü və mədəni üstünlüyü ilə qürur hissi ilə qarışsa da, bu cür vətənpərvərlik bağlılığının fərqli mərkəz nöqtəsini təşkil edən vətənin siyasi institutlarını və həyat tərzini əhatə edirdi. Vətəni sevmək ümumi azadlığın qorunması üçün öz xeyirini, o cümlədən həyatını qurban verməyə hazır olmaq idi.

Vətənpərvərlik tarix boyu aydın görünsə də, o, heç də həmişə vətəndaşlıq fəziləti hesab edilməyib. Məsələn, 18-ci əsr Avropasında dövlətə sədaqət kilsəyə sədaqətə xəyanət sayılırdı.

Yuxarıda da qeyd etdiyimiz kimi, 18-ci əsrin müəyyən alimləri də bəzilərini həddindən artıq vətənpərvərlik hesab etdikləri şeydə günahlandırırdılar [5, s. 103]. 1775 və 1774-cü ildə yazdığı "Vətənpərvər" essesində Britaniyaya sadiqlik iddiasında olanları tənqid edən Samuel Conson məşhur şəkildə vətənpərvərliyi "əclafın son sığınacağı" adlandırmışdı. Şübhəsiz ki, Amerikanın ilk vətənpərvərləri azadlıq baxışlarını bərabərliklə əks etdirən bir millət yaratmaq üçün həyatlarını riskə atmış onun "Qurucu Ataları" (Founding Fathers) idi. Onlar bu vizyonu Müstəqillik Bəyannaməsində ümumiləşdirdilər: "Biz bu həqiqətləri öz-özünə aydın hesab edirik ki, bütün insanlar bərabər yaradılmışdır, onlara Yaradan tərəfindən müəyyən ayrılmaz hüquqlar verilmişdir, bunlar arasında Həyat, Azadlıq və Xoşbəxtliyə can atmaq da vardır." Bu tək cümlə ilə Təsisçilər hakim Britaniya Monarxiyasının bir insanın şəxsi xoşbəxtliyə can atmasının sədaqətsiz, özünə inamsızlıqdan başqa bir şey olmadığına dair uzun müddətdir mövcud olan inamını dağıtdılar. Əvəzində onlar etiraf etdilər ki, hər bir vətəndaşın şəxsi həyata can atmaq hüququ ölkənin iqtisadiyyatını gücləndirəcək ambisiya və yaradıcılıq kimi keyfiyyətlər üçün vacibdir. Nəticə etibarı ilə xoşbəxtlik axtarışı Amerikanın azad bazar kapitalizminin sahibkarlıq sisteminin arxasında dayanan qüvvə oldu və belə də qalır [6, s. 32].

Müstəqillik Bəyannaməsində daha sonra deyilir: "Bu hüquqları təmin etmək üçün insanlar arasında hökumətlər qurulur və öz ədalətli səlahiyyətlərini idarə olunanların razılığından alırlar". Bu ifadədə "Qurucu Atalar" monarxların avtokratik hakimiyyətini rədd etdilər və Amerika demokratiyasının əsası kimi "xalqın xalq tərəfindən idarə olunması" inqilabi prinsipini təsdiq etdilər və ABŞ Konstitusiyasının "Biz" sözü ilə başlamasına səbıb oldular [7, s. 34].

Vətənpərvərliyi göstərməyin saysız-hesabsız üsulları var. Dövlət Himninin səsləndirilməsi və beyət oxunması bariz olanlardır.

Vətənpərvərlik – hər bir şəxsin vətənə olan məhəbbətini və öz şəxsi maraqlarından əl çəkib yalnız vətən uğrunda çalışması, vuruşmasını ehtiva edən bir məfhumdur. Vətənpərvərlik tam şəkildə vətənə bağlılığı əks etdirir. Bu bağlılıq həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürür kimi də hallanır. Burada vətəninin xarakterini və mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir.

Vətənpərvərliyin tarixi kökü min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətçiliyin formalaşması şəraitində vətənpərvərlik onun inkişafının ümumimilli anlarını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir.

Bundan əlavə, vətənpərvərlik bir fərdin ölkəsinə duyduğu sevgi və bağlılığıdır. Bu anlayış tarixin müəyyən dönəmlərində fərqli mənalarda işlədilib və bunun mənası dövrün şərtlərinə, coğrafiya və cəmiyyətlərinə fəlsəfəsindən olduqca asılıdır.

Vətənpərvərlik mövzusunu əhatə edən çox sayda mətnlər mövcuddur. Azərbaycanın şairləri, yazıçıları, elm adamları öz əsərlərində vətənpərvərlik mövzularına geniş yer vermişdilər. Elə bir yaradıcı şəxs olmaz ki, onun vətənə, xalqa sevgisni əks etdirən əsəri olmasın. Vətənini sevən hər bir şəxs vətənpərvər ruhunu əks etdirən əsərin müəllifidir.

Xalqın hər bir nümayəndəsi vətənpərvər olmağı bacarmalıdır. Yazıçı qələmi, əsərləri, kitabları, müğənni mahnısı, şair şeiri, şagird və tələbələr elmi, alimi kitabları, vətəndaşı dövlətə olan borcları və sədaqətilə vətənpərvər olmalıdır. Çünki qloballaşan dünyanın yad dəyərlərinin ölkəmizə hücuma keçdiyi dönəmdə Azərbaycanın milli maraqlarının müdafiəsinə ehtiyacı var.

İstənilən halda bir dövlətin gələcəyi onun vətəndaşının öz ölkəsinə olan sədaqət borcunu layiqlincə yerinə yetirməsindən asılıdır. Xüsusilə gənclər öz fəaliyyətlərində ehtiyatlı olmalıdırlar. Çünki istənilən təsirlərə daha tez onlar düşürlər. Son illərdə gənclərin fəaliyyətlərinin müsbət yöndə stimullaşdırılması üçün hazırlanmış müxtəlif dövlət proqramlarının uğurla həyata keçirilməsi Azərbaycan üçün yaxşı gələcək vəd edir. Bütün bunlar cəmiyyətdə milli-mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişafına təkan verir.

Azərbaycanın çox şair və yazıçıları da öz əsərlərində vətənpərvərlik mövzularına geniş yer vermişdir. Onlardan biri də Xəlil Rza Ulutürkdür.

Xəlil Rza Ulutürk (Məndən başlanır Vətən!) [9]

Qalx ayağa, özünü kəşf et bir də təzədən.
Əl çəkə bilməzsən mübarizədən.
Atılar üstünə bir qırpımdaca
Boynunda qalstuk gəzdirən əfi.
Süstlük - həyatın kəfi.
Odur, yanır dan yeri...
Addımla günəşlə tən.
Torpaqdan başlanmır, yox,
Kişi qanındakı qeyrət selindən,
Səndən başlanır Vətən.
Məndən başlanır Vətən!

Ötən əsrin 90-cı illərindən koqnitiv dilçilikdə konsept, linqvokultrem, loqoepistem, mifologem və s. terminlərdən tez-tez istifadə olunduğunu müşahidə edirik. Amma bugün daha çox konsept terminindən istifadə olunur. Bu məqaləmizdə konsept termininin insan danışığında və davranışında rolunu araşdıracağıq və koqnitiv dilçilin əsas vahidləri barədə məlumat verəcəyik.

Konsept termini ilk dəfə A.Askold-Alekseyev tərəfindən istifadə olunmuşdur. Daha sonra isə konsept termininə bir çox dilçilik əsərlərində rast gəlirik. Xüsusilə də koqnitiv dilçiliyin geniş inkişaf etdiyi indiki dövrdə konsept anlamının öyrənilməsi vacib hesab olunur. Müxtəlif dilçilər konsepti müxtəlf cür xarakterizə edirlər.

Apardığımız araşdırmalar sübut edir ki, konseptlər insan beynində formalaşır. Alimlərin qənaətinə görə hər bir insanın beyinində onun gördüyü, yaxud eşitdiyi və s. hadisə və əşyalar haqqında xüsusi biliklər forması olur. İnsan danışanda, yaxud düşüncündə, yaxud hər hansı bir situasiyada həmin konseptlərdən istifadə edərək danışığını həyata keçirdir. Məsələn, bəzən hər hansı bir situasiyada elə bir söz, yaxud cümlə işlədirik ki, bunu haradan bildiyimiz bizi heç düşündürmür. Bu bizim beynimizdə olan konseptlərlə əlaqədar olaraq yaranır [10, s. 103].

İnsan beyni hərəkətə gəldikcə, orada olan konseptlər onun danışığında, davranışında əks olunur, deyə bilərik. N.Xomski yazır: "İnsan beynində yaranan fikirlər sonsuz miqdarda cümlənin forma və mənasını müəyyənləşdirir ki, bu da bizim bilgi və fikirimizin sonsuz olması deməkdir". O iddia edirdi ki, bütün dillər eyni model üzrə qurulub, amma bu o demək deyildir ki, ayrı-ayrı dillər arasında eyni cür uyğunluq var və müxtəlif dillərdə danışan insanlar eyni əşya və hadisələrin konseptual izahını, yaxud təsvirini eyni cür verirlər. O qeyd edir ki, müxtəlif dillərdə fikirlərin yaranması insanın dil sərişdəsi və onun işlənməsi ilə bağlıdır. Eyni zamanda N.Xomski qeyd edir ki, fikrin insan təxəyyülündə yaranması fərdi xarakter daşıyır, çünki hər bir insanda situasiyadan, onun yaşadığı mühitdən və digər şərtlərdən asılı olaraq fikirlər formalaşa bilər. Hər hansı bir əşyanın, yaxud hadisənin və s.

fikrimizdə yaranması ətraf aləm və orada baş verən dəyişiklikdən asılıdır və həmin dəyişikliyin inikasıdır, desək yanılmarıq. Bu da qeyd etdiyimiz kimi, hər bir dil mühitində doğulmuş fərdin dil bilgisinin əsasını təşkil edir.

Fikirin yaranmasında dilin mənimsənilməsi vacib amil hesab edilir. F.Y.Veysəlli hesab edir ki, dil elə bir əlaqələr şəbəkəsi və bu şəbəkənin elə bir vahidlər sistemidir ki, bütün fərdləri bir-birinə bağlayır, o, fərdin fövqündə durur, abstraksiyadır, sosial instrumentdir. F.Y.Veysəlli koqnitiv tədqiqatın əsas ideyasının yaddaşda saxlanılan koqnitiv strukturlarla bağlı olduğunu yazır [10, s. 120].
E.S.Kubryakova konsept barədə yazır: "Konsept yaddaşın, mental leksikonun, konseptual sistemin və beyin dilinin, dünya mənzərəsinin, biliklər kvantının operativ vahididir".

V.İ.Karasik konsepti belə izah edir: "Konsept təcrübənin insan yaddaşında saxlanılan mənaya malik, dərk olunan tipikləşmiş fraqmentlərin mental strukturudur." Z.D.Popova və İ.A.Stern isə konseptin yaddaşın deyil, düşüncənin (təfəkkürün) vahidi olduğunu iddia edirlər. Onların iddiasına əsasən konseptin əsas vəzifəsi düşüncə prosesini təmin etməkdir. Konsept informasiyanı saxlayır, ancaq eyni zamanda onun yaddaş vahidi olmasını hələ sübut etmək lazımdır.

F.Y.Veysəllinin iddiasına əsasən koqnitiv strukturun ən kiçiyi konseptlərdir. Koqnisiya sistemi subyektiv təcrübə vahidlərini yadda saxlamaq funksiyasını yerinə yetirir. Bu koqnitiv strukturla vasitəsilə insanın ünsiyyətdə fəaliyyəti və göndərilən informasiyanın başa düşülməsi öz həllini tapır. F.Y.Veysəlliyə görə insan insan xarici aləmlə rəftar etdikcə və ayrı-ayrı obyektləri fərqləndirməyi və onları sififlərə bölməyə bacardıqca onlarda konseptlər formalaşır. Eynilik və ekvivalentlik əlamətləri insanların yaddaşında həkk olunmuş konseptlər vasitəsilə mümkün olur.
Qeyd etmək lazımdır ki, konseptlər fərqdlərdə mental əməliyyat ilə yaranır. Məsələn, fonem fonem konsepti ayrı-ayrı variantların ümumi əlamətlərini ehtiva edən, lakin onların fövqündə duran dil vahidini bildirməsidir. Tədqiqatçılardan J.A.Fodor "düşüncə dili" əsərində yazır ki, konsept strukturları anadangəlmə olmalıdır. Lakin hazırda koqnitiv dilçilik hesab edir ki, bir tərəfdən konseptuallaşma insanın prenatal dispozisiyasını göstərir, digər tərəfdən isə mental konsept ətraf aləmlə bağlı təcrübəni səciyyələndirir.

Ə.Abdullayev konseptlərin bütövlükdə təfəkkür və nitq fəaliyyəti aktları zamanı müşahidə olunduğunu yazır. Bu alimin iddiasına görə konseptlər aktivləşən və isifadə olunan "bilik" hissələridir [11, s. 172].

Konseptləri təhlil olunması mümkün olmayan, informasiyanın koqnitiv işlənməsi prosesində daha kiçik hissələrə bölünə bilməyən məna vahidləri hesab etmək olar. Təbii ki, konseptlər strukturlaşmış biliyin vahidləri və ya kvantları olduğundan onları prmitiv hesab etmək olmaz.

ƏDƏBİYYAT

1. Patriotism. Stanford Encyclopedia of Philosophy. Plato.stanford.edu. Retrieved 2013-11-03.
2. Harvey Ch. Historical Dictionary of the Enlightenment. ISBN 9780810865488. Retrieved 2013-11-03.
3. Griffin D. Patriotism and Poetry in Eighteenth-Century Britain, Cambridge: Cambridge University Press, 2005, 356 p.
4. Boswell J. Hibbert, Christopher (ed.), The Life of Samuel Johnson, New York: Penguin Classics, 1986, 250 p.
5. Baumeister A. Patriotism. Encyclopædia Britannica. United States: Encyclopædia Britannica, Inc., 1986, 1230 p.
6. Wellman Ch. H. Liberal Rights and Responsibilities: Essays on Citizenship and Sovereignty. New York: Oxford University Press, 2014, pp. 32: 50.
7. Orwell G. Essays. John Carey, Ed., Alfred A. Knopf, New York, 2002, 134 p.
8. Johnson S. The Patriot. 1774. SamuelJohnson.com
9.https://www.facebook.com/media/set/?set=a.140227936019783.18824.123885047654072&type=3
10. Veysəlli F.Y. Dilçiliyin əsasları. Bakı: Mütərcim, 2013, 420 s.
11. Abdullayev Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı: Zərdabi LTD, 2011, 272 s.

Eminova A.

ON NOTIONS OF PATRIOTISM AND CONCEPT

Summary

Patriotism is a feeling of love, loyalty, attachment to one's homeland. This attachment can be a combination of many different feelings about one's homeland, including ethnic, cultural, political or historical aspects, as well as language. It encompasses a number of concepts closely related to nationalism, mainly civic nationalism and sometimes cultural nationalism.

A common understanding of civic virtue and group altruism has been affirmed in various cultures globally throughout history. For the Enlightenment thinkers of eighteenth-century Europe, loyalty to the state was considered distinct from loyalty to the church. It was argued that clerics should be allowed to teach in public schools because their homeland is heaven, so that they can more easily instill patriotism in students. One of the most influential supporters of this classic concept of patriotism was Jean-Jacques Rousseau.

Patriotism originated about 2,000 years before the rise of nationalism in the 19th century. The political philosophy of patriotism has its roots in Greek and especially Roman antiquity. This philosophy saw loyalty to the "patria", that is, the power exercised by the head of the family over his children - as loyalty to the

political concept of the state. It is associated with the love of law and general freedom, the pursuit of the common good, and the duty to do justice to one's country. The Roman meaning of patria recurs in the context of 15th-century Italian city-states such as Naples and Venice, representing the general freedom of the city, which is preserved only by the civic spirit of the citizens.

Key words: *homeland, concept, patriotism, nationalism, struggle, meaning, expression*

Эминова А.

О ПОНЯТИЯХ ПАТРИОТИЗМА И КОНЦЕПЦИИ

Резюме

Патриотизм – это чувство любви, верности, привязанности к своей Родине. Эта привязанность может быть комбинацией множества различных чувств к своей родине, включая этнические, культурные, политические или исторические аспекты, а также язык. Он охватывает ряд концепций, тесно связанных с национализмом, в основном гражданский национализм, а иногда и культурный национализм.

Общее понимание гражданской добродетели и группового альтруизма подтверждалось в различных культурах по всему миру на протяжении всей истории. Для мыслителей эпохи Просвещения в Европе восемнадцатого века лояльность государству считалась отличной от лояльности церкви. Утверждалось, что священнослужителям следует разрешить преподавать в государственных школах, потому что их родина - рай, чтобы им было легче прививать ученикам патриотизм. Одним из самых влиятельных сторонников этой классической концепции патриотизма был Жан-Жак Руссо.

Патриотизм возник примерно за 2000 лет до подъема национализма в 19 веке. Политическая философия патриотизма уходит своими корнями в греческую и особенно римскую древность. Эта философия рассматривала верность «патрии», то есть власти главы семьи над своими детьми, — как верность политической концепции государства. Это связано с любовью к закону и общей свободе, стремлением к общему благу и обязанностью отдать должное своей стране. Римское значение patria повторяется в контексте итальянских городов-государств 15-го века, таких как Неаполь и Венеция, представляя общую свободу города, которая сохраняется только благодаря гражданскому духу граждан.

Ключевые слова: *родина, концепт, патриотизм, национализм, борьба, смысл, выражение*

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya elmləri doktoru, professor Fikrət Cahangirov tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏBNƏM SEYİDZADƏ
Azərbaycan Universiteti, Ceyhun Hacıbeyli,71,Bakı,Azərbaycan
e-mail:sebnemseyidzade@gmail.com

MÜASİR İNGİLİS DİLİNİN İNTONASİYASI HAQQINDA ÜMUMİ QEYDLƏR

Xülasə:

İngilis dili bütün dillər kimi dövrlər üzrə böyük təkamül prosesi keçmişdir. Bütün dillərdə bir dilin bir çox aspekti illər keçdikcə dəyişir, yalnız, dəyişməyən bir qayda vardır – intonasiya.”İntonasiya dilçilikdə necə başa düşülür?”sualına məqalədə dünya alimlərinin fikirləri ilə cavab tapmağa cəhd edilir.Mövzunun dərinliklərinə dalmadan öncə öyrənilməli ilkin məsələ “intonasiya” haqqında ümumi anlayışlardır. Gəlin bir anlıq təsəvvür edək ki, hamımız eyni tonda danışırıq. Nəticə etibarilə,hamımız bir birimizi başa düşəcik, lakin, nitqimiz çox rəngsiz və cansıxıcı olacaqdır. Zənnimizcə, bu sətirləri oxuyan hər kəsin ”ton” haqda az da olsa anlayışı vardır. Belə ki, ton bir sözün deyilmə tərzidir. Ton praqmatik ünsiyyətin bir hissəsi olaraq danışanın həyəcanın, kədərin, sevincinin söz üzərindəki inikasıdır.Emosiyanın birinin tonunun müəyyən olunmasında böyük rolu vardır. İntonasiya və ton arasındakı fərqə gəldikdə isə, belə ki, bu iki anlayış dilçilikdə çaşqınlıq yaradır.Dillər bu baxımdan iki qrupa ayrılır:İntonasiya dilləri və ton dilləri.Məqalədə eyni zamanda intonasiyanın ingilis dilinin tədrsinində əhəmiyyətindən bəhs edilir.

Açar sözlər: intonasiya, ton, tələffüz, dilçilik, praqmatika

Shabnam Seyidzade

ON ENGLISH INTONATION

Abstract:

English, like all languages, has undergone a great evolutionary process over time. In all languages, many aspects of a language change over the years, but there is only one rule that does not change - intonation. The article tries to find an answer to the question "How is intonation understood in linguistics?" with the opinions of world scientists.Let's imagine for a moment that we all speak in the same tone. As a result, we will all understand each other, but our speech will be very dull and boring. We think that everyone who reads these lines has a little understanding of "tone". So tone is the way a word is spoken. As a part of pragmatic communication, tone is the expression of the speaker's excitement, sadness, and joy on the words. Emotion has a great role in determining one's tone. As for the difference between intonation and tone, these two concepts cause confusion in linguistics. Languages are divided into two groups in this regard: intonation languages and tone languages. The article also

discusses the importance of intonation in teaching English.Key words: intonation, tone, pronunciation, linguistics, pragmatics

Шабнам Сеидзаде

ОБЩИЕ ЗАМЕЧАНИЯ ПО СОВРЕМЕННОЙ АНГЛИЙСКОЙ ИНТОНАЦИИ

Резюме:

Английский, как и все языки, со временем претерпел большой эволюционный процесс. Во всех языках многие аспекты языка меняются с годами, но не меняется только одно правило - интонация.В статье предпринимается попытка найти ответ на вопрос "Как понимается интонация в языкознании?" Давайте представим на мгновение, что мы все говорим одним тоном. В результате мы все будем понимать друг друга, но наша речь будет очень унылой и скучной. Мы думаем, что каждый, кто читает эти строки, немного разбирается в «тоне». Таким образом, тон — это то, как произносится слово. Как часть прагматического общения, тон является выражением волнения, печали и радости говорящего по поводу слов Эмоции играют большую роль в определении тона. Что касается разницы между интонацией и тоном, то эти два понятия вызывают путаницу в языкознании.Языки в этом отношении делятся на две группы: интонационные языки и тональные языки.Также в статье рассматривается значение интонации в обучении английскому языку.

Ключевые слова: интонация, тон, произношение, лингвистика, прагматика.

1.Giriş

Mövzunun dərinliklərinə dalmadan öncə öyrənilməli ilkin məsələ “intonasiya” haqqında ümumi anlayışlardır. Gəlin bir anlıq təsəvvür edək ki, hamımız eyni tonda danışırıq. Nəticə etibarilə,hamımız bir birimizi başa düşəcik, lakin, nitqimiz çox rəngsiz və cansıxıcı olacaqdır. Zənnimizcə, bu sətirləri oxuyan hər kəsin ”ton” haqda az da olsa anlayışı vardır. Belə ki, ton bir sözün deyilmə tərzidir. Ton praqmatik ünsiyyətin bir hissəsi olaraq danışanın həyəcanın, kədərin, sevincinin söz üzərindəki inikasıdır.Emosiyanın birinin tonunun müəyyən olunmasında böyük rolu vardır. İntonasiya və ton arasındakı fərqə gəldikdə isə, belə ki, bu iki anlayış dilçilikdə çaşqınlıq yaradır.Dillər bu baxımdan iki qrupa ayrılır:

1. İntonasiya dilləri
2. Ton dilləri

Əgər, Çin, Viyetnam, Mandarin və Tai kimi qəbildən olan dillər tonal dil olaraq təsvir edilirsə, bu, o deməkdir ki, həmin dildə bir söz müxtəlif tonlar vasitəsilə öz

qrammatik və leksik kateqoriyasın dəyişib tamamilə başqa sözə çevrilir. İntonasiya dili olan İngilis dilində sait və samitlər (sözün mənasın dəyişən nitq səsi ilk dəfə görkəmli fonetist B.D. Kurtene tərəfindən "fonem" terminiylə adlandırmışdır) sözün mənasının dəyişməsində mühüm rol oynayır. Məsələn, "motion" sözündəki "m" səsini "n" səsiylə əvəz etsək "notion" sözü yaranacaq; birinci " hərəkət", ikincisi isə "anlayış" mənasını verəcəkdir. Mandarin Çincəsindəki "man" sözü isə üzərinə qoyulan tondan asılı olaraq " aldatmaq" və " yavaş" mənasın verəcəkdir. Bəs, intonasiya dilçilikdə necə başa düşülür? İngilis dili bütün dillər kimi dövrlər üzrə böyük təkamül prosesi keçmişdir. Bütün dillərdə bir dilin bir çox aspekti illər keçdikcə dəyişir, yalnız, dəyişməyən bir qayda vardır – intonasiya.İngilis dili ilə eyni qəbildən olan dillərdə intonasiya sözləri fərqləndirməyə yox, müxtəlif qrammatik və kommunikativ tipli cümlələri fərqləndirməyə xidmət edir. İntonasiya nə deməyimizdən çox, necə deməyimizlə bağlı bir anlayışdır. Hər bir dilin özünə məxsus intonasiyası vardır. Azərbaycan dilçiliyində də intonasiyaya özünəməxsus linqvistik yanaşma mövcuddur. Belə ki, intonasiya terminin Azərbaycan dilçiliyindəki qarşılığını Ə. Dəmirçizadə "avazlanma" kimi təqdim etmişdir [3,s135]. Yəni, hər bir dilin özünəməxsus "musiqi"si vardır.Belə ki, Meyers.C və Holt.S "Pronunciation for Success" kitabında qeyd edirlər ki, əgər sən aeroport kimi beynəlxalq bir məkanda digər dillərdən sənə doğma səslənən bir cümlə belə eşitsən sən o an bu cümlənin öz ana dilində olduğunun fərqinə varacaqsan. Bu öz dilinin sözlərini bildiyindən yox, ana dilinin "musiqi"sinə yaxşı bələd olduğundandır.İntonasiyaya müxtəlif alimlər müxtəlif təriflər vermişdir. Hər şeydən öncə onu deməkdə fayda vardır ki, intonasiya əlahiddə mövcud olan anlayış deyildir.Onun mövcudluğu danışanın əhval-ruhiyyəsindən və qurduğu cümlənin qrammatikasından asılıdır. Düzgün intonasiya isə tədris prosesində müəllimin xüsusi yönləndirməsini tələb edir. Bir fonetist BBC proramlarında dəfələrlə təkrarlanan bir qısa cümlənin 15dən çox intonasiya modelini toparlamışdır.İntonasiyanın tədrisində bu istiqamətin götürülməsi çox məqsədyönlü və faydalı hesab etmək olar.İntonasiya tək bir sözdən və ya söz silsiləsindən fərqli olaraq ifadəni təşkil edən ən əsas amillərdən biridir. O frazalardan ibarət olan frazeoloji birləşmələri və frazeoloji birləşmələrdən ibarət olan mətni təşkil edir.

2. İntonasiyanın elementləri

İntonasiya cümlənin kommunikativ növünü dəyişərək nəqli cümləni sual cümləsinə, əmr, xahiş cümləsinə çevirə bilər. İntonasiyadan asılı olaraq müxtəlif fikirlər və hisslər, fərqli çağırışlar və emosiyalar danışan tərəfindən söylənə və dinləyicilər tərəfindən anlaşıla bilər.Araşdırma zamanı diqqətimizi çəkən isə Volkovanın intonasiyaya tərif verərkən göstərdiyi misal oldu: "Yeni bir insan ilə tanış olarkən "Tanış olmağımıza şadam" deyib eyni zamanda qaşqabaqlı görünmək necə də qəribə və çaşdırıcı olardı". S.Volkovanın fikri Bolinger tərəfindən daha ətraflı şəkildə bir daha "Intonation and Its Uses" kitabında öz təsdiqini tapır. O, intonasiyaya tərifi bu tərzdə verir :" İntonasiya bədən dili və üz ifadəsi ilə sıx bağlı

olan emosiya və münasibət bildirən qeyri-ixtiyari səs-simvollu sistemdir.”[2,s69] Belə nəticəyə gəlirik ki, intonasiya ayrılıqda mövcud deyildir və onun mövcudluğu Bolingerin sadaladığı faktorlarla bərabər qrammatik ünsürlərdən də asılıdır.İntonasiya bildiyimiz kimi danışanın münasibətin və emosiyasın bildirir və məlum məsələdir ki, heç də dünyanın hər yerində insanlar hiss və emosiyalarını eyni şəkildə ifadə etmirlər, lakin, Bolinqer yazır ki, “səs”in və “məna”nın dillərarası oxşarlıq əhatəsi o qədər genişdir ki, intonasiyanın ifadə etməyin yollarına bütün dillərdə rast gəlinən eyni modelləri olmalıdır. C.Vells Bolinqerin fikrin dəstəklərkən qeyd edir ki, bütün dillərdə danışan səbirsizliyini və həyəcanını bildirmək üçün sürətini artırır, təmkinli və fikirli səslənərkən isə azaldır. Bolinqer bu fikirləri qeyd edərkən etiraf edir ki, bənzərliklər olsa da intonasiyanı universallaşdırmaq, yəni, dünyəviləşdirmək qeyri-mümkündür.Bu fikirlərə baxmayaraq amerikalı fonetistJohn.J.Ohala “universal frequence code” nəzəriyyəsin əsasında “Universal Code of İntonation” yaratmağa cəhd göstərmişdir. J. Ohalaya görə linqvistik informasiyanı çatdırmaq üçün intonasiya yetəri qədər dünyəvidir. 269 dilin əsasında aparılan eksperimentin nəticələrinə əsasən sual cümlələrində, xüsusilə də Yes/No suallarında ton təsdiq cümlələri ilə müqayisədə bütün dillərdə yüksək olur. J.Ohalanın “universal frequence code” nəzəriyyəsinə əsasən intonasiyanın köməyilə bütün dillərdə hətta qeyri-linqvistik informasiyanı da çatdırmaq olar.[1,s 67] O burda qeyri-linqvsitik informasiya deyərkən acizlik, itaətkarlıq, nəzakətlilik kimi emosiyaları nəzərdə tutur. Baxmayaraq ki, intonasiya analayışına maraq əsrlər öncə mövcud idi, poeziya nəzəriyyəsinin və ictimai çıxışların inkişafına görə intonasiyanın elmi araşdırmaları ancaq 18-ci əsrdə həyata keçirilmişdir. M.V. Lomonosov ilk alim idi ki, onun intonasiyanı araşdırma üsulları sistematik idi. Onun rus qrammatikasına həsr olunan ilk kitabında intonasiyanın tərifi mürəkkəb anlayış kimi verilib və ilk dəfə olaraq intonasiyanın əsas fiziki xüsusiyyətləri vurğulanıb [4]:

- “выходка” (ton yaxud melodiya)
- “напряжение” (intensivlik)
- “протяжение” (uzunluq)
- “образование” (tembr)

3. İntonasiya haqqında dünya dilçilərinin fikirləri

M.V. Lomonosov intonasiyanın linquistik xarakteristikasını və barmaq izləri kimi hər biri fərdi olan individualları fərqləndirən ilk insan idi. Uzun müddət intonasiya araşdırılmadı və Lomonosovun akustik elementlerin mürəkkəb vəhdətini təşkil edən intonasiya unuduldu.20- ci əsrin erkən illərindən çox sayda dilçilər M.V. Lomonosovun intonasiyanın mürəkkəb anlayış kimi tərifinin və o cümlədən bir neçə akustik xüsusiyyətlərinin əksinə intonasiyadan onun komponentləri – ton və melodiya kimi bəhs etdilər. 1930-1940- cı illərdə “Old English School” adlanan müəssisənin nümayəndələri tərəfindən intonasiyaya ton olaraq çox dar anlayış olan tərif verildi. D. Jones, H. Sweet,W. Allen intonasiyanı səsin ucalığında baş verən dəyişiklik olaraq anlamışdılar. İntonasiyanın daha bir dar tərifi isə L. Armstrong və

S. Ward, rus fonetistləri Vitomskaya, O. Dikushina və başqaları tərəfindən verildi. E. Scriture isə intonasiyanı 2 komponentin- ton və vurğunun kombinasiyası kimi tərif etmişdir.

Yuxarıda qeyd edilən dilçilik intonasiyanı bir və yaxud iki element ilə müəyyənləşdirdilər. Bu cürə tərifler çox dar mənalıdır və intonasiyanın mahiyyətini aşkara çıxarmadığı üçün yalnış hesab olunur. Söz quruluşu və intonasiyanın digər elmi problemləri ilk dəfə 20- ci əsrin birinci yarısında müzakirə olunmuşdur. H. Palmer elementləri tərif edərək sözün intonasiya quruluşunun təsvirini ətraflı şəkildə verdi: “head” – “baş” – sonuncu vurğulu hecaya qədər, vurğulu və vurğusuz hecalarla müşaiət olunan ilk vurğulu heca; “nucleus” – “nüvə” - əsas vurğu, və ya sözün semantik mərkəzi; “tail”- “quyruq” - əsas vurğudan sonra olan, vurğusuz və bəzi hallarda vurğulu heca.H.Palmerin söz bölgüsü sözün tərkib hissələrinə bölünməsinin prosedik analiz üçün nə qədər vacib olduğunu sübut etdi. [5,s53]Rübün tərkib hissələri adlı girişi tədqiqatçılara sözlərin intonasiyalarını müqayisə etməyə, müxtəlif semantik, modal, emosiyalar və söz birləşmələrinin müxtəlif qrammatik növləri olan ifadələri izah etməyə imkan verdi. B. Sokolov, A. Şaxmatov, F. Fortunatov və başqaları intonasiyanın insan əlaqələrində nə qədər vacib olduğunu vurğulamış, intonasiyanı dilin ən vacib sintaktik ünsürünü və nitqin ən xarakterik xüsusiyyəti hesab etmişlər. İntonasiyanı dilin qrammatik quruluşu ilə sıx əlaqəli təsvir edən ilk dilçi A.M. Peşkovski idi.A.M. Peşkovski rus dilinin intonasiyası və qrammatikasının problemlərinə həsr etdiyi kitabında intonasiyanın semantik funksiyasının araşdırılmasının vacibliyini vurğulamışdır.1940-cı ildən artıq intonasiyaya həsr olunan geniş miqyaslı araşdırmaların artdığı müşahidə olunurdu. Böyük bir ehtimalla, yeni elektronik nitq qeydçisinin və nitq analizi cihazlarının tətbiqi vasitəsilə keçmiş SSRİ- də və xaricdə təcrübi fonetikanın müxtəlif laboratoriyalarında araşdırmaları asanlaşdıran və alimlər üçün yeni imkanlar açan xüsusi linqvistik komputer proqramları tətbiq olunurdu.İntonasiya nəzəriyyəsinin öyrənilməsinə olan dərin maraq hələ erkən fəaliyyətində intonasiyanın semantik-seqmantik və təşkilatçılıq olmaqla 2 vacib rolu olduğunu vurğulayan L.V.Şerba tərəfindən yaradılmışdır. L.V.Şerba (eyni zamanda T. Grammont və V.V. Vinogradov ilə) "məna qrupu" anlayışını təqdim etmişdir. "Məna qrupu" anlayışı intonasiyanın və onun proqmatik tərəfinin inkişafının vacibliyini sübut etdi. Alimlərin keçmişdə və indi intonasiyanın üzərində işlədikləri əsas problemlər aşağıdakılardır [6]:

- intonasiyanın tərifi - akustik və alqısal xüsusiyyətləri
- intonasiyanın komponentləri
- intonasiyanın əsas tərkib hissəsi olan ton
- müxtəlif dillərin intonasiya quruluşu
- intonasiyanın funksiyaları
- supraseqmental nitq hissələrinin intonasiyası
- intonasiyanın tipoloji analizi

Nəticə. 20-ci əsr dilçiliyi əsasən yazılı dildə inkişaf etdiyi üçün dilçilərin intonasiyaya olan maraq dairəsi elə də geniş olmamışdır.Bu yalnız ona görə deyildir ki, supraseqment elementlərin analizi müəyyən qədər çətindir, həm də bu ona görədir ki, dilçilər, müəllimlər və xarici dil öyrənənlər arasındakı geniş yayılmış fikrə əsasən prosodik və paralinqvistik elementlərin tədirisi xarici dilin daha yaxşı anlayışılmasında elə də əhəmiyyətli rol oynamır. Bügünki əsrimizdə isə maraqlar dəyişmişdir və qarşıya qoyulan sual "Xarici dilin tədrisində intonasiyaya diqqətin yönəldilməsi nə dərəcədə əhəmiyyətlidir" olmuşdur. Qarşıya qoyulan suala cavab olaraq əminliklə deyə bilərik ki, ünsiyyət qurmaq bacarığı ilə yanaşı düzgün anlaşılmaq bacarığına da yiyələnmək xarici dili öyrənmə prosesinin ayrılmaz hissəsidir. Hər hansı bir dilin tədrisində intonasiya anlayışının tələbələr tərəfindən düzgün mənimsənilməsi və situativ işlədilməsi mühüm məsələlərdən biridir. Xarici dil müəlliməsi olaraq biz bunun fərqindəyik və auditoriyada dəqiqələrlə tələffüz məşqləri edirik. Bütün bunlar faydalı olsa da kifayət deyildir. Tələbələrin yalnız nə deməklərinə yox, nəyi necə deməyi öyrənməklərinə də ehtiyacları vardır. Nə deməyimizdən çox necə deməyimizə bağlı olan intonasiyanı tədris etmək digər mövzulara nisbətən müəyyən qədər çətindir. Ən birincisi ona görə ki, intonasiya anlayışının özü elə tələbələr tərəfindən çətinliklə qavranılır. İntonasiyanı daha aydın izah etmək üçün tələbələrin diqqətin danışığımızın melodiyasına yönəltməkdə fayda böyükdür. Bu yöndə müəyyən növ çalışmalar vardır. Bu çalışmalara əsasən tələbələr onlara verilən cümlələri dodaqların kipləşdirərək, yəni, bağlı şəkili tələffüz etməlidirlər. Ağzı bağlı deyilən cümlədə sözlər yox, yalnız musiqi səslənəcəkdir. Səslənən bu musiqi elə məhz intonasiya olduğu tələbələr tərəfindən daha aydın qavranılacaqdır. Elə məhz intonasiyanın tədrisində məqsəd tələbələrə mümkün qədər "nativelike" və "natural" səslənmələrini, öyrənilən dilin "musiqi"sinə yiyələnməyi təmin etməkdir. Məlum məsələdir ki, melodiya və vurğunun yerin dəyişməklə bir cümləni dəfələrlə başqa çalarda təqdim etmək mümkündür. Düzgün tonda deyilməyən cümlə səhv anlaşılmaya və söhbətin bitməsinə səbəb olur. B.Siertsema "Teaching of İntonation" adlı dissertasiya işində qeyd edir ki, insanlar arasında yaranan münaqişələrin 90%-i yalnış intonasiya, cəmi 10%-i isə ya fikir ayrılığından yaranır. Bu eyni dili daşıyan insanlar arasında baş verirsə, müxtəlif dil daşıyıcıları arasında baş verməsi daha böyük ehtimaldır. Bu sahədəki ilk çətinlik ondan ibarətdir ki, ingilis dilini öyrənən Azərbaycan tələbəsinin xarici dillə problemi öz ana dilimizin intonasiyanı, başqa sözlə desək, öz dilinin melodiyasını ingilis dilinə daşımaqdır. Tələbənin qurduğu cümlə ingiliscə sözlərdən ibarət olsada avazlanma, yəni, intonasiya Azərbaycancan dilinə məxsusdur və zaman keçdikcə İngilis dilini inkişaf etdirməklərinə baxmayaraq bu problem vərdiş olaraq qalır. Yeri gəlmişkən, bir məsələyə də toxunmaq lazımdır ki, xarici dil öyrənənlər və eləcə də universitemizin tələbələri arasında geniş yayılmış fikrə əsasən xarici dilə yiyələnməkdə başlıca məqsəd ünsiyyət ehtiyacını ödəmək, başa düşmək və anlaşılmaqdır. Onlara görə düzgün tələffüz və intonasiya qaydalarına uyğun

danışmaq az əhəmiyyətli bacarıqlardır. Bu düşüncəni dili həvəskar şəkildə öyrənənlər üçün xoş görsək də, akademik səviyyədə öyrənən tələbələrimizə güzəştə getmək qeyri-mümkündür. Bəs biz fonetika mütəxəssiləri bu problemin qarşısını necə ala bilərik? Düşünürük ki, problemin qarşısını almaq problemi həll etməkdən asandır, yəni, intonasiya mövzusuna başlarkən bünövrədən tələbələrin tələffüz və intonasiyaları üzərində xüsusi metodlarla işləməkdə fayda vardır. Düşünürük ki, yalnız intonasiya bəhsində deyil, elə fonetika kursunun başlanğıcında tələbələrə "ear training" məşğələləri ilə ingilis dilinin "avaz"ına və ya "melodiya"sına vərdiş etdirməklə düzgün istiqamət tutmuş olarıq. Bizə görə, intonasiya situativ olduğundan intonasiyanı tələbələrdə situativ yöndə işləmək onları ingiliscə hər sferada və hər vəziyyətdə səlis ünsiyyət qurmağa və təbii səslənməyə vadar edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1.Arnold.G, "Intonation of Colloquial English", London, Longman, 1973
2.Bolinger.D, "İntonation and İts Uses", London, Longman, 1989
3.Dəmirçizadə.Ə, " Müasir Azərbaycan Dili", Şərq-Qərb,Bakı, 2007
4. Fries.Ch, "The structure of English", London, Longmans, 1950
5.Krystal.D, "Prosodic System and Intonation in English", Cambridge University Press, 1969
6.Kingdon.R, "The Groundwork of English Intonation", 1958

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Fil.ü.f.d, dosent S.C.Məmmədova
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

AVTANDİL AĞBABA
Sumqayıt Dövlət Universiteti
Filologiya üzrə elmlər doktoru, professor
avtandil.aqbaba@mail.ru

USTAD AŞIQ MURAD ÇOBANOĞLU

Açar sözlər: aşıq, poeziya, Qars, dastan, ənənə

Doğu Anadoluda Ağbaba-Çıldır açıq mühitinin yetişdirdiyi qüdrətli söz-söz sənətkarları arasında Aşıq Murad Çobanoğlu (1940-2005) sənət şəcərəsi etibarı ilə Xəstə Hasan ocağına bağlıdır. Onun atası Aşıq Gülüstan dövrünün tanınmış aşıqlarından olmuş, el şənliklərində, çal-çağır mərasimlərində ustadı Aşıq Şenliyin sənət ənənələrini uğurla davam və inkişaf etdirmişdir. Aşıq Murad Çobanoğlu ozan aşıq sənətinin sirlərini atasından öyrənmiş, sonrakı illərdə Ardanuclu Əfkari(1900-1980), Posoflu Sabit Müdami(1918-1968), Şəvşətli Dəryami(1927-1987) kimi ünlü sənətkarlarla görüşmüş, ustadlardan aldığı sənət dərslərini dərindən mənimsəyərək özü də ustad aşıq kimi nəinki Türkiyədə, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda tanınıb şöhrətlənmişdir. Beləliklə, Aşıq Murad Çobanoğlunun sənət şəcərəsini izləşək kökü XVIII əsrə söykənən zəngin bir aşıqlıq ənənəsinin şahidi oluruq: Xəstə Hasan→Aşıq Nuri→Aşıq Şenlik→Aşıq Gülüstan→Aşıq Murad Çobanoğlu.

İki yüz ildən artıq bir dövrü əhatə edən bu şəcərənin XX əsrdə ən qüdrətli nümayəndələrindən biri Aşıq Murad Çobanoğludur, desək səhv etmərik. Buna görədir ki, həm yüksək ifaçılığı, həm fərdi dastan yaradıcılığı, həm də aşıq şeirinin çeşidli şəkillərində düzüb-qoşduğu üç yüzdən artıq şeirləri, eləcə də ikili,üçlü, dördlü və altılı deyişmələri ilə tanınıb sevilən Murad Çobanoğlu Ağbaba-Çıldır aşıq mühitində yüksək bir sənət məktəbi yaratmışdır. Onun 1971-ci ildə Qars qalasının yaxınlığında qurduğu "Çobanoğlu Aşıqlar Qəhvəsi" Şərqi Anadolu aşıqlığında bir mədəni mərkəz statusunda fəaliyyət göstərmişdir və indi də göstərir.Təsadüfi deyildir ki, "Çobanoğlu Aşıqlar Qəhvəsi"nin təsiri ilə Türkiyənin müxtəlif şəhərlərində: Ankara, İstanbul, Ərzurum, Sivas və digər bölgələrində aşıqlar qəhvəsi açılmış, bu qədim sənətin klassik ənənələri bu günümüzə daşınaraq geniş çevrələrə yayılmışdır. "Çobanoğlu Aşıqlar Qəhvəsi"nin fəaliyyəti haqqında Türkiyənin müxtəlif televiziya kanallarında, radio proqramlarında geniş verilişlər aparılmışdır. Eləcə də İngiltərənin BBC, Almaniyanın ZDF, Fransanın TF-1, Yaponiyanın Milli televiziya kanallarında bu sənət ocağının türk xalqlarının mədəniyyətinə verdiyi töhfələrdən şöhbət

açılmışdır. Qeyd etmək yerinə düşər ki, Sovet hakimiyyəti illərində kommunist rejiminin sərt qadağalarına baxmayaraq Aşıq Murad Çobanoğlunun adı Qərbi Azərbaycanın Ağbaba mahalında yüksək sevgi və ehtiramla çəkilmişdir.Aşıq İsgəndər Ağbabalı 1988-ci ilədək Ağbabada keçirdiyi el məclislərində qarslı aşıqlardan, o cümlədən Aşıq Murad Çobanoğludan xüsusi həssaslıqla söhbət açar, onun "Giziroğlu Mustafa bəy" türküsünü şövqlə çalıb-oxuyardı. Aşıq İsgəndərin "Hayıf" rədifli qoşmasında bu görkəmli saz-söz sənətkarına bəslədiyi səmimi duyğular xoş və təbii təsir bağışlayır:

Murad Çobanoğlu adlı aşıqdı,
Əlləri əlimə yetmədi, hayıf.
Sazını–sözünü eşitdimsə də,
Səs-sədam o Qarsa getmədi, hayıf.

Onu da qeyd edək ki, Murad Çobanoğlu təkcə sənət xətti ilə deyil, həm də nəsil şəcərəsi ilə Ağbabaya bağlı sənətkardır.Mənbələrdə aşığın ata nənəsi Minə xanımın 1877-1878-ci illərdə Rus-türk müharibəsində Türkiyəyə pənah gətirən ağbabalılardan olduğu göstərilir. Murad Çobanoğlunun babası Sadıq ağa da həmin illərdə İrəvan mahalından Anadoluya köçüb gəlmiş,Minə xanımla burada ailə qurmuşdur.

Aşıq Murad Çobanoğlu zəngin və çoxşaxəli bir yaradıcılığa malikdir. Yurd sevgisi, milli-etnik duyğular, əxlaqi-fəlsəfi fikirlər, ülvi məhəbbət aşığın poeziyasının əsas istiqamətlərini təşkil edir. "Şanlı Qarsımız", "Qarsın dastanı", "Qoçağı Qarsın" və digər qoşmalarında aşıq Qarsın və qarslıların qəhrəmanlıq ənənələrini poetik deyimlərlə dilə gətirir. Qarsın təbii gözəllikləri ilə onun hünər dolu tarixi, türkün mübariz ruhu poetik bir harmoniyada tərənnüm olunur. "Anadolunun bel sümüyü" sayılan Qarsın Osmanlı dövlətinin tarixi taleyində oynadığı rol, yadelli işğalçılara qarşı Qars əhalisinin apardığı fədakar mübarizə, Kazım Qarabəkir, Xalid Paşa kimi sərkərdələrin Qarsın rus işğalçılarından azad edilməsində göstərdikləri şücaəti sayəsində "ərkan pozulmayan" şəhər təfərrüatlı detallarla təsvir olunur:

Əskidir təməli, bəlirsiz yaşı,
Neçə düşmənlərlə qurdu savaşı
Qan ilə yoğrulmuş torpağı, daşı,
Tarixə yazılmış fərmanı Qarsın. (1, 263)

Bu cür təfərrüatlı təsvir və tərənnüm Qarsın bədii-tarixi salnaməsini yaradır. "Göylərə baş çəkir iyirmi cami"misrası ilə aşıq rus qoşunlarının onlarla əlbir olub, türklərə arxadan zərbə vuran erməni quldurlarının məğlubiyyətini, türkün öz dinini və milli əqidəsini sədaqətlə qoruduğunu nümayiş etdirir. "Qarsın dastanı"adlı qoşmasında yer alan Çıldır, Kölə, Arpaçay, Diqor, Ərdəhan, Şörəyel, Posof və sair kimi toponimlər poetik məzmun qazanaraq oxucunun gözü qarşısında Qarsın bədii-coğrafi xəritəsini canlandırır. "Alparslan adına sancaq dalğalandıran" bir qəhrəman türk övladının min düşməndən qüdrətli olduğunu əks etdirən sənətkarın etno-milli duyğuları oxucuya da sirayət edir, onu əcdadların qəhrəmanlıq ənənələrini qorumağa,

vətənpərvərliyə çağırır. Tarixçi - folklorşünas Fəxrəddin Kırzıoğlu yazır ki, "üç il sürən 1853-1855 Türk-Rus müharibələrinin ən qanlısı və bizim üçün də ən şanlısı olan Qars zəfəri əhəmiyyəti ilə mütənasib olaraq ədəbiyyatımızda da dərin izlər buraxmışdır" (2, 208). Ümumiyyətlə, aşığın Qarsa həsr etdiyi şeirlərində milli azadlıq duyğuları, türkün mənəvi qüdrəti, əsarətlə heç cür barışmaması xüsusi yer tutur.

"Alparslan" qoşmasında da Aşıq Murad Çobanoğlu Qarsı alıb Anadoluya türkün yolunu açan bu qüdrətli sərkərdənin qəhrəmanlığını sonsuz qürur və məhəbbət hissi ilə tərənnüm edir. Bu baxımdan Qarsı türkün azadlıq simvolu kimi poetik mətnlərdə əks etdirmək Ağbaba-Çıldır aşıq mühitinin bir çox tanınmış el sənətkarlarının: Aşıq Şenliyin, Aşıq Qulunun, Aşıq Nəsibin və başqalarının yaradıcılıqlarında əhəmiyyətli və orijinal səciyyə daşıyır.

Murad Çobanoğlunun lirik yaradıcılığında sosial-fəlsəfi motivlər, əxlaqi-estetik fikirlər obrazlı ifadələrin bədii axarında oxucuya təqdim olunur. "Yalan dünya", "Tərs öyüt", "Hamımız birik" , "Düşünməz", "Olmaz", "Qaldırma" və digər qoşma və gəraylılarında aşıq humanist fikirlərin, bəşəri hisslərin carçısı kimi çıxış edir. Yaxşılığa, mənəvi zənginliyə çağırış, nəcib insani keyfiyyətlərin tərənnümü və s. kimi yüksək bəşəri dəyərlər qədim dövrlərdən bu günə qədər aşıq ziyasının əsas mövzularından olmuşdur. Xalqın milli-genetik köklərə bağlanmasında və nəsildən-nəslə ötürülməsində, el-obanın mənəvi-etik tərbiyəsində bu qəbil şeirlər həmişə öz əhəmiyyətini və aktuallığını saxlayır. Prof. M.Qasımlı bu sahədə aşıqların daşıdığı sosial-mədəni funksiyanın mahiyyətini yüksək qiymətləndirir: "Etnik-mədəni sistemin bütövlüyünü özünün sənət qüdrətiylə tənzimləyən aşıqların bu sahədəki fəaliyyəti köklü ənənələrə söykənirdi... Aşıq "el anası" sayıldığından etnoqrafik mərasimdə onun didaktik çağırışları əhəmiyyətli yer tutmuşdur" (3, 155).

Aşıq Murad Çobanoğlu öz ustadnamələrində, əxlaqi-fəlsəfi məzmunlu şeirlərində yüksək həssaslıqla türkün milli-mənəvi dəyərlərini poetikləşdirir. Dünya malına aludə olmamaq, təvazökarlıq, əxlaqi saflıq, ləyaqət və şərəfini uca tutmaq aşığın fikrincə, mənəvi kamillik və ucalıq nişanəsidir. "Atamız Adəmdir, anamız Həvva" – deyə ustad sənətkar insana və kainata kamillik gözü ilə baxır, bütün insanlığı bərabərliyə, haqq və ədalət uğrunda birliyə səsləyir. Klassik aşıq ədəbiyyatının poetik ruhundan doğan bu çağırış bəşəri mahiyyəti ilə onun şeirlərinin məna tutumuna xüsusi bir cazəbədarlıq gətirir. Bu məqamda Aşıq Murad Çobanoğlu Aşıq Ələsgər, Abbas Tufarqanlı, Qaracaoğlan, Xəstə Qasım, Aşıq Şenlik, Aşıq Sümmani kimi ustad sənətkarlarla birləşir:

Heç sönərmi həqiqətin işığı?
Açıq olur ərənlərin eşiyi, (qapısı)
Çobanoğlu aşıqların aşığı,
Nə sən, nə mən, nə o, hamımız birik. (1, 263)

Ustadnamələr yarandığı dövrdən, ictimai quruluşdan asılı olmayaraq heç vaxt məna və məzmun gözəlliyini, poetik siqlətini itirmir. Aşıq Murad Çobanoğlunun

ustadnamələrində də bu xüsusiyyət çox güclüdür. Başqa sözlə, onun ustadnamələrinin müasirlik ruhunu gücləndirən özünəməxsus cəhətlərdən biri budur ki, milli dövlət və dini atributlar poetik vasitə səviyyəsində ümumiləşdirilərək bədii mətnə daxil edilir. "Quran", "ay-ulduzlu bayraq", "Mövla", "türkün bayrağı", "Atatürk" və s. kimi söz və ifadələr milli-etnik düşüncənin saflığını, vətəndaşlıq duyğusunun əzəmətini əks etdirir:

Bizləri yaradan Rəhmanımız bir,
Ay-ulduzlu bayraq nizamımız bir,
Biz ki, müsəlmanıq, Quranımız bir,
Nə sən, nə mən, nə o, hamımız birik. (1, 263)

Aşıq Murad Çobanoğlunun lirik yaradıcılığı məzmunca çox geniş və əhatəlidir. Bir məqalə daxilində onun lirikasından ətraflı bəhs etmək, əlbəttə, mümkün deyildir. Həm də onun şəxsiyyəti, həyat və yaradıcılığı, aşıqlıq fəaliyyəti və s. barədə Azərbaycan folklorşünaslığında demək olar ki, tədqiqat aparılmamışdır. Bu baxımdan oxucularda müəyyən təsəvvür yaransın deyə onun dastan repertuarı haqqında qısa da olsa, bəhs etməyi məqsədəuyğun sayırıq. Ə. Qafqazlının məlumatına görə, Aşıq Murad Çobanoğlu "Koroğlu"nun əksər qollarını və iyirmiyə yaxın xalq dastanını sinədəftər etmiş, toy-düyün məclislərində, etnoqrafik mərasimlərdə bu dastanları geniş dinləyici auditoriyasına çatdırmışdır. Onun üç, yeddi, on, iyirmi bir və otuz gecəlik dastanlar söylədiyi haqda maraqlı bilgilər vardır.

Ustad sənətkarın dastan repurtarında özünün yaratdığı dastanlar da xüsusi yer tutur. "Sarac İbrahim", "Cünun və Dərdli Sultan", "Həmid xan və Mələk Sultan", "Əhməd və Məmməd", "Aşıq Tüccar" və digər dastanlar aşığın ümumtürk eposçuluq gələnəklərinə, milli məişətinə və adət-ənənəsinə, xalqın mifoloji yaddaşına yaxından bələd olduğunu göstərir. "Həmid xan və Mələk Sultan" dastanında əsərin baş qəhrəmanı Həmid xanın əsgərliyə getməmişdən əvvəl Mələk Sultanla evlənməsi, həmkəndlisi Yunusun xəyanət edərək onun dilindən saxta məktublar yazması, Mələk xanımla evlənmək üçün Həmid xanın ölüm xəbərini yalandan uydurması və s. kimi motivlər "Kitabi-Dədə Qorqud", "Aşıq Qərib" dastanları, eləcə də bir sıra nağıl süjetləri ilə yaxından səsləşir. Yunusun xəyanətkarlığı "Kitabi-Dədə Qorqud"da Yalançı oğlu Yalıncığın, "Aşıq Qərib"də Güloğlanın bədxah hərəkətlərini xatırladır. Dastanın final səhnəsinin nikbin sonluqla bitməsi, Yunusun xəyanətkarlığının üzə çıxması və Həmid xan tərəfindən öldürülməsi və s. hadisələr xalqımızın şifahi epik təfəkküründən gələn süjetlər kimi maraq doğurur. Qeyd edək ki, folklorşünas Bayram Durbilməzin topladığı variantda bu dastan müəyyən fərqlərlə eyni ad altında təqdim olunur.

"Nəcib və Telli Sultan" dastanı Ə.Qafqazlının tərtib etdiyi kitabda yoxdur. "Nəcib və Telli Sultan"ın əsas qəhrəmanı Nəcibin evlərinə qayıdarkən bulaq başında bacısı Sırma ilə qarşılaşması, olub-keçənləri ondan xəbər alması, bacısının onu tanıya bilməməsi səhnəsi "Kitabi-Dədə Qorqud"u yada salır. Bu faktlar onu göstərir ki, Aşıq Murad Çobanoğlu yaratdığı dastanlara novatorluqla yanaşmış, xalq

yaradıcılığından müntəzəm şəkildə sənətkarlıqla bəhrələnmişdir. Belə misalların sayını artırmaq da olar.

Aşıq Murad Çobanoğlu "Koroğlu" dastanının mahir ifaçılarından olmuşdur. Xüsusilə, "Giziroğlu Mustafa bəy" qolunda onun özünəməxsus improvizə ilə oxuduğu eyni adlı türkü aşığa böyük şöhrət qazandırmışdır. Ə,Qafqazlının qənaətinə görə, "bu türkü oxununca Çobanoğlu, Çobanoğlu deyilincə bu türkü xatırlanır" (1, 23). "Koroğlu"dastanını nağıl edərkən Murad Çobanoğlununun xatırladığı bir əhvalat maraqlı və yaddaqalan səciyyəsi ilə diqqəti cəlb edir: "Qars aşıqları qəhvəsində hekayə (dastan) anlatdığım zaman Trabzonlu biri gəlmiş, arabasını (maşını) çəkmiş qaraja, İrana yük götürüb dönmüş "Bir gün Qarsda aşıqları dinləyib gedim" – demişdir. Qarsa gəldiyində bayrama on gün varmış. Hardasa məni bir həftə dinləmiş. Ertəsi gün gedəcək, dedi ki, "aşıq bu hekayəni bitirəcənmi? Yoxsa mən səni öldürərəm, mən bunun sonunu alıb gedim" (4, 98).

Murad Çobanoğlunun dastan repertuarını, qeyd etdiyimiz kimi, özünün düzüb-qoşduğu dastanlarla daim zənginləşdirmişdir. Mənbələrdə onun 12 belə dastanı olduğu qeyd olunur. Təəssüf ki, bu əsərlərin yalnız dördü aşığın sağlığında yazıya alınmışdır. Bəzi video çəkilişlər istisna olmaqla digər dastanlar onun şagirdlərinin yaddaşında bu və ya digər dərəcədə qalmaqdadır.

Ədəbiyyat

1. Kafkasyalı A. Aşık Murat Çobanoğlu. Hayatı, sanatı, eserleri. Ankara:1998,666 s
2. Kırzıoğlu F. 1855 Kars zaferi. İstanbul:1955, Işıl matbaası, 232 s
3. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011, 304 s
4. Özarslan M.Erzurum aşıklık geleneyi. Ankara:Akcağ Yayınları, 2001, 469 s.

Avtandil Ağbaba

Ustad Aşıq Murad Çobanoğlu

Xülasə

Məqalədə Ağbaba-Çıldır aşıq mühitinin görkəmli nümayəndələrindən olan Murad Çobanoğlunun həyat və yaradıcılığından, onun dastan repertuarından yığcam şəkildə bəhs edilir. Azərbaycan folklorşünaslığında Aşıq Murad Çobanoğlu ilə bağlı indiyədək heç bir araşdırma aparılmayıb. O, yalnız sənət xətti ilə deyil, həm də nəsil şəcərəsi ilə Qərbi Azərbaycanın Ağbaba mahalına bağlı bir sənətkardır. Ağbaba-Şıldır aşıq mühitində bir məktəb yaradan sənətkarın əsasını qoyduğu "Çobanoğlu Aşıqlar Qəhvəsi" Şərqi Anadoluda mədəni mərkəzə çevrilmişdir. Yurd sevgisi, milli etnik duyğular, ülvi məhəbbət aşığın şeirlərinin əsas istiqamətlərini təşkil edir. Xüsusilə, Qars və onun qəhrəmanlıq ənənələri aşığın poeziyasında dərin məhəbbətlə tərənnüm olunur. Milli dövlət və dini atributlar Çobanoğlunun şeirlərində poetik vasitə kimi ümumiləşdirilir. Bu xüsusiyyət onun usadnamələrində də özünü göstərir. O, əlli illik aşıq fəaliyyəti dövründə aşıq sənətinə bir çox yeniliklər gətirmiş, bu

sənəti təkcə Şərqi Anadoluda deyil, bütün dünyada təmsil etmişdir. Bu baxımdan onun lirik poeziyasının ideya-məzmun xüsusiyyətlərinə xüsusi diqqət yetirilmişdir.

Aşığın yaradıcılığında özünün yaratdığı dastanlar da xüsusi yer tutur. Məqalədə onun "Sarac İbrahim", "Həmid xan və Mələk Sultan", "Nəcib və Telli Sultan" və s. dastanları barədə məlumat verilir. Ümumtrük eposçuluq ənənələri ilə bu dastanların oxşar süjet və motivləri araşdırılır. "Dədə Qorqud", "Koroğlu", "Aşıq Qərib" və digər dastanlarla müqayisələr aparılır. Həmçinin Murad Çobanoğlu "Koroğlu" dastanının mahir ifaçılarından biri kimi səciyyələndirilir.

Summary

Avtandil Agbaba

Master Ashug Murad Chobanoglu

Keywords: love, poetry, Kars, saga, tradition

The article briefly talks about the life and creativity of Murad Chobanoglu, one of the prominent representatives of the Agbaba-Childir ashug milieu, as well as his epic repertoire. So far, no research has been conducted on Ashug Murad Chobanoglu in Azerbaijani folklore studies. He is an artist connected to Agbaba district of Western Azerbaijan not only by his artistic line, but also by his genealogy. Chobanoglu Ashugs' Café, founded by an artist who created a school in the Agbaba-Childir ashug milieu, has become a cultural centre in Eastern Anatolia. Love of homeland, national ethnic feelings, sublime love are the main directions of ashug's poems. In particular, Kars and its heroic traditions are glorified with deep affection in ashug's poetry. National state and religious attributes are summarized as poetic tools in Chobanoglu's poems. This feature is also reflected in his ustadnames. During his fifty years of ashug activity, he brought many innovations to ashug art and represented this art not only in Eastern Anatolia, but all over the world. In this regard, special attention was paid to the idea-content characteristics of his lyric poetry.

The epics created by himself have a special place in the ashug's creativity. The article provides information about his epics "Saraj Ibrahim", "Hamid Khan and Malak Sultan", "Najib and Telli Sultan" and others. Similar plots and motifs of these epics are explored with the general traditions of epicism. Comparisons are made with "Dede Gorgud", "Koroglu", "Ashug Garib" and other epics. Also, Murad Chobanoglu is characterized as one of the skilled performers of the epic of "Koroglu".

Резюме

Автандил Агбаба

Мастер Ашуг Мурад Чобаноглу

Ключевые слова: любовь, поэзия, Карс, сага, традиция

В статье кратко рассказывается о жизни и творчестве Мурада Чобаноглу, одного из видных представителей ашугской среды Агбаба-Чилдыр, а также о его эпическом репертуаре. До сих пор в азербайджанском фольклористике исследований об Ашуге Мураде Чобаноглу не проводилось. Он мастер, связанный с Агбабинским районом Западного Азербайджана не только своей художественной линией, но и генеалогией. Чобаноглу Ашугское кафе основанное мастером, создавшим школу в среде ашугов Агбаба-Чилдир, стало культурным центром Восточной Анатолии. Любовь к Родине, национально-этнические чувства, возвышенная любовь – основные направления стихов ашуга. Особенно Карс и его героические традиции с большой любовью воспеты в поэзии ашуга. Национально-государственные и религиозные атрибуты обобщены в стихах Чобаноглу как поэтические средства. Эта особенность отражена и в его устаднаме. За свою пятидесятилетнюю ашугскую деятельность он внес много новшеств в ашугское искусство и представил это искусство не только в Восточной Анатолии, но и во всем мире. В связи с этим особое внимание уделялось идейно-содержательной характеристике его лирики.

Особое место в творчестве ашуга занимают эпосы, созданные им самим. В статье представлены сведения о его эпосах «Сарадж Ибрагим», «Хамид-хан и Малак-Султан», «Наджиб и Телли-Султан» и других. Схожие сюжеты и мотивы этих эпосов исследуются с общими традициями эпоса. Сопоставляются с «Деде Горгуд», «Кероглу», «Ашуг Гариб» и другими эпосами. Также Мурада Чобаноглу характеризуют как одного из искусных исполнителей эпоса «Кероглу».

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı tərəfindən çapa tövsiyə olunmuşdur

NAMAZOVA FLORA KAMRAN QIZI
Filologiya elmlər doktoru, docent
Mingəçevir Dövlət Universisteti
floranamazova@mail.ru

İLYAS ƏFƏNDİYEV VƏ AZƏRBAYCAN DRAMATURGİYASI

Açar sözlər: dramaturgiya, görkəmli yazar, dram yaradıcılığı, teatr
Key words : dramatist, outstanding writer, drama creation, theatre
Ключевые слова: драматургия, известный писатель, создание драмы,театр

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, dramaturgiyamızın, teatrımızın inkişafında müstəsna xidmətləri ilə seçilən İlyas Əfəndiyev milli ədəbi ənənələrimizi çoxşaxəli yaradıcılığında özünəməxsus şəkildə davam etdirən görkəmli yazıçılarımızdan biridir. Əməkdar elm xadimi, xalq yazıçısı İlyas Əfəndiyev Azərbaycan ədəbi-bədii və mədəni həyatının zənginləşməsində təqdirəlayiq xidmətləri ilə seçilən əvəzolunmaz şəxsiyyətdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz missiyasını şərəf və ləyaqətlə yerinə yetirən dramaturq İlyas Əfəndiyev haqqında belə demişdir: "İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərlə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir. Bununla bərabər, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır." [3., səh.35]

İlyas Əfəndiyev dramaturgiyasında həyati konfliktlər fonunda saf, cəsur, açıqürəkli, təmizqəlbli,prinsipial qəhrəmanların prototiplərinin yer alması,orijinal üsul və vasitələrlə təsvir edilən "yeni insan" obrazları sənətkarın ideallarının mötəbər göstərici kimi çıxış edir və oxucu rəğbətini qazanır."Ədəbiyyatımızda lirik-psixoloji üslubun yaradıcılarından biri,yeni obrazlar, xüsusən qadın obrazlarının mahir yaradıcısı,dramaturgiya və teatr tariximizdə " İlyas Əfəndiyev teatrı" nın banisi kimi estetik amillər ədəbi-nəzəri fikir tarixində İlyas Əfəndiyev fenomenini müəyyən edir". [1]

Çoxşaxəli yaradıcılıq yolu keçmiş sənətkar 1940-cı ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş,1952-1958-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında nəşr üzrə məsləhətçi kimi fəaliyyət göstərmişdir.Ədəbi fəaliyyətə 1933-cü ildən başlamış

sənətkarın bədii yaradıcılığı dərin və geniş məzmunu ilə yüksək estetik təsir bağışlayır.

Yaşar Qarayev İlyas Əfəndiyev üslubunun təbiiliyinin estetik qaynağına həssas yanaşaraq belə yazırdı: "Səməd Vurğunun ehtiraslı bədii romantikası, Sabit Rəhmanın bənzərsiz satirası və yumoru ilə yanaşı, İlyas Əfəndiyevin təkrarsız lirikası da son yarım əsrdəki Milli ədəbi hərəkatın üslub əlvanlığı və forma zənginliyini qabarıq şəkildə əks etdirir" ". [3.səh11.]

Yazarın "Berlində ilk gecə" adlı ilk hekayəsi 1939-cu ildə "Ədəbiyyat"qəzetinin 26 yanvar tarixli nömrəsində nəşr edilmişdir.Nasirin bir sıra povest və hekayələri,həmçinin "Söyüdlü arx"(1958), "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost"(1963), "Sarıköynəklə Valehin nağılı"(1978), "Geriyə baxma,qoca " (1980), "Üçatılan" (1981) romanları dəfələrlə Azərbaycan və rus dillərində işıq üzü görmüşdür. Beləliklə, İlyas Əfəndiyev ədəbi-bədii yaradıcılığında sənət politrasının rəngarəng çalarlarından məharətlə bəhrələnərək ədəbiyyatımıza əvəzolunmaz kamil sənət nümunələri bəxş etmişdir. " Sovet realizminə mürəkkəb daxili aləmi,sevinci,qayğısı,kədər və faciələri ilə cizgilənmiş təmiz ürəkli,mərd qəhrəmanları, onların problemlərini gətirməklə yeni bir dəsti-xət açmış oldu.O, "Sarıköynəklə Valehin nağılı". "Körpüsalanlar", "Söyüdlü arx" kimi əsərləri ilə ucqar rayonlara işləməyə gəlmiş gənclərin problemlərin işıqlandırmışdır". [5]

Müasirlərindən fərqli olaraq dramaturq ədəbiyyatımızda dövrün hakim estetik prinsipləri çərçivəsindən kənara çıxan gerçəkliyin bədii dərkini süni əxlaq kredosu ilə dəyərləndirən,bəzən bu prinsipdən çox uzaq olan ziyalı mühitinə və ziyalı obrazlarına xüsusi yer ayırmasının şahidi oluruq. Ədəbi aləmdə fərdiliyi ilə böyük əks-səda doğuran və kəskin mübahisələr predmetinə çevrilən İlyas Əfəndiyev personajlarının bəzən cəmiyyət tərəfindən qəbul edilməsinə baxış eyniyyət təşkil etmirdi.Daha çox zəngin mənəvi keyfiyyət axtarışında olan yazıçı bu cəhətinə görə müasirlərini arxada qoyurdu.

"İlyas Əfəndiyevin pyesləri mövzu baxımından rəngarəngdir. Lakin bu əsərlərin hamısının mərkəzində bir əsas problem dayanır – görkəmli dramaturq istər tarixi, istərsə də müasir mövzulu əsərlərində Azərbaycan xalqının üzləşdiyi taleyüklü məsələləri diqqət mərkəzinə çəkmişdir" [2., səh.57]

O,"İntizar" adlı ilk dram əsərini Mehdi Hüseynlə birlikdə 1943-cü ildə qələmə almışdır.Zəngin yaradıcılıq yolu keçmiş böyük sənətkarın ilk müstəqil dramı isə 1947-ci ildə yazdığı " İşıqlı yollarla" adlı əsəri olmuşdur.Dramaturqun "Bahar suları"(1948), "Atayevlər aləsi"(1954), "Sən həmişə mənimləsən"(1964), "Unuda bilmirəm"(1968), "Məhv olmuş gündəliklər"(1969), "Mənim günahım"(1970), "Mahnı dağlarda qaldı" (1971), "Xurşudbanu Natəvan" (1981),"Büllur sarayda" (1983), "Şeyx Məhəmməd Xiyabani" (1986), "Bizim qəribə taleyimiz"(1988) və başqa pyesləri Azərbaycanın teatr səhnələrində dəfələrlə tamaşaya qoyulmuş, rəğbətlə qarşılanmış və yüksək qiymətləndirilmişdir. Ədibin yaradıcılığında

yaddaşlara həkk olan qəhrəmanların ali məqsədləri, daşıdığı duyğuların, mübarizliyin qətiyyətli əksi qaldırılan problemlərin aktuallığı diqqət cəlb edir.

Cabir Novruz İlyas Əfəndiyev dramaturgiyasını yüksək qiymətləndirərək demişdir: " İlyas Əfəndiyev dahi Cəfər Cabbarlıdan sonra milli səhnəmizin çətin, ağır və şərəfli yükünü az qala yarım əsr öz çiyinlərində apardı və Cəfərdən sonra ikinci nəfəs verdi, milli teatrımızı yeni zirvələrə qaldırdı, özünün İlyas Əfəndiyev teatrını yaratdı. [3.,səh 40]

Onun dram əsərlərində müasirliklə tarixiliyin milli köklə, klassik irslə bağlı təbii şəkil alması dövrünün həyat həqiqətlərini əks etdirən bədii nümunələrin məzmun və forma xüsusiyyətlərində də aktullığını qoruyub saxlamaqdadır.Ədibin tarixi mövzuda yazdığı dram əsərləri milli azadlıq hərəkatının gerçəkliyini əks etdirən dəyərli sənət inciləridir. Xüsusilə yaradıcılığının son illərində qələmə aldığı "Tənha iydə ağacı"(1991), "Dəlilər və ağıllılar" (1992) "Hökmdar və qız" (1994) pyeslərində bir çox mətləbləri bəzən aşkar,bəzən isə dolayı yolla oxucuya ötürür.

"Tənha iydə ağacı"pyesində vətən həsrəti,yurddan kənarda sürən tənhalıq hissi bir sıra mətləblərə işarə edir. Məmməd Əmin Rəsulzadənin həyatından bəhs edən əsərdə milli birlik,vətən,dil məsələləri ön plana çəkilir.Komediya janrında qələmə alınmış iki hissəli "Dəlilər və ağıllılar"pyesində dramaturq iki idarəçilik sistemini — rüşvətxor köhnə sistem və şəffaf qanunları qarşı-qarşıya qoymaqla problemlərin işıqlandırılmasına və həlli yollarının tapılmasına çalışmışdır.

Qarabağ mövzusunda milli kimliyimizi, tariximizi, keçmişimizi,bu günümüzü,varlığımızı əks etdirən "Hökmdar və qız" pyesi yazıçı təxəyyülünün məhsulu,həqiqətlər carçısı,milli birlik,milli azadlıq və müstəqillik uğrunda istiqlal məfkurəsinin bədii təcəssümüdür.Qarabağ torpağının yaralarından bəhs edən əsəri Yaşar Qarayev yüksək dəyərləndirmiş və İlyas Əfəndiyev yaradıcılığını belə qiymətləndirmişdir: " Azərbaycan tarixi barədə klassik sənədlər — yeddi "Qarabağnamə" var.Bütünlüklə İlyas Əfəndiyev yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm". [3.səh.41]

Qəlibləşmiş düşüncə və müasirlik əsərlərin mərkəzində dayanan konfliktlərdə, qəhrəmanların nitqində daha real,təbii formada əksini tapır. Sənətkarlıqla qələmə alınan hər bir əsər nəinki dramaturgiyamızda, eləcə də teatr tarixində yeni bir era yaratmışdır.Estetik zərifliyi və incəliyi ilə seçilən İ.Əfəndiyev yaradıcılığında süjet və kompozisiya bütövlüyü,xarakterlərin canlı, ifadəli, dolğun təsvirlər əsərlərin böyük həvəs və maraqla qarşılanmasına gətirib çıxarmışdır.

Bu baxımdan "bəzən tərəddüd edən,bəzən səhvə yol verən,sevməyi bacaran,sevgisini boğmağın,məqsədli, şübhələr içində boğulan müxtəlif xarakterli,öz içində özü ilə mücadilə edən qəhrəmanları ilə real insan cizgiləri yaratması onun əsərlərinin sevilməsinə səbəb olub". [5]

Psixoloji qaşılaşma və ziddiyyətləri əsərlərin əsas konfliktinə çevirən yazıçı insanların şüurunda baş qaldıran dəyişməni əks etdirməklə real həyatın dolğun təsvirlərinə nail olmuşdur. İlyas Əfəndiyevin yaradıcılığına, xüsusilə dram əsərlərinə

süni toqquşmalar, süni baxışların qarşılaşdırılması tamamilə yaddır. Çox zaman dramaturq ilk baxışda xırda görünən konfliktləri mahiyyət etibarı ilə zənginləşdirir, həyatdan götürülmüş əsər qəhrəmanlarının cəmiyyətə, ictimai mühitlə münasibətini hər tərəfli araşdırır, müsbət və mənfi cəhətləri olduğu kimi təqdim etməklə qeyri-sünilik qatır. " İ.Əfəndiyevin dram dili özünün ifadə formalarına görə novatordur. Yenilik obraz və personajları yeni ab-havaya uyğun danışdırmaqda, yeni həyatı başa düşməkdə, anlamaqda və fikirlərini bu istiqamətdə qurmaqda göstərə bilir." [6.səh 16]

İstər ədəbiyyatımız,istərsə də teatrımızın inkişafında,zənginləşməsində müstəsna xidmətləri olan İlyas Əfəndiyev adının əbədiləşdirilməsi məqsədilə İçərişəhərdə yerləşən küçələrdən birinə görkəmli nasir və dramaturqun adı verilmişdir.Həmçinin təhsil müəssisəsi — "Elitar" gimnaziya da xalq yazıçısı İlyas Əfəndiyevin adını daşıyır.

Dövlət tərəfindən daim yüksək qiymətləndirilən İlyas Əfəndiyev yaradıcılığı ümummilli lider Heydər Əliyevin müvafiq Sərəncamına əsasən "Seçilmiş əsəri"nin yeddi,Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Sərəncamı ilə üçcildliyi nəşr olunmuşdur.Eyni zamanda ədibin zəngin irsi namizədlik, doktorluq dissertasiyalarında tədqiq edilmiş, monoqrafiyalar,məqalələr yazılmışdır. Çoxcəhətli yaradıcılığı ilə yüksək ideallar axtarışında olan İlyas Əfəndiyev mənəvi-əxlaqi, bədii-fəlsəfi düşüncə və dəyərləri əsər qəhrəmanlarının nitqində, davranışında, həyata baxışında fərdi cizgilərlə ümumiləşdirməyə nail olmuşdur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1.Azərbaycan ədəbiyyatının İlyas Əfəndiyev zirvəsi. // Yeni Azərbaycan,2021,26 may. https://yeniazerbaycan.com/SonXeber_e84163_az.html
2. Quliyev ,V.M. Açıq sözün hikməti / Vilayət Quliyev.-Bakı: Ozan, - 2001. -520 s.
3. İlyas Əfəndiyev: biblioqrafiya /tərt. G.Səfərəliyeva; red. və bur. məsul K.Tahirov; ön söz. müəl. Ş.Alışanlı; Azərbaycan Milli Kitabxanası.- Bakı, -2014. -512 s.
4. Seçilmiş əsərləri: 3 cilddə / İ.Əfəndiyev. – Bakı: Avrasiya Press,-2005.
5. Həmidova, S. İlyas Əfəndiyev - XX əsr Azərbaycan ədəbiyyyatının görkəmli nümayəndələrindən biri. // Yeni Azərbaycan qəzeti.2014, 20 fevral https://www.yeniazerbaycan.com/Medeniyyet_e14819_az.html
6. Namazova, F. K.İlyas Əfəndiyevin dramaturgiya dili.Avtoreferat. -Bakı, -2021, -51s. https://aak.gov.az/upload/dissertasion/filologiya_elml_ri/Flora_Namzova_avtoreferat2.pdf

Xülasə

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, dramaturgiyamızın, teatrımızın inkişafında müstəsna xidmətləri ilə seçilən İlyas Əfəndiyev milli ədəbi ənənələrimizi çoxşaxəli yaradıcılığında özünəməxsus şəkildə davam etdirmiş görkəmli yazıçılarımızdan biridir. Məqalədə çoxcəhətli yaradıcılıq yolu keçmiş nasir və dramaturqun dram yaradıcılığından bəhs olunur. Müasirlərindən fərqli olaraq dramaturq ədəbiyyatımızda dövrün hakim estetik prinsipləri çərçivəsindən kənara çıxan gerçəkliyin bədii dərkini süni əxlaq kredosu ilə dəyərləndirən, bəzən bu prinsipdən çox uzaq olan ziyalı mühitinə və obrazlarına xüsusi yer ayırmasının şahidi oluruq. Dram əsərlərində müasirliklə tarixiliyin milli köklə, klassik irslə bağlı təbii şəkil alması dövrünün həyat həqiqətlərini əks etdirən bədii nümunələrin məzmun və forma xüsusiyyətlərində aktullığını qoruyub saxlamaqdadır. Məqalədə yüksək ideallar axtarışında olan sənətkarın mənəvi-əxlaqi, bədii-fəlsəfi düşüncə və dəyərləri əsər qəhrəmanlarının nitqində, davranışında, həyata baxışında fərdi cizgilərlə ümumiləşdirmələr aparmasından bəhs olunur.

SUMMARY

İlyas Efendiyev, a prominent representative of the 20th century Azerbaijani literature, distinguished by his exceptional services in the development of our drama and theater, is one of our outstanding writers who continued our national literary traditions in his multifaceted creativity. The article talks about the drama creation of the prose writer and playwright who had a multifaceted creative path. In contrast to his contemporaries, in our dramatist literature, we witness a special place being allocated to the environment and images of intellectuals who value the artistic understanding of reality with an artificial moral credo, which goes beyond the framework of the prevailing aesthetic principles of time, and sometimes are far from the principle. In the drama works, the artistic examples reflecting the life truth of the period of modernity and historicity in connection with the national roots heritage are still relevant in terms of content and form. In the article, it is mentioned that the spiritual-moral, artistic-philosophical thoughts and values of the artist, who is in search of high ideals, make generalizations with individual traits in the speech, behavior, and outlook of life of the heroes of the work.

РЕЗЮМЕ

Ильяс Эфендиев, видный представитель азербайджанской литературы XX века, отличившийся исключительными заслугами в развитии нашей драматургии и театра, является одним из выдающихся писателей, продолжавшим в своем многогранном творчестве наши национальные

литературные традиции. В статье рассказывается в драматическом творчестве прозаика и драматурга, прошедшего многогранный творческий путь.

В отличие от современниов, в нашей драматургической литературе мы наблюдаем особое место, отводимое среде и образам интеллектуаллов, ценящих художественное осмысление действительности с искусственным нравственнымкредо, выходящим за рамки господству-ющих эстетических принципов времени, а иногда и далеки от принципа.

В драматических произведениях по-прежнему актуальны по содержанию и форме художественные образцы, отражающие жизненные истины периода современности и историчности в связи с национальными корнями и классическим наследием. В статье отмечается, что духовно-нравственные, художественно-философские мысли и ценности художника, находящегося в поиске высоких идеалов, обобщают индивидуальные черты в речи, поведении, мировоззрении художника, герой произведения.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: fil.üzrə fəlsəfə doktoru, dosent Yunusova Günel tərəfindən çapa tövsiyə olunmuşdur

BİLAL HÜSEYNAĞA OĞLU HÜSEYNOV,
ADPU Cəlilabad filialının müəllimi, filologiya üzrə fəlsəfə doktoru,
NDU-nun elmlər doktorluğu üzrə dissertantı, *bilalalarli58@mail.ru*
ORCİD İD 0000-0002-2249-6487

AĞBABA, İRƏVAN, GÖYÇƏ VƏ QARAQOYUNLU FOLKLORUNDA JANRDAXİLİ DƏYİŞMƏLƏR

Özət

Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Göyçə, Qaraqoyunlu mahalları zəngin folklor ilə fərqlənir. Bu bölgələrin folklor örnəkləri məqsədli şəkildə öyrənilmiş və çap olunmuşdur. Toplanmış nümunələrin növ və janr təyinatının araşdırılmasına böyük ehtiyac vardır. Folklor örnəkləri bölgə xüsusiyyətlərinə görə diqqət çəkir və onların janrdaxili dəyişmələrə məruz qalmış nümunələri, demək olar, öyrənilməmişdir. Bölgədən toplanılan nanaylar, acı-qınılar (acıtmalar), lağamalar (ayamalar), boranlar, bəxtaçmalar, papaqaltılar, yaylaqaltılar, tırınqılar, deyimlər, yallıbaşılar, haxıştalar, yasaqlar, yalvarışlar və sicilləmələr janr təyinatına görə ətraflı araşdırma tələb edir.

Məqalədə bölgənin folklor imkanları nəzərdən keçirilir, janrdaxili dəyişmələrə məruz qalan örnəklər assiqnmentativ xüsusiyyətlərinə görə təhlil olunur.

Açar sözlər: ***Qərbi Azərbaycan folkloru, Ağbaba, İrəvan, Göyçə və Qaraqoyunlu folklorunda janrdaxili dəyişmələr.***

Motiv. Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Göyçə və Qaraqoyunlu mahallarının folklorunun öyrənilməsi həmişə diqqət mərkəzində olmuşdur. Toplanılan folklor örnəkləri janr zənginliyi ilə fərqlənir. Ağbaba folklorunda nanaylar, acı-qınılar (acıtmalar), lağamalar (ayamalar), boranlar **(AFA - Ağbaba), III 1997: 34-37; 44-46; 208-213)**, bəxtaçmalar, papaqaltılar və yaylaqaltılar, tırınqılar, deyimlər **(AFA – Ağbaba, VIII 2003: 35-37; 261-282)**, İrəvan folklorunda yallıbaşılar, haxıştalar **(AFA - İrəvan, X 2004: 69; 394-401)**, Qaraqoyunlu folklorunda yasaqlar, yalvarışlar **(AFA –Qaraqoyunlu, VII 2002: 34-38; 63-65)**, Göyçə folklorunda sicilləmələr **(AFA - Göyçə, III 2000: 711-716)** janr baxımından ətraflı şəkildə öyrənilməmiş folklor örnəkləridir.

Ağbaba, İrəvan, Göyçə və Qaraqoyunlu Qərbi Azərbaycanın zəngin folklor bölgələridir. Dərələyəz və Zəngəzur bölgələrində olduğu kimi, bu bölgələrdən yazıya alınmış folklor örnəkləri də janr özəllikləri ilə fərqlənir. Bölgə xüsusiyyətləri ilə seçilən folklor nümunələri ilə yanaşı, janrdaxili dəyişmələrə məruz qalmış örnəklər də mövcuddur ki, onların assiqnmentativ keyfiyyətləri az öyrənilmişdir.

Araşdırma. Coğrafi məkan kimi Ağbaba Şərqi Anadolunun bir hissəsi sayılır, "yadelli ölkələrin hərbi-siyasi təcavüzü nəticəsində iki yerə parçalanıb" və

Ermənistanın daxilində qalan bölgələrdən türk əsilli əhali deportasiyaya məruz qalmışdır **(AFA – Ağbaba, VIII 2003: 5-7).** Ağbabanın folkloru janr zənginliyi ilə seçilir. Nanay, tırınqı kimi nəğmə nümunələri, bəxtaçma, papaqaltı və yaylaqaltı kimi mərasim folkloru "janrları" lirik və epik imkanları ilə diqqət çəkir. Tırınqıların bir qismi vətən həsrətli qoşmalardan ibarətdir. Elindən-obasından didərgin düşən, qürbətdə Ağbaba həsrəti ilə yaşayan insanların ağrısını-acısını əks etdirən *tırınqılar* mükəmməl şeir nümunələridir:

Tale vurdu üz çevirdim arana,
Bir ümidim vardı göydə durana.
And verirəm sizi, əziz "Quran"a,
Mən qəribəm, mənə qərib deməyin.

Tale vurdu Ağbabadan köç etdim,
Köçkünlüyü öz başıma tac etdim.
Dərd götürüb cavanlığı puç etdim,
Mən qəribəm, mənə qərib deməyin.

Tale vurdu, tez qondurdu yollara,
Qovladı uzaq-uzaq ellərə.
Yetim kimi adım düşdü dillərə,
Mən qəribəm, mənə qərib deməyin **(AFA – Ağbaba, VIII 2003: 263-264).**

Tırınqılardan fərqli olaraq, *nanaylar* bayatı şəkillidir, döndərmələri isə "Əyil, a dağlar, qar gəlsin", yaxud "Açıl, a yollar, yar gəlsin" sözlərinin çoxsaylı təkrarından ibarətdir:

Çoban, itin qudursun,
Arxacında su dursun.
Özünə mən qıymıram,
Yengənin dili dursun **(AFA - Ağbaba, III 1997: 34)**.

Yaxud:
Çobanam qoynunuza,
Babalım boynunuza.
Ya məni əvləndirin,
Ya alın qoynunuza **(AFA - Ağbaba, III 1997: 37)**.

Lirik parçalarla müşayiət olunan *bəxtaçmalar* falabaxma, vəsfi-hal məqamlarını xatırladır. Bəxtaçma mərasimi İlaxır çərşənbədə su üstündə icra olunur, bu məqsədlə qıfıldan və daş parçasından istifadə edilir:

Sənə qurban, ay anam,
Qoyma alışam, yanam.
Qismət ver, aç kilidi,
Şenlənsin obam-xanam **(AFA – Ağbaba, VIII 2003: 35)**

Papaqaltı isə falabaxma xarakterli oyundur, bu oyun yeddi cavan oğlanın arasında keçirilir. Oğlanların hər biri bəxtlə, tale ilə bağlı bir bayatı söyləyir. Yeddi papağın altında gizlədilmiş üzüyü tapan "ilin ən bəxtlisi" sayılır:

Bir üzük, yeddi papaq,
Ərlər, bir oyun yapaq.
Bəxtli kimdi burdaca,
Gəlin arayaq, tapaq **(AFA – Ağbaba, VIII 2003: 36).**

Yaylıqaltı da İlaxır çərşənbədə icra olunan oyun xarakterli falabaxma mərasimidir. Papaqaltıda olduğu kimi, burada da yeddi iştirakçı olur, fərq ondadır ki, iştirakçılar qızlardan ibarətdir. Yaylığın altındakı üzüyü tapan qız "ilin ən bəxtlisi" sayılır və qızlar onu əhatəyə alıb oynaya-oynaya oxuyurlar:

Yollara gül döşə, çıx,
Qız, baxtınla başa çıx.
Oyna, meydan sənindi,
Əl xınalı, baş açıq **(AFA – Ağbaba, VIII 2003: 37).**

Yaylıqaltılar həm də nanay nəğmələri sayılır, bu fikir nəğmələrin mətnində də ifadə olunur: "Nanay çağır, səs elə" **(AFA – Ağbaba, VIII 2003: 37).**

Ağbaba folklorunda *mifoloji mətnlər və rəvayətlər* daha çox mifik obrazlar haqqındadır. Bu mifik obrazların bir qismi şaman mifləri ilə səsləşir. Şayətin, Damdabaca, Quşoğlu, Ağac əyəsi, Şeşə, Qaraçuxalı, Baba ruhu, Küflə əyəsi, Göyatlı, Babal, Asdana cini (Vurğun), Su əyəsi, Kafdarküştü, Dəyirman əyəsi, Ucubılıx, Sucul dev, Kor dədə, Qurdoğlu, Hal anası və başqa obrazlarla bağlı mətnlər mifin ilkin mərhələdə formalaşma və janr kimi təkmilləşmə xüsusiyyətlərini öyrənməyə imkan verir **(AFA – Ağbaba, VIII 2003: 51-88).** Adlardan ibarət olan *lağamalar* isə fərdlərə əməllərinə və görkəminə görə verilir. Lağamalar əslində ayamalardır, bəzən eyni adı daşıyan adamları da fərqləndirmək üçün işlədilir. Amma hər lağamanın (ayamanın) arxasında bir folklor mətni yatır. Məsələn, Külyeyən Yasəmən, yaxud Qırmızı Sona lağamaları müəyyən bir əhvalatla bağlı yaranmışdır. Yasəmən boydolu olarkən orqanizmindəki kalsium çatışmazlığını ödəmək üçün kül yemiş və bu ayama ona ömürlük verilmişdir. Sonanın qırmızılığı isə onun dilotu yeməsi, yəni çox danışması ilə bağlıdır **(AFA - Ağbaba, III 1997: 44-45)**. Ağbabadan toplanmış *acı-*

qınılar acıtmalar adı altında verilsə də, digər bölgələrin folklorundan fərqli olaraq, təkcə lirik şəkildə deyil, epik parçalarla da ifadə olunur. Acı-qını mətnindən nümunə:
"Qızlar onları bəyənməyən oğlana acıx verif deyillər:
Əl eləsəm əllisi gələr,
Qol eləsəm qollusu gələr,
Sənnən də bir tellisi gələr" **(AFA - Ağbaba, III 1997: 41)**.

Ağbaba bölgəsindən toplanmış *deyimlər* isə izahlı lüğətləri xatırladır. İlk anda müəmmalı görünən, yaranma səbəbi, söylənmə məqsədi aydın olmayan deyimlər izahedici kiçik mətnlərlə təqdim olunur. Deyimlər bölgənin söz ehtiyatını, dil zənginliyini ortaya qoyur. Nümunələr diqqət yetirək:

Ala bayrax olmax – El-obada rüsvay olmaq, dildə-ağızda söylənmək.

Ağzıynan quş tutmaq – Yaxşı imkana malik olmaq, ürəyi istədiyini etmək.

Ağzını Allah yoluna qoymaq – Ağzına nə gəldi danışmaq.

Ala itdən manşırdı – Hər yanda məşhur olan, hamının tanıdığı adamlar barəsində deyilir **(AFA – Ağbaba, VIII 2003: 273).**

Ağbaba folklorunda *boranlar* adlı örnəklərə də rast gəlirik. Əslində el arasında boranlar adlanan nümunələr *havasat (meteorologiya)* məlumatlarından ibarətdir. Təsərrüfat həyatı insanları məcbu edir ki, xalq meteorologiyasını yaxşı öyrənsinlər. Bölgədə əkin-biçin vaxtları fəsillərə uyğun şəkildə həyata keçirilir. Ağbabada yazıya alınmış havasatla bağlı folklor nümunələri Xıdır, Nəbi, Elləz qardaşları, Kürdoğlu, Leylək ilə bağlı boranlar haqqındadır. Havasat deyimləri dolunun, yağışın, quraqlığın, yelin qarşısını almaq üçün görülən tədbirləri də əhatə edir **(AFA - Ağbaba, III 1997: 208-213)**.

Ağbabadan fərqli olaraq, İrəvan çuxurundan toplanan folklor örnəklərində deyimlərin oxşarı kimi təqdim olunan nümunələr *"Niyə belə deyirik?"* başlığı altında verilir. Bu nümunələrdə deyimlər, mənası ilk anda anlaşılmayan ifadələr ayrıca izahedici mətnlə dinləyiciyə (oxucuya) çatdırılır. "Batbat yemisən?" deyiminin izahedici mətni belədir: *"Batbat tikan növüdü. Narkotik maddə ilə zəngin olduğu üçün belə bir fikir formalaşmışdı ki, batbatı yeyən adam dəli olur. Ona görə də sözünün yerini bilməyənə "Batbat yemisən?" – deyirdilər"* **(AFA - İrəvan, X 2004: 99).** "Lap Şəddaddı" deyimi zülmkarlığı ifadə edir: *"Zalım adam haqqında işlədilən ifadə. Görünür, bu deyim vedili Şəddadilər sülaləsinin ən qəddar hökmdarı Məhəmməd ibn Şəddadın zülmkarrığı ilə əlaqədar yaranmışdır"* **(AFA - İrəvan, X 2004: 99).** İrəvan çuxuru folklorunda lirik növün də janrdaxili dəyişimlərini müşahidə etmək mümkündür. *Yallıbaşılar* tiringi, nanay kimi nəğmənin bir "növüdür". Toplayıcılar bu nəğmələrə belə bir aydınlıq gətirirlər: "Yallıbaşılar – toylarda yallı ərəfəsində dəstənin başında duran adam tərəfindən oxunar, dəstənin qalan üzvləri isə sözləri təkrar edərdilər" **(AFA - İrəvan, X 2004: 69).** Yallıbaşılardan fərqli olaraq, *haxıştalar* "bayramlarda və toy şənliklərində icra olunan qız-gəlin oyunu" sayılır: "Oyunda 8-12 ifaçı iki dəstəyə bölünərək sıra ilə qabaq-qabağa dayanıb, əl-ələ tutardılar. Sonra növbə ilə "haxışta" sözü ilə bitən bir bayatı oxuyar, o birilər isə hər

misradan sonra "haxışta" sözünü təkrar edər, əl çala-çala bir ayaq üstə atılıb-düşər, rəqs edərdilər. Əsasən, Naxçıvanda və İrəvan çuxurunda yayılmış bu oyun daha çox halay oyununu xatırladırdı" **(AFA - İrəvan, X 2004: 394).** Haxışta oyun nəğməsi müxtəlif məzmunlu bayatılar üzərində qurulmuşdur, mətnlərin çoxu bacının qardaşa müraciətindən ibarətdir:

Araz qırağı çiçəh, haxışta,
Orax götü, gə biçəh, haxışta.
Qardaş, nişannın gördüm, haxışta,
Üzündə yumru birçəh, haxışta.

Ağ sənəh ağzı burma, haxışta,
Doldurub dalda durma, haxışta.
Qardaş, nişannın gördüm, haxışta,
Ağzında dili xurma, haxışta **(AFA - İrəvan, X 2004: 395).**

Göyçə folklorunu öyrənənlər bu qərara gəlmişlər ki, bölgədə övliyalılıq, sufilik geniş mahiyyət daşımış, mürid-mürşüd ənənələri folklora, xüsusən aşıq ədəbiyyatına ciddi təsir göstərmişdir: "Sufiliyin "abdallıq", "babalıq", "lələlik", "dədəlik" dərslərini almaq və pirlik-piranəlik məqamına yetmək, bu məqamda bu qatda saz sınayıb, sözdə sinanmaq üçün aşıqlar hər yerdən Göyçəyə axışdılar" **(AFA - Göyçə, III 2000: 12).** Dədə Qorqud boyları ilə səsləşən mifoloji mətnlər bölgənin folklor ənənələrinin ümumtürk mifik təfəkküründən qaynaqlandığını təsdiq edir. Qəhrəmanları azmanlarla mübarizə aparan arxaik miflər nağılların, mifoloji rəvayətlərin, əfsanələrin özülündə dayanır: "Mif və folklor nəzəriyyələri göstərir ki, mif müəyyən inkişaf mərhələsi keçdikdən sonra parçalanır və ondan epik növün janrları – nağıl, əfsanə və rəvayətlər yaranır **(AFA - Göyçə, III 2000: 25).** Mifoloji elementlər Göyçə nağıllarını "sehrlə, ovsunla" zənginləşdirir, nağılları dastanlara yaxınlaşdırır, daha doğrusu, bəzi məqamlarda nağılların dastanların özülündə dayanmasına səbəb olur.

Göyçə folklor örnəkləri içərisində aşıqlar tərəfindən ifa olunan *pişrovlar* fərqli xüsusiyyətlər daşıyır. Pişrovlar nağılın müqəddiməsi sayılır və bu "müqəddimə-pişrovu Göyçə nağılçıları loppazdama adlandırırlar" **(AFA - Göyçə, III 2000: 30).** *loppazdama* nümunəsi düzgü şəklində olur və daha çox nağılın məzmunu ilə səsləşir:

A bəylər, hallı bəylər,
Dilləri ballı bəylər.
Əyləşin sağ-solumda,
Dayanmayın yolumda.
Atım basar sizləri,
İtim tutar sizləri.

Pişiyimi nallaram,
Xoruzumu çullaram.
Əlimdə gümüş hasa,
Yanımda çolaq kosa,
Tapıb nallı dovşanı,
Tutub çullu dovşanı
Qabağıma qataram,
Bir tacirə sataram.
Tacir mənə saz verər,
Yatmağa palaz verər.
Yıxılaram yataram,
Yuxumuca qataram,
Anlamazı-qanmazı
Nağılçılar oyadar.
Qananların ağzında
Nağılları bal dadar **(AFA - Göyçə, III 2000: 30-31).**

AFA-nın Göyçə folkloru cildinə (III kitab) ön söz yazan Hüseyn İsmayılov loppazdamanın nağıldakı funksiyasının və ondan sonra gələn giriş hissəsinin mahiyyətini şərh edərək bildirir ki, loppazdamadan sonra nağılın başlanğıcı gəlir: "Bunlar nağılın giriş hissəsinin ənənəvi elementidir. Xarakterinə görə onlar hərəkətin zamanını və hadisələrin məkanını təyin edir" **(AFA - Göyçə, III 2000: 31).** Maraqlıdır ki, loppazdama nağılın girişində nağıl söyləyənin dinləyiciyə sərt mövqeyini ifadə edir:

Nağıl-nuğul bilmərəm,
Şəkər, noğul bilmərəm.
Bilsəm də söyləmərəm.
Şahdan gəlmiş nökərəm,
Məndən nağıl istəsən,
Qavırğanı sökərəm **(AFA - Göyçə, III 2000: 31).**

Bu cür münasibət dinləyicini özünü toplamağa, nağılın mahiyyətini anlamağa məcbur edir. Bəlkə də buna görə nağılın sonluğu daha ibrətamiz səslənir, nağılçı nağılı ümumiləşdirir, nağılın əsas ideyasına, təsvir edilən hadisələrə, xeyir və şər qüvvələrə münasibətini bildirir **(AFA - Göyçə, III 2000: 31).**

Nağılların miflərdən başlanğıc alması ideyası onların mahiyyəti əks olunan digər janrlara da diqqət çəkməyi tələb edir. Əfanələrdə, mifoloji rəvayətlərdə, inanclarda, sınamalarda, etiqadlarda mifik təfəkkürün, mifik baxışların elementləri mühafizə olunur. Təpəgöz, Qaraçuxa mifik inamlardan doğan obrazlardır. Göyçədə Əyə kimi təsəvvür olunan Qaraçuxa hami ruh sayılır və kökünü şamançılıq, tanrıçılıq

görüşlərindən alır **(AFA - Göyçə, III 2000: 40-41).** Metaforik məna daşıyan tapmacaların da bir qismi mifik səciyyəlidir **(AFA - Göyçə, III 2000: 44-45).**

Göyçə folklorunun toplayıcıları mifləri *"Mifoloji nağıllar" və "Mifoloji rəvayətlər"* başlıqları altında qruplaşdırmışlar. Nağıllardan fərqli olaraq, mifoloji rəvayət konkret bir hadisə ilə bağlı olur. Rəvayətlərdən birində əri ölmüş qadının gözünə öz əksi olan başqa bir qadın görünür və bu qadın onun inəyini sağır **(AFA - Göyçə, III 2000: 66).** Cinin yaxasına iynə sancılması, onun əhlilləşdirilməsi ilə bağlı rəvayətdə deyilir ki, onu bulağa su gətirməyə göndərirlər: *"Cin bulağa çatanda burada bir balaja qız uşağı varıymış. Onu qılıxlıyıf deyir ki, bu paltarımdakı təzə iyniyi sana verirəm. çək sənin olsun. Uşax da həvəsdənif tez iyniyi cinin üstündən çəkir. Cin dərhal yoxa çıxır. İynə qalır qızın əlində"* **(AFA - Göyçə, III 2000: 69).**

Göyçə folklorunda *türkəçarə* sözlü folklor janrı kimi təqdim olunur, bu nümunələr "Xalq təbabəti", "El müalicə vasitələri" və "Türkəçarələr" adı altında verilir. Tibbi *məsləhətlərdən və tövsiyələrdən* ibarət olan türkəçarələrin bir qismi həkimlərin müalicə məqsədi ilə təyin etdikləri dərmanlardan təsirli və effektli olur. Dərmanla müalicə orqanizmin digər hissələrində mənfi emosiya yaradır. Daha çox bitkilərin müalicə keyfiyyəti üzərində qurulan türkəçarə ilacları daha əhəmiyyətli alınır **(AFA - Göyçə, III 2000: 227-257).**

Göyçə folklorunda *cırnatmalar və sicilləmələr* ayrıca təqdim olunsa da, əslində düzgünün tematik təyinatına görə fərqlənən nümunələridir. Cırnatmalar keçəl haqqındadır:

Keçəl-keçəl, daz keçəl,
Hər yanı pərvaz keçəl.
Keçəlin xondu başı,
Qoduğa mindi başı **(AFA - Göyçə, III 2000: 710).**

Oxşar ovqat sicilləmələrdə də təkrar olunur:

Bajadan baxan dəndələn göz,
Biri kəhər, biri boz.
Mindim bozun boynuna,
Düşdüm divan yoluna... **(AFA - Göyçə, III 2000: 712).**

Yaxud:
Bibili qoz, ay bibili qoz,
Bibim verdi iki qoz.
O qozdarı sındırdım,
Qavıxların yandırdım... **(AFA - Göyçə, III 2000: 713).**

Yaxud da:
Tat oğlu qara Salman,
Mahala saldı talan.
Yəhərrədi atını,
Tumarradı itini... **(AFA - Göyçə, III 2000: 715).**

Müqayisə edilən cırnatma və sicilləmə nümunələrinin əslində tematik yaxınlığı da mövcuddur. Belə nümunələrin janr təyinatı bəzən mətnin həcmi ilə bağlı olur. Daha uzun düzgü nümunələri sicilləmə adlanır. Bu faktı nümunənin adı (sicilləmə) da təsdiq edir. Sicilləmə el arasında "ucunu tutub ucuzluğa getmə" kimi yozulur.

Göyçə mahalının Qaraqoyunlu bölgəsində janrdaxili dəyişimləri ilə fərqlənən folklor örnəklərinə *yasaqları, yalvarışları, öyüd-nəsihətləri, məsləhətləri, gülməcələri* nümunə gətirmək olar. Bölgədən toplanmış *inanclar və sınamalar* ayrıca təqdim olunur. İnancların özülündə mifik təfəkkür dayanır, sınamalar isə əlamətlərə əsaslanır. Amma bu "janrları" birləşdirən, eyniləşdirən nümunələr də mövcuddur. İnanc nümunəsi: *"At nalını ağzı yuxarı öyün qapısına vurullar ki, xoşbaxtlıx gətirsin. Əgər ağzı aşağı vurularsa, bədbəxtlik gətirər"* **(AFA – Qaraqoyunlu, VII 2002: 15).** Sınama nümunəsi: *"Kərtənkələnin quyruğunu kim qırıf civlərində gəzdirirsə, onda o adam pul tajax"* **(AFA – Qaraqoyunlu, VII 2002: 21).** Nümunələrin təhlili göstərir ki, onları söyləyənin və yazıya alanın folklor örnəyinə münasibəti janr təyinatına formal şəkildə olsa da, təsirsiz ötmür. İnanclara və əlamətlərə əsaslanan digər janr *yasaqdır*. Bunu nümunələrdən də görmək mümkündür:

Qoyun sürüsünün yanınnan su dolusu səhəngnən keçmək olmaz, səmtini dəyişif başqa yolla getməlidi, yoxsa qoyun sürüsü su kimi axıf gedər.

Çərşənbə günü nəsdi, həmin günü nə toy eləməzlər, nə də səfərə çıxmazlar.

Arı ailəsinin pətəklərinə haram əl toxunmamalıdı, bu zaman arılar məhv olar.

Yeni olmuş çağanın birdən-birə üstünə girmək olmaz, çağanın üstünə pis niyyətnən, göy muncuxnan gəlmək çağaya zəfər törədər **(AFA – Qaraqoyunlu, VII 2002: 29).**

İnanclara əsaslanan janrlardan biri də ovsunlardır. *Ovsunlar* ifadə tərzinə, ifadə etdiyi inama, əsaslandığı əlamətə görə sınamalardan və yasaqlardan fərqlənmir. Bunu nümunələrdən də görmək mümkündür:

Gözə gəlmiş adamı bədnəzərdən uzax eləmək üçün bir qaşıx duzu onun başına doluyuf ojaxda yandırır, deyillər: bədnəzər gözü yandırdım.

Günahlardan təmizlənmək üçün çimənnən sonra qırx qaşığ suyu qüsul edif başdan tökər, diyəllər: günahdan təmizləndim **(AFA – Qaraqoyunlu, VII 2002: 36-37).**

Gətrilən nümunələr sınamaların, yasaqların, ovsunların və bu tipli digər folklor nümunələrinin əsasında inanclar (inam janrı) dayandığını deməyə əsas verir. Qaraqoyunlu folklorunda *yalvarışlar* da ayrıca janr kimi təqdim olunur. Başqa

bölgələrdə deyimlər adı altında verilən yalvarışlar nitq etiketlərindən faydalanan janrdır. Yalvarışı konkret olaraq nitq janrı da saymaq olar:

Anana, atana qurvan olum.
Allaha qurvan olum.
Ayağın altında ölüm.
Başına dönüm, başına dolanım.
Qadan, balan alım **(AFA – Qaraqoyunlu, VII 2002: 63).**

Qaraqoyunlu folklorunda deyimlər, öyüd-nəsihətlər, məsləhətlər atalar sözü və msəllərdən fərqli şəkildə təqdim olunur. Nümunələrin fərqi onların hansı məqsədlə söylənilməsindən asılıdır **(AFA – Qaraqoyunlu, VII 2002: 192-231).** Bölgədə lətifələr gülməcə adlanır **(AFA – Qaraqoyunlu, VII 2002: 232-271).**

Nəticə. Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Göyçə, Qaraqoyunlu mahallarının folklor örnəkləri janr zənginliyi ilə fərqləndiyi kimi, janrdaxili dəyişimləri ilə də diqqət çəkir. Növ və janr baxımından ətraflı şəkildə öyrənilməmiş folklor örnəkləri olan nanaylar, tırınqılar, acı-qınılar (acıtmalar), lağamalar (ayamalar), boranlar, bəxtaçmalar, papaqaltılar, yaylaqaltılar, deyimlər, yallıbaşılar, haxıştalar, yasaqlar, yalvarışlar, sicilləmələr assiqnmentativ keyfiyyətlərinə görə ətraflı şəkildə araşdırma tələb edir. Məqalədə bu folklor örnəklərinin növ və janr imkanları, janrdaxili dəyişmələri, modulyativ xüsusiyyətləri öyrənilir.

Ədəbiyyat:

1.AFA - Ağbaba, III 1997 - Azərbaycan folkloru antologiyası, 3-cü cild, Ağbaba folkloru. Toplayanı və tərtibçisi: Sürəyya Ağbabalı. Bakı, Azərnəşr, 1997, 256 s.

2.AFA - Göyçə, III 2000 - Azərbaycan folkloru antologiyası, 3-cü cild, Göyçə folkloru. Toplayanı, tərtib edəni və ön sözün müəllifi: Hüseyn İsmayılov. Bakı, Səda, 2000, 768 s.

3.AFA – Qaraqoyunlu, VII 2002 - Azərbaycan folkloru antologiyası, 7-ci cild, Qaraqoyunlu folkloru. Toplayıb tərtib edənlər: Hüseyn İsmayılov və Qurban Süleymanov. Bakı, Səda, 2002, 464 s.

4.AFA – Ağbaba, VIII 2003 - Azərbaycan folkloru antologiyası, 8-ci cild, Ağbaba folkloru. Toplayıb tərtib edənlər: Hüseyn İsmayılov və Tacir Qurbanov. Bakı, Səda, 2003, 476 s.

5.AFA - İrəvan, X 2004 - Azərbaycan folkloru antologiyası, 10-cu cild, İrəvan çuxuru folkloru. Toplayıb tərtib edənlər: Hüseyn İsmayılov və Əziz Ələkbərli. Bakı, Səda, 2004, 472 s.

Bilal Huseynaga oglu Huseynov

Intra-genre changes in the folklore of Aghbaba, Iravan, Goycha and Garagoyunlu

Summary

Aghbaba, Iravan, Goycha, Garagoyunlu districts of Western Azerbaijan are distinguished by rich folklore. Folklore examples of these regions were purposefully studied and published. There is a great need to investigate the type and genre designation of the collected samples. Folklore samples are notable for their regional characteristics, and their intra-genre variations are almost unstudied. The nanaylar, achi-giniler (achitmalar), laghamalar (ayamalar), boranlar, baxtachmalar, papagaltiler və yaylagaltiler, tirinqiler, deyimler, yallibashiler, haxiştalar, yasaglar, yalvarishlar and sichillemeler collected from the region require a detailed study according to genre designation.The folklore possibilities of the region are reviewed in the article, and the samples subjected to intra-genre changes are analyzed according to their assignment characteristics.

Keywords: ***West Azerbaijani folklore, intra-genre changes in Aghbaba, Iravan, Goycha and Garagoyunlu folklore.***

Билал Гусейнага оглы Гусейнов

Внутрижанровые изменения в фольклоре Агбабы, Иравана, Гейчи и Карагоюнлу

Резюме

Богатым фольклором отличаются Агбабинский, Иреванский, Гейчинский, Гарагоюнлуйский районы Западного Азербайджана. Образцы фольклора этих регионов целенаправленно изучались и публиковались. Необходимо исследовать тип и жанровое обозначение собранных образцов. Фольклорные образцы отличаются региональной спецификой, а их внутрижанровая вариация практически не изучена. Собранные в регионе yasaqlar, yalvarışlar və sicilləmələr нанайлар, аджи-гинилар (аджытмалар), лагамалар (аямалар), боранлар, бахтачмалар, папагалтылар, яйлагалтылар, тирингилер, дейимлер, яллибашылар, хахишталар, ясаглар, ялварышлар, сиджиллемелер требуют детального изучения в соответствии с их жанровым обозначением. В статье рассматриваются фольклорные возможности региона, а образцы, подвергшиеся внутрижанровым изменениям, анализируются по характеристикам их назначения.

Ключевые слова: ***Западно-Азербайджанский фольклор, внутрижанровые изменения в фольклоре Агбабы, Иревана, Гейчи и Гарагоюнлу.***

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Akif Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur

Fil.ü.f.dok. YEGANƏ HÜSEYNOVA
Gəncə Dövlət Universiteti
yeganesabirhuseynli@gmail.com

İSGƏNDƏRİN "ZÜLMƏT SƏLTƏNƏTİ"NƏ QARŞI MÜBARİZƏSİ

Xülasə: Yaradıcılığa ilk dəfə "Çay dəstgahı" adlı mənzum alleqorik əsərlə başlayan Mirzə Cəlil daha sonra ədəbiyyatın mürəkkəb növü olan dram janrına keçmişdir. Ədibin XX əsrin birinci və ikinci on illiyində yaratdığı dramlar mövzularına və ideyalarına, konflikt, sujet və xarakterlərinə görə yenidir, həmin dövrün tələbləri çərçivəsindədir. Bu yenilik müsbət qəhrəmanın xarakterini necə yaranıb formalaşdığını, nəyə, kimə qarşı necə mübarizə apardığını göstərir. Bu da bir həqiqətdir ki, eposa məxsus klassik ənənələrimizin zəminində yaranan dram əsərləri Azərbaycan dramaturgiyasında əsas janr olmuş, onun mövzu dairəsinin yeniləşdirlməsində mühüm, həlledici rol oynamışdır. Lakin XX yüzilliyin ictimai-siyasi, mənəvi amillərinin təsiri ilə bu janr özündə əsaslı dəyişikliklər yaratmış, müsbət qəhrəman obrazı ərsəyə gəlmişdir. Bu özünü konflikt, xarakter və sujet vasitəsilə göstərmişdir. Buna görə də C.Məmmədquluzadənin dram əsərləri ədəbiyyatşünasların diqqət mərkəzində olmuş onlar dramın əsas xüsusiyyətlərindən danışaraq demişlər ki, eposdan fərqli olaraq dram müəyyən bitkin xarakterləri, onların əməllərini müəllifin özü nağıl etmədən, təhlükəsiz onların öz danışıq və hərəkətlərində müstəqil göstərməkdən ibarətdir. Dramda müəllif özü mətnə verilən izahatlarda, şəraitin və hərəkətdə göstərilən müsbət qəhrəmanın qısa xarakteristikasının verilməsində özünü göstərir. Səhnə ifşasında isə müəllif sözü olmur. Sujetlə bağlı olmayan və bir növ müəllifin adından çıxış edən («aparıcı») surətlərdə də dramda yer verilə bilər, lakin bu halda müəllif danışığı səhnədə danışıb oynayan müsbət və mənfi qəhrəman konkret surət vasitəsilə verilir.
Açar sözlər: Ədib, İsgəndər, "Ölülər", əsər, avam, dramaturgiya

Dramatik konflikt – insanların həyatındakı ziddiyyətləri əks etdirməyin spesifik bədii formasıdır. Bir-birinin əksi olan insan əməllərinin, baxışlarının, ideyalarının, hislərinin, səylərinin, mənafelərinin, ehtiraslarının bədii yaradıcılıqda inkas etməsidir. Sujetin axarında müsbət qəhrəman müəyyənliyinə və özünə məxsus ayrıca danışıq xüsusiyyətlərinə malikdir və buna əsasən də o, xarakterinin bitkinliyinə görə bir çox cəhətdən epos qəhrəmanına yaxındır. Lakin dramdakı xaratkerlər, eposdakından fərqli olaraq, özünü daha möhkəm dramatik kəskinliyi və müəyyənliyilə, hislərin və hərəkətlərin əsas həyati konflikti ətrafında daha mükəmməl cəmləşməsi ilə seçilir. C.Məmmədquluzadənin «Ölülər» dramının əsas konflikti İsgəndərin, onu əhatə edən avamlığa, yalançılığa, özbaşınalığa, "zülmət səltənəti"nə qarşı, aparılan mübarizəsidir.Bu mənada gerçəkliyi bütün mürəkkəbliyi və ziddiyyətlərilə həyatın dramatizmini, müsbət və mənfi obrazların – insanların

dramatik talelərini İsgəndərin, Cəlalın, Nazlının "Anamın kitabı"nda Zəhrabəyim ananın və oğlanlarının dramatik talelərini və həyəcanlarını aşkara çıxaran incəsənət əsl incəsənətdir. Bu müsbət və mənfi obrazların oppenentliyi ilə yaranır. «Ölülər», «Anamın kitabı», «Dəli yığıncağı» pyesləri özünə məxsus sujetə, mövzuya və ifadə tərzinə malkidir. Hər üç əsəri müasir ideologiyanın təbiəti baxımından təhlilə gətirmədən əvvəl əsərin özünə və ayrı-ayrı personajları təhlil etmək daha məqsədəuyğun olardı.

"Ölülər" əsərini yazmaqda C. Məmmədquluzadənin məqsədi, onun öz sözləri ilə desək, "müsəlman ölkələri xalqlarını uzun əsrlər cəhalətdə, şəriət zülməti qaranlığında saxlayan", "caamatı behişt quru vədləri ilə yuxuya verən", "həyat mübarizəsindən", "dünya işlərindən uzaqlaşdıran, mövhumat içində çürüdən" və dini, şəriəti soyğunçuluq vasitəsinə çevirən yalançı, fırıldaqçı ruhanilərin, möminlərin maskalarını yırtmaq, onların həqiqi simasını olduğu kimi xalqa tanıtmaq idi. Çünki ədibin fikrincə, nə qədər ki, avam müsəlman ümməti mövhumat içində çürüməkdədir, o qədər onların gözü açılmayacaq ki, yaxşı ilə yamanı seçə bilsinlər və azadlığın qədrini bilə bilsinlər. İnsan o zaman dünyanı dərk edə bilər ki, o, əlifbanı öyrənsin, məktəb yollarına qədəm bassın, elm, təhsil alsın, ağı qaradan seçə bilsin. Onda insan oğlu cahillikdən kamilliyə doğru addımını ata bilər.

XIX əsrin ikinci yarısında Azərbaycanın qədim şəhərlərindən birində, mömin hacılardan Hacı Həsənin evində müəllim Mirzə Hüseyin on yaşlı Cəlala XIV əsrin məşhur İran şairi Şeyx Sədinin "Gülüstan"ından bir parça oxudur. Sədi bu parçada deyir ki, ölüb gedənlərdən heç bir xəbər gəlməz, yəni ölənlər təzədən dirilə bilməzlər.

Elə bu anda xəbər yayılır ki, İranda, Nəcəfdə Şeyx Nəsrullah adlı bir ruhani peyda olub, ölüləri dirildir və onun nəfəsi ilə dirilənlərdən biri də ziyarətə gedəndə yolda vəfat edən Kərbəlayi Fətullahdır. O guya kağız yazıb xahiş edib ki, bu yaxınlarda "Şeyx Nəsrullah cənabları oraya ölü diriltməyə gələcək, onu yaxşı qarşılasınlar…"

Şəhərin bir neçə avam hacıları, məşədiləri, kərbəlayıları tökülüb gəlir, "ölüdirildən" Şeyxi» qarşılamaq üçün hazırlıq işləri görürlər. Möminlər təlaşdadırlar: görəsən Şeyx kimlərin ölüsünü dirildəcəkdir?!

Nəhayət, "İsfəhan lotusu" Şeyx Nəsrullah onu "müşayiət edən" fırıldaqçı Şeyx Əhmədlə gəlib çıxır. Lotu Nəsrullah möminlərə qonaq olub, "allahın əmri, şəriətin hökmü ilə gündə bir cavan qız siğə edir". İsfahan lotuları yaxşı bilirlər ki, yalandan da olsa, ölənləri diriltmək məsələsinə gələndə mömin hacılar arasında mübahisə düşəcək və ölü diriltmək baş tutmayacaqdır. Elə də olur. Mömin hacı və məşədilərdən kimisi ölən qardaşının var-dövlətinə sahib olmuş, kimisi arvadını, kimisi anasını döyə-döyə öldürmüş, kimisi cavan qızla evlənmişdir… Siyahı tutulanda mübahisə başlayır. Hamı gedir təzədən fikirləşməyə… ertəsi gün İsfahan lotuları gecə ilə qaçırlar.

Bu qaranlıq mühitdə qaranlıqıar içində bir ulduz parlayır. O da iyirmi iki yaşlı ali təhsilli İsgəndərdir. Tamaşaçı bütün əsər boyu İsgəndəri qaranlığı əridən ildırımlı, şimşəkli qəhqəhələrini, paslanmış beyinlərin paxırını açan ağıllı sözlərini, din və şəriət adından alver edən lotuların maskasını yırtan öldürücü kinayələrini eşidir.

Komediyanın "Ölülər" adlandırılması təsadüfi deyildir. Ölülər dedikdə dramaturq fırıldaqçı "şeyxlərə" aldanan Hacı Həsən, Hacı Baxşəli, Hacı Kərim, Hacı Kazım, Məşədi Oruc, Mir Bağır ağa, Heydər ağa, Əli bəy kimi fanatikləri nəzərdə tutmuşdur. Bunu komediyanın finalında İsgəndərin hacı və məşədilərə dediyi aşağıdakı sözlər də təsdiq edir:

İsgəndərin dili ilə yazıçı camaata müraciət edərək deyir ki, hələ mən heç, indi görək siz kimsiniz? Mənim adım Kefli İsgəndərdir; bəs sizin adınızı nə qoyaq? Mən dağları, daşları, quşları, fələkləri, ayları, ulduzları və dünya-aləmləri bura şahid çəkərəm… soruşaram ki, bu camaata nə ad qoymaq olar? O vədə hamısı bir cavab verər: «ölülər».

Demək, C. Məmmədquluzadənin fikrincə, ölülər yalnız qəbristanda, torpaq altında yatanlardan deyil, sağ ikən ömürlərini cəhalətdə keçirən avvamlar da ölüdürlər. Komediyada tənqid hədəfi olan möminlərin çoxu ikiüzlü, yalançı dindarlardır. "Danabaş kəndinin əhvalatları"nda biz gördük ki, kəndxuda Xudayar bəy olmazın cinayətlər törədəndən və arvadlarını döyüb əzişdirəndən sonra dəstəmaz alıb namaz qılır. "Ölülər"də rast gəldiyimiz mollalar, yalançı din xadimləri də Xudayar bəyin eynisidir. Onlar da belə ikiüzlüdür, riyakardır. Məsələn, Kərbəlayı Vəli ağbirçək anasını, Hacı Baxşəli arvadı Hürinəsini, Mir Bağır ağa arvadı Saranı döyə-döyə öldürmüşlər; Hacı Həsən öz doğma qardaşının var-dövlətinə yiyələnmişdir, Hacı Fərəc qardaşının arvadını alıb, uşaqlarını naxıra göndərmişdir…belə cinayətlərin çoxu da kişilərdə baş verir. Yeri gəlmişkən qeyd edək ki, "Danabaş kəndinin əhvalatları"nda olduğu kimi, "Ölülər"də də qadınlar: Kərbəlayı Fatma, Zeynəb avam, məzlum, yazıq olsalar da, həm də xeyirxah analardır.

Şeyx Nəsrullah ruhani cilidinə girmiş İsfahan lotusudur. Dramaturq bu lotunun fırıldaqçılığı ilə tamaşaçıları əsərin hazırlıq səhnəsində, Şeyx Nəsrullahı hələ səhnəyə gətirmədən əvvəl, onun Məşədi Orucun adına göndərdiyi saxta məktub vasitəsilə tanış edir. Bu saxta məktubda vaxtı ilə ziyarətə gedərkən Xorasanda ölən və orada dəfn edilən Kərbalayı Fətullahın dili ilə deyilir ki, guya Məşhədi-müqəddəsdə Şeyx Nəsrullah adlı bir abid, müstəhid peyda olub. Orda qəriblər qəbristanlığında 115 ölünü təzədən dirildib və guya dirilən ölülərdən biri də Kərbəlayı Fətullahdır. Avamlar bu yalan xəbərə inanır, Şeyxi qarşılamağa hazırlaşır, həm də çox qorxu və həyəcan keçirirlər. Görəsən, "şeyx cənabları" ölüləri necə dirildəcək? Bir də axı ölülər müxtəlifdir, köhnələri var, təzələri var…elə ölülər var ki, onları təzədən dirilb ayağa durması, evinə gəlməsi heç də dirilərin çoxu üçün əlverişli deyildir…

Nəhayət, İsfahan lotusu Şeyx Nəsrullah guya onun müridlərindən biri olan Şeyx Əhmədlə gəlib çıxır. İndi artıq onun lotuluğu, fırıldaqçılığı göz qarşısındadır. Yalançı abid Hacı Həsənin evinə gələr-gəlməz camaatın yanında özünü naxoşluğa vurur, yeməkdən boyun qaçırır, guya onun yediyi gündə bir xurma imiş və guya özünü dünya nemətlərindən məhrum etməklə, ömrünü yalnız ibadətdə keçirməklə yüksək mövqeyə çatmış, ölü diriltmək qüdrətinə malik olmuşdur.

Şeyx avamları inandırmağa çalışır ki, əsil həyat öləndən sonra başlayır. Gərək hər kəs bu dünya üçün yox, axirət dünyası üçün özünə bir gün ağlasın. Axirətdə cənnətə düşmək üçün gərək bu dünyanın bütün nemətlərinə göz yumasan. Bu yalanları uydurandan sonra İsfahan lotusu çoxarvadlığı, çox siğə etməyi təbliğ edir, çünki onun bu şəhərə gəlməkdən əsas məqsədi gündə bir arvad siğə etməkdir. Şeyxin çoxarvadlığı təbliğatı məşədilərin, kərbalayıların, ağalar və bəylərin də xoşuna gəlir, hətta oxumuşlardan bir neçəsi Şeyxi bu sarsaq sözlərinə görə böyük alim hesab edir. Heydər ağa ,eyx Nəsrullah haqqında deyəndə ki, “Maşallah, cənab Şeyx elm dəryasıdır” –, onda “Maşallah olsun şeyxin elminə, malades” deyə Əli bəy də onun sözünü təsdiq edir.

C. Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım xatirələrində qeyd edir ki, 1908-ci ildə “Mirzə Cəlil “Ölülər” pyesini yazırdı. Sonralar o mənə dedi ki, Şeyxin ölü diriltmək əhvalatını uydurmamışdır. Vaxtı ilə İrəvan quberniyasında buna bənzər bir hadisə baş vermişdir. Hadisəni ona qocalar danışmış və pyesdə təsvir edilən sürətlərin Naxçıvanda prototipləri olmuşdur.

Şeyx Nəsrullah və onun müridi Şeyx Əhməd surətlərini yaratmaqda dramaturqun məqsədi yalnız iki nəfər İsfahan lotusunu ifşa etmək olmamışdır. Məqsəd, ümumiyyətlə, müsəlman aləmində milyonlarla xalq kütlələrini əsrlərdən bəri cəhənnəm qorxusu ilə itaətdə saxlayan yalançı ruhaniləri və onların ikiüzlüyünü, fırıdlaqçılığını xalqa tanıtdırmaq idi. Bu məqsədinə görə “Ölülər” baltanı dibindən vuran bir əsər idi”. Nəcəf bəy Vəzirovun dediyi kimi, “Ölülər” bir iki nəfəri yox, bütün cahil şeyxləri və şarlatanları qamçılayan bir əsər idi. Bu məziyyətinə görə Nəriman Nərimanov “Ölülər”i yüksək qiymətləndirərək demişdir: «Artıq dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüş, ideyası inqilabi olan bu dram müsəlman həyatında böyük rollar oynayacaqdır. Paslanmış beyinləri pasdan təmizləyib, ölmüş ruhlara can verəcəkdir».

“Ölülər”də ötən günlərin həyatı, təxminən XIX əsrin ortalarında baş verən bir hadisə göstərilmişdi. Hadisənin baş verdiyi dövrlərdə Azərbaycanda əsrə görə müəyyən mədəni inkişaf da var idi, bu dövrdə hətta mütərəqqi fikirli qabaqcıl adamlar da az deyildi. Lakin Cəlil Məmmədquluzadənin “Ölülər”i yazmaqda məqsədi milli həyatın müsbət cəhətlərini göstərmək deyil, mədəni inkişafa, müasirləşməyə əngəl olan mövhumatı, cəhaləti qamçılamaq, cəmiyyətin qaranlıq guşələrini göstərmək idi. Bu həmin qaranlıq guşə idi ki, ədib xatirələrində onu yada salıb, “gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlıq görmüşəm” demişdi və “Ölülər”də cəmiyyətin bu qaranlıq aləmini əks etdirmişdi.

Yuxarıda da qeyd etdiyimiz kimi bu qaranlıq mühitdə parlayan ulduzlardan biri İsgəndərdir. Komediyanın ilk səhnəsində İsgəndərin və atasının sözlərindən öyrənirik ki, İsgəndər də balaca qardaşı Cəlal kimi uşaqlıqda fanatiklər mühitində böyümüş, məktəb yaşına çatanda o da Mirzə Hüseyn kimi müəllimlərdən dərs almış, Sədinin "Gülüstan"ı ilə tanış olmuşdur. Sonra Firəngistana gedib 10 il orada oxumuş, Avropa həyatı və məişəti ilə tanış olmuş və təhsilini başa vurmuşdur. Vətənə qayıdanda İsgəndər yenə həmin qaranlıq güşəyə, həmin fanatiklər mühitinə düşür. Elə bir mühitə düşür ki, burada özünün dediyi kimi: «hər kəsin elmi var, hörməti yoxdur, hər kəsin hörməti var, onun da elmi yoxdur…»

Tamaşaçı da səhnədə İsgəndərin dediyi bu sözlərin həqiqət olduğunun şahidi olur, görür ki, bu avam məşədi də kərbəlayılar mühitində ən ağıllı adam olan İsgəndərin heç bir hörməti yoxdur, burada onu heç kəs adam yerinə qoymur. Atası onu "məlun", anası "ağılsız", hacılar, məşədilər, şeyxlər onu "ədəbsiz", "mürtəd", oxumuşlar da onu "ədəbi tərbiyəsi ilə pozulmuş", "müsəlmançılıqdan çıxmış" avara bir adam hesab edirlər. Bunun əksinə, fanatiklər mühitində fırıldaqçı bambılıları ən hörmətli adam sayırlar, çünki şeyxdirlər, ruhanidirlər. Fırıldaqçılar və avamlar mühitində arvadını döyüb öldürən Mir Bağır ağaya xüsusi ehtiram göstərilir, çünki o seyiddir.

Fanatiklər mühitində İsgəndər heç bir xeyirli iş görə bilmir, ağıllı, savadlı olduğu halda, artıq adama çevrilir. İsgəndər avamlar mühiti ilə barışa bilmədiyi kimi, hakim dairələrlə, divan əhli ilə də barışa bilmir. Atasının sözləri ilə desək, İsgəndəri divanxanalarda heç mirzəliyə də götürmürlər.

İsgəndər düşdüyü mühitin eybəcərliklərinə dözə bilmir, vətəndaşlarını, ata-anasının, bacı-qardaşının zəmanəyə görə çox geridə qalması ona böyük dərd olur. Başqa bir imkanı olmadığından gülüş, kinayə ilə tərəfindəkilərə təsir etməyə çalışır. Bu gülüş hədəfindən asılı olaraq bəzən qəzəbli satiraya, bəzən də tərbiyəedici yumora çevrilir. Məsələn, İsgəndər 12 yaşlı bacısı Nazlı ilə çox mehribandır. O, Nazlının xalalarından "ərə getmək dərsi" öyrənməsinə gülür, lakin eyni zamanda Nazlının gələcəyini düşünür, kinayələri ilə onu köhnəpərəstlərin təsirindən uzaqlaşdırmağa çalışır.

İsgəndər anası Kərbəlayı Fatma ilə də mülayim rəftar edir, mövhumat azarına tutulmuş anasına yazığı gəlir. Bu azarı ona əri Hacı Həsən daha kəskin təlqin edibdir. Əsərdə İsgəndərin anası Kərbəlayı Fatma əllərini göyə qaldırıb Allaha yalvarır, ağlayıb deyir:

- Ey yeri-göyü yox yerdən yaradan Allah! Məni il yarımdır ağlar qoyubsan, gülüzlü qızımı əlimdən alıbsan, mənim ciyərimə dağ basıbsan! Ay rəhim Allah, mən səndən istəyirəm soram! Ay Kərbəlayı Fətullahı dirildən Allah! Mənə də rəhmin gəlsin, mənim də qızımı dirilt! Allah! Allah! Allah!...

Anasının dua etdiyi zaman içəri girən İsgəndər bu mənzərəni görür anasının yanıqlı hıçqırtılarını eşidib kədərlənir, başını aşağı salıb daxili aləminə dalır və ən nəhayət içindən göynəyə-göynəyə "Yazıq ana!... " deyir. Bu iki dörd hecalı söz həyat

və insan haqqında kədərli bir hekayətin başlanğıcıdır. İsgəndər elmi, təhsili ilə bütün bu hadisələri görsə də, təsir edə bilmir, avamlığın qarşısına keçə bilmir. Bu hekayətin ilk sətrini Hacı Həsən yazır, qatı mövhumatçı olan ata oğlu ilə heç vaxt razılaşmır. Əsərdən də göründüyü kimi İsgəndər anasına və bacısına nisbətən atası ilə rəftarında valideynə hörmət sərhəddini keçir. Bu işdə İsgəndəri qınamaq olmaz, o, kiçik yaşlı bacısı Nazlını Şeyx Nəsrullaha ərə verməyə hazırlaşan atasına heç bir ədəb-ərkan gözləmədən deyir: "Ata, deyəsən axı sən dəli olmusan?"

Üçüncü səhnədə – qəbristanlıqda iki düşmən üz-üzə gəlir. Hacılar, kərbalayılar, məşədilər ölüləri diriltmək haqqında qəti bir qərara gəlməyib, bir-bir fikirləşməyə gedirlər. Elə bu zaman İsgəndər gəlir. Onun öldürücü qəhqəhələrini eşidən şeyxlər özlərini yığışdırıb, əkilib getmək istəyəndə İsgəndər Şeyx Nəsrullahın qabağını kəsir.

Şeyx Nəsrullah İsgəndərin odlu silahdan da kəskin olan kinayələri, atmacaları qarşısında məğlub olur və bu 22 yaşlı gəncin onunla artıq qəti döyüşə girdiyini görüb, elə həmin gecə Şeyx Əhmədlə bərabər gizlincə şəhərdən çıxıb qaçır.

Ədib "Ölülər" əsərində iştirak edənlərin çoxunu komediya janrının tələblərinə uyğun olaraq komik vəziyyətdə göstərilmişdir. Belə ki, tiplərin çoxu öz hərəkətləri ilə özlərinə qarşı gülüş doğururlar, tamaşaçı onların avamlılığına, cəhalətpərəstliklərinə gülür. İsgəndərin isə əsərdəki mövqeyi və vəziyyəti tamamilə başqadır. İsgəndər öz hərəkətləri və sözləri ilə tamaşaçıda özünə qarşı gülüş doğurmur, əksinə o özü eybəcərliyə gülür, həm də tamaşaçı ilə birlikdə dramaturqun özü ilə bərabər avamlığa gülür, nifrət edir, qəzəblənir. İsgəndər çox hallarda da vətəndaşlarının geridə qaldığını görüb kədərlənir, tamaşaçını da həm güldürür, həm də qəm-qüssəyə salır.

Digər bir tərəfdən o, sanki avamlara ibrət dərsi vermək üçün doğulmuş cəsur bir ifşaçıdır, arzuları gözündə qalan bir gəncdir. İsgəndər mühitin eybəcərliyini və onu əhatə edən fanatiklərin rəzilliyini başa düşsə də, bu mühiti dəyişdirmək iqtidarından mərhumdur, çünki o, təkdir, köməksizdir, səsinə səs verən yoxdur. Ən böyük faciənin biri də elə budur. Heç kəs onu başa düşmür, balaca bacı-qardaşlarından başqa heç kəs ona rəğbət bəsləmir. Bütün fanatiklərin nəzərində İsgəndər dinə xələl gətirən zərərli bir adamdır. Avamların hökmündə olsa, onu daşqalaq edib öldürərlər. Yalnız şəhərin mötəbər hacılarından birinin oğlu olması İsgəndəri açıq hücumlardan qoruyur.

Bununla yanaşı İsgəndər özü də nöqsansız deyildir. Dərd ona üstün gələndə zəiflik göstərir, şərabla qəmlərini dağıtmağa çalışır. Lakin, o, öz zəifliyini də cəsarətlə boynuna alır və bu hala düşməsinin səbəblərini dəlillərlə izah edir və bu əsərin finalında aydınlaşır. İsgəndər, İsfahan lotusuna inanan, onu müqəddəs hesab edən, nəticədə isə peşiman olan avvamları kəskin şəkildə tənqid etdikdən sonra özü haqqında da "Mən heç bir şeyəm. Mən çöllərin otuyam, küçələrin torpağıyam, dağların daşıyam, kolların kosuyam, ağacların qurduyam. Mən dünyada heç bir şeyəm. Əgər mən bir şey olsaydım, cibimdən bir bomda çıxarıb, bu evi bir saniyənin

içində havaya dağıdıb, İsfahan lotusunu torpaqların altında diri-diri dəfn edərdim. Amma qorxmayın, mənim əlimdən elə şeylər gəlməz. Bu araq şüşəsidir və Şeyx Nəsrullah burada gecələr bu balaca uşaqları boğanda, mən bu şüşədən araq içərdim. Yox, yox, o mənim işim deyil, o igid işidir. Siz tək camaatın da igidi mənim tək olar!" deyə özünü ifadə edir.

İsgəndər elə bir eybəcərliklə qarşılaşır ki, bu eybəcərliyi top-tüfənglə ləğv etmək mümkün deyildir. Onun düşməni tək-tək adamlar deyil., əsrlərcə milyonların şüurunda kök salmış mövhumat azarı, cəhalət mərəzidir. Bu mövhumat azarını isə ancaq şüurlarda, düşüncələrdə yeni fikirlər oyatmaqla, elmi dünyagörüşünü təbliğ etməklə və köhnəliyə qarşı geniş mübarizə cəbhəsi yaratmaqla sağlatmaq mümkündür. Bu elə bir meydandır ki, orada yalnız bircə nəfər ziyalının gücü ilə qələbə çalmaq olmaz. İsgəndər isə təkdir. Təklik onun birinci faciəsidir.

İsgəndər elə bir mühitə düşmüşdür ki, burada köhnəlik yenilikdən çox-çox qüvvətlidir. Elə bir mühit ki, burada elmə deyil, helmə qiymətverirlər. Elmli korlar güzgüyə baxıb qaş-göz oynadırlar. Bu da İsgəndərin ikinci faciəsidir.

Ağıllı və müasir ruhlu bir gənc olduğu üçün İsgəndər cəhalətə dözə bilmir, yarımçıq "oxumuşlar" olan Heydər ağa və Əli bəy kimi avamlar mühitinə uyğunlaşa bilmir. Bu da onun həyatını faciəyə çevirən üçüncü səbəbidir.

Beləliklə, C.Məmmədquluzadə çox məharətlə komediya içərisində faciə, çılğın qəhqəhələr içərisində göz yaşı dramı yaratmışdır. Bu səbəbə görə də «Ölülər»də ümumi mənzərə həm gülməli, həm də kədərlidir. Bu səbəbə görədir ki, "Ölülər"in hər bir səhnəsində acı bir fəryad qopur. Bu fəryad isə vəziyyəti ağır və sarsıdıcı bir faciə olan İsgəndərin fəryadları, ağıllı bir gəncin göz yaşı içərisində qəhqəhələridir.

Yegana Huseynova

ISKANDER'S FIGHT AGAINST THE "KINGDOM OF DARKNESS".

Mirza Jalil, who started his creativity for the first time with the poetic allegorical work "Chay dastgahi", later moved to the drama genre, which is a complex type of literature. The dramas created by the writer in the first and second decades of the 20th century are new in terms of their themes and ideas, conflicts, subjects and characters, and are within the requirements of that period. This innovation shows how the character of a positive hero is created and formed, what and how he fights against whom. It is also a fact that the dramatic works created on the basis of our classical traditions belonging to the epic became the main genre in Azerbaijani drama and played an important and decisive role in the renewal of its subject area. However, due to the influence of socio-political and spiritual factors of the 20th century, this genre has created fundamental changes in itself, and a positive hero image has been created. This is shown through conflict, character and plot.

Therefore, the drama works of J. Mammadguluzadeh have been the focus of the literary critics, and they have talked about the main features of the drama and said that, unlike the epic, the drama consists of showing certain tired characters and their actions without the author himself narrating, safely showing them independently in their own speech and actions. In the drama, the author himself manifests himself in the explanations given to the text, in giving a brief characterization of the circumstances and the positive hero shown in the action. There is no author's word in the scene exposure. Characters that are not related to the subject and act on behalf of the author in a way ("leading") can also be included in the drama, but in this case, the positive and negative hero who speaks and plays on the stage is given through a concrete character.
Key words: Adib, Iskander, work, ignorant, dramaturgy

Эгана Гусейнова

БОРЬБА ИСКАНДЕРА С "ЦАРСТВОМ ТЬМЫ".

Мирза Джалил, начавший свое творчество впервые с поэтического аллегорического произведения «Чай дастгях», в дальнейшем перешел к жанру драмы, представляющему собой сложный вид литературы. Драмы, созданные писателем в первом и втором десятилетиях XX века, новые по своей тематике и идеям, конфликтам, сюжетам и персонажам и соответствуют требованиям того времени. Это новшество показывает, как создается и формируется характер положительного героя, с чем и как он борется против кого. Фактом также является то, что драматические произведения, созданные на основе наших классических традиций, принадлежащих к эпосу, стали основным жанром в азербайджанской драматургии и сыграли важную и решающую роль в обновлении ее предметной области. Однако под влиянием социально-политических и духовных факторов XX века этот жанр произвел в себе кардинальные изменения, сформировался положительный образ героя. Это показано через конфликт, характер и сюжет. Поэтому драматические произведения Дж. Мамедгулузаде были в центре внимания литературоведов, и они говорили об основных чертах драмы и сказали что, в отличие от эпоса, драма состоит в том, чтобы показывать определенных утомленных персонажей и их действия без автор сам повествует, благополучно показывая их самостоятельно в собственной речи и действиях. В драме сам автор проявляет себя в пояснениях к тексту, в краткой характеристике обстоятельств и показанного в действии положительного героя. В экспозиции сцены нет авторского слова. Образ, не относящиеся к сюжету и действующие от имени автора в образе («ведущие»), также могут быть включены в драму, но в этом

случае дается положительный и отрицательный герой, говорящий и играющий на сцене. через конкретный образ.

Ключевые слова:Адиб,Искандер,произведение,невежественный, драматургия.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT:

1. Camalov Kamal, Mollanəsrəddinçilərin maarifçilik ideyaları,Elm və təhsil, Bakı, 2015
2. Həbibbəyli İ.,Cəlil Məmmədquluzadənin həyatı, Bakı, 1996
3. Məmmədquluzadə Cəlil, Əsərləri, I cild, Öndər nəşriyyatı, Bakı, 2004
4. Məmmədquluzadə, Seçilmiş əsərləri, dörd cilddə, Öndər nəşriyyatı, Bakı, 2004
5. Məmmədquluzadə Həmidə və Cəlil, Məktublar, Bakı, 1994

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: prof. Bədirxan Əhmədov
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏHMƏDOVA AYGÜN ŞÜKÜR QIZI
(ahmadovaa708@gmail.com)
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ü.Hacıbəyov-68)

ABDULLA ŞAİQİN ƏDƏBİ YARADICILIĞI

Açar sözlər: *möcüzə, örnək, rəvan, avam, qafiyə, folklor*
Ключевые слова: *чудо, пример, гладко, невежда, рифма, фольклор*
Key words: *miracle, example, smoothly, simpleton, rhyme, folklore*

Azərbaycan uşaq ədəbiyyatının maraqlı simalarından sayılan Abdulla Şaiq XX əsrin 20-ci illərində uşaq ədəbiyyatına maraqlı və yadda qalan yaradıcılığı ilə daxil olmuşdur. Yaradıcılıq səhifələrinə maraqlı mövzular seçərək, uşaqların vətənpərvər və mədəni ruhda yetişməsinində böyük rolu vardır. XX əsr Azərbaycan ədəbiyyatı tarixində, xüsusilə də uşaq ədəbiyyatının təşəkkülü və inkişafında böyük xidmətləri olmuşdur. Görkəmli şair, nasir, dramaturq, ədəbiyyatşünas alim, maarifpərvər ziyalı Abdulla Şaiqin həm ədəbi, həm də elmi-nəzəri irsi geniş məzmuna malikdir.

Ümummilli lider Heydər Əliyev A.Şaiqin çoxşaxəli fəaliyyətinin böyük bir qisminin Azərbaycanda maarifçiliyin müxtəlif sahələri ilə bağlı olduğunu dəfələrlə dilə gətirmişdir. Eyni zamanda yazıçının pedaqoji fəaliyyətinimilli təhsilimizin yeni yüksəlişi və yenimərhələ tarixi kimi dəyərləndirmişdir.

Ədibin kifayət qədər nəsr əsərləri olsa da, sözünü, hislərini balaca oxucularına çatdıra biləcəyini dilə gətirərək, poeziya sahəsində də yaradıcılığına böyük və təkirar olunmaz yer vermişdir. Uşaq ədəbiyyatı tədqiqatçıları Abdulla Şaiqin bu fəaliyyətini möcüzə kimi qiymətləndirmişlər.

Abdulla Şaiq uşaqların oxu vərdişlərinin inkişaf etməsində, bədii ədəbiyyatın rolunu əvəzsiz mənbə kimi dəyərləndirirdi.

M.F.Axundovdan sonra dramaturgiya janrının inkişafı tarixində böyük rolu olan S.S.Axundov "Tənqid-təbliğ teatrı" yaratmaqla dramaturgiya janrına yeni bir nəfəs verdi. Abdulla Şaiqin isə uşaq dramaturgiyasının yaranma tarixində fəaliyyəti uşaq ədəbiyyatının yeni inkişaf və tarixi dövrü oldu.

Bir-birinin ardınca yazdığı maraqlı və yadda qalan uşaq dramları, uşaq ədəbiyyatının ədəbi irsində ən gözəl nümunələrdir.

1906-cı ildə Abdulla Şaiqin, kitab nəşri sahəsində böyük xidməti olmuş Orucov qardaşları mətbəəsində ərəb əlifbası ilə çap edilmiş "İki uşaq" mənzum hekayəsi, Azərbaycan uşaq ədəbiyyatının önəmli səhifələrindən biri kimi qorunur.

Abdulla Şaiqin yaradıcılığında fərqlilik və özünəməxsus təfəkkür, yazıçının "tərtibi metodika"nı dərindən bilməsi idi.

On altı səhifəlik "Uşaq çeşməyi" kitabı kiçik yaşlı uşaqların bilik səviyyəsinə uyğun hazırlanıb. "İkinci il", "Gülşəni-ədəbiyyat", "Gülüzar", "Milli qiraət", "Qiraət kitabı", "Müntəxabat", "Türk çələngi", "Ədəbiyyat", "Türk ədəbiyyatı", "Gülşəni ədəbiyyat" adlı dərsliklərdə, Azərbaycan klassiklərinin həyatı və yaradıcılığı haqqında məlumatlar, eyni zamanda Abdulla Şaiqin öz əsərləri və dünya ədəbiyyatından örnəklər və parçalar verilib.

Uşaqlar üçün yazılan hekayə və pyeslər, mənzum romanlar, təmsillər, xalq nağıllarından alınmış mənzum nağıllarla yanaşı, Azərbaycan mətbuatının ən dəyərli və qiymətli nümunələri hesab olunan – "Dəbistan", "Rəhbər" "Molla Nəsrəddin", "İrşad", "Məktəb", "Nicat", "Həqiqət", "İnqilab", "Açıq söz", "Şərq qadını" kimi dövri nəşrlərdə dərc edilmiş əsərləri, məktubları, ədəbi-tənqidi və publisistik məqalələri gələcək nəsli həqiqətə, fədakarlığa, vətənpərvərlik ruhunda yetişmələrinə və qələmə aldığı əsərlərinin vasitəsi ilə bir istiqamətdə görmüşdür.

Canlılara, ətraf aləmə həmişə qayğı ilə yanaşmağı, təbiəti sevməyi və onu qorumağı, qayğısını çəkməyi insanlıq borcu kimi uşaqlara aşılayan və anladan ədibin humanizmi, ülvi düşüncələri şeirlərində, hekayələrində, dram əsərlərində, ümumilikdə bütün yaradıcılığında maraqlı çalarlarla qarşımıza çıxır.

Uşaqlar üçün yazdığı maraqlı və oxunaqlı əsərləri, həm poeziya sahəsində, həm də nəsr sahəsində mövzu əlvanlığı ilə müxtəliflik təşkil edir. Ədib şeirlərində bir sıra heyvanların adını sadalayır, sonra da onların həyat tərzi barədə uşaqlarda müəyyən təsəvvür oyadır. Abdulla Şaiq ilin fəsillərinin özünəməxsus gözəlliyini təsvir etmək üçün təbiət təsvirinə tez-tez müraciət edir. Keçirdiyi hiss və həyacanı əsərlərinin leytmotivinə çevirə bilir. Təbiətin gözəl fəsli olan baharın ətirli çəmənlərini, qaynayıb-coşan ilıq nəfəsini, qızıl payızın bərəkətini, eləcə də qış fəslinə aid olan maraqlı süjetlər dərin ekspressiya gücünə malik oluduğunu ədibin təbiət təsvirlərində görürük. Heyvanlar haqqında Abdulla Şaiqin yazdığı şeirlərə nəzər saldığımızda, bir bütövlük görürük. "Xoruz", "Keçi", "Yetim cücə", "Bir quş", "Quzu", "Uşaq və dovşan", "Arı", "Kəpənək" kimi şeirlər canlı təsvirin vəhdətidir.

Abdulla Şaiqin canlı təsvirləri içində güllər aləminə səyahət çox maraqlı və rəngarəngdir. Bənövşə, Qərənfil, Qızıl gül, "Zanbaq", "Uşaq və bənövşə" kimi çiçək təsvirləri maraqlı nümunələrdir.

Fəsillərin təsvirlərinə həsr olunan şeirlərdə şair, çox gözəl məna daşıyan ifadələr işlədir. Şairin fikriycə "təbiətdə gözəllik ölmür, şəkildən-şəkilə düşür. Təbiətin gözəlliklərini sevib, qorumaq lazımdır".

"Payız gecəsi", "Payızın son ayı", "Payız", "Bahar", "Yağış", "Qışın nəğməsi", "Yay" kimi maraqlı şeirlərdə fəsillərin təsvir gücü maraqlı və yadda qalandır.

Abdulla Şaiq yaradıcılığında nəsr dili son dərəcə rəvan və təbiidir. "Murad", "Şələquyruq", "Timsah ovu", "Oyunçu bağalar", "Usta Bəxtiyar", "Bostançı", "Üç it", "Meşə gözətçisi" və s. kimi hekayələr də mənəvi əxlaqi dəyərlər üstünlük təşkil edir.

Mənzum hekayələr silsiləsi ədibin yaradıcılığında fərqli səhifə açır. Uşaqlar üçün maraqlı mövzular seçən yazıçı, onların zövqünə uyğun mövzularda əhvalatların mənalandırılmasına diqqət yetirərək, oxucuları üçün uşaq xəyalı kimi şirin görünən obrazlar yaradır. "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa", "Cəfər və Bəşir", "Tapdıq dədə", "Ovçu Məstan", "Sehirli üzük", "Nüşabə", "Sultan Səncər və qarı" kimi mənzum hekayələr uşaqların yaş psixologiyasına uyğun şəkildə təsvir olunur.

Yuxarıda qeyd etdiyimiz kimi, Abdulla Şaiq yaradıcılığı uşaq dramaturgiyasının yaranma tarixidir. Bir-birindən fərqli mövzularla seçilən ədibin dram əsərləri, Azərbaycan uşaq ədəbiyyatında mühüm yer tutur. Dram əsərlərində müəllif sağlam düşüncəyə yer verərək, balaca oxucularına həm gülməli, eyni zamandada onları düşündürməyə vadar edən obrazlarla qarşılaşdırır. Ədib sadə və şirin təsvirləri içərisində maraqlı lövhələr yaradaraq, oxucu və əsər arasında heç bir ziddiyyət yaratmır. Çünkü, Abdulla Şaiq uşaqlar üçün yazdığı əsərlərində həqiqəti nağıla çevirməyi bacarır. Bu hekayə və nağıllarda əlvan obraz və tipik hadisələr müşahidə olunur.

"Gözəl bahar", "Bir saat xəlifəlik", "Danışan kukla", "Xasay", "Eloğlu", "Vətən", "Fitnə" kimi dram əsərləri, ədibin yaradıcılıq yolunda oxucularında yazıçıya qarşı maraq hissləri yaradır.

Uşaq ədəbiyyatında dilin aydınlığı və sadəliyi, lakoniklik və təbiilik, şeriyyət və bədiilik mühüm amildir. Təbiiki Abdulla Şaiq bütün əsərlərində bu məsələlərə diqqət yetirmiş sənətkarlıq baxımından əsərlərində bədiiliyi qoruyub saxlaya bilmişdir. Buna görə də Abdulla Şaiq yaradıcılığı təkrar olunmaz bir ustad yaradıcılığıdır.

Ədibin yaradıcılığında təmsil janrına da rast gəlirik. Folklor mövzularından bədii vasitə kimi istifadə edən Abdulla Şaiq xalqdan aldığı əfsanə, rəvayət və nağıllarına müasirlik prinsipləri əlavə etdiyinə görə həmin əsərlər cazibədarlığı, emosionallığı və başqa səciyyəvi keyfiyyətlərinə görə bu günün oxucu kütləsinin tələblərini ödəyə bilir.

"Tülkü və aslan", "Aslan, qurd və tülkü", "Tülkü və qurd", "Tülkü və dəvə" və s. təmsillərində aktual mövzular seçən ədib, mərdlik və namərdlik kimi iki zidd qarşılaşmaları müxtəlif hadisələr fonunda ümumiləşdirir, acgöz, bacarıqsız, yalançı, hiyləgər, yaltaq, avam kimi sifətləri tənqid etmişdir.

Abdulla Şaiq uşaqlar üçün yazdığı şeirlərində konkretliyi və aydınlığı saxlayır, uşaqlarla onların dilində danışır, fakt və hadisələri uşaq yaşlarına uyğun şəkil də ifadə edir. Az sözlü misralar, qoşa misralarda müvəffəqiyyətlə seçilmiş qafiyələr onun uşaq şeirləri üçün xarakterik cizgilərdəndir.

"Layla", "Top oyunu", "Təmizlik", "Vətən nəğməsi", "Bağça", "Səhər", "Oyan, oğlum", "Məktəbdə", "Yetim", "Qonaqlıq", "Kür çayı", "Ana yurdum", "Tonqal", "Övlad qayğısı", "İdman nəğməsi" və s. kimi maraqlı və yadda qalan uşaq şeirləri oxucu kütləsinin maraq dairəsinə uyğun şəkildə yazılmışdır.

Təmsil janrında Abdulla Şaiqin rolu. Təmsil janrının yaranma tarixinə diqqət yetirsək, Azərbaycan uşaq ədəbiyyatının ən maraqlı bölümü sayılan təmsil janrı uzun bir yol keçmiş və hələdə maraqlı bir şəkildə yolunu davam etdirməkdədir.

Başlanğıc olaraq təmsil janrı, sonralar qədim və orta əsr klassik ədəbiyyatında, yeni və müasir dövr Azərbaycan ədəbiyyatında özünü büruzə vermişdir. Belə ki, klassik sənətkarlar çox zaman mənəvi-psixoloji, ictimai-siyasi, fəlsəfi düşüncələrini antik mifologiyadan, Şərq və Qərb folklorundan aldıqları mövzu və süjetlər, obrazlar vasitəsilə ifadə edərək əsərlərinin mövzusunun əxlaqi-didaktik əhəmiyyətini daha da qüvvətləndirmişlər. Bu baxımdan təmsil janrı hər dövrün şair və yazıçıları üçün fikirlərini ifadə etmək vasitəsi olub, əlverişli üsullardan biri hesab edilmişdir.

Azərbaycan ədəbiyyatında təmsil janrının qədimliyi N.Gəncəvinin "Sirlər xəzinəsi", "İsgəndərnamə" poemaları ilə bağlıdır.

XIX əsrin birinci yarsında A.Bakıxanov və Q.b.Zakir yaradıcılığında mükəmməl təmsil janrına rast gəlirik. Müxtəlif mövzulardan ibarət olan bu təmsillər, məzmunu və sadə dili ilə yaddaqalan, eyni zamanda obrazların əxlaqi sifətləri və xarakterik xüsusiyyətləri ilə bədii təfəkkürün məhsulu kimi qeyd olunur.

XIX əsrin ikinci yarsında S.Ə.Şirvani yaradıcılığında müxtəlif məzmunlu təmsil janrı dövrün tələbləri ilə uyğunlaşaraq milli uşaq ədəbiyyatının yaranması və inkişafı üçün bir vasitə idi.

XX əsrin əvvəllərində M.Ə.Sabir, R.Əfəndiyev, S.M.Qənizadə, A.Səhhət və A.Şaiq kimi maarifçi ziyalılar, təmsil janrına yenilik gətirdilər. Milli mətbuatda nəşr olunan müxtəlif mövzulu təmsillər tərcümə ədəbiyyatına da təsir göstərdi. İ.Krılovdan tərcümələr uşaq ədəbiyyatının mövzu baxımından zənginləşməsinə gətirib çıxartdı.

Abdulla Şaiqin dünyagörüşünün və yaradıcılığının formalaşmasında Xorasanda ona dərs deyən müəllim Yusif Ziyanın böyük rolu olmuşdur. Abdulla Şaiq bədii tərcüməyə gənc ikən Xorasanda başlayır. Onun ilk naliyyəti Krılovun "Sazəndələr" təmsilini rus dilindən fars dilinə tərcümə etməsi ilə başlayır.

İlk yaradıcılıq naliyyətini müəlliminə göstərdiyində, Yusif Ziya təcüblə "de görüm, sən farssan, ya azərbaycanlı?" Müəlliminin bu sualı onun həyatında yeni bir dönüş nöqtəsi olur.

Abdulla Şaiq rus dilini Tiflis Ruhani İdarəsinin nəzdindəki altıillik məktəbdə öyrənmişdi, daha sonralar dil bilgisini inkişaf etdirmək üçün ancaq rus dilində kitabların olduğu şəxsi kitabxananı satın alır və hər şey bundan başlayır... Krılovun uşaqlar üçün yazdığı təmsillərin böyük əksəriyyətini məhz o, ana dilinə çevirir, Avropa klassiklərinin əsərlərindən parçalar tərcümə edir.

Təmsil janrının və tərcümə ədəbiyyatının inkişafında, Abbas Səhhətdən sonra Abdulla Şaiqin yaradıcılıq yolu danılmazdır.

Müasir dövürdən fərqli olaraq, klassik dövürdə yaranan təmsillər həcimcə kiçik deyildir. Təmsilin əsas xüsusiyətləri tənqidi, satirik və dərin məna daşımasıdır. Təmsil müəlliflərinin əsas məqsədi insanlara xas olan nöqsanları, eyibləri, ayrı-ayrı

əşya, bitki və heyvanların timsalında əks etdirməkdir. Təmsildə təbiət cisimləri və heyvanlar şəxsləndirilir – insan kimi danışdırılır. Ədəbiyyatşünaslıqda buna təxşis deyilir. Təmsil əxlaqi-tərbiyəvi və nəsihətli səciyyə daşıyır. Adətən, təmsilin sonunda müəllif öz fikrini kiçik nəsihət şəklində bildirir. Məsələn, Abdulla Şaiqin "Tülkü və Aslan" təmsilinin sonunda belə bir əxlaqi-tərbiyəvi fikir bildirilir.

Dedi tülkü:-tələsmə, ey nadan,
Quyruğundan yeyə-yeyə əlan,
Başına da yavaş-yavaş çataram,
Qan içən kəllənə zəhər qataram.

Abdulla Şaiqin dünyagörüşünün və yaradıcılığının formalaşmasında Xorasanda ona dərs deyən müəllim Yusif Ziyanın böyük rolu olmuşdur. Abdulla Şaiq bədii tərcüməyə gənc ikən Xorasanda başlayır. Onun ilk naliyyəti Krılovun "Sazəndələr" təmsilini rus dilindən fars dilinə tərcümə etməsi ilə başlayır.

Təmsil janrı əsasən nəzmlə yazılır. Dünya ədəbiyyatında nəsrlə yazılmış təmsillər də vardır. Bir fikri də qeyd etmək istərdim ki, təmsillərdəki qəhrəmanlar, (heyvan və bitkilər) insanların xüsusiyyətlərinə bənzədilmişdir.

Təmsil janrı, Abdulla Şaiq yaradıcılığının bir qismini təşkil edir. "Tülkü və xoruz", "Dəvə və siçan", "Arı və eşşək", "Arı və kəpənək", "Tülkü və dovşan," "Hacıleylək və sərçə", "Tülkü və dəvə", "Dəvə, tülkü və qurd", "Tülkü və aslan", "Tülkü və qurd"," Aslan, qurd, tülkü".

Abdulla Şaiqin təmsillərində iki xüsusiyyət vardır: tənqid və nəsihət. Onun təmsillərinin bir çoxu öz dövrünün ictimai nöqsanlarını, ayrı-ayrı hadisələri və tək-tək adamları tənqid edərək. 1908-ildə qələmə aldığı "Aslan, Qurd və Tülkü" təmsilində şair, 1905- il inqilabından sonra baş verən hərc-mərcliyi tənqid etmişdir.

Abdulla Şaiqin yaradıcılığı, balaca oxucuların hər zaman maraq dairəsində olmuşdur. Heyvanlar ailəminə qarşı zəngin bir mənzərənin tablosunu yaradaraq, bir məqsəd qarşıya qoymuşdur. "Düz olmaq, hiylədən uzaq durmaq, yalan danışmamaq, zülm etməmək, yoxsula əl uzatmaq".

Ədibin yaradıcılığında təmsilin ruhu uşaqlarımızın zövqünə uyğun olduğu üçün, hələ də ədəbiyyatımızda öz marağını və yerini qorumaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdulla Şaiq, 3- cild. Bakı-1960, 477s
2. Azərbaycan xalq əfsanələri, Bakı-1985. Sədiq Paşa Pirsultanlı
3.Dünya uşaq ədəbiyyatı kitabxanası, Bakı-1985

A.Əhmədova

Abdulla Şaiqin ədəbi yaradıcılığı

XÜLASƏ

Azərbaycan uşaq ədəbiyyatının maraqlı simalarından sayılan Abdulla Şaiq XX əsrin 20-ci illərində uşaq ədəbiyyatına maraqlı və yadda qalan yaradıcılığı ilə daxil olmuşdur. Yaradıcılıq səhifələrinə maraqlı mövzular seçərək, uşaqların vətənpərvər və mədəni ruhda yetişməsinində böyük rolu vardır. XX əsr Azərbaycan ədəbiyyatı tarixində, xüsusilə də uşaq ədəbiyyatının təşəkkülü və inkişafında böyük xidmətləri olmuşdur. Görkəmli şair, nasir, dramaturq, ədəbiyyatşünas alim, maarifpərvər ziyalı Abdulla Şaiqin həm ədəbi, həm də elmi-nəzəri irsi geniş məzmuna malikdir.

Uşaq ədəbiyyatında dilin aydınlığı və sadəliyi, lakoniklik və təbiilik, şeriyyət və bədiilik mühüm amildir. Təbiiki Abdulla Şaiq bütün əsərlərində bu məsələlərə diqqət yetirmiş sənətkarlıq baxımından əsərlərində bədiiliyi qoruyub saxlaya bilmişdir. Buna görə də Abdulla Şaiq yaradıcılığı təkrar olunmaz bir ustad yaradıcılığıdır.

Abdulla Şaiqin dünyagörüşünün və yaradıcılığının formalaşmasında Xorasanda ona dərs deyən müəllim Yusif Ziyanın böyük rolu olmuşdur. Abdulla Şaiq bədii tərcüməyə gənc ikən Xorasanda başlayır. Onun ilk naliyyəti Krılovun "Sazəndələr" təmsilini rus dilindən fars dilinə tərcümə etməsi ilə başlayır.

Abdulla Şaiqin yaradıcılığı, balaca oxucuların hər zaman maraq dairəsində olmuşdur. Heyvanlar ailəminə qarşı zəngin bir mənzərənin tablosunu yaradaraq, bir məqsəd qarşıya qoymuşdur. “Düz olmaq, hiylədən uzaq durmaq, yalan danışmamaq, zülm etməmək, yoxsula əl uzatmaq”.

А.Ахмедова

Литературное творение Абдуллы Шаига

РЕЗЮМЕ

Абдулла Шаиг, считающийся одним из интересных деятелей азербайджанской детской литературы, вошел в детскую литературу в 20-х годах 20 века своим интересным и запоминающимся творчеством. Выбирая интересные темы для творческих страниц, он играет большую роль в воспитании детей в патриотическом и культурном духе. Он внес большой вклад в историю азербайджанской литературы 20 века, особенно в становление и развитие детской литературы. Литературное и научно-теоретическое наследие выдающегося поэта, писателя, драматурга, литературоведа, просвещенного интеллигента Абдуллы Шаига имеет широкое содержание.

В детской литературе важными факторами являются ясность и простота языка, лаконичность и естественность, шариат и художественность. Безусловно, Абдулла Шаиг уделял внимание этим вопросам во всех своих работах и сумел сохранить художественность в своих произведениях. Поэтому работа Абдуллы Шайка – это неповторимая мастерская работа.

Большую роль в формировании мировоззрения и творчества Абдуллы Шаига сыграл учитель Юсиф Зия, обучавший его в Хорасане. Абдулла Шаик начал литературный перевод еще в молодости в Хорасане. Его первое достижение начинается с перевода пьесы Крылова «Композиторы» с русского языка на персидский.

Творчество Абдуллы Шаига всегда вызывало интерес у юных читателей. Животные поставили перед собой цель, создав картину богатого пейзажа для моей семьи. «Честно говоря, держаться подальше от обмана, не лгать, не притеснять, не дотягиваться до бедных».

A.Ahmedova

Literary creation of Abdulla Shaig

SUMMARY

Abdulla Shaig, who is considered one of the interesting figures of Azerbaijani children's literature, entered the children's literature in the 20s of the 20th century with his interesting and memorable creativity. By choosing interesting topics for creative pages, it has a great role in raising children in a patriotic and cultural spirit. He made great contributions to the history of Azerbaijani literature in the 20th century, especially in the formation and development of children's literature. The outstanding poet, writer, dramatist, scholar of literature, enlightened intellectual Abdulla Shaig's literary and scientific-theoretical heritage has a wide content.

In children's literature, the clarity and simplicity of the language, laconicity and naturalness, sharia and artistry are important factors. Of course, Abdulla Shaig paid attention to these issues in all his works and was able to preserve the artistry in his works. Therefore, the work of Abdulla Shaik is an unrepeatable master's work.

Teacher Yusif Ziya, who taught him in Khorasan, had a great role in the formation of Abdulla Shaig's outlook and creativity. Abdulla Shaiq started literary translation when he was young in Khorasan. His first achievement begins with the translation of Krylov's play "The Composers" from Russian into Persian.

Abdulla Shaig's creativity has always been of interest to young readers. Animals have set a goal by creating a picture of a rich landscape for my family. "To be honest, to stay away from deception, not to lie, not to oppress, not to reach out to the poor."

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Ülkər Baxşıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLIYEVA TƏRLAN ƏLIŞ QIZI
ADPU-nun Ağcabədi filialının baş müəllimi
terlan.eliyeva@agcebedi.adpu.edu.az

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRİN İNTERPRETASİYASI. ŞƏRHETMƏNİN METODİK İMKANLARI

Xülasə

Məqalədə ədəbiyyat dərslərində bədii mətnlərin dolğun şərhi və bu prosesin sənət əsərlərinin qavranılmasıda nə qədər əhəmiyyətli və vacib olması faktına toxunulur, həmçinin müasir ədəbiyyat dərslərinin emosional mühitinin, intellektual səviyyəsinin, şagirdlərin müstəqillik və fəallığının yüksəldilməsi istiqamətində uğurlu addım kimi dəyərləndirilir.

Məqalədə qeyd olunur ki, hazırda şagirdlərin ədəbi təhsili, bədii ədəbiyyatın mütaliəsi ilə bağlı müəyyən problemlər mövcuddur. Bu baxımdan dərsdə öyrənilən əsərlərin mövzu, ideya, obrazlar sisteminin, sənətkarlıq xüsusiyyətlərinin təhlilində çətinliklərin olması, sinifdənxaric oxuya marağın zəifləməsi xüsusi qeyd olunmalıdır. Bu baxımdan bədii əsərin yaradıcı şərhi – interpretasiyası şagirdlərin dərsdə müstəqilliyi, yaradıcı fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir. Bu, əsərin mütaliəsinə və müzakirəsinə marağı artırmaqla yanaşı, şagirdlərin tədqiqatçılıq, yaradıcılıq, müstəqil iş bacarıqlarının inkişaf etdirilməsini mühüm vəzifə kimi qarşıya qoyur.

Məktəbdə kurikulum üzrə ədəbiyyat dərslərində şagirdlərin yaradıcı, müstəqil, təşəbbüskar fəaliyyətinin təmin edilməsi tələbi interpretasiyanın − yaradıcı şərhetmənin rolunu müəyyənləşdirir. Belə ki, interpretasiya ədəbiyyat tədrisi metodikasının şagirdlərin müstəqil, yaradıcı fəaliyyəti ilə bağlı zəruri elementidir. O, ədəbiyyatın tədrisinə yaradıcı mühit yaratmağa, şagirdin yaradıcı fərdiliyini daha aydın formalaşdırmağa, onun istedadını, özünəməxsus cəhətlərini üzə çıxarmağa, şifahi və yazılı nitq bacarıqlarını cilalamağa zəmin yaradır.

İnterpretasiya şagirdin bədii əsərin məzmununu daha yaxşı qavramasına kömək edir. Bu da öz növbəsində bədii əsərin təhlilinə müsbət təsir göstərir.

Açar sözlər: ədəbiyyat, müasir dərs, bədii şərh, interpretasiya, yaradıcı fəaliyyət, bədii əsər, mütaliə, obrazların səciyyəsi, şərhetmənin metodik imkanları və s.

Tarlan Aliyeva

INTERPRETATION OF ARTISTIC WORKS IN LITERATURE LESSONS. METHODOLOGICAL POSSIBILITIES OF INTERPRETATION

Summary

The article touches on the fact that the full interpretation of literary texts in literature classes and how important and important this process is in the perception of works of art, is also evaluated as a successful step in the direction of raising the emotional environment, intellectual level, independence and activity of students in modern literature classes. The article mentions that there are certain problems related to the literary education of students and the reading of fiction. From this point of view, it should be noted that there are difficulties in analyzing the theme, idea, image system, artistic features of the works studied in the class, and the weakening of interest in reading outside the classroom. From this point of view, the creative interpretation of the artistic work is of great importance for the independence and creative activity of the students in the lesson. In addition to increasing interest in the reading and discussion of the work, it sets the development of students' research, creativity, and independent work skills as an important task. The requirement to ensure the creative, independent, proactive activity of students in literature classes according to the school curriculum determines the role of interpretation - creative interpretation. Thus, interpretation is a necessary element of the literature teaching methodology related to the independent, creative activity of students. It lays the foundation for creating a creative environment for the teaching of literature, for forming the student's creative individuality more clearly, for revealing his talent and unique aspects, and for polishing oral and written speech skills. Interpretation helps the student to better understand the content of the work of art. This, in turn, has a positive effect on the analysis of the artistic work.

Keywords: literature, modern lesson, artistic interpretation, interpretation, creative activity, artistic work, reading, characteristics of images, methodical possibilities of interpretation, etc.

Тарлан Алиева

ИНТЕРПРЕТАЦИЯ ХУДОЖЕСТВЕННЫХ ПРОИЗВЕДЕНИЙ НА УРОКАХ ЛИТЕРАТУРЫ. МЕТОДОЛОГИЧЕСКИЕ ВОЗМОЖНОСТИ ИНТЕРПРЕТАЦИИ

Резюме

В статье затрагивается тот факт, что полноценная интерпретация художественных текстов на уроках литературы и то, насколько важным и важным является этот процесс в восприятии художественных произведений, также оценивается как успешный шаг в направлении поднятия

эмоциональной среды, интеллектуального уровня , самостоятельность и активность учащихся на уроках современной литературы.

В статье отмечается, что существуют определенные проблемы, связанные с литературным воспитанием школьников и чтением художественной литературы. В связи с этим следует отметить трудности анализа тем, идей, системы образов, художественных особенностей изучаемых на уроке произведений, ослабление интереса к чтению вне урока. С этой точки зрения большое значение для самостоятельности и творческой активности учащихся на уроке имеет творческая интерпретация художественного произведения. Помимо повышения интереса к чтению и обсуждению произведения, он ставит важной задачей развитие у учащихся навыков исследовательской, творческой деятельности, самостоятельной работы.

Требование обеспечить творческую, самостоятельную, инициативную деятельность учащихся на уроках литературы по школьной программе определяет роль интерпретации - творческого толкования. Таким образом, устный перевод является необходимым элементом методики преподавания литературы, связанной с самостоятельной, творческой деятельностью учащихся. Она закладывает основу для создания творческой среды для обучения литературе, для более яркого формирования творческой индивидуальности учащегося, для раскрытия его таланта и своеобразия, для оттачивания навыков устной и письменной речи.

Интерпретация помогает учащемуся лучше понять содержание художественного произведения. Это, в свою очередь, положительно сказывается на анализе художественного произведения.

Ключевые слова: литература, современный урок, художественная интерпретация, интерпретация, творческая деятельность, художественное произведение, чтение, характеристика образов, методические возможности интерпретации и др.

Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir dərsin tələbinə uyğun yüksəldilməlidir. Əksər müəllimlərin tədris prosesində tətbiq etdiyi metodlar müasir tələblərdən geri qalır. Bir çox hallarda öyrənənlərə əldə etdiyi bilikləri tətbiq etmə və müstəqil yaradıcı düşünmə qabiliyyətləri aşılanmır. Ancaq diqqət etsək görərik ki, müasir mərhələdə təhsil sisteminin başlıca vəzifələri aşağıdakılardır:

✓ məsuliyyətini dərk edən, demokratik prinsiplərə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

✓ milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran,

nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar yetişdirmək.

Bütün bunlar müasir ədəbiyyat dərslərinin emosional mühitini, intellektual səviyyəsinin, şagirdlərin müstəqillik və fəallığının yüksəldilməsini tələb edir. Məlumdur ki, yaddaş məktəbinə əsaslanan ənənəvi ədəbiyyat dərsliklərində bədii əsərin mövzusu, ideyası, obrazlar sistemi, sənətkarlıq xüsusiyyətləri geniş şəkildə şərh olunur, şagirdə yalnız hazır materialı öyrənib dərsdə müvafiq suallara standart cavab vermək qalırdı. Ədəbiyyat fənn kurikulumunun tətbiqi ilə yeni nəsil ədəbiyyat dərsliklərində bədii əsərlə bağlı istiqamətləndirici rol oynayan müəyyən məlumatlar verilsə də, mövzu, ideya, obrazlar sistemi, sənətkarlıq xüsusiyyətləri barədə mülahizələr söyləmək və öz mövqeyini əsaslandırmaq şagirdin öhdəsinə düşür. Beləliklə, yaddaş məktəbindən təfəkkür məktəbinə keçid şagirdi ədəbiyyat dərslərində bədii əsərin qavranılması, təhlili, interpretasiyası üzrə fəal, yaradıcı işə sövq edir.

Şagirdlərin ədəbi təhsili, bədii ədəbiyyatın mütaliəsi ilə bağlı müəyyən problemlərin olması narahatlıq doğurur. Bu baxımdan dərsdə öyrənilən əsərlərin mövzu, ideya, obrazlar sisteminin, sənətkarlıq xüsusiyyətlərinin təhlilində çətinliklərin olması, sinifdənxaric oxuya marağın zəifləməsi xüsusi qeyd olunmalıdır. Bu baxımdan bədii əsərin yaradıcı şərhi – interpretasiyası şagirdlərin dərsdə müstəqilliyi, yaradıcı fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir. Bu, əsərin mütaliəsinə və müzakirəsinə marağı artırmaqla yanaşı, şagirdlərin tədqiqatçılıq, yaradıcılıq, müstəqil iş bacarıqlarının inkişaf etdirilməsini mühüm vəzifə kimi qarşıya qoyur (1, s.17).

Bədii mətnlə oxucu arasında münasibətlərə qiymət və hökm vermək səlahiyyətinə sahib olan ən ədalətli hakim zamandır.

Məsələn, Aqil Abbasın "Dolu" romanının Birinci Qarabağ müharibəsindən və İkinci Qarabağ müharibəsindən sonra oxucu-mətn münasibəti işığında təhlili mətn, oxucu və zaman münasibətlərinə aydınlıq gətirməyə, mətnin qavranılmasının zamandan və zamanın simasını müəyyənləşdirən hadisələrdən asılı olduğunu başa düşməyə yardımçı ola bilər. "Dolu" romanının yeni ictimai reallıqlar işığında təhlilinə əsasən bu qənaətə gəlmək olur ki, torpaqlarımızın işğaldan azad edilməsi müharibə mövzusuna həsr olunmuş mətn(lər)in oxucu ilə (eləcə də müəlliflə) münasibətlərinin şərhində yeni meyarlara yol açır.

Aqil Abbasın 2007-ci ildə tamamlayıb nəşr etdirdiyi roman müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsindən əvvəl, torpaqlarımızın düşmən işğalı altında olduğu dövrdə haqlı olaraq Qarabağ mövzusunda yazılmış ən yaxşı əsərlərdən biri kimi qiymətləndirildi. Xalq yazıçısı Elçinin qeyd etdiyi kimi, "Dolu" romanının meydana çıxması "Söz azadlığı" dövrü ədəbiyyatımızda əhəmiyyətli hadisə oldu, əsərin haqqında da az yazılmadı.

Romanın epiqrafında oxucuya əsəri "bu, yazıçı təxəyyülündən başqa bir şey deyil" sözləri ilə təqdim edən müəllifin xəbərdarlığı da boşuna deyildi. Romanın

əsas materialını konkret müşahidələr, müəllifin tanıdıqları, gördükləri və eşitdikləri təşkil etdiyinə görə "Dolu" müəllifin Dünyanın Ən Varlı Şəhəri kimi təqdim etdiyi konkret bir məkanın - Ağdamın süqutunun bədii salnaməsi kimi qəbul olundu və romanı həm təqdir edənlər, həm də ona tənqidi münasibət bildirənlər məhz bu dayaq nöqtəsindən çıxış edirdilər (2, s. 32).

Akademik Nizami Cəfərovun "Dolu" romanını tarixi salnamələrlə bir araya gətirərək "Müasir Qarabağnamə" adlandırması, əsərin uğurunu, "romanda yaradılmış sosial-etnoqrafik mənzərənin həddindən artıq dəqiq və həddindən artıq da analitik" olmasını Aqil Abbasın, ilk növbədə, "ümumiyyətlə, Qarabağ bölgəsinin ictimai-siyasi, sosial, coğrafi mühitini çox gözəl bilməsi, Qarabağın ən böyük intellektlərindən tutmuş, ...ən xuliqan gənclərinə qədər hamısını yaxşı tanıması" ilə əlaqələndirməsi zamanın mətnin dərkinə yüklədiyi impulslardan gəlirdi. Romanı təhlil edən professor Vaqif Yusifli və professor Cahangir Məmmədlinin də yazılarında Nizami Cəfərovun bu tezisinə istinad etmələri romanı Qarabağ müharibəsinin tarixi-xronikal mənzərəsi fonunda təhlil etmək yanaşmasının nəticəsi idi.

"Dolu"nu daha məhdud və dar bir məkanın - "Qarabağdan çox, Dünyanın Ən Varlı Şəhərinin rekviyemi" kimi oxuyan Aydın Canıyev isə bu şəhərin yenidən Ağdam olacağına inandığını yazmışdı: burada da bədii mətnin interpretasiyası tarixi xronika çərçivəsinə salınmışdı.

Romanın mətnində müasir şəhər əfsanələrindən tutmuş, epos yaddaşına, mətnlərarası məqamlardan tutmuş, "kollektiv şüurdanxaric" arxetiplərə, mifologizmlərə qədər epik bədii düşüncənin bütün elementləri "işləyir". Bu sintez romanda təqdim olunan tarixin bədii obrazının təbiəti ilə şərtləşir.

Əsər boyu insanların (təkcə əsərin personajlarının deyil, həm də oxucuların) başına sanki dolu yağır. Bu, Tanrının göydən endirdiyi dolu deyil. Rusiyanın ermənilərin əlinə verdiyi "Qrad" reaktiv yaylım atəşi sistemindən atılan yaylım mərmiləridir. İnsanlar - Yiyəsiz Dövlətin Yiyəsiz Övladları yerdəki "qrad"dan ("qrad" azərbaycanca dolu deməkdir) yağan mərmilərin altında yaşamaq, mərmilərdən ölmək, sağ qalanlar isə konkret düşməndən çox "qrad"ın atıldığı tərəflə döyüşmək məcburiyyətindədir. Müəllifi və oxucunu ən çox ağrıdan tarixi həqiqət Dünyanın Ən Varlı Şəhərinin dolunun altında tək buraxılması, təklənməsidir. Əslində, təklənən, taleyin ümidinə qalan Azərbaycandır. Romanda Azərbaycan "ssenarisini dünyanın Böyük Dövlətlərinin Böyük Saraylarında yazdıqları dəhşətli Kino" həyatı yaşayır (2, s. 37)

Qeyd etdiyimiz nümunədən də göründüyü kimi, bədii mətnin interpretasiyası oplduqca vacib bir məsələdir və müasir gəncliyin, xüsusən gələcəyin ədəbiyyat müəllimlərinin düzgün istiqamətdə yetişdirilməsində böyük önəm kəsb edir.

Məktəbdə kurikulum üzrə ədəbiyyat dərslərində şagirdlərin yaradıcı, müstəqil, təşəbbüskar fəaliyyətinin təmin edilməsi tələbi interpretasiyanın − yaradıcı şərhetmənin rolunu müəyyənləşdirir. Belə ki, interpretasiya ədəbiyyat

tədrisi metodikasının şagirdlərin müstəqil, yaradıcı fəaliyyəti ilə bağlı zəruri elementidir. O, ədəbiyyatın tədrisinə yaradıcı mühit yaratmağa, şagirdin yaradıcı fərdiliyini daha aydın formalaşdırmağa, onun istedadını, özünəməxsus cəhətlərini üzə çıxarmağa, şifahi və yazılı nitq bacarıqlarını cilalamağa zəmin yaradır (

İnterpretasiya şagirdin bədii əsərin məzmununu daha yaxşı qavramasına kömək edir. Bu da öz növbəsində bədii əsərin təhlilinə müsbət təsir göstərir.

"Ədəbiyyat" dərslik komplektlərində ümumi təhsilin milli konsepsiyasına uyğun olaraq, tam orta təhsil pilləsində şagirdin ədəbi nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirməsi, əsərləri mövzu, problem baxımından müqayisə etməsi, onlara əsaslandırılmış rəy bildirməsi, məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət verməsi, fərqli mövzular üzrə müvafiq üslublarda yaradıcı xarakterli yazıları icra etməsinin təmin olunması diqqət mərkəzində saxlanılmışdır. Bütün bunlar, eləcə də ədəbiyyat fənn kurikulumunun tələbinə uyğun olaraq, dərsliklərdə şagirdlərin mənbələr üzərində işləyərək görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplaması, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlaması, ədəbi nailiyyətlərə münasibət bildirməsi ilə bağlı tələblərinin reallaşdırılması üçün dərsliklərdəki sual və tapşırıqlar sistemi, müəlimlərə verilən metodik tövsiyələr interpretasiya bacarıqlarının formalaşdırlması baxımından əhəmiyyətlidir (3, s.47).

Ədəbiyyat fənn kurikulumunda qeyd edilir ki, V-XI siniflərdə təhlil və interpretasiya bacarıqlarının formalaşdırılması üzrə iş nəticəsində şagirdlər:

a) ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə etməyi bacarır;

b) müxtəlif ədəbi növdə olan mürəkkəb kompozisiyalı əsərlərin məzmununu qavrayır, mənəvi dəyərlər, fakt və hadisələrlə, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;

c) əsərin mövzusunu, ideyasını, başlıca problemini və konfliktini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, estetik yanaşmalarından çıxış etməklə əsərə münasibət bildirir;

d) çoxsüjetli, mürəkkəb kompozisiyalı epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir;

e) şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə müxtəlif üsullardan (nağıletmə, təsvir, nümayiş) istifadə etməklə ümumiləşdirmələr aparır, nəticə çıxarır;

f) müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərlə, məntiqi ardıcıllığı gözləməklə, ümumiləşdirmələr aparmaqla əsaslandırır (4, s. 63).

Bəs elədirsə, təhsil proqramının strukturunda "Bədii mətnin interpretasiyası" fənnin yeri nədən ibarətdir?

Ali təhsil müəssisələrinin bakalavr təhsil pilləsində tədris olunan "Bədii mətnin interpretasiyası" fənni seçmə fənlər bölümünə daxil olub bədii mətnlərin interpretasiyası, praktik məsələləri, müəllim-şagird əməkdaşlığına əsaslanan prosesin qanunauyğunluqlarının, bədii əsərlərin məktəb təhlilində və şagird interpretasiyasında təlim metodları, forma və üsulları, yeni təlim texnologiyaları, interpretasiyada fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi ədəbiyyat dərsliklərinin təhlili və s. öyrənilməsini nəzərdə tutur.

Fənnin tədrisində əsas məqsəd orta və ali təhsil müəssisələrində ədəbiyyat fənninə münasibətdə təkcə inteqrasiyaedici deyil, həm də sintezləşdirici mövaedən yanaşmaq, təhsilalanın müxtəlif ədəbi əsərlərlə ünsiyyət təcrübəsini aktuallaşdırmaq, bədii əsəri yeni şəkildə hiss və dərk etməyə, yaradıcı özünürealizəyə böyük imkanlar yaratmaq incəsənətin humanist potensialına fəal şəkildə qoşulmağa xidmət etməkdir.

Bədii əsərin interpretasiyası prosesində "tədqiqatçı" – təhsilalan özünü və dünyanı yenidən kəşf edir. Tələbələr bədii əsərə dərindən nüfuz etməyi, müəllif niyyətini, onun bədii fakta emosional münasibətini ifadə edən bədii vasitələri müəyyənləşdirməyi, gələcək pedaqoji fəaliyyətlərində təlim prosesində əsərin interpretasiyası üzrə praktik iş təşkil etmək qabiliyyətinə yiyələnirlər.

Aydındır ki, gənc nəslin mütaliə mədəniyyətini yüksəltmədən ümumilikdə cəmiyyətin mədəni səviyyəsini yüksəltmək mümkün deyildir. Bu, bədii mətnin interpretasiyası üzrə kursun pedaqoji-metodik istiqamətini şərtləndirir. Fənnin öyrənilməsində tələbələrin bədii əsərin interpretasiyası vərdişlərinin formalaşdırılması, ədəbiyyat dərslərində şagirdlərə interpretasiya bacarıqları aşılanması üzrə metodik hazırlığının təkmilləşdirilməsi əsas götürülür. Tələbələrə idraki-estetik fəaliyyətin bir növü kimi bədii əsərin oxusu, qavranılması, təhlili bacarıqları aşılanmalı və bu zəmində əsərin interpretasiyası reallaşdırılmalıdır.

Fənnin öyrənilməsi nəticəsində təhsilalanların hazırlıq səviyyəsinə verilən tələblər aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Təhsilalanlar metodik araşdırmanın bir istiqaməti kimi müxtəlif janrda bədii əsərlərin interpretasiyasının əsas yollarını, imkanlarını bilməli, qazanılmış bilik və bacarıqları təcrübədə tətbiq etməyi, mətni necə başa düşdüyünü şərh etməyi, öz interpretasiyasını əsaslandırmağı bacarmalıdır.

Tələbələr bədii əsərdə müəllif niyyəti haqqında dolğun təsəvvürə malik olmalı, əsas ideyanı, başlıca niyyəti ifadə edən detalı, obrazları səciyyələndirən cəhətləri, mövzu ilə bağlı faktları, hadisələri müəyyənləşdirməli, ümumiləşdirmə aparmalı, hadisələr arasında əlaqələri aşkara çıxarmağı bacarmalıdırlar.

−Əsərdə təsvir olunanlar, ədəbi qəhrəmanların səciyyəsi, mətnaltı məna, problem, ideya, mətnin sənətkarlıq xüsusiyyətləri ilə bağlı əsaslandırılmış mühakimə yürütməli, nəticə çıxarmalı, dəyərləndirmə aparmalıdırlar.

− Bədii əsərin interpretasiyası zamanı tələbələr bədii mətnin məzmununa və strukturuna əsaslanmalı, interpretasiya üzrə işin təşkili metodikasına yiyələnməlidir.

Bununla əlaqədar tələbələrdə bədii əsərin dərindən dərk edilməsi, onlara müstəqil təhlil və interpretasiya vərdişləri aşılanması diqqət mərkəzində saxlanılmalıdır (5, s.41).

Bütün bu kimi məslələri mənimsədikdən sonra nəticə nədən ibarət olacaqdır?

1. Təhsilalanlar orta ümumtəhsil məktəblərində ədəbiyyat müəllimi kimi peşə fəaliyyətinə hazır olacaq;

2. Təhsilalanlarda müxtəlif ədəbi növ və janrlarda bədii mətnin interpretasiyası üzrə praktik bacarıqlar formalaşacaq;

3. Fənnin məzmununu təşkil edən materiallarla ətraflı tanış olmaq, qənaətlərini həm şifahi, həm də yazılı olaraq aydın, anlaşıqlı ifadə etmək bacarığına yiyələnəcək;

4. Qarşıya qoyulan məqsədlərə müvafiq olaraq, təhsilalanlarda ədəbiyyat təlimində şərhetmə bacarıqları formalaşacaq;

5. Bədii əsərlərin emosional-obrazlı qavranması prosesisin aktivləşdirilməsi, müxtəlif növ və janrlarda əsərlərin məzmununu mənimsəmə, mətnin interpretasiyası üzrə bacarıqlar inkişaf etdiriləcəkdir.

Bədii mətnin interpretasiyası bacarığı ədəbiyyat müəlliminin gələcək peşə fəaliyyətinin əsasını təşkil etməlidir. Ədəbiyyat dərslərində bədii əsərlərin interpretasiyasının – şərhetmənin metodik imkanlarına nələr daxildir?

1. Bədii əsərin interpretasiyasında variativlik, eyni situasiyanın müxtəlif yolla şərhi:

2. Mövzu ilə bağlı video (təbiət, hadisə və s.) nümayiş etdirilməsi, musiqi dinlənilməsi;

3. İfadəli oxu vasitəsilə əsərin mühüm elementləri ilə bağlı şagird təəssüratının canlandırılması;

4. Əsərin ideya-məzmunu ilə bağlı problem-situasiyadan, problemli suallardan istifadə;

5. İnterpretasya zamanı əsərin adı, şəxs adları, bədii detal, əsərin başlanğıcı və sonluğuna diqqət yetirilməsi;

6. Obrazların, onların həyat tərzinin, konfliktin mahiyyətinin təhlili, müəllifin mövqeyinin, ümumbəşəri dəyərlərin müəyyənləşdirilməsi;

7. Bədii əsərdə təsvir olunanların real həyati faktlarla, müəllifin digər əsərləri ilə, ədəbi qəhrəmanın öz prototipi ilə, əsərin incəsənətin digər növləri ilə müqayisəsi və s.

Bədii əsərlərin interpretasiyası prosesində interaktiv təlim metodlarından və iş növlərindən də səmərəli istifadəyə ehtiyac vardır. Xüsusilə, yaradıcı oxu, evristik söhbət, diskussiya, əqli hücum, debatlar, müzakirə xəritələri, klassik dialoq, təqdimat, ideyalar xalısı, problemli suallardan istifadə dərsin mənimsənilməsinə müsbət təsir göstərir.

ƏDƏBİYYAT SİYAHISI

1. Alışanlı Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Elm, 2011.
2. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, Ozan, 1999.
3. Əlişanoğlu T. Müstəqillikilləri Azərbaycan ədəbiyyatı. Bakı: Qanun, 2013
4. Əhmədov C. Ədəbiyyatın tədrisi metodikası.Bakı:Bakı Universiteti, 1992
5. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənn kurikulumu. V-XI siniflər. "Azərbaycan müəllimi" qəzeti, 24 dekabr 2010.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Allahverdiyev Vaqif Saleh oğlu
filologiya üzrə fəlsəfə doktoru, dosent
tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU DADAŞOVA
AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq
İnstitutu Türk filologiyası şöbəsi, kiçik elmi işçi
d.arzu@bk.ru

TÜRK TARİXİ ROMANININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİ

Xülasə

Tarixi romanlar roman janrının ən çox oxunan və mübahisəli janrlarından biridir. Adından da göründüyü kimi, tarixi roman həm ədəbiyyatdan, həm də tarixdən bəhs edir. Tarixi romanlar XIX əsrin əvvəllərində romantik ədəbi cərəyanın təsiri ilə İngiltərədən bütün dünyaya yayılmış, əsrin sonunda isə türk ədəbiyyatında yazılmağa başlamışdır. Əsrin əvvəllərində Osmanlı dövlətinin süqut təhlükəsi ilə qarşı-qarşıya olması dövrün ziyalılarını hərəkətə keçirir. Onlar xalqın parlaq keçmişini, qələbə dolu günlərini xatırlayaraq insanları ruhlandırmaq istəyirdilər. Türk tarixi romanının macərası N.Kamalın Tənzimat dövründə qələmə aldığı "Cəzmi" romanı ilə başlayıb, XX əsrdə müxtəlif istiqamətlərdə inkişaf etmişdir.

Tədqiqatda türk ədəbiyyatında tarixi romanın yaranmasına səbəb olan amillər və romanın tarixi kökləri, daha sonra janrın XIX əsrin sonlarından XX əsrin sonlarına qədərki inkişaf mərhələləri araşdırılmış və işə qısa nəticə ilə yekun vurulmuşdur.

Açar sözlər: türk ədəbiyyat, tarixi roman, Osmanlı, dövr.

Giriş

Məlumdur ki, tarix boyu millətlər dara düşdüklərində tarixin dərinliklərinə sığınmış, ondan ilham almışlar. XIX əsrin ikinci yarısından etibarən Osmanlının ictimai, siyasi, sosial vəziyyəti heç də ürək açan deyildi. Aparılan bütün islahatlara baxmayaraq ölkənin əvvəlki qüdrətini bərpa etmək mümkün olmurdu. Buna görə də ziyalılar həm öz keçmişlərini öyrənmək, həm də keçmişdə var olmuş qəhrəmanların qəhrəmanlıqlarını xalqa təqdim etməklə onlarda ruh yüksəkliyi yaratmağa çalışmışlar. Bu baxımdan dövrün məşhur ziyalılarından olan N.Kamalın şeirlərində, dram əsərlərində, məqalələrində sonra isə "Cezmi" romanında göstərdiyi insan modeli əhəmiyyətli başlanğıc hesab olunur.

Türk ədəbiyyatında XIX əsrə qədər tarixi romanların yerini şifahi xalq ədəbiyyatı nümunələri tuturdu. Dini xarakterli əfsanələr, milli dəyərləri əks etdirən dastanlar, xalq hekayələri, əfsanələr kimi şifahi xalq ədəbiyyatı nümunələri o dövr insanlarının tarix şüurunu formalaşdıran ilk nümunələr olmuşdur. Türk tarixində qövm dövründə dastanlar, ümmət dövründə isə qazavatnamələr yazılmışdır. F. Köprülünün fikrincə dastan, qazavatnamə, cenknamə kimi ədəbiyyat nümunələri millət dövründə yaranmış tarixi romanların klassik nümunələridir. (3,s. 61)

Tarixi romanlar hər hansı bir dövrün tarixi hadisələrini millətin adət-ənənələrini,əxlaqını əks etdirən əsərlərdir.

Türk tarixi romanın təşəkkül tarixi

XIX əsrə qədər tarixi romanı dini əfsanələr, milli dəyərlərin daşıyıcısı olan dastanlar, xalq hekayələri və s kimi nümunələr əvəz etmişdir. Dövr, zaman dəyişdikcə yavaş-yavaş şifahi ədəbiyyat nümunələri yerini yazılı ədəbiyyat nümunələrinə verməyə başlamışdır. Türk ədəbiyyatında romandan fərqli olaraq tarixi romanın doğuşu Avropa ilə eyni əsrə təsadüf edir. Qərb ədəbiyyatında tarixi roman XIX əsrin əvvəllərində (V.Skotun 1814-cü ildə yazdığı "Ueverli" romanı) türk ədəbiyyatında isə əsrin sonunda yazılmışdır. Tarixi romanın yaranmasının bu dövrə təsadüf etməsi siyasi-ictimai proseslərin nəticəsi idi. Tarixi romanın yaranmasına təsir edən amillər arasında Fransız inqilabı və Romantizm ədəbi cərəyanı yer alır. Bildiyimiz kimi Osmanlının artıq dağılma mərhələsində olması dövrün ziyalılarını tarixə yönəlməyə, tarixin parlaq səhifələrindəki qələbə dolu günləri xatırlatmağa vadar edirdi. Bu işdə də tarixi romanlar köməyimizə yetir.

Türk ədəbiyyatında XIX əsrin ikinci yarısından sonra yazıçıların çoxu tarixi əsərlər yazmağa başlanmışlar. N. Kamaldan başlayaraq, Ziya Paşa, Ə.M.Əfəndi kimi dövrün məşhur ziyalıları tarixlə yaxından maraqlanmışlar.

Roman janrında olduğu kimi ilk tarixi romanlar da, qərb ədəbiyyatından edilən tərcümələrə əsaslanır. A.Dümanın "Qraf Monte Kristo", "Üç muşketyor", "Şahzadənin boyunbağı", X.Montepin "Fakirler Tabibi" əsərləri 1900-cı ilə qədər türk dilinə tərcümə edilən tarixi romanlardır. Türk ədəbiyyatında tarixi romanların ilk olaraq tərcümələr vasitəsilə tanışlığının səbəbini XIX əsrə qədər qərb üslubunda romanın yazılmaması, sosial-siyasi quruluşun fərqli olması, elmi və texnoloji inkişafın dəyişkənliyi ilə izah etmək olar.

Tənzimat dövrü türk ədəbiyyatında yeni yaranmağa başlayan roman janrının ən maraqlı nümunələri Ə.M.Əfəndi və N.Kamala məxsusdur. Onlar türk ədəbiyatında eyni zamanda tarixi roman janrının da yaradıcıları hesab olunurlar. Hər iki yazıçının fikrincə roman əyləndirərək öyrətmək, xoş vaxt keçirərkən sosial, mədəni və əxlaqi dərslər vermək üçün yazılmalıdır. Yaşadıqları dövrdə realizm cərəyanının hakim olmasına baxmayaraq Ə.Midhət və N.Kamal artıq Avropada əvvəlki təsirini itirmiş romantizm cərəyanını izləmişlər. Ə.Mithat türk ədəbiyyatında "populer roman" ədəbi janrın, N.Kamal isə ədəbi romanın yaradıcılarından olmuşlar. Roman texnikası, dil və üslub xüsusiyyətlərinə gəldikdə isə bu iki yazıçı iki fərqli yol izləmişlər. A.Midhət geniş xalq kütləsini - oxuyub yazmağı yeni öyrənən, ədəbi mədəni cəhətdən zəif olan, sadə xalq kütləsini özünə oxucu olaraq seçmişdir. Buna görə də tez başa düşülən, oxucunu yormayan, sadə dil və üslubla əyləndirici, sıxıcı olmayan romanlar yazmışdır. Ə.Mithatdan fərqli olaraq N.Kamal cəmiyyətin elmi-mədəni səviyyəsi yüksək olan savadlı, bilikli

kütləsini hədəf alaraq, ədəbi-estetik cəhətdən, dil və üslub xüsusiyyətlərinə görə daha bədii əsərlər qələmə almışdır.

Türk ədəbiyyatında ilk tarixi roman nümunəsi Ə.Midhətin 1871-ci ildə yazdığı "Yeniçeriler" əsəri göstərilsə də, əsər tarixi roman texnikasına cavab vermədiyinə görə, Türk ədəbiyyatında tarixi roman janrının texnikasına uyğun olaraq yazılmış ilk tarixi roman N.Kamalın 1880-ci ildə yazdığı "Cezmi" əsəri hesab olunur.

İlk tarixi roman (deneme) cəhdlərindən olan "Yeniçeriler" "Letaif-i Rivayet"in 1872-ci ildə çap olunmuş hissələrindən biridir. Böyük hekayə kiçik roman olaraq qiymətləndirilən əsərdə tarix cərəyan edən hadisələrin fonunda əks olunduğu üçün əsər daha çox macəra xarakterli roman olaraq qiymətləndirilir. H.Argünşahın da qeyd etdiyi kimi "türk oxucusu bu əsərlə tarixi hadisələrin də əks olunduğu ilk müasir hekayə ilə tanış olur" (1, s. 227)

Türk ədəbiyyatının ilk tarixi romanı olan "Cezmi" XVI əsr Osmanlı-Krım-İran tarixindən bəhs edir. İslam birliyi ideyasının təbliğ olunduğu əsər yazıçının tarixlə maraqlandığı bir dövrdə romantik tərzdə qələmə alınmışdır. Namık Kamalın Midillidə yazdığı "Cezmi" romanı iki cildlik planlaşdırılsa da əsər yarım qalmışdır. M.Kaplanın düşüncəsinə görə bundan sonrakı dövrün Osmanlı üçün uğursuz olması yazıçının əsəri burda sonlandırmasına səbəb olub. Çünki N.Kamal tarixin çətin dövrlərini yazmağı sevmirdi, o tarixin qəhrəmalıq dövrlərinin heyranı idi. (2, s. 276)

Əsər parçalanmaqda olan bir imperiyanın şanlı keçmişindən təsirlənərək o dövrün qəhrəmanlıqlarının canlandırılması ilə oxucunu həyəcanlandırmaq məqsədi ilə yazılmışdır.

N.Kamal illərlə Osmanlı ilə müharibə edən İrana qarşı Osmanlı-Krım qardaşlığına toxunaraq onların birlik-bərabərliyini göstərmək istəyir. Yazıçı eyni zamanda eşq, intriqa, tarixi və xəyali reallıqla süjeti daha da dərinləşdirir.

XX əsrdə tarixi romanın inkişaf mərhələləri

Türk ədəbiyyatının ilk tarixi romanı "Cezmi"dən sonra Tənzimat dövründə yazılan tarixi romanlar arasında İbnülemin Mahmud Kemâl İnalın "Sabih" (1899), Şahbenderzâde Ahmet Hilmi Beyin "Öksüz Turgut" (1910), Fazlı Necipin "Dehşetler İçinde" I, II, III (1910) ve Mehmet Hamdinin "Define" (1911) adlı əsərləri də yer alır. "Sabih" romanı istər hadisələrin quruluşu, qəhrəmanların xarakterləri, istərsə də üslub baxımından N.Kamalın "Cezmi" romanının təsiri ilə yazılmış, yeri və zamanı dəyişdirilmiş "Cezmi" təqlididir. Demək olar ki, N.Kamalın "Cezmi" romanından sonra Türk ədəbiyyatında Cümhuriyyətə qədərki dövrdə ciddi mənada tarixi roman nümunəsi yaranmamışdır. Bu dövrdə tarixi romandan çox tarixi mövzulu pyeslər qələmə alınmışdır.

Tənzimat dövründə yazıçıların və oxucuların tarixə olan marağının Sərvət-i Fünun dövründə azaldığını Dr. Bilge Ercilasun Sərvət-i Fünun yazıçılarının qərbin təsiri ilə yeni üslub, ədəbi növ və estetik qayə axtarışında olması ilə əlaqələndirir.

(4, s. 13) Bu səbəbdən də demək olar ki, Sərvət-i Fünun dövründə tarixi roman yazılmamışdır.

Bunun əksinə olaraq milli dil və ədəbiyyat yaratmağa çalışan Milli ədəbiyyat dövrü yazıçıları tarixə böyük maraq göstərmiş, tarixi romanlar yazmağa başlamışlar. Bu dövrdə tarixi romandan çox tarixi hekayələrin önə çıxdığının şahidi oluruq. Burada Z.Gökalpın türk tarixi ilə bağlı fəaliyyətlərinin rolu böyükdür. Bu dövrdə A.H.Müftüoğlu ilə Ö.Seyfəttinin tarixi mövzulu hekayələri o dövrdə böyük maraqla qarşılanmışdır.

Milli ədəbiyyat dövründə yazılmış tarixi romanlarda islamdan əvvəlki türk tarixi öz əksini tapmışdır. Bu romanlara N.Atsızın "Bozkurtların Ölümü", "Bozkurtlar diriliyor", "Deli Kurt", İskender Fahrettin Sertellinin "Sümer Kızıvə s. misal göstərmək olar.

Cümhuriyyətin qurulmasından sonra isə tarixi roman janrında sanki bir canlanma müşahidə olunmuş, tarixi romana olan maraq əvvəlki dövrlərlə müqayisədə xeyli artmışdır. Tarixi roman janrı sürətlə inkişaf etmiş və bu sahədə çox sayda əsərlər qələmə alınmışdır.

Cümhuriyyətin yaranması ilə başlayan tarixi romanın üçüncü dövrü olaraq qiymətləndirilən 1923-50-ci illər ən çox roman yazılan dövr olaraq qiymətləndirilir. Təkcə A.Kozanoğlu 1923-cü ildən sonra 21 tarixi roman qələmə almışdır. Milli şüurun oyanması milli ədəbiyyata da öz təsirini göstərmişdir. Bu dövr həm də ərəb əlifbasının türk əlifbasıyla əvəzlənməsi ilə yaddaşlarda iz buraxmışdır. Dolayısıyla yeni əlifbanın tətbiqi də nəşr olunan kitab sayının artımına müsbət təsir göstərmiş olur.

1930-40-cı illərdə tarixi romanların sayında iki dəfə artış müşahidə olunmuşdur. Cümhuriyyət dövründə nəşr olunan romanlar arasında A.Z.Kozanoğlunun "Kızıl Tuğ, Atlı Han, Türk Korsanları, Seydi Ali Reis ve Gültekin"i, N.Nazifin "Kara Davut"u, T.Tanın "Cehennemden Selam", "Timurlenk" V.Nurettinin "Baltacı ile Katerinası", F.Necipin "Dehşetler İçinde" və s. kitablar yer alır. Bu romanlar "tarixi roman tarix deyil" prinsipindən çıxış edərək yazılan yazıçı təxəyyülünə əsaslanan, tarixi macəra tərzində yazılmış populyar tarixi romanlardır. 1930-70-ci illərdə yazılmış, maraqlı hekayə və bəsit quruluşlu bu romanlar bütün yaş qrupu oxucularının diqqətini cəlb etməyi bacarmışdır. Türk tarixinin ən vacib dövrlərinin əks olunduğu, türk tarixinin ucaldıldığı bu romanlarda tənqidi yanaşma mövcud deyil. Sadə dillə yazılmış, cəlbedici, maraqlı hekayələri olan populyar tarixi romanlar bədii-estetik cəhətdən zəif əsərlər olaraq qiymətləndirilirlər. Cəlbedici hekayəyə malik bu əsərlər yazıldıqları dövrdə oxucular tərəfindən böyük maraqla oxunsalar da qısa zaman sonra unudulmuş, önəmini itirmişdir.

Türk ədəbiyyatında 1960-cı illərdən sonra populyar üslubda yazılmış tarixi romanlarla yanaşı modernist üslubda romanlar yazılmağa başlayır. Bu dövrdə

"Devlet Ana" kimi yeni tərzdə yazılmış romanlar tarixi romanın seyrini yavaş-yavaş dəyişdirmiş olur. Bədii estetik dillə qələmə alınmış, modern üslubda yazılmış bu tip romanlarda məzmun dərinliyi yazıçıların əsas hədəflərindən biri idi. K.Tahir "Devlet Ana" romanı ilə ədəbiyyat tarixində tarixi romana yeni bir tərz, gətirmiş olur. Yazıçı Milli ədəbiyyat və Cümhuriyyət dövründə yazılmış romanlarda olduğu kimi yalnız tarixi qaynaqlara əsaslanaraq yazılan əsərlər yerinə, müəllifin tarixi mövzuda prespektiv və şərhlərini əks etdirən əsərlər yazmağa başlayır. K.Tahirin "Devlet Ana" romanı tarixi romanın seyrini dəyişərək janra yeni forma qazandırmış olur. Burada tarix fantaziya (uydurma) olaraq deyil, real tarixi faktlar və qaynaqlarla birləşdirilərək oxuyucuya təqdim olunur. K.Tahir tarixi roman janrında yeni bir dövrün başlanmasına səbəb olan yazıçıdır.

1960-80-ci illərdə yazılmış romanlarda II Dünya müharibəsi, Koreya müharibəsi, 27 may, 12 mart, 12 sentyabr çevrilişləri kimi mövzular üstünlük təşkil edir. Əsərlərin bədii estetikası üçün də narahatlıq keçirən dövr yazıçıları əsərlərini modernist ifadə tərzi və texnikasına uyğun olaraq qələmə almışlar. Bu tip romanlara aşağıdakıları misal göstərə bilərik: "Bir Düğün Gecesi", "Küçük Ağa", "Firavun İmanı", "Osmancık" , "Hilâl Görününce", "Ak Topraklar", "Cumhuriyet Türküsü", "Kurtlar Sofrası", "Üçler-Yediler-Kırklar", "Bu Atlı Geçide Gider", "Esir Şehrin İnsanları", "Esir Şehrin Mahpusu", "Yorgun Savaşçı", "Kurt Kanunu" və s.

1980-ci illərə qədər tarixi roman yazıçıları öz vərdişlərinə istək və düşüncələrinə əsasən mövzu seçib, müəyyənləşdirdikləri tarixi dövrə yönələrək, o dövrün insanlarını, hadisələrini əks etdirmişlər. Bu yazıçılar populyar ifadə tərzi ilə yanaşı, həm də modernist üslubda əsərlər yazmışlar. 1980-ci illərə qədər türk tarixi romanları ifadə tərzinə görə yenilənsələr də tarixə yanaşma və realist ifadə formasından uzaqlaşmamışlar.

1980-ci ildən sonra dünya ədəbiyyatında olduğu kimi türk ədəbiyyatında da tarixi roman yeni mərhələyə qədəm qoyur. Ənənəvi tarixi romandan fərqli olaraq yeni yaranmış roman yazıçıya öz fikir və fantaziyalarını daha çox istifadə etmək imkanı verirdi. 1980-ci illərə qədər türk ədəbiyyatında yazıçıların populyar və modern üslubda tarix romanlar yazdığının şahidi oluruq. 1980-ci illərdən sonra artıq dünya ədəbiyyatında olduğu kimi, türk ədəbiyyatında da tarixi romanların sıralarına postmodern romanlar əlavə olunmağa başlandı.

1980-ci ildən sonra postmodern üslubda yazan yazıçılara Adalet Ağaoğlu, Mustafa Altunay, İhsan Oktay Anar, Nedim Gürsel, Selim İleri, Ayla Kutlu, Zülfü Livaneli, Elif Şafak və s misal göstərmək olar.

Postmodernistlərə görə tarixi mətnlər elmi reallığı əks etdirməkdən daha çox keçmişin şərhi, keçmişin təhlili olaraq qəbul edilməlidir. Bu romanlar yazılma texnikasına görə 1980-ci illərdən əvvəl yazılmış tarixi romanlardan fərqlənir. Mövzu olaraq tarixdən bəhs etsələr də, süjet və hadisələrin inkişafı daha qarışıqdır. Bu tip romanlarda yazıçının təxəyyülü və şərhinə daha çox yer verilir. Postmodern romanlarda tənqidi yanaşma əsas götürülür.

Mövzuların getdikcə müxtəlif və qarmaqarışıq hal alması, hadisədən hadisəyə keçməsi romanların qəlizləşməsinə səbəb olur. Postmodernistlərə görə oxucuya tarixi şüur aşılamaq deyil, oxucunu fərqli yönlərdən düşündürmək əsasdır.

Nəticə

Türk ədəbiyyatının ən çox mübahisə doğuran janrlarından olan tarixi romanların kökü dastanlara qədər uzanır. XIX əsrə qədər tarixi romanlar yerinə şifahi ədəbiyyat nümunələri olan dastanlar, xalq hekayələri, qazavatnamələr, saltuknamələr və s. yazılmışdır. Tarixi romanların xalqların həyatına təsiri də böyük olmuşdur. Milli şüur və təfəkkürün formalaşması və inkişafında tarixi romanların rolu danılmazdır. Janrın ilk nümunələri XIX əsrin sonunda yazılmış, Cümhuriyyətin qurulmasından sonra janra maraq daha da artmış, yazılan əsərlərin sayı ildən-ilə çoxalmışdır. Türk ədəbiyyatında populyar, modernist və postmodern tərzdə tarixi romanlar qələmə alınmışdır. Yazılan tarixi romanlar mövzu baxımından da qruplaşdırıldığında görünür ki, Türkiyə tarixinin bütün siyasi dövrləri romanlarda öz əksini tapmışdır.

Cümhuriyyətdən sonrakı illəri 10 illik dövr olaraq xarakteristika etsək 1930-1940-cı illərdə əvvəlki dövrlərə nisbətən tarixi roman sayında artım müşahidə olunur. Yazılan əsərlər qədim türk tarixi və Osmanlı tarixindən bəhs edir. 1940-1950-ci illərdə isə əvvəlkinin əksinə roman sayında azalma müşahidə olunur. Roman sayının azalmasını II Dünya Müharibəsi və Türkiyənin bu müharibədəki yeri ilə əlaqələndirə bilərik. 1950-1960-cı illər də əvvəlki dövrdən geri qalmır. Hər ildə təxminən iki, üç roman qələmə alınmışdır. Bu dövrə qədər yazılan romanlar ədəbi dəyəri zəif olan, əyləncə xatirinə yazılmış populyar üslublu əsərlərdən ibarətdir. 1960-cı ildən ölkənin siyasi həyatında baş verən dəyişikliklərdən və çoxpartiyalı rejimə keçiddən dolayı tarixi roman sayında yenidən artım müşahidə olunur. Hətta H.Argünşahın qeyd etdiyinə görə 1964-cü il Cümhuriyyət tarixində ən çox roman nəşr olunan il olmuşdur. (1, s. 397) Həm də, 1960-cı illərdən sonra türk ədəbiyyatında populyar tarixi romanlarla yanaşı, modernist tarixi romanlar da qələmə alınmışdır. 1970-ci illərdə əvvəlki dövrlə müqayisədə roman sayında azalma müşahidə olunur. XX əsrin 60-80-ci illərində daha çox modernist üslubda,1980-ci ildən sonra isə postmodern üslubda yazılmış tarixi romanlar üstünlük təşkil edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Argunşah Hülya, Tarih ve Roman, İstanbul ,2016, Kesit yayınları
2. Dağ Necla, Tarihî Roman olarak Ahmet Mithat Efendi'nin Süleyman Musli ile Namık Kemal'in Cezmi Eserlerinin Karşılaştırılması, III. Milletlerarası Tarihî Roman ve Romanda Tarih Bilgi Şöleni, Konya, 27-29 Kasım 2015
3. Erol Kemal, Tarih ve edebiyat ilişkisi ve tarihi romanların tarih öğretimine katkısı, 2012, Dil ve Edebiyat Eğitimi dergisi, ayı 2, cilt 1.

4. Ünal A. Henry James ve Roman sanatı. Ankara: D.T.C.F.Yay. 1977.

Дадашова Арзу

ТЕОРЕТИЧЕСКИЙ ВЗГЛЯД НА РАЗВИТИЕ ТУРЕЦКОГО ИСТОРИЧЕСКОГО РОМАНА

Резюме

Исторические романы являются одним из самых читаемых и противоречивых жанров романного жанра. Как следует из названия, исторический роман связан как с литературой, так и с историей. История предупреждает людей о взлетах и падениях социальной, экономической, политической и культурной жизни прошлых наций, народов и обществ. История — неисчерпаемый источник литературного материала. Исторические романы в начале 19 века под влиянием романтического литературного движения распространился из Англии в остальной мир, а в конце века начал проявляться в турецкой литературе. В начале века, когда Османскому государству грозил крах, интеллектуалы того времени решили предотвратить это. Они хотели вдохновить людей, вспомнив их светлое прошлое и дни, полные побед. Путь турецкого исторического романа начался с романа «Джезми», написанного Н.Камалом в период Танзимата, и прошел свой путь развития в XX веке.

В исследовании рассматриваются факторы, которые привели к появлению исторического романа в турецкой литературе, и исторические корни романа, затем исследуется история развития жанра с конца девятнадцатого до конца двадцатого века и завершается кратким обзором.

Ключевые слова: турецкая литература, исторический роман, Османская империя, период.

Dadaşova Arzu

THE ORETICAL VIEW OF THE DEVELOPMENT OF THE TURKISH HISTORICAL NOVEL

Summary

Historical novels are one of the most widely read and controversial genres of the novel genre. As its name suggests, a historical novel is related to both literature and history. History warns people about the rise and fall of the social, economic, political and cultural life of past nations, peoples and societies. History is an inexhaustible source of material for literature. In the early 19th century, under the influence of the Romantic literary movement, the historical novel spread from England to the rest of the world, and at the end of the century, it began to manifest itself in Turkish literature. At the beginning of the century, at a time when the Ottoman state was in danger of collapsing, the intellectuals of the time set out to prevent this. They wanted to inspire the people by remembering their bright past

and days full of victories. The course of the Turkish historical novel began with the novel "Cezmi" written by N.Kamal during the Tanzimat period, and passed its own path of development in the 20th century.

The study examines the factors that led to the emergence of the historical novel in Turkish literature and the historical roots of the novel, then examines the history of the development of the genre from the late 19th to the late 20th century, and concludes with a brief summary.

Keywords: Turkish literature, historical novel, Ottoman, period.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya üzrə elmlər doktoru , dosent Barat Osmanova tərəfindən çapa tövsiyə olunmuşdur.

AYŞƏN FAZİL QIZI QASIMOVA – MUSTAFAYEVA
Gəncə Dövlət Universiteti
Dissertant
ayshenmuellimeqasimova@gmail.com

RAMİZ RÖVŞƏNIN NƏSR DILINDƏ LEKSIK TƏKRARLARIN QƏDIM TÜRK POETIK ƏNƏNƏSI

Açar sözlər: *təkrarlar, leksika, semantika, üslub, poetika*
Ключевые слова: *повторы, лексика, семантика, стиль, поэтика*
Key words: *repetitions, vocabulary, semantics, style, poetics*

Fonetik elementlərdə olduğu kimi leksik vahidlərin təkrarlığı da mətnə üslubi çalarlıq, poetik rəngarənglik gətirir. Leksik təkrarlar üslubi bir fiqur kimi mətnin poetikləşməsində mühüm rol oynayır. Təkrarlar o zaman üslubi fiqura çevrilə bilir ki, onlar mətndə semantik əlaqə yarada bilsin, anlayışların daha canlı, daha rəngarəng ifadə olunmasına xidmət etsin. Aytən Bəylərova üslubi təkrarlardan təkrir adı altında bəhs edir və bununla əlaqədar olaraq yazır ki, "*Təkrir eyni söz, söz birləşməsi, ifadə, cümlə və ya bütöv bir abzasın əsərdə ustalıqla, müəyyən üslubi məqsədlə qəsdən, təkrar edilməsinə əsaslanan üslubi fiqurdur*" [6, s.66]. Buradan görünür ki, təkrarların işlədilməsi sadəcə hər hansı sözü boş-boşuna təkrar etməkdən ibarət deyildir. Təkrarlar mətndə üslubi məqsəd daşıyır, ritm yaradır, cümləyə poetik vüsət gətirir, hadisəni, təsviri obrazlaşdırır. Musa Adilov H.Cavidin əsərlərinin dilindən bəhs edərkən yazır ki, "*Şair təkrarları şeirin ritmi ilə əlaqələndirir, başqa sözlə, nitqin intonasiyasını, ahəngini çəkib şeirə gətirə bilir. Buradan da H.Cavidin bədii dilində digər bir novator xüsusiyyət görürük: klassik poetik təkrarlar adi danışıq vasitəsinə çevrilir, şeir ilə danışıq dili bir-birinə yaxınlaşdırılır*" [1, s.32]. Məhərrəm Hüseynov təkrarların mətni-üslubi xüsusiyyətlərindən bəhs edərkən onları bədii təfəkkürün məhsulu kimi qiymətləndirir. Həmçinin, söz təkrarları vasitəsi ilə yaradılan ritm və intonasiyanın xalq dili mənbələrindən qidalandığını göstərir [8, s.18].

Təkrarların mətndə üslubi-ekspressivlik və ritmik-poetik xüsusiyyət yaratmasını qədim və klassik mənbələrdə, o cümlədən folklor nümunələrində və müasir bədii mətnlərdə də görmək mümkündür. Leksik təkrarların poetik mənzərəsinin özünəməxsus ənənəsi Ramiz Rövşənin nəsr əsərlərində də müşahidə edilir. Qədim türk yazılı abidələrinin dilində eyni leksik təkrarlar demək olar ki, daha çox ya paralel tərkiblərdə və ya ardıcıl cümlələrdə işlədilir. Hər iki halda təkrar leksik vahidlər həm ritmyaratma vasitəsi kimi çıxış edərək poetizm yaradır, həm də mənanın qüvvətləndirilməsinə, intensivləşdirilməsinə və yadda qalan olmasına xidmət edir. Bunlara dair aşağıdakı kimi nümunələri misal göstərmək olar: "*İl yemə il boltı, bodun yemə bodun boltı*. ("El də (dövlət) el oldu, xalq da xalq oldu") (Tonyukuk abidəsi, Şərq tərəfi, 56); "*Kağanladuk kağanın yitirü ıdmıs. Tabğaç*

bodunna bəŋlik urı oğ kul boltı, silik kız oğlın küŋ boltı" ("*Xaqan qoyduğu xaqanı sona yetirmiş. Tabğaç xalqına bəylik nəsli davam etdirməli oğulların qul oldu. Bakirə qızların kəniz oldu*") ("Kül Tiqin" abidəsi, Şərq tərəfi, 7); "*Üç oğuz süsi basa kəlti. Yadağ yabız boltı tip alğalı kəlti. Sıŋar süsi süŋüşkəli kəlti*" ("*İlk qoşun (hissələri) səfərə çıxmışdı. İkinci qoşun (hissələri) evdə idi. Üç oğuz qoşunu basa-basa (basaraq) gəldi. Piyadaları zəif oldu – deyib bizi tutmağa gəldi. Qoşunun yarısı ev- eşiyimizi dağıtmağa getdi. O biri yarısı isə döyüşməyə gəldi*") (Bilgə Xaqan abidəsi, Şərq tərəfi, 32).

Qədim türk yazılı abidələrinin dilində bəzi hallarda yanaşı tərkibli eyni təkrarların izlərinə də rast gəlmək olur: "*Ol ödkə kul kullığ* (*Küŋ küŋ*lik) *bolmış erti. İnisi eçisin bilməz erti, oğlı kaŋın bilməz erti*"(*O vaxt qul qullu, kəniz kənizli olmuş idi. Kiçik qardaşı böyük qardaşını tanımazdı. Oğlu atasını tanımazdı*)" ("Kül Tiqin" abidəsi, Şərq tərəfi, 21).

Eyni sözlərin ayrı-ayrı sintaktik konstruksiyalar tərkibində işlənməsinə qədim türk ədəbiyyatı mətnlərindədə rast gəlmək olur:

"*Biliq bilin, ya bəgim*
Biliq saŋa eş bolur
Biliq bilən on ərkə
Bir kün devlet tuş bolur".
("*Bilik bilin, a bəyim!*
Bilik sənə eş olur
Bilik bilən hər kəsə
Bir gün dövlət tuş olur") [7, s.116].

"Kitabi-Dədə Qorqud"un dilində eyni sözlərin təkrarı təşbeh kimi işlənir, bədii təyin funksiyasında təsvir edilən hadisəni obrazlaşdırır: "*Bən varıcaq gəlibəni qarşıladılar, qara otağa qondurdular, qara keçə altıma döşədilər, qara qoyun yaxnısından önümə gətirdilər*" [9, s.25]. "Kitabi-Dədə Qorqud"un dilində, həmçinin mürəkkəb söz kimi yanaşı tərkibli təkrarların işlədilməsi də intensivləşdirmə və poetiklik yaradılması baxımından maraqlıdır:

Yapa-yapa qarlar yağsa yaza qalmaz
Yapağlı göncə çəmən güzə qalmaz [9, s.20].

Salqım-solqum daŋ yelləri əsdigində
Saqqallı bozac turğay sayradıqda [9, s.29].

Eyni sözlərin təkrarı ilə məna intensivləşməsi və poetik ənənəçilik klassik nümunələrdə, həmçinin sonrakı dövrə aid bədii ədəbiyyatın dilində də özünəməxsus şəkildə davam etmişdir. Xüsusən, folklor dilində eyni zamanda klassik nümunələrdə və digər nəsr əsərlərində eyni sözlərin təkrarı yolu ilə poetiklik yaradılmasını müşahidə etmək mümkündür. Bunlara aid aşağıdakı nümunələri misal göstərmək olar: *Atalar sözlərində*: "*Ac acı dalayar, tox toxu yalayar*" [4, s.17]; "*Dağ dağa qovuşmaz, insan insana qovuşar*" [4, s.79]; "*El el üstə sığışar, ev ev üstə sığışmaz*"

[4, s.98]; "*Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş*" [4, s.105]; "*Dama-dama göl olar, dada-dada heç*" [4, s.80]; "*İgid ölər, adı qalar, müxənnətin nəyi qalar*" [4, s.133].

Bu nümunələrdən göründüyü kimi xalqın mənəvi aləminin və ictimai dünyagörüşünün güzgüsü olan atalar sözlərində eyni söz təkrarının müxtəlif və rəngarəng növləri vardır.

Nağıl və dastan dilində:

"*Qarı var, ipəkdi, qarı var, köpəkdi, qarı var, iman Quran nəsib olsun, qarı var, ilan, qurbağa nəsib olsun*" [5, s.238].

"*Fatı qarı genə başdadı bazar aşağı, bazar yuxarı çağırmağa*" [5, s.35].

"*Bu dağ mənim, o dərə sənin, o dərə mənim, bu dağ sənin, az getdi, üz getdi, təpə aşıb düz getdi, gecələrin birində Çənlibelin ətəyinə çatdı*" [10, s.75].

Bədii nümunələrdə:

"[*Pərzad*] *Nə eləyim əlimdən nə gəlir? Atam ölübdür, bir anam ilə qalmışam əmimin ixtiyarında. Qardaşım yox, bir köməyim yox*" [3, s.69]; "*Söz yox ki, əgər qəndin yanınca bir girvənkə çay gətirsən nə sözüm var? – Bax, bu gözüm üstə, bax, bu gözüm üstə, bax, bu gözüm üstə, bax, bu gözüm üstə*" [11, s.57].

Verilən nümunələrdə eyni təkrarların rəngarəng xüsusiyyətləri diqqəti cəlb edir. Təkrarların bəziləri cümlə tərkibində xəbər kimi, mübtəda kimi, bəzilərində müştərək mübtəda kimi işlənir. Bəzi təkrarlar isə eyni cümlə üzvlərinin tam təkrarı kimi işlənir. Əlbəttə ki, təkrarların mətni-poetik və intensivləşdirici-obrazlaşdırıcı xarakteri bunlarla məhdudlaşmır, bədii təsvirin, obrazlaşdırıcılığın, ekspressiv emosionallıqla baş verən poetizmin təsiredici keyfiyyətinə görə onların müxtəlif ifadə vasitələrindən istifadə edilir. Bu mənada, Ramiz Rövşənin nəsr yaradıcılığında eyni təkrarların ənənəçilik üzrə davamındakı özünəməxsusluqlar xüsusilə diqqəti cəlb edir.

Ramiz Rövşənin nəsr yaradıcılığında leksik təkrarların işlədilməsinin aşağıdakı kimi növlərinə rast gəlmək olur:

Eyni sözlərin təkrarı. Eyni sözlər cümlədə həm mürəkkəb söz kimi işlənib intensivləşmə yaradır, həm də eyni təkrarlar ardıcıl işlənərək poetik bir mənzərə əmələ gətirir. Eyni sözlərin təkrarı həm cümlə daxilində ardıcıllıqla işlənir, həm də paralel tərkiblər daxilində paralelliyin poetizmini gücləndirir: "*Həmid, necə deyərlər, yar-yaraşıqlı oğlanıydı və fikirləşəndə ki, bu neçə ili uzaq-uzaq ölkələrdə, böyük-böyük şəhərlərdə Həmidə bircə qız da aşiq olmayıb, şəkil bağışlamayıb, çay qırağındakı bu qızlar pərt olurdular*" [13, s.522]; "*Xırda-xırda uşaqlar Əlişə deyəndə ki, suya girib balıq tutsun, Əliş suya giridi, çünki xırda-xırda uşaqlara inanırdı*" [13, s.508]; "*Qızlar o şəkillərə baxa-baxa gülüşürdülər, zarafatlaşdırdılar, bic-bic pıçıldaşırdılar… Sən demə, bu kəndin cavanlarından ötrü uzaq-uzaq ölkələrdə böyük-böyük şəhərlərdə bu cürə qəşəng-qəşəng qızlar dəli-divanəymiş*" [13, s.521].

Təkrarlar ayrı-ayrı ardıcıl cümlələrdə işləndikdə cümlələrə məxsus daxili məzmunu ümumiləşdirməklə həm də işləndiyi cümlələri poetizm baxımından bir bəndin qafiyə səciyyəli misralarına çevirir:

"*Yekə-yekə kişilər Əlişə deyəndə ki, suya girib balıq tutsun, Əliş suya girmirdi. Çünki yekə-yekə kişilərə inanmırdı*" [13, s.508]. Eyni sözün təkrarı ilə formalaşman sözlər paralel cümlələrdə işləndikdə də paralel cümlələr bir-biri ilə həmqafiyə əlaqəsində olan misraları xatırladır; "*Əliş qanlı-qanlı Səttərin üzünə baxdı. Səttər yazıq-yazıq Əlişin üzünə baxdı. Sədr Şərif heç birinin üzünə baxmadı*" [13, s.514].

Eyni təkrarlar mikromətn təşkil edən sintaktik konstruksiyalar arasında silsiləvi şəkildə işlədilərək mətnin emosional-ekspressiv təsir qüvvəsini canlandırır, həmçinin cümlələr və sintaktik konstruksiyalararası poetizm yaradır. Burada təkrar konstruksiyanı təşkil edən bir sözlə mürəkkəbtərkibli təkrar sanki növbələşərək nəsr dilini şeir dilinə çevirir. Eyni zamanda təkrarların bu qaydada işlədilməsi adi standart çərçivədən kənara çıxaraq təkrarolunmaz bir bədii mənzərə yaradır. Nümunə üçün aşağıdakı cümlələri buna misal göstərmək olar: "*Söyüş söymək Sədr Şərifin köhnə xasiyyətiydi. Uşaq olanda da söyərdi, özündən yekələri söyərdi. Böyüdü, özündən xırdaları söyməyə başladı. Söyə-söyə bığı çıxdı. Söyə-söyə getdi şəhərə, üç-dörd il oxuyub qayıtdı və qayıdandan sonra özüynən bir qucaq xoruz səsi eşitməmiş söyüş də gətirdi*" [13, s.511]. "*Hələ bir qulaq ver, donu da xışıldayır. Fatmanın donu doğrudan da xış-xış xışıldayırdı. Hava bir balaca sərinləmişdi. Xırdaca-xırdaca yel əsirdi. Müslüm tələsə-tələsə çölün düzüynən gedirdi və arxadan o donun xışıltısını eşidirdi. O necə xışıltıydı, Allah! Fatmanın donu nə gözəl xışıldayırdı*" [13, s.634].

Verilən birinci nümunədə cümlə konstruksiyaları *söymək* sözü ilə əlaqələnir, eyni zamanda, *söymək* sözünün əsasında mürəkkəbtərkibli təkrar işlədilir. Bunlar bir-biri ilə semantik, ritmik və konstruktiv bağlılıq təşkil edərək təkrarsız bir poetizm yaradır. İkinci cümlədə mikromətnin daxidil konstruktiv əlaqələri *xış-xış* tərkibi və bununla həmahəng qaydada ritmiklik yaradan xışıldamaq sözünün təkrarlanması yolu ilə baş verir.

Eyni sözlərin təkrarı ilə əlaqədar Ramiz Rövşənin yaratdığı poetik mənzərə barədə onu da demək lazımdır ki, mikromətn təşkil edən sintaktik konstruksiyaların ilk cümləsində hər hansı söz və ya təkrarın özü istiqamətverici, kompozisiyayaradıcı xarakter daşıyır, sintaktik bütövün priampulasına çevrilir; poetiklik baxımından ritmikliyin təməli kimi təsəvvür edilir. Sonrakı sintaktik konstruksiyalarda artıq başlanğıcdakı, priampuladakı aparıcı, ritmyaradıcı, qafiyələndirici söz tərkrarlanır, fikri, emosiyanı, informasiyanı intensivləşdirir, poetizmi ritorikləşdirir. Bu xüsusiyyət aşağıdakı kimi nümunələrdə özünün bariz təcəssümünü tapır:

"*Əliş qaça-qaça ağlayırdı, ağlaya-ağlaya söyürdü; göyü söyürdü, yeri söyürdü, özünü söyürdü*" [13, s.500]; "*Əlişin yekə-yekə kişilərnən söhbəti tutmurdu, çünki yekə-yekə kişilər öz işlərindən-güclərindən danışırdılar. Əlişin xırda-xırda uşaqlarnan söhbəti tuturdu, çünki xırda-xırda uşaqların nə işləri vardı, nə gücləri*" [13, s.508]; "*Yetim Qulu o qapıda, bu qapıda yetimçiliknən böyümüşdü; damdan*

yıxıla-yıxıla, çayda boğula-boğula, dünyanın bütün pis naxoşluqlarını çıxara-çıxara böyümüşdü. Ancaq damdan yıxılanda qıçı sınmamışdı, çayda boğulanda ölməmişdi, o ki qaldı naxoşluqlara, burada məsələ bir az qəlizləşir" [13, s.466]; "*Mikayıl kişi ağlayırdı. Elə ağlaya-ağlaya dedi ki, Əliş, bəs muştuluq-zad haqq-hesabı deyil, camaat xəbərə qaçdı, sən də qaç*" [13, s.500].

Bu nümunələrdə *"Əliş qaça-qaça ağlayırdı", "Əlişin yekə-yekə kişilərnən söhbəti tutmurdu", "Qulu o qapıda-bu qapıda yetimçiliknən böyümüşdü", "Mikayıl kişi ağlayırdı"* tərkibləri başlanğıcdır, sonrakı hissədəki təkrarların sanki ritmik köklənməsi vasitəsidir.

Eyni sözlər bəzi hallarda cümlə kompleksləri daxilində ayrı-ayrılıqda işlənir və cümlədaxili, mətndaxili ritm və ahəngdarlıqla səciyyələnən poetizm yaradır.

Bu tipli cümlələrdə və həmçinin ardıcıl işlənərək mürəkkəb sintaktik bütöv təşkil edən cümlə konstruksiyalarında da təşkiledici, priampula xarakterli başlanğıc tərkibinin işlədilməsi müşahidə edilir. Sonrakı hissələrdə artıq başlanğıcda aparıcılıq təşkil edən söz bir növ, poetik tərkibin qafiyə düzümünə çevrilir. Bunlara nümunə kimi aşağıdakı cümlələri misal göstərmək olar: "*Ətdən ət iyi gəlirdi, soğan iyi gəlirdi. Soğan iyi? Həə, soğan iyi! Soğan iyi, qardaş, vallah soğan iyidi. Soğansız xörəyin nə ləzzəti. Dəllək Əbil üzünü arvadına tutub çığırırdı*:

- *O xörəyin soğanını bol elə!- deyirdi* [13, s.642]; "*Sədr Şərifin ən xoşladığı söz* "*yeni*" *sözüydü; yeni texnika, yeni nəsil, yeni həyat…*; "O yeni texnikanı bu kəndə yeni nəsil gətirməliydi. O yeni texnikanın köməyiynən yeni nəsil bu kənddə yeni həyat qurmalıydı. Bundan ötrü yeni nəsil neyləməliydi? Oxumalıydı, savadlanmalıdı" [13, s.613]; "*Müslüm kişi bu arvadı burda belə qoyub o toyuqları hinə salmağa ürək eləmirdi, utanırdı. Kimdən utanırdı, niyə utanırdı, özü də bilmirdi, - eləcə dayanmışdı, gözaltı bir tərəfdən o toyuqlara baxırdı, bir arvadının yuxulu gözlərinə, utanırdı*" [13, s.581]; "*Cumdular bir kasa su gətirib gəldilər, verdilər müəllimə.*

- *İç, müəllim, boğazını yaşla! Bulaq suyudu, soyuq, dupduru…*

- *Deməli, içim deyirsiz…*

- *İç, müəllim, iç, içməyib neyləyəcəksən? Suyu içərlər də, qardaş, yeməzlər ki*" [13, s.615]; - *A camaat, -dedi, - çox baxıb gözünüzü ağrıtmayın. Onsuz da bu nemeslər o nemeslərdən deyil. O nemesləri elə qırıblar ki, heç toxumluğa bircəsi də qalmayıb*" [13, s.537].

Birinci mikromətnin başlanğıc tərkibindəki *soğan* sözü, ikinci mikromətnin başlanğıcındakı *yeni* sözü, üçüncü cümlədəki "*utanırdı*" sözü mikromətnin sonrakı tərkib üzvlərinin ritmik bünövrəsi, "qafiyəyönümlü" ahəngdar davamıdır. Dördüncü cümlədəki başlanğıc hissədə işlənən *su* sözü isə sonrakı tərkib hissələrdəki *iç*(mək) sözünün işlənməsinə rəvac verən təşkiledici vasitə nümunəsindən ibarətdir. Sonuncu cümlədəki "*Gözünüzü ağrıtmayın*" ifadəsi isə cümlədaxili *nemeslər* sözünün qafiyəyaradıcı bünövrəsini təşkil edir. Ramiz Rövşənin nəsr yaradıcılığında ritmiklik,

ahəngdarlıq, poetiklik yaradan belə nümunələr çoxcəhətlidir, obrazlılıq baxımından rəngarəng keyfiyyətlərə malikdir.

Mətni sinonim yaradan sözlərin təkrarı

Ramiz Rövşənin nəsr yaradıcılığında mətni sinonim kimi işlənən təkrarların poetiklik yaratması da müşahidə edilir. Mətni sinonimlər, əslində nominativ məna baxımından sinonim cərgə təşkil etmir. Lakin sənətkarın bədii təsvirində sinonim olmayan dil vasitələri belə ümumi məzmun etibarı ilə bir məcraya sığışdırılır və özünəməxsus sinonim cərgə yarada bilir. Mətni sinonimlər, eyni zamanda üslubi sinonimlər də adlandırılır. Dildə mütləq sinonim olmayan sözlərin üslubi məqam üzrə sinonim kimi işlədilməsi, onlarda sinonimlik keyfiyyəti yaradılması sənətkarın bədii təxəyyülünün zənginliyinin göstəricisi kimi qəbul olunur.

Üslubi sinonimlərlə əlaqədar verilən bu izah əlbəttə ki, təkcə bədii üslubla məhdudlaşmayıb daha geniş məzmun kəsb edir. Buradan görünür ki, üslubi sinonim dedikdə təkcə bədii əsərlərin dili nəzərdə tutulmur, ümumi halda, dilin bütün funksional sahələrini əhatə edir. Bədii nümunələrin üslubi sinonimliyinə gəlincə, burada yazıçı təxəyyülünün qüvvəsi ilə sinonim olmayanların sinonim sinonimləşdirilməsi bacarığı nəzərdə tutulur. Üslubi sinonimlər bədii mətndə, bir qayda olaraq təkrarlar daxilində daha çox müşahidə edilir. Mətanət Ağasıyevanın sinonim məsələsinə həsr olunmuş bir məqaləsində də haqlı olaraq göstərilir ki, "*Sinonim və bədii təkririn oxşar cəhəti onların hər ikisində eyni anlayışın təkrar olunmasıdır. Bədii təkrir mətnə bədiiliyi qüvvətləndirmək, müxtəlif çalarlarda təqdim etmək vasitəsi kimi, sinonim isə fikri qüvvətləndirmək vasitəsi kimi daxil olur*" [2, s.16]. Nəriman Seyidəliyev üslubi sinonimlərdən bəhs edərkən onların bədii ədəbiyyatda poetik səciyyə daşıdığını aşağıdakı kimi səciyyələndirir: "*Bədii yaradıcılıqda üslubi sinonimlərin seçilib işlədilməsi güclü bədii ifadə vasitəsi yaradır ki, bu da yaradıcıdan bacarıq və sənətkarlıq istedadı tələb edir*" [14].

Üslubi sinonimlərə aid şərhlərdə bir qayda olaraq nitqin üslubi rəngarəngliyinin, fikrin təsirliliyinin, emosional-ekspressiv çalarlığının təmin olunması xüsusiyyətlərinin başlıca yer tutması bildirilir [15].

Ramiz Rövşənin nəsr əsərlərinin dilində üslubi sinonimlər, bir qayda olaraq təkrarlıqla səciyyələnir. Belə təkrarlar ancaq cümlə daxilində ümumi anlayış kontekstinə daxil olur və bununla da bir tərəfdən ümumiləşdirilmiş anlayış intensivləşdirilir, digər tərəfdən təkrar olunan sözlərin ritm və ahəngdarlıq yaratması cümlədə ritorizmlə nəticələnir. Bu da cümlənin və ya mikromətnin poetikləşdirilməsinə xidmət edir. Ramiz Rövşənin nəsr əsərlərində mətni-üslubi sinonimlərin vasitəsi ilə poetizm yaradılmasının aşağıdakı kimi nümunələrinə rast gəlmək olur:

Təkrar olunan sözlər paralel konstruksiyalarda işlənir, məzmun cəhətdən mətndə üslubi sinonimə çevrilir, ritm yaratmaqla poetik səciyyə kəsb edir: "*Bayırda külək əsirdi, vıyıldayırdı. İçəridə ocaq yanırdı, çatıldayırdı*" [13, s.584]. Bu cümlədəki, *vıyıldamaq, çatıldamaq* nominativliyə görə sinonim deyildir. Lakin mətn

daxilində yaxın hadisəyə aid anlayış ifadə etdiyi üçün mətni sinonim kimi təəssürat yaradır. Ardıcıl cümlələrdə təkrar olunan cümlələr mətni-üslubi sinonim kimi işlənir, ardıcıllığın ritmikliyi cümləni ifadə baxımından poetikləşdirir: "*Arabanın içində büzüşdü, əzildi, ovuldu, töküldü, əridi, yox oldu- təkcə gözləri qaldı. Eləcə yiyəsiz-zadsız bir cüt gözüydü, baxırdı; ağaca, ota, öküzə, inəyə, ata-hər şeyə baxırdı*" [13, s.600]. Bu cümlələrdə *büzüldü, əzildi, ovuldu* və *ot, öküz, inək, at* sözləri nominativ sinonim deyil, cümlədaxili ümumi anlayışı bildirmək baxımından sinonimləşir.

Eyni cümlə daxilində təkrarlanan sözlər mətni-üslubi sinonim yaradır və təkrarlanan ritm poetikliyin baş verməsinə səbəb olur:

"*Ancaq gecələr yorğan-döşəyə girəndə o bir cüt qol yenə Müslümünkü olurdu, ağrıyırdı, göynəyirdi, sızıldayırdı*" [13, s.584]; "*Eləcə illər boyu bu dünyanın işığını, havasını, ətrini, qoxusunu-hamısını canına çəkib murdarladın*" [13, s.580].

Bu nümunələrdəki *ağrımaq, göynəmək, sızıldamaq* və *işıq, hava, ətir, qoxu* sözləri sinonim cərgə yaratmasa da təkrarlanma onlarda sinonim məzmunu əmələ gətirir. Təkrarlanan sözlər cümlənin başlanğıc tərkibinin məzmununu özündə əks etdirərək sinonimlik və poetizm mənzərəsi yaradır:

"*Əmisi qızı yatırdı; haylayıb-haraylayıb dürtmələyib-dümsükləyib oyadınca yatırdı*" [13, s.603]. *Bu qızın ayaqları bu dəqiqə yuxusunda da ora-bura çapırdı, iş dalınca, buyruq dalınca, qaçırdı, ilişirdi, yıxılırdı, dizi əzilirdi, dabanı çatdayırdı* [13, s.586]. Bu cümlələrdə "*Əmisi qızı yatırdı*" və "*Bu qızın ayaqları bu dəqiqə ora-bura çapırdı*" tərkibləri başlanğıcdır, təkrar olunan sözlər mətni-üslubi sinonim, təkrarların ritmikliyi isə poetik göstəricidir. Ramiz Rövşənin nəsr dili bu baxımdan zəngindir, maraqlıdır, yaddaqalandır. Bütün bunlar sənətkarın çox dərin müşahidə qabiliyyətə malik olduğunun canlı sübutudur.

İstifadə edilən ədəbiyyat

1. Adilov M. Sənətkar və söz. V cild. Bakı, Elm və Təhsil, 2019, 464 s; s.32.
2. Ağasıyeva M.S. Qantəmirin nəsr dilində sinonimlərin üslubi imkanları.// Sumqayıt Dövlət Universiteti "Elmi xəbərlər" Sosial və humanitar elmlər bölməsi. Cild 15, № 3, 2019, s.15-18.
3. Axundzadə M.F. Əsərləri. Dörd cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 296 s.
4. Atalar sözü. Bakı, Öndər nəşriyyat, 2004, 264 s.
5. Azərbaycan nağılları. Beş cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 360 s.
6. Bəylərova A. Bədii dildə üslubi fiqurlar. Bakı, Nurlan, 2008, 212 s.
7. Cəfərov N. Qədim türk ədəbiyyatı. Bakı, Az Ata M. 2004, 322 s.
8. Hüseynov M.A. Azərbaycan poeziyasının dil və üslub problemləri. (1960-1980-ci illər) filologiya elmləri doktoru diss.avtoreferatı. Bakı, 2013, 59 s.
9. "Kitabi-Dədə Qorqud". Bakı, Öndər nəşriyyatı, 2004, 376 s.
10. "Koroğlu" dastanı. Bakı, Azərb.EA nəşri, 1959, 508 s.
11. Məmmədquluzadə C. Əsərləri. 4 cilddə, I c., Bakı, Öndər nəşriyyat, 2004, 664s.

12. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə. I cild. Göytürk yazısı abidələri. Ih., Bakı, Nurlan, 2009, Nurlan, 2009, 464 s; V cild, Qədim türk yazısı abidələri. Qədim uyğur yazısı abidələri. II hissə. Bakı, Elm və təhsil, 2010, 500 s.
13. Rövşən R. Nəfəs. Kitablar kitabı (şeir, nəsr, esse). Bakı, Qanun nəşr., 2006, 760 s.
14. Seyidəliyev N. Müasir Azərbaycan dilində üslubi sinonimlər. Bakı, Elm və Təhsil, 2012; red: İ.O.Məmmədli: muhaz.org/azerbaycan-milli-elmler-akademiyasi-nesimi-adna-dilçilik-insti-html. Tarix: 20.01.2017.
15. Sinonimlər: wikipedia.aparim.az: 18 may, 2022.

Ayşən Fazil qızı Qasımova – Mustafayeva

Ramiz Rövşənin nəsr dilində leksik təkrarların qədim türk poetik ənənəsi

Xülasə

Mətndə linqvistik poetizm yaradılması üçün leksik təkrarların mühüm rolu vardır. Təkrarlar bədii mətndə o zaman üslubi əlaqə yarada bilir ki, onlar semantik əlaqə üarada bilsin, anlayışların daha canlı, daha rəngarəng ifadə olunmasına xidmət etsin. Mətndə leksik təkrarların ritm, ahəngdarlıq və ritorizm yaratmaq məqamında işlədilməsi zamanı həmin tipli ifadə vasitələri üslubi fiqur kimi səciyyəvi əhəmiyyət kəsb edir. Təkrarların mətndə üslubi-ekspressivlik və ritmik-poetik xüsusiyyət yaratmasına qədim və klassik mənbələrdə, o cümlədən, folklor nümunələrində və bədii mətnlərdə də görmək mümkündür. Qədim türk yazılı abidələrinin dilində eyni leksik təkrarlar demək olar ki, daha çox paralel tərkiblərdə və ya ardıcıl cümlələrdə işlənir. Hər iki halda leksik təkrarlar həm ritmyaratma vasitəsi kimi çıxış edərək poetizm yaradır, həm də mənanın qüvvətlənməsinə, intensivləşməsinə və yaddaqalan olmasına xidmət edir. Leksik təkrarların qədim türk yazılı abidələrində formalaşmış ənənəçiliyi xalqın bədii təfəkkürünün məhsulu olan nağıl və dastan dilində, atalar sözlərində, klassik ədəbiyyatda, o cümlədən müasir dövr bədii nümunələrində özünün parlaq təcəssümünü tapır. Müasir nəsrin tanınmış nümayəndələrindən biri kimi Ramiz Rövşənin povest və hekayələrinin dilində də qədim mənbələrdə ifadə olunan poetik təkrarların diqqətəlayiq və həm də ecazkar nümunələrinə rast gəlmək olur. Ramiz Rövşənin nəsr dilində qədim mənbələrdəki poetik təkrarlar yeni bir təsvir üsulunda canlandırılır. Bədii obrazların və hadisələrin təkrarlar vasitəsi ilə təsvirində həm ritm və ahəngdarlıq, həm də geniş bir poetik mənzərə yaradılır.

Ayshan Fazil Gasimova – Mustafayeva

LEXICAL REPETITIONS IN RAMIZ ROVSHAN'S PROSE LANGUAGE ANCIENT TURKISH POETIC TRADITION

Summary

Lexical repetitions play an important role in creating linguistic poeticism in the text. Repetitions can create a stylistic connection in an artistic text when they can create a semantic connection and serve to express concepts more vividly and colorfully. When lexical repetitions are used in the text to create rhythm, harmony, and rhetoric, those types of means of expression are of particular importance as a stylistic figure. It is possible to see repetitions in the text to create stylistic-expressiveness and rhythmic-poetic features in ancient and classical sources, including folklore examples and artistic texts. In the language of ancient Turkish written monuments, the same lexical repetitions are almost always used in parallel compositions or consecutive sentences. In both cases, lexical repetitions act as a means of rhythm creation and create poeticism, and also serve to strengthen, intensify and make the meaning memorable. The traditionalism of lexical repetitions, formed in the ancient Turkish written monuments, finds its bright embodiment in fairy tales and epics, proverbs, classical literature, including contemporary artistic examples, which are the product of the people's artistic thinking. As one of the well-known representatives of modern prose, in the language of Ramiz Rovsha's narratives and stories, remarkable and wonderful examples of poetic repetitions expressed in ancient sources can be found. In Ramiz Rovsha's prose, poetic repetitions from ancient sources are revived in a new way of description. Both rhythm and harmony, as well as a wide poetic landscape, are created in the description of artistic images and events through repetition.

Айшан Фазиль Гасимова – Мустафаева

ДРЕВНЕТЮРКСКАЯ ПОЭТИЧЕСКАЯ ТРАДИЦИЯ ЛЕКСИЧЕСКИХ ПОВТОРОВ В ПРОЗЕ РАМИЗА РОВШАН

Резюме

Лексические повторы играют важную роль в создании языкового поэтизма в тексте. Повторы могут создавать стилистическую связь в художественном тексте, когда они могут создавать смысловую связь и служат для более яркого и красочного выражения понятий. При использовании в тексте лексических повторов для создания ритма, гармонии и риторики эти виды выразительных средств имеют особое значение как стилистическая фигура. Повторы в тексте для создания стилистико-выразительных и ритмико-поэтических особенностей можно увидеть в античных и классических источниках, в том числе в фольклорных образцах и художественных текстах. В языке древнетюркских

письменных памятников одни и те же лексические повторы почти всегда используются в параллельных композициях или последовательных предложениях. В обоих случаях лексические повторы выступают как средство ритмотворчества и создания поэтичности, а также служат для усиления, усиления и запоминаемости смысла. Традиционализм лексических повторов, сложившийся в древнетюркских письменных памятниках, находит свое яркое воплощение в сказках и былинах, пословицах, классической литературе, в том числе и современных художественных образцах, являющихся продуктом народного художественного мышления. Как одного из известных представителей современной прозы, в языке повестей и рассказов Рамиза Ровши можно найти замечательные и прекрасные образцы поэтических повторов, выраженных в древних источниках. В прозе Рамиза Ровши поэтические повторы из древних источников возрождаются в новом способе описания. И ритм, и гармония, и широкий поэтический пейзаж создаются в описании художественных образов и событий путем повторения

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Mübariz İmran oğlu Yusifov
Filologiya elmləri doktoru, professor
tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSALƏ NƏSİBOVA
AMEA Folklor İnstitutu, filologiya üzrə fəlsəfə doktoru,
e-mail:vusala.nasibova1221@gmail.com

SAÇ VƏ TÜKLƏ BAĞLI İNANCLAR

Xalqımızın həyatında ta qədim dövrlərdən mühüm yer tutan inanclar bu gün də aktuallığını itirməmişdir. Xalq həyatın, demək olar ki, bütün sahələrinə aid müxtəlif inanclar yaratmışdır və daxilən bu inanclara inanmışdır. İnanclar ən qədim icmalardan ən müasir cəmiyyətə qədər tarix boyu bütün dövrlərdə və demək olar ki, bütün xalqlarda az və ya cox dərəcədə mövcud olmuşdur.Qədim zamanlardan insanlar ətrafa, mühitə, baş verən hadisələrə baxmış, təhlil etmiş, nəticələr çıxarmış, təkrarlanan hadisələr, tipik əlamətlər yadda qalmış, beləcə inanclar formalaşmışdır. Beləliklə də, bu inanclarla baş verə biləcək hansısa bədbəxt, arzuolunmaz hadisənin qarşısını almağa, insanları qabaqcadan xəbərdar etməyə, və ya gözlənilən hər hansı xoş hadisəni proqnozlaşdırmağa çalışmışlar. İnsanları inanclara inananlar və ya inanmayanlar kimi qruplara bölmək mümkün deyildir. Çünki az və ya çox dərəcədə hər bir insanın içində inanclara inam mövcuddur. „ İnanclar ibtidai insanların şüuruna təsir edən ən arxaik folklor düşüncəsidir ’’. (10. səh 276)

Həyatımızın bütün sahələrinə aid müxtəlif inanclar mövcuddur. Bayramlarla bağlı, əşyalarla, insan həyatı ilə, sağlamlıq və xəstəliklə bağlı saysız inanclar nəsillərdən- nəsillərə ötürülərək bu günümüzə çatmışdır. İnancların yaranması insanların gündəlik həyatlarında qarşılaşdıqları, müşahidə etdikləri,sınadıqları, hadisələrlə bağlıdır. İnanclar bir cox yozma, sınama, yoxlama mərhələlərindən keçərək qətiləşmiş və inanca çevrilmişdir. „İbtidai insan ailə, məişət, həyatında, təbiəti dərketmə prosesində rast gəldiyi yüzlərlə hadisələrlə bağlı inanclar yaratmışdır. Qədim insanın çoxsahəli əmək həyatı, real və mifik təsəvvürləri, astral görüşləri xalq inanclarının yaranmasına mühüm təsir göstərmişdir.” (1. səh 312)

Axşam süpürülən evdən bərəkət əskilər
Axır çərşənbənin falı doğru deyər
Barlı ağacı kəsənin ömrü az olar
Cüt səbir xeyirli olar
Çörəyi yerdə görüb ayaqlayanın gözü kor olar
Dəsmalı özgəsinə vermək ayrılıq gətirər
Duz yerə töküləndə yığmasan evdə dava düşər
Gözü yol çəkən adam təzə xəbər eşidər
Xallı qız bəxtəvər olar
Qaranquş alçaqdan uçanda yağıntı olar
Qırxılı uşağa sarı geyindirməzlər
Süfrəni əli ilə silən yoxsulluğa düşər(18.)

Həyatımıza daxil olmuş qədim inancların arasında saçla, tüklə bağlı inanclar da geniş yayılmışdır. Ta qədimdən insanlar saçın, tükün ruhu olduğuna, canlı olduğuna, qeyri adi gücə malik olduğuna inanmışdılar və buna müxtəlif anlamlar vermişdilər. Saç və tüklə bağlı inancların əksəriyyətində saç, tük canlı, ruhla əlaqəli hesab olunur, insanı qorumasına və ona güc verməsinə inanılır. Xalq ədəbiyyatında saça çox qüdrətli bir güc kimi baxılır, saç canlı və güclüdür, saçın ruhla əlaqəsi vardır, saç vasitəsilə onun sahibinin ruhuna təsir göstərmək mümkündür və buna görə də saçı kəsmək, yumaq, daramaqla bağlı bir çox inanclar yaranmışdır:

Başı qırxdırannan sonra saçdarı və tükləri yandırmax, nə də ayax altında qoymax olmaz, yoxsa başı qırxılan adamı baş ağrısı tutar (4. səh 29).

Baş tükü ayaxlananda baş ağrıyar (2. səh 89).

Başından bir tük əskik olmasın (5. səh 91).

Başını darayarkən saçını tullamaq- pis əlamətdir. (3. səh 36).

Gecə vaxtı dırnaq tutub, saç kəsməzlər, onda evdə ölüm olar. (6 səh74).

Saç ayax altda qalanda başı ağrıyar adamın. (7.səh 183)

Qırxılmış saçı tapdalamazdılar ki, günahdır, insanın başı ağriyar. (8. səh 22).

İnanclardan görünür ki, saçın gücünə, onun canlı olmasına, qeyri- adi qüvvəsinə inam vardır, onu canlı varlıq kimi təsəvvür edirlər. Saç insanın gücü , qüvvəti deməkdir. Qədim dövrlərdə qəhrəmanların uzun saca malik olmaları da bu inanca söykənir, uzun saç qəhrəmanların həm gücünü artırır, həm də onları qoruyur. İnsanlar saçın qoruyucu ruh daşıdığına inanmışdilar. Bu qoruyuculuq misiyasının izlərinə bu gun də bəzi bölgələrdə yaşayan inanclarda rast gəlirik: „Uşağı qalmayan qadın niyət edir ki, ay Allah, bu uşaq qalsın, onun başında tük saxlaram. Barmax yoğunnuğunda kəkil saxlanılırdı. Sora aparıb onu Ko Murad üstündə kəsirdilər.Uşax böyüyür, bir beş yaşına çatanda onu aparıb ora. Həm qurbanını , həm də saçını kəsir " (9. səh175). Bir çox türk xalqlarında zəif və xəstə doğulan körpəni qorumaq üçün saçını qırxarkən başında bir qədər tükün saxlanılması inancına rast gəirik, mənbələrdə başda saxlanılan bu tük „ karın saç", „haydar", „ niyaz saç" adlandırılır. (11.səh 92-96)

„Karın saç" kəlməsi uşağın ilk saçı, ana bətnindən gələn saçı mənasına gəlir, qədim türk xalqlarına məxsus inanclara görə ana bətnindən gələn bu saç uşağın ruhudur və qeyri-adi gücə sahibdir. „Niyaz saç" isə nəzir-niyaz sözündəndir, çox güman ki,qurban vermə ilə bağlıdir. „Çocuğun saçının ilk kəsilməsində bir çox əyləm yapılmışdır. Çocukları çok yaşamadan ölən və ya çocukları çok hastalanan ailənin çocuğunun saçı ilk kəs kəsildiyndə onun „karın saçı"nı yeni bir kumaş parçasına sararak bir evliyanın ziyaretgahına gömərlər. Bununla çocuğun atalarının və evliyaların ruhunun himayəsində olacağını umarlar". (12.səh 225).

Saçla bağlı inanclar insan ömrünün doğum, nigah, ölüm kimi mərhələləri ilə bağlı adətlərə dərindən həkk olunmuşdur, bu isə insanların saçın ruhla bağlılığına

dərindən inandıqlarını bir daha sübut edir. Saçla, tüklə bağlı xalq inancları tarix boyu möhkəmlənərək bu gunumuzə qədər gəlib çatmışdır, istər kişi, istər qadın, istərsə də uşaqların sacları, daranması, istər şad günlərdə, istərsə də qəmli günlərdə saça (saqqala)müxtəlif mistik mənalar yüklənməsi mövcud olmuşdur. Buraya uşaq doğulduqdan sonra ilk saçının kəsilməsi, saçın ağırlığında nəzir verilməsi, çox qədimlərdə qız və ya oğlan uşaqlarının saç yiğma və ya kəsilmə şəkillərinin olması, evlənib qızlıqdan gəlinlik mərhələsinə keçərkən saç şəklinin dəyişdirilməsi, toy mərasimində saç boyanması, yas tutarkən saçın açılıb dağınıq buraxılması, kişilərdə saç və saqqalın qırxılmaması və s. adətləri nümunə göstərə bilərik. Qədimdə qadınların hörük və yaylıq baglama səklindən evil, nişanlı və ya subay olduğu bilinərdi. Inanclara görə, hamilə qadın körpəsi dünyaya gələnə qədər hamiləlik dönəmində saç kəsməz, kəsərsə, uşağının ömründən kəsər. Qızların saçı tək hörük hörülərdi, evlənmiş qizin saçı artıq ikiyə ayrilar, cüt hörülərdi, cüt hörük ərlə arvadın iki ruhunun birləşməsi , ölüncəyə qədər bir olması mənasına gəlirdi. Yas zamanı qadınların saç yolması qədimdə qadınların ərləri olərkən hörüklərini açıb dağıtması, kəsib tabutun üstunə qoyması, birləşmiş ruhların ayrıldığı inanclarının izləridir. „ Saçın yayılması və ya kəsilməsi matemin sembölüdür. Bunu halk arasında dolaşan „ saçın kesilsin" bedduasından da anlayabiliriz. Bu beddua geneldə yanlış bir hareketi gerçekleşdiren kız ve ya kadına karşı söylənilir. Bu bedduanın temelinde o kız vey a kadının en yakın destekçisi olan erkeğin ölümünü dileme vardır." (12.seh 224).

Saç və tükün sehirli gücünə inanan insanlar bəzi heyvanların da tükündə xüsusi sehrin, qoruyuculuğun olduğuna inanırdılar. Biz nağıllarda qəhrəmanın koməyinə cağırmaq üçün heyvanın tükünün, quşun lələyinin yandırilması motivlərinə cox rast gəlirik. Bundan əvvəlki məqaləmizdə bu məsələyə yetərincə toxunmuşuq. İnanclarda da bəzi heyvanların tüklərində olan gücə inam oz əksini tapmışdır.

Uşaq bir heyvandan (quşdan) qəflətən qorxarsa, həmin heyvanın (quşun) tükünü üzərriklə yandırıb uşağa iylədərlər (13.səh 391).

İt tukunnən uşağın üstünə tikillər kin, uşağa göz dəyməsin (14.səh 23).

Dəvənin tükünnən uşağın yaxasına tiksələr, ona göz dəyməz (15. səh 34).

Cıdırda iştirak edən igid gərəkdir sürüyə çıxardığı ayqarın yəhərinin yastığına və ya təkaltısına yalquzaq tükü (Bozqurd) taxsın. O vaxt sürəkdə at mənzil başına hər kəsdən tez çatar. Nəmər sahibi olar. (16.səh 53).

Oğlanın istədiyi qız tərslik edib ipə-sapa yatmazsa, oğlan istədiyi istək-arzusuna yox deyərsə, onda tərəflərin atalarının razılığına görə ilxıdan təzəcə ram edilmiş xam qulanın yalından kəsilmiş tükü qızın (və ya oğlanın) geyim paltarının iç tərəfindən görünməyən bir yerinə tikərlər ki, tərslik etməsinlər, razılığa gəlsinlər (16.səh 53).

Saçla bağlı inanclardan danışarkən daraqla bağlı inanclardan yan keçmək mümkün deyildir. Qədim vaxtlardan daraq iki məqsədlə istifadə olunmuşdur: saç daramaq və tilsim etmək üçün, saçın sehirli gücünə inam qadınların saçlarını

daradıqları və saça taxdıqları darağın da sehirli gücə malik olmasına inam yaratmışdı. Daraq nümunələrinə qədim əfsanələrdə, rəvayətlərdə, nağıllarda da çox rast gəlirik. Qədim qəbirlərdə rast gəlinən daraqlar isə ölən adamı o biri dünyada tilsimdən , pis ruhlardan qorumaq məqsədi ilə qoyulmuşdu. Daraqlarda mistik gücün olmasına inamın izlərini bu gun bəzi inanclarda dörə bilirik:

Duzla baş darağını qonşuya verməzlər. Versən evdən baş ağrısı əskik olmaz. (17. səh 63)

Əvvəllər belə bir inanc var idi ki, başqasının darağı ilə saç daramaq, başqasının „başının bəlası" nı öz başına açar.(19)

Hər tüküm bir daraqdadır (söylədi: Elçin Qaliboğlu, Ağsu rayonu Kalva kəndi). Burada insanın başındakı fəlakətin böyüklüyü, sarsıntı, faciə, çixilmaz vəziyyət mənasındadır.

İnanclar müasir dövrdə də həyatımızın hər sahəsində mövcuddur, saçla, tüklə bağlı inancların bir çoxu aktuallığını bu gün müəyyən qədər itirsə də, bəziləri el arasında hələ də sınanmağa, inanılmağa davam edir. Saç və tüklə bağlı inancları oyrənməklə xalqımızın mifoloji dünyagörüşünün dərinliyinə və rəngarəngliyinə varmış, müasir mənəviyyatımızın köklərini aşkarlığa qovuşdurmuş oluruq.

Ədəbiyyat

2. Azad Nəbiyev „Azərbaycan xalq ədəbiyyatı" I hissə, 680 səh, Bakı, Turan-2002
3. Azərbaycan folkloru antalogiyası, VIII kitab, (Ağbaba folkloru), Bakı, „Səda'', 2003, 476 səh
4. Azərbaycan folkloru antalogiyası, XI kitab, (Şirvan folkloru), Bakı, „Səda" nəşriyyatı 2005, 442 səh
5. Azərbaycan folkloru antalogiyası, VII kitab, (Qaraqoyunlu folkloru), Bakı, „Səda'' nəşriyyatı, 2002. 464 səh
6. Azərbaycan folkloru antalogiyası, VIII kitab, (Ağbaba folkloru) 476 səh
7. Azərbaycan folkloru antalogiyası, XV kitab, (Dərəlyaz Folkloru), Bakı, „Səda", 2006, 484 səh
8. Azərbaycan folkloru antalogiyası, (Ağdaş folkloru), Bakı, „Səda ", 2006, 496 səh
9. Azərbaycan folkloru antalogiyası, XX kitab, (Loru- Pəmbək folkloru), Bakı, „Nurlan" nəşriyyatı, 2011, 399 səh
10. Azərbaycan folkloru antalogiyası, XVI kitab, (Ağdaş folkloru, Bakı, „Səda", 2006, 496 səh
11. Ramil Əliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). -Bakı 2014, 350 səh
12. G. P. Snesarev, Reliktı domusulmanskiy verovaniy i obryadov I uzbekov Harezma, Nauka, Moskva 1969, 336 səh

13. M. Jurayev, Z. Resulova, Saçın büyü yapma özəlliği ve özbək halk masallarında ele alınması, Türk Dünyası İncelemeleri Dərgisi, XIII/1 (Yaz 2013),səh 225
14. Azərbaycan folkloru antalogiyası, VI kitab, Şəki folkloru, Bakı, „Səda “, 2002, 494 səh
15. Azərbaycan folkloru antalogiyası, VII kitab, (Qaraqoyunlu folkloru), Bakı 2002, „Səda” nəşriyyatı, 464 səh
16. Azərbaycan folkloru antalogiyası, XI kitab, (Şirvan folkloru) Bakı, „Səda “, 2005, 442 səh
17. Azərbaycan folkloru antalogiyası, XXI kitab, (Qazax örnəkləti) Bakı, „Elm və təhsil“ nəşriyyatı, 2012, 376 səh
18. Azərbaycan folkloru antalogiyası, XIX kitab, (Zəngəzur folkloru) II cild Bakı, „Nurlan“, 2009, 416 səh
19. https://az.wikisource.org/wiki/İnanclar
20. https://kayzen.az/blog/maraqli-faktlar/14659/saçın-sehirli-gücü.html)

Vüsalə Nəsibova

Xülasə

İnanclarda saç, tük sehirli gücə malikdir. Saç və tüklə bağlı inancların əksəriyyətində saç, tük canlı, ruhla əlaqəli hesab olunur, insanı qorumasına və ona güc verməsinə inanılır. İnanclarda saçı canlı varlıq hesab edirlər, qədim inanclara görə saça təsir etməklə onun sahibinin ruhuna təsir etmək mümkündür. Saç və tükün sehirli gücünə inanan insanlar bəzi heyvanların da tükündə xüsusi sehrin, qoruyuculuğun olduğuna inanırdılar .Saçla bağlı inanclardan danışarkən daraqla bağlı inanclardan yan keçmək mümkün deyildir. Qədim vaxtlardan daraq iki məqsədlə istifadə olunmuşdur: saç daramaq və tilsim etmək üçün, saçın sehrli gücünə inam qadınların saçlarını daradıqları və saça taxdıqları darağın da sehirli gücə malik olmasına inam yaratmışdı. İnanclar müasir dövrdə də həyatımızın hər sahəsində mövcuddur, saçla, tüklə bağlı inancların bir çoxu aktuallığını bu gün müəyyən qədər itirsə də, bəziləri el arasında hələ də sınanmağa davam edir.

Acar sözlər: inanclar, tük, saç, sehrli güc, sınama, magiya

Вусаля Насибова

Поверья о волосах и перьях

В поверьях волосы обладают магической силой. В большинстве поверий о волосах и перьях, волосы и перья считаются живыми, связанными с духом, и считается, что они защищают и придают силы человеку. В поверьях волосы считаются живым существом, согласно древним поверьям, воздействовать на душу своего владельца можно воздействуя на волосы. Люди,

верящие в магическую силу волос и перьев, считали, что мех некоторых животных обладает особой магией и защитой. Говоря о поверьях о волосах, нельзя обойти стороной поверья о гребне (расческе). С древних времен расческа использовалась для двух целей: расчесывания волос и произнесения заклинаний, вера в магическую силу волос привела к убеждению, что расческа, которой женщины расчесывали и носили на волосах, также обладала магической силой. Поверья присутствуют в каждом аспекте нашей жизни, даже в современное время, хотя многие поверья, связанные с волосами, сегодня утратили свою актуальность, некоторые из них продолжают проверяться среди людей.

Ключевые слова: поверья, перо, волосы, магическая сила, испытание, магия.

Vusala Nasibova

Beliefs about hair and feathers

Hair is believed to have magical powers. In most beliefs about hair and feathers, hair and feathers are considered to be alive, associated with the spirit, and they are believed to protect and give strength to a person. In beliefs, hair is considered a living being, according to ancient beliefs, you can influence the soul of its owner by influencing the hair. People who believe in the magical power of hair and feathers believed that the fur of some animals has special magic and protection. Speaking of beliefs about hair, one cannot leave out the belief about the comb (hairbrush). Since ancient times, the comb has been used for two purposes: combing hair and casting spells, belief in the magical power of hair led to the belief that the comb, which women combed and wore on their hair, also had magical powers. Beliefs are present in every aspect of our lives, even in modern times, although many beliefs related to hair have lost their relevance today, some of them continue to be put to test among people.

Key words: beliefs, feather, hair, magical power, test, magic.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: f. e. d. Seyfəddin Rzasoy
tərəfindən çapa tövsiyə olunmuşdur

SOLMAZ NURİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Üzeyir Hacıbəyli, 68, Bakı,
Səbail, AZ1000
e-mail:solmaznuriyeva20@gmail.com

İCMAL MÖVZULARININ ÖYRƏDİLMƏSİNİN ƏHƏMİYYƏTİ VƏ YOLLARI

X-XI siniflərdə ədəbiyyat fənninin məzmununa daxil olan icmal mövzuları xüsusi əhəmiyyət kəsb edir və digər siniflərdə keçilənlərdən fərqlənir. İcmal dedikdə xülasə, konspekt, hər hansı bir yazının yığcam şəkildə ifadə olunması başa düşülür. Bu materiallar ədəbiyyatın ədəbi-tarixi zəmində öyrənilməsi üçün ən yararlı vasitələrdəndir. Ədəbiyyatın tədrisində icmal mövzulardan şagirdlərə ədəbiyyat tarixi ilə bağlı sistemli biliklər vermək məqsədilə istifadə olunur. Onlar müəyyən bir dövrün səciyyəvi xüsusiyyətlərinin şagirdlərə çatdırılmasında mühüm rol oynayır. Bu mövzular şagirdlərə ədəbiyyatımızı bir-biri ilə əlaqəsiz tarixi dövrlər kimi deyil, daim dəyişən, təkmilləşən, müəyyən harmoniyaya malik bir proses kimi dərk etdirir.

İcmallar müxtəlif məqsədlərin reallaşmasına imkan yaradır. Onlar ya kursun başlanğıcında ümumi təsəvvürlər verir, ya bir neçə əsrlik ədəbi nailiyyətlərimizi bəyan edir, ya bəhs edilən dövrün ictimai-tarixi mənzərəsini verir, ya da sonrakı mərhələlərdə geniş tədris ediləcək hər hansı bir əsərin düzgün qavranılmasına zəmin hazırlayır. Başqa sözlə, monoqrafik mövzuların dərindən öyrənilməsinə hazırlıq məqsədi güdür. Buna görə də ədəbiyyat kursunda əhatə olunan icmal materialları "Giriş", "Ədəbi-tarixi", "Sənətkarın həyatı,yaradıcılıq yolu" başlığı altında verilir.

İcmal mövzularının tədrisində ən vacib məsələlərdən biri şagirdlərdə müşahidə qabiliyyətinin inkişaf etdirilməsidir. Onlar öyrəndikləri mövzudakı zaman kəsiyini, həmin zaman kəsiyinin ictimai-tarixi mənzərəsini, dövrün sənətkarlarının bədii irsini, həmin dövrdəki ənənənə və novatorluq məsələlərini də ciddi müşahidə edə bilirlər.

Bu materialların digər bir üstün cəhəti şagirdlərə çox qısa vaxt ərzində geniş məlumatın çatdırılmasına imkan yaratmasıdır. Məsələn: X sinifdə tədris olunan "Orta dövr Azərbaycan ədəbiyyatı" icmal mövzusunun imkanlarına nəzər salaq. Bəhs etdiyimiz dövrdə ədəbiyyatımızda bir sıra mühüm hadisələr olmuşdur:

- Ana dilli ədəbiyyatın yaranması;
- Müxtəlif təriqətlərin meydana gəlməsi;
- Fəlsəfi şeirin yaranması ;
- Tuyuq janrının yaranması və formalaşması;

Bu icmal mövzusu həmin dövrdə yaranmış ədəbiyyatın başlıca xüsusiyyətlərinin, eləcə də növbəti dərslərdə keçiləcək monoqrafik mövzuların, yəni

Şah İsmayıl Xətayi, İmadəddin Nəsimi kimi sənətkarların həyat və yaradıcılıq yolunun əhatəli mənimsənilməsinə əlverişli imkan yaradır.

Bu deyilənləri ümumiləşdirsək, belə bir nəticəyə gəlmək olar ki, icmal mövzuların tədrisi vacib olduğu qədər də, mürəkkəbdir. Belə mövzuların tədrisi müəllimdən böyük pedaqoji bacarıq tələb edir. İcmal mövzularının şagirdlərə hansı iş üsulları ilə öyrədilməsi mövzunun mənimsənilməsinə təsir edir. Bircə o faktı xatırlatmaq kifayət edər ki, bu materialların tədrisində müxtəlif təlim texnologiyalarından istifadə edilməsi zəruridir.. Bunlardan ən başlıcası müzakirə metodudur.

Müzakirə müəyyən mövzu, problem üzrə məlumat, ideya, təəssürat və s. bağlı fikirlərin qarşılıqlı mübadiləsidir. Müzakirənin müxtəlif formaları vardır. Bunlardan daha geniş tətbiq olunanı diskussiyadır. Diskussiyanın iştirakçıları müzakirə edilən məsələlər üzrə zəruri biliklərə malik olmalıdır. Diskussiyada böyük təlim-tərbiyə əhəmiyyətinə malikdir, o, problemin dərindən qavranılmasına, şagirdlərdə öz mövqeyini müdafiə etmək, başqalarının rəyi ilə hesablaşmaq, fərqli müzakirələrə dözümlü yanaşmaq kimi bacarıqların formalaşdırılmasına imkan yaradır. (4, s.202)

Bunun üçün "Yeni dövr Azərbaycan ədəbiyyatı" mövzusunun I mərhələsinin (XVII-XVIII əsrlər) müzakirəsinə diqqət yetirək. Bu dərsdə müzakirənin bir forması olan debat metodunun tətbiq edilməsi ilə dərs belə qurulacaqdır. Şagirdlər mövzunun fərdi oxusunu həyata keçirirlər. Daha sonra müzakirə aparan tərəflər müəyyənləşdirilir. Şagirdlər iki qrupa bölünürlər: bir qrup təsdiqedici mövqedə, digəri isə inkaredici mövqedə dayanır. Birinci qrup mövzudan alınan ümümi nəticəni, yəni XVII əsrin şifahi ədəbiyyatda intibah dövrü olduğu fikrini düzgün qəbul edir, ikinci tərəf isə bu fikri təkzib edir. Şagirdlər arasından hakim seçilir. Hər iki tərəfin vəzifəsi öz fikirlərini dəlillərlə, icmalda öz əksini tapan bədii nümunələrlə hakimi inandırmaqdır. Bu üzakirə nəticəsində şagirdlər mövzu ilə bağlı dolğun biliyə yiyələnirlər.

Müzakirə dərs prosesində başlanır.Mətnin oxusu dərsdə keçirilir, lazımi əlavə mənbələrə müraciət olunur, bundan sonra müzakirələr aparılır. Yəni burada ilkin və ən vacib mərhələ dərslikdəki mətnin oxunmasıdır. Bunu misallarla daha dürüst şəkildə izah edək. Məsələn: "Orta dövr Azərbaycan ədəbiyyatı" mövzusunun tədrisi zamanı keçiləcək yeni materialın mənimsənilməsi üçün dərs aşağıdakı mərhələlərdə qurulur:

-İnteraktiv təlimin ən mühüm komponenti olan motivasiya mərhələsində yeni mövzu bu mövzuda şagirdlərin aşağı siniflərdə öyrəndikləri məlumatlarla əlaqələndirilir. Burada şagirdlərin tarix dərslərində mənimsədikləri biliklər də səsləndirilə bilər. Bunun nəticəsində yeni biliklərin mənimsənilməsi üçün möhkəm zəmin yaradılır. Bu mərhələnin sonunda şagirdlərlə birlikdə problem müəyyənləşdirilir.

-Tədqiqat mərhələsində mətnin oxusu aparılır. Mətnin hissə-hissə fərdi oxusu vaxta qənaət etmək baxımından daha yaxşıdır. Və müzakirələr də oxunan bu ayrı-ayrı hissələr üzrə keçirilir.

- Şagirdlərin əlavə mənbələrindən məlumat əldə etmələri məqsədəuyğundur. Bu mənbələr tarix kitabları, dərslikdə göstərilən kitablar, yaxud müəllimin tövsiyə etdikləri ola bilər.

- Daha sonra isə dərslikdəki mətnkənarı sulların əhatəli cavabları axtarılır, tapşırıqlar yerinə yetirilir. Bu proses həyata keçirilərkən müxtəlif iş formalarından istifadə oluna bilər: fərdi, cütlük şəklində, kiçik qruplarda.

Müzakirənin debat şəklində təşkili isə daha effektli nəticə verir. Müzakirə zamanı müxtəlif fikirlər səsləndirilir, söylənilənilənlərin əsaslandırılması tələb olunur.

-Nəticə və ümumiləşdirmə mərhələsində müzakirə yekunlaşdırılır, mənimsənilənlər ümumiləşdirilir. Beləliklə, öyrənilənlər dərinləşdirilir və bütün bunlar nəticələrin çıxarılması ilə müşayiət olunur.

-Ən sonda, yəni qiymətləndirmə mərhələsində müəllim fərdi və ya qrup üzrə qiymətləndirmə aparır. Müəllim dərs zamanı müzakirələrdə şagirdlərin iştirakı barədə öz rəyini bildirir, çatışmazlıqları nəzərə çatdırır.

İcmal xarakterli materiallar geniş təlim-tərbiyə imkanlarına malik olmalarına baxmayaraq, onlara ayrılan saatların həcmi azdır. Ümumiyyətlə, yeni texnologiyaların başlıca məqsədi çoxlu həcmdə bilik vermək deyil, öyrənəni tədqiqatçı vəziyyətində qoymaq, müəyyən bir problemi müstəqil araşdırmaq bacarığını formalaşdırmaqdır. Onda təlim materialının həcmcə böyük olması vacib olmadığı kimi, sərfəli də deyildir. Bu mənada humanitar fənlərin indiki proqramı, dönə-dönə qeyd etdiyimiz kimi, fəal/interaktiv təlimin tətbiqi baxımından əlverişli deyildir; təlim materiallarının çoxluğu, onların tədrisinə ayrılmış saatların məhdudluğu səmərəli nəticənin əldə edilməsinə, əksər hallarda, mane olur. (5, s.196).

İcmal mözularının tədrisinin düzgün təşkili şagirdlərin ədəbiyyat tarixi üzrə dərin və sistemli biliklərə yiyələnməsinə səbəb olur. Bunun üçün də bu mövzuların üzərində çox işləmək, tədrisi üçün daha effektli yollar müəyyənləşdirmək metodikanın çoxcəhətli vəzifələrindən biridir.

İstifadə olunmuş ədəbiyyat:

1. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, “Bakı” nəşriyyatı, 2017
2. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, “Bakı” nəşriyyatı, 2017
3. Filologiya məsələləri, № 4, 2019 Azərbaycan Milli Elmlər Akademiyası İnstitutu «Elm və təhsil» nəşriyyatı
4. Həsənli B. A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.

5. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı 2009. ADPU nəşri
6. Yusifov F. A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: ADPU-nun nəşri. 2010.

Nuriyeva Solmaz

İcmal mövzularının öyrədilməsinin əhəmiyyəti və yolları

İcmallar X-XI sinifdə ədəbiyyatımızın bir-biri ilə əlaqəsiz tarixi dövrlər kimi deyil, daim dəyişən, təkmilləşən, müəyyən harmoniyaya malik proses kimi dərk etdirilməsində müəyyən rol oynayır. Monoqrafik mövzuların öyrədilməsinə hazırlıq məqsədi güdən icmallar "Giriş","Ədəbiyyat tarixi", "Sənətkarın həyatı,yaradıcılıq yolu" başlıqları altında verilir.

İcmal mövzularının öyrənilməsində istifadə olunan iş üsullarının mövzunun mənimsədilməsində böyük rolu var.Müzakirə-icmal mövzularının tədrisində ən aktiv və səmərəli iş üsullarından biridir.

Müzakirənin müxtəlif formalarından biri olan diskussiya iştiakçıların müzakirə olunan məsələlər barədə zəruri biliklərə malik olmasını tələb edir.Dərs prosesində başlanan müzakirə,yəni dərslikdəki mətnin oxunması lazımi əlavə mənbələrlə zənginləşdirilir.Eyni zamanda diskussiya şagirdlərdə öz mövqeyini müdafiə etmək,başqalarının rəyi ilə hesablaşmaq kimi bacarıqların formalaşmasına imkan yaradır.

Adətən diskussiya belə ardıcıllıqla aparılır:

-Aşağı sinifdə öyrəndikləri ilə (ən çox ədəbiyyat və tarix) əlaqə yaradılır;

-Şagirdlərə əlavə mənbələrdən məlumat əldə etmək tövsiyə olunur;

-Dərsliyin mətnkənarı suallarına cavab axtarılır.

Bu zaman fərdi, cütlük, kiçik qruplar formasında iş qurmaq məqsədəuyğundur.

Müzakirənin debat şəklində təşkili isə daha effektivdir.Çünki debatda deyilən fikri əsaslandırmaq əsas şərtdir.

Sonra nəticələr yekunlaşdırılır, ən sonda qiymətləndirmə aparılır, çatışmazlıqlar göstərilir.

İcmal mövzularının tədrisinin düzgün təşkili şagirdlərin ədəbiyyat tarixi üzrə dərin və sistemli biliklərə yiyələnməsinə şərait yaradır.

Nuriyeva Solmaz

İmportance and ways of teaching review topics

The reviews play a certain role in understanding our literature in the X-XI class not as unrelated historical periods, but as a constantly changing, improving, harmonious process. Reviews aimed at preparation for teaching monographic topics are given under the headings "Introduction", "History of Literature", "Life of an artist, creative path".

The work methods used in the study of review topics have a great role in mastering the topic. Discussion-review is one of the most active and effective work methods in teaching review topics.

Discussion, which is one of the various forms of discussion, requires the participants to have the necessary knowledge about the discussed issues. The discussion started in the course of the lesson, i.e. the reading of the text in the textbook, is enriched with the necessary additional sources. At the same time, the discussion allows students to develop skills such as defending their position and reckoning with the opinions of others. .

Usually, the discussion is carried out in the following order:

- A connection is created with what they learned in the lower class (mostly literature and history);

-Students are advised to get information from additional sources;

-Answers to extratextual questions of the textbook are sought.

At this time, it is appropriate to work individually, in pairs, in small groups.

Arranging the discussion in the form of a debate is more effective, because it is the main condition to justify the opinion expressed in the debate.

Then the results are summarized, finally, an assessment is made, shortcomings are pointed out.

The correct organization of the teaching of review topics enables students to acquire deep and systematic knowledge of literary history.

Нуриева Солмаз

Важность и способы преподавания обзорных тем

В X-XI классах очерки играют определенную роль в восприятии нашей литературы не как несвязанные друг с другом исторические периоды, а как постоянно меняющийся и совершенствующийся процесс, обладающий определенной гармонией. Очерки, служащие цели подготовки к изучению монографических тем, даются под такими заголовками как “Вступительная часть”,”История литературы”, “Жизнь и творческий путь мастера”.

Методы работы, используемые в изучении тем очерков, играют большую роль в усвоении темы. Обсуждение является одним из самых активных и эффективных методов работы в преподавании тем очерков.

Дискуссия, являющаяся одной из разнообразных форм обсуждения, требует от ее участников владения необходимыми знаниями об обсуждаемых вопросах. Обсуждение, начатое в ходе урока, то есть прочтение текста в учебнике обогащается необходимыми дополнительными источниками. В то же время, дискуссия создает возможности для формирования у учащихся таких навыков, как защита своей точки зрения, уважительное отношение к мнению других людей.

Обычно дискуссия проводится с нижеуказанной последовательностью:

-создается связь со знаниями, приобретенными в младших классах (преимущественно со знаниями по литературе и истории);

-Учащимся рекомендуется приобретать информацию из дополнительных источников;

-Ведется поиск ответов на вопросы, напечатанные на полях страницы с текстом.

В это время целесообразно организовать работу в индивидуальной, парной форме и в форме маленьких групп.

А организация обсуждения в виде дебатов является еще более эффективной. Потому что главным условием является обоснование мысли, высказанной во время дебатов.

Затем подытоживаются результаты, а в самом конце проводится оценка, отмечаются недостатки.

Правильная организация преподавания тем очерков создает условия для овладения учащимися глубокими и систематическими знаниями по истории литературы.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Dos.S.Hüseyoğlu
tərəfindən çapa tövsiyə olunmuşdur

:

BABA ƏLİBABAOĞLU
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Doktorantı
elibabaoglu@mail.ru

TÜRK DASTAN ƏNƏNƏSİ VƏ "KİTABİ-DƏDƏ QORQUD"DA MÖVZU, MOTİV PARALELLƏRİ

Açar sözlər: türk, epos, "Kitabi-Dədə Qorqud", qəhrəman.
Key words: Turkish, epic, "Kitabi-Dada Gorgud", hero.
Ключевые слова: тюркский, эпос, «Китаби-Деде Горгуд», герой.

Xülasə: İstər yazılı, istərsə də şifahi şəkildə dünya ədəbiyyatı xəzinəsinə bir-birindən zəngin incilər bəxş etmiş olan türk ədəbiyyatı epos yaradıcılığı sahəsində xüsusilə fərqlənmişdir. "Alp Ər Tonqa", "Oğuz Kağan", "Manas", "Alpamış" belə dastanlardan olub, türk epos yaradıcılığında xüsusilə fərqlənmişdir. Məlum olduğu kimi, "Kitabi-Dədə Qorqud" eposu bu dastanlar içərisində xüsusilə diqqətçəkən yerdə durur. Hətta onun bu dastanlardan ən mükəmməli olduğunu desək, bəlkə də, yanılmarıq. Bu baxımdan "Kitabi-Dədə Qorqud" dastanının türk dastanları içərisindəki yerini düzgün təsəvvür etmək, onlarla olan mövzu yaxınlığını ətraflı öyrənmək olduqca vacib bir məsələdir. Çünki "Kitabi-Dədə Qorqud" eposunun sətirləri neçə minilliklərdən keçib gələn və irəliyə doğru gedən bir ənənənin arxasında buraxdığı qızıl körpüdür! Eposdakı mövzu və motiv paralelliklərinin düzgün izlənilməsi eyni zamanda tariximiz və mədəniyyətimizlə bağlı bir sıra məqamların daha aydın təsəvvür olunmasında böyük önəmə sahibdir. Bu epos özündə həm türk dastançılıq ənənəsinin əsas xüsusiyyətlərini, həm dünya folklorunun bir sıra motivlərini ehtiva etməklə yanaşı, həm də özünəməxsus xüsusiyyətlərə malik, zəngin bir əsərdir. Məlum olduğu kimi, "Kitabi-Dədə Qorqud"un özünəməxsus xüsusiyyətləri və türk dastanları, eləcə də, dünya folkloru ilə qarşılıqlı əlaqəsi haqqında bu günə qədər az yazılmamışdır. Lakin "Kitabi-Dədə Qorqud" türk ədəbiyyatı, o cümlədən, folkloru üçün bədii ağırlığı, ona türkologiya və folklorşünaslıq üçün də elmi ağırlıq qazandırır. Məhz bütün bunlar elmi ədəbiyyatda məsələnin öz elmi ağırlığını, elmi yeniliyini və aktuallığını qorumasını təmin edir. Bu baxımdan "Kitabi-Dədə Qorqud" eposu ilə digər türk dastanları arasındakı mövzu və motiv yaxınlıqlarını, paralelliklərini tədqiqata cəlb etmək onun türk dastanları içərisindəki yerini düzgün təsəvvür edə bilmək üçün zəruridir. Qeyd etdiyimiz kimi, bu eyni zamanda tariximizi, Azərbaycan türkləri ilə türk dünyası arasındakı bağlılığı düzgün dərk edə bilmək baxımından da əhəmiyyətlidir. Məsələn, "Kitabi-Dədə Qorqud" ilə "Manas", "Alpamış" arasındakı mövzu-motiv paralelliyini araşdırmaq, həm də oğuzlarla qıpçaqlar və qarluqlar arasındakı yaxınlığı da dolğun təsəvvür edə bilmək üçün köməklik göstərir.

Ümumiyyətlə, oğuznamələr, o cümlədən də "Kitabi-Dədə Qorqud" dastanındakı epos-dastan ənənəsi sonrakı dövrdə yalnız türk folkloruna yox, həm də türk yazılı ədəbiyyatına təsirsiz ötüşməmişdir. Sonrakı dövr türk ədəbiyyatında oğuznamələr sanki ayrıca bir janr olaraq çıxış etmişdir. "Kitabi-Dədə Qorqud"un bir türk-oğuz salnaməsi olaraq önəmini nəzərə alaraq onun digər türk dastanları ilə mövzu-motiv yaxınlığı və paralelliyi haqqında daha geniş danışmaq məqsədəuyğundur.

Giriş. Haqqında danışdığımız bu eposun türk ədəbiyyatında nə qədər böyük və önəmli yer tutduğunu göstərmək məqsədilə mövzuya tanınmış türkoloq alim və böyük siyasətçi M.F.Köprülünün aşağıdakı sözləri ilə başlamaq yerinə düşərdi: "Bütün türk edebiyatını terazinin bir gözüne, Dede Korkutu öbür gözüne koysanız, yine Dede Korkut ağır basar". [6, s.11] Digər böyük bir türk alimi olan M.Ergin də dastanı nəşr etdirərkən vermiş olduğu ön sözə məhz yuxarıda göstərdiyimiz fikirlərə istinad etməklə başlayır. Bu iki böyük alimin tutmuş olduğu mövqeyin özü belə haqqında söz açdığımız bu möhtəşəm əsərin türklər üçün hansı önəmə sahib olduğunu göstərməkdədir. Doğrudur, hər şeydən öncə "Kitabi-Dədə Qorqud" türk xalqının qəhrəman, yenilməz varlığının bədii təzahürü kimi çıxış etsə də, burada xalqımızın yalnız qəhrəmanlığı, igidliyi, mərdliyi və s-in tərənnümü əks olunmaqla məhdudlaşmır, eyni zamanda bu dastanda xalqımızın qədim ailə-məişət həyatından ictimai-siyasi həyatına qədər müxtəlif məsələlər yer almaqdadır.

Bu eposu türk bədii yaradıcılığının əvəzedilməz örnəyi kimi təqdim edərkən ilk olaraq bir suala cavab tapmaq olduqca vacibdir: bu dastanı nəql edən ozan və onun vasitəsilə bu dastanın qəhrəmanları özlərini türk kimi tanıyırdımı? Bu suala doğru cavab tapa bilmək üçün eposun bir neçə yerindən nümunələrə baxmaq yerinə düşərdi.

Məlum olduğu kimi, hələ eposun müqəddiməsi başlar-başlamaz artıq bir türk boyunun – Dədə Qorqudun mənsub olduğu Bayat boyunun adı çəkilir, Qorqud atanın məhz bu boyun mənsubu olduğu qeyd edilir. Dastanı söyləyən ozan Qorqudun Oğuz elinin bilicisi olduğunu göstərir. Dastanda İç Oğuz və Daş Oğuzdan ibarət olan Oğuz eli qəhrəmanlar yurdu kimi təqdim olunur. Məsələn, dastanda döyüş səhnəsi təsvir edilməzdən öncə bir sıra Oğuz igidləri və onların məziyyətləri təsvir olunur, sonda deyilir: "Sayılmaqla Oğuz bəgləri tükənsə olmaz".[2, s.50] Göründüyü kimi, burada Oğuzun bəylər yurdu olduğu göstərilir. Bəy isə hər adama deyilməzdi. Dastanda bəylər hər yönü ilə – müsbət və mənfi xüsusiyyətləri ilə verilir. İlk öncə onu qeyd etmək doğru olardı ki, burada bəylər Tanrının da sevdiyi şəxslər olaraq göstərilir, Tanrı onların duasını eşidir: onların alqışı da, qarğışı da Tanrı yanında müstəcəbdir. Hər bir bəyin özünəməxsus, imrəniləcək məziyyətləri vardır. Lakin bu bəylərin, xanların bəzən xoş olmayan, bəy ədasından irəli gələn səhvləri, nöqsanları da dastanda ustalıqla verilir. Məsələn, Bayındır xan bəylərə qonaqlıq verərkən övladı olmayanlara yuxarıdan baxır və ya Qazan xan Qaraca Çobanla birlikdə ər meydanına yeriməyi özünə yaraşdırmır, buna görə el qınağına tuş ola biləcəyini düşünür. Lakin

bəylərin dürüstlüyü, sadiqliyi, düşmən gələrkən küsülü olanların yurd naminə barışması onların əsalətindən xəbər verir.

Eposda diqqət çəkən məqamlardan biri də Beyrəgin Qazan xana, Yegnəgin isə Bayındır xana "Türkistanın dirəgi" deyə müraciət etməsidir ki, bu da dastanda türk kimliyinin açıq-aşkar təzahürüdür. Bundan başqa dastanda Boz Okların, Üç Okların və b. Oğuz boylarının adı çəkilir, Qanturalının dilindən "türkman qızı" ifadəsi verilir. Bu dediklərimizə başqa əlavələr də etmək mümkündür. Göründüyü kimi, dastanı oxuyan oxucu burada türk poetik düşüncəsinin təzahürünü hər yönü ilə görməkdədir. İndi isə məsələni daha geniş şəkildə şərh etməyə çalışaq.

Əsas hissə. Öncə onu qeyd etmək yerinə düşərdi ki, "Kitabi-Dədə Qorqud" eposu yalnız özündən əvvəlki türk bədii-fəlsəfi təfəkkürünün məhsulu olaraq çıxış etməklə qalmır, eyni zamanda biz burada müxtəlif xalqların yaradıcılığının, poetik dünyagörüşünün təzahürünü görməkdəyik. Məhz buna görə də haqqında danışdığımız bu möhtəşəm eposu ümumtürk poetik yaradıcılığının məhsulu olaraq qiymətləndirərkən həm də onun dünya ədəbiyyatının bir çox inciləri ilə bu və ya digər dərəcədə inteqrasiya olunduğunu əsla unutmamalıyıq. Məsələn, eposda hind-fars mifologiyasından gələn pəri obrazına və başqa xalqların mifologiyasında görülən digər bu kimi obrazlara rast gəlmək mümkündür.

Qeyd etdiyimiz kimi, "Kitabi-Dədə Qorqud" eposu özündə bir sıra dünya xalqlarının mifologiyasının təzahürlərinə yer verməklə yanaşı, həm türk ədəbiyyatının məhsulu olduğu üçün kifayət qədər türk ədəbi-mifoloji düşüncəsini də özündə ehtiva edir. Buna görə də bu eposu başqa türk ədəbi nümunələri ilə müqayisəli şəkildə öyrənmək, təhlil etmək çox doğru olardı.

Bu baxımdan "Kitabi - Dədə Qorqud"da türk epos ənənəsinin izlərini arayarkən qarşımıza çıxan maraqlı məsələlərdən biri alplıqdır. Belə ki, dastanda igid, cəsur, qoçaq anlamına gələn "alp" kəlməsi burada heç təsadüfi olaraq yer almır. Bu məsələ "Kitabi-Dədə Qorqud" ensiklopediyasının ikinci cildində geniş və ətraflı bir şəkildə şərh edilmişdir. Bu məsələni qədim türk dastan ənənəsi əsasında "Alp Ər Tonqa" (dastan özü əldə olmasa da) və real türk tarixi ilə (Səlcuq dövlətində məhz bu ünvan bir rütbə hesab olunmuşdur) qarşılaşdırdıqda dastanda məhz bu kimi məsələlərin hər birinin ayrı-ayrılıqda böyük bir tarixi-ədəbi zəncirin bir-biri ilə iç-içə keçmiş sıx halqaları olmasını müşahidə etməkdəyik. Lakin bu cür ədəbi məsələlər yalnız varislik prinsipinə söykənərək özündən əvvəlkilərə xələflik etməklə məhdudlaşmır, eyni zamanda özündən sonrakılar üçün də sələflik rolunu oynayır. Məsələn, "Kitab-Dədə Qorud"dakı bir alp hər nə qədər Alp Ər Tonqanın xələfidirsə, o eyni zamanda məhz bir o qədər də Alpamışın sələfidir.

Şübhəsizdir ki, əsasən, Oğuz türklərinin dastanı olan, haqqında danışdığımız bu epos "Oğuz Kağan" dastanı ilə də sıx bağlılığa sahibdir. Ümumiyyətlə, Oğuz Kağan türk dastançılığına, poetik irsinə öz adını altın hərflərlə yazmış, tarixin tozlu səhifələri ilə ədəbiyyatın – əfsanələrin, dastanların ağızdan-ağıza, nəsildən-nəslə keçən yollarında dərin iz buraxmışdır ki, buna görə də Alp Ər Tonqa kimi o da

özündən sonrakı türk soyları üçün əsalət mənbəyi olaraq qəbul edilmişdir. “Kitabi-Dədə Qorqud”dakı Oğuz rəhbərləri də kefləri kök olduqda Oğuz Kağan kimi toy qurardılar. Əgər Oğuz Kağan bu toyda 40 masa qurdururdusa, Qazan xan da 40 qulu qul olmaqdan azad edirdi. Biz sonralar bənzər məclisləri, yığıncaqları Çənlibeldə görməkdəyik.

Biz Qorqudaqədərki türk dastanlarında qurda olan münasibəti də görməkdəyik ki, bu həm də tarixdə də bu cür olmuşdur. “Boz qurd”, “Ergenəqon”, “Törəyiş” dastanlarında qurda olan sayğı sonralar “Kitabi-Dədə Qorqud” eposunda da özünü göstərmişdir. Burada Qazan xan özünün təbirilə desək, “ər kibi duran” qurd üçün “qurd yüzi mübarəkdir” deyir. Bunun davamı olaraq yenə də qurda qarşı fərqli bir münasibət özünü göstərir. Bunun üçün Qazan xanın qurda və köpəyə olan müraciətlərini müqayisə edək.

Qurda xitab:

“Ordumun xəbərin bilürmisin, degil mana!
Qara başım qurban olsun, qurdum, sana!”[2, s. 41]

Köpəyə xitab:

“Ordumun xəbərin bilürmisin, degil bana!
Qara başım sağlığında eyilüklər edəm, köpək, sana!”[2, s.42]

Göründüyü kimi, Qazan xan qurda “başım qurban” dediyi halda köpəyə bunu demir, ona sadəcə yaşayacağı müddətdə yaxşılıqlar edəcəyini vəd edir. Qurda “qurdum” deyərək əzizlədiyi halda köpəyə sadəcə “köpək” deməklə kifayətlənir.

Türk dastanlarında dağ kultunun önəmini nəzərə alsaq, o zaman “Ərgenəqon” və “Kitabi-Dədə Qorqud” dastanları arasında başqa bir yaxınlığın olduğunu da müşahidə etmək mümkündür. Belə ki, türk eposunun yol xəritəsinə baxdıqda obrazlı şəkildə desək, Ergenəqondan Qazlıq dağına, oradan da Çənlibelə uzanan enişli-yoxuşlu yolu görmək heç də çətin deyil. Bu cür bənzərliklər, paralellər heç də təsadüfi xarakterli olmayıb, yalnız türk epos yaradıcılığı çərçivəsində yerləşməklə qalmır, eyni zamanda bu yol xəritəsinin şaxələri başqa xalqların folklorundakı nağıllara, əfsanələrə, dastanlara qədər uzanmaqdadır. Məsələn, yunan, ərəb, fars, yapon, Çin xalqları kimi bir sıra dünya xalqlarının əksəriyyətinin folklorunda bu tipli dağ kultuna rast gəlmək olar. Bunlara Qaf, Olimp, Fuji-Yama kimi bir çox əfsanəvi dağları nümunə olaraq göstərə bilərik.

“Kitabi-Dədə Qorqud” eposu ilə yaxın bir dövrün məhsulu olan “Satuk Buğra xan” dastanı ilə bu dastan arasında da paralelliyi müşahidə etmək mümkündür. Əgər “Kitabi-Dədə Qorqud” dastanında Dirsə xanın yaralanmış oğlu Buğacın qarşısına Xızır peyğəmbər çıxırsa, biz “Satuk Buğra xan” dastanında da məhz baş qəhrəmanın – Satuk Buğranın özünün qarşısına Xızırın çıxdığını görməkdəyik. Həm Dirsə xan,

həm də Buğac 40 igidlə gəzdiyi kimi, əshabələrinin xahişi ilə Məhəmməd peyğəmbərin (s.ə.s.) duası sonrasında Satuk Buğra xan da 40 igidlə ortaya çıxır. Göründüyü kimi, bu tipli ənənə varisliyini, paralelliyini haqqında danışdığımız həmin dastanlarda və başqa dastanlarda istənilən qədər tapmaq mümkündür. Lakin nəzərə almaq lazımdır ki, "Kitabi-Dədə Qorqud"un türk dastançılığında yerini və önəmini anlamaq üçün onun özündə əsgi türk epos ənənəsini necə qorumasını və gələcək türk dastanlarına necə ötürməsini təsbit etmək hələ kifayət deyildir. Bunun üçün bu eposun türk tarixi ilə olan bağlılığı haqqında da bir qədər danışmaq zəruridir.

Məlum məsələdir ki, istənilən xalqın dili, dövlətçilik şüuru tədricən formalaşdıqca, inkişaf etdikcə onun mədəniyyəti, incəsənəti, o cümlədən, ədəbiyyatı da təşəkkül edir. Məhz elə buna əsasən cəsarətlə demək olar ki, ədəbiyyat, o cümlədən, folklor da onu ərsəyə gətirmiş olan xalqın dil və tarixinin qovuşmasından, vəhdətindən doğularaq meydana çıxır. Elə buna görə də nəhəng bir mədəni ağırlığa sahib olan bu möhtəşəm eposdan da danışarkən onun real tarixlə olan bağlılığına diqqətdənkənar münasibət göstərmək doğru olmaz. Bu bağlılığı açmaq üçün hər nə qədər çox böyük alimlər tərəfindən söz söylənmiş, tədqiqatlar aparılmış olsa belə yenə də bu eposun konkret olaraq hansı dövrün ədəbi məhsulu olduğunu söyləmək bir qədər çətindir. Bu çətinliyin, əsasən, iki səbəbini göstərmək olar;

Birincisi, hər folklor nümunəsi kimi "Kitabi-Dədə Qorqud" eposu da xalq yaradıcılığının məhsulu olduğu üçün o, əsrdən-əsrə, nəsildən-nəslə keçərkən müxtəlif dəyişikliklərə uğramış və məhz bu səbəbdən də hər dəfə özündə bəzi əsgi xüsusiyyətləri saxlamaqla bərabər, adladığı yeni dövrün də bir sıra xüsusiyyətlərini özündə ehtiva etmişdir. Çünki bu dastan birdən-birə deyil, tədricən yaranmış və çox gec yazıya alınmışdır. (Hazırda əldə olan, yəni elmi ictimaiyyətə məlum olan əlyazmalar nəzərdə tutulur.)

İkinci səbəbi isə onunla izah etmək olar ki, bu günə qədər haqqında danışdığımız məsələ elmi cəhətdən ağırlıqlı bir məsələ olduğu üçün o bu günə qədər bir çox böyük alimlərin diqqətini çəkmiş və onlar tərəfindən çoxlu sayda tədqiqat işlərinin aparılmasına səbəb olmuşdur və təbii olaraq bu alimlər arasında heç də yekdil fikir eyniliyi olmamışdır. Onu da qeyd etmək lazımdır ki, bu alimlərin əksəriyyəti də öz elmi mövqeyini ortaya qoyarkən əsaslı arqumentlər gətirmişdir ki, bu cür qarışıqlıqlar da məsələni daha da mürəkkəbləşdirmişdir.

Məsələn, M.F.Köprülü "Kitabi-Dədə Qorqud" eposunun formalaşdığı tarixi Böyük Səlcuq dövləti zamanına bağlamağı məqsədəuyğun hesab edirsə, M.Ergin bu tarixin iki əsr daha sonraya çəkilməsinin tərəfdarıdır. Sözü gedən dastanın yarandığı və təşəkkül etdiyi dövr haqqında danışarkən Azərbaycan qorqudşünaslığı tarixinə öz adını qızıl hərflərlə yazmış olan Ə.Abidin çox maraqlı bir elmi əsəri olan "Türk el ədəbiyyatına elmi bir baxış" məqaləsində məsələyə münasibəti qısa və ümumiləşdirilmiş şəkildə nəzərdən keçirmək gərəkdir.

Bu məqalədə Ə.Abid öncə Oğuz türklərinin Azərbaycanda hakim olması tarixinə bir qədər toxunur. Müəllifin fikrincə, hələ V yüzilliyin axırlarında başqa türk

tayfaları tərəfindən sıxışdırılan oğuzlar Xəzər dənizinin şimalı tərəfdən indiki Rusiya ərazisinə, cənubu tərəfdən isə İran ərazisinə keçmişdirlər. Hətta müəllif ərəblərin Əməvilər dövründə İrana yürüşü zamanı buradakı oğuzlar tərəfindən darmadağın edildiyini göstərir. O qeyd edir ki, daha sonra oğuzlar və onların mədəniyyəti, o cümlədən, folkloru bu yolla Azərbaycana və Anadoluya yayılmış və inkişaf etmişdir. Daha sonra Ə.Abid məsələ ilə bağlı xeyli maraqlı məlumat verir, "Oğuznamə"nin müxtəlif dillərə necə tərcümə olunduğunu, keçmiş olduğu enişli-yoxuşlu ədəbi-tarixi yolları şərh edir. Ə.Abidin bu məqaləsindən də göründüyü kimi, bəhs etdiyimiz bu epos türklərin, xüsusilə də Oğuz türklərinin tarixini, məişətini öyrənmək baxımından əvəzsiz bir salnamədir. Məsələn, müəllif qədim türklərin həyatında ev yağmalatma, yəni varlı bəyin, xanın mal-mülkünü camaatı arasında paylamas, ov kimi mərasimlərin nə qədər önəmli olmasını və bunun dastanla əlaqəsini şərh edir.

"Kitabi-Dədə Qorqud" eposunun tarixlə əlaqəsini şərh edərkən Azərbaycanda Ağqoyunlu dövlətini qurmuş olan türk sülalənin Bayındır xanın soyundan gəldiyini və bunun üçün də özlərini Bayındır xan oğulları hesab etdiklərini qeyd etməmək olmazdı. Ümumiyyətlə, dastanda adı çəkilən şəxslərin gerçək həyatda yaşayıb-yaşamaması hər nə qədər əfsanə və real tarixin sərhədlərinin bir-birinə qarışacaq qədər diffuziya etməsi səbəbilə əlaqədar olaraq müəyyən qədər naməlum qalsa da, bizə müəyyən fikirlər söyləməyə əsas verən qaynaqlar da vardır. Lakin bu qaynaqların özü də əfsanələrlə qovuşduğu üçün hələlik bu barədə konkret bir fikir söyləmək, mülahizə yürütmək çətindir.

Nəhayət, eposun türk ədəbi yaradıcılığı içərisindəki mövqeyini şərh edərkən son olaraq bu dastanın yaranmış olduğu coğrafi arealı da müəyyən etmək vacibdir. Dastanın yaranma və təşəkkületmə tarixini tam olaraq konkret bir şəkildə söyləmək çətin olduğu kimi, onun meydana çıxdığı coğrafi ərazini də tam olaraq qəti şəkildə söyləmək də çətindir. Bunun üçün öncə eposun öz mətninə, daha sonra isə müxtəlif alimlərin fikirlərinə müraciət etmək məqsədəuyğundur.

Dastanın Qazan xanın evinin yağmalanmasının təsvir edildiyi boyda Qazan xanın Qaraca Çobanın nəzarətindəki sürüsünün Dərbənddə olması söylənilir. Bundan başqa Bəkilin oğlu Əmranın sərgüzəştinin nağıl edildiyi boyda isə Bəkilin Oğuz elindən çıxaraq Bərdə və Gəncə şəhərlərinə gələrək buranı özünə yurd yeri etməsi və Gürcüstanla sərhədin keşiyində durması nəql olunur. Məlumdur ki, bu eposda Əlincə qalasının da adı zikr edilir: Məhz Uşun qocanın oğlu Əgrəg bu qalada dustaq olur. Dastanda indiki Türkiyə ərazisində olan və Qara dəniz sahilində yerləşən Trabzon şəhəri kafir yurdu kimi təqdim olunur.

M.F.Köprülü və əsasən, ona istinad edən Ə.Abid də bu eposun şərqdən qərb doğru köç edən türk axınları tərəfindən Azərbaycana və Anadoluya yayıldığını göstərirlər. Ə.Abid Bayındır xanın hökm etdiyi ərazilərin hududunu bir imperiya böyüklüyündə – Trabzon, Xorasan və Dərbəndin uclarını təşkil etdiyi böyük üçbucaq şəklində təsvir edir. Bütün bunları nəzərə alaraq sonda bunu demək mümkündür ki, "Kitabi-Dədə

Qorqud" hələ türklərin Azərbaycanda və Anadoluda hakimiyyəti tam ələ almasına qədər yaranmış olan müxtəlif dastanların təsirini özündə saxlamış, hətta ilkin süjet elementləri bu dövrdə ortaya çıxmış, lakin tam olaraq türklərin Azərbaycanda və Anadoluda oturaq həyata keçməsi və dövlətçilik ənənəsinin formalaşması ilə paralel bir zamanda tədricən təşəkkül etmiş və möhtəşəmlik qazanmışdır.

Nəticə. Haqqında danışdığımız eposun türk dastan yaradıcılığındakı yerini təyin etmək üçün onun bir sıra türk dastanları ilə oxşar cəhətlərini, aralarındakı paralelləri, eposun real tarixlə əlaqəsini, yarandığı dövrü və coğrafi arealı qısa və ümumiləşdirilmiş şəkildə nəzərdən keçirmiş olduq. Əslində bu məsələni daha dərindən təhlil edə bilmək üçün yuxarıda söylədiklərimiz təbii ki, kifayət deyildir. Əvvəla, bu onunla bağlıdır ki, haqqında danışdığımız məsələlər ümumi şəkildə danışaraq üstündən keçilməsi mümkün olmayan məsələlərdir. İkincisi, bu məsələni daha aydın şərh edə bilmək üçün eposun həm də türk dili və onun tarixi, incəsənəti, etnoqrafiyası ilə qarşılaşdırılması vacibdir ki, bu daha böyük səviyyəli və dərindən aparılacaq yeni tədqiqatlar tələb etməkdədir. Lakin biz yenə də yuxarıda söylənilənlərə əsasən aşağıdakı nəticələri əldə etmiş oluruq:

1. "Kitabi-Dədə Qorqud" eposu türk dastançılığında elə bir yerdə durur ki, bu yer həm keçid, həm də kulminasiya nöqtəsi sayıla bilər. Belə ki, bu eposla türk dastançılığında yeni bir mərhələ başlanır. Ona qədər yaranmış olan dastanlarla ondan sonarkı dastanlar arasında fərqliliklər özünü göstərməkdədir. Bu onun türk dastançılığında bir keçid nöqtəsi rolunu oynamasını təmin edir. Həm də "Kitabi-Dədə Qorqud"un türk dastançılığının ən mükəmməl örnəyi olması onun kulminasiya nöqtəsində durmasını təmin edir.
2. "Kitabi-Dədə Qorqud" yalnız bədii yox, həm də tarixi bir salnamə hesab edilə bilər. Çünki bu dastana müraciət etməklə o zamankı türklərin həyat tərzini, məişətini daha yaxşı başa düşə və real tarixlə bağlı bəzi ipucuları əldə edə bilərik.
3. Bu dastan şərqdə Türküstandan, qərbdə Anadoluya, şimalda Krımdan, cənubda Kərkükə, Təbrizə, Xorasana qədər uzanan böyük türk torpaqlarının ortasında ərsəyə gəldiyi üçün o yalnız Oğuz türklərinin deyil, eyni zamanda qıpçaq, qarluq və s. türklərin də tarixi, ədəbiyyatı, folkloru, mifologiyası ilə çulğalaşır.

Bütün bu söylənənləri görkəmli şairimiz B.Vahabzadənin aşağıdakı misraları ilə tamamlamaq çox yerinə düşərdi:

"Bizim iqbalımızı yazdı qılıncın kəsəri,
Bizi biz etdi Dədəm Qorqud oğuznamələri".[8]

ƏDƏBİYYAT

Azərbaycan türkcəsilə

1. Abid Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007. 288 s.
2. Kitabi-Dədə Qorqud. Bakı: Öndər nəşriyyat, 2004. 376 s.

3. Kitabi-Dədə Qorqud ensiklopediyası. I cild. Bakı: Yeni nəşrlər evi, 2000. 622 s.
4. Kitabi-Dədə Qorqud ensiklopediyası. I I cild. Bakı: Yeni nəşrlər evi, 2000. 567 s.
5. Rzasoy S. Oğuz mifologiyası. Bakı: Nurlan, 2009. 363 s.

Türkiyə türkcəsilə

6. Dede Korkut Kitabı. M. Ergin yayını ile. İstanbul: Milli eğitim basınevi, 1969. 240 s.
7. Köprülü M.F. Türk edebiyatı tarihi. İstanbul: Ötüken, 1980. 440 s.

İnternet resursları
Azərbaycan türkcəsilə

8. Vahabzadə B. Vətən marşı. Kayzen. https://kayzen.az/blog/kayzen/17644/v%C9%99t%C9%99n-mar%C5%9F%C4%B1-b%C9%99xtiyar-vahabzad%C9%99.html

Türkiyə türkcəsilə

9. TDV İslam Ansiklopedisi. Ağkoyunlu devleti. https://islamansiklopedisi.org.tr/akkoyunlular
10. TDV İslam Ansiklopedisi. Dağ. https://islamansiklopedisi.org.tr/dag
11. TDV İslam Ansiklopedisi. Dede Korkut. https://islamansiklopedisi.org.tr/dede-korkut
12. TDV İslam Ansiklopedisi. Kaf dağı. https://islamansiklopedisi.org.tr/kafdagi
13. TDV İslam Ansiklopedisi. Peri. https://islamansiklopedisi.org.tr/peri
14. Türk destanları. https://ataturk.org.au/wp-content/uploads/docs/Turk-Destanlari.pdf

BABA ALİBABAOGLU

TURKİSH EPİC TRADİTİON AND TOPİC AND MOTİVE PARALELLS İN "KİTABİ-DADA GORGUD"

Turkish literature, which has given rich pearls to the treasury of world literature, both written and oral, is especially distinguished in the field of epic creativity. "Alp Er Tonga", "Oguz Kagan", "Manas", "Alpamysh" are among such epics and stand out in Turkish epic creativity. As is known, the "Kitabi-Dada Gorgud" epic stands out among these epics. Even if we say that it is the most perfect of these epics, we

may not be wrong. From this point of view, it is very important to correctly imagine the place of "Kitabi-Dede Gorgud" epic in Turkish epics, to study in detail the closeness of the theme with them. Because the lines of the epic "Kitabi-Dada Gorgud" are a golden bridge left behind by a tradition that has passed through several millennia and is moving forward! At the same time, the correct tracking of theme and motif parallels in the epic is of great importance in the clearer visualization of a number of points related to our history and culture. This epic contains both the main features of the Turkish epic tradition and a number of motifs of world folklore, and is a rich work with its own characteristics. As is known, little has not been written about the unique features of "Kitabi-Dade Gorgud" and its interaction with Turkish epics and world folklore. However, "Kitabi-Dade Gorgud" gives artistic weight for Turkish literature, including folklore, and scientific weight for Turkology and folklore studies. All this ensures that the issue maintains its scientific weight, scientific novelty and relevance in the scientific literature. From this point of view, it is necessary to study the theme and motif similarities and parallels between the "Kitabi-Dade Gorgud" epic and other Turkish epics in order to correctly imagine its place in Turkish epics. As we mentioned, this is also important from the point of view of being able to correctly understand our history, the connection between Azerbaijani Turks and the Turkic world.

For example, learning the theme-motif parallels between "Kitabi-Dade Korkut" and "Manas" and "Alpamysh" helps to fully understand the affinity between Oghuzes, Kipchaks and Garluks. In general, the epic tradition of the Oghuznams, including "Kitabi-Dada Gorgud", has not only influenced Turkish folklore, but also Turkish written literature.

БАБА АЛОБАБАОГЛУ

ТУРЕЦКАЯ ЭПИЧЕСКАЯ ТРАДИЦИЯ И ТЕМА, МОТИВНЫЕ ПАРАЛЛЕЛИ В "КИТАБИ-ДАДЕ ГОРГУД"

Турецкая литература, давшая богатые жемчужины в сокровищницу мировой литературы, как письменной, так и устной, особенно выделяется в области эпического творчества. «Алп Эр Тонга», «Огуз Каган», «Манас», «Алпамыш» относятся к числу таких эпосов и особо выделяются в тюркском эпическом творчестве. Как известно, среди этих эпосов выделяется эпос «Китаби-Деде Горгуд». Даже если мы скажем, что это самый совершенный из этих эпосов, мы не ошибемся. С этой точки зрения очень важным вопросом является правильное определение решения эпоса «Китаби-Деде Горгуд» по отношению к тюркским эпосам и его близость к теме с ними. Потому что строки эпоса «Китаби-Деде Горгуд» – это золотой мост, оставленный традицией, прошедшей через несколько тысячелетий и двигающейся вперед! В то же время правильное прослеживание тематических и мотивных параллелей в

эпосе имеет большое значение в более четкой визуализации ряда моментов, связанных с нашей историей и культурой. Этот эпос содержит в себе как основные черты турецкой эпической традиции, так и ряд мотивов мирового фольклора, и представляет собой богатое произведение со своими особенностями. Как известно, об уникальных особенностях «Китаби-Деде Горгуд» и его взаимодействии с тюркскими эпосами и мировым фольклором написано немало. Однако «Китаби-Даде Горгуд» придает художественный вес турецкой литературе, в том числе фольклору, и научный вес тюркологии и фольклористике. Все это обеспечивает сохранение научной значимости, научной новизны и актуальности проблемы в научной литературе. С этой точки зрения, чтобы правильно представить себе его место в тюркских эпосах, необходимо учитывать тематические и мотивные сходства и параллели эпоса «Китаби-Деде Горгуд» с другими тюркскими эпосами. Как мы уже упоминали, это также важно с точки зрения понимания нашей истории, отношений между азербайджанскими тюрками и тюркским миром. Например, изучение тематико-мотивных параллелей между «Китаби-Даде Коркут» и «Манасом» и «Алпамышем» помогает в полной мере понять близость между огузами, кипчаками и гарлуками.

В целом эпическая традиция Огузнаме, в том числе сага «Китаби-Даде Горгуд», оказала влияние не только на турецкий фольклор, но и на турецкую письменную литературу. Принимая во внимание значение «Китаби-Деде Горгуд» как тюрко-огузской хроники, уместно больше говорить о сходстве и параллелизме тем и мотивов с другими тюркскими эпосами.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: f.ü.d., dos. Q.U.Umudov
tərəfindən çapa tövsiyə olunmuşdur

MÜNƏVVƏR İSMAYIL QIZI MƏMMƏDOVA
ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi
E.mail: *sehran61@mail.ru*

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TƏFƏKKÜR VƏ ONUN İNKİŞAFI YOLLARI

Xülasə

Uşaqların həyata, əməyə və yaradıcılığa hazır olmalarının əsası, təməli məktəbəqədər təhsil müəssisələrində qoyulur. Məktəbəqədər yaş dövründə uşağın təfəkkürü sürətlə inkişaf edir və bu səbəbdən uşağın yeni təcrübə qazanması üçün böyüklərin, xüsusən də valideynlərin məqsədyönlü iştirakı tələb olunur. Uşağın təfəkkürünün inkişafı təcrübədən asılıdır.

Buna görə uşağa dünyanı mümkün qədər geniş görmək, düşüncə qabiliyyətini məşq etdirmək imkanı vermək çox vacibdir. Təfəkkürü inkişaf etdirən məşğələlər oyun şəklində olduqda, əyləncəli və cəlbedici ola bilər. Maraqlı və əyləncəli olması üçün uşağınızı hər dəfə yeni oyunlar və məşqlər ilə tanış etməyə çalışın.

Açar sözlər: Məktəbəqədər dövr, uşaq, təfəkkür, inkişaf, yolları.

Мунаввар Исмаил кызы Мамедова

МЫШЛЕНИЕ У ДОШКОЛЬНИКОВ И ПУТИ ЕГО РАЗВИТИЯ

Резюме

Основа готовности детей к жизни, труду и творчеству закладывается в дошкольных образовательных учреждениях. В дошкольном возрасте мышление ребенка быстро развивается, поэтому для приобретения нового опыта ребенку требуется целенаправленное участие взрослых, особенно родителей. Развитие мышления ребенка зависит от опыта.

Поэтому очень важно дать ребенку возможность видеть мир как можно шире, тренировать его мыслительные способности. Мозговой штурм может быть веселым и увлекательным, если он проводится в форме игр. Старайтесь каждый раз знакомить ребенка с новыми играми и упражнениями, чтобы было интересно и весело.

Ключевые слова: Дошкольный период, ребенок, мышление, развитие, способы.

Munavvar Ismail Mammadova

THINKING IN PRE-SCHOOL CHILDREN AND ITS DEVELOPMENT WAYS

Summary

The foundation of children's readiness for life, work and creativity is laid in preschool educational institutions. During the preschool age, the child's thinking develops rapidly, and therefore, the purposeful participation of adults, especially

parents, is required for the child to gain new experiences. The development of a child's thinking depends on experience. Therefore, it is very important to give the child the opportunity to see the world as wide as possible, to train his thinking ability. Thinking exercises can be fun and engaging when they are played. Try to introduce your child to new games and exercises every time to make it interesting and fun.

Keywords: Preschool period, child, thinking, development, ways.

Müasir cəmiyyətdə baş verən dəyişikliklər təhsil sahəsinin sürətlə təkmilləşdirilməsini, dövlət, sosial-iqtisadi və şəxsi maraqları nəzərə alan yeni təhsil hədəflərinin müəyyənləşdirilməsini tələb edir. Bununla əlaqədar olaraq, prioritet istiqamət yeni təhsil standartlarının inkişafetdirici potensial ilə təmin edilməsidir. Yeni təhsil standartlarının işlənilməsinin əsasını təşkil edən sistem - fəaliyyətli yanaşma, təhsil və tərbiyənin əsas nəticələrini təyin etməyə və uşaqların tədris fəaliyyətinin inkişafı proqramının işlənib hazırlanmasına, informasiya və kommunikasiya texnologiyaları, tədris-tədqiqat və layihə fəaliyyəti sahəsində biliklərinin formalaşmasına imkan verir. Uşaqların həyata, əməyə və yaradıcılığa hazır olmalarının əsası, təməli məktəbəqədər təhsil müəssisələrində qoyulur. Buna görə də müəllimin əməyi bu gün bir qədər şəklini dəyişir və öz metodikasına görə ənənəvi təhsil və tərbiyə formalarından fəqrlənir. Bunun üçün məşğələ metodikası elə qurulmalıdır ki, yeni biliklərin mənimsənilməsi və onları praktikada uğurlu tətbiq etmək üçün uşaqları sərbəst yaradıcılıq fəaliyyətinə cəlb etmək mümkün olsun.

XXI əsr zəka əsri kimi xarakterizə olunur. Yaradıcı təfəkkürə, yüksək elm qabiliyyətlərinə malik şəxsiyyətin formalaşdırılması müasir təhsil sisteminin əsas strateji məqsədidir. Aydındır ki, bu məqsədə ənənəvi təhsil üsulları ilə nail olmaq mümkün deyil. Uşaqların intellektual bacarıqlarının inkişaf etdirilməsi üçün yeni yanaşmalar, yeni semantik tapşırıqlar lazımdır. Bu, nəticə etibarilə təhsil üsulunun dəyişdirilməsi, yəni biliklərin verilməsindən həmin biliklərin uşaqların özləri tərəfindən əldə edilməsinə keçid deməkdir.

Uşaqlar tərəfindən yeni biliklərin əldə edilməsi malik olduqları təcrübə və biliklərin əsasında baş verir. Müəllimin burada rolu isə uşaqları keyfiyyətcə yeni biliklərə aparıb çıxaran, onların yaradıcı təfəkkürünün və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi üçün düşündürücü fəaliyyəti təşkil etməkdən ibarətdir. Öyrənmə prosesi özü idraki proses olub mənimsəmə (assimilyasiya), uyğunlaşma (akomodasiya) və nizamlama (ekvilibasiya) kimi 3 əsas mərhələdən keçir. Özlüyündə təfəkkürün formalaşması prosesi mürəkkəb, uzunmüddətli və ziddiyyətli bir prosesdir. Yaradıcı təfəkkürün formalaşması isə insanın idrak fəaliyyəti ilə əlaqədar olan, onu ətraf aləmi daha dərindən və ətraflı dərk etməyə yönəldən mürəkkəb prosesdir. Belə təfəkkür təlim prosesində, elmi axtarışlar və tədqiqatçılıq fəaliyyəti zamanı meydana çıxır. Belə ki, insan daim təbiətin, cəmiyyətin sirlərinə malik olmağa çalışır, bilik əldə etmək cəhdi onda müxtəlif hisslər doğurur.

Təfəkkür proseslərinin başlanğıc məqamı, adətən, problem situasiya ilə bağlıdır. İnsan nəyi isə anlayanda fikirləşməyə başlayır. Təfəkkür adətən sual, problemdə əkslik və təəccübdən başlanır. Bu problem-situasiya şəxsiyyətin fikri proseslərə cəlb edilməsi ilə müəyyənləşir, hər hansı nəzəri və praktiki məsələnin həlli ilə əlaqədar olur. Qədim yunan filosofları Platon və Aristotelin fikrincə, hər cür yeniliyin başlanğıcı təəccübdür. Onların bu sözünün nə qədər böyük idraki əhəmiyyəti vardır. Belə ki, insan təəccübləndikcə onu ciddi axtarışa təhrik edən, ona motivasiya verən mühüm zehni işə tələbat yaranır. Bunları tətbiq edərək, müasir təlimi uşaqların yaradıcı, məntiqi təfəkkürünün inkişafına, müstəqil düşüncə, təhliletmə və əqli nəticə çıxarma qabiliyyətlərinin təşəkkülünə yönəltmək olduqca önəmlidir.

Müasir məşğələ ənənəvidən məqsədləri, məzmunu, təşkilati-metodiki tərəfi, uşaqların yaradıcı fəaliyyətinin fəallıq səviyyəsi, strukturu və tempi ilə fərqlənir. Belə məsələlərin reallaşdırılması üçün müasir müəllim praktikaya qeyri-ənənəvi məşğələ növlərini daxil etməlidir. Çox vaxt özünü pedaqoji təcrübə ilə doğrultmuş oyun tərkibli dərslər keçirilir. Uşaqlarla uzunmüddətli iş prosesində müşahidələr sübut edir ki, kiçik və orta yaşlı uşaqlar əqli oyunlara, bilməcələrə daha həvəslə və maraqla müraciət edirlər. Onlar oyunlu məşğələlərdə sevinərək iştirak edirlər. Əvvəlcə uşaq yalnız oyuna, daha sonra oyunu mümkün edən tədris materialına həvəs göstərir. Bu da əksər hallarda motivasiyaya uyğun olaraq uşaqları düşünməyə yönəldir.

Təfəkkür - bu, insanın qarşısına qoyduğu məsələnin həllinə kömək edən psixi

prosesdir. Təfəkkürün nəticəsi sözlərdə ifadə olunan fikirdir. Ona görə də təfəkkür və nitq bir – biri ilə sıx bağlıdır. Təfəkkürün köməyilə biz biliklər əldə etdiyimizə görə onu uşaqlıqdan inkişaf etdirmək lazımdır. Məktəbəqədər yaş dövründə uşaqlarda təfəkkürün inkişafı, əyani əməli, əyani-orazlı və sözlü – məntiqi (mücərrəd) təfəkkürə istinad edir. Bu dövrdə uşaqların təfəkkürü əsasən əyani-əməli xarakter daşıyıb, icra etdiyi işlərlə, dərk etdiyi konkret cisim və hadisələrlə bağlı olur. Uşaqların qarşılarına çıxan, əqli fəaliyyət tələb edən məsələləri bir qayda olaraq əyani-əməli təfəkkür səviyyəsində həll edirlər. Nitqin bu prosesə qoşulması əqli fəaliyyətin diskurisiv təfəkkür (formal əməliyyatlara əsaslanan) formasında yenidən qurulmasını təmin etmiş olur. Nitq vasitəsilə formula edilən məsələ uşağı həlli yolunu axtarmağa istiqamətləndirir. Bu yolla qazanılmış təcrübə zamanı uşağın icra etdiyi əməliyyatlar zamanı nitqin rolu artmış olur. Bu halda uşağın nitqi təhlil, tərkib və ümumiləşdirmə aləti rolunda çıxış edir. Uşağın lüğəti zənginləşdikcə, tələbatı artdıqca əyani-obrazlı təfəkkür əsasında sözlü-məntiqi təfəkkürün formalaşması və inkişafı üçün zəmin yaranmış olur. Nəticədə uşaqlarda təfəkkürün məntiqi formaları- məfhum, hökm, və əqli nəticə kimi əməliyyat sisteminin yaranması təmin olunur. Təfəkkrün bu növünün inkişaf səviyyəsi məktəbəqədər yaşlının təlim-tərbiyəsindən, xarakterindən, xusüsilə, fikri əməliyyatının inkişaf səviyyəsindən asılıdır. Uşaqlar dünyanı fərqli şəkildə qavrayırlar. Məktəbəqədər yaş dövründə uşağın təfəkkürü

sürətlə inkişaf edir və bu səbəbdən uşağın yeni təcrübə qazanması üçün böyüklərin, xüsusən də valideynlərin məqsədyönlü iştirakı tələb olunur. Uşağın necə düşündüyünü bilərək, onu daha yaxşı başa düşə və körpə ilə daha da xoş və məhsuldar ünsiyyət qura bilərsiniz. Məktəbəqədər yaş dövründə uşaqlar üçün təfəkkürün üç növü xarakterikdir:

1. Əyani-əməli təfəkkür 3 yaşına qədər uşaqlarda üstünlük təşkil edir. Təfəkkürün bu növü ən çox əşyalar üzərində praktik fəaliyyətlə bağlıdır. Uşaq oyuncaqları atır, əşyaları dəliklərə itələyir, əşyaları hissələrə ayırır, düymələri basır və s. Bu yolla uşaqlar təcrübə qazanır və ilk səbəb-nəticə əlaqələrini qururlar (məsələn, top güclü atılarsa, çox uzaqlaşacaq). Bu cür düşüncə tərzinin inkişafı üçün modelləşdirmə dərsləri, müxtəlif materiallar (qum, su, dənli bitkilər və s.) ilə oyunlar uyğun gəlir. Təfəkkürün inkişafının bu mərhələsində valideynlərin əsas vəzifəsi körpənin dünyanı araşdırmasına mane olmamaq, eyni zamanda bunun üçün evdə təhlükəsiz bir şərait yaratmaqdır.

2. Əyani-obrazlı təfəkkür 3-4 yaşda nitqin inkişafı ilə əlaqədar olaraq formalaşır. Yaddaşda saxlanılan görüntülər sayəsində uşağa artıq obyektlər üzərində real hərəkətlər etmək lazım deyil. Bu düşüncə növünün inkişafına, xüsusilə rəsm və konstruktor oyuncaqları ilə oynamaq kimi fəaliyyətlər təsir göstərir.

3. Məntiqi təfəkkür məktəbə qədər uşaqlarda obrazlı təfəkkür əsasında formalaşmağa başlayır. 5-7 yaşda uşaq bəzi abstrakt anlayışlar (məsələn, həqiqət, zaman və s.) haqqında mülahizə yürüdə bilir. Səbəb-nəticə əlaqələrini qurmaq, mülahizə yürütmək, müqayisə etmək və ümumiləşdirmək qabiliyyəti məntiqi təfəkkürün əlamətləridir (3, 42).

Uşaqda həm obrazlı, həm də məntiqi təfəkkür ahəngdar şəkildə inkişaf edərsə, onun üçün müxtəlif problemləri həll etmək daha asan olar. Məkətəbəqədər yaş dövrində əsas olan birinci iki təfəkkür növüdür. Əgər uşaqda bütün təfəkkür növləri yaxşı inkişaf edərsə, onda o qarşısına çıxan əksər məsələlərin həllində çətinlik çəkməyəcək.

Uşağın təfəkkürünün inkişafı təcrübədən asılıdır. Buna görə uşağa dünyanı mümkün qədər geniş görmək, düşüncə qabiliyyətini məşq etdirmək imkanı vermək çox vacibdir. Təfəkkürü inkişaf etdirən məşğələlər oyun şəklində olduqda, əyləncəli və cəlbedici ola bilər. Maraqlı və əyləncəli olması üçün uşağınızı hər dəfə yeni oyunlar və məşqlər ilə tanış etməyə çalışın. Uşaq təfəkkürünün bioloji təbiəti haqqında fikri ifadə edərək J. Piaje belə hesab edirdi ki, 7-8 yaşına qədər uşaq üçün ümumiyyətlə məntiqi, fikri fəaliyyət imkan xaricindədir. Piajenin fikrincə kiçik uşaq hər bir hadisəyə və ya faktda ancaq özünün uşaq "xudbinliyi" nöqteyi-nəzərindən baxır. Piraje sonralar özünün tutduğu mövqeyindən bir qədər irəliyə doğru hərəkət etmişdir. Kiçik məktəbəqədər yaşlı uşaqlar müəyyən bir məqsədə can atarkən onu necə əldə etməyin qaydaları, usul və vəzifələri, onun daxili əlaqələri haqqında düşünə bilmirlər. İlk dövrdə yeni əlaqələrin yaradılması sınaq yolu ilə baş verir, bu zaman uşağın köməyinə həm də təsadüf gəlmiş olur. İki yaşlı uşaq masanın üstündə

onu maraqlandıran oyuncağı görür. Oyuncaq uzaqda olduğundan uşaq onu götürə bilmir. Uşaq əvvəlcə oyuncağı götürmək üçün bütün gücünü sərf edir, götürə bilməyəcəyinə inanaraq oyuncaqdan əl çəkir. Bu zaman uşağa oyuncağı necə götürməsi barədə müraciət olduqda, uşaq fikirləşməyi yox oyuncağı götürməyi qərarlaşdırır. Deməli təcrübə və biliyin artması sayəsində uşaq tədricəndaxili əlamətləri qavramağa, şəraiti təhlil etməyə başlayır.

4-5 yaşlı uşaqların mühakiməsi mürəkkəb xarakter daşıyır. Onlar bir neçə oxşar faktlar əsasında müəyyən ümumi nəticələr çıxarır və yeri gəldikcə bundan məsələnin həllində istifadə edirlər. Məs; 5 yaşlı uşağa əvvəlcə suda üzə bilən bir-neçə cisim göstərilir, uşaq bu cisimlərin batmadığını müşahidə edir. Sonra uşağa şam ağacından düzəldilmiş iynəni göstərirlər. O, iynəyə baxaraq "bu balaca və uzun olduğuna görə üzəcəkdir" deyir. Belə ümumiləşdirmələr uşağın hökmünün mürəkkəbləşməsinə kömək edir.

Təfəkkür uşaqlıq illərində həyat şəraiti və tərbiyyənin təsiri altında təşəkkül tapır və inkişaf edir. Uşaq dünyaya gələrkən heç bir təfəkkürə malik olmur. Bu da uşağın yenicə gəldiyi bu xarici aləmi belə keyfiyyətli surətdə dərk edə bilməməsi ilə əlaqədardır. Uşağın xaricə istiqamət olan hərəkətlərinin yardımı ilə icra olunan təfəkkürü əyani-hərəki təfəkkür adlanır. Xaricə doğru istiqamətlənən hərəkətlər əsasən daxili, psixi hərəkətlərin yaranması üçün başlanğıc nöqtəsi olur. Daxili hərəkətlər nəticəsində surətlərlə məsələ həllində istifadə edilən uşaq təfəkkürü əyani surət təfəkkürü adalanır. Uşaq təfəkkürünün inkişafında əsas yeri ümumiləşdirmənin formalaşması- ümumi əlamətlərə malik olan cisim və hərəkətlərinfikrən birləşdirilməsi tutur. Bu dövrdə nitqin mənimsənilməsi mühüm əhəmiyyət kəsb edir. Nağıllardan, ədəbiyyatdan, tapmacalardan istifadə etməklə rabitəli nitqin inkişafı eyni zamanda uşaqlarda təfəkkürün də inkişafına şəraitşərait yaradır.

Məktəbəqədər yaşlı uşaqlar ümumiləşdirməni cisim və hadısələrin bəzi mühüm əlamətləri əsasında aparmağa başlayırlar, lakin onlarda təfəkkür hələ konkret obrazlı xarakter daşıyır və əməli fəaliyyətlə sıx əlaqədə cərayan edir. Psixoloqlar belə müəyyən etmişlər ki, məktəbəqədər yaşlı uşaqların təfəkküründə mücərrədlik ünsürlərinin də təşəkkül etdiyi nəzərə çarpır. Uşaq böyüdükcə, tələbatı artdıqca obrazlı təfəkkür əsasında mücərrəd təfəkkürdə inkişaf etməyə başlayır. Bu uşaqların tədricən təlim fəaliyyətinə yiyələnmələrinə şərait yaradır.

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür və təxəyyülün inkişafı onlarda nitqin inkişafı ilə daha çox bağlıdır. Məktəbəqədər yaş dövründə uşağın bərpaedici təxəyyül surətləri bir qədər solğun olur, uşaq qarşıya qoyulmuş məqsədə uyğun, dəqiq və zəngin surətlər yarada bilmir. Bu əsasən uşağın həyat təcrübəsinin azlığı, təsəvvürlərinin zəyifliyi və biliklərinin məhdudluğu ilə bağlıdır. Məktəbəqədər yaşlı uşaqların bilik və təcrübəsinin artması onların təfəkkür və təxəyyülündə özünü göstərən bir sıra zəyifliklərin aradan qalxmasına, uşaqların ümumiləşdirmələr aparmasına, hökmləri dəqiqləşdirməsinə, bərpaedici təxəyyülün inkişafına müsbət təsir göstərir. Təfəkkür-bu ərəfədə uşağın ixtiyari fəaliyyətinin səviyyəsi dəyişir.

Əgər 3yaşlı uşaq öz fəaliyyətində hər hansı əşyanın köməyi ilə düşünürsə,sensor xassələrinə görə onunla rəftar edirsə 6-7yaşında artıq həmin əşya hansısa bir fəaliyyətin vizual predmetinə çevrilə bilir. Uşaq həmin əşya haqqında düşünərək onunla bağlı əməliyyat aparır, fəaliyyətin düşünərək qurur. Bu məktəbəqədər dövrdə üstünlük təşkil edən əyani obrazlı təfəkkürün öz yerini məntiqi təfəkkürə verməsi, fəaliyyətdə tədricən üstünlük təşkil etməsi sayəsində mümkün olur. Ona görədə təlim prosesində başlıca vəzifə uşaqda bunlardan ibarət olmalıdır:

- məfhum, hökm və əqli nəticəni inkişaf etdirmək;
- məntiqi və mücərrəd təfəkkür elementlərini formalaşdırmaq;
- koqnitiv əməliyyatları təkmilləşdirmək.

Məhz bu cəhətləri nəzərə alaraq J.Piaje kiçik yaşlı məktəblilərin təfkkür fəaliyyətini konkret əməliyyatlar mərhələsi adlandırır.Bu dövrün əsas cəhəti onunla izah edilirki,uşaq tərəfindən yerinə yetirilən əqli əməliyyatlar dönmə xarakterinə malik olur. Əgər uşağın intellektual fəaliyyətinin əvvəlki mərhələsində o xarici hərəkətlərini tədricən daxilə transformasiya edirsə, yəni ötürürdüsə (interiorizaiya) artıq bu dövrdə koqnitiv sferada aardığı bu əməliyyatları elə həmin sferada əşyavi əməliy yatlar ötürür. Təfəkkürün müstəqilliyini inkişaf etdirmək üçün aşağıdakı cəhətlərə nəzər yetirmək lazımdır;

- Uşaq işin icrasına kömək istədikdə ona yardım göstərmək, həvəsləndirmək, nəticə əldə etməsinə nail olmaq;
- Görüş dairəsinin genişləndirilməsi, məlumatlandırılması;
- Yaradıcı oyunlara cəlb etmək: tapmaca, yanıltmac, məsələ həlli, problem situasiya, krossvord və s.
- Müstəqillik, tənqidilik və s. istiqamətləndirmək.

Təxəyyülün yaradıcı, bərpaedici elementlərinin artması təfəkkürün məzmun bütövlüyünə güclü təsir göstərir. Məntiqi təfəkkür bədii obrazlar, gözəl təşbehlər əsasında formalaşır və uşaq təfəkkürünün ən yüksək inkişaf mərhələsi hesab olunur. Çoxsaylı psixoloji tədqiqatlar göstərir ki, məqsədyönlü məşğələlər olmadan çox zaman uşaqda məntiqi mədəniyyəti hətta məktəb illərinin sonuna qədər də formalaşdırmaq mümkün olmur. Buna görə də uşaq şəxsiyyətinin təşəkkül tapdığı bütün yaş mərhələlərində də məntiqi təfəkkürün inkişafı ilə məşğul olmaq lazımdır. Uşağın məntiqi təfəkkürünün inkişafı üçün, ilk növbədə, yiyələnməli olduğu üsullar aşağıdakılardır:

- Müqayisə - əşya və hadisələr arasındakı oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsinə yönəlmiş üsuldur.
- Ümumiləşdirmə - əşya və hadisələrin onların ümumi və mühüm əlamətlərinə görə fikrən birləşdirilməsidir. Mühüm əlamətlər elə xüsusiyyətlərdir ki, onların hər biri ayrılıqda götürüldükdə zəruri, birlikdə götürüldükdə isə kafi əsas kimi çıxış edir və onların köməyi ilə həmin əşyanı digər əşyalardan fərqləndirmək mümkün olur.

➢ Təsnifat - əşyaları onların ən mühüm əlamətlərinə uyğun olaraq fikrən siniflərə bölmək və ya qruplaşdırmaqdır.

➢ Sistemləşdirmə - sistemin fikrən qurulması, obyektlərin müəyyən ardıcıllıqla yerləşdirilməsi, onlar arasındakı münasibətin müəyyənləşdirilməsidir.

➢ Mənaca əlaqələndirmə - əşyaları, hadisələri onların mənasına, funksiyalarına, əyinatına və digər daxili xassə və əlamətlərinə görə (xarici xassə və əlamətlərdən fərqli olaraq) fikrən qarşılaşdırılması, müqayisəsidir (7, 16).

Uşağın dünyagörüşünün formalaşması məntiqi təfəkkürlə başlayır. Məntiqi təfəkkürün inkişafı prosesində uşaqda mülahizə yürütmək, məntiq qanunlarına uyğun nəticə çıxarmaq, səbəb-nəticə əlaqələri qurmaq bacarığı formalaşır. Uşağın nitqi, özünü sözlə ifadə etdiyi üçün inkişaf edir. Məktəbəqədər yaşda məntiqi təfəkkür formalarının mənimsənilməsi uşaqların məktəbə uğurlu keçidi üçün zər Məntiqi təfəkkür düşüncələri aydın və aydın formada ifadə etməyə, ən əsası isə şeylərin mahiyyətini, gedən prosesləri dərk etməyə imkan verən bacarıqlar sistemidir. Ən yaxşısı uşağa məktəbəqədər yaşdan məntiqli düşünmək vərdişini aşılamaqdır, lakin ona verilən suala hazır cavab təklif etmək deyil, ona özü həll tapmaq imkanı verməkdir. Bu didaktik oyuna kömək edəcəkdir. Didaktik oyun öyrənmə prosesini asan və əyləncəli edir. Oyuna daxil olan bu və ya digər zehni vəzifə uşaqlar üçün əlçatan və cəlbedici olan fəaliyyətlər zamanı həll olunur. Didaktik oyun məntiqi təfəkkürün inkişaf formalarından biridir. Oyun zamanı müxtəlif psixi proseslər aktivləşir və ixtiyari xarakter alır. Didaktik oyunlardan istifadə səmərəliliyi artırır. Bundan əlavə, onlar uşaqlarda yaddaş, düşüncə, diqqət, təxəyyül inkişaf etdirməyə qadirdirlər, uşağın zehni inkişafına böyük təsir göstərirlər.

ƏDƏBİYYAT

1. Bayramov S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 1989.
2. Əlizadə Ə. Ə., H.Ə.Əlizadə Əsrin meqameyilləri: psixopedaqoji problemlər. I kitab, Bakı, 2008.
3. Əmrahlı L. Ş. Uşaq psixologiyası. Bakı: Nurlar, 2015.
4. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000.
5. Mehdizadə Z.M. Uşaqlarda təfəkkür və nitqin inkişafı. Bakı: 1966.
6. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı: 1998,
7. Xomski N. Dil və təfəkkür. Bakı: Kitab aləmi, 2006.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: dos.İsmayılova Mehriban Cəlal qızı
psixologiya üzrə fəlsəfə doktoru
tərəfindən çapa tövsiyə olunmuşdur

RAMİL ƏHMƏDOV
Istanbul Universitetinin
Türk Dili və Ədəbiyyatı Fakültəsinin
Yeni Türk Ədəbiyyatı kafedrasının doktorantı
ramilahmadov@ogr.iu.edu.tr
ORCİD ID: 0000-0001-5881-0776

OSMANLI DÖVRÜNDƏ MƏTBUAT VƏ ƏDƏBİYYAT ƏLAQƏLƏRİ: 1839-1910-CU İLLƏR NÜMUNƏSİNDƏ

Xülasə

Osmanlı İmperiyasında II. Mahmudun əmri ilə nəşrə başlayan ilk türk qəzeti "Takvim-i Vekayi" rəsmi bəyannamə və məlumatların yer aldığı bir mətbu orqan idi. İkinci qəzet olan "Ceride-i Havadis"də ədəbiyyatla bağlı müxtəlif məqalə və xəbərlərə yer verilsə də, ədəbiyyatın oxucu auditoriyasını genişləndirən ən təsirli dövri nəşrlər İbrahim Şinasinin təsisçisi olduğu "Tercüman-ı Ahval" və "Tasvir-i Efkar" qəzetləri idi. Bu iki qəzetlə ədəbi əsərlərin oxucuya çatması asanlaşdı. İbrahim Şinasi Fransadakı dövri mətbuatı misal gətirərək ədəbi əsərlərin qəzetdə çap olunmasının vacibliyindən bəhs edir və "Şairin evlənməsi" adlı pyesini qəzetində hissə-hissə çap etdirəcəyini elan edir. Beləliklə, türk mətbuatında qəzetlərdə bədii əsərlərin dərc olunma ənənəsi başlayır. Qəzetlər ədəbi əsərlərin geniş kütləyə çatdırılmasında mühüm rol oynayır. Bu məqalədə 1839-1910-cu illərdə Osmanlı İmperiyasında dərc olunan mətbuatın ədəbiyyata təsiri və qarşılıqlı əlaqələri araşdırılmışdır.

Açar sözlər: *Tənzimat mətbuatı, ədəbiyyat, mətbuat, qəzet ənənəsi, dövri nəşrlər.*

Giriş

1831-ci ildə yayım həyatına başlayan "Takvim-i Vekayi" Osmanlı İmperiyasında dərc olunan ilk türk qəzeti idi. Burada daha çox rəsmi bəyannamələr, sultanların fərmanları nəşr olunurdu. İlk dəfə beş min nüsxə çap olunan bu qəzet 1920-ci ilə qədər müxtəlif fasilələrlə nəşr olunmuşdur. İkinci nəşr olunan qəzet isə "Ceride-i Havadis" idi. Bu qəzetdə müxtəlif mövzularda şeirlər və teatr xəbərləri yer almasına baxmayaraq, ədəbiyyatın oxucu auditoriyasının genişlənməsində ən təsirli dövri mətbuat İbrahim Şinasi tərəfindən nəşr edilən "Tercüman-ı Ahval" (1860) və "Tasvir -i Efkar" (1862) olub. Hər iki qəzetin dövrün yazıçılarının yetişməsində mühüm təsiri var. Türk şeirinin parlaq imzalarından olan Namiq Kamal İbrahim Şinasi ilə tanış olduqdan sonra intensiv şəkildə bu qəzetlərdə çap olunmağa başlayıb. 1865-ci ildə İbrahim Şinasi Avropaya gedəndə "Tasvir -i Efkar" qəzetini Namiq Kamal nəşr etməyə başladı. Namiq Kamaldan sonra isə qəzetin baş redaktoru dövrün bir başqa tanınmış şairi Recaizadə Mahmud Əkrəm olur. Namiq Kamala görə azad mətbuatın və ədəbi dilin yaradıcısı İbrahim Şinasidir. [3, s.395]

İbrahim Şinasi ilə başlayan köşə yazarlığı getdikcə populyarlığını artırır və qəzet gündəlik həyatın ayrılmaz hissəsinə çevrilir. Bu dövrün demək olar ki, bütün yazıçıları, dövlət xadimləri jurnalistika ilə məşğul idilər. Əhməd Rasim mətbuat xatirələrində *"Bura önəmli yerdir, sədrəzəm Said Paşalar, Vefik Paşalar, Arif Paşalar, Şinasilər, Münif Paşalar… Hamısı mətbuatda yetişmişdir"* [8, s.70] fikrini ifadə etmişdir. XIX. əsrdə qəzetdə işləmək xüsusi imtiyaz kimi görünür və yazıçı kimi yetişmək istəyən gənclərin keçməli olduğu bir mərhələ kimi qəbul edilirdi. Namiq Kamalın fikrincə, sivilizasiyanın inkişafının əsas səbəbi mətbuatdır, mətbəənin Osmanlı İmperiyasına gec gəlməsi onları Avropa ilə müqayisədə sivilizasiyadan bir neçə əsr geri atmışdır. [3, s.395]

Qəzetlərdə bədii əsərlərin çap olunma ənənəsi

Osmanlıda ilk mətbəənin açılışana qədər Avropada milyon yarımdan çox kitab çap edilmiş, yüzlərlə dövri mətbuat nəşr edilmişdir. XIX. əsrin əvvəlində Parisdə 42 milyon tirajla 59, Londonda isə 42 qəzet 39 milyon tirajla çap olunurdu. Bu, Qərbdə mətbuatın və mətbəənin inkişafını göstərir. Bu mənada Volterin *"İstanbulda bir ildə yazılan Parisdə bir gündə yazılandan azdır"* cümləsi məşhurdur.[7, s.50]

İbrahim Müteferrikanın 1729-cu ildə nəşr etdirdiyi ilk türk kitabından 1859-cu ilə qədər bu mətbəədə təxminən beş yüz nüsxə olmaqla 25 kitab çap edilmişdir. [5, s.61]. Osmanlı İmperatorluğunda cəmiyyətə təsir edəcək kitabların tirajı az olduğu üçün qəzet daha çox əhəmiyyət kəsb edirdi. Qəzetlər bir növ kitab nəşrini də ehtiva edirdi. Qəzetlərdə müxtəlif əsərlərdən parçalar nəşr edilərək oxucunun diqqətini çəkməyə çalışırdılar. Həmin dövrdə nəşr olunan kitabların sayı orta hesabla beş yüzə yaxın idisə, qəzet tirajı bu rəqəmdən ən azı on dəfə çox idi. Beləliklə, qəzet vasitəsi ilə bədii əsər kitabdan daha çox oxucuya çatdı. Qəzetin kitabla müqayisədə qiymətinin aşağı olması da ədəbi əsərlərin populyarlığını artıran əsas amillərdən biridir.

İbrahim Şinasi "Tercüman-ı Ahval" qəzetində Fransadakı dövri mətbuatı nümunə götürərək ədəbi əsərlərdən hissələrin paylaşılmasının əhəmiyyətindən bəhs edən yazılar qələmə alır. Şinasiyə görə, Avropada dövri nəşrlərin çox satmasının içində bədii əsərlərə yer verməsi olmuşdur. [2, s.46]. Bu yazısından sonra Şinasi "Şairin evlənməsi" adlı pyesini, daha sonra Kostaki Əfəndinin "Heyet-i Sabıka-i Kostantaniye" əsərini hissə-hissə qəzetdə çap etdirir. 1862-ci ildə Agah Əfəndi ilə aralarında yaranan fikir ayrılığına görə "Tercüman-ı Ahval"dan ayrılan və müstəqil olaraq "Təsvir-i Əfkar" qəzetini quran Şinasi burada da ənənəsinə sadiq qalır. Emmerich Vatel, Katip Çələbi, Vefik Əfəndi, Sübhi Paşa, Salih Əfəndi kimi müəlliflərin müxtəlif mövzularda bədii əsərlərini nəşr etdirmişdir.

Ədəbi əsərlərin qəzetdə çap olunmasıyla ədəbiyyatın təsir dairəsi genişlənir. Bu dövrdə həyatımıza daxil olan bir çox ədəbi janrlar qəzetlər vasitəsilə geniş oxucu kütləsinə çatdırılır. Xüsusilə, ilk dövrlərdə kitab oxumaq vərdişinin qazanılmasında

qəzetlərin mühüm rolu var. Qəzetin əsas məqsədlərindən biri mütaliə həzzini cəmiyyətə aşılamaq olduğundan ədəbiyyat ictimai mülkiyyətə çevrilir. Bunun nəticəsidir ki, 1870-1890-cı illərdə nəşr olunan ədəbi kitabların sayı 588-dir. Bu rəqəm hüquq, tarix, ilahiyyat, coğrafiya və iqtisadiyyat sahələrində nəşr olunan nəşrlərin sayından çoxdur. [9, s.331]. Qəzetlər çərçivəsində kitabların nəşrə başlaması da Şinasinin adı ilə bağlıdır. Dövri mətbuatda və çap işlərində özündən sonra gələn nəsillərə əhəmiyyətli təsir göstərmişdir. Bu baxımdan Əbüzziya Tevfikin *"Hamımız Şinasinin mənəvi övladları sayılırıq"* [7, s.63] fikri mübaliğə deyil.

XIX. əsrin ortalarına qədər ədəbiyyat ancaq elitanın malı idi. Dövri mətbuatın inkişafı nəticəsində ədəbiyyat müəyyən təbəqəyə aid olmaqdan azad olaraq cəmiyyətin və ictimaiyyətin mülkiyyətinə çevrilmişdir. Ədəbiyyatın saraydan evə, küçəyə açılmasını sürətləndirən dövri nəşrlər olmuşdur. [5, s.83]. Bu vəziyyət ədəbiyyatın forma və məzmununu, eləcə də təsir dairəsini ciddi şəkildə dəyişdi. Bu dövrə qədər şair şeirlərini oxumaq üçün uzun müddət üzərində işlədiyi kitabı çap etdirməli olub. İndi şeirlər yazıldığı günün səhəri çap olunurdu. Qəzetdə şeirlərin bir-bir çapı ilə bəzi ənənələrin davam etməsi qeyri-mümkün oldu, Əhməd Həmdi Tanpınarın təbirincə desək, qəzet klassik divan şeirini hissə-hissə nəşr etdən bir orqana çevrildi. [11, s.252] Beləliklə, qəzet üçün yazılan məhsullar gələcəkdə nəşr olunacaq kitabların özəyini təşkil edirdi. Dövrün ən nüfuzlu qələm adamı Namiq Kamalın sonralar ədəbi əsərlərində görəcəyimiz fikirləri ilk növbədə məqalələrində ifadə etməyə başladı. [2, s.54]. Yeni Türk Ədəbiyyatının ilk bəyannaməsi olaraq qəbul edilən "Lisan-ı Osmaninin Ədəbiyyatı Haqqında Bəzi Mülahizələr" adlı məqaləsini də "Təsvir-i Əfkar" qəzetində dərc edilmişdir.

Yeni yazı növlərinin yaranması

Qəzetlərin ədəbiyyata verdiyi ən böyük töhfələrdən biri də əcnəbi əsərlərin qəzetdə tərcüməsi və dərc olunmasıdır. Müxtəlif mövzularda məqalələrin və şeirlərin tərcüməsi, fransız romanlarından hissələrin nəşri də dövrün yazıçılarını düşüncə və mövzu olaraq qidalandırırdı. Bu dövrdə edilən tərcümələrin əksəriyyəti fransız ədəbiyyatından idi. İstər fransız ədəbiyyatını tanıdan yazılar, istər tərcümələr, istərsə də ondan nümunə götürülərək edilən bütün esselər bu dövrün qəzet və jurnallarında yer almışdır. [1, s.28]

Beləliklə, türk ədəbiyyatına məqalə, esse, müsahibə kimi yeni janrlar daxil olmağa başlayır. Bu janrlar yeni ədəbiyyatı formalaşdırır. Bu janrlar özü ilə yeni-yeni mövzular gətirdi və ədəbiyyatın məzmununda ciddi dəyişiklik başladı. Vətən, millət, azadlıq, hüquq, qanun, ədalət, təhsil müəlliflərin əsərlərində bəhs etdikləri əsas mövzular idi. Bədii əsərlərin sürətli bir şəkildə mətbuatda nəşri və geniş auditoriyaya çıxış yazarların düşüncəsində bir sıra önəmli dəyişimə səbəb oldu. Əhməd Həmdi Tanpınar "XIX. əsr türk ədəbiyyatı tarixi" adlı kitabında mətbuatın inkişafı ilə birlikdə yazarların özlərini kütlənin qarşısında hiss edərək yazdığını vurğulayır.

Tanpınara görə, şairlərin öz poeziyasında nitq söyləyirmiş kimi kütləyə müraciət etdiyi görülür. [11, s.252]

Tənzimat dövrünün ədəbi əsərlərində populist diskursların ədəbiyyat adamlarına təsir etdiyi, estetik qayğıların diqqətdən kənarda qaldığı, siyasi, maarifləndirici və informativ xarakterli əsərlərin meydana çıxdığı görünür. Bu tənqidlərin ən çox diqqət mərkəzində olan yazıçı Əhməd Midhat Əfəndi olmuşdur. Onun ensiklopedik məlumatlarla dolu əsərlərinin əsas məqsədi xalqı maarifləndirmək idi. Əhməd Midhət Əfəndinin romanlarında tez-tez oxuculara müraciət etməsi, qəzetə gələn oxucuların reaksiyası ilə romanında hadisələrin gedişatını dəyişməsi qəzetin ədəbi yaradıcılığa təsirinin nə qədər əhəmiyyətli olduğunu göstərir. Onun ən çox tənqid olunduğu məqam bədii əsərə yalnız tərbiyə vasitəsi kimi baxmasıdır. Bu cür mənfi təsirləri saymasaq, dövri nəşrlər ümumilikdə ədəbiyyata müsbət təsir edib, ədəbiyyatın qida mənbəyinə çevrilib. Namiq Kamal bu müsbət təsirin ölçüsünü belə ifadə edir: *"Dövlət ədəbiyyat institu açsaydı, bəlkə də ədəbiyyatın tərəqqisinə qəzetlər qədər fayda verməyəcəkdi."* [3, s.398]

II. Əbdülhəmid dövründə mətbuat və ədəbiyyat əlaqələri

II. Əbdülhəmid dövründəki sərt senzura Osmanlı mətbuatı üçün yeni bir dövrün başlanğıcı oldu. Dövri mətbuat əvvəlki kimi azad olmasa da, yayım həyatı aktiv şəkildə davam edir. Bu dövrdə jurnalistika bir peşə kimi geniş vüsət aldı. Qəzetlər həm yazarların, həm də orada müxtəlif vəzifələrdə çalışanların əsa gəlir mənbəyi idi. II. Əbdülhəmid dövründə qəzetlər tez-tez bağlanmalı olduğundan insanların işsizliyi məsələsi ön plana çıxdı. Namiq Kamal qəzetləri bağlamaqla jurnalistin şəxsiyyətinə xələl gətirdiyini bildirərək, bu vəziyyətin yazarları aclığa sürüklədiyini tənqdi edirdi. [12, s.28]. 1879-1887-ci illərdə İstanbulda orta hesabla doqquz və ya on yeni nəşr buraxıldığı halda, 1888-1908-ci illərdə bu say birə enmişdir. [6, s.63]. Bundan başqa senzura səbəbi ilə qəzetdə siyasətlə bağlı yazıların yazılması yazıçıların cəzalandırılmasına səbəb olurdu.

Sarayın mətbuata ciddi nəzarətindən sonra qəzetlərdə tənqidi motivli yazılar demək olar ki, dərc olunmur. Beləliklə, "*bir müddət sonra dövrün qəzetləri az qala ədəbi qəzet kimliyi qazanır*" [5, s.61]. Ciddi senzuradan sonra qəzetlərin arxa plana keçərək yerini jurnallara buraxdığı görünür. Qəzetlə müqayisədə jurnal geniş auditoriyaya deyil, müəyyən bir seqmentə müraciət edir. "Məlumat", "Mirsad", "Sərvət-i Fünun", "Xəzineyi Fünun", "Məcmua-i müəllim", "İrtika" sarayın himayəsi ilə çap olunmuş jurnallardır. Bu jurnallar arasında ən uzunömürlü və ədəbiyyata ən çox xidmət edən "Sərvət-i Fünun" jurnalı olmuşdur. Əhməd İhsan tərəfindən təsis edilən bu jurnal adından da göründüyü kimi nəşr həyatına elm jurnalı kimi başlamışdır. "Sərvət-i Fünun" 1896-cı ildə Tofiq Fikrət, Recaizadə Mahmud Əkrəm, Xalid Ziya Uşaqlıgil kimi yazarların əsərləri ilə ədəbi mətbu orqana çevrilmişdir. Yeni Türk Ədəbiyyatında 1896-1901-ci illər arasında "Ədəbiyat-ı Cədidə", "Sərvət-i Fünun Qrupu", "Sərvət-i Fünun Dövrü" kimi adlandırılan dövrün mövcudluğu bu jurnalla bağlıdır. Jurnalda əsərləri çap olunanlar arasında Hüseyn

Cahid, Mehmed Rauf, Cənab Şəhabəttin, İsmail Safa və başqa adlar var. "Sərvət-i Fünun" yazarlarının çoxu fransızca təhsil aldıqları üçün əsasən Fransa tarixi və ədəbiyyat ilə bağlı tərcümələrə jurnalda yer verilirdi. Bu isə fransız ədəbiyyatının qapılarının türk oxucularının və yazarlarının üzünə açılması demək idi. Sonrakı dövrdə jurnal həmçinin "Fecr-i Ati" ədəbi qrupunun nəşr orqanı olmuşdur. 1910-cu ildə "Fecr-i Atinin Ədəbi Bəyannaməsi" başlıqlı məqalə dərc edilmişdir. Bu qrupda Yaqub Kadri, Əhməd Haşim, Refik Xalid, Hamdullah Suphi, Köprülüzadə Mehmed, Cəlal Sahir və İzzət Melih kimi türk ədəbiyyatının öndə gələn imzaları olmuşdur.

Dövri mətbuat müxtəlif ədəbi qruplara zəmin yaratmaqla yanaşı, ziddiyyətli fikirlərin, müxtəlif dünya görüşlərinin, estetik manifestlərin ifadə olunmasına da öz töhfəsini verib. Dövri mətbuat ədəbi müzakirələr üçün zəmin rolunu oynamışdır. Türk ədəbiyyatının "Abes-Muktebes", "Klassiklərin müzakirəsi", "Zəmzəmə-Dəmdəmə", "Dekadanlar", "Təlim-i Ədəbiyyat" kimi önəmli ədəbi polemikaları mətbu orqanlar vasitəsi ilə geniş oxucu kütləsinə çatdırılmış və bir mənbə olaraq günümüzə qədər qalmışdır. Bu müzakirələr dövrün ədiblərinin sənətə, tərcüməyə, dilə münasibətini göstərmək adına ədəbiyyat tarixinin mühüm tərkib hissəsidir.

İstifadə olunan ədəbiyyat:

1. Akyüz, Kenan. Modern Türk Edebiyatının Ana Çizgileri. İstanbul, İnkılâp yayınları, 2013.
2. Enginün, İnci. Tanzimat'tan Cumhuriyet'e (1839-1923). İstanbul, Dergah yayınları, 2010.
3. Kemal, Namık. Osmanlı Modernleşmesinin Meseleleri. Bütün Makaleleri I cild, İstanbul, Dergah Yayınları, 2005.
4. Okay, Orhan. Batılılaşma Devri Türk Edebiyatı. İstanbul, Dergah Yayınları, 2015.
5. Orhan, Koloğlu. Osmanlıdan 21. Yüzyıla Basın Tarihi. İstanbul, Pozitif Yayınları, 2006.
6. Özdemir, Nebi. Medya: Kültür ve Edebiyat. Ankara, Grafiker Yayınları, 2012.
7. Rasim, Ahmet. Matbuât Hâtıralarından. Erzurum, Salkımsöğüt Yayınevi, 2016.
8. Sabev, Orlin. İbrahim Müteferrika ya da İlk Osmanlı Matbaa Serüveni. İstanbul, Yeditepe yayınları, 2006.
9. Tanpınar, Ahmet Hamdi. XIX. Asır Türk Edebiyatı Tarihi. İstanbul, Dergah yayınları, 2013.
10. Topuz, Hıfzı. II. Mahmut'tan Holdinglere Türk Basın Tarihi. İstanbul, Remzi Kitabevi, 2011.

R. AHMADOV

Press and Literary Relations in The Ottoman Period: 1839-1910 Samples

SUMMARY

"Takvim-i Vekayi", the first Turkish newspaper published in the Ottoman Empire by order of II. Mahmud was a press organ containing official declarations and information. Although the second newspaper "Ceride-i Havadis" published various articles and news related to literature, the most effective periodicals that expanded the readership of literature were "Tercuman-i Ahval" and "Tasvir-i Efkar" newspapers founded by Ibrahim Shinasi.

These two newspapers made it easier for literary works to reach the readers. İbrahim Shinasi mentions the importance of publishing literary works in the newspaper, citing the periodical press in France as an example, and announces that he will publish his play "The Poet's Marriage" in parts in his newspaper.

Thus, the tradition of publishing artistic works in newspapers begins in the Turkish press. Newspapers play an important role in delivering literary works to a wide audience. This article investigated the influence and mutual relations of the press published in the Ottoman Empire in 1839-1910 on literature.

Keywords: *Tanzimat press, literature, press, newspaper tradition, periodicals.*

Р. АХМАДОВ

ЛИТЕРАТУРНЫЕ СВЯЗИ В ОСМАНСКИЙ ПЕРИОД: ОБРАЗЦЫ 1839-1910 гг.

РЕЗЮМЕ

В Османской империи первая турецкая газета, издававшаяся по приказу II Махмуда «Таквими Векаи" был печатным органом, содержащим официальные заявления и информацию. Несмотря на то что во вторая газета "Черидеи Хавадис" содержал различные статьи и новости о литературе, наиболее эффективные периодические издания Ибрагима Шинаси, расширяющие круг читателей литературы были газеты «Терджуман-и Ахвал» и «Тасвир-и Эфкар». С этими двумя газетами литературные произведения стали легче доходить до читателя.

Ибрагим Шинаси приводит в пример периодическую печать Франции. В нем говорится о важности публикации литературных произведений в газетах и он объявляет что опубликует свою пьесу «Женитьба поэта» частями в своей газете. Так, в газетах турецкой прессы начинается традиция публикации художественных произведений.

Газеты играют важную роль в доставке литературных произведений на публику. В этой статье исследовано влияние прессы, издававшейся в Османской империи в 1839-1910 годах на литературу и их взаимоотношения.
Ключевые слова: Пресса тензимат, литература, пресса, газетная традиция, периодическое издание.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Pərvin Nurəliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR AĞAYEVA
Nigar.aa@mail.ru
ADU

GƏLƏCƏYİN İNTELLEKTUAL TƏSVİRİ: A.KLARKIN YARADICILIĞINA BİR BAXIŞ

Açar sözlər: A.Klark, gələcəyin intellektual təsviri, "Kosmik Odissey", "Uşaqlığın sonu"

Ключевые слова: А. Кларк, интеллектуальное описание будущего, «Космическая Одиссея», «Конец детства»

Key words: A.Clarke, intellectual description of the future, "A Space Odyssey", "Childhood's End"

Fantastik əsərlərində utopiya və distopiya janrlarından istifadə edən yazıçılar yaşadıqları və ya yaşamaq arzusunda olduqları dünyanın bu janrda əksini tapan sistem və cəmiyyətlərin qurulmasında tələb olunan şərtləri və qüsurlu ictimai-siyasi qaydaları təsvir etməklə oxucuya ciddi mətləblər yönəltdilər. Amerikalı tədqiqatçı Layman Sarcentin sözləriylə desək bu kimi əsərlər "insan həyatını necə təşkil etmələri ilə nəticələnən xəyallar, kabuslar"[15, s.4] və sosial yuxu alətidir. Utopiya janrı hər hansı bir cəmiyyətdə onun əksinə olaraq inkişaf edəcək elementləri, davamlı sosial qarşıdurma, qəza, faciə kimi fəlakətləri aradan qaldırmağı hədəfləyir. Bu istəyin yerinə yetirilməsi və cəmiyyəti daha qaranlıq uçuruma yönəlməsi ilə bağlı məsələlər akademik araşdırmalarda ən çox müzakirə olunan mövzulara çevrilmişdir. Yanlış elmi fərziyyələr hətta müəyyən müddətdə beyinlərə hakim kəsilməyə nail olsa da, onların təsir dairəsi son dərəcə məhduddur. İctimai həyatda isə belə eksperimentlər həyata keçmədiyinə, ya ümumiyyətlə mövcud olmadıqlarına görə minimal əhəmiyyət kəsb edir. Halbuki, bütün utopik layihələrin həyata keçirilməsi prosesi daim bu və ya digər dərəcədə müəyyən dövr ərzində təşəkkül tapmış adət və ənənələrin, dəyərlərin ləğvi, ən azı isə nizamın pozulması ilə bağlı olduğuna görə riskli xarakter daşıyır. Utopik konsepsiya cəmiyyətin həyatının bütün tərəflərini dəyişməyi nəzərdə tutduğu üçün gerçəkləşmə prosesində onun nöqsanlı tərəfləri çox vaxt cəmiyyətin həyatına, insanın düşüncə, dünyagörüş və dünyaduyum tərzinə həddindən artıq ağır zərbələr vura bilir.

Ədəbiyyat tarixindən məlumdur ki, bu xəbərdarlığı daha çox yazıçı-fantastlar həyata keçirir, bəzən açıq, bəzən içən dolayı şəkildə cəmiyyətə mesajlar yollayırlar. Belə yazıçılardan biri də XX əsrin böyük fantastı Artur Çarlz Klarkdır (Arthur Charles Clarke, 1917-2008). O, elmi fantastik janrının aparıcı simalarından biri kimi geniş oxucu auditoriyasına malikdir. Onun əsərlərində qaldırılan məsələlər heyrətamiz şəkildə həyata keçmiş, ədəbi tənqiddə mübahisə obyektinə çevrilmişdir. A. Klark digər məşhur Amerika yazıçı-fantastı Ayzek Azimov (Isaac Asimov, 1920-1992) kimi elmi fantastik mövzularıyla kosmik tədqiqatlardan, texnologiya və digər

mövzulardan bəhs edir, ictimai-siyasi gerçəkliyin mübahisəli və tənqidi görüşlərini təhkiyə obyektinə çevirməklə janrın sərhədlərini inanılmaz dərəcədə genişləndirmişdir [10, s.220].

Klark Fondunun vurğuladığı kimi, yazıçının yaradıcılığı "elmi irəliləmədən elmi fantastikaya, texniki tətbiqetmədən əyləncəyə qədər yazdığı əsərləriylə elm dünyasına körpü salıb" [2]. Bir futurist yazıçı olaraq, A.Klark bu gün çalışan yaradıcı elm adamlarına geniş layihələr vermis, bəşəriyyəti düşünməyə vadar edən xəbərdarlıqlar ötürmüşdür. Onun yaradıcılığını qoruyan Klark Fondu və İnstitutu "Klark qanunları"nı irəli sürmüş, gələcəkdə baş tutan yeniliklərdə onun da payı olduğunu bəyan etmişdir.

Artur Çarlz Klark 16 dekabr 1917-ci ildə İngiltərənin cənub-qərbindəki Somerset mahalında, dənizkənarı Minehead şəhərində, ingilis əkinçi ailəsində anadan olmuşdur [13, s.29]. 1936-cı ildə Klark İngilislərarası Planet Cəmiyyətinə (İPC) qoşulur və cəmiyyətdə astronavtikayla bağlı materiallarla işləyir, İPC bülleteninə qatılır. Həm alim, həm də yazıçı-fantast kimi əsərlər yazmağa başlayır. 1939-cu ildə İkinci Dünya müharibəsinin başlamasından sonra o, Kral Hərbi Hava Qüvvələrinə qoşulur və 1941-1946-cı illərdə radar təlimatçısı və texniki vəzifəsində çalışır.

Təcrübə əsnasında ilk radar uçuş cihazını idarə edən Yerdən İdarə Olunan Yardım(YİOY)-ın zabiti olur [11, s.35]. Onun çalışdığı sahə təyyarə nəzarəti vasitəsi ilə hava şəraitini radar görüntüləri əsasında təhlükəsiz eniş zolağına endirməni təmin edirdi. İkinci Dünya müharibəsindən sonra A.Klark Londona qayıdır, 1948-ci ildə London kollecində fizika və riyaziyyat üzrə birinci dərəcəli fərqlənmə diplomu alır. O, eyni zamanda İngilislərarası Planet Cəmiyyətinə (İPC) qayıdır və 1946-47 və 1951-1953-cü illərdə cəmiyyətin prezidenti vəzifəsini icra edir [13, s.36]. Yazıçı 1956-cı ildən Şri Lankada yaşayır və sualtı sahil kəşfiyyatında çalışır. Lakin ona 1962-ci ildə poliomielit diaqnozu qoyulur və buradan uzaqlaşır. Böyük yazıçı A.Klark 19 mart 2008-ci ildə dünyasını dəyişir [13, s.27]. Onun böyük və mənalı ömrü həm doğulduğu vətəni, həm də dünya ictimaiyyəti tərəfindən yüksək səviyyədə qiymətləndirilir. 1988-ci ildə kraliça II Yelizaveta, iki il sonra Şri Lanka şahzadəsi Çarlz tərəfindən rəsmən "Clarke's Knightthood" mükafatına, 2005-ci ildə isə Şri Lankanın ən yüksək Mülki Şərəfinə layiq görülmüşdür [14, s.29].

Elmi fantastika janrına verdiyi töhfələrdən başqa A.Klark mühəndislik sahəsinə də böyük təsiri göstərmişdir. 1945-ci ildə A.Klark "Yerdənkənar röleler – Raket stansiyaları dünyaya radio yayımı verə bilərmi?" məqaləsiylə İngilis Wireless World (Naqilsiz Dünya) jurnalında geostasionar orbitlərdə yerləşdirilən peyklər vasitəsilə qlobal ünsiyyətin ilk nəzəri prinsiplərini ortaya qoydu. Bir geostasionar peyk ekvatorun üstündəki Yer kürəsini orbitə çıxarır və bu zaman orbitin dövrü (peykin Yer kürəsi ətrafında bir orbiti tamamlaması üçün aldığı vaxt – N.A.) Yerin fırlanma dövrü ilə eyni olur [14, s.89].

Bu o deməkdir ki, Yerin səthində yerləşən bir müşahidəçi peyk göydə hərəkət etmir, əksinə sabit bir vəziyyətdə qalır. Düzdür, orbitlərin yaradılması ideyası

1928-ci ildə irəli sürülmüşdü, lakin A.Klark ilk olaraq geostasionar orbitlərin dünya miqyasında telekommunikasiya rölesinin yaradılmasının ideal olacağını irəli sürür [12, s. 74]. Bir geostasionar orbitdə olan bir peyk göydə hərəkət etmədiyi üçün yerdəki antenalar peykini göy boyunca izləmir, yalnız yer stansiyaları və peyklər arasında əlaqəni asanlaşdırır. Məlumdur ki, bu texnologiya hava proqnozunda bu gün mövcud olan hər bir ünsiyyət formasına qədər istifadə olunur. Sonrakı onilliklər ərzində A.Klark ABŞ-dakı elm adamları ilə birlikdə Sovetlər Birliyi ilə soyuq müharibə dövründə kosmik yarışlar zamanı kosmik gəmi və buraxılış sistemlərinin işlənməsində çalışır. Bu fəaliyyət növü onun bir çox romanlarında özünü büruzə verir. A.Klark mühəndislik sahəsində çoxsaylı fəxri mükafatlar, o cümlədən 1982-ci il Marconi Beynəlxalq Təqaüdü, Franklin İnstitutunun qızıl medalı, Fiziki Tədqiqatlar Laboratoriyasının Vikram Sarabhai İxtisası, Əhmədabad, Lindbergh Mükafatı və London Kral Kollecinin Təqaüdün gətirdi [13, s.89]. Hal-hazırda Klarkın peyk rabitəsi rölesi üçün yararlı olaraq təsvir etdiyi ekvatordan 36.000 kilometr (22,000 mil) yuxarıdakı geostasionar orbiti Beynəlxalq Astronomiya Birliyi tərəfindən Klark Orbiti adlandırılmışdır.

A.Klarkın mühəndislik sahəsindəki müvəffəqiyyətləri müasir dünya üçün nə qədər vacib olsa da, onun ən azından bir futurist kimi irəli sürdüyü fikirlər sabah dünyanın necə görünə biləcəyini təxmin etməyə əsas verir. Əminliklə demək olar ki, A.Klark elmin populyarlaşdırılmasında müstəsna xidmət göstərmişdir. Onun 1945-ci ildə yazılan və 1946-cı ildə "Astounding Science" jurnalında nəşr edilən "Xilasetmə partiyası" [3, s.86] aldı ilk hekayəsi bəlkə də dünyada ən yaxşı fantastik nəsr əsri kimi tanınır. Yazıçı yetmişdən çox bədii və elmi-publisistik kitab yazdığı üçün bir çox mükafatlar almış, yazdığı ssenarilər əsasında filmlər çəkilmişdir. Kinematoqrafiya sahəsində böyük uğurları olan Britaniya və ABŞ rejissoru Stenli Kubrik ilə işbirliyi "Kosmik Odissey" (A Space Odyssey,1968) filminin ərsəyə gəlməsinə yol açdı. A.Klark və S.Kubrik film üçün ən yaxşı orijinal Ssenari Akademiyası mükafatına namizəd oldular. Bu film bu günə qədər dünyada ən nüfuzlu filmlərdən biri olaraq qalır [5, s. 72].

A.Klark eyni zamanda, onilliklər boyu televiziyada işləmiş, dünyanın müxtəlif yerlərində insanların evlərinə elm və mühəndislik sahələrində biliklər gətirmişdir. O, həmçinin ABŞ-dakı Apollon 12 və Apollon 15 kosmik missiyalarının CBS əhatəsi üçün CBS Evening News telejurnalisti Valter Kronkayt və NASA astronavtı Valli Şirra ilə birlikdə çalışmışdır. Onun ssenarisi əsasında yazılan seriyaları "Artur Klarkın sirli dünyası" (1981), "Artur Klarkın qəribə güclər dünyası" (1984) və "Artur Klarkın sirli kainatı" (1994) dünyanın bir çox ölkəsində nümayiş olunmuşdur.

Bioqrafiyasından da göründüyü kimi, A.Klarkın fizika və riyaziyyat alimi kimi karyerası onu elmi fantastikaya meylinə əsaslanırdısa, dünyada milyonlarla insanın ölümü ilə nəticələnən ideoloji oyunlar, İkinci Dünya müharibəsi və Soyuq müharibə dövrlərindəki təcrübəsi siyasəti tənqid etməyə əsas verirdi. Kanadalı filosof

Endrü Fenberqin də irəli sürdüyü kimi, İkinci Dünya müharibəsinin sonunda və Soyuq Müharibə illərində yazıçıların ortaya qoyduğu müxalif fikirləri susdurmaq üçün böyük bir təzyiq vardı, yalnız "fantastika narahatlığı və hətta müxalifətin fikirlərini tam dərinliyi ilə ifadə etməkdə sərbəst idi" və bir müddət elmi fantastika "siyasi fikir ayrılığının yeganə vasitəsi" oldu [1, s.48]. Elə buna görə demək olar ki, A.Klarkın həm alim kimi fəaliyyəti, həm də elmi fantastika janrıyla bağlılığı bu tip əsərlərin yazılmasına zəmin oldu.

A.Klark, İkinci Dünya müharibəsindən sonra dünyada gedən prosesləri tam anlayır və başa düşürdü ki, iki fövqəldövlətin kosmos uğrunda yarışları inanlmaz yeniliklər yol açacaq. Amma onu da dərk edir ki, bu elmin inkişafına yol açdığı kimi, yeni-yeni kataklizmlərə də yan alacaq. Onun "Uşaqlığın sonu" (Childhood's End,1953) romanı yarışa girən dövlətlərin sonda nəyə qadir olduğunu, bəşəriyyəti bürüyən texniki tərəqqinin mənəvi böhrana çevrildiyini göstərir. Beləliklə. A.Klark bu yersiz yarışların pozulmasına səy göstərir, bir düşünən insan kimi bəşəri xəbərdarlıq edir.

Ədəbi tənqid bir qayda olaraq A.Klarkın əsərlərini yaxın gələcəkdə baş tutan elmi kəşflərdən, galaktikalar arası istismardan, apokalipsin baş tutmasından, texnologiyanın inkişafından sonra baş verən mənəvi deqradasiyanın təsviri kimi dəyərləndirir, bütünlükdə yaradıcılığını elmi fantastikanın ümumi mövzuları ilə əlaqələndirirdi. Rassel Ceykobinin də haqlı olaraq qeyd etdiyi kimi "Klarkı xüsusiylə utopiya kontekstində öyrənilməsi maraqlıdır, çünki onun kitablarında utopiyanın elmi-fantastik tənqidi həmçinin utopik bir qeyd olaraq da oxunacaq" [8]. Dünyada mövcud olan utopiyanın, başqa sözlə, kommunizm və kapitalizmi necə meydana gətirdiyini, sonra distopiya reallıqları ilə sona çatdığını biz A.Klarkın əsərlərində əyani şəkildə görə bilirik. A.Klarkın "Yer işığı" (Earthlight) romanı iki keçmiş alman raket aliminin müqayisəsi ilə başlayır və onlardan birinin Şərqi, digərinin isə Qərbi seçdiyini izləyirik. Amerika Birləşmiş Ştatları və Sovetlər Birliyi arasındakı silah və kosmik yarışına istinad edən müəllif hər iki tərəfin utopik istəklərini önə çəkir. Hər iki alim öz xüsusi üsulları ilə kosmosa bir raket atma layihələri üzərində çalışır. Daha sonra "Üst qüvvələr"in gəlişi, daim təcridolma və bağlanma təhlükəsi qarşısında qalan utopiyalarının yaranması hər iki alimi öz ixtiralarından imtina etməsiylə nəticələnir. Məlum olur ki, Yer kürəsinə xarici məkandan qadağalar – insanlara artıq kosmik gəmilərə mesaj göndərməyə icazə vermir. Mişel Fuko "İntizam və cəza" əsərində yazır ki, "ətrafı heterogen və özünə bağlı bir yer təklif etdiyi kimi, güc və nizam-intizam elə tətbiq olunmalıdır ki, kosmosun qadağan olunmasıyla Yer kürəsində utopik cəmiyyətin əlamətləri təmin edilsin" [7, s.141].

A.Klarkın təsvirinə görə yad "Üst qüvvələr" tərəfindən yaradılan bu sifariş utopiyanın əyani təzahürüdür. "Yer işığı" (Earthlight) romanının ikinci hissəsində A.Klark yazır: "Bütün əvvəlki dövrlərin normalarına görə bu utopiya idi. Cahillik, xəstəlik, yoxsulluq və qorxu demək olar ki, yox olmuşdu. Bir kabus şəfəq ilə itən

kimi müharibə xatirəsi keçmişə çevriləcək, tezliklə bütün canlıların təcrübəsindən kənarda qalacaqdı" [4, s.60].

Utopik idealların tarixən sübut edilmiş distopik nəticələrinin tənqidi A.Klarkın "Yer işığı", "Uşaqlığın sonu", "Şəhər və ulduzlar" romanlarında rast gəlinir. Bu əsərlər ingilis elmi-fantastik romanının soyuq müharibə dövrünü oxucuya çatdıran ən bariz nümunələridir. Adı çəkilən romanlar "azadlıq və xoşbəxtlik" görünüşü altında ideal idarəetmə formasına nail olmaq üçün təslim, nizam-intizam, güc və nəzarət ilə idarə olunan sistemlər quran və qoruyan utopik dövlətlərin totalitar quruluşa xidmət etdiyini göstərir. İnsanlar və ya yadplanetlilər tərəfindən yaradılmış utopiyalar sonda distopik vəziyyətə düşürlər, bununla da utopiyaların meydana gəlməsinə səbəb olan distopik şərtləri ifşa edirlər. A. Klark soyuq müharibə fonunda daha yaxşı bir dünyanın və ya daha yaxşı bir gələcəyin mümkün olacağını önə çəkmir, lakin fantastik romanlar zəminində müəyyən bir mövzunu tənqidi çərçivəyə salır. Müəllifin romanlarının utopiya və distopiyanın təhlilinə özünəməxsus yanaşmaları var. A. Klark Qızıl dövrün mövcudluğunun apokaliptik bitməsini, onun yerində mütləq bir distopiya olmadığını təsvir edərkən fərqli bir mənzərə yaradır – bəşəriyyət sona çatsa da, uşaqlar fərqli bir formada olsalar da, yaşayırlar.

Beləliklə, bu əsərlərin daha dərindən təhlili zamanı distopiyanı ortaya çıxaran utopik idealların soyuq müharibə dövrünün elmi fantastikasında siyasi mesaj olduğu ortaya çıxır. Distopiya heç vaxt indiki zaman nöqteyi-nəzərdən sabit ola bilməz, çünki o müəyyən dərəcədə gələcəkdə mövcuddur. Fərd istəklərinin yerinə yetirilməsindən heç vaxt məmnun qalmadığı üçün, ümumilikdə dünyanın inqilabi bir konfiqurasiyasını tələb edir. Utopiyaların daha yaxşı bir həyat arzusu olması mütləq bunun hamı üçün daha yaxşı bir dünya olacağı anlamına gəlmir. Utopik ümid və ya həsrət özünəməxsus kollektiv xarakter daşıyır və fərdlərlə heç bir əlaqəsi yoxdur [4, s.63]. Əslində məhdudiyyətlər önə qoyulanda və xüsusi orqanlar tərəfindən idarə edildikdə "daha yaxşı" insanların azadlıqdan məhrum edilməsi və hər şeyin hakimiyyətin nəzarəti altında olması arzuolunmaz bir gerçəkliyə çevrilir [9, s.5]. Rut Levitasın bu fikirləri "Uşaqlığın sonu" romanındakı xaosun bəzi tədbirlərlə aradan qaldırılmasında, harmoniyanın ölkəyə gətirilməsində öz əksini tapir. "Şəhər və ulduzlar" romanında isə insanlar cəmiyyətə nizam-intizam gətirmək üçün təsnif edilir. Lakin bunların hər ikisində insanların həyatından, yaşam tərzindən, hisslərindən və istəklərindən asılı olmayaraq elm adamlarının və hökumətin əsas qayğısı insanların həyatının daha yaxşı olmasını təmin etməkdir.

Ədəbiyyat:

1. Andrew, F. Critical Theory of Technology: An Overview // TAIL ORING BIOTECHNOL OGIES. Vol. 1, Issue 1, Winter 2005, p.47-64.
2. Arthur Clarke Foundation https://clarkefoundation.org/
3. Booker, K.M. The Dystopian Impulse in Modern Literature: Fiction as Social Criticism. Westport: Greenwood, 1994.

4. Clarke, A.C. Earthlight. Gateway. 2019. 192p.
5. Daley, C. British Science Fiction and the Cold War, 1945-1969. Diss. Westminster University, 2013
6. Freedman, Carl. Critical Theory and Science Fiction. Hanover: Wesleyan UP, 2000.
7. Foucault M. Discipline and Punishment. The Birth of the PrisonTranslated from the Frenchb, Alan Sheridan. https://monoskop. org/images/4/43/ Foucault-_Michel_Discipline_anPunish_ The_Birth_of_the_Prison_1977_1995.pdf
8. Jacoby, R. Picture Imperfect: Utopian Thought for an Anti-Utopian Age. New York: Columbia UP, 2005
9. Levitas, Ruth. The Concept of Utopia. New York: Syracuse UP, 1990. p.3-10.
10. Moorcock, M. "Brave New Worlds." The Guardian. 22 March 2008. The Guardian. Web. 25 Aug 2015.
11. McAleer, N. Arthur C. Clarke: The Authorized Biography. Chicago: Contemporary, 1992
12. McAleer, N. Sir Arthur C. Clarke: Odyssey of a Visionary: A Biography. New York: Rosetta, 2013.
13. Rabkin, E.S. Arthur C. Clarke. Maryland: Wildside, 2006
14. Seidelmann, K. "Explanatory Supplement to the Astronomical Almanac" University Science Books. New York: Sphere, 1992.
15. Sargent, L.T. "The Three Faces of Utopianism Revisited." Utopian Studies. 5.1, 1994. p.1-37.

Резюме

Нигяр Агаева

Интеллектуальное описание будущего:
к вопросу о творчестве А. Кларка

Писатели, использующие жанры утопии и антиутопии в своих фантастических произведениях, отражают мир, в котором они хотят жить, но они также говорят о наличии серьезных проблем в пробелах, созданных в социальных и политических правилах. Неверные научные гипотезы господствуют над умами в течение определенного периода времени и имеют место в планах на будущее. Научно-фантастическая литература поднимает и описывает эти проблемы. В этом смысле творчество Артура Кларка считается лучшим образцом интеллектуального образа будущего. Вопросы, поднятые в его произведениях, были удивительным образом реализованы и проявлены в новейших достижениях современной эпохи. Как писатель-футурист, А. Кларк дал широкий спектр проектов творческим ученым, работающим сегодня.

Summary

Nigar Agaeva

The intellectual description of future: glance at A. Clarkes creativity

Though the writers who use utopia and dystopia in their fantastic works try to reflect the world they want to live in by means of this genre, they also deal with the gaps in social -political regulations. Wrong scientific theories control the brains for a while and are seen in the future plans, as well.

Science-fiction deals with these types of problems and mirrors them. From this point of view Arthur Clarkes creativity is accepted as one of the best examples of the intellectual description of the future. The issues demonstrated in his works are amazingly realized and reflected in the latest achievements of the modern world. As a futuristic writer A. Clark gave large projects to modern scientists.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: fil.e.d., prof. Əliyeva Həmidə
tərəfindən çapa tövsiyə olunmuşdur

AĞAYEV RAHIB MƏMMƏDAĞA OĞLU
Heydər Əliyev adına Hərbi İnstitutun
Humanitar və sosial fənlər
kafedrasının müəllimi

GƏNCLƏRIN VƏTƏNPƏRVƏRLIK TƏRBIYƏSI

İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətindən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə vətəni sevmək deyil. Vətənpərvərlik həm də vətənin naminə çalışmaq, vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi, tərbiyəyə möhtacdır və o, tərbiyə yolu ilə daha da möhkəmlənir, güclənir. Vətənpərvərlik hissinin böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, ən vacib vəzifələrindən olmuşdur.

Vətənpərvərlik duyğusuna malik olma ən ali əxlaqi-mənəvi məziyyətlərin sırasında birincilərdən hesab olunur. Çünki vətənpərvərlik dedikdə, onun əsas komponentləri - doğulduğun torpağı, yaşadığın ölkəni sevmək, onun uğrunda çalışmaq, ona əmlləri ilə faydalı olmaq, onu qorumaq kimi keyfiyyətlərlə yanaşı, insanın ləyaqətlilik, əqidəlilik, vicdanlıq, sədaqətlilik əlamətləri də başa düşülür. Vətənin qədrini bilməli, çətinliklərinə dözməliyik. Ata-babalarımız təsadüfən deməyiblər ki, "Torpağı qoruyarsan Vətən olar, qorumazsan kəfən". Vətən sevgisi, Vətənə sədaqət, onun çiçəklənməsi üçün çalışmağa hazır olmaq ən çətin anlarda belə, adamların qüvvələrini vahid məqsəd üçün - Vətənin azadlığı, xilası naminə səfərbər edir.

Vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Bu baxımdan təlim-tərbiyə işinin düzgün təşkili mühüm əhəmiyyətə malikdir.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir.

Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin, beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət xadimlərinin şəxsi nümunələri də gənclər üçün əsl həyat, tərbiyə məktəbidir.

2020-ci il sentyabrın 27-dən başlanan və 44 gün davam edən Vətən savaşında ordumuz olduqca mükəmməl taktika ilə müxtəlif istiqamətlərdə düşmən cəbhəsini yararaq işğalçı ordunu darmadağın etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, həmçinin Xocavənd, Xocalı, Laçın, Kəlbəcər, Ağdam, Tərtər rayonlarının bir sıra yaşayış məntəqələri döyüş yolu ilə azad edildi. Şuşanın azad edilməsi isə Azərbaycan Ordusunun yazdığı əsl qəhrəmanlıq səhifəsi oldu. Şuşanın azad edilməsi Azərbaycan əsgərinin vətənpərvərliyinin, ən ekstremal şəraitdə belə vuruşaraq qalib gəlmək əzminin nümayişi oldu.

Vətən müharibəsinin yaratdığı yeni reallıqlara uyğun şəkildə Azərbaycan cəmiyyətinin, o cümlədən təhsil sisteminin vətənpərvərlik tərbiyəsi sahəsində qazandığı nailiyyətləri daha da inkişaf etdirmək baxımından xüsusi olaraq vurğulanmalıdır ki, heç kəs sadəcə nəsihət və dərslikdən, hər hansı kitabdan oxumaq yolu ilə vətənpərvər olmur. Bu prosesdə söz və əməl birliyi, şəxsi nümunə əsas təməl şərtlərindən, vacib amillərdən sayılır.

Ölkəmizdə gənc nəslin milli köklərimizə, mənəvi dəyərlərimizə, tarixdən gələn ənənələrimizə bağlılıq, Vətənə sevgi, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində müxtəlif sahələrdə davamlı addımlar atılır. Ümumiyyətlə, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi mühüm prinsiplərdən birini təşkil edir. Vətən müharibəsinin qələbəmizlə başa çatmasını təmin edən mühüm amillərdən biri gənclər arasında vətənpərvərlik ruhunun aşılanması ilə bağlı uğurlu işin aparılmasıdır. 2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycanda Vətənə, xalqa bağlı, torpaqlarımızın azad olunması uğrunda canlarından keçməyə hazır olan gənc nəsil formalaşıb. Bəlli olduğu kimi, müharibənin ilk günlərindən on minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin ərazi şöbələrinə müraciət edərək ordu sıralarına yazılmaq istədiyini bildirdi. Gənclərimiz döyüş meydanında göstərdikləri şücaətləri ilə Prezident, Ali Baş Komandan İlham Əliyevin etimadını layiqincə doğrultmağa, üzərlərinə düşən missiyanı şərəflə yerinə yetirməyə qadir olduqlarını təsdiqlədilər. Lakin bu, bizə arxayınlaşmaq üçün əsas vermir. Yəni müharibədən əvvəl olduğu kimi, postmüharibə dövründə də gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində işlər davam etdirilməlidir. Təbii ki, bu istiqamətdə bir çox qurumların, o cümlədən ali məktəblərin üzərinə böyük məsuliyyət düşür.

Hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir. Gənc nəslə qayğı isə Azərbaycan dövlətinin siyasətinin aparıcı istiqamətlərindən biridir. Bugünkü gənclər nə qədər savadlı, nə qədər vətənpərvər, nə qədər yüksək dünyagörüşünə malik olarsa, dövlətin, millətin gələcəyi bir o qədər işıqlı və ümidverici olar.

Azərbaycan dövləti gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyat üçün əhəmiyyətli

məsələ kimi baxmışdır. Bu, bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onun inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişdir. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur həmvətənlərimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunələrinin ön plana keçməsi hərbi vətənpərvərlik tərbiyəsi işində mühüm rol oynayır.

Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət, insan, vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, onun mənafeyini gözləyən, təhlükəsizliyi üçün məsuliyyət daşıyan insan yetişdirmək deməkdir.

Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Böyük Atatürk deyirdi ki, sülh istəyən xalq hərbə hazır olmalıdır. Bu, çox dəyərli kəlamdır. Azərbaycan xalqı müharibəni arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarı olmuşdur. Hərbi-vətənpərvərlik ruhunda tərbiyəni, sadəcə, "quru" sözlərlə, nəsihətlərlə də məhdudlaşdırmaq olmaz. Bu sahədə uğur əldə etmək üçün bütün sahələr də, hər şeydən əvvəl, hər kəs öz işini düzgün planlaşdırmalı, görəcəyi işləri müəyyənləşdirməlidir. Bu zaman tədbirlər arasında yaradılacaq əlaqə nəzərə alınmalı, işin təşkili əsaslandırılmalıdır.

Ümummilli liderimiz Heydər Əliyev öz siyasətində daim gənclərə qayğı göstərib, onların bir fərd kimi yetişməsinə xüsusi diqqət ayırıb. Ulu öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görüb. Gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan ulu öndər, gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm verib. Heydər Əliyev bu barədə demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidirlər. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Ulu öndərimiz, müstəqil Azərbaycanımızın memarı və qurucusu Heydər Əliyev məhz buna görə də vətənpərvərlik tərbiyəsinə, uşaq və gənclərin vətənpərvər ruhda böyüməsinə xüsusi əhəmiyyət verir və bunu çıxışlarında dönə-dönə bizlərə tövsiyə edirdi. Təhsil işçiləri ilə çoxsaylı görüşlərinin birində böyük öndər demişdir: "Bizim gənclər, təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər, xüsusən də

humanitar fənlər gərək gənclərimizə Vətənə sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin".

Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Respublikanın əksər gəncləri vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edirlər.

Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır. Vətənin maddi və mənəvi sərvətlərini qorumaq, iqtisadi qüdrətinin yüksəlməsinə nail olmaq, həmişə mübariz əhval-ruhiyyədə olmaq lazımdır.

Müstəqil dövlətimizin ideologiyasının, həmçinin azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğ olunmasına böyük ehtiyac var. Azərbaycanımız üçün əsl vətəndaş yetişdirmək təhsilimizin qarşısında böyük vəzifələr qoyur. Bununla belə, dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil. Onlar bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir. Bu baxımdan, təbliğatın uğurlu və təsirli olmasında televiziyanın yeri və xidməti əvəzolunmazdır.

Müasir gənclərimizdə vətənpərvərlik keyfiyyətlərini formalaşdırmaq üçün siyasi və ictimai tərbiyə işinin səmərəliliyini artırmaq, onların dünyagörüşünü inkişaf etdirmək, özünütərbiyə işinə diqqəti artırmaq, sosial əhəmiyyət kəsb edən ideyaların, normaların və prinsiplərin mənimsənilməsinə yönəldilmiş fəallığı stimullaşdırmaq vacib milli-psixoloji məsələdir.

Ölkədə vətənpərvərlik ruhunun əsas daşıyıcısı və aparıcı qüvvəsi onun gənclərdir.

Gənclər hər bir millətin inkişafının təməl daşıdır. Bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların hazırlanmasından, aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan Azərbaycan Ordusunda gənclərlə iş sahəsində görülən tədbirlər cəmiyyətdə Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir.

Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhdan və digər amillərdən asılıdır. Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətdə, həlledici məqamlarda nəyə qadir olduğunu təsdiqləyib.

Azərbaycan gənc nəslinin nümayəndələri olan Azərbaycan Ordusunun əsgərləri həm də xalqın əsrlər boyu əldə edilmiş hərbi ənənələrini də, milli hərbi vətənpərvərlik ruhunu da hərbi kollektivlərdə yaşadır.

Azərbaycanda gənclər siyasətinin əsasında layiqli vətəndaş və sağlam nəslin formalaşdırılması dayanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amalın təsdiqidir. Ümummilli Lider müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin formalaşmasını qürur hissi ilə vurğulayaraq demişdir: "Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".

Vətənpərvərlik emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət üçün vacib məsələyə çevrilir. Müasir modernləşmə və qloballaşma şəraitində vətənpərvərlik hissinin fərqli xüsusiyyətləri meydana çıxır. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində vətənpərvərlik müəyyən mənada başqa mahiyyət daşıyırdı. O zaman Ümummilli Liderin iradəsi, həmçinin şəxsi vətənpərvərlik nümunəsi sayəsində vətəndaşları Vətəni və dövləti qorumaq ideyası ətrafında birləşdirmək zərurəti yarandığından ümummilli lider Heydər Əliyev tərəfindən 1993-cü ildə Azərbaycan xalqını vahid ideya ətrafında birləşdirə biləcək azərbaycançılıq məfkurəsi (ideologiyası) irəli sürüldü.

“Müasir Azərbaycanımızda milli ideyanın- azərbaycançılığın təməlləri ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. “Suverenliyimizi daim yaşatmaq, harada yaşamasından asılı olmayaraq bu bu gün dövlət müstəqilliyimizi əbədi etmək üçün hər bir azərbaycanlıdan Azərbaycançılıq ideologiyası ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur” [1. s.5].

Azərbaycan Respublikasının ağır və tələtümlü dövründə azərbaycançılıq məfkurəsi (ideologiyası) o dövr üçün vətəndaşların fikir müxtəlifliyindən daha vacib idi. Nəticədə vətənpərvərlik hissinin yeni ideya ətrafında tərbiyə olunması məsələsi zərurətə çevrildi. Azərbaycanda yaşayan xalqları, etnik qrupları və müxtəlif dini etiqadlıları Azərbaycan xalqının vahid idealları ətrafında birləşdirən və Azərbaycan Respublikasının vətəndaşı kimi hamını ölkənin ərazi bütövlüyünün qorunmasına səfərbər edən bu ideologiya hər bir vətəndaşın ideologiyası oldu.

Bu gün fəxarətlə demək olar ki, Azərbaycan xalqını milli birliyə səsləyən azərbaycançılıq ideologiyası var və bu ideologiyanın əsasını Azərbaycan Respublikası vətəndaşlarının milli vətənpərvərliyi təşkil edir.

Azərbaycançılıq ideologiyasının təşviqi və tətbiqinin, həmçinin gənclərdə hərbi vətənpərvərlik işinin təşkil edilməsində respublikada gənclər təşkilatlarının rolunun danılmaz olduğunu nəzərə alaraq Azərbaycan Ordusu da belə gənclər təşkilatlarının

birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil və tikinti müəssisələrində yaradılmasını qarşısında məqsəd qoyubdur.

"Azərbaycançılıq, milli inkişafın mədəni –tarixi təbəqəsi olnaqla, strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin qorunmasında öz əksini tapır. Ərazi o zaman vətənə çevrilir ki, milli ruhla canlanmış olsun"[2, s.225].

Azərbaycan Respublikasının müstəqilliyinin dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri yalnız öz Vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər.

Vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədyönlü və sistemli iş aparılmalıdır. Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır.

Gənc hərbi qulluqçuların müəyyən hərbi ixtisasa sahib olması, dövlət quruculuğunda fəal iştirak etməsi, yüksək peşəkarlığa, hərbi təhsilə və elmə yiyələnməsi, geniş dünyagörüşünə malik olması, hərbi xidmətdə yoldaşlarına nümunə olması və Vətənin keşikçisi adını uca tutması çox vacibdir. Eyni zamanda "Zabit fəaliyyəti zamanı gözlənilməz, çətin situasiyalarda qərarlar gəbul etməli olduğundan onların həm texniki bacarığı, həm də psixoloji durumu yüksək olmalıdır" [3, s.11]. Vətəni sevmək, onun ərazi bütövlüyünü, maddi və mənəvi sərvətlərini düşmənlərdən qorumaq, iqtisadi və hərbi qüdrətinin yüksəlməsinə nail olmaq, baş verə biləcək düşmən təxribatlarının qarşını almaq hər bir Azərbaycan vətəndaşı kimi hamının müqəddəs borcudur.

Son vaxtlar orduya göstərilən qayğı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Silahlı Qüvvələrlə bağlı verdiyi sərəncam və fərmanlar, əsgər və zabitlərimizə göstərdiyi diqqət gənc hərbi qulluqçularda vətənpərvərlik hisslərinin artmasına son dərəcə müsbət təsir göstərir.

Azərbaycan Ordusunun gündən-günə güclənməsi, yeni müasir silahlarla təchiz edilməsi, qoşun, birlik və birləşmələrin keçirilən hərbi təlimlərdə yüksək döyüş hazırlığı göstərməsi, ölkəmizin hərbi qüdrətinin dünyada artması və Qarabağ probleminin həlli məsələsində təşəbbüsü ələ alması Ermənistanı və onun havadarlarını daha çox narahat etməyə başlamışdır.

Azərbaycan Ordusunun gücünü onun xalqına, dövlətinə sədaqəti və Vətəninə sevgisi təşkil edir.

Danılmaz bir faktdır ki, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amildir. Azərbaycan şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Azərbaycan xalqı qəhrəman xalqdır və bu xalq öz Vətənini göz bəbəyi kimi

qorumağa hazır olan mətin gənclər yetişdirib. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olan Azərbaycanın qəhrəman oğul və qızlarının ibrətamiz həyatı, şəxsi nümunəsi aparılan hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Müstəqil dövlətdə yaşayan hər bir gənc ilk növbədə bu dövlətin müstəqilliyinin təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab etməlidir. Gənclər bilməli və dərk etməlidir ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən böyük hadisədir və bu bilik, bu məfkurə vətənpərvərlik hissinin aşılanması vasitəsilə təlqin edilə bilər.

Müstəqilliyin əldə edilməsində olduğu kimi, onun qorunub saxlanmasında da gənclərin rolu danılmazdır. Gənc nəsil həm də xalqın əsrlər boyu yaradıb yaşatdığı ənənələri, milli mədəniyyəti yaşadır və gələcək nəsillərə ötürür. Bu mənada gənclərin çiyinlərinə böyük yük düşmüş olur, çünki gənclər dövlətin həm bu günü, həm də onun gələcəyidir.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqilliyin üçüncü onilliyinə qədəm basmış Azərbaycana məhz milli şüura malik, vətənpərvər gənclər lazımdır. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir.

İstifadə olunmuş ədəbiyyat

1. H. Ə. Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. — Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997 — 136 s.
2. 2. Səlahəddin Xəlilov, Əbu Turxanın hikmət dünyası. Bakı, “Çaşıoğlu” nəşriyyatı, 2012, 445 səh.
3. Şəfiyeva E.İ. Zabit hazırlığının sosial-psixoloji xüsusiyyətləri. Psixalogiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Aftoreferatı. Bakı, 2008.44s.

XÜLASƏ

Ağayev Rahib Məmmədağa oğlu

Gənclərin vətənpərvərlik tərbiyəsi

Açar sözlər*:* vətənpərvərlik, gənc nəsil, məfkurə, vətəndaş, hiss, müstəqillik, qəhrəmanlıq, tərbiyə.

Məqalədə gənclərin vətənpərvərlik tərbiyəsi məsələsinin bəzi aspektləri araşdırılır, hər bir ölkənin gələcəyinin onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhdan və digər amillərdən asılı olduğu göstərilir.

Vətənpərvərlik təkcə vətəni sevmək deyil, həm də vətənin naminə çalışmaq, vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, xalqın hər bir uğuruna sevinməkdir.

Vətənpərvərlik emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət üçün bütün dövrlərdə vacib məsələyə çevrilir. Məqalədə müasir modernləşmə və qloballaşma şəraitində vətənpərvərlik hissinin fərqli xüsusiyyətlərinin meydana çıxması, Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində ümummilli lider Heydər Əliyevin iradəsi, həmçinin şəxsi vətənpərvərlik nümunəsi sayəsində vətəndaşları Vətəni və dövləti qorumaq ideyası ətrafında birləşdirə biləcək azərbaycançılıq məfkurəsinin (ideologiyasının) irəli sürülməsi işıqlandırılır və gənclərin vətənpərvərlik tərbiyəsinin bütün istiqamətlərdə, o cümlədən, hərbi sahədə məhz bu cəhətdən aparılmasının zəruriliyi göstərilir.

РЕЗЮМЕ

Агаев Рахиб Мамедага оглы

ПАТРИОТИЧЕСКОЕ ВОСПИТАНИЕ МОЛОДЕЖИ

Ключевые слова: *патриотизм, молодое поколение, идеология, гражданин, чувство, независимость, героизм, воспитание.*

В статье рассматриваются некоторые аспекты проблемы воспитания патриотизма у молодежи, и показано, что будущее каждой страны зависит от образа мышления, интеллектуального уровня, национального духа и других факторов ее молодежи.

Патриотизм – это не только любовь к Родине, но это и труд во имя Родины, готовность во все времена защищать ее, проявляя героизм и жертвы на ее пути, радуясь каждому успеху своего народа.

Поскольку патриотизм связан с эмоциями и чувствами, воспитание этих чувств во все времена становится важным вопросом для каждого государства. Статья освещает возникновение различных свойств чувства патриотизма в условиях современной модернизации и глобализации, продвижение идеологии азербайджанства, способной объединить граждан вокруг идеи защиты Родины и государства. В статье также указывается что, патриотическое воспитание молодежи, необходимо вести по всем направлениям, в том числе и в военной сфере.

SUMMARY

Aghayev Rahib Mammadagha

PATRIOTIC UPBRINGING OF YOUTH

Key words: *patriotism, young generation, ideology, citizen, feeling, independence, heroism, education.*

In the article some aspects of the issue of patriotism upbringing of young people is studied. It is shown that the future of each country depends on the way of thinking, intellectual level, national spirit and other factors of its youth.

Patriotism is not only love for the Motherland, but it is also work in the name of the Motherland, the readiness to defend it at all times, showing heroism and sacrifice on its way, rejoicing in every success of its people.

Since patriotism is associated with emotions and feelings, the upbringing of these feelings at all times becomes an important issue for every state. The article highlights the emergence of various properties of the feeling of patriotism in the conditions of present-day modernization and globalization, the promotion of the ideology of Azerbaijanism, capable of uniting citizens around the idea of protecting the Motherland and the state. The article also states that the patriotic upbringing of youth must be carried out in all areas, including in the military sphere.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Gülşən Bəşirova tərəfindən çapa tövsiyə olunmuşdur

NAZƏNDƏ SABIR QIZI HACIYEVA
Gəncə Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
nazende.haciyeva1960@mail.ru

"ÖLÜLƏR" C.MƏMMƏDQULUZADƏ DRAMATURGİYASININ ŞAH ƏSƏRİ KİMİ

Açar sözlər: ədəbiyyat, əsər, dramaturq, şair, qəhrəman, mübarizə, cəmiyyət
Ключевые слова: литература, работа, драматург, поэт, герой, борьба, общество
Key words: literature, work, playwright, poet, hero, struggle, society

«Ölülər» C.Məmmədquluzadə dramaturgiyasının şah əsəri olmaqla dramaturgiyamızın nadir incilərindəndir. Yazıldığı gündən ədəbi tənqidin diqqət mərkəzində duran bu əsər haqqında xüsusilə də 40-cı illərə kimi, qeyri-elmi, qeyri-obyektiv, birtərəfli fikirlər daha çox olmuşdur – bu səhv fikirlərin əsasını «Ölülər»in yalnız din əleyhinə yazılmış bir əsər kimi qiymətləndirilməsi təşkil edir. Belə fikirdə olanlar konfliktin əsasında duran mövcud ictimai zümrə və təbəqəni nəzərə almır; Şeyx Nəsrullahları, Hacı Həsən kimi ağaları yaşadan, cəhaləti, avamlığı, fanatizmi doğuran ictimai mühiti ya görmürdülər, ya da ki, görmək istəmirdilər. Nəticədə dramaturqun ictimai-estetik idealını kölgədə qoyub, müxtəlif məntiqi nəticələrə gəlmişlər. Əlbəttə, ilk dövrlərdən pyesi yüksək qiymətləndirənlər də az deyildi.

Azərbaycan ədəbiyyatşünaslığında uzun illər davam edən mübahisələrin yekun qənaəti belədir ki, C.Məmmədquluzadə yaradıcılığının şah əsəri «Ölülər»in janrı tragikomediya, ictimai faciə sayılmalıdır. Azərbaycan dramaturgiyasının istedadlı tədqiqatçısı və tənqidçisi Y.Qarayevin haqlı qeyd etdiyi və düzgün müşahidə etdiyi kimi «Ölülər» ictimai, şəxsi, mənəvi həyatda ölülük əleyhinə yazılmışdır. Dramaturq bütün psixoloji və fəlsəfi məna ilə cəmiyyətdə ölülüyü ittiham edirdi. Bu ittiham səhnəsi pyesdə ən klassik, qeyri-adi dramatik səhnə idi.

Doğru qeyd edilir ki, C.Məmmədquluzadə öz mövzularını həmişə yaşadığı mühitdən almışdır. C.Məmmədquluzadə təkcə «Ölülər»ində deyil, «Anamın kitabı», «Danabaş kəndinin məktəbi», «Dəli yığıncağı» əsərlərində də müsbət ideal daha çox köhnəliyin amansız ifşa və inkarından doğur. Ədibin pyeslərindəki müsbət idealın gücü, idrakı, qüvvəsi, köhnə cəmiyyətin və əsas tənqid hədəfi kimi götürülmüş tiplərin real, təbii təsviri və həqiqi inikas səviyyəsilə bağlıdır. Burada hər şey öz yerində olduğu üçün müsbət idealın tamamlanmasına kömək etməli olan kənar vasitələrə, qəhrəmanlara çox az, bəlkə də heç bir ehtiyac qalmır. [1, 180]

«Ölülər» pyesi nəinki C.Məmmədquluzadə yaradıcılığının, həmçinin, XX əsr dramaturgi-yamızın ən yüksək zirvəsi sayıla bilər. Bu əsər müəyyən ictimai-tarixi şəraitin məhsulu olsa da, yarandığı dövrlə, zamanla birlikdə keçib gedən əsərlərdən deyildir. İnsanları avamlıqdan, ədalətdən uzaq olmağa, nadanlığın doğurduğu

faciələrdən ibrət dərsi almağa çağıran «Ölülər» pyesi həmişə yeni müasir fəlsəfi məzmuna malikdir. «Ölülər» ideyasının müsbət idealını əks etdirən komik gülüşün bütün çeşidlərinə acı göz yaşları qarışmışdır. Burada müsbət, mütərəqqi ictimai ideal addımbaşı qanlı faciələrlə qarşılaşmış, dəhşətli hadisələrin, mənən ölmüş bir mühitin qaynağından keçərək əzablı, müsibətli yollarla irəliləməli olmuşdur. Bu satirik gülüşün arxasında xalqın xoşbəxt gələcəyinə tükənməz inam, hər şeyi dəyişdirməyə qadir olan müsbət amal, ictimai-estetik ideal dayanır.

«Ölülər» din əleyhinə çevrilmiş, o məqsədlə yazılmış əsər deyildir. O ümumiyyətlə, cəhaləti, geriliyi, ikiüzlülüyü və yalanı ifşa edir. Avamlıq və nadanlığın nə kimi bəlalar olduğunu göstərir. C.Məmmədquluzadə «Ölülər» dünyasının daxili çürüklüyündə, daxili cahalətində nahayət onu içindən yeyib-dağıdan, özlərini ağıllı hesab edən adamların «Ölülərin dirilməsi» kimi mənasız bir şeyə inandığını göstərir.

«Ölülər»də kəskin satira çıraq kimi işıq salır, Şeyx Nəsrullahların, Hacı Həsənlərin daxilində aydın olmayan heç bir şey qoymur, onların bütün çirkablarını açır, göz qabağına çıxarır. Öldürücü, kəskin gülüşün, satiranın pyesdə əsas yer tutmasına baxmayaraq əsərdə həzin bir kədər, incə və insanın qəlbini riqqətə gətirən bir lirika da vardır. Bu kədər və lirika Nazlı və yüzlərlə Nazlı kimi məsum və pak xilqətlərin ölülər aləminin bataqlığı içərisində boğulub getməsindən doğur. [2, 217]

C.Məmmədquluzadənin gülüşü də, kədəri də insana olan böyük məhəbbətin ifadəsidir. Bütün xalqların və bütün zamanların böyük yazıçılarında, inamından dönməyən mütəfəkkirlərində olduğu kimi C.Məmmədquluzadənin də insana, xalqa olan məhəbbəti dərin və tükənməzdir. «Sizi deyib gəlmişəm» sözləri mənasız yerə deyilməyibdir. Burada dərin bir məna və hikmət var. Yaradıcılığı qaynaq və daxili enerji və qüvvəyə malik olsa da bu məhəbbətdən, bu hikmətdən irəli gəlir. O, Azərbaycan ədəbiyyatının Nizamidən gələn ölməz humanizmini, insanpərvərliyini, demokratizmini davam etdirir. İnsana və xalqa olan məhəbbət isə onu həyatın acı və ağır həqiqətini deməyə çağırır.

«Ölülər»dəki faciəvilik ayrı-ayrı obrazların fərdi şəxsiyyətlərin taleyi ilə bağlıdır. Əsərin baş qəhrəmanı olan İsgəndərin həyatı bu cəhətdən daha səciyyəvidir. O, əsl tragikomik qəhrəmandır. İsgəndərin birgözü gülsə də, bir gözü ağlayır. Onun gülüşü bütün vaxtlarda, amansız və barışmaz olsa da, eyni deyildir. Qəhrəmanın gülüşü dosta da, düşmənə də eyni güclü təsir göstərir. Onun gülüşü güclənən, hər şeyi yandırıb külə döndərən, gah da sakitcə yanan, ətrafına şöle saçan alova bənzəyir.

Bir dramaturq kimi C.Məmmədquluzadənin üstün cəhəti budur ki, onun yaratdığı mənfi obrazlar öz-özlüyündə müəyyən ictimai zümrəni, təbəqəni, əxlaq tərzini təmsil edən hüquqi tip, xarakter almaqla bərabər, həm də müəllifin müsbət idealını, işıqlı məramını aydınlaşıb üzə çıxmasına xidmət göstərirlər.

Bütün mənfi tiplərə qarşı «Ölülər»də fəaliyyət göstərən müsbət və canlı tip kefli İsgəndərdir. İsgəndər «ölülər aləminin» saxtakarlığını, yalanını, puç və mənasızlığını faş edib lənətləyir.

İsgəndər sevimli bacısı Nazlını «ölülər aləmi»ndən qurtarmaq, onu bütün daxili bacarıqlarını inkişaf etdirəcək bir həyat yoluna çıxarmaq istəyir. Axı Nazlılar elə bir cəmiyyətdə yaşayırlar ki, onun bütün dünyadan xəbəri yoxdur, başqa xalqların həyatı və fəaliyyətlərindən bixəbərdirlər, buna görə də öz həyatlarını, ən yaxşı həyat hesab edirlər. Nazlı isə gəncdir. İsgəndər onu bu dar və bağlı mühitin pəncəsindən qurtarıb geniş və azad həyata çıxarmağı arzu edir. Elə bir həyata ki, onun qapıları bəşər tarixinin hərəkət və inkişaf edib keçdiyi yola çıxır.

Nazlı İsgəndərin sözlərindəki mənanı tamamilə anlamasa da, özünə qarşı bu sözlərdə çırpınan bir qəlbin qardaş məhəbbətini duyur. Buna görədir ki, o evdə hamıdan çox İsgəndəri sevir və dönə- dönə: «kefli də olsan sənin sözündən çıxmayacağam» - deyə təkrar edir. Lakin nə etməli ki, Nazlıda İsgəndərin çağırışına səs verəcək qüdrət və mənəvi bacarıq yoxdur. Bütün bunlar göstərir ki, İsgəndər heç də hərəkətsiz, fəaliyyətsiz, iradəsiz bir adam deyildir. İsgəndərin birinci fəaliyyəti ondadır ki, «ölülər aləminə» tabe olmur. İkinci fəaliyyəti ondadır ki, bu aləmə qarşı gülür və onu ələ salır, nəhayət bu aləmə qarşı mübarizə elan edir. İsgəndərin vəziyyəti, düşdüyü şərait, əlbəttə, onun əl-qolunu bağlayır. Onun bu «ölülər aləmi»ndə etdikləri az deyildir. Bu nöqteyi-nəzərdən də İsgəndərin sərxoşluğu rəmzi xaratker daşıyır. Ayıq başla o sözləri desəydi, hərəkət etsəydi İsgəndəri daş-qalaq edərdilər. Bəli, fanatizmin gücü də bunda idi. Buna görə də «sərxoşluq İsgəndər üçün həqiqət pərdəsi, həqiqət qalxanı idi ki, bu vasitə ilə o, «ölülər və dəlilər» aləmində yaşamaq imkanı əldə etmişdir. İsgəndər araq düşkünü olduğu üçün içmir. Ancaq ən ağır və kədərli dəqiqələrində, artıq heç bir şey etmək mümkün olmayan dəqiqələrdə araq içir. O, çox iradəli və cəsarətlidir». Şeyx Nəsrullah kimi bir küllü-ixtiyarı təqib edir. İkilikdə onu döyüş meydanına çağırır. Keflilik İsgəndəri, Şeyx Nəsrullahın fitvalarından, onun hücumlarından qoruyur, ölümdən saxlayır.

İsgəndər elə ictimai nöqsanlara qarşı mübarizə aparırdı ki, onları nə islah, nə də zorakılıqla aradan qaldırmaq mümkün idi. Buna görə də onun qarşısına vəziyyətindən və zamanından asılı olmayaraq əlavə tələbatlar qoyub, ittihamlar irəli sürmək qəhrəmanı və onun mühitini birtərəfli anlamaq demək olardı.

İsgəndər səhnəyə gəldiyi andan, mühitlə yaşadığı zamanın əxlaq normaları, təhsili ilə mübarizəyə başlayır. Hiss olunur ki, o, içərisində yaşadığı cəmiyyətdən çoxdan küsüb. O, bu cəmiyyətin tamamilə eybəcər, acınacaqlı bir hala düşdüyünü hiss etmiş və bu da onda dərin qəzəb, ikrah hissi oyatmışdır.

İsgəndər əsərdə işığı və kamalı təmsil edən bir surətdir. Böyük dramaturq «Ölülər»i neştərlə dağlayan gülüşlə yanaşı, «Ölülər»in sifətinə qarşı bir qəhrəmanın surətini səhnəyə gətirmişdir. Özü də «Ölülər»ə qarşı onun gülüşlə ittifaqı və dostluğu şərabla dostluğundan daha güclü və üstündür. Şeyxin mövhumat, xurafat və hiylə silahına qarşı İsgəndərin əlində ən ucada tutduğu silah şərab deyildir. «Butulka»- müdafiə silahıdır. İsgəndərin hücum və zərbə silahı qəh-qəhə və gülüşdür. Məhz buna görədir ki, böyük yazıçı İsgəndər kimi müsbət və ifşaçı bir surətin köməyi ilə «Ölülər»in ideya işığını və satira sağlamlığını daha da artıra bilmişdir.

Son səhnədə İsgəndər kəskin və qətiyyətlidir. Onun lap son sözlərində isə artıq gələcək nəslə aydın ümüdlü bir inam və etibar hissi vardır. O, gələcəyi işıq və dirilik təsəvvür edir. «Söndürün işıqları!» gecə də, bu sönən işıqların qaranlığında ən yaxın keçmişin ən qara, ən rəzil bir səhnəsi silinib görünməz olur…

İsgəndər obrazına «zülmət səltənətindən çıxmış, yolunu şərabda görən, mübarizə aparmağa qadir olmayan, həyat eşqindən məhrum bir gənc», «xalqdan, kütlədən ayrı düşmüş fərdiyyətçi», «əməli iş görə bilməyən passiv protestçi» kimi yanlış, lüzumsuz qiymətlər vermişlər. Bütün fikirlər də bir nöqtədə İsgəndərin şərab içməsi ilə bağlanır. Əgər belə olmasa idi, İsgəndərin qaranlıq və qəddar mühitə qarşı mübarizəsi, Şeyx Nəsrullahları lotu adlandırıb, onlara qarşı çıxışları nə dərəcədə real olardı? Yəqin ki, İsgəndəri şərab içdiyinə görə töhmətləndirən tədqiqatçılar onda da deyəcəkdirlər ki, müəllif həyat həqiqətini düzgün vermə-mişdir, bu mümkün deyil; həmin cəmiyyətdə Şeyx Nəsrullah cənablarını lotu, fırıldaqçı adlandıran İsgəndəri daş-qalaq edərdilər. Odur ki, o, yalnız son səhnədə şərabsız İsgəndərə çevrilir. İkinci tərəfdən, İsgəndər «ölüyə» çevrilməmək üçün «sərxoşa» çevrilir. «Ölülər» əsərində kəskin və öldürücü satira Dinin, cəhalətin, avamlığın tənqidindən daha çox onları doğuran və yaşadan ictimai mühitin, bütün feodal-patriarxal dünyasına qarşı çevrilmişdir. Özü də İsgəndərin qəhqəhə və gülüşləri ilə… «İsgəndər heç nə danışmayıb ancaq qəhqəhələrlə kifayətlənsəydi belə Şeyx Nəsrullahların, Hacı Həsən kimi ağaların bu qəhqəhələri eşitdikdə keçirdikləri qorxu, təşviş hissi öz-özlüyündə onun kimliyinin, hansı idealların sahibi olduğunu açıb göstərərdi». [3, 61]

«Ölülər»də dindən öz mənafeyi üçün istifadə edən fırıldaqçı əmamələlər hərtərəfli ifşa olunarkən Şeyx Nəsrullah İsgəndərdən az iş görmür? Əslində, İsgəndər bilavasitə dinə toxunmur, onun öz dərdləri öz vəzifəsi, öz qayğıları vardır. Onun dindən daha çox onun məhsulu olan ictimai bəlalar və bu bəlaların doğurduğu mənəvi-əxlaqi eybəcərliklər düşündürür, narahat edir. İsgəndər öz varlığı, hərəkətləri və inamsızlığı ilə yanaşı din xadimlərinə meydan oxuyursa, Şeyx Nəsrullah istər-istəməz özünün daxili məzmununu, eybəcər mahiyyətini açıb meydana qoyur, hamının gözü önündə nümayiş etdirir. Görəsən fırıldaqçı Şeyxi ifşa olunmayacağına arxayın salan nədir? Bu suala cavab üçün ilk növbədə dramaturqun remarkada təsvir etdiyi səhnəyə diqqət edək: «Üçüncü məclis vaqe olur şəhərin kənarında, qəbristanın yanında. Çox cəmiyyət ayaqyalın, şalvar və tumanlarını dizədək çırmalayıb, əllərini əllərinin üstünə qoyub, ayaq üstə durublar». Bu kiçik remarka lövhəsi qadir bir rejissorun bütöv cəmiyyətə baxışıdır. Bu cəmiyyət Azərbaycan xalqıdır; tipik Azərbaycan kəndinin tipik lövhəsidir: müti, avam, yazıq, sadəlövh, özündən deyil, mütləq kimdənsə imdad gözləyən savadsız insan toplusu. Bu toplunun xalqa, millətə çevrilməsi üçün çox işlər görmək lazımdır. C.Məmmədquluzadə bu missiyanın ağır yükünü məhz «Ölülər» də çiyninə almışdır. «Ölülər»in ən böyük həqiqəti budur ki, «Ölülər yalnız qəbristanda, torpaq altında yatanlardan ibarət deyil, sağ ikən ömrünü cəhalətdə keçirən avamlar da ölüdürlər». Bu «Ölülər» necə desən istənilən şəkildə fırıldaq gəlmək olar. Təsadüfü deyil ki, Şeyx Nəsrullah «ölülərə» xitabən bütün

nitqini onların anlamadığı dildə, necə istəyir, eləcə də ifadə edir. Yalnız əmrlərini onların anladığı dildə verir. Şeyx bu insanların mütiliyinə yaxşı bələd olduğundan özünü ədəbaz və lovğa aparır. Qəbristanlıqda hamının fikirləşməyə getməsi və onların «Cənab şeyx, qoy gedim fikirləşim» xahişinə Şeyxin hər dəfə «Xub, sən də get, fikirləş» «icazəsində» güclü bir həvəs və təhlükədən sovuşan adamın sevinci var. Bu «sevinc» ona, XIX əsrin sonralarında yaşayan xalqın avamlıq və savadsızlığı «bəxş» etmişdir. [4, 233]

Şeyx öz çirkin, iyrənc hərəkətləri ilə təmsil etdiyi dini anlayışlara çox ağır zərbə endirir. Burada C.Məmmədquluzadə tənqid hədəfini üzə qarşıdan deyil, arxadan, onun öz cəbhəsindən çıxış edərək zərbəyə məruz qoyur, ifşa edir. Həm də bu işi adi bir təbliğatçı və ya kiçik bir ruhani, şəriət ehkamçısı deyil dinin ən mötəbər, ən nüfuzlu başçılarının, sərkərdələrindən biri görür. Bu mənada heç kim dinə şeyxin vurduğu qədər ağır, öldürücü yara vura bilməzdi. Əsərin sonunda İsgəndər aldanmış hacıları, məşədiləri cərgəyə düzüb, onlara ittiham oxumaya da bilərdi, üzlərinə tüpürməsəydi də olardı. Bu hadisələrin və İsgəndərin xarakterinin tamamlanması üçün vacib olsa da, dindarların ifşasına o qədər də yeni bir şey əlavə etmir. Çünki fanatiklər artıq olub keçmiş acı, dəhşətli fakt qarşısında idilər, öz qəbahətlərini, mənən ölü, nadan olduqlarını başa düşmüşdülər.

Beləliklə, C.Məmmədquluzadə böyük məhəbbət və qayğı ilə təsvir etdiyi İsgəndər surətini «Azərbaycan ədəbiyyatında müəyyən tarixi-bədii mərhələni göstərən bir tip, yeni realizt ədəbiyyatımızın ən məşhur qəhrəmanlarından biri, köhnə ənənələri vurub dağıtmaq istəyən» gənc ziyalı surəti adlandırmağa hər cür əsaslar vardır. «Ölülər» ideya istiqaməti cəhətdən olduğu kimi, sənətkarlıq, bədii təsvir vasitələrindən istifadə və forma cəhətdən də dramaturgiyamızın maraqlı əsərlərindən biridir. Pyes cəlbedici, dolğun, dərin süjet əsasında qurulmuşdur.

C.Məmmədquluzadə bir-birinin ardınca yazdığı «Anamın kitabı», «Kamança», «Danabaş kəndinin məktəbi», «Lal» pyeslərini və daha sonra «Dəlilər yığıncağı» və yarımçıq qalmış «Yığıncaq» əsərlərində də dövrün ictimai-siyasi əhəmiyyətli, aktual problemlərini verməyə çalışmışdır. «… Keçə papaqlarımızı ortalığa qoyub, bir fikirləşək görə haradadır bizim vətənimiz?» sualına Mirzə Cəlil «Anamın kitabı»-nda cavab verirdi. Vətənpərvərlik ideyası qırmızı xətt kimi keçən bu pyesin baş qəhrəmanı da Vətən idi! Azərbaycan idi! [5, 143]

«Danabaş kəndinin məktəbi» komediyasında dramaturq ictimai-siyasi məsələləri-müstəmləkə əsarətini, şallaq gücü ilə gətirən mənəvi zülmü, çarizmin müstəmləkəçilik siyasəti anlaşılmazlıqlar üzərində qurulan bir dramatik konfliktlə həll edilir. «Dəli yığıncağı»nı tədqiqatçılarımız daha çox «Ölülər»in davamı, hətta «Ölülər»lə əkiz bir pyes kimi qiymətləndirirlər. Hər iki əsər arasında oxşarlıq olsa da, amma bu eynilik demək deyildir. Burada, ədib dinə yeni dövrün, yeni ictimai-siyasi şəraitin tələbləri baxımından yanaşmış, dinin yeni tarixi şəraitdə gətirdiyi fəlakətləri tənqid etmişdir.

Cəlil Məmmədquluzadə dram əsərlərində mənfi və müsbət obrazlar yaratmaqla oxucunu həmişə yadda qalan və dillər əzbəri olan surətlərlə tanış etmişdir. Həyatı tənqid və ifşa yolu ilə təsvir edən sənətkarlar da təsdiq və təqdir üslubundan yazıb-yaradan sənətkarlar kimi, eyni bədii həqiqəti, eyni məlum idealı təsdiq edirlər. Ancaq onlar buna müstəqil yolla deyil, həmin ideala zidd olan bütün maneələrə gülmək yolu ilə nail olurlar. Komik satirik əsərdə həmişə məlum idealı təsdiq edirlər.

C.Məmmədquluzadə yaradıcılığına gəldikdə, demək lazımdır ki, ədib müsbət və ya ideal qəhrəman yaratmaq məsələsini heç vaxt qarşısına məqsəd qoymamışdır. Əslində onun belə bir təşəbbüsə ehtiyacı da olmamışdır. Çünki əvəzsiz təsvir ustası olan bu böyük sənətkarın əsərlərində müsbət qəhrəman anlayışını həmişə daha vacib, daha yüksək olan müsbət ideal düşündürmüşdür. Elə bir ideal ki, o bütünlüklə öz zəmanəsinə, xalqımızın tərəqqisinə, milli intibahına və bəşəri meyillərinə xidmət edirdi, müasirlərini inqilabi ideyalara aparıb çıxarırdı.

Ədəbiyyat:

1. Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982
2. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 2009
3. Mir Cəlal. Azərbaycan ədəbi məktəblər (1905-1917) «Ziya- Nurlan» NPM. Bakı 2004
4. Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013
5. Alxan Bayramoğlu. Azərbaycan jurnalistika məktəbləri. Bakı, 2014

Xülasə

C.Məmmədquluzadənin dünyagörüşünün, estetik idealının fəlsəfi mahiyyəti ilə bağlı olan müsbət qəhrəman və müsbət ideal məsələsi bu böyük sənətkarın ədəbi irsinin, bədii üslubunun ictimai çəkisini və mündəricəsini müəyyən edən əsas güşə başıdır. Bu problemi az-çox araşdırmadan C.Məmmədquluzadə yaradıcılığının ədəbiyyatımızdakı yerini, mövqeyini, tarixi əhəmiyyətini düzgün müəyyənləşdirmək, onun əsərlərinin daxili sirlərini və ideyasını hərtərəfli açmaq çətindir. Bir çox hallarda onun ədəbi irsinə münasibətdə meydana çıxmış yanlış, qeyri-obyektiv fikirlərin, mülahizə və hökmlərin mənbəyi də bu məsələ ilə bağlıdır.

Ədibin pyeslərindəki müsbət qəhrəman tək-tək seçilmiş ideal müsbət xarakterlərin deyil, böyük və kiçikliyindən, mənfi və ya müsbətliyindən asılı olmayaraq, bütün obrazların birlikdə ifadə etdiyi bədii ideya ilə bağlıdır. Bu böyük sənətkarın təsvirlərindən hər bir tipin, personajın öz yeri, öz ictimai yükü, vəzifəsi vardır, onların hamısı imkan və mövqeylərinə görə ədibin bütün əsər boyu izlədiyi əsas ideyanın açılmasında iştirak edirlər. Öz orijinal xüsusiyyətləri ilə seçilən C.Məmmədquluzadə gülüşünün ədəbiyyatımızda, ictimai fikrimizin tarixində xüsusi yeri, mövqeyi vardır.

Summary

Doc.Hajieva N.S.

"THE DEAD" AS A MASTERPIECE J. MAMMADGULUZADE'S DRAMATURGY

The question of positive hero and positive ideal, which is related to the philosophical essence of J. Mammadguluzade's outlook and aesthetic ideal, is the main corner that determines the social weight and content of this great artist's literary heritage and artistic style. Without investigating this problem more or less, it is difficult to correctly determine the place, position, and historical significance J. Mammadguluzade's work in our literature, to fully reveal the inner secrets and ideas of his works. In many cases, the source of wrong, non-objective opinions, judgments and judgments about his literary heritage is related to this issue.

The positive hero in the writer's plays is not related to ideal positive characters selected individually, but to the artistic idea expressed by all characters, regardless of whether they are big or small, negative or positive. Each type, character from the images of this great artist has its own place, its own social burden and task, all of them, according to their capabilities and positions, participate in the unfolding of the main idea followed by the writer throughout the work. C. Mammadguluzade's laugh, distinguished by its original features, has a special place and position in our literature and the history of our public opinion.

Резюме

Доц.Гаджиева Н.С.

"МЕРТВЫЕ" КАК ШЕДЕВР ДРАМАТУРГИИ Дж. МАМЕДГУЛУЗАДЕ

Проблема положительного героя и положительного идеала, связанная с философской сущностью мировоззрения и эстетического идеала Дж. Мамедгулузаде, является основным звеном, определяющим общественный вес и содержание литературного наследия и художественного стиля этого великого художника. Не исследуя более или менее эту проблему, трудно правильно определить место, положение и историческое значение творчества Дж. Мамедгулузаде в нашей литературе, полностью раскрыть сокровенные тайны и идеи его произведений. Во многих случаях с этим вопросом связан источник неправильных, необъективных мнений, суждений и суждений о его литературном наследии.

Положительный герой в пьесах писателя связан с художественной идеей, выраженной всеми персонажами, независимо от того, большие они или маленькие, отрицательные или положительные, а не с индивидуально подобранными идеальными положительными персонажами. Каждый тип,

персонаж из образов этого великого художника имеет свое место, свою социальную нагрузку и задачу, все они по своим возможностям и положению участвуют в развертывании основной идеи, которой писатель следует на протяжении всего произведения. Смех Дж.Мамедгулузаде, отличающийся своими оригинальными чертами, занимает особое место и положение в нашей литературе и истории нашего общественного мнения.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Axundova Nəzmiyə M.q.
tərəfindən çapa tövsiyə olunmuşdur

MUSAYEVA CAHAN CABBAR QIZI
Gəncə şəhər, 21 №-li tam orta məktəb
mr.merkez@mail.ru

MÜASİR QİYMƏTLƏNDİRMƏYƏ DAİR YENİ YANAŞMALAR HAQQINDA

Açar sözlər: müasir qiymətləndirmə, yeni yanaşma, qiymətləndirmə, interaktiv təlim, dərs, metodika, təlim metodları
Ключевые слова: современное оценивание, новый подход, оценивание, интерактивное обучение, урок, методика, методы обучения.
Key words: modern assessment, new approach, assessment, interactive learning, lesson, methodology, teaching methods.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi onların biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir. Lambert və Laynza görə qiymətləndirmə "şagirdlərin təhsil tapşırıqlarına verdikləri cavablar haqqında informasiyanın toplanması, şərh edilməsi, qeyd edilməsi və istifadə edilməsi prosesidir"[8]. Qiymətləndirmə şagirdlərin öyrənmə nailiyyətlərinin yüksəldilməsində mühüm rol oynayan və təhsilin keyfiyyətinə təsir edən mühüm amillərdən biridir.

Təhsilin indiki səviyyəsində şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2018-ci il 28 dekabr tarixli 8/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası" əsasında həyata keçirilir[1; 7].

Azərbaycan Respublikasının ümumtəhsil sistemində tətbiq edilən qiymətləndirmə sənədləri ölkədaxili təhsildə şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsinin sistemini, vəzifələrini, əsas xüsusiyyətlərini, əsas qiymətləndirmə növlərini, qiymətləndirmə standartlarını və qiymətləndirmə vasitələrinin hazırlanmasını, şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqinin sistemini əhatə edir[1].

Qiymətləndirmə dedikdə, bunu yalnız təhsilalanın təlim nəticələrinə aid olan məsələ kimi qəbul etmək olmaz. Belə ki, dünya təcrübəsində təhsilalanın biliyinə verilən qiymət həm müəllimlərin, həm məktəbin fəaliyyətinə, həm valideynin təhsilə münasibətinə, həm də məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir [5, s.37].

Qeyd edək ki, "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyası-nın *(məktəbdaxili qiymətləndirmənin)* aparılması Qaydası" sənədi də şagirdlərin

ümumi təhsil müəssisələrində məktəbdaxili qiymətləndirilməsidir. Bu sənəd təhsilalanların qiymətləndirilməsinin tənzimlənməsini və məktəb müəllimlərinin necə və hansı əsaslarla qiymət yazmalarını konkretləşdirir[7].

Yeni təsdiq edilən qaydalarda əsas dəyişiklik summativ qiymətləndirmədə nəzərdə tutulsa da, yeni qaydalarda məktəbdaxili qiymətləndirmənin hər 3(üç) növünə: diaqnostik, formativ və summativ qiymətləndirməyə diqqət verilir. Bunların hər birinin öz dəyəri, çəkisi və şagirdin keyfiyyətli təhsil almasında rolu var. Odur ki, summativ qiymətləndirməylə yanaşı, qiymətləndirmənin digər növlərinə də yeni yanaşmada diqqət göstərilir.

Məktəbdaxili qiymətləndirmənin mahiyyəti və məzmununa yuxarıda göstərilən qiymətləndirmə növlərinə və qiymətləndirmə vasitələrinə əsaslanan məкtəbdaxili qiymətləndirmənin aparılmasıdır. Məкtəbdaxili qiymətləndirmə aşağıdakı əsas кomponentləri əhatə edir:

- şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqi;
- şagird fəaliyyətinin təlim standartlarına uyğunluğunun müəyyənləşdirilməsi;
- ümumtəhsil pillələri üzrə yeкun qiymətləndirmənin aparılması.

Qiymətləndirmədə əsas məqsəd şagird nailiyyətlərinin real ölçüsünün müəyyənləşdirilməsi, xüsusiyyətlərnin öyrənilməsidir. Müasir "Umumtəhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsi" pedaqoji anlayış kimi təhsilə kurikulum islahatı ilə birgə, onun tərkib hissəsi kimi daxil olmuşdur. Pedaqoji aləmdə "şagirdlərin bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsi" anlayışı ənənəvi təhsilin göstəricisi olmuşdur. Qiymətləndirmə dedikdə, bir qayda olaraq, şagirdlərin gündəlik (cari) qiymətləndirilməsi başa düşülmüşdür. Bu cür qiymətləndirmə növünün tətbiqi mexaniki hafizəyə köklənmişdir ki, bu da müasir tələblərlə uyğunlaşmırdı[9].

"Sinifdaxili formativ qiymətləndirmə strategiyaları", "Müəllim hazırlığı üçün liderlik", "Uşaqların ehtiyacı olan məktəb yaratmaq" və digər kitabların müəllifi professor Dilan Viliam qeyd edir ki, "Kurikulum qiymətləndirmənin deyil, qiymətləndirmə kurikulumun xidmətində durmalıdır. Mövcud qiymətləndirmə sistemi çox dardır. Müəllimlər çox dar kurikulum çərçivəsində biliyi qiymətləndirməyə çalışırlar. Şagird və tələbələr də üzərlərinə qoyulan dar kurikulum çərçivəsində qiymətləndirmədə iştirak etməyə can atırlar. Bu da nəticədə biliyin dar qiymətləndirilməsinə gətirib çıxarır. Qiymətləndirmənin predmeti bütün vacib olan məsələlərdən ibarət olmalıdır. Belə olarsa, biz keyfiyyət baxımından irəliləyişin şahidi ola bilərik"[11].

Ümumtəhsil məktəbinin başlıca vəzifələrindən biri şagird şəxsiyyətinin dolğun inkişafını təmin etməkdən ibarətdir. Şairdlərin koqnitiv və kreativ cəhətdən fərqləndiyini nəzərə alaraq ilk məktəb yaşlarından, yəni ibtidai və orta, tam orta ümumtəhsil siniflərində keçilən bütün fənlər haqqında məlumat verməklə, onların özlərini dərk etmələrinə, hansı ixtisası sevdiklərini, arzularının istiqamətini, hansı

fəaliyyət növünə həvəs göstərdiklərini anlamalrına şərait yaradılmalıdır. Qeyd edək ki, Professor D.Viliam əsərlərində bir çox hallarda uşaqlara bu imkanın verilməməsi, onların yerinə böyüklərin qərar verməsi məsələsinə də toxunmuşdur"[11].

Şagirdin şəxsiyyət kimi formalaşması avtomatik olaraq həyata keçmir. Bu zaman təhsil və tərbiyənin təşkil edildiyi şərait də nəzərə alınmalıdır. Belə ki, ev tapşırığını yerinə yetirməyən şagirdə həmişə mənfi rəy bildirmək tövsiyə edilmir. Ona görə ki, əvvəlcə, ev tapşırığını icra etməməyin səbəbi öyrənilməli, sonra münasibət bildirilməlidir. Səbəbi araşdırılmadan cəzalandırılan şagird bəzən bəhanələr axtarmağa, hətta yalan danışmağa meyil göstərir. Şagirdlərin təhsil və tərbiyəsində, qiymətləndirilməsində bütün cəhətlər nəzərə alınmalıdır. Çünki xırda hesab edilən cəhətlər də şagird şəxsiyyətinə təsir göstərir. Fərqli dərketmə qabiliyyəti olan şagirdlərdə yalnız nöqsan görmək, hər dəfə bunu təkrarlamaq, qiymətləndirmədə lazımi səmərə vermir. Bu zaman:

- təhsilverənlə təhsilalan arasında uçurum yaranır, təhsilalan təhsildən uzaqlaşmağa çalışır;
- digər halda nöqsanı tez-tez eşidən şadird həmin situasiyaya alışa bilir;
- şagirddəki müsbət cəhətlərə istinad etdikdə isə digər neqativ xüsusiyyətləri aradan qaldırmaq asanlaşır.

Qiymətləndirmə ilə bağlı olan hər kəs-şagirdlər, müəllimlər, valideynlər, rəhbərlik qiymətləndirmənin məqsədləri, nəyin qiymətləndirildiyi, uğur meyarları, qiymətləndirmənin hansı metodlarla həyata keçirildiyi haqqında dəqiq təsəvvürə malik olmalıdır. Belə ki, qiymətləndirmə prosesi həyata keçirilməmişdən əvvəl qiymətləndirmənin məqsədi aydınlaşdırılmalıdır, yalnız bu halda əldə edilən məlumat səmərəli istifadə oluna bilər. Bu qiymətləndirmənin keçirilməsi üçün ən vacib şərtlərdən biridir. Məsələn:

- Fənlər üzrə məzmun standartlarının reallaşdırılması şagirdin qiymətləndirilməsini istiqamətləndirir.
- Təhsilin qiymətləndirmə standartları məzmun standartlarının şagirdlər tərəfindən mənimsənilməsi səviyyəsini müəyyənləşdirir.
- Qəbul edilmiş standartlara uyğun bilik və bacarıqlara nail olmaq üçün şagirdin fəaliyyəti fasiləsiz stimullaşdırılır.
- Şagirdlərin məzmun standartlarını daha yüksək səviyyədə mənimsəmələri üçün müvafiq şərait yaradılır.
- Optimal vəziyyətdə heç bir şagirdin tədris ili boyunca geri qalmasına imkan verilmir.
- Hər bir şagirdin nailiyyəti diqqət mərkəzində saxlanılır.

Təhsildə qiymətləndirməni araşdıran tədqiqatçılar qiymətləndirmənin ədalətli keçirilməsi üçün faktlara əsaslanılmalı olduğunu önə çəkib, yalnız imtahana görə fikir yürütmək, müəllimlərin dərs zamanı verdiyi qiymətləndirməyə əsasən hər hansı

qənaətə gəlməyin doğru olmadığını bildirirlər. Belə ki, istənilən qiymətləndirmə sistemində xəta ehtimalı mümkündür, heç bir qiymətləndirmə təhsilalanların bilik səviyyəsini yüz faiz əks etdirə bilməz. Müəllimlər birmənalı olaraq bu məqamı nəzərə almalıdırlar. İstənilən qiymətləndirmənin (test, imtahan, summativ və s.) məqsədi müəllimlərin nəticədə hansı qənaətə gəlməsindən, bu qənaətin nə qədər keçərli olmasından və növbəti atılacaq addımın həmin qənaətə görə atılmasından ibarətdir"[11].

Nəzərə alaq ki, pedaqogika və psixologiya elmində şəxsiyyətin inkişafı təhsil və tərbiyəsi ilə bağlı üç əsas konsepsiya vardır:

1. Bioloji konsepsiya
2. Sosioloji konsepsiya
3. Biososial konsepsiya.

Bioloji konsepsiyanın əsas nümayəndəsi olan Ziqmund Freydə görə, şəxsiyyət təbii varlıq olmaqla bütün davranışını anadan olanda özü ilə gətirir. Şəxsiyyətin davranışı bioloji təsir və instinktlərdən asılı olur və bunlar da hərəsi öz növbəsində qorxu və razılıq əlamətləridir. Sosioloji konsepsiyanın nümayəndələri insanın bioloji varlıq olduğunu qəbul etməklə yanaş ünsiyyətdə olduğu sosial qrupların təsiri ilə tədricən sosiallaşması fikrini də müdafiə edirlər. Biososioloji konsepsiyanın nümayəndələri şəxsiyyəti iki yerə bölür və hesab edirlər ki, insanda gedən psixoloji proseslərin bioloji əhəmiyyəti var, həm də belə əlamətlər şəxsiyyətin sosial amil kımi istiqamətlənməsini müəyyənləşdirir. Onlar belə hesab edirlər ki, insan xüsusi bioloji fərd kimi doğulur sosial həyat şəraitinin təsiri altında şəxsiyyətə çevrilir.

Şagirdin inkişafı və onun şəxsiyyət kimi formalaşması 3 başlıca amilin - irsiyyət, mühit, təhsil və tərbiyənin qarşılıqlı təsiri ilə həyata keçirilir. Şagirdin nailiyyətləri ona yaradılmış imkan daxilində yerinə yetirdiyi konkret tapşırığın səviyyəsinə görə qiymətləndirilir[6].

Şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik və rəsmi olmayan prosesdir. Bu prosesdə müəllimlərin şagirdlər, şagirdlərin şagirdlər üzərində müşahidəsi, şagirdlərin sinif işlərini və ev tapşırıqlarını yerinə yetirmələri, yazılı və şifahi cavabları vacibdir.

Hər bir fənn kurikulumunda məzmun standartları və hər bir standartın mənimsənilməsi üçün istifadə edilən yeni strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların dəyərləndirilməsi məqsədi ilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən istifadə olunur. Məzmun standartları inteqrativ təlim nəticələri olub, şagirdin müvafiq bilik, bacarıq və dəyərlərə nail olmaqla, səviyyəcə dəyişməsini təmin edir.

Qiymətləndirmə standartları təhsilin müəyyən mərhələsində şagirdlərin nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir. Təhsilin hər hansı bir mərhələsində müəyyən olunmuş səviyyələr üzrə şagirdin yiyələnməli olduğu bilik və bacarıqların kəmiyyət və keyfiyyət göstəricisidir. Bu məzmun standartlarının reallaşma səviyyəsini, şagirdlərin inkişafındakı dəyişiklikləri müəyyən edir

Qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla, baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir. Qiymətləndirmə standartlarının təyin edilməsində imtahana əsaslanan metod vasitəsilə bütün maraqlı tərəflərin razılığı əsasında müvafiq siniflər üzrə yekun qiymətləndirmə keçirilir, nəticələr təhlil olunmaqla, beynəlxalq normalara uyğun standartlar təyin edilir. Məsələn:

- ✓ minimum - şagirdlərin 90-100 faizi tərəfindən nail olunan standartlar;
- ✓ yüksək - şagirdlərin ən yaxşı halda 30 faizi tərəfindən nail olunan standartlar [2; s.30].

Qiymətləndirmə standartlarının təyin edilməsində kurikulumyönümlü metoda daha çox üstünlük verilir. Bu metoda görə: qiymətləndirmə standartları kurikulumda əks olunmuş nailiyyətlərə (nəticələrə) uyğun hazırlanır və faktiki olaraq şagirdlərin nəyi bacardıqlarına dair ölçmələrə deyil, mütəxəssis mühakimələrinə əsaslanır. Burada hər kəsin: bütün məktəblərin, müəllimlərin təmsil olunduğu təşkilatların və digər maraqlı tərəflərin müzakirələri əsasında standartlara düzəlişlər edilir və arzuolunan nailiyyət səviyyələrinə dair ortaq fikir yaranır.

Qiymətləndirmə standartları 4 səviyyə üzrə qiymətləndirmə sxemləri şəklində hazırlanır. Qiymətləndirmə sxemləri(holistik və analitik) xüsusi növ qiymətləndirmə şkalasıdır və özündə iki əsas sualı əhatə edir:

1.Mən nəyi qiymətləndirməliyəm (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər)?

2.Aşağı, orta və yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə müəyyənləşdirmək olar?

1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. 1-ci səviyyə və 2-ci səviyyə əksər şagirdlər, 3-cü səviyyə və xüsusilə 4-cü səviyyə isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur[4; s.54].

Asan və çətin suallar nisbətinin düzgün müəyyənlşdirilməsi uğurlu tədqiqatın əsas şərtlərindən biri olduğu üçün suallar sınaqdan keçirilir.Bu məqsədlə tədqiqatdan qabaq pilot qiymətləndirmə təşkil olunur . Əgər pilot tədqiqat zamanı sualların çoxunun çətin olduğu və kifayət qədər asan sualın olmadığı aşkarlanarsa, onda yenidən asan suallar hazırlayıb onları sınaqdan keçirmək lazım gəlir. Eynilə, əgər çətin sualların sayı kifayət etmirsə, onda çətin suallardan ibarət əlavə sınağın təşkil edilməsi vacib hesab edilir.

Nailiyyət göstəriciləri aşağı olan şagirdlərin nəticələrinin zəif olmasını bir neçə səbəb yarada bilər:

- mexaniki əzbərlənmiş materialın praktikada tətbiqinin çətinləşməsi;
- nəzəri materialların yaxşı qavranılmaması;
- praktik bacarığın olmaması;
- məlumatların ümumiləşdirilməsi və ya şərh olumasına dair praktik bacarığın olmaması;

- açıq tipli suallarla işləmə vərdişinin olmaması;
- öyrənmək istəyinin olmaması;
- diqqət dağınıqlığı, gərginlik, həyəcan kimi psixoloji problemlərin olması;
- vaxt çatışmazlığı və s.

Yuxarıda qeyd etdiyimiz qiymətləndirmə sxemləri qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl həyata keçirilməsinə imkan verir, tədrisin səmərəliliyi ilə bağlı müəllimləri faydalı məlumatlarla təmin edir və ondan tələb edir ki, hər bir müəllim müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirsin.

Qiymətləndirmə sxemləri şagirdin işini qiymətləndirmək üçün müəllimin sərf etdiyi vaxtı azaldır, keyfiyyət səviyyələri vasitəsilə müxtəlif qabiliyyətə malik şagirdlərin təhsil aldığı sinifləri nəzərə almağa şərait yaradır. Qiymətləndirmə sxemləri fəaliyyətin qiymətləndirilməsi zamanı istifadə edilən meyarlarla bağlı şagirdlərin məlumatlandırılmasını, onların işinin necə qiymətləndiriləcəyini və onlardan nələrin tələb olunduğunu aydın şəkildə göstərməklə, konkret məqsəd və tələbləri (meyarları) müəyyən edir. Həmin meyarlar tədqiqata başlamamışdan əvvəl şagirdlərin diqqətinə çatdırılmalıdır ki, bu sxemlər şagird işlərinin keyfiyyətini daha yaxşı qiymətləndirməkdə, təlim prosesində irəliləyişə, işlərin keyfiyyəti ilə bağlı əks tərəfə məlumat verilməsinə şərait yaratsın.

Qiymətləndirmə sxemlərinin elementlərinə qiymətləndiriləcək əsas sahələr, nailiyyətin müxtəlif səviyyələrini dəyərləndirmək üçün qiymətləndirmə şkalası, nailiyyət səviyyəsini təsvir edən söz və ya rəqəm (səviyyə üzrə etiket), nailiyyət səviyyəsini daha müfəssəl təsvir edən söz və ya ifadə (səviyyə deskriptoru), hər bir nailiyyət səviyyəsi üzrə diqqət yetirilən məsələlərə aid konkret nümunələr (səviyyə indikatorları), nail olunması nəzərdə tutulan nəticə (standart) daxildir.

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur.

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur. Yeni qiymətləndirmə sistemi aşağıdakıları təmin edir:

- təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini;
- təhsilin keyfiyyəti üçün əsas göstərici olan "şagirdin təlim nəticələri" haqqında etibarlı məlumat verilməsini;
- qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurrikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını;
- təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını;
- qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini.

Qiymətləndirmə üçün tapşırıqların formaları dəyərlərin təyini, uyğun meyarlardan və standartlardan istifadə etməklə (qiyməti əsaslandıraraq) informasiyanin səmərəli istifadə edilməsi bacarığı, tənqid etmək təmizə çıxarmaq, muzakirə etmək, əsaslandırmaq, nəticə çıxarmaq, yerini təyin etmək, əhəmiyyətli əlamətlərə əsasən sıralamaq zəruridir [11].

Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası //Kurikulum, 2009, №2, s.12
2. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün ana dili kurrikulumu (ı-ıv siniflər). bakı –2007, 45 s. 29 30
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqoqika" 2004
4. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri – praktik məsələləri. Bakı, 2009, 72 s.
5. Mərdanov M. Davamlı inkişaf və təhsil. Bakı: Çaşıoğlu, 2007, 99 s.
6. NƏBİYEVA M. ONLİNE KURİKULUM HAZIRLIĞI ÜÇÜN. https://m.facebook.com › groups › permalink
7. Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının *(məktəbdaxili qiymətləndirmənin)* aparılması Qaydası. Bakı, "Azərbaycan müəllimi" qəzet, 2018, 28 dekabr
8. https://dlm.ieu.edu.tr › wp-content › Ozgecmis
9. https://edu.gov.az/upload/file/M-Merdanov-Qiymetlendirme.pdf
10. https://www.muallim.edu.az/news.php?id=20471
11. D.Viliam ttps://www.muallim.edu.az/news.php?id=20471
12. Language. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2006

Xülasə

MÜASİR QİYMƏTLƏNMƏYƏ YENİ YANAŞMALAR HAQQINDA

Musayeva Cahan Cabbar qızı

Məqalədə təhsildə müasir qiymətləndirmənin müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunu yerinə yetirməsindən və təhsildə qiymətləndirmənin obyektivliyinin təmin edilməsi mexanizmindən bəhs edilir.

"Təhsil sektorunun inkişafı" layihəsində yeni qiymətləndirmə sisteminin hazırlanması prioritet istiqamətlərdən biri kimi müəyyən edilib.

Təhsilin keyfiyyətinin müəyyən edilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur. Təhsildə qiymətləndirməni tədqiq edən tədqiqatçılar ədalətli qiymətləndirmə üçün qiymətləndirmənin faktlara əsaslanmalı olduğunu vurğulayır və müəllimlərin sinifdə verdiyi qiymətdən hər hansı nəticə çıxarmağın düzgün olmadığını iddia edirlər. Beləliklə, istənilən qiymətləndirmə sistemində səhv ehtimalı mümkündür, heç bir qiymətləndirmə tələbələrin bilik səviyyəsini 100% əks etdirə bilməz. Müəllimlər bunu nəzərə almalıdırlar. İstənilən qiymətləndirmənin (sınaq, imtahan, yekun və s.) məqsədi müəllimlərin hansı nəticəyə gəldiyini, bu qənaətin əsaslı olub-olmadığını və bu nəticəyə əsasən növbəti addımın atılmasının vacibliyini müəyyən etməkdir.

Резюме

О НОВЫХ ПОДХОДАХ К СОВРЕМЕННОЙ ОЦЕНКЕ

Мусаева Джахан Джаббар кызы

Разработка новой системы оценивания определена в качестве одного из приоритетных направлений в проекте «Развитие сектора образования».

Поскольку основным показателем при определении качества образования являются результаты обучения студента, объективная оценка этих результатов считается наиболее достоверным источником, выявляющим качество. Исследователи, изучающие оценку в образовании, отмечают, что оценка должна быть основана на фактах для справедливой оценки, и заявляют, что делать какие-либо выводы на основе оценки, данной учителями на уроке, неправильно. Таким образом, в любой системе оценивания возможна возможность ошибки, никакая оценка не может стопроцентно отразить уровень знаний учащихся. Учителя должны обязательно учитывать этот момент. Цель любой оценки (зачетной, экзаменационной, итоговой и т. д.) состоит в том, чтобы определить, к какому выводу приходят учителя, насколько этот вывод обоснован, и какой следующий шаг следует предпринять на основе этого вывода.

Summary

ON NEW APPROACHES TO MODERN ASSESSMENT

Musayeva Jahan Jabbar kyzy

The development of a new assessment system is identified as one of the priority areas in the project "Development of the Education Sector".

Since the main indicator in determining the quality of education is the student's learning outcomes, an objective assessment of these results is considered the most reliable source that reveals the quality. Researchers studying assessment in education

point out that assessment must be based on facts for a fair assessment, and argue that it is wrong to draw any conclusions based on the assessment given by teachers in the classroom. Thus, in any assessment system, the possibility of error is possible; no assessment can 100% reflect the level of knowledge of students. Teachers must take this into account. The purpose of any assessment (test, examination, final, etc.) is to determine what conclusion the teachers come to, whether this conclusion is justified, and what next step should be taken based on this conclusion.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: prof. Nabat Cəfərova
tərəfindən çapa tövsiyə olunmuşdur

TAMARA ŞƏRBƏT QIZI
ƏLIZADƏ
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrasının müəllimi
alizadetamara@yahoo.com

ALQIŞ VƏ QARĞIŞLARIN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Xülasə

Azərbaycan şifahi xalq ədəbiyyatında xüsusi janr olan alqış və qarğışlar qədimliyi ilə diqqəti çəkir. Bu sözlərin etimologiyası da maraqlıdır və tədqiqatçılar tərəfindən müxtəlif izahlar irəli sürülmüşdür. Alqış və qarğış ucadan söylənilir. Milli folklor janrı olaraq zərdüştilikdən süzülüb gəlir. Xeyir və şər təsəvvürlərini ifadə edən paremik vahidlərdir. Alqışlarda xeyir əməllər, qarğışlarda şər, pislik edənlərə pislik ifadə olunmuşdur.

Alqışlar və qarğışlar dastanlarda, nağıllarda, bayatılarda qorunaraq gəlib bu günə çatmışdır. Daha çox alqışlı ifadələr işlənməkdədir. Alqışlar və qarğışlar "Dədə Qorqud" dastanından, digər dastanlardan və nağıllardan nümunələrdə, bayatılarda mühafizə edilmişdir. Xalq içərisində elə insanlar olur ki, alqışı, qarğışı keçərli olur. Adətən alqışı sübh tezdən edərlər. Qarğışı isə şər vaxtı etmişlər. Alqış da xoş duadır, sübh tezdən edilərsə, tez həyata keçər.

Məqalədə alqış və qarğışların tarixi, etimologiyası araşdırılır, Bölgü təqdim edilir, nümunələr diqqətə çatdırılır. Qeyd edilir ki, xalqımızın dünyagörüşünün öyrənilməsində alqış və qarğışlar zəngin mənbədir.

Açar sözlər: folklor, janr, alqış, qarğış, dünyagörüş, mənbə

Azərbaycan şifahi xalq ədəbiyyatında xüsusi janr olan alqış və qarğışlar qədimliyi ilə diqqəti çəkir. Bu sözlərin etimologiyası da maraqlıdır və tədqiqatçılar tərəfindən müxtəlif izahlar irəli sürülmüşdür. Bir sıra tədqiqatçılar bu sözün mənşəyini araşdırarkən *al* hissəsinin "ucalıq" mənasında işləndiyini, bir sıra tədqiqatçılar *al* "xoş söz, qırmızı söz" mənasında olduğunu, Bir qrup *al* sözünün hiylə, yalan mənasını, digər qrup tədqiqatçılar isə *al* və *qara* hissələrinin ruh adları olduğunu bildirirlər. Əlbəttə, birincisi xeyirxah, sonrakı isə bəd əməllər hamisidir. Həm alqış, həm qarğış sözündəki *qış* "qışqırmaq" feilindəndir. Dilimizdə hay-küy salmaq mənasında *qara qışqırıq* ifadəsi də işlənir. Alqış və qarğış ucadan söylənilir. Milli folklor janrı olaraq zərdüştilikdən süzülüb gəlir. Xeyir və şər təsəvvürlərini ifadə edən paremik vahidlərdir. Alqışlarda xeyir əməllər, qarğışlarda şər, pislik edənlərə pislik ifadə olunmuşdur. Azad Nəbiyev xalq arasında yaşanan alqış və qarğışları aşağıdakı kimi təxmini qruplaşdırmışdır: 1. Mərasimlərlə bağlı alqış və qarğışlar. 2. Məişətlə bağlı yaranan alqış və qarğışlar. 3. Mifoloji və dini təsəvvürlərin təsiri ilə yaranan alqış və qarğışlar (5, 320). Afaq Xürrəmqızı yazır ki,

"Azərbaycan folklor yaddaşında qorunan yüzlərlə alqış və qarğış örnəyi müəyyən mərasimlərlə (toy-düyün, doğum, yas mərasimi) bağlı söylənildiyindən mərasim folklorunun tərkib hissəsi kimi təqdim və tədqiq edilə bilər. Amma Azərbaycan folklorunda mövzusuna görə alqış və qarğış müəyyən mərasimə bağlanırsa da onun reallaşma imkanı mərasim çərçivəsinə sığmayaraq, daha geniş əhatə dairəsinə malikdir. Belə ki, müəyyən mərasimdə söylənən alqış-qarğışlar (dua-bəddualar) eyni müvəffəqiyyətlə müsbət və ya mənfi iş, hərəkət və ya hadisənin doğurduğu hissi-emosional anımlarla bağlı adi-gündəlik məişətdə geniş istifadə və tətbiq edilə bilir (3, 45).

"Müxtəlif xalqlarda olduğu kimi Şərq xalqlarının əsarətində xeyir və şər təsəvvürləri şəxsləndirilmişdir. Bu varlıqları insan cildində görmək istəyi təkcə qədim türk tayfaları içərisində deyil, ümumiyyətlə qədim insanın həyatı dərk etməsinin əsas mərhələlərindən biri olmuşdur. Bu qüvvələr qədim təsəvvürlərdə xeyiri alqışlamaq, şəri isə qarğışlamaq anlayışını yaratmışdır (6, 14).

Alqışlar və qarğışlar dastanlarda, nağıllarda, bayatılarda qorunaraq gəlib bu günə çatmışdır. Daha çox *alqışlı ifadələr* işlənməkdədir:

Allah kölgəni qalın eləsin.
Ananın südü, atanın çörəyi halal olsun.
Allah səni düşmənə güldürməsin.
Ağ gün içində olasan.
Bir əllə qazanasan, min əllə yeyəsən.

Qarğışlara aid bir neçə nümunəyə diqqət edək:

Allah kəndirini kəssin.
Başına od ələnsin.
Qaraduvaq olasan.
Dilin söz tutmasın.

"Ağız ədəbiyyatının bu kiçik janrlarının hər birinin arxasında müəyyən tarixi və ya mifoloji dini təsəvvür dayanır. Hər bir paremik vahidin açıqlanması isə erkən dövrlərdə yaşayan əcdadlarımızın estetik dəyərlərini, mənəvi-əxlaqi görüşlərini, sağlamlığını, gigiyenik əxlaqını öyrənməyə bizi yaxınlaşdırır. Milli yaddaşda yaşayan qarğışlar başqa paremik vahidlərdən və kiçik janrlardan fərqli olaraq tarixən xalqımızın məişəti üçün ənənəvi olan xəstəlikləri, müalicə vasitələrini və yaxud buna bənzər digər detalları öyrənmək baxımından da əhəmiyyətlidir (5, 323).

"Dədə Qorqud" dastanında işlənir ki, "Ol zamanda bəylərin alqışı alqış, qarğışı qarğış idi". "Dastan"da "Salur Qazanın evinin yağmalanması boyu"nda sonda Dədə Qorqudun dilindən deyilən və "yum" adlanan alqışlara diqqət edək:

"Yum" verəyim xanım:
Qarlı qara tağlarun yıqılmasun!
Kölgəlicə qaba ağacın kəsilməsün!
Qamın aqan görklü suyın qurımasun!
Qadir Tənri səni namərdə möhtac etməsün!

Çaparkən ağ-boz atın büdrəməsün!
Çalışanda qara polad üz qılıcın gödəlməsün!
Dürtüşərkən ala köndərin avanmasun!
Ağ saqqallı baban yeri uçmaq olsun!
Ağ birçəkli anan yeri behişt olsun!
Axır sonı arı imandan ayırmasun!
"Amin" deyənlər didar körsin!
Ağ alnunda beş kəlmə dua qıldıq, qəbul olsun!
Allah verən umudun üzülməsün!
Yığışdursun, duruşdursun, günahlarını
Adı görklü Məhəmməd Mustafa yüzü suyına bağışlasun, xanım hey!

Dirsə xanın xatunu oğlu Buğacı Qazlıq dağında qan içində görərkən söydiyi qarğışa nəzər yetirək:

Nə Qazlıq dağı, axar sənin suların,
Axar ikən axmaz olsun!
Bitər sənin otların, Qazlıq dağı,
Bitərkən bitməz olsun!
Qaçar sənin keyiklərin, Qazlıq dağı,
Qaçarkən qaçmaz olsun, daşa dönsün!
Nə biləyin, oğul?
Aslandanmı oldu, yoxsa qaplandanmı oldu?
Bu qəza sənə nə yerdən gəldi?
Buğac isə anasının qarğışlarını eşitdikdə deyir:
Bəri gəlgil!
Ağ südün əmdiyim, qadınım ana!
Ağ birçəkli, izzətli canım ana!
Axarlıda, sularına qarğamagil,
Qazlıq dağının suyunun günahı yoxdur,
Bitərlidə otlarına qarğamagil,
Qazlıq dağının suçu yoxdur.
Aslanına, qaplanına qarğamagil,
Qazlıq dağının suçu yoxdur.
Qarğarsan babama qarğa,
Bu suç, bu günah babamındır- dedi (4, 23-24).

"Qazan xanın evinin yağmalanması" boyunda Qazan xanla Qaraca Çobanın dialoqunda da qarğışlı ifadələr diqqəti çəkir. Günahsız olan Qaraca Çoban deyir: "Nə qarğarsan mana ağam Qazan? (Yoxsa köksündə yoxmudur inam?) Altı yüz kafir dəxi mənim üzərimə gəldi. İki qardaşım şəhid oldu. Üç yüz kafir öldürdüm, qəza etdim. Simsiz qoyun, artıq toğlu sənin qapından kafirlərə vermədim. Üç yerdən yaralandım, qara başım büküldü, yalnız qaldım. Suçum bumudur? (4, 34).

"Dədə Qorqud" dastanında alqış və qarğışlarla bağlı digər məqam Təpəgöz məğlub olduğu zamanda söylənmişdir:
Ağ saqqallı qocaları çox ağlatmışam
Ağ saqqallı qarğışı tutdu, ola gözüm səni.
Ağ birçəkli qarıcıqları çox ağlatmışam,
Gözü yaşı tutdu ola, gözüm səni.
Mucağı qararmış yigitcikləri çox yemişəm
Yigitlikləri tutdu ola, gözüm səni.
Əlcigəzi xınalı qızçığazları çox yemişəm,
Qarğışları tutdu ola, gözüm səni (4, 121).

"Dədə Qorqud" dastanında alqış və qarğışlı ifadələr işlədildiyində əsatiri obrazlar müşahidə edirik. O cümlədən xeyirxah və bədxah olan pərilər içərisindən burada bədxahının iştirakını görürük. Həmin mənfi obraz olan pəri Təpəgözün anasıdır ki, oğlunun barmağına üzük taxaraq onu sehirli etmişdir: "Oğul, Sənə ox batmasın! Tənin qılınc kəsməsin!" Digər boyda ağaca inamın əlamətidir ki, Qazan oğlu Uruz əsirlikdə olarkən qarğış edərkən ağaca xitab edir:
Məni sənə asarlar, götürməgil, ağac!
Götürəcək olarsan, yigitliyim səni tutsun, ağac (4, 37).

"Dədə Qorqud" dastanında Salur Qazan oğlu Uruzun əsir düşdüyünü bilmir, güman edir ki, döyüşmək istəməyib evə qaçmışdır. Lakin acıqlı halda evə dönən Qazan xatunu tərəfindən belə qarşılanır:
Qara başım qarışı tutsun, Qazan səni.
Bir bəyim görünməz, bağrım yanar,
Neylədin, degil mana!
Deməz olsan, yana-göynə qarğaram, Qazan, sana (4, 77).

"Dsatan"da digər məqamda ana südünün müqəddəsliyi ilə bağlı Buğacın nitqində diqqət cəlb edilir: " – Ana, ağlamagil, mənə bu yaradan ölüm yoxdur, qorxmagil! Bozatlı Xızır mənə gəldi. Üç kərə yaramı sığadı. Bu yaradan sənə ölüm yoxdur (dedi). Dağ çiçəyi, ana südü mənə məlhəmdir – dedi (4, 24). Dastan"da müşahidə etdiyimiz daha bir qarğışlı ifadəni Dirsə xan oğlunu yaralayıb qayıdanda xatunu söyləmişdir: "Kəsilsin oğlan əmən süd damarım yaman sızlar".

Alqışlar və qarğışlar "Dədə Qorqud" dastanından, digər dastanlardan və nağıllardan nümunələrdə, bayatılarda mühafizə edilərək gəlib çatmışdır. "Qurbani" dastanında adamlar haqq aşığı olan Qurbaninin ah-naləsindən çox qorxurlar. Onlar Qurbanininin ölüdürülməsinə əmr verən Ziyad xana yalvarırlar: " – Xan, aşığın ah-vəbalı tutar, şəhərimiz viran olar. Bunu öldürmə (1, I, 39).
Bu zaman öldürülməsini cəlladlara tapşıran Qara Vəzirə Qurbani qağış edir:
Vəzir, sana qarğıyaram,
Haqq diləyin yetirməsin!
Göydən min bir bəla gəlsə,
Birin səndən ötürməsin.

Evində düşəsən naçaq,
Sağ gözünə batsın bıçaq!
Oğul-uşaq düşsün qaçaq,
İstədiyin gətirməsin!

Oturubsan ağ otaqda,
Qan qusasan laxta-laxta,
Səni görüm ölən vaxta,
Dilin kəlmə gətirməsin!

Qurbani qaldı burada,
Çağır Allah yetsin dada.
Meyidin qalsın arada,
El yığılıb götürməsin!

Bu zaman göy guruldadı, bir ildırım şığıyıb vəzirin evinin üstünə düşdü. Ev gurhagurla uçub yerə töküldü. Nərilti, gurultu hər yeri bürüdü. Cəlladlar Qurbanini qouyub qaçdılar. Vəzir evinin, uşaqlarının hayına qaldı. Qurbani yadından çıxdı (1, I, 60).

Dilimizdə "Başıküllü", "Kül başlı", Başına kül ələnsin" kimi ifadələr vardır. Bu ifadələr dilimizdə demək olar ki, daşlaşmışdır.

Abbas Tufarqanlının "Bəyənməz" rədifli şeirinə diqqət edək:

Adam var, dəstinə verərsən güllər
Adam var, gözünə çəkəsən millər.
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan, qarı bəyənməz.

Yaxud da bir sıra bölgələrdə yas mərasimlərində söylənən bayatılarda aşağıdakı kimi rast gəlinir:

Bağça-bağda gül ağlar,
Bülbül ağlar, gül ağlar.
Oğlu ölən analar
Başa tökər kül ağlar.

Xalq içərisində elə insanlar olur ki, alqışı, qarğışı keçərli olur. Adətən alqışı sübh tezdən edərlər, qarğışı isə şər vaxtı etmişlər. Dilimizdə belə bir inanc var ki, ziyarətə gün doğmamış gedərlər. Alqış da xoş duadır, sübh tezdən edilərsə, el arasında deyilir ki, saatın açıq vaxtına düşər. Alqış və qarğışlara nəzər saldıqda belə bir cəhət də nəzərə çarpır ki, xalq içərisindəki alqış və qarğışların hər birinin özünün yaranma yolu, kökü olmuşdur. Odur ki, bu janr əslində xalq məişətindəki etnik xüsusiyyətləri daha fəal mühafizə edən janrlar qrupuna daxil edilməlidir (6, 14). "Azərbaycan mühitində alqış və qarğış söyləmək əsasən qadın fəaliyyəti ilə bağlıdır. Lakin bu mülahizə ilə biz kişilərin alqış-qarğış söyləmək faktını inkar etmək fikrində

deyilik. Şumerlərin "Biqamıs" dastanı, habelə bir çox Azərbaycan dastan və nağılları ("KDQ", "Qurbani", "Arzu və Qənbər") kişi qarğış və alqışının kəsərindən bəhs etmək üçün kifayət qədər material verir. Lakin son dövrlərdə qarğayan, alqış söyləyən kişilərə ikrahla yanaşmanın dəfələrlə (Kişi xeylağı qarğış eləməz) şahidi oluruq (3, 47).

"Ana südü ananın övladına qarğışını təsirsizləşdirmək gücünə malik olduğu kimi, onu kəsərini artırmaq qabiliyyətinə də malikdir:

Nə odun var, nə ocax,
Dərdim var, qucax-qucax.
Yarıma qarğıyanı
Tutsun o süddü ocax (3, 49).

"Azərbaycan xalq ədəbiyyatındakı alqış və qarğışlar öz kökü ilə əski etiqadlar və bədii anlamlarla sıx əlaqədardır. Odur ki, bu janrın dərindən tədqiqi xalqın mənəvi mədəniyyətinin tarixi inkişaf yoluna nəzər salmaq baxımından da çox dəyərlidir. Bundan savayı, ilkin təfəkkürlə bağlı bu tərz örnəklər, sözsüz, sonrakı yazılı ədəbiyyatın yaranıb təşəkkül tapmasında da əvəzsiz qaynaqlardandır (2, 88). Xalqımızın dünyagörüşünün öyrənilməsində alqış və qarğışlar zəngin mənbədir. Bu janrın bədii-poetik xüsusiyyətləri xalqımızın şifahi xalq yaradıcılığının çox qədim dövrləri ilə bağlıdır, insanlarımızın inam və etiqadı ilə əlaqəlidir.

Ədəbiyyat

1. Azərbaycan dastanları. I cild. Bakı, Azərbaycan EA nəşriyyatı.
2. Abdulla B. Azərbaycan mərasim folkloru. Bakı, Qismət, 2005, 208 s.
3. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. "Səda", Bakı, 2002, 210 s.
4. Kitabi-Dədə Qorqud. Bakı, Azərnəşr, 1962.
5. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə, Bakı, Turan, 2002, 680 s.
6. Nəğmələr, inanclar, alqışlar... Bakı, Yazıçı, 1986, 213 s.

Ализаде Т.

Резюме

Благословение и проклинание, особый жанр Азербайджанской устной народной литературы, отличаются своей древностью. Этимология этих слов также интересна и исследователями выдвигались различные объяснения. Благословение и проклинание произносятся вслух. Оно происходит из зороастризма как национального фольклорного жанра. Это паремические единицы, выражающие понятия добра и зла. Добрые дела выражаются в благословениях, а злые – в проклинаниях, злые – в адрес тех, кто делает зло.

Благословение и проклинание сохранились в былинах, сказках и легендах и дошли до наших дней. Дополнительные свидетельства находятся в работе. Благословение и проклинание сохранились в примерах из эпоса «Деда

Горгуд», других былин и сказок. Среди людей есть люди, чьи благословение и проклинание сбываются. Обычно благословение делают рано утром, а проклинали вечером. Благословение — тоже хорошая молитва, если ее произнести рано утром, она быстро сбудется.

В статье рассматривается история и этимология благословение и проклинание, представлена классификация и приведены примеры. Отмечено, что благословение и проклинание являются богатым источником в изучении мировоззрения нашего народа.

Ключевые слова: фольклор, жанр, благословение, проклинание, мировоззрение, источник

Alizadeh T.

Summary

Blessing and cursing, a special genre in Azerbaijani oral folk literature, is notable for its antiquity. The etymology of these words is also interesting and various explanations have been put forward by researchers. Cheers and cursing are said out loud. It comes from Zoroastrianism as a national folklore genre. They are paremic units that express the concepts of good and evil. Good deeds are expressed in blessing, evil in curses, and evil to those who do evil.

Blessings and curses have been preserved in epics, tales, and legends and have reached this day. More testimonials are in the works. Blessings and curses have been preserved in examples from the "Dada Gorgud" epic, other epics and fairy tales. Among the people, there are people whose blessing and cursing come true. Usually they blessing early in the morning. And they cursed at the time of evil. Blessing is also a good prayer, if it is done early in the morning, it will come true quickly.

The article examines the history and etymology of applause and cursing, presents the classification, and highlights examples. It is noted that blessing and curses are a rich source in studying the worldview of our people.

Key words: folklore, genre, blessing, curse, outlook, source

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent **Məfkurə Hüseynova**
tərəfindən çapa tövsiyə olunmuşdur

SABİR ƏSƏDOV
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant
Bakı ş. İstiqlaliyyət küç.26.
e-mail: sabir.alim80@gmail.com

CƏNUBİ AZƏRBAYCAN POEZİYASININ İRAN İSLAM İNQİLABINDAN SONRAKI DÖVRDƏ ÜMUMİ MƏNZƏRƏSİ
(mühacir sənətkarların yaradıcılığı əsasında)

Açar sözlər: *1979-cu il İran inqilabı, poeziya, Hökümə Billuri, Yalqız, Mehsa Mehdili*
Ключевые слова: *Иранская революция 1979 года, поэзия, Хокума Биллури, Ялгиз, Мехса Мехдили*
Key words: *The revolution of Iran in 1979, poetry, Hokuma Billuri, Yalgiz, Mehsa Mehdili*

1979-2019-cu illərin ədəbi prosesi özünəməxsus poetik xüsusiyyətlərə malikdir. Fars rejiminin Cənubi azərbaycanlılara qarşı yeritdiyi məkrli siyasət, qoyulan qadağalar, bu rejimə qarşı açıq və gizlin etirazlar, mübarizələr dövrün ədəbiyyatına da təsir göstərdi, eyni zamanda poeziyasını rəngarəng etdi. İran inqilabından sonra milli azadlıq idealı və mübarizə əzmi Cənubi Azərbaycan şeirində xüsusi bir mözvu kimi meydana çıxdı. Zamanın ictimai-siyasi hadisələri və şovinist rejimin qarşıya qoyduğu məhrumiyyətlər nəticəsində meydana mütərəqqi fikirli yeni şairlər və yazarlar gəldi. Həmin şairlər istibdadın zülmündən qorxmayaraq, çəkinmədən birbaşa üsyan ruhlu şeirlər yazmağa başladılar. *"Cənubi Azərbaycan ədəbiyyatında istibdad dövründə ağır terror və repressiyalara baxmayaraq, xalqın narazılıq, nifrət və qəzəb duyğusunu əks etdirən şeirlər, hekayələr və s. yazılmış, folklor nümunələri toplanmışdır. Təbii ki, bu əsərlərin əksəriyyəti işıq üzü görməmiş, bəziləri isə məhv edilmişdi. Sandıq ədəbiyyatı adı qazanmış bu əsərlərin ələ düşəni İran inqilabından sonra yeri gəldikcə çap olunur, oxuculara çatdırlırdı"* [10, s.214-215].

İran İslam İnqilabından sonra folklora, milli-poetik ənənələrə qayıdış qəzəl, qoşma, gəraylı, bayatı, rübai, məsnəvi və s. kimi janrların şairlərin yaradıcılığında müraciət etdikləri əsas janrlara çevrilməsinə yol açdı. Dünya ədəbi təcrübəsində olduğu kimi Cənubi Azərbaycan şeirində də hüriyyət, azadlıq, vətən və millət idealları başlıca yer tutdu. Bu dövrdə söz deyən şairlərin əksəriyyəti azərbaycançılıq, türkçülük ideologiyasından çıxış edirdilər.

Digər tərəfdən, 1979-2019-cu illər ərzində yazıb-yaradan şairlər ölkədə baş verən tarixi hadisələrin tərkib hissəsinə və iştirakçısına çevrildilər. Bu dövrün poeziyası və onu ərsəyə gətirən söz sərrafları, şair və yazıçılar tarixdə baş verənlərə biganə qala bilməzdilər. Bütün bu proseslərdən danışarkən, eyni zamanda yaranan poeziya nümunələrini poetika baxımından da araşdırmaq lazım gəlir.

Görkəmli ədəbiyyatşünas Mikayıl Rəfili yazırdı: *"Poetika, əsasən, ədəbiyyatı, poeziyanın, yaxud şeirin məzmununu, qanunauyğunluqlarını, üsul və qaydalarını, texnikasını, formasını və b. mahiyyətini aydınlaşdırır"* [11, s.9-10].

İran inqilabından sonra yaranan poeziyanın da məzmununu, başlıca olaraq, heca və əruz vəzninin müxtəlif formalarında təzahür etmişdir. Dövrün şair və yazarlarının yaradıcılığında Vətən mövzusu və Vətən məhəbbəti xüsusi yer tutmuşdur. Eyni sözləri Cabir Vələdpur Müjdənin yaradıcılığı haqqında da deyə bilərik. Onun qələmindən süzülüb gələn misralar yaralı Vətənin başına gətirilən müsibətlərdən, zülmlərdən xəbər verir:

Sidq ilə hər kim edibdir sənə xidmət vətənim,
Verdi torpağına busə tapıb izzət vətənim.
Həmlə ver üstdə bir düşmən qəddar oldu
Torpağın xəvan cavan ilə gülnar oldu.
Kərbəla vaqiəsi səndə də təkrar oldu,
Peykərin üstünə çox dəydi cərahət vətənim... [5, s.312].

Vətənin başına gətirilən müsibətlər, əzablar göstərilən illər ərzində qələm sahiblərini çox düşündürmüş, narahat etmişdir. "Kərbəla vaqiəsi səndə də təkrar oldu", – deyən şairin ürəyi, qəlbi, şan-şan olur, Vətənin, elin, yurdun dərdinə üzülür, bağrı yazılır.

Bu əhval-ruhiyyə həmin illərin bir çox şair və yazıçılarının əsərlərində özünü göstərir.

"Ədəbiyyatın gücü, əsl poetikası cəmiyyəti düşündürən məsələlərə vaxtında cavab verməsi ilə ölçülür.

Poetika, bir də hadisələri yaradan, həyatın axınına istiqamət verən insanların daxili aləmlərinə, onların mənəvi dünyasına bələdlik deməkdir" [7, s. 33].

İran rejiminin qəti qadağaları dövründə azərbaycançılıq və türkçülük ideologiyasından çıxış edərək bədii əsər yaratmaq böyük cəsarət və qorxmazlıq tələb edir. İran inqilabından sonra dövrün öndə gedən yazarları məhz bu mövqedən çıxış etdilər və əsl qəhrəmanlıq nümayiş etdirdilər.

"Güney azərbaycanlılar ictimai-siyasi sahədə milli istək və arzularını reallaşdıra bilməsələr də, 1978-1979-cu illər İran inqilabı mədəni həyatın gedişində xüsusi bir canlanma, dirçəliş mərhələsinin yaranmasına səbəb oldu...

1978-1979-cu illər İran inqilabından sonra yaradıcı ziyalılarda millətsevərlik, türklük hissləri daha da gücləndi. Xalqın uzun illər yaddaşında qalıb yaşayan aşıq yaradıcılığına, dastanlara, qəzəl janrına geniş meydan açıldı..." [9, s.11-12].

Güney Azərbaycan ədəbiyyatının inkişaf etməsində mühacirətdə və sürgündə yaşayan, yazıb-yaradan sənətkarların da müstəsna rolu olmuşdur. Ümumiyyətlə, Cənubi Azərbaycan mühacir poeziyasından danışarkən Hökümə Billurinin adını mütləq çəkməliyik. Hökümə Billuri Cənubi Azərbaycan mühacir poeziyasının yaradıcılıarındandır. Hökümə Billurinin poetik yaradıcılığı spesifik xüsusiyyətləri ilə seçilir:

Sən silah götürəndə götürdüm silah,
İrəli deyəndə irəli getdim,
Vuruş deyəndə vuruşdum.
Əkdimsə də, dərmədim barını,
Xəzanına, qışına dözdümsə də,
Görmədim baharını [3, s.15].

Bu şeirlə tanış olanda, hələ İran inqilabından illər öncə yazılmasına baxmayaraq, şeirdəki üsyan ruhunun şahidi oluruq.

Hökümə Billurinin həyatı və yaradıcılığı haqqında tədqiqat işi aparan Bahar Bərdəli yazır: "Beləliklə, xalqın taleyi, Azərbaycanın bütövlüyü, onun vahid dili, məktəbi kimi məsələlər və bundan doğan mübarizlik, üsyankarlıq, şairənin yaradıcılığından ana xətt kimi *keçir və bu ana xətt – qırmızı xətt onu bütün həyatı boyu tərk etmir"* [2, s.47].

Hökümə Billurinin qələmindən süzülən sevgi, məhəbbət şeirləri də poerik məzmununa görə gözəl sənət nümunələridir. Ayrılığın, didərginliyin ağrı-acısına dözüb tab gətirən Hökümə xanım sevgi şeirlərində də fikirlərini ifadə edərkən çətinlik çəkmir:

Göylərə nəzər sal hər səhər çağı,
Günəş oyadanda daşı-torpağı,
Hər səhər seyrə dal dərəni-dağı,
Gəzək bu dünyanı, gəzək sevgilim! [4, s.165].

Dünyanı gəzmək arzusu, Vətənin hər qarışını seyr etmək, Vətən sevgisi bu şeirdə də Hökümə xanımı tərk etmir, çünki bu hisslər illər boyu formalaşıb, onun ruhuna, varlığına hopub.

"Bu gün Güney Azərbaycanın çağdaş şairləri, yaradıcı gənclik "Füzulinin, Əliağa Vahidin qəzəllərilə deyil, birbaşa Əlirza Nabdil Oxtayın, Nazim Hikmətin, eləcə də dünya miqyasında tanınmış, mənimsənmiş şeir, poeziya dəyərlərinin qapısından girərək (H.Qaraçay) şeir, poema, yaxud hekayə-öykü, roman yazmağa başlayırlar.

Dünyada dinsiz-imansız dinçilərdən savayı, heç nədən, heç kimsədən qorxmadan söz meydanında Vətən naminə, azad Təbriz uğrunda savaşırlar" [8, s. 49].

Cənubi Azərbaycan şeirinin, poeziyasının bu gününə nəzər saldıqda şairlərin əsas məqsəd, qayə, amal kimi qarşılarına ana dilində yazmaq məəsləsini qoyduqlarının şahidi oluruq. Bu, demək olar ki, Vətənin ikiyə bölünməsi anından

şairlərin və yazıçıların, ümumiyyətlə, qələm sahiblərinin ən birinci vəzifələrindən olmuşdur. Öz ana dilində yazmağa üstünlük verən qələm sahibləri bu dili qorumaq uğrunda əllərindən gələni etməyə çalışmışlar. M.Arifin ana dili haqqında çox maraqlı bir fikri var: *"... Hər xalqın yaratdığı ən müqəddəs bir nemət, ən zəngin mənəvi xəzinə onun dilidir"* [1, s.271].

Çağdaş Cənubi Azərbaycan poeziyasına xas olan xüsusiyyətlərdən biri də şairlərin yaradıcılığında satirik meyillərin güclənməsi oldu. Bu da aydındır ki, M.Ə.Sabir, M.Ə.Möcüz kimi "ağsaqqalları" olmuş satirik şeir, təbii ki, it-bat ola bilməzdi. Cənubi Azərbaycan satirik şeirində "Molla Nəsrəddin" kimi qocaman dərgilərin əvəzsiz rolunu unutmaq olmaz. "Molla Nəsrəddin"in ətrafında toplaşan klassik sənətkarların yaradıcılığı çağdaş Güney satirik şeirinə təsirsiz qala bilməzdi. Çağdaş Güney poeziyasında satirik şeirin gözəl nümunələrini yaratmış qələm sahibləri arasında Məcid Səbbağe (Yalqız), Həmid Arəşi Azad, Məhəmməd Riza Şövkəti, Əli Ətaiyyə, Məhəmməd Hüseyn Təhmasibpur və s. şairlərin adını çəkə bilərik. Bu sənətkarlar həyatda baş verən mənfiliklərə, özbaşınalıqlara, xalqa zülm edən rejimə və s. qarşı kəskin mövqedə dayanmış, onları satirik dillə tənbeh etmişlər. Bir nümunəyə baxaq. Yalqız deyir:

Birdən itimin qurd dayısı gəlsə səfərdən,
Biz eyləməsək bir quzu qurban, nə deyərlər?
Damadıza eyləməsək peşkəş açan,
Bir sirf kilometrli peykan, nə deyərlər?
Biz əmqızıya toy payılıq almasaq indi,
Bir təxtə biti məxməli kaşan nə deyərlər? [6, s.81]

Gülüş hədəfinə çevrilən mövzuarın əhatə dairəsi geniş, həm də rəngarəngdir. Fars rejiminin törətdiyi bəlaların ifşası, İranda Azərbaycan dilinə qoyulan qadağaara etiraz, dil məsələsi və s. Yalqızın satiralarının hədəflərindəndir:

Ayılın, ey Vətən övladı, gəlin bir üz-üzə,
Seriyallarda bu di aşkara lağ olmadadır.
İstəyirlər ki, oyatmaq adıma yuxladalar,
İranın azəri övladı oyaq olmadadır.
Ölməyib Yalqız hələ, türk dilinə xor baxalar,
Xainin başına hər ləhzəçomaq olmadadır [6, s.84].

Cənubi Azərbaycan ədəbi prosesinin davamçıları bu gün də baş verən hadisələrə münasibət bildirir, ədəbi hərəkatda yaxından iştirak edirlər.

"Çağdaş Güney Azərbaycan poeziyasında satirik qələmilə külüng çalanlar kifayət qədər olmuşdur. Bunların sırasında hər iki Azərbaycanı təmsi edən, (atası Bakılı, anası Ərdəbilli) ürək xəstəliyi ilə əlaqədar həyatdan tez köçən, həm satirik şair, həm də satirik nəsr əsərləri yaradan İmran Səlahi, Tənqidi və satirik şeirlərilə tanınan, sosial mühitdən daha çox yazan Şəhrək, Nəccaroğlu, bütün yaradıcılığını yalnız satiraya həsr etmiş Nəsir Paygüzari və onlarla şairlər var ki, onlar cəmiyyətin

haqsızlığına, köhnə adət-ənənələrə həddən-ziyadə bağlı olanlara, hər zaman iti baxışları, sərt qələmləri ilə cavab vermişlər" [6, s.86].

Araşdırmalardan da məlum olduğu kimi, 1978-1979-cu illər İran inqilabı millətin, xalqın arzu və istəklərini, tələbərini gerçəkləşdirə bilməmişdi. Elə buna görə də uzun illər Cənubi Azərbaycan poeziyasında, Güney şeirində şikayət, narazılıq motivli şeirlər yazılmış, qələmə alınmışdır. Düzdür, sevindirici haldır ki, bütün bu çətinliklərə baxmayaraq müasir Cənubi Azərbaycan ədəbiyyatında, eyni zamanda, yeni düşünməli, çağdaş modern şeirlər də yaranmışdır. Bu da öz növbəsində çağdaş Cənub şeirinin uğuru sayıla bilərd. Dünyada baş verən hadiəslər heç vaxt ədəbiyyatdan təsirsiz ötüşməyib. Söz adamları tarix boyu qlobal həyatda baş verən olaylara münasibət bildirmiş, onları öz yaradıcılıqlarında işıqlandırmışlar. Cənubi Azərbaycanda da belə oldu. 1980-ci ilərdə millətsevərlik, türkçüük, milli mənlik hissləri coşub-daşan ədəbi nəsil 1990-cı illərdə həm də Avropa modern şeirini mənimsədi. Hətta bu meyil o qədər güclü oldu ki, tez bir zamanda modern şeirin onlarla tanınmış nümayəndələri meydana çıxdı.

Pərvanə Məmmədli tərtibçisi və ön sözün müəllifi olduğu "Güney Azərbaycan ədəbiyyatı antologiyası"nda yazır: *"1990-cı illərdə ədəbiyyata gələn avanqard nəsil prinsiplərini şüar, tələb, bəyanatlarla irəli sürən daşlaşmış, kirəcləşmiş mövqeləri birdəfəlik, kökündən qopartmağa çalışırdı. Çağdaş, modern şeirə körpüsalanların önündə gedənlərdən biri Səhər xanım Rəiszadədir. Bu poetik hərəkatı açıq şəkildə ilk öncə Süleymanoğlu, Nigar Xiyavi, Nasir Merqatı, Nadir Əzhəri, Əziz Səlami, Hadi Qaraçay, Səid Muğanlı, Heydər Bayat, Saleh Ətayi, bir qədər sonra İlqar Müəzzinzadə, Məihə Əzizpur, Xosrov Barışan, Eşən Böyükkənd, Ramin Cahangirzadə, Aydın Araz, Rəsul Yunan, Solmaz Məmmədrizayi, Türkan Urmulu, Ramin Cabbarlı, Məsud Haray, Ülkər Ucqar, Şəlalə Cavanşir, Ərsan Ərel, Duman Ərdəm, Aydın Araz, Zaman Paşazadə, Ziba Kərbasi yaratmağa səy göstərir və adını çəkə bilmədiyim digərləri bu yolda yeni cığırla irəliləyirlər"* [9, s.14].

Siyasi rejimin eybəcərliklərini, xalqın aşağı təbəqələrinin ağır yaşayışını, vətənə məhəbbəti təsvir edən şeirlərlə bərabər, eyni zamanda yeni modern ruhlu əsərlər də yarandı. 1990-cı illərdə yaranan poetik nümunələrdə diqqəti cəlb edən başlıca cəhət həm də müəlliflərin müasir mövzulara meyil göstərməsi oldu. Həmin çağlarda təzə söz demək üçün çalışan yeni nəslin nümayəndələrindən olan Rəsul Yunan sanki sözlə "Yalqız adamın rəsmi"ni çəkməyə çalışır:

Uzun bir küçədir
Və onun dibində olan
Bağlı qapı –
Yalqız adamın rəsmi
Rəsmdə görünməyən
Paslı pianodur
Yalqız adamın rəsmi.
Əsər yeldir

Solğun ay
Yalqız adamın rəsmi –
Bütün kədərlərin rəsmidir...
Qələbəlik [9, s.169].

Çağdaş Güney Azərbaycan şairlərinin yaradıcılıqarı ilə tanış olanda son ilər Cənub şeirində poetizmin sürətlə dirçəlişinin şahidi olursan. *"Uzun bir küçədir yalqız adamın rəsmi"* – burada gözəl bənzətmə – təşbeh yaradılmışdır. Poetikada bu və ya digər dərəcədə diqqət mərkəzində olan məsələlərdən biri bədii təsvir və ifadə vasitələrindən məqsədəuyğun şəkildə istifadədir ki, biz bu şeirdə onu görə bilirik.

Ümumiyyətlə, poetikanın ədəbi-bədii və elmi-nəzəri müddəalarına böyük inamla cavab verə biləcək əsərlər sırasında onlarla çağdaş Cənubi Azərbaycan şairinin adını çəkə bilərik.

2000-ci illərdə Cənubi Azərbaycan ədəbiyyatında meydana çıxan ədəbi nəsil xüsusilə diqqətə layiq olmuşdur. Onların arasından Səttar Dadgahın, Məhəmməd Novinin (Baraz), Səkinə Purhəsənin, Dalğa Xatınoğlunun, Mustafa Şeyxporun, Solmaz Məhəmmədrzayinin, İsa Zeyninin, Aydın Arazın, Mehsa Mehdilinin, Duman Ərdəmin, Ramin Cabbarlının, Xosrov Barışanın, Qədir Cəfərinin və s. adlarını çəkə bilərik. Bu şairlər içərisində Mehsa Mehdilinin yaradıcılığı, xüsusilə diqqəti cəlb edir.

Mehsa Mehdili 1983-cü ildə Səlmas şəhərində anadan olub. Urmiya Dövlət Universitetində tələbələr arasında milli-siyasi çalışmalarda fəallıq göstərib. Bu səbəbdən İran təhlükəsizlik qüvvələri tərəfindən dəfələrlə təhdid olunub və 2008-ci ildə universitetdən xaric olunub. 2009-cu ildən Türkiyədə siyasi mühacir həyatı yaşayır. Mehsa Mehdili "Təbriz" şeirində fars rejiminin başımıza gətirdiyi faciələrə qarşı özünəməxsus şəkildə etiraz edir:

Özümü itirdiyim yerdəyəm,
Santım-santım tapılmağım gəlir,
Sürgünlüğündə Təbrizin,
Mısığın sallamış adresər.

Dustaq qoxulu xiyabanarında
Şəhidlərinə darıxır daş ürəyi,
Özgürlüyün darıxdığı hər yerdə Təbriz var.

Təbrizsizləyən hər boğazda
Lallığını yaşayır
İnsanlığın uzun dili.
Urmuda,
Qarabağda,
Urumçuda
Və Təbrizdə... [9, s.299]

Şair sıxıntısını, dərdini, qəmini, kədərini bu şəkildə göstərməyə, ifadə etməyə çalışır. Məhrumiyyətlərlə, qadağalarla, əzab-əziyyətlə, işgəncələrlə dolu həyatın səmərəsi elə bu cür şeirlərinin yaranmasıdır.

Dövrün poeziyasının poetikasından danışarkən müraciət olunan formaların məzmununa hansı səviyyədə cavab verməsi məsələsinə də diqqət yetirilməlidir. Bu baxımından 2000-ci illər ədəbi nəslinin Cənubi Azərbaycan ədəbiyyatı poetikasına verdiyi töhfələr də onların yaradıcılığında öz əksini tapmışdır.

Poeziya müasir tələblərə cavab vermək üçün mürəkkəb və çoxşaxəli hadisələr aləminə baş vurmalı, cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri əks etdirməlidir. İran inqilabından əvvəl də, sonra da biz Cənubi Azərbaycan ədəbiyyatında bu məsələlərin şahidi oluruq.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Arif, M. Seçilmiş əsərləri: [üç cilddə] / M.Arif. – Bakı: Elm nəşriyyatı, – c.1. – 1967. – 618 s.

2. Bərdəli, B. Cənubi Azərbaycan mühacir poeziyası (1947-1990) / B.Bərdəli. – Bakı: Elm və təhsil, – 2012. – 116 s.

3. Billuri, H. İstərəm: şeirlər və poema / H.Billuri. – Bakı: Azərnəşr, – 1969. – 314 s.

4. Billuri, H. Nə qəribə dünya var imiş / H.Billuri. – Bakı: Azərbaycan, – 1997. – 224 s.

5. Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018. – 671 s.

6. Əlincəq, Ə.R. Müasir Cənubi (İran) Azərbaycan şeiri (1960-2005) /filologiya üzrə fəlsəfə doktoru dis. / – Bak, 2013. – 136 s.

7. Əmirov, S.N. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990-cı illər): / filologiya elmləri doktoru dis. avtoreferatı / – Bakı, 2001. – 54 s.

8. Fuad, E. Güney Azərbaycanda çağdaş ədəbi proses (2011-2014) / E.Fuad. – Bakı, – 2016. – 176 s.

9. Güney Azərbaycan Antologiyası (Çağdaş dövr) / tərt. ed. və ön söz P.Məmmədli – Bakı: TEAS Press, – 2015. – 362 s.

10. Məmmədli, P. Cənubi Azərbaycanda ədəbi-bədii prosesin inkişaf mərhələləri / P.Məmmədli. – Bakı, – 2021. – 318 s.

11. Rəfili, M. Ədəbiyyat nəzəriyyəsinə giriş / M.Rəfili. – Bakı: APİ-nin nəşriyyatı, – 1958. – 275 s.

Xülasə

1979-2019-cu illərin ədəbi prosesi özünəməxsus poetik xüsusiyyətlərə malikdir. Fars rejiminin Cənubi azərbaycanlılara qarşı yeritdiyi məkrli siyasət, qoyulan qadağalar, bu rejimə qarşı açıq və gizlin etirazlar, mübarizələr dövrün ədəbiyyatına da təsir göstərdi, eyni zamanda poeziyasını rəngarəng etdi. İran inqilabından sonra milli azadlıq idealı və mübarizə əzmi Cənubi Azərbaycan şeirində xüsusi bir mözvu kimi meydana çıxdı. Zamanın ictimai-siyasi hadisələri və şovinist rejimin qarşıya qoyduğu məhrumiyyətlər nəticəsində meydana mütərəqqi fikirli yeni şairlər və yazarlar gəldi. Həmin şairlər istibdadın zülmündən qorxmayaraq, çəkinmədən birbaşa üsyan ruhlu şeirlər yazmağa başladılar.

Bu dövrdə Hökümə Billuri, Yalqız, Mehsa Mehdili kimi şairlər vətənə, doğma türk dilinə həsr olunmuş şeirlər yazmışlar.

Сабир Асадов

ОБЩИЙ ВИД ПОЭЗИИ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ПЕРИОД ПОСЛЕ ИРАНСКОЙ ИСЛАМСКОЙ РЕВОЛЮЦИИ (по произведениям поэтов-эммигрантов)

Резюме

Литературный процесс 1979-2019 годов имеет уникальные поэтические черты. Коварная политика персидского режима в отношении южных азербайджанцев, наложенные запреты, открытые и тайные протесты и борьба против этого режима оказали влияние на литературу того времени и в то же время сделали ее поэзию красочной. После иранской революции идеал национальной свободы и решимости бороться стали особой темой в южно-азербайджанской поэзии. В результате общественно-политических событий того времени и лишений шовинистического режима появились новые передовые поэты и писатели. Эти поэты, не боясь гнета тирании, без колебаний начинали писать стихи с бунтарским духом.

В этот период такие поэты, как Хокума Биллури, Ялгыз, Мехса Мехдили писали стихи, посвященные родине и родному турецкому языку.

Sabir Asadov

GENERAL VIEW OF THE POETRY OF SOUTH AZERBAIJAN IN THE PERIOD AFTER THE IRANIAN ISLAMIC REVOLUTION (based on the works of immigrant poets)

Summary

The literary process of 1979-2019 has unique poetic features. The insidious policy of the Persian regime against the South Azerbaijanis, the imposed bans, open and secret protests and struggles against this regime had an impact on the literature of the time, and at the same time made its poetry colorful. After the Iranian revolution, the ideal of national freedom and the determination to fight appeared as a special theme in South Azerbaijani poetry. As a result of the socio-political events of the time and the privations imposed by the chauvinist regime, new progressive-minded poets and writers appeared. Those poets, not afraid of the oppression of the tyranny, began to write poems with a spirit of rebellion without hesitation.

During this period, poets such as Hokuma Billuri, Yalgız, Mehsa Mehdili wrote poems dedicated to the motherland and the native Turkish language.

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: Filologiya elmləri doktoru, professor **Vüqar Əhməd tərəfindən çapa tövsiyə olunmuşdur**

QASIMOVA MİRVARİ MƏMMƏD QIZI
ADPU, Xarici Dillər Mərkəzi
f.ü.f.d., b.m
qasimovamirvari@gmail.com

QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN AVROPA ALİ TƏHSİL MƏKANINA İNTEQRASİYASI İNSAN KAPİTALINA YÖNƏLDİLMİŞDİR

Xülasə

Müstəqillik dövrünün əvvəllərindən Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlərin görülməsinə təşəbbüs göstərilmiş və qloballaşan dünyada belə problemin gerçəkləşdirilməsi aktual və zəruri təşəbbüslərdən biri kimi önə çəkilmişdir. 2001-ci ildən etibarən Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması ölkəmizin Avropa məkanına inteqrasiyasını daha da gücləndirmişdir. Bu proseslərin tərkib hissəsi kimi Azərbaycan Respublikası Avropa ölkələrinin təhsil nazirləri tərəfindən qəbul edilmiş Boloniya deklarasiyasını imzalamaqla respublikanın ali təhsil müəssisələrinin Avropa təhsil sisteminə uyğunlaşdırılması yolunda mühüm addım atmışdır. Bu addım pedaqoji kadr hazırlığında Avropa təhsil sisteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi probleminin həlli zərurətini də meydana çıxarmışdır ki, məqalədə bu məsələlərdən danışılır.

Açar sölər: ***pedaqoji kadr, Avropa təhsil sistemi, inteqrasiya, mütərəqqi ideyalar, təhsil islahatı.***

Summary

Since the beginning of the period of independence, initiatives have been taken to take some measures related to the integration of the higher education institutions of the Republic of Azerbaijan into the European higher education space, and the realization of such a problem in the globalized world has been highlighted as one of the urgent and necessary motives. Since 2001, the membership of the Republic of Azerbaijan to the Council of Europe has further strengthened the integration of our country into the European space. As part of these processes, the Republic of Azerbaijan by signing the Bologna declaration accepted by the education ministers of the European countries took an important step towards adapting the higher education institutions of the republic to the European education system. This step also brought out the need to investigate the European education system in the training of pedagogical personnel and to solve the problem of applying new content

education based on international experience in the philological faculties of pedagogically oriented universities and colleges in Azerbaijan, which are discussed in the article.

Keywords: pedagogical staff, European education system, integration, progressive ideas, educational reform.

Резюме

С начала периода независимости были предприняты инициативы по принятию некоторых мер, связанных с интеграцией высших учебных заведений Азербайджанской Республики в европейское пространство высшего образования, и осознание такой проблемы в глобализированном мире был выделен как один из неотложных и необходимых мотивов. С 2001 года членство Азербайджанской Республики в Совете Европы еще больше укрепило интеграцию нашей страны в европейское пространство.

В рамках этих процессов Азербайджанская Республика, подписав Болонскую декларацию, принятую министрами образования европейских стран, сделала важный шаг на пути адаптации высших учебных заведений республики к европейской системе образования. Этот шаг также выявил необходимость исследования европейской системы образования в области подготовки педагогических кадров и решения проблемы применения нового содержания образования, основанного на международном опыте, на филологических факультетах педагогически ориентированных университетов и колледжей Азербайджана, которые обсуждаются в статья.

Ключевые слова: педагогические кадры, европейская система образования, интеграция, прогрессивные идеи, образовательная реформа.

Təhsil sistemi ölkə daxilində mövcud olan təlim-tərbiyə müəssisələrinin məcmusu kimi xarakterizə edilməlidir və buraya məktəbəqədər müəssisələrdən tutmuş tam orta məktəb, institut, universitet, akademiya, gimnaziya, lisey və s. kimi təlim-tərbiyə ocaqları daxildir. Təhsil sistemi üstquruma daxil olduğuna görə hər bir dövlətdə o, xalqın mənafeyinə xidmət edir. Hər bir ölkənin təhsil sistemi həmin ölkənin iqtisadi və ictimai quruluşuna müvafiq şəkildə, həm də dövlət tərəfindən müəyyən edilmiş prinsiplər əsasında qurulur.

Buna görə də təbiidir ki, iqtisadi, siyasi və mədəni inkişafı müxtəlif olan ölkələrin təhsil sistemləri də müxtəlif olur. Bu müxtəlifliyə baxmayaraq, bütün dünya ölkələrinin təhsil sistemlərinin özlərinə məxsus ümumi, ortaq cəhətləri vardır. Ölkəmizdə təhsil sisteminin necə qurulmasını və onun prinsiplərini yaxşı dərk edib

qiymətləndirmək üçün respublikamızın müstəqillik qazandıqdan sonrakı dövrlərinə nəzər salmaq kifayət edir. Ölkəmiz müstəqillik qazanana qədər respublikamız təhsilin inkişafına görə Avropanın bir çox ölkələrindən xeyli geridə qalırdı. Müstəqilliyimizdən sonrakı illərdə ölkəmizdə təhsil sahəsində çox böyük və möhtəşəm işlər görülməyə başlandı və sovet rejimidən qalmış köhnə təhsil müəssisələrinin işini kökündən dəyişdirmək, müstəqilliyin və suverenliyin tələblərinə cavab verən yeni xalq təhsili yaratmaq vəzifəsi bütün kəskinliyi ilə qarşıda durdu. Bu vəzifəni yerinə yetirməkdən ötrü test üsulu tətbiq etmək, ölkədə təhsil sahəsində korrupsiya və rüşvətxorluğun qarşısını kəskin şəkildə kəsmək, məktəb şəbəkəsini genişləndirmək, yeni kadrlar hazırlamaq təhsilin qarşısında duran ən mühim vəzifələrdən olmaqla önə çıxdı.

"Təhsil xalqın gələcəyidir" – deyən ümummilli liderimiz Heydər Əliyevin ciddi səyi və analoqu olmayan misilsiz xidmətləri sayəsində tarixin qısa zaman kəsiyində ölkədə əsl mədəni inqilab yarandı. Tam orta məktəbi bitirib test üsulu ilə ali məktəblərə daxil olan tələbələrin müəyyən hissəsi Qərbdə yeni təhsil sisteminə yiyələnmək üçün Avropanın müxtəlif ölkələrinə göndərirdi. Son dövrlərdə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyasında təhsil sisteminin innovativ təlim metodları və texnologiyalarının tətbiqinin gücləndirilməsi yolu ilə sərişteyə əsaslanan şəxsiyyət və nəticəyönümlü təhsil modelinin yaradılması strateji hədəf kimi qarşıya qoyulmuşdur" (1). "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyevin 31 yanvar 2008-ci il sərəncamında da son təhsil islahatında demokratikləşmə, humanistləşdirmə prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsi başlıca vəzifə kimi qarşıya qoyulmuşdur (2).

Ölkənin müstəqilliyi elm və texnologiyaların çağdaş nailiyyətlərinə uyğun olaraq kifayət qədər nəzəri hazırlığa malik yüksək ixtisaslı kadrlar tələb edir. Bu tələbi ödəmək vəzifəsi daşıyan universitet, institut, kolleclər öz yetişdirmələrinə aldıqları ixtisaslar üzrə nəzəri və əməli hazırlıq verir, onları dünyanın təhsil prinsiplərinə nümunəvi öyrənməyi tələb edir. Belə öyrənmənin ana xəttində konseptual xarakterli təhsil dayanır. Pedaqoq-alim S.Abbasova da doğru olaraq vurğulayır ki, "bu gün ölkədə aparılan təhsil islahatlarının mərkəzində konseptual xarakterli çərçivə sənədi kimi Milli kurikulumun tətbiqi durur. Kurikulum təhsil pillələri üzrə təlim nəticələrini və məzmun standartlarını, nəzərdə tutulan fənlərin, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqinin aparılmasını tələb edir" (3, 33).

Avropa təhsil sisteminə inteqrasiya və yeni təlim metodlarından istifadə təhsilə ciddi yanaşmağı tələb edir və müəllim dərs prosesini həyata keçirmək üçün təlimin interaktiv metodundan bacarıqla istifadə etməlidir. İnteraktiv metod kurikuluma əsaslanan təlim atributlarından biri olub, tədris edilən mövzunun

müəyyən etaplar üzrə öyrədilməsini şərtləndirir. Araşdırmalarda da düzgün olaraq həmin etaplar: 1) auditoriyanın təşkili; 2) motivasiya; 3) tədqiqatın aparılması; 4) məlumatın mübadiləsi və müzakirəsi; 5) nəticə və ümumiləşdirmə; 6) yaradıcı tətbiqetmə; 7) tapşırığın verilməsi; 8) qiymətləndirmə olmaqla fərqləndirilir (4, 128). İnsan kapitalına yönəldilən təlimin mərkəzində konseptual cəhətlər aparıcı rola malik olmalıdır, çünki ümumbəşəri təhsildə təhsilin konseptual cəhətlərinə dərindən və geniş, əhatəli bir şəkildə diqqət yetirmək səmərəli nəticələr verə bilir. Məsələn, İngilis və Azərbaycan dilində müəyyən mövzunun tədrisi prosesinin konseptual cəhətlərindən bəhs edərkən həm ingilis, həm də Azərbaycan dillərində həmin mövzunun predmeti olan məsələnin universal, ortaqlıq yaradan kateqoriyalaşma nüanslarının çözülməsi, aşkar edilməsi olduqca əhəmiyyətlidir və belə müəyyənləşdirmə linqvokulturologiyanın təhlil obyektinə çevrilə bilər. Linqvokulturoloji tədrisin metodologiyası hələ də Azərbaycan nəzəri dilçiliyin öz layiqli araşdırmasını gözləyir.

İnnovativ təlim metodu pedaqoji universitetlərin filoloji fakültələrində ən keyfiyyətli və səmərə verən dünyəvi dərs üsulu kimi daha geniş şəkildə istifadəyə cəlb edilir. Bu tip təlim metodu "… tələbələrin dünyagörüşünü artırır, onların əqidələrinin inkişafını təmin edir, təlimdə əyanilikdən və müxtəlif mənbələrdən əldə edilmiş yardımçı informasiyalarla onların mental bacarıqlarını daha da genişləndirir" (5, 31). Avropa təhsil sistemi bizə öyrədir ki, hər hansı mövzunun tədrisi prosesində müəllim özünün və dərsliklərin verdiyi informasiyalarla kifayətlənməsin, genişmiqyaslı internet resurslarından da istifadə edilməsinə daha çox üstünlük versin. Əgər öncəki illər pedaqoji universitetin tələbələri onlara lazım olan bilikləri əldə etmək üçün sadəcə iki əsas bilik mənbəyini, yəni müəllim və dərslikdən istifadə edirdilərsə, hazırda genişmiqyaslı internet resurslarına daha çox müraciət etməli olurlar, çünki onlarda toplanmış, cəmləşdirilmiş informasiyalar daha geniş və əhatəli, qlobal səciyyə daşıyır. "İnternet resurslarından geniş şəkildə istifadə tələbələrin idraki və social aktivliyini yüksəltməyə, şəxsiyyətin dəyərlərinin və bacarıqlarının inkişaf etdirilməsinə, insan kapitalının formalaşdırılmasına yaxından köməklik göstərir" (6, 76). Qohum və müxtəlifsistemli dillərin mənimsədilməsində innovativ təlim metodlarından istifadə misilsizdir, çünki bu metod süni zərbəçiliyin qarşısını alır, təbii dərketməni zəruriləşdirir.

Keçmiş təlim metodlarının uğursuzluğundan danışan Sevda Abbasova da doğru olaraq yazır ki, "Beynəlxalq ünsiyyət dili olan ingilis dilini qrammatik – tərcümə metodu ilə mənimsəyən tələbələr bildirdilər ki, dilin öyrədilməsi və öyrənilməsi prosesi öyrənənlər üçün sıxıcı, onların maraq dairəsinə uyğun olmayan dərs resurslarının öyrədilən dildən ana dilinə tərcüməsi edilməsi, linqvistik vahidlərin təcrid edilmiş formada öyrədilməsi, sonsuz qrammatik qaydaların əzbərlənməsi halında həyata keçirilirdi" (7, 98). Fikrimizcə, belə metod və üsulla öyrədilən təlim uzunmüddətli olmurdu, lazımi səmərə vermirdi. "Dil kurslarında və ya pedaqoji universitetlərin fakültələrində ingilis dilini ixtisas dili kimi mənimsəyən tələbələrdə

kommunikativ qabiliyyətlərin yüksək dərəcədə inkişaf etdirilməsi onların yerli dil daşıyıcıları ilə real ünsiyyət prosesinə fəal şəkildə qoşulmaları vacibdir. Yalnız bu yol vasitəsilə yerli dil daşıyıcılarına xas olan danışıq və kommunikasiya bacarıqlarına yiyələnmək, sahib olmaq mümkündür" (8, 51).

Deməli, kommunikativ metodun köməyi sayəsində qrammatik – tərcümə üsulu olduqca effektli bir şəkildə reallaşdırılır, pedaqoji universitetin tələbələri vacib, əsas, intellektual biliklərə yiyələnir, sonrakı mərhələlərdə onlarda dil və mədəniyyətin qarşılıqlı məna əlaqəsi zəminində kommunikativ qabiliyyətlər formalaşır və inkişaf etdirilir.

Nəticə. Qloballaşan dünyada pedaqoji universitet və kolleclərin filoloji fakültələrində qarşıda duran təxirəsalınmaz vəzifələrdən biri kimi təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsi və bu fonda Azərbaycan pedaqoji təhsil sisteminin Avropa pedaqoji təhsilinə uyğunlaşdırılmasıdır ki, bu prosesdə respublikamızda müxtəlif təhsil ocaqlarında intensiv islahatlar aparılmaqdadır.

Bu islahatlar insan kapitalının formalaşdırılmasına xidmət etməklə bərabər, təhsilin məzmunu, forması, dillərin öyrənilməsində təlim metodları, tələbə - müəllim əlaqələri, dil kommunikasiyaları, tədris prosesində müəllim və tələbənin rolu, internet resurslarının istifadə yolları və s. kimi sahələri əhatə edir və bu sahələrin Azərbaycan pedaqogikasında təhlillərin sfera və diopazonu genişləndirir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikasının Prezidentinin 15 iyun 1999-cu il tarixli sərəncamı.
2. Əliyev İlham "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında sərəncamı". Bakı şəhəri, 31 yanvar 2008-ci il.
3. Abbasova S., Paşayeva P. Heydər Əliyev və Azərbaycanda təhsil islahatı. "Linqvistika problemlər" Beynəlxalq elmi jurnal, xüsusi buraxılış, Bakı, 2023, № 2, s.31-37.
4. Ağazadə Ş. Ümumtəhsil məktəbin Azərbaycan dili dərslərində "Ədəbiyyat" kitabları üzrə bədii materiallar əsasında antonimlərin interaktiv metola öyrədilməsi yolları. "Filologiya məsələləri" jurnalı. Bakı, "Elm və təhsil", 2019, № 6, s. 127-132.
5. Littlewood W. 1981. Communicative language Teaching. Cambridge University Press.
6. Курвиг П.Б. Основы обучения устной речи на языковых факультетах. Владимир 1974, стр. 201.

7. Abbasova S. İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim metodları. Bakı, 2015, 103 s.
8. Krashen S.D. Explorations in language Acquistion. Heinlmann, 2003.

Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir – Qrant № AEF – MCG -2022-1 (42)-12/12/5-M-12

Redaksiyaya daxil olma tarixi: 13.06.2023
Çapa qəbul olunma tarixi: 30.06.2023
Rəyçi: dos., f.ü.f.d.,
Məhərrəmova Gülşən Akif qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

İÇİNDƏKİLƏR:

ÜLVİYYƏ HACIYEVA
QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSISƏLƏRİNİN AVROPA ALİ TƏHSİL MƏKANINA UYĞUNLAŞDIRILMASI PROSESİNDƏ TƏLİMƏ KONSEPTUAL YANAŞMANIN METODOLOJİ ƏHƏMİYYƏTİ 3

MƏMMƏDOVA SVETLANA NƏSİB QIZI
THE MAIN DIFFERENTIAL FEATURES OF PHRASEOLOGICAL UNITS. 9

ELMİRA NADİR QIZI ƏSGƏROVA
MÜASİR İNGİLİS DİLİNDƏ BAĞLAYICI FEİLLƏR 15

NAZDI V. HƏSƏNOVA
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ PLANLAŞDIRMA HAQQINDA..... 24

AYNUR VIDADI QIZI SƏFƏROVA
QEYRİ-VERBAL ÜNSİYYƏTİN TƏDQİQİ TARİXİ..... 35

FİKRƏT SÜLEYMANOĞLU
CƏNUBİ AZƏRBAYCANDA ANA DİLİ MƏSƏLƏSİ 46

SONA VƏLİYEVA
QARABAĞ MƏDƏNİYYƏTİ KONSEPTİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ..... 54

SAFFET ALP YILMAZ
AZƏRBAYCAN TÜRKCƏSİNDƏ AT VƏ ATÇILIQLA BAĞLI TERMİNLƏR 64

SEVİNC MUSTAFA KAMAL QIZI MİRZƏYEVA
XALQ NAĞILLARINA İSTİNADƏN FORMALAŞMIŞ VƏ ELMİ TERMİNOLOGİYAYA DAXİL OLAN FRAZEOLOGİZMLƏR HAQQINDA..... 72

HÜSEYNOVA ƏSMƏR MEHMAN QIZI
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ VAHİDLƏRİN FUNKSİYA ÜZRƏ TƏSNİFATI VƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ..... 82

DÜRDANƏ NAĞIYEVA,
TOTEM ANLAYIŞLI TOPONİMLƏRİN PARALELLİYİ..... 89

AXUNDOVA GÜLŞƏN
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ ETNOQRAFİK SƏCİYYƏLİ GEYİM ADLARINDA NOMİNASIYA NÖVLƏRİ 95

НАСИРАГА ШАХМУРАД ОГЛУ МАМЕДОВ
ТЕМА КАК ФАКТОР СМЫСЛОВОГО ЕДИНСТВА ТЕКСТА 102

SEVİL NƏCƏFOVA
PUBLİSİSTİK ÜSLUB VƏ XÜSUSİYYƏTLƏRİ 110

ƏLİYEVA TƏRANƏ QURBAN QIZI
GÜRCÜ YAZISININ MƏNŞƏYI 116
RAHİMOVA GULNARA
IS SIGN LANGUAGE ONLY A MATTER OF MAKING SIGNS WITH THE HANDS?
.....126

MƏMMƏDOVA ZENFİRA ƏLƏKBƏR QIZI
İNGİLİS DİLİNDƏ TOPONİMLƏR VƏ ONLARIN İNGİLİS BƏDİİ ƏSƏRLƏRİNDƏ İŞLƏNMƏSİ 132

MƏMMƏDOVA ELNARƏ Adil qızı
İMANOVA İRADƏ İSA qızı
HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN DİLININ İNKİŞAFI ÜÇÜN GÖRDÜYÜ IŞLƏR
.....138

NƏRGİZ MƏDƏTOVA
İSPAN DİLİNDƏ İNKARLIQ KATEQORİYASI.....145

MUSTAFAYEVA G.Ş.
LATIN DİLİNİN DİGƏR DİLLƏRƏ TƏSİRİ VƏ ONDAN TÖRƏYƏN ROMAN DİLLƏRİNİN ARAŞDIRILMASI 151

RƏHİMƏ QƏDİR QIZI MƏMMƏDOVA
İSPAN DİL NORMASI VƏ LİNQVİSTİK VARİATİVLİK ANLAYIŞI HAQQINDA ARAŞDIRMALAR.....157

ALLAHVERDIYEVA JALƏ CƏBRAYIL QIZI
BÖYÜK BRİTANİYA: DİL VƏ ƏDƏBİYYAT 167

PƏRVİNƏ KƏRİMOVA
ŞƏKİLÇİLƏR VASİTƏSİLƏ TÖRƏYƏN SİFƏTLƏR.....176

İRADƏ CƏFƏROVA İRAC QIZIl
IRADƏ İSGENDERZADƏ ABDUL QIZI
ÜMUMDİLÇİLİK SİSTEMİNDƏ BİLİNQVİZMİN VƏ MONOLİNQVİZMİN KOORDİNATİV VƏ SUBKORDİNATİV XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ 186

LARISA VLADIMIROVNA KOLESNIKOVA
НАРРАТИВ ТЕКСТА 193

CƏMİLƏ RƏHİM QIZI AĞAMALIYEVA
İLLOKUTİV-PERLOKUTİV CÜMLƏLƏRDƏ ELLİPSİSLƏRİN PRAQMATİK XÜSUSİYYƏTLƏRİ 200

NÜŞABƏ HAQVERDI QIZI HƏSƏNOVA
SÖZÖNÜLƏRİN LEKSİK-SEMANTİK MƏNASI 208

URUFOVA ZƏRİDƏ SƏXAVƏT
SÖZ, CÜMLƏ VƏ NİTQ 214

ARZU DADAŞOVA
TÜRK TARİXİ ROMANININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİ.....219

SEVİNC HÜMBƏTƏİYEVA MÜBARİZ QIZI
KÖNÜL İBRAHİMOVA TARİYEL QIZI
AZƏRBAYCAN DİLİ TERMİNOLOGİ SİSTEMİNİN GENİŞLƏNDİRİLMƏSİ VƏ ZƏNGİNLƏŞDİRİLMƏSİ YOLLARI HAQQINDA.....229

LALƏ ƏSƏDOVA
ALİ MƏKTƏBLƏRİN YUXARI KURSLARINDA İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ YOLLARI..... 236

ZEYNƏB ARABOVA
ALİ MƏKTƏBLƏRDƏ XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ MÜASİR YANAŞMALARIN TƏTBİQİ ÜSULLARI.....243

LƏTAFƏT ƏLİYEVA
EMOSİONAL İNTONASİYANIN KOMMUNİKATİV FUNKSİYASI.....249

GÜLÇIN SOFIYEVA
AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN SADƏLƏŞMƏSİ 260

SƏFİXANOVA AFƏT,
HƏSƏNOVA REYHAN,
QULAMOVA ELVİNA
MÜASİR DİLÇİLİKDƏ İSİMLƏŞMİŞ SİFƏTLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İŞLƏNMƏ YERİ.....270

GÜLÇIN SOFIYEVA
AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN SADƏLƏŞMƏSİ 276

AYNUR MƏMMƏD QIZI MƏMMƏDOVA
GRAMMAR AS THE BACKBONE OF LANGUAGE.....286

RƏCƏBOVA NƏRMİNƏ NƏRMAN QIZI
KOMMUNİKATİV YANAŞMA VƏ ONUN YARANMA TARİXİ.....291

AYGÜN QOCAYEVA
XARİCİ DIL KIMI FRANSIZ DILINDƏ TƏDRIS METODLARI 303

ƏLIYEVA NİGAR NIZAMƏDDIN QIZI
SÖZÜN QAVRANILMASININ BƏZİ ASPEKTLƏRİ
(İNGİLİS DİLİNDƏ MİNİMAL
CÜTLƏRİN MATERİALLARI ƏSASINDA) 311

ESMİRA MƏMMƏDOVA
PREDİKATİVLİYİN İFADƏ VASİTƏLƏRİ 319

GULNARA RƏHİMOVA
ALL ABOUT NEURO-LINGUISTIC PROGRAMMING 325

EMİNOVA AYNURƏ FAMIL QIZI
VƏTƏNPƏRVƏRLİK VƏ KONSEPT ANLAYIŞLARI HAQQINDA 334

ŞƏBNƏM SEYİDZADƏ
MÜASİR İNGİLİS DİLİNİN İNTONASİYASI
HAQQINDA ÜMUMİ QEYDLƏR 341

ƏDƏBİYYATŞÜNASLIQ

AVTANDİL AĞBABA
USTAD AŞIQ MURAD ÇOBANOĞLU 348

NAMAZOVA FLORA KAMRAN QIZI
İLYAS ƏFƏNDİYEV VƏ AZƏRBAYCAN DRAMATURGİYASI 355

BİLAL HÜSEYNAĞA OĞLU HÜSEYNOV,
AĞBABA, İRƏVAN, GÖYÇƏ VƏ QARAQOYUNLU
FOLKLORUNDA JANRDAXİLİ DƏYİŞMƏLƏR..... 361

YEGANƏ HÜSEYNOVA
İSGƏNDƏRİN "ZÜLMƏT SƏLTƏNƏTİ"NƏ QARŞI MÜBARİZƏSİ 371

ƏHMƏDOVA AYGÜN ŞÜKÜR QIZI
ABDULLA ŞAİQİN ƏDƏBİ YARADICILIĞI 380

ƏLİYEVA TƏRLAN ƏLİŞ QIZI
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRİN İNTERPRETASİYASI.
ŞƏRHETMƏNİN METODİK İMKANLARI..... 387

ARZU DADAŞOVA
TÜRK TARİXİ ROMANININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİ..... 396

AYŞƏN FAZİL QIZI QASIMOVA – MUSTAFAYEVA
RAMİZ RÖVŞƏNIN NƏSR DILINDƏ LEKSIK TƏKRARLARIN QƏDIM TÜRK
POETIK ƏNƏNƏSI..... 404

VÜSALƏ NƏSİBOVA
SAÇ VƏ TÜKLƏ BAĞLI İNANCLAR 414

SOLMAZ NURİYEVA
İCMAL MÖVZULARININ ÖYRƏDİLMƏSİNİN ƏHƏMİYYƏTİ
VƏ YOLLARI 420

BABA ƏLİBABAOĞLU
TÜRK DASTAN ƏNƏNƏSİ VƏ "KİTABİ-DƏDƏ QORQUD"DA MÖVZU,
MOTİV PARALELLƏRİ 426

MÜNƏVVƏR İSMAYIL QIZI MƏMMƏDOVA
MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TƏFƏKKÜR VƏ
ONUN İNKİŞAFI YOLLARI..... 436

RAMİL ƏHMƏDOV
OSMANLI DÖVRÜNDƏ MƏTBUAT VƏ ƏDƏBİYYAT ƏLAQƏLƏRİ:
1839-1910-CU İLLƏR NÜMUNƏSİNDƏ 443
NİGAR AĞAYEVA
GƏLƏCƏYİN İNTELLEKTUAL TƏSVİRİ: A.KLARKIN YARADICILIĞINA BİR
BAXIŞ..... 450

AĞAYEV RAHİB MƏMMƏDAĞA OĞLU
GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBIYƏSİ 457

NAZƏNDƏ SABIR QIZI HACIYEVA
"ÖLÜLƏR" C.MƏMMƏDQULUZADƏ DRAMATURGİYASININ ŞAH ƏSƏRİ KİMİ 466

MUSAYEVA CAHAN CABBAR QIZI
MÜASİR QİYMƏTLƏNDİRMƏYƏ DAİR YENİ YANAŞMALAR HAQQINDA 474

TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ
ALQIŞ VƏ QARĞIŞLARIN XÜSUSİYYƏTLƏRİNƏ DAİR 483

SABİR ƏSƏDOV
CƏNUBİ AZƏRBAYCAN POEZİYASININ İRAN İSLAM İNQİLABINDAN SONRAKI DÖVRDƏ ÜMUMİ MƏNZƏRƏSİ 490

QASIMOVA MİRVARİ MƏMMƏD QIZI
QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN AVROPA ALİ TƏHSİL MƏKANINA İNTEQRASİYASI İNSAN KAPİTALINA YÖNƏLDİLMİŞDİR 499

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 30.06.2023
Şərti çap vərəqi 31,5. Sifariş № 289
Kağız formatı 60x84 1/8. Tiraj 500

Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4